# AZƏRBAYCAN DİLİ

tədris dili

METODİK VƏSAİT 5



**Rafiq İsmayılov**
**Şəhla Zahidova**
**Ülkər Nurullayeva**
**Aysel Xanalıyeva**
**Reyhan Həbibli**

Ümumi təhsil müəssisələrinin **5**-ci sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(tədris dili)*

fənni üzrə dərsliyin

METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**trm@arti.edu.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# İÇİNDƏKİLƏR

**Giriş:**
1. Orta ümumi təhsilin əvvəlində şagirdlərin nitq bacarıqları və dil bilgiləri ....................... 3
2. Dərslik komplektinin məzmun-struktur konsepsiyası ................................................ 6
3. Məzmun standartları və onların reallaşdırma yolları ..................................... 8
4. I yarımildə məzmun xətlərinin tədris vahidləri üzrə bölgüsü ................................. 14
II yarımildə məzmun xətlərinin tədris vahidləri üzrə bölgüsü ................................. 16
5. Şagird nailiyyətlərinin qiymətləndirilməsi . 18

**Dərslərin şərhi:**

**1-ci bölmə. Fərd və toplum**
1. Uğurun sirri ........................................ 20
2. Orxan və Təpəl ................................... 26
3. Jan Valjan ............................................ 31
4. Sözün qüdrəti ...................................... 37

**2-ci bölmə. Mənəvi dəyərlər**
1. Bilirdim ki, gələcəksən ........................ 45
2. “8” rəqəmi və tariximiz ........................ 51
3. Təcili qan lazımdır .............................. 58
4. Ad günü hədiyyəsi ............................... 62

**3-cü bölmə. Ana təbiət**
1. Yazın oğlan çağında ............................. 71
2. Ağac əkən adam ................................. 77
3. Ağıllı canlılar ....................................... 83
4. Meşə simfoniyası ................................ 90

**4-cü bölmə. Niyə belə deyirik?**
1. Qədim yunan sözləri ........................... 97
2. Hacı Qara ........................................... 102
3. Onlar kimdir? ...................................... 108
4. Bəs zınqırovu kim asacaq? .................. 113

**5-ci bölmə. Özünə inan**
1. Ala-bəzək torba .................................. 121
2. Əlvida, “bilmirəm”! ............................. 127
3. Elektron ünvanım olsaydı... ..................134
4. Sonuncu düym ................................... 138

**6-cı bölmə. Səyahət**
1. Balaca Qara Balıq ................................ 147
2. Səyahətnamə ...................................... 153
3. Qadın səyyahlar ................................. 160
4. Azərbaycan səyyahların gözü ilə .......... 166

**7-ci bölmə. İdman və sağlamlıq**
1. Fiziki məşqlər və insan orqanizmi ........ 173
2. Çempion ola bilərəm? .......................... 176
3. İdmançı xarakteri ................................ 181
4. Marafon: Afinadan Bakıya .................... 185

**8-ci bölmə. Tarixdə qadınlar**
1. Qədim türklərdə qadınlar .................... 192
2. Sara xatun .......................................... 197
3. Savadlı qadın – savadlı millət ............... 204
4. Cığır açan qadınlar (divar qəzeti) .......... 209

# GİRİŞ

## 1. Orta ümumi təhsilin əvvəlində şagirdlərin nitq bacarıqları və dil bilgiləri

Yeni təhsil səviyyəsinə başlayarkən tədrisin səmərəliliyini təmin etmək üçün şagirdlərin əvvəlki təhsil səviyyəsində əldə etdikləri bilik və bacarıqlara bələd olmaq vacibdir. Aşağıda 5-ci sinfə qədəm qoyan şagirdlərin müxtəlif məzmun xətləri üzrə bilik və bacarıqları haqqında ümumi məlumat verilir. Qeyd etmək lazımdır ki, ibtidai təhsil dövründə bu bilik və bacarıqlar müvafiq **yaş qrupuna uyğun formada** və **sadə nitq materialı** (söz, cümlə, mətn və s.) **əsasında** formalaşdırılır.

**Dinləmə**

Şagird:

• Dinləmə qaydalarına (diqqətli olmaq, danışanın sözünü kəsməmək və s.) bələddir;

• Müxtəlif səpkili bədii və qeyri-bədii mətnləri dinləyərkən açar sözləri qeyd edir, öz qeydlərini təqdim edilmiş yaddaş xəritəsi üzrə qruplaşdırır;

• Müzakirə və ya debat zamanı tərəflərin mövqelərinə adekvat reaksiya verir.

**Danışma**

Şagird:

• Müxtəlif mövzular üzrə dialoqa girir, fikirlərini əsaslandırır;

• Verbal və qrafik (şəkil, sxem, xəritə və s.) materialları şərh etməklə mövzu üzrə danışır;

• Oxuduğu və ya dinlədiyi mətnləri nəql edir;

• Danışarkən öyrəndiyi dil qaydaları çərçivəsində ədəbi dilin normalarına riayət edir.

**Söz ehtiyatı**

Şagird:

• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyənləşdirir;

• Söz və ifadələrin həqiqi və məcazi mənalarını izah edir;

• Sözün mənasını müəyyənləşdirmək üçün lüğətdən istifadə edir;

• Sözün mənasını sinonim və antonimlərin köməyi ilə izah edir.

***Qeyd**: İbtidai təhsil səviyyəsində şagirdlər Azərbaycan dili dərslərində 1000-ə yaxın yeni söz mənimsəyirlər. Bu səviyyənin sonunda onların söz ehtiyatının 4000-ə yaxın olduğu ehtimal edilir. Bunlardan təxminən 2500-ü fəal söz ehtiyatıdır. Azərbaycan dili fənni üzrə mənimsədilmiş akademik söz ehtiyatının siyahısı vəsaitin 5-ci səhifəsində verilir.*

**Oxu**

Şagird:

• Bədii və qeyri-bədii mətnləri fərqləndirir;

• Nəzmi nəsrdən fərqləndirir;

• Bədii mətndəki əsas obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir;

• Qeyri-bədii mətndə mövqe və arqument arasındakı əlaqəni müəyyənləşdirir;

• Mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən edir;

• Mətni tərkib hissələrinə ayırır;

• Mətnin ideyasını əks etdirən əsas obraz və epizodları müəyyənləşdirir;

• Mətndəki fakt, hadisə və obrazlara münasibət bildirir;

• Mətnin məzmununa yaradıcı yanaşmaqla onu dəyişdirir və ya genişləndirir.

**Yazı**

Şagird:

• Dinlədiyi, oxuduğu, həyatda gördüyü hadisə və faktlar əsasında mətn yazır;

• Mühakimə və arqumentlərini əks etdirməklə kiçikhəcmli esse yazır;

- Oxuduğu mətn haqqında rəy yazır;
- Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli sadə qeyri-bədii mətn yazır;
- Mövzu ilə bağlı verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır;
- Qrafik informasiyanı yazıda rabitəli mətn şəklində təqdim edir;
- Fakt, hadisə və fikirləri mətnin abzas və hissələri üzrə strukturlaşdırır.
- Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir.

**Dil qaydaları**

Şagird **orfoqrafiya qaydaları** üzrə aşağıdakı bilik və bacarıqları nümayiş etdirir:

***Qeyd**: İbtidai təhsil səviyyəsində şagirdlər bir sıra sadə orfoqrafik normaları mənimsəyirlər. Bu səviyyədə orfoepiya normalarına toxunulmur. Məlumdur ki, yazıda daha çox deyilişi və yazılışı fərqlənən sözlərdə səhvə yol verilir. Bu baxımdan bəzi sözlərin deyilişə uyğun yazılışı orfoqrafik xəta kimi təqdim edilir:*

- Sözlərdə sait və samitlərin düzgün yazılışı ilə bağlı sadə qaydalara əməl edir;
- Xüsusi isimlərin böyük hərflə yazılış qaydasına əməl edir;
- Mürəkkəb sözlərin bitişik və defislə yazılış qaydalarına əməl edir;
- Azaltma və çoxaltma dərəcəsində işlənən sifətlərin yazılış qaydalarına əməl edir;
- Köməkçi nitq hissələrinin bitişik və ayrı yazılış qaydalarına əməl edir;
- Sayların söz və rəqəmlə yazılış qaydalarına riayət edir.

Şagird sözlərin leksik-qrammatik xüsusiyyətləri (**morfologiya**) ilə bağlı aşağıdakı bilik və bacarıqları nümayiş etdirir:

- Sözün leksik və qrammatik mənasını fərqləndirir;
- Əsas nitq hissələrinin ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir;
- Köməkçi nitq hissələrinin ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir;
- Sözü kök və şəkilçiyə ayırır; leksik və qrammatik şəkilçiləri fərqləndirir;
- Bir çox şəkilçilərin ahəng qanununa uyğun olaraq çoxvariantlı olduğunu müəyyən edir;
- Sözləri quruluşuna görə fərqləndirir.

Şagird söz birləşməsi və cümlə (**sintaksis**) ilə bağlı aşağıdakı bilik və bacarıqlara malikdir:

- Söz birləşmələrini söz və cümlədən fərqləndirir;
- Söz birləşmələrini növünə görə (feili və ismi birləşmələr) bir-birindən fərqləndirir;
- Cümlənin məqsəd və intonasiyaya görə növünü müəyyən edir;
- Cümlənin qrammatik əsasını (mübtəda və xəbəri) müəyyənləşdirir;
- Mürəkkəb cümlənin tərkib hissələrini müəyyən edir.

Şagird bir sıra durğu işarələrindən istifadə qaydalarına (**punktuasiya**) riayət edir:

- Məqsəd və intonasiyadan asılı olaraq, cümlə sonunda müvafiq durğu işarələrindən istifadə edir;
- Mürəkkəb cümlənin tərkib hissələri və sadalanan cümlə üzvləri arasında vergül işarəsindən istifadə edir;
- Dialoqlarda iki nöqtə və tire işarələrindən istifadə edir;
- Bir sıra durğu işarələrinin (dırnaq, mötərizə) sadə funksiyalarını izah edir.

Şagird bir sıra **leksik kateqoriyaları** fərqləndirir:

- Sinonim və antonimlərin nitqdə rolunu izah edir;
- Sözün həqiqi və məcazi mənalarını fərqləndirir;
- Çoxmənalı sözləri omonimlərdən fərqləndirir;
- Frazeoloji birləşmələri sərbəst söz birləşmələrindən fərqləndirir.

*Nəzərə almaq lazımdır ki, dilin tədrisinə müasir yanaşma yalnız dil qaydalarının öyrədilməsini deyil, həm də nitq bacarıqlarının formalaşdırılmasını və inkişafını tələb edir. Bu isə yalnız dilçilik deyil, ümumiyyətlə, filologiya üzrə bir sıra termin və anlayışların mənimsədilməsini nəzərdə tutur.*

**İbtidai təhsil mərhələsində şagirdlər aşağıdakı filoloji anlayışları və akademik sözləri mənimsəyirlər:**

abzas
açar söz
adlıq hal
aforizm
ahəng qanunu
alqış
anket
annotasiya
antonim
arqument
atalar sözü
bağlayıcı
baş qəhrəman
başlıq
bayatı
bədii mətn
bənd
bənzətmə
cədvəl
cümlə
cümlə üzvü
cümlənin əsası
çıxışlıq hal
çoxmənalı söz
dastan
daxili əlifba
defis
dırnaq işarəsi
dialoq
dodaqlanan sait
dodaqlanmayan sait
durğu işarəsi
düzəltmə söz
elan
elmi-fantastik əsər
ensiklopediya
epizod
esse
ədat
əfsanə
əlifba
əmr cümləsi
əsas nitq hissəsi
feil
feili birləşmə
feili xəbər
frazeoloji birləşmə
gündəlik
haşiyə
heca
hekayə
hekayə xəritəsi
hekayət
həqiqi məna
hərf
hikmət
xarakter
xəbər
xronologiya
xüsusi isim
ideya
ixtisar
ikinci dərəcəli cümlə üzvü
incə sait
isim
ismi birləşmə
ismi xəbər
istinad
işarə əvəzliyi
izahlı lüğət
jest
kəlam
konkret isim
köməkçi nitq hissəsi
qafiyə
qalın sait
qaravəlli
qeyri-bədii mətn
qoşma
qrammatik məna
lakonik ifadə
leksik məna
lətifə
lüğət
məcazi məna
mənbə
məsəl
məzmun
mifik obraz
miqdar sayı
mimika
misra
modal söz
mötərizə
mövzu
mübaliğə
mübtəda
mücərrəd isim
müəllif
mühakimə
mülahizə
mündəricat
mürəkkəb ad
mürəkkəb cümlə
mürəkkəb söz
müsahibə
nağıl
nəqli cümlə
nida cümləsi
nitq hissələri
nöqtə
obraz
omonim
orfoqrafik norma
plakat
rəvayət
rəy
ritm
sait
samit
şeir
şəkilçi
şərh
sərlövhə
səs
sətir
sıra sayı
sifət
sinonim
sitat
söz
söz birləşməsi
sözün kökü
ssenari
sual cümləsi
sual əvəzliyi
şəxs adları
şəxs əvəzliyi
şəxsləndirmə
şüar
tapmaca
termin
təxəyyül
təmsil
təsirlik hal
tire
üç nöqtə
ümumi isim
vergül
yarımbaşlıq
yer adları
yerlik hal
yiyəlik hal
yönlük hal
zərf

## 2. Dərslik komplektinin məzmun-struktur konsepsiyası

**Dərsliyin məzmun iyerarxiyası: bölmə – fəsil – dərs**

Ümumi təhsil müəssisələrinin 5-ci sinifləri üçün Azərbaycan dili dərsliyi 1-ci və 2-ci yarımil üçün nəzərdə tutulmuş iki hissədən, ümumilikdə 8 tədris vahidindən – bölmədən ibarətdir. Hər yarımil üçün 4 bölmə nəzərdə tutulmuşdur.

Bölmə dörd fəsil və ümumiləşdirici təkrardan ibarətdir. Dərsliyin hər bir hissəsinin sonunda "Söz boğçası" rubrikasında verilmiş sözlərin izahı təqdim olunur.

Dərslikdə ən kiçik məzmun vahidi fəsildir. O, əsasən, beş (bəzən dörd) dərsi əhatə edir. Fəsli təşkil edən dərslərdə müəyyən mövzu zəminində bütün məzmun xətləri üzrə nitq bacarıqlarının inkişafı üçün materiallar verilir. Ona görə də dərsliyin məzmun kompozisiyası haqqında danışarkən ayrı-ayrı dərsləri deyil, ümumilikdə fəsli təşkil edən mərhələlərdən danışmaq lazım gəlir. Hər dərs müəyyən bir mərhələni əhatə edir, ona görə də onu müstəqil məzmun vahidi kimi qəbul etmək düzgün olmazdı.

Bununla belə, dərslər müəyyən məzmun standartlarının reallaşması baxımından bitkin xarakter daşıyır. Fəsillər, əsasən, aşağıdakı şəkildə strukturlaşır:

1-ci dərs a) oxuya stimullaşdırma (motivasiya); b) oxu prosesi; c) mətn və yeni sözlərlə iş mərhələlərindən ibarətdir. Mətnin faktoloji baxımdan qavranılmasını yoxlamaq üçün tapşırıqlar, adətən, iş dəftərində verilir.

2-ci dərsdə mətnin daha dərindən qavranılması üçün fəaliyyət (nəqletmə, şərhetmə, ümumiləşdirmə, yaradıcı yanaşma) həyata keçirilir. Bu fəaliyyət oxu və danışma bacarıqlarının sıx inteqrasiyası şəklində baş verir.

3-cü dərsdə mövzu ilə bağlı dinləmə mətni təqdim olunur. Şagirdlər oxuduqları və dinlədikləri mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edirlər.

4-cü dərs yazı bacarığının inkişafına xidmət edir (esse, mətnin təxəyyülə uyğun davam etdirilməsi, yazılı təqdimat materialı, sadə bədii mətn, əsər qəhrəmanına məktub və s.).

5-ci dərsdə dil qaydaları üzrə öyrədici material və möhkəmləndirici tapşırıqlar verilir.

Bu struktur hər bir fəsildə müxtəlif məzmun xətlərinə aid standartların taksonomiyanın mərhələlərinə uyğun reallaşdırılmasına imkan yaradır.

**Rubrikalar**

Dərslikdə tapşırıqlar müvafiq rubrikalar altında verilir. Bu rubrikalar haqqında məlumat dərsliyin 5-ci səhifəsində təqdim olunur. Şagirdlər onların əksəriyyəti ilə ibtidai təhsil dövründən tanışdırlar. "Qlossari" rubrikasına xüsusi diqqət yetirmək, bu sözün izahını vermək tövsiyə olunur: müəyyən elm sahəsinə aid terminlərin (şagirdlər "termin" anlayışı ilə tanışdırlar) izahlı lüğəti. Bu rubrikanı "Söz boğçası" rubrikasından fərqləndirmək lazımdır. "Söz boğçası"nda mətndə rast gəlinən yeni sözlərin siyahısı verilir. Mətn oxunduqdan sonra (bəzən əvvəl) bu sözlərlə bağlı iş aparılır. Həmin sözlərin izahı kitabın sonundakı "İzahlı sözlük"də verilir. "Qlossari"də isə tədris materialını mənimsəmək üçün müəyyən filoloji anlayış izah olunur.

Orta məktəb Azərbaycan dili dərslikləri üçün yeni rubrikalardan biri də "Diqqət et" rubrikasıdır. Burada nitq bacarıqlarının inkişafı texnologiyasını açıqlayan tövsiyələr əks olunur.

**Dizayn**

Dərslikdə bölmələr rənglə fərqləndirilir.

Hər bir fəsil üçün dörd səhifə (iki qoşasəhifə) ayrılır. 1-ci qoşasəhifədə oxu üçün mətn, söz ehtiyatı üzrə iş və oxuyub-anlama üzrə tapşırıqlar yer alır. 3-cü səhifədə dinləmə, danışma, yazı fəaliyyəti üçün çalışmalar verilir.

Dinləmə üçün nəzərdə tutulmuş mətnlər metodik vəsaitdə və trims.edu.az saytında təqdim

## 3. Məzmun standartları və onların reallaşdırması yolları

Aşağıda 5-ci sinif üçün nəzərdə tutulan nitq bacarıqları və dil bilgiləri müvafiq məzmun xətləri üzrə təsnif olunmuşdur. Qeyd etmək lazımdır ki, bu təsnifat struktur və konkretlik baxımından mövcud fənn kurikulumundan müəyyən qədər fərqlənsə də, mahiyyət və konseptual yanaşma baxımından eynidir. Əsas fərqlər aşağıdakılardır:

1. Əsas standartlar (göy rənglə verilmişdir) daha konkret ifadə olunmuşdur.
2. "Söz ehtiyatı" standartı "Oxu" məzmun xəttindən "Dil qaydaları" məzmun xəttinə keçirilmişdir. Belə ki, 1) söz ehtiyatı bütün nitq bacarıqları üçün vacib olan amildir; 2) leksikologiya dilçiliyin sahələrindən biridir və onu yalnız "Oxu" məzmun xətti ilə məhdudlaşdırmaq düzgün olmazdı.
3. Altstandartlar müəyyən açıqlamalar – təlim nəticələri ilə müşayiət olunmuşdur ki, onlar standartın komponentlərini və ya onun reallaşmasına doğru aparan yolları ifadə edir.
4. Təqdim olunan məzmun standartlarında nitq bacarıqları və dil bilgilərinin (xüsusilə oxu, yazı və dil qaydaları üzrə) daha geniş spektri əks olunmuşdur ki, bu da tədris prosesini daha səmərəli qurmağa, daha rəngarəng çalışma modellərindən istifadə etməyə imkan verir.

## 5-1. DİNLƏMƏ VƏ DANIŞMA

### 5-1.1. Dinləyib-anlama. Dinlədiyi məlumatı anlayır, izah edir və münasibət bildirir.

**5-1.1.1. Mətni dinləyərkən əsas faktları (adlar, tarixlər və s.) qeyd edir.**

- Dinlədiyi mətnlə bağlı suallar tərtib edir.
- Mətni dinləyərkən açar sözləri qeyd edir.
- Dinlədiyi mətnlə bağlı sualları cavablandırır.
- Dinlədiyi mətndəki məlumatları (obraz, hadisə, zaman, məkan, fakt) müəyyənləşdirir

**5-1.1.2. Dinlədiyi mətni mövzu, məzmun, struktur və ideya baxımından şərh edir.**

- Dinlədiyi mətni mövzu, məzmun, struktur və ideya baxımından şərh edir.
- Dinlədiyi mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirir.
- Dinlədiyi mətndəki hadisələrin ardıcıllığını müəyyən edir.

**5-1.1.3. Dinlədiyi mətndəki obrazlara münasibətini əsaslandırır.**

- Dinlədiyi bədii mətndə obrazların davranışına münasibət bildirir.
- Dinlədiyi bədii mətndəki epizodlardan çıxış edərək obrazlara münasibətini əsaslandırır.

### 5-1.2. Dialoji nitq. Müzakirə və dialoqlarda dinlədiyi fikirlərə adekvat reaksiya verir.

**5-1.2.1. Mövzu üzrə araşdırdığı məlumatlar və tərtib etdiyi suallar əsasında dialoq qurur.**

- Müsahibə almaq üçün mövzuya uyğun suallar tərtib edir.

**5-1.2.2. Müzakirə və debatlarda mövzu ilə bağlı mülahizələrini söyləyir, mühakimə yürüdür, başqalarının fikirlərinə münasibət bildirir.**

- Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır.
- Müzakirə zamanı mövzu ilə bağlı mülahizələrini söyləyir, mühakimə yürüdür.
- Müzakirədə səslənən fikirləri əlavə bilikləri ilə müqayisə edir və problemə münasibətini bildirir.

### 5-1.3. Rabitəli nitq. Hər hansı mövzuda danışarkən rabitəli nitq nümayiş etdirir.

**5-1.3.1. Oxuduğu və dinlədiyi mətnləri tərtib etdiyi plan əsasında nəql edir.**

- Dinlədiyi və ya oxuduğu mətni plan əsasında nəql edir.
- Mətni tərtib etdiyi plan və götürdüyü qeydlər əsasında nəql edir.

**5-1.3.2. Əldə etdiyi məlumatları rabitəli şəkildə təqdim edir.**
• Əldə etdiyi məlumatları ümumiləşdirərək təqdimat edir.
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını, apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir.
• Verbal-qrafik materialları (şəkil, sxem, cədvəl, məlumat vərəqi, xəritə və s.) şərh etməklə rabitəli mətn qurub danışır.
• Mövzu üzrə apardığı araşdırma əsasında hazırladığı təqdimat materialını rabitəli şəkildə təqdim edir.

### 5-1.4. Ədəbi dilin normaları və ekspressiv nitq.
### Danışarkən ədəbi dilin normalarına əməl edir və ekspressiv nitq nümayiş etdirir.

**5-1.4.1. Şifahi nitqində orfoepiya normalarına (sözlərdə sait və samitlərin tələffüzü) riayət edir.**

**5-1.4.2. Danışarkən məzmuna uyğun intonasiyadan istifadə edir.**
• Mətni nəql edərkən təhkiyəçinin və obrazların nitqini fərqli səs tonu ilə ifadə edir.

## 5-2. OXU

### 5-2.1. Faktoloji qavrama. Oxuduğu mətndəki məlumatları müəyyənləşdirir.

**5-2.1.1. Bədii və qeyri-bədii mətnləri oxuyarkən müvafiq səs tonu seçir.**
• Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir.
• Durğu işarələrini nəzərə almaqla bədii mətni müvafiq səs tonu ilə oxuyur.
• Mətni oxuyarkən sözləri düzgün tələffüz edir və məzmuna uyğun səs tonu seçir.

**5-2.1.2. Mətndə açıq şəkildə ifadə olunmuş məlumatları (obraz, hadisə, zaman, məkan, fakt) müəyyənləşdirir.**
• Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir.
• Mətndəki obrazları xarakterizə edir.
• Suallara cavab verməklə mətni mənimsədiyini nümayiş etdirir.
• Qeyd götürməklə mətni oxuyur.
• Xronoloji ardıcıllığı müəyyənləşdirir.
• Verbal-qrafik informasiyanı (məlumat vərəqi, cədvəl, sxem) mənimsədiyini nümayiş etdirir

**5-2.1.3. Kontekstdən (söz birləşməsi, cümlə) çıxış edərək mətndə tanış olmayan söz və ifadələrin mənasını müəyyən edir.**
• Mətni oxuyarkən rast gəldiyi yeni söz və ya ifadəni cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir.
• Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını izah (təxmin) edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir.
• Çoxmənalı sözün və ya omonimin mətndəki mənasını digər mənalarından fərqləndirir.

### 5-2.2. Şərhetmə və əlaqələndirmə. Mətndə açıq şəkildə ifadə olunmayan informasiya haqqında fikir yürüdür.

**5-2.2.1. Mətndə fikirlər, faktlar və hadisələr arasındakı əlaqəni müəyyən edir.**
• Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir.
• Mətnin hissələrini əlaqələndirməklə ümumi məzmun və obrazlar barədə fikir yürüdür.

**5-2.2.2. Mətndəki məlumatlardan çıxış edərək sətiraltı fikir və informasiyanı müəyyən edir.**
• Mətndəki faktlardan istifadə etməklə müəllifin birbaşa ifadə etmədiyi fikirləri müəyyənləşdirir.

## 5-2.3. Tənqidi təfəkkür və yaradıcı yanaşma. Mətni ideya, məzmun, struktur və dil-üslub baxımından təhlil edir.

**5-2.3.1. Mətndəki hadisələr və obrazların davranışına əsasən ideyanı müəyyən edir.**
• Bədii mətndəki hadisələrə və obrazların davranışına əsasən ideyanı müəyyən edir.
• Mətndəki obrazları xarakterizə edir.
• Mətnin əsas ideyasını atalar sözləri və ya aforizmlərlə əlaqələndirir.
• Mətndəki obrazla bağlı məlumatlar əsasında obraz xəritəsi tərtib edir.

**5-2.3.2. Mətndəki faktlardan çıxış edərək fikirləri şərh edir.**
• Müəllifin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir.
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə gəldiyi nəticələri əsaslandırır.
• Mətndəki faktları ümumiləşdirərək nəticə çıxarır.
• Mətndəki fikirlərin hansı faktlarla əsaslandırıldığını müəyyən edir.

**5-2.3.3. Mətnin tərkib hissələrini və struktur elementlərini müəyyən edir.**
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq, epiqraf və s.) onun əsas məzmunu ilə əlaqələndirir.
• Başlıq və yarımbaşlıqların məzmuna uyğunluğunu müəyyən edir.
• Mətnin tərkib hissələrini (giriş, əsas hissə, sonluq) müəyyən edir.
• Mətnin bitkin hissələrini yarımbaşlıqlarla adlandırır.
• Tərkib hissələrinə və janr xüsusiyyətlərinə görə mətni təhlil edir.

**5-2.3.4. Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir.**
• Müxtəlif janrları səciyyələndirən bədii təsvir və ifadə vasitələrini müəyyən edir.

**5-2.3.5. Oxuduğu mətni mövzu və ideya baxımından digər mətnlərlə müqayisə edir.**
• Oxuduğu və dinlədiyi mətnlərin ideya yaxınlığını müəyyən edir.
• Mətnləri növ, mövzu, məzmun və ideyasına görə müqayisə edir.
• Oxuduğu və dinlədiyi mətni mövzu, ideya və dil-üslub xüsusiyyətlərinə görə müqayisə edir.
• Bədii və qeyri-bədii mətnləri fərqləndirir.
• Eyni mövzuda olan müxtəlif mətnləri əlaqələndirir, ümumiləşdirmə aparır.

**5-2.3.6. Mətnin məzmunu ilə bağlı şəxsi mövqeyini ifadə edir.**
• Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir, genişləndirir və ya təcrübədə tətbiq edir.
• Araşdırdığı mənbələrdən əldə etdiyi bilgilər hesabına oxuduğu mətni genişləndirir.
• Bədii mətndəki obrazlara və müəllif yanaşmasına öz münasibətini bildirir.

# 5-3. YAZI

## 5-3.1. Yazı normaları. Yazısında ədəbi dilin normalarına və mətnin struktur tələblərinə riayət edir.

**5-3.1.1. Yazısında məlumatları mətnin abzas və hissələri üzrə strukturlaşdırır.**
• Fakt, hadisə və fikirləri mətnin abzas və hissələri üzrə strukturlaşdırır.
• Fikri oxucuya dəqiq və aydın çatdırmaq məqsədilə mətni düzgün strukturlaşdırır.

**5-3.1.2. Yazısında ədəbi dilin normalarına riayət edir.**
- Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir.

## 5-3.2. Yazı məqsədləri və tipləri. Məqsədə uyğun olaraq müxtəlif tipli və formalı mətnlər yazır.

**5-3.2.1. Tanış olduğu məlumatlar əsasında mətn yazır.**
- Oxuduğu və ya dinlədiyi mətnin qısa məzmununu yazır.
- İştirak etdiyi və ya şahidi olduğu tədbir, hadisə (ekskursiya və s.) haqqında reportaj yazır.
- Qrafik və ya verbal-qrafik informasiyanı rabitəli mətn şəklində yazır.

**5-3.2.2. Fakt, hadisə, təxəyyül və təəssüratları əsasında mətn yazır.**
- Verilmiş mövzu ilə bağlı təxəyyülü əsasında bədii mətn yazır.
- Mövzu ilə bağlı fikir və duyğularını məktub yazmaqla ifadə edir.
- Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir.
- Təsviri xarakterli mətn yazır.
- Mövzu ilə bağlı şəxsi mövqeyini bildirmək üçün esse yazır.
- Verilmiş plan əsasında hekayə yazır.
- Əldə etdiyi məlumatlara münasibət bildirməklə kiçikhəcmli qeyri-bədii mətn yazır.

**5-3.2.3. Məqsədə uyğun olaraq sadə əməli yazılar (poster, reklam vərəqi, elan, təlimat) yazır və tərtibatını verir.**
- Oxuduğu mətn haqqında rəy yazır.
- Sosial mövzuda çağırış xarakterli poster hazırlayır.
- Keçiriləcək tədbir haqqında elan tərtib edir.
- Əsərin mövzu, məzmun və ideyasını nəzərə alaraq annotasiya yazır.
- Mövzu ilə bağlı reklam vərəqi hazırlayır.

**5-3.2.4. Əldə etdiyi məlumatlar əsasında sadə təqdimat materialı hazırlayır.**
- Mövzu ilə bağlı təqdimat materialı hazırlayır.
- Məlumat vərəqində araşdırdığı məlumatları açar sözlər və cümlələr şəklində qeyd edir.

# 5-4. DİL QAYDALARI

## 5-4.1. Orfoqrafiya və orfoepiya. Sözlərdə sait və samitlərin tələffüz və yazılış qaydalarına riayət edir.

**5-4.1.1. Sözlərdə sait və samitlərin növlərini müəyyən edir.**
- Saitlərin növlərini fərqləndirir.
- Kar və cingiltili samitləri fərqləndirir.
- Sözün ahəng qanununa tabe olub-olmamasını müəyyənləşdirir.
- İki cür və dörd cür yazılan şəkilçilərin yazılış qaydasını izah edir.

**5-4.1.2. Sözlərdə bəzi sait və samitlərin yazılışı və tələffüzü qaydalarına riayət edir.**
- Sözlərdə saitlərin (o – a, i – ü və s.) yazılışı və tələffüzü qaydalarına riayət edir.
- Sözlərdə samitlərin (d – t, k – g , b – p və s.) yazılışı və tələffüzü qaydalarına riayət edir.
- "K" samitinin düzgün tələffüz və yazılış qaydasına əməl edir.
- "Q" samitinin düzgün tələffüz və yazılış qaydasına əməl edir.

**5-4.1.3. Sözün sətirdən sətrə keçirilmə qaydalarına əməl edir.**
• Mürəkkəb sözlərin sətirdən sətrə keçirilmə qaydalarına riayət edir.

**5-4.1.4. Xüsusi isimlərin böyük hərflə yazılışı qaydalarına riayət edir.**
• Şəxs, heyvan, yer adları bildirən xüsusi isimlərin böyük hərflə yazır.

**5-4.1.5. Sayların rəqəmlə yazılışında şəkilçilərin orfoqrafiya qaydalarına riayət edir.**
• Sayların yazılış qaydalarına əməl edir.

**5-4.1.6. Mürəkkəb sözlərin yazılışı zamanı komponentlər arasındakı məna əlaqəsindən çıxış edir.**
• Mürəkkəb sözün komponentləri arasındakı məna əlaqəsindən çıxış edərək onun düzgün yazılışını müəyyən edir.
• Mürəkkəb sözlərin bitişik və ya defislə yazılış qaydalarına riayət edir.

**5-4.1.7. Azaltma və çoxaltma dərəcəli sifətlərin yazılışında orfoqrafiya qaydalarına riayət edir.**
• Azaltma və çoxaltma dərəcəsində olan sifətlərin yazılış qaydalarına əməl edir.

## 5-4.2. Qrammatika. Fikrin dəqiq ifadə olunmasında sözlərin qrammatik formalarının və sintaktik konstruksiyaların rolunu izah edir.

**5-4.2.1. Əsas nitq hissələrinin ümumi qrammatik kateqoriyalarını və morfoloji tərkibini müəyyən edir.**
• Leksik və qrammatik şəkilçilərin funksiyasını müəyyən edir.
• Sözün morfoloji tərkibini, quruluşca növünü müəyyən edir.
• İsimlərin qrammatik xüsusiyyətlərini (mənsubiyyətə və şəxsə görə dəyişməsi, hallanması, təkdə və ya cəmdə işlənməsi və s.) izah edir.
• Sifətin dərəcələrinin hansı yollarla əmələ gəldiyini izah edir.
• Sayın mənaca növünü müəyyən edir.
• Feilin qrammatik xüsusiyyətlərini (zamana, şəxsə görə dəyişməsi, təsdiqdə və ya inkar olması, quruluşca növü) müəyyənləşdirir.
• Zərfin qrammatik xüsusiyyətlərini (mənaca və quruluşca növləri, digər nitq hissələri ilə ortaq cəhətləri) izah edir.
• Təsriflənməyən feillərin qrammatik xüsusiyyətlərini müəyyən edir.
• Əvəzliyin ümumi qrammatik mənalarını və növlərini müəyyən edir.
• Cümlələrdə isimləşmiş və sifətləşmiş sözləri müəyyən edir.

**5-4.2.2. Köməkçi nitq hissələrini əsas nitq hissələrindən fərqləndirən xüsusiyyətləri müəyyən edir.**
• Sözlərin leksik və qrammatik mənasını fərqləndirir.
• Əsas və köməkçi nitq hissələrini fərqləndirir.
• Köməkçi nitq hissələrinin cümlədəki funksiyasını müəyyən edir.

**5-4.2.3. Söz birləşməsini söz və cümlədən fərqləndirir.**
• Cümlədə söz birləşmələrini müəyyənləşdirir.
• Söz birləşmələrinin əsas və asılı tərəfini müəyyən edir.
• Söz birləşməsi ilə ifadə olunan cümlə üzvlərini müəyyənləşdirir.
• Cümlədə söz birləşmələrini fərqləndirir və cümlədəki vəzifəsini müəyyən edir.

**5-4.2.4. Cümlənin qrammatik əsasını müəyyən edir.**
• Cümlədə baş və ikinci dərəcəli üzvləri fərqləndirir.

**5-4.2.5. Cümlənin məqsəd və intonasiyasına, quruluşuna görə növlərini müəyyən edir.**
• Cümlənin məqsəd və intonasiyasına görə növünü müəyyən edir.
• Cümlələri quruluşuna görə fərqləndirir.
• Mürəkkəb cümlə qurur.

## 5-4.3. Punktuasiya. Yazıda sadə punktuasiya qaydalarına əməl edir.

**5-4.3.1. Məqsəd və intonasiyadan asılı olaraq cümlə sonunda uyğun durğu işarələrindən istifadə edir.**
• Məqsəd və intonasiyadan asılı olaraq cümlə sonunda uyğun durğu işarələrindən (nöqtə, üç nöqtə, sual işarəsi, nida işarəsi) istifadə edir.

**5-4.3.2. Mürəkkəb cümlənin tərkib hissələri arasında vergül işarəsindən yerində istifadə edir.**
• Mürəkkəb cümlələrin komponentləri arasında vergül qoyur.

## 5-4.4. Leksika. Sözlərin mənalarını anladığını nümayiş etdirir və üslubi xüsusiyyətlərini müəyyənləşdirir.

**5-4.4.1. Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyən edir.**
• Söz tərkibindəki morfemlərin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir.
• Sözlərin leksik və qrammatik mənasını fərqləndirir.

**5-4.4.2.** Leksik vahidlərin mənalarını müxtəlif üsullarla izah edir.
• Söz və ya ifadənin mənasını izah etmək üçün lüğətdən istifadə etmək bacarığını nümayiş etdirir.
• Söz və ifadələri sinonim və antonimlərdən istifadə etməklə izah edir.
• Sinonim və antonimlərin nitqdəki rolunu izah edir.
• Çoxmənalı sözün mənaları arasındakı yaxınlığı müəyyən edir.
• Omonim və çoxmənalı sözləri fərqləndirir.

**5-4.4.3. Sözün həqiqi və məcazi mənalarını, sadə üslubi fiqurları fərqləndirir, frazeologizmləri müəyyən edir.**
• Söz və ifadələrin həqiqi və məcazi mənalarını fərqləndirir, frazeologizmləri müəyyən edir.
• Bədii mətndəki sadə üslubi fiqurları (antiteza, məşhur deyimlər, rəmzi adlar və s.) müəyyən edir.
• Nitqin ekspressivliyində məcaz və leksik fiqurların rolunu izah edir.
• Sözün məcazi mənasının yaranma yollarını izah edir.
• Frazeoloji birləşmələrin sinonim və ya antonimini müəyyənləşdirir.

# 4. I YARIMİLDƏ MƏZMUN XƏTLƏRİNİN TƏDRİS VAHİDLƏRİ ÜZRƏ BÖLGÜSÜ

| Fəsil | Oxu | Dinləmə | Danışma |
|---|---|---|---|
| **1-ci bölmə. Fərd və toplum** | | | |
| 1 | **Uğurun sirri** | Yeddi nar çubuğu | Nəqletmə. Müzakirə |
| 2 | **Orxan və Təpəl** | Yaxşılıq zənciri | Müzakirə |
| 3 | **Jan Valjan** | Madlen ("Səfillər" romanından parça) | Şərhetmə |
| 4 | **Sözün qüdrəti** | Padşahın yuxusu | Nəqletmə |
| **1-ci bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları)** | | | |
| **2-ci bölmə. Mənəvi dəyərlər** | | | |
| 1 | **Bilirdim ki, gələcəksən** | Qazi Vüsal Səttarov | Müzakirə |
| 2 | **"8" rəqəmi və tariximiz** | Doqquz və doqquzlama | Nəqletmə |
| 3 | **Təcili qan lazımdır** | | Nəqletmə |
| 2 | **Ad günü hədiyyəsi** | Mətnin davamı | Nəqletmə |
| **2-ci bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları)** | | | |
| **3-cü bölmə. Ana təbiət** | | | |
| 1 | **Yazın oğlan çağında** | Payızda | Təqdimat |
| 2 | **Ağac əkən adam** | Qarabağ təbiətinə qarşı terror | Şəkil üzrə danışma (Sxemin şərhi) |
| 3 | **Ağıllı canlılar** | Bala delfin | Sxem üzrə danışma<br>Təqdimat: "Memar canlılar" |
| 4 | **Meşə simfoniyası** | | |
| **3-cü bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları)** | | | |
| **4-cü bölmə. Niyə belə deyirik?** | | | |
| 1 | **Qədim yunan sözləri** | Teatr | Yaradıcı nəqletmə<br>Təqdimat |
| 2 | **Hacı Qara** | Poçt qutusu | |
| 3 | **Onlar kimdir?** | Birgünlük xəlifə | Məruzə |
| 4 | **Bəs zınqırovu kim asacaq?** | Gəmiləri yandırmaq | Situasiyaya uyğun hekayə qurma |
| **4-cü bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları)** | | | |

| Yazı | Dil qaydaları | Akademik sözlər | Dərs |
|---|---|---|---|
| | | | |
| Mətnin təxəyyülə əsasən davam etdirilməsi | Sözlərdə saitlərin yazılışı | • kontekst • açıq sait • qapalı sait | 5 |
| Yaradıcı ifadə (dinləmə mətninin genişləndirilməsi) | Sözlərdə samitlərin deyilişi və yazılışı | • kar samit • cingiltili samit • transkripsiya | 5 |
| Situasiyaya uyğun hekayə | "K" samitinin deyilişi və yazılışı | • bədii portret | 5 |
| | "Q" samitinin deyilişi və yazılışı | • detektiv | 4 |
| | | | 1 |
| | | | |
| Əsər qəhrəmanına məktub | Leksik və qrammatik məna | • mətnin növü • məzmun • mövzu • ideya | 5 |
| | Sözün həqiqi və məcazi mənası | | 4 |
| Mətnin təxəyyülə əsasən davam etdirilməsi | Çoxmənalı sözlər. Omonimlər | | 5 |
| Esse: "Ən yaddaqalan ad günüm" | Cümlə sonunda durğu işarələri | | 5 |
| | | | 1 |
| | | | |
| Təsviri xarakterli esse | Kök və şəkilçi. Leksik və qrammatik şəkilçilər | • şəxsləndirmə • peyzaj | 5 |
| Elan, plakat | Sözün quruluşca növləri | | 5 |
| Qrafik informasiya əsasında rabitəli mətn | Ahəng qanunu. İki və dörd cür yazılan şəkilçilər | • iki cür yazılan şəkilçilər • dörd cür yazılan şəkilçilər | 5 |
| | Mürəkkəb sözlərin yazılışı | | 4 |
| | | | 1 |
| | | | |
| Esse: "...Həqiqəti hər şeydən üstün tuturam" | Alınma sözlər və şəkilçilər | | 5 |
| Annotasiya | Sinonimlər və antonimlər | • monoloq • dialoq • dram əsəri • remarka | 4 |
| Dosta məktub<br>Hekayə | Sözün sətirdən sətrə keçirilməsi | | 5 |
| Qrafik informasiya əsasında rabitəli mətn | Lüğətdən istifadə | | 4 |
| | | | 1 |

## II YARIMİLDƏ MƏZMUN XƏTLƏRİNİN TƏDRİS VAHİDLƏRİ ÜZRƏ BÖLGÜSÜ

| Fəsil | Oxu | Dinləmə | Danışma |
|---|---|---|---|
| **5-ci bölmə. Özünə inan** | | | |
| 1 | **Ala-bəzək torba** | Demosfen | Mətni genişləndirməklə nəqletmə |
| 2 | **Əlvida, "bilmirəm"!** | | Təhkiyəçini dəyişməklə nəqletmə |
| 3 | **Elektron ünvanım olsaydı...** | Geytsin uğur taleyi | Mətni genişləndirməklə nəqletmə |
| 4 | **Sonuncu düym** | Zirvələr və onların fəthi | Biliklərdən istifadə etməklə mövzu üzrə danışma |
| **5-ci bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları)** | | | |
| **6-cı bölmə. Səyahət** | | | |
| 1 | **Balaca Qara Balıq** | | Yaradıcı nəqletmə, müzakirə |
| 2 | **Misirə səyahət** | Mətnin davamı | Təqdimat |
| 3 | **Bir mərcin tarixçəsi** | | Fikir və təəssüratlarını danışmaq |
| 4 | **Qafqaz səfəri** | | |
| **6-cı bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları)** | | | |
| **7-ci bölmə. İdman və sağlamlıq** | | | |
| 1 | **Fiziki məşqlər və insan orqanizmi** | | Mətbuat konfransı |
| 2 | **Çempion ola bilərəm?** | | Debat |
| 3 | **İdmanda uduzanda nə edək?** | | |
| 4 | **Marafon: Afinadan Bakıya** | | |
| **7-ci bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları)** | | | |
| **8-ci bölmə. Tarixdə qadınlar** | | | |
| 1 | **Qədim türklərdə qadınlar** | Qanlı Qoca oğlu Qanturalı | |
| 2 | **Sara xatun** | Azərbaycan XV əsrdə | |
| 3 | **Savadlı qadın – savadlı millət** | | |
| 4 | **Cığır açan qadınlar (divar qəzeti)** | | Təqdimat |
| **8-ci bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları)** | | | |

| Yazı | Dil qaydaları | Akademik sözlər | Dərs |
|---|---|---|---|
| | | | |
| İfadə | Əsas və köməkçi nitq hissələri | | 5 |
| Plan əsasında esse | İsim | | 5 |
| | İsmin mənsubiyyətə görə dəyişməsi | | 4 |
| Esse. Arqumentlərlə əsaslandırma | İsmin şəxsə görə dəyişməsi | • arqument | 5 |
| | | | 1 |
| | | | |
| Analoji mövzuda hekayə | Sifət. Sifətin müqayisə dərəcələri. Sifətlərin yazılışı | | 5 |
| Məlumat-reklam vərəqi | Say. Miqdar sayının növləri. Sayların yazılışı | • müəyyən miqdar sayları • qeyri-müəyyən miqdar sayları • kəsr sayları | 6 |
| Mənbələr əsasında informativ mətn | Feil (şəxs, zaman, inkar, quruluş) | | 5 |
| Resept | Zərf (ümumi məlumat, məna növləri, quruluşca növləri) | | 5 |
| | | | 1 |
| | | | |
| Poster | Təsriflənməyən feillər Məsdər | • feilin təsriflənməyən formaları • məsdər | 4 |
| Əsər qəhrəmanına məktub | Feili sifət Feili bağlama | • feili sifət • feili bağlama | 5 |
| Mühakimə xarakterli mətn | Əvəzlik | • sual əvəzliyi • qeyri-müəyyən əvəzliklər | 4 |
| Reportaj | Substantivləşmə və atributivləşmə | | 5 |
| | | | 1 |
| | | | |
| Mühakimə xarakterli esse | Söz birləşmələri | | 4 |
| | Frazeoloji birləşmələr | • xatirə | 5 |
| Mühakimə xarakterli esse | Cümlə üzvləri | | 5 |
| | Sadə və mürəkkəb cümlələr | • qrammatik əsas | 4 |
| | | | 1 |

## 5. Şagird nailiyyətlərinin qiymətləndirilməsi

Tədrisin tərkib hissəsi olan qiymətləndirmə həm müəllimə, həm də şagirdə məqsədə doğru irəliləyiş haqqında məlumat verir. Bu məlumatlardan çıxış edərək müəllim tədris prosesini necə davam etdirmək barədə qərarlar qəbul edir.

Qiymətləndirmənin növləri, prosedur qaydaları, forma və üsulları haqqında müxtəlif mənbələrdə xeyli sayda metodik tövsiyələr və direktiv göstərişlər var. Lakin bir məqamı daim diqqət mərkəzində saxlamaq lazımdır: **qiymətləndirmə elə təşkil olunmalıdır ki, təhsil səviyyəsinin əvvəlindən sonuna qədər hər bir şagirdin nailiyyətləri haqqında fikir söyləmək mümkün olsun**. "Şagird nailiyyətləri" dedikdə təhsil proqramında təsbit olunmuş məzmun standartları – bilik və bacarıqlar nəzərdə tutulur. Beləliklə, həmin standartlarda əks olunan hədəflər qiymətləndirmə zamanı meyara çevrilir.

Diaqnostik qiymətləndirmə müvafiq təhsil mərhələsi üçün nəzərdə tutulan ilkin səviyyənin qiymətləndirilməsini nəzərdə tutur. 5-ci sinfin əvvəlində diaqnostik qiymətləndirmə xüsusi əhəmiyyət kəsb edir. Belə ki, müəllim tədris prosesini səmərəli qurmaq, diferensial təlim strategiyasını düzgün müəyyənləşdirmək üçün hər bir şagirdin nitq bacarıqları, söz ehtiyatı və dil bilgiləri haqqında aydın təsəvvürə malik olmalıdır.

Formativ qiymətləndirmə imkan verir ki, müəllim "əlini daim şagirdin nəbzində saxlasın". Bu qiymətləndirmə müəllimə növbəti mərhələ üçün təlimin strategiyasını müəyyənləşdirməyə kömək edir. Qiymətləndirmənin meyarları isə müvafiq mərhələnin əvvəlində qoyulmuş məqsədlərdən asılıdır.

Metodik vəsaitdə hər bir dərsin sonunda qiymətləndirmə cədvəli verilir ki, burada qiymətləndirmə meyarı və qiymətləndirmə üçün tədris materialı (tapşırıq) qeyd olunur. Nəzərə almaq lazımdır ki, dərsin məqsədi qismində altstandart qeyd olunursa, formativ qiymətləndirmə meyarı kimi həmin standartın müvafiq dərs üçün nəzərdə tutulmuş bir komponenti (kiçik hədəflər, addımlar) verilir. Məsələn:

| Dərsin məqsədi (altstandart) | Qiymətləndirmə meyarı | Qiymətləndirmə materialı |
|---|---|---|
| 2.1.2. Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir. | Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tapşırıq **a** |
| 2.3.3. Mətndəki obrazları xarakterizə edir. | Obrazlar xəritəsi tərtib edir. | Tapşırıq **b** |
| 1.3.2. Oxuduğu və ya dinlədiyi mətni nəql edir. | Janrın xüsusiyyətlərini nəzərə almaqla oxuduğu və ya dinlədiyi mətni nəql edir. | Tapşırıq **c** |

Summativ qiymətləndirmə vasitəsilə tədris vahidi ərzində şagirdlərin müxtəlif məzmun əldə etdikləri bilik və bacarıqların səviyyəsi müəyyən edilir. Bu qiymətləndirmə üçün materiallar müəllimlər və ya məktəb tərəfindən hazırlanır. Azərbaycan dili üzrə summativ qiymətləndirmə materialları, adətən, oxu, dinləmə və dil qaydaları məzmun xətlərini əhatə edir. Danışma üzrə şagirdin səviyyəsi tədris vahidi boyu müşahidələr nəticəsində müəyyən edilir.

bölmə **1** # FƏRD VƏ TOPLUM

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Uğurun sirri | Oxu. Dil qaydaları (Leksika) | 6-7 | 3 | 20-21 |
| 2 | Uğurun sirri | Oxu. Danışma | 8 | 4 | 21-22 |
| 3 | Yeddi nar çubuğu | Dinləmə | 8 | 5 | 22-24 |
| 4 | Güc birlikdədir | Yazı (hekayənin davamı) | 8 | - | 24 |
| 5 | Sözlərdə saitlərin yazılışı | Dil qaydaları | 9 | 6 | 24-25 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Orxan və Təpəl | Oxu. Dil qaydaları (Leksika) | 10-11 | 7 | 26-27 |
| 2 | Orxan və Təpəl | Oxu. Danışma | 12 | 8 | 27-28 |
| 3 | Yaxşılıq zənciri | Dinləmə | 12 | 9 | 28-29 |
| 4 | Yaxşılıq zənciri | Yazı | 12 | - | 29-30 |
| 5 | Sözlərdə samitlərin deyilişi və yazılışı | Dil qaydaları | 13 | 10 | 30 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Jan Valjan | Oxu. Dil qaydaları (Leksika) | 14-15 | 11 | 31-32 |
| 2 | Jan Valjan | Oxu. Danışma. Yazı | 16 | 12 | 32-33 |
| 3 | Madlen | Dinləmə. Danışma | 16 | 13 | 33-34 |
| 4 | Hekayə (“Səhvimi anladım”) | Yazı | 16 | - | 34-35 |
| 5 | “K” samitinin deyilişi və yazılışı | Dil qaydaları | 17 | 14 | 35-36 |
| **4-cü fəsil** | | | | | |
| 1 | Sözün qüdrəti | Oxu. Dil qaydaları (Leksika) | 18-19 | 15 | 37 |
| 2 | Sözün qüdrəti | Oxu. Yazı | 20 | 16 | 38-39 |
| 3 | Padşahın yuxusu | Dinləmə. Oxu. Yazı | 20 | 17 | 39-40 |
| 4 | “Q” samitinin deyilişi və yazılışı | Dil qaydaları | 21 | 18 | 41-42 |
| 5 | Ümumiləşdirici təkrar | Oxu. Dil qaydaları | 22-23 | 19 | 42-43 |

# 1-ci fəsil

## 1-ci dərs. Uğurun sirri

• Dərslik: səh. 6-7 • İş dəftəri: səh. 3

**Təlim məqsədləri**

**1.** Mətni oxuyarkən sözləri düzgün tələffüz edir və məzmuna uyğun səs tonu seçir **(st. 5-2.1.1).**
**2.** Sözün həqiqi və məcazi mənalarını fərqləndirir **(st. 5-4.4.3).**
**3.** Söz tərkibindəki morfemlərin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir **(st. 5-4.4.1).**
**4.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

### Mövzuya yönəltmə

İlk dərs günü şagirdlərin tədris ilində istifadə edəcəkləri Azərbaycan dili dərsliyi ilə tanışlığı vacibdir. Müəllim şagirdlərin diqqətini 5-ci səhifəyə yönəldir. Bu səhifədə dərslikdə tez-tez rast gəlinən rubrikalar haqqında məlumat verilib.

Şagirdlər dərsliyi vərəqləyərək bölmələrin adlarını oxuyur, onların diqqətini çəkən mövzu, şəkillər haqqında ilkin təəssüratlarını bölüşürlər. Dərsliyin ilk bölməsinin adı müzakirə edilir. Şagirdlər “fərd” və “toplum” sözlərinin mənalarını izah edərək bu mövzuda bildiklərini danışırlar.

Müəllim şagirdləri danışma fəaliyyətinə cəlb etmək üçün yönəldici suallar verir (**a tapşırığı**):

• Yoldaşlarınızla əməkdaşlıq edə bilirsinizmi? Sizcə, qrup işləri zamanı hansı qrup tapşırığı daha tez və daha keyfiyyətli yerinə yetirir?

• Diqqət, qayğı gördüyünüz vaxt hansı hissləri keçirirsiniz? Bəs siz ətrafınızdakılara qayğı göstərirsinizmi? Bu zaman hansı hissləri keçirirsiniz?

### Oxu

**5-2.1.1. Rollu oxu.** Əvvəlcə şagirdlər “Uğurun sirri” mətnini səssiz oxuyurlar. Bu zaman obrazların nitqinə diqqət edir, keçirdiyi hisslərlə tanış olurlar. Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Bu dəfə mətn səsli oxunur. Müəllim oxu zamanı jest və mimikalardan yerində, düzgün istifadə edilməsinə, obrazların nitqinin onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirilməsinə diqqət edir.

### Söz ehtiyatı

**5-4.4.3. Tapşırıq b (dərslik).** Tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlərin diqqəti **“Qlossari”** rubrikasında verilmiş “kontekst” sözünün izahına yönəldilir. Şagirdlər *ağır* və *bozarmaq* sözlərinin iştirak etdiyi cümlələri bir daha oxuyur, kontekstə görə mənalarını izah edirlər:

*Paltardəyişmə otağında **ağır** sükut var idi.*
*Natiq dözməyib onun üzünə **bozardı**.*

<u>Cavab</u>: *ağır* – cansıxıcı, xoşagəlməz; *bozarmaq* – kobudcasına cavab vermək, acıqlanmaq.

Şagirdlər aşağı siniflərdə sözlərin həqiqi və məcazi mənaları haqqında məlumat alıblar. Onlar mətndə məcazi mənada işlənmiş “ağır” və “bozarmaq” sözlərini cümlədə həqiqi mənalarında işlədirlər. Məsələn: *O, <u>ağır</u> çantanı qaldıra bilmədi. Köynəyin rəngi yuyulmaqdan <u>bozarmışdı</u>.*

**Tapşırıq c (dərslik).** <u>Cavab</u>: Gölə daş atarkən quruldayan qurbağalar dərhal səslərini kəsir və sakitlik yaranır. Bu səbəbdən dilimizdə *qurbağa gölünə daş atmaq* “tam sakitliyin yaranması” anlamında işlədilir.

**5-4.4.1. Tapşırıq ç (dərslik).** Şagirdlər “futbol” və “minifutbol” sözlərinin mənası arasındakı fərqi müzakirə edirlər. “Mini-” hissəciyinin sözə qatdığı semantikaya diqqət edirlər.

<u>Cavab</u>:
minikompüter – kiçikölçülü kompüter;
minizavod – kiçik zavod;
minimarket – kiçik market.

### Oxuyub-qavrama

Bu dərsdə oxuyub-qavrama üzrə tapşırıqlar **iş dəftərində** verilmişdir.

<u>Faktoloji qavrama</u>

**5-2.1.2. Tapşırıq a, b, c (iş dəftəri)**

**a tapşırığının cavabı:** B variantı.
**b tapşırığının cavabı:** C variantı.
**c tapşırığının cavabı:** 1 – c; 2 – a; 3 – b.

<u>Nəticəçıxarma</u>

**Tapşırıq ç (iş dəftəri).** Şagirdlər mətnin məzmunundan çıxış edərək komandanın məğlub olma səbəbini müəyyən edirlər.

<u>Cavab</u>: D variantı.

**Tapşırıq d (iş dəftəri). Cavab təxminən belə ola bilər:** Rüfət müəllim şagirdlərinə komanda oyununun mahiyyətini izah etməyə çalışırdı. Bəzi şagirdlərin sevincinə sərt münasibət göstərdi,

çünki onlardan fərdi deyil, komanda oyunu gözləyirdi.

**5-2.3.1. Tapşırıq e (iş dəftəri).** Cavab: C variantı.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | "Uğurun sirri" mətni |
| Sözün həqiqi və məcazi mənalarını fərqləndirir. | Tap. **b**, **c** (D.) |
| Söz tərkibindəki *mini-* morfeminin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. **ç** (D.) |
| Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir. | Tap. **a**, **b**, **c**, **ç**, **d**, **e** (İ.D.) |

## 2-ci dərs. Uğurun sirri

• Dərslik: səh. 8 • İş dəftəri: səh. 4

**Təlim məqsədləri**

**1.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**2.** Bədii mətndəki hadisələrə və obrazların davranışlarına əsasən ideyanı müəyyən edir **(st. 5-2.3.1).**

**3.** Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir, genişləndirir və ya təcrübədə tətbiq edir **(st. 5-2.3.6).**

**4.** Mətni nəql edərkən təhkiyəçinin və obrazların nitqini fərqli səs tonu ilə ifadə edir **(st. 5-1.4.2).**

**5.** Mövzu ilə bağlı şəxsi mövqeyini bildirmək üçün esse yazır **(st. 5-3.2.2).**

### Mövzuya yönəltmə

Müəllim "Uğurun sirri" mətnini xatırlatmaq üçün frontal sorğu keçirir. Frontal sorğu zamanı aşağıdakı suallardan istifadə edilə bilər:

– Komanda hansı hesabla uduzmuşdu?
– Uşaqlar nə üçün mübahisə edirdilər?
– Rüfət müəllim uşaqları necə sakitləşdirdi?
– Uşaqlar səhəri gün idman zalında nə ilə qarşılaşdılar?
– Müəllim uşaqlara hansı tapşırığı verdi?
– Rüfət müəllim bu tapşırığı ilə uşaqlara nəyi öyrətmək istəyirdi?

### Oxuyub-qavrama

**5-2.1.2. Tapşırıq a (dərslik). Cavablar təxminən belə ola bilər:**

I hissə – Məğlubiyyətdən sonra
II hissə – Həyat dərsi

**"Uğurun sirri" mətninə aid hekayə xəritəsi təxminən belə ola bilər:**

**Baş qəhrəmanlar:** Ceyhun, Rüfət müəllim;
**Köməkçi obrazlar:** Natiq və digər sinif uşaqları;
**Məkan:** idman zalı;
**Məzmun:** Mətndə futbol komandasının ardıcıl məğlubiyyətindən söhbət açılır. Müəllim komanda üzvlərinə bu məğlubiyyətin səbəbini özünəməxsus şəkildə izah edir.
**İdeya:** birlik harada, dirilik orada.

**5-2.3.1. Tapşırıq b (dərslik).** Tapşırıq şagirdlərin şərhetmə və ümumiləşdirmə bacarıqlarının inkişafına yönəlib.

**Cavablar təxminən belə ola bilər:**

Əvvəlcə Ceyhunun nitqindən nümunələrə diqqət edək.

*Ceyhun: – Müəllim, mən nə edim?! Yeganə qolu mən vurdum. Oynaya bilmirlər də!*

Ceyhunun sözləri göstərir ki, o, lovğadır. Yoldaşlarına yuxarıdan aşağı baxır. Komandanın məğlubiyyətini deyil, öz uğurunu önə çəkir.

Başqa bir epizodda Ceyhun qəti səslə deyir:

*– Qapıçını dəyişmək lazımdır. Mən saydım: onlar beş dəfə hücuma keçdilər, dördü qolla nəticələndi. Nihad eləcə qapıdan keçən topların dalınca baxırdı.*

Ceyhunun nitqinə əsasən demək olar ki, o, ədalətsiz hərəkət edir. Komandanın məğlubiyyətində yalnız Nihadı günahlandırır.

Nihadın nitqindən nümunələrə əsasən onun emosional olduğunu söyləmək olar.

*Nihad ağlamsındı:*
*– Mən nə edə bilərdim?!*

**5-2.3.6. Tapşırıq c (dərslik).** Mətnin məzmunu təxminən belə ola bilər:

*I hissə*

*Bu gün yenə də uduzduq. Əslində, bütün günahlar Nihaddadır. Elə də qapıda durmaq olar?! Nihad eləcə qapıya keçən topların dalınca baxırdı. Rüfət müəllim isə hamımızı günahlandırır. Mən nə edim axı? Yeganə topu mən vurmuşam. Bundan artıq nə edə bilərəm?*

*Rüfət müəllim dedi ki, sabah idman zalında məşq edəcəyik. Görəsən, nə üçün idman zalı? Futbol oynamaq üçün zal balacadır.*

*II hissə*

*İdman zalında rəngbərəng şarları görüb çox təəccübləndim. Elə bildim ki, kiminsə ad günüdür. Amma biz heç vaxt zalda ad günü qeyd etmirdik. Sonra Rüfət müəllimin tapşırığı məni çox təəccübləndirdi. Necə yəni üzərində öz adınız yazılmış şarı tapın. Bu qədər şarı bir-bir qaldır, adını oxu, axı vaxt keçir. Düzü, üzərində adım yazılmış şarı tapanda çox sevinmişdim. Demə, Rüfət müəllimin məqsədi başqa imiş. Doğrudan da, hamı bir-birinə kömək edəndə problem də tez həll olurmuş. Necə deyərlər: "Güc birlikdədir".*

**5-1.4.2.** Müəllim şagirdlərin diqqətinə çatdırmalıdır ki, mətni səsləndirərkən onlar obrazın (Ceyhunun) nitqini onun xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirsinlər.

**Yazı**

**5-3.2.2. Tapşırıq a (iş dəftəri).** Tapşırıq şagirdlərin esse yazmaq bacarığını inkişaf etdirir.

**Müəllimin nəzərinə!** Dördüncü sinifdə şagirdlər esse yazının xüsusiyyətləri ilə tanış olmuşlar. Esse yazarkən hər hansı bir mövzuda öz fikirlərini bildirməyi və arqumentlər gətirməklə əsaslandırmağı bacarırlar. Eyni zamanda mətnlərin giriş, əsas və nəticə hissəsinin olduğu haqda məlumatları da var. Essenin giriş hissəsində mövzu haqqında fikir bildirilir. Əsas hissədə müvafiq arqumentlərlə fikirlər əsaslandırılır. Nəticədə isə mövzu haqqında ümumiləşdirmə aparılır.

Şagirdlər esse yazarkən istifadə edilən standart ifadələr, keçid cümlələrlə tanışdırlar. Məsələn, mövzu haqda fikir söyləyərkən "məncə", "mənim fikrimcə" kimi sözlərdən istifadə etmək daha məqsədəuyğundur.

Şagirdlər keçən dərsdə *əməkdaşlıq, qayğıkeşlik* sözlərinin mənasını araşdırmış, bu xüsusiyyətlər haqqında müzakirə aparmışlar. Bu müzakirə də tapşırığın asanlıqla və keyfiyyətlə yerinə yetirilməsinə kömək edəcək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmununa uyğun hekayə xəritəsi tərtib edir. | Tap. a (D.) |
| Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir. | Tap. b (D.) |
| Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır. | Tap. c (D.) |
| Obrazın nitqini onun xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir. | Tap. c (D.) |
| Mühakimə və arqumentlərini əks etdirməklə kiçikhəcmli esse yazır. | Tap. a (İ.D.) |

## 3-cü dərs. Yeddi nar çubuğu

• Dərslik: səh. 8 • İş dəftəri: səh. 5

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətnlə bağlı suallar tərtib edir **(st. 5-1.1.1).**
**2.** Dinlədiyi mətnin qısa məzmununu yazır **(st. 5-3.2.1).**
**3.** Oxuduğu və dinlədiyi mətni mövzu, ideya və dil-üslub xüsusiyyətlərinə görə müqayisə edir **(st. 5-2.3.5).**
**4.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim lövhədə aşağıdakı şəkli nümayiş etdirə bilər.



Müəllim yönəldici suallar vasitəsilə şagirdləri müzakirəyə cəlb edir:

– Şəkildə hansı varlıqlar təsvir edilmişdir?
– Onlar nə etməyə çalışır?
– Sizcə, onlar məqsədlərinə çatacaqlarmı?
– Bunun üçün onlar nə etməlidirlər?
– Sizcə, bu situasiyada hansı atalar sözü işlənə bilər?

Şagirdlərin təkliflərindən sonra müəllim lövhəyə "Güc birlikdədir" atalar sözünü yazır. Şagirdlər bu sözün işlənə biləcəyi müxtəlif situasiyalar düşünür, bu haqda fikirlərini söyləyirlər.

**Dinləmə**

**5-1.1.1. Tapşırıq a (dərslik).** Müəllim dinləmə mətnini səsləndirir:

***Yeddi nar çubuğu***

*Biri var idi, biri yox idi, bir kişi və onun yeddi oğlu var idi. Qardaşlar həmişə bir yerdə yeyib-içər, birgə işləyərdilər. Ova da həmişə bir yerdə gedərdilər. Ayını, canavarı, şiri, pələngi diri-diri tutardılar. Zarafat deyil, yeddi qardaşın biri şirin əlindən, biri ayağından, biri quyruğundan, başından, qərəz, hərəsi bir yerindən yapışsa, şir deyil, heç fil də bunlara bata bilməzdi.*

*İllər keçdi, qardaşlar evlənib oğul-uşaq sahibi oldular. Ayrı yaşamağa başladılar. Bir-birinin evinə gediş-gəlişləri azaldı. Aralarında soyuqluq yarandı. Düşmənlər hər birinə ayrılıqda hücum edərək evlərini taladılar. Ova tək getdikləri üçün də əliboş qayıtdılar.*

*Qardaşlar atalarının yanına gəlib öz dolanışıqlarından narazılıq etdilər. Ata dedi:*

*– Sabah yanıma gələrsiniz. Hərəniz barmaq yoğunluğunda bir nar çubuğu gətirərsiniz.*

*Oğlanlar "baş üstə" deyib getdilər. Səhər atalarının yanına gələndə hərəsi bir nar çubuğu gətirdi. Ata nar çubuqlarını alıb dəstələdi. Ortasından bir iplə bağladı, oğlanlarına verib dedi:*

*– Oğlanlarım, gücünüzü sınayın, görüm bunu hansınız sındıra bilərsiniz?*

*Qardaşlar nə qədər çalışdılarsa, heç biri çubuq dəstəsini qıra bilmədi. Ata bu dəfə dəstəni açıb çubuqları tək-tək oğlanlarına verib dedi:*

*– İndi bu çubuqları qırın, görüm gücünüz çatırmı?*

*Qardaşlar hərəsi bir nar çubuğunu götürüb qatlayan kimi iki böldülər.*

*Qoca gülümsəyib dedi:*

*– Balalarım, bu çubuqlar – siz yeddi qardaşsınız. Nə qədər ki bir-birinizə bağlısınız, güclü olacaqsınız, heç kimin sizə gücü çatmayacaq. Elə ki bir-birinizdən ayrıldınız, düşmənlər sizi təkləyib nə istəsələr, edə bilərlər. Həmişə bir olun. Onda xoşbəxt olarsınız.*

*Qardaşlar atalarının bu doğru nəsihətindən sonra yenidən birləşdilər, bir-birinə kömək etdilər, mehriban yaşamağa başladılar. O gündən sonra heç kim yeddi qardaşın qabağına çıxa bilmədi.*

**Yazı**

**5-3.2.1. Tapşırıq a (iş dəftəri).** Şagirdlər yazacaqları mətni yarımbaşlıqlar üzrə strukturlaşdırırlar.

**Oxuyub-qavrama**

**5-2.3.5. Tapşırıq b (dərslik).**

**Cavablar təxminən belə ola bilər:**

• Hər iki mətndə birlikdən, bir-birinə dəstək olmaqdan danışılır.

• Mətnlərin ideyası eynidir: Güc birlikdədir. Birlik harada, dirilik orada.

**Tapşırıq b (iş dəftəri).** Cavablar:

| | |
|---|---|
| 1 – C; | 2 – A; |
| 3 – B; | 4 – C; |
| 5 – A; | 6 – B. |

**Danışma**

**5-1.2.2. Tapşırıq c (dərslik).** Daha sonra şagirdlər yoldaşlarını birliyə çağırmaq üçün istifadə edəcəkləri üsullar haqqında danışırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətnlə bağlı suallar tərtib edir. | Tap. **a** (D.) |
| Dinlədiyi mətnin qısa məzmununu yazır. | Tap. **a** (İ.D.) |
| Müxtəlif mətnləri mövzu, məzmun baxımından müqayisə edir. | Tap. **b** (D.), tap. **b** (İ.D.) |
| Həyatdan nümunələr gətirməklə fikrini əsaslandırır. | Tap. **c** (D.) |

## 4-cü dərs. Güc birlikdədir

• Dərslik: səh. 8

**Təlim məqsədləri**

**1.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**
**2.** Verilmiş mövzu ilə bağlı təxəyyülünə əsasən bədii mətn yazır **(st. 5-3.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim "Uğurun sirri", "Yeddi nar çubuğu" mətnlərini xatırlatmaq üçün frontal sorğu keçirir. Bu zaman aşağıdakı suallar vasitəsilə şagirdləri müzakirəyə cəlb edə bilər:

– "Uğurun sirri" və "Yeddi nar çubuğu" mətnlərinin əsas ideyası nə idi?

– Bu mətnlər oxuculara hansı mesajı ötürür?

– Bu mətnlərdə obrazlar hansı problemlərlə rastlaşdılar?

– Problemlər necə həll olundu?

**Danışma**

**5-1.2.2. Tapşırıq a (dərslik).** Müzakirələrdə təxminən belə fikirlər söylənilə bilər:

*– Gələcəkdə böyük kollektivlə işləyə bilərəm. Rüfət müəllimin dərsindən əməkdaşlığı, güzəştə getməyi, bir məqsəd uğrunda çalışmağı öyrəndim. Bu xüsusiyyətlər həyatda mənə hörmət, uğur qazandıracaq.*

**Yazı**

**5-3.2.2. Tapşırıq b (dərslik).** Şagirdlər verilmiş mətni təxəyyülə uyğun elə davam etdirirlər ki, əsas ideyanı (Güc birlikdədir) ifadə etsin.

**Mətn təxminən belə ola bilər:**

*Sabah çətin bir əməliyyat olacaq. Dəstədəki uşaqlar çox gəncdirlər. Onlarla söhbət etməliyəm. Bu anda birdən Rüfət müəllimin "məşq"ini xatırladım. Onun sözləri hələ də qulaqlarımda cingildəyir: "Sizin hər biriniz o zaman qalib gələ bilərdiniz ki, komandanın bütün üzvləri bir-birinə dəstək olsun".*

*Əməliyyatdan əvvəl əsgərlərimlə söhbət etdim:*

*– Baş verənlərdən məlumatınız var. Biz çox çətin, amma şərəfli bir tapşırığın öhdəsindən gəlməliyik. Yəqin ki, bilirsiniz, bu, gördüyümüz döyüşlərdən çox fərqlənəcək. Amma düşmən igidlərimizə qalib gələ bilməz. Çünki biz öz Vətənimizi qoruyuruq. Vətən sevgisi hər birimizə güc verir. Biz qalib gələcəyik, hədəfimiz bir olarsa, bir-birimizi qoruya biləriksə, mütləq qalib gələcəyik.*

*Gecəyarısı Şuşa uğrunda döyüşlər başladı. Bu döyüşdə biz bir-birimizə dayaq olduq. Yaralılarımızı, şəhidlərimizi döyüş meydanında qoymadıq. Biz qalib gəldik! Bir yumruq kimi birləşib düşməni məhv etdik.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatdan nümunələr gətirməklə fikrini əsaslandırır. | Tap. **a** (D.) |
| Mövzu ilə bağlı təxəyyülünə əsasən hekayə yazır. | Tap. **b** (D.) |

## 5-ci dərs. Sözlərdə saitlərin yazılışı

• Dərslik: səh. 9 • İş dəftəri: səh. 6

**Təlim məqsədləri**

**1.** Saitlərin növlərini fərqləndirir **(st. 5-4.1.1).**
**2.** Sözlərdə saitlərin (o – a, i – ü və s.) yazılışı və tələffüzü qaydalarına riayət edir **(st. 5-4.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim lövhədə bütün saitləri yazır. Şagirdlər qalın, incə, dodaqlanan və dodaqlanmayan saitləri müəyyən etdikcə müəllim lövhədə saitləri qruplaşdırır.

**5-4.1.1. Tapşırıq a (dərslik).** Şagirdlər aşağıdakı siniflərdə saitlər haqqında aldıqları bilgilərə əsasən tapşırıqda verilmiş cədvəli şərh edirlər. Məsələn: "Saitlərin qalın və incə, dodaqlanan və dodaqlanmayan növləri var. *o, u* –

qalın və dodaqlanan saitlərdir" və s.

Müəllim şagirdlərin diqqətini "**Qlossari**" rubrikasına yönəldir və burada verilmiş orfoqrafik norma anlayışını izah edir.

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdə bir çox orfoqrafiya qaydaları ilə tanış olublar.

**"Yadda saxla" rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edir, nümunələr əsasında bəzi sözlərin səhv yazılmasının səbəbini izah edir:

Məsələn, necə yazılmalıdır: "mülahizə", yoxsa "mulahizə"? "Ü" və "u" saitlərinin ortaq xüsusiyyətlərə (dodaqlanan, qapalı) malik olması çox zaman sözün yazılışında səhvə yol açır.

**Tapşırıq b (dərslik).** Cavab: "Ü" və "i" qapalı və incə saitlərdir.

Sözlərin düzgün yazılışı: *müxbir, mühüm, müdrik, müdir, üfüq, ümid*.

**Tapşırıq c (dərslik).** Cavab: "A" və "ə" dodaqlanmayan və açıq saitlərdir.

Sözlərin düzgün yazılışı: *həyəcan, salnamə, pilləkən, tələbat, təbaşir.*

**5-4.1.2. Tapşırıq ç (dərslik).**

Sözlərin düzgün yazılışı: *mübarək, nümunə, günah, mükafat, müharibə, rütubət*.

**Tapşırıq d (dərslik).** Cavab:

kasmanavt – kosmonavt;
hökümət – hökumət;
naqarət – nəqərat;
qəhraman – qəhrəman;
prablem – problem;
avtamat – avtomat;
munasibət – münasibət;
xöşbəxt – xoşbəxt.

**5-4.1.1. Tapşırıq a (iş dəftəri).** Cavab:
1 – ö, 2 – ı, 3 – o, 4 – ü,
5 – i, 6 – a, 7 – u, 8 – e, ə

**Tapşırıq b (iş dəftəri).** Cavab:
1. o 2. u 3. ü 4. ı 5. ə 6. i

**5-4.1.2. Tapşırıq c (iş dəftəri).** Cavab:

| | |
|---|---|
| 1. zoopark; | 4. kakao; |
| 2. diktofon; | 5. okean; |
| 3. domino; | 6. portret. |

"O" ilə yazılıb [a] kimi tələffüz olunan sözlər: *diktofon, domino, portret*.

**Tapşırıq ç (iş dəftəri).** Cavab: nəqərat, müasir, qürur, vüqar, xüsusilə, münsif, mühit, zəfəran, rütubət.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Saitlərin növlərini fərqləndirir | Tap. a, b, c (D.), tap a, b (İ.D.) |
| Sözlərdə saitlərin (o – a, i – ü və s.) yazılışı və tələffüzü qaydalarına riayət edir. | Tap. ç, d (D.), tap c, ç (İ.D.) |

# 2-ci fəsil

## 1-ci dərs. Orxan və Təpəl

• Dərslik: səh. 10-11 • İş dəftəri: səh. 7

**Təlim məqsədləri**

**1.** Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını təxmin edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**
**2.** Mətndəki hadisələrin səbəbini müəyyənləşdirir **(st. 5-2.2.1)**
**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**
**4.** Oxuduğu mətnin qısa məzmununu yazır **(st. 5-3.2.1).**

**Mövzuya yönəltmə**

Müəllim lövhədə “yaxşılıq”, “xeyirxahlıq”, “qayğıkeşlik” sözlərini yazıb soruşur:

– Bu xüsusiyyətlər haqqında nə bilirsiniz?

– Bu xüsusiyyətlərə malik hansı obrazları xatırlayırsınız? Onlar haqqında danışın.

**“Orxan və Təpəl” mətni.** Əvvəlcə şagirdlər verilmiş vaxt ərzində “Orxan və Təpəl” mətnini səssiz oxuyurlar. Oxu zamanı şagirdlər əvvəlcə tanış olmayan sözləri kontekstə əsaslanaraq izah etməyə çalışır, daha sonra isə lüğət vasitəsilə dəqiqləşdirirlər.

**“Söz boğçası” rubrikası.** “Söz boğçası”ndakı sözlərin düzgün izahı:

**qaşqa** – mal-qaranın, xüsusilə at, inək və öküz kimi iri ev heyvanlarının alnındakı ağ ləkə.

**rentgen** – tündrəngli bərk maddələri yarıb keçən şüa; bu cür şüalar buraxan cihaz.

**müayinə** – qulaq asmaqla, diqqətlə gözdən keçirməklə bədəni hərtərəfli yoxlama.

**Söz ehtiyatı**

**5-2.1.3. Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti mətnin adına və mətnə çəkilmiş illüstrasiyaya yönəldilir. Artıq mətnin oxusu zamanı “Söz boğçası”nda verimiş “qaşqa” sözü izah edilmişdir: ev heyvanlarının alnındakı ağ ləkə. Bu məlumat şagirdlərə sualı cavablandırmağa kömək edəcək.

Cavab: Küçüyün alnında ağ ləkə olduğu üçün Orxan onu “Təpəl” adlandırır. “Təpəl” sözü “alnında ağ ləkə – qaşqa olan” mənası daşıyır.

**Tapşırıq b (dərslik).** Sözlərin mənasını kontekstə əsasən izah etmək bacarığı inkişaf etdirilir. Şagirdlər frazeoloji birləşmələr haqqında da məlumatlıdırlar. Onlar mətndən “ürəyi yumşalmaq” ifadəsinin işləndiyi cümləni bir daha oxuyurlar. Kontekstə əsasən bu sözün mənası anlaşılırmı? Şagirdlər fikirlərini söyləyir və əsaslandırırlar.

**Tapşırıq c (dərslik).** Cavab:

**I qrup:**

**ürəyi yanmaq** – 1. acımaq. □ *Onun bu halına ürəyi yanırdı*; 2. bərk susamaq. □ *Səməd çox susamışdı, lap ürəyi yanırdı.*

**ürəyə yatmaq** – bəyənilmək, istənilmək. □ *Dostum Əli ilk gündən nənəmin ürəyinə yatmışdı.*

**ürəyi açılmaq** – sevinməyə başlamaq. □ *Evin bağçasına baxanda adamın ürəyi açılırdı.*

**II qrup:**

**ürəyi ağrımaq** – acımaq. □ *O qədər çox işləyirsən ki, sənə baxanda ürəyim ağrıyır.*

**ürəyi sıxılmaq** – kədərdən, acınacaqlı bir işdən üzülmək, qüssələnmək. □ *Son günlər işlərim düz gətirmir deyə ürəyim sıxılır.*

**ürəyi dağa dönmək** – qürurlanmaq, böyük sevinc hissi keçirmək, fərəhlənmək. □ *İşğaldan azad olan torpaqlarımıza baxanda adamın ürəyi dağa dönür.*

**III qrup:**

**ürəyi düşmək** – qəfil, gözlənilməz xəbər və ya davranışdan bərk qorxmaq. □ *Təcili yardım maşınının səsini eşidəndə ürəyim düşdü.*

**ürəyi əsmək** – həyəcanlanmaq, qorxmaq, narahat olmaq. □ *Səhnəyə çıxanda həyəcandan ürəyim əsirdi.*

**ürəyi gəlməmək** – 1. qıymamaq. □ *Qızılgülləri kolundan qoparmağa ürəyim gəlmirdi*; 2. qorxmaq, ehtiyat etmək. □ *Qabağa çıxıb sözünü deməyə ürəyi gəlmirdi.*

**IV qrup:**

**ürəyi qopmaq** – bərk qorxmaq, həyəcan keçirmək. □ *İldırımın səsindən ürəyim qopdu.*

**ürək qızdırmaq** – inanmaq, etibar etmək, güvənmək. □ *Mən bu adama heç inanmıram, nədənsə ona ürəyim qızmır.*

**ürəyi sınmaq** – incimək, narazı qalmaq. □ *Səndən çox incimişəm, o sözündən ürəyim sınıb.*

### Oxuyub-qavrama

**5-2.2.1. Tapşırıq ç (dərslik).** Cavab:

1. ... , çünki Orxanda sümük xəstəliyi var idi.

2. ... , çünki əzələləri zəifləməsin deyə Təpəl çox gəzməli idi.

3. ... , çünki Təpəllə birlikdə özü də gəzirdi.

**5-2.1.2. Tapşırıq a, b, c (iş dəftəri).** Tapşırıqlar şagirdlərin "Orxan və Təpəl" mətnini nə qədər diqqətlə oxuduqlarını yoxlamağa yönəlmişdir.

**a tapşırığının düzgün cavabları:**

1 – E; 2 – C; 3 – B; 4 – D; 5 – A.

**b tapşırığının düzgün cavabları:**

1 – doğru; 2 – yanlış; 3 – yanlış;
4 – doğru; 5 – yanlış; 6 – doğru.

**c tapşırığının düzgün cavabı:** Dənizdə.

**Tapşırıq ç (iş dəftəri). Cavablar təxminən belə ola bilər:**

1. Orxan zədə almış kimsəsiz küçüyü evlərinə apardı.

2. Küçük sağalsın deyə onunla hər gün gəzir, küçüyün qayğısına qalırdı.

### Yazı

**5-3.2.1. Tapşırıq d (iş dəftəri).** Tapşırıq oxu və yazı məzmun xətlərinin inteqrasiyasına imkan yaradır.

**Şagirdlər təxminən belə yaza bilərlər:**

*O gündən Orxan hər gün küçüyü ilə parka gedib gəzirdi. O, sevimli dostu ilə söhbət edir, oynayırdı. Orxan topu çəmənliyə atır, Təpəl topu ağzı ilə götürüb ona gətirirdi.*

*Beləcə, dostlar birlikdə vaxt keçirirdilər.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını izah edir. | Tap. a, b, c (D.) |
| Mətndəki hadisələrin açıq şəkildə göstərilən səbəbini izah edir. | Tap. ç (D.) |
| Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir. | Tap. a, b, c, ç (İ.D.) |
| Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir. | Tap. d (İ.D.) |

## 2-ci dərs. Orxan və Təpəl

• Dərslik: səh. 12 • İş dəftəri: səh. 8

**Təlim məqsədləri**

**1.** Oxuduğu mətni plan əsasında nəql edir **(st. 5-1.3.1).**

**2.** Mətndəki fakt və fikirləri müqayisə etməklə gəldiyi nəticələri əsaslandırır **(st. 5-2.3.2).**

**3.** Verilmiş plan əsasında hekayə yazır **(st. 5-3.2.2).**

### Mövzuya yönəltmə

Müəllim "Orxan və Təpəl" mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

• Orxan hansı xəstəlikdən əziyyət çəkirdi?
• Həkim Orxana hansı məsləhətləri verdi?
• Orxan məsləhətlərə niyə əməl etmirdi?
• Orxan tapdığı küçüyü niyə məhz "Təpəl" adlandırdı?
• Baytar küçüyü müayinə edib nə dedi?
• Necə oldu ki, Orxanın da ayağı sağaldı?

### Danışma

**5-1.3.1. Tapşırıq a (dərslik).** Tapşırıq üç mərhələdə yerinə yetirilir. Şagirdlər mətni yenidən oxuyur, yarımbaşlıqlara ayırır, sonra isə nəql edirlər.

**Müəllimin nəzərinə!** Bu tapşırığın nəqletmə mərhələsində bir şagirdin bütün mətni nəql etməsi məqsədəuyğun deyil. Yaxşı olar ki, şagirdlər mətni yarımbaşlıqlarla adlandıranda müəllim həmin yarımbaşlıqları lövhədə yazsın. Daha sonra şagirdlər növbə ilə yarımbaşlıqlara aid hissəni nəql etsinlər. Bu halda sinifdəki bütün şagirdlər fəal olacaqlar.

**Yarımbaşlıqlar təxminən belə ola bilər:**

• Yeni dost
• Müayinə
• Əyləncəli vaxt
• Xoş sürpriz

### Oxuyub-qavrama

**5-2.3.2. Tapşırıq b (dərslik).**

Müəllim yönəldici suallar vasitəsilə tapşırığın düzgün və asanlıqla yerinə yetirilməsinə nail ola bilər:

– Bumeranq nədir?
– Bu əşyanı hansı məqsədlə istifadə edirlər?
– Bumeranqın hansı xüsusiyyəti var?

– “Effekt” sözünün mənası nədir?

– “Bumeranq effekti” ifadəsinin mənasını izah edin. Bumeranqın hansı xüsusiyyətinin bu ifadənin yaranmasında rolu var?

– “Orxan və Təpəl” mətninin ideyasını “Bumeranq effekti” ifadəsi ilə ifadə etmək olarmı? Niyə belə düşünürsünüz? Mətnə istinad etməklə fikrinizi əsaslandırın.

**Müəllim şagirdlərin fikirlərini belə yekunlaşdıra bilər:**

Bumeranqın geri qayıtma keyfiyyətini yaxşılıq və pisliklə müqayisə etmək olar:

– Yaxşılıq və pislik də bumeranq kimidir. Nə vaxtsa mütləq geri qayıdır. Dilimizdə bununla əlaqəli müxtəlif atalar sözləri də var. Məsələn, “Nə əkərsən, onu da biçərsən”, “Nə tökərsən aşına, o da çıxar qaşığına” və sairə.

### Yazı

**5-3.2.2. Tapşırıq a (iş dəftəri).** Şagirdlər aşağı siniflərdə hekayə, onun məzmun və struktur xüsusiyyətləri haqqında məlumat alıblar. Müəllim şagirdlərə mövzunu xatırladır. Hekayədə “bumeranq effekti”nin mahiyyəti açılmalıdır. Hekayənin məqsədi oxucuya “Nə əkərsən, onu biçərsən” mesajını ötürməkdir. Sonra şagirdlərə hekayə yazmaq üçün tövsiyələr verilir:

– Hekayənin giriş hissəsində baş qəhrəman haqqında məlumat verilir.

– Əsas hissədə çox zaman qəhrəmanın rastlaşdığı problemlər təsvir edilir.

– Hekayənin sonluq hissəsində hadisələrin nəticəsi təqdim edilir.

Hekayələr şagirdlərin təxəyyülünə uyğun yazılacağı üçün müxtəlif variantlarda ola bilər.

**Şagirdlərin yazısını qiymətləndirmək üçün aşağıdakı meyarlardan istifadə edilə bilər:**

| Meyarlar | Əla | Yaxşı | Zəif |
|---|---|---|---|
| Hekayə mövzuya uyğun yazılıb. | | | |
| Hekayə əsas fikri əks etdirir. | | | |
| Mətni tərkib hissələrinə (giriş, əsas hissə, sonluq) düzgün ayırıb. | | | |
| Yazıda ədəbi dilin normalarına əməl edilib. | | | |

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətni plan əsasında nəql edir. | Tap. a (D.) |
| Oxuduğu mətnlərin ideya yaxınlığını müəyyən edir. | Tap. b (D.) |
| Verilmiş plan əsasında hekayə yazır. | Tap. a (İ.D.) |

## 3-cü dərs. Yaxşılıq zənciri

• Dərslik: səh. 12 • İş dəftəri: səh. 9

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətndəki hadisələrin ardıcıllığını müəyyən edir **(st. 5-1.1.2).**

**2.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**3.** Şifahi nitqində orfoepiya normalarına (sözlərdə sait və samitlərin tələffüzü) riayət edir **(st. 5-1.4.1).**

**4.** Oxuduğu və dinlədiyi mətnlərin ideya yaxınlığını müəyyən edir **(st. 5-2.3.5).**

### Mövzuya yönəltmə

Müəllim “Orxan və Təpəl” mətnini, mətnin mövzusunu, ideyasını xatırladır.

### Dinləmə

**5-1.1.2. Tapşırıq a (dərslik).** Müəllim dinləmə mətnini səsləndirir:

***Yaxşılıq zənciri***

*Xəstəxanada işləyən gənc tibb bacısı üzgün görünən bir xəstəyə gülümsədi. Həmin adamın əhvalı yaxşılaşdı. Vaxtilə ona xeyirxahlıq etmiş bir dostuna təşəkkür məktubu yazdı. Restoranda nahar edən dostu məktubu oxuyub çox şad oldu, yediyinin haqqını artıqlamasilə ödədi. Pulun çoxluğundan heyrətlənən ofisiant restoranın böyürbaşında hərlənən bir imkansız uşağı öz hesabına yedizdirdi. Uşaq çox sevindi, çünki iki gün idi dilinə bir şey dəymirdi. O, küçədə gedərkən so-*

*yuqdan titrəyən bir küçüyə rast gəldi. Küçüyü qucağına alıb evlərinə gətirdi. Qonşuluqda yaşayan həmin tibb bacısına verdi. Soyuqdan qurtulduğu üçün küçük çox xoşbəxt idi. Gecə hamı yatmışdı. Evdə yanğın başladı. Küçük evdəkiləri oyadana qədər hürdü. Beləcə, hamı yanğından xilas oldu.*

**Cavab:** 1 – c; 2 – a; 3 – e; 4 – b; 5 – d; 6 – ç.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

1. ... , ona görə də həmin adamın əhvalı yaxşılaşdı.

2. ... , çünki vaxtilə dostu ona xeyirxahlıq etmişdi.

3. ... , çünki məktubu oxuyub sevinən müştərisi yediyinin haqqını artıqlamasilə ödəmişdi.

4. ... , çünki küçədə çox soyuq idi, öz evində isə küçüyə baxmağa imkanı yox idi.

5. ... , çünki evdə yanğın var idi.

**Tapşırıq b (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda verilən fikirlərə yönəldir:

– Bu fikirlərdən hansı ilə razısınız?

Şagirdlər iki qrupa ayrılırlar. Hər bir qrup nümunələr gətirməklə fikirlərini əsaslandırır.

**5-1.4.1.** Müəllimin müzakirə zamanı şagirdlərin şifahi nitqində orfoepiya normalarına riayət etməsinə diqqət yetirməsi tövsiyə olunur.

**5-2.3.5. Tapşırıq c (dərslik).** Cavablar təxminən belə ola bilər:

- Mətnlərin ikisi də hekayədir.
- Hər iki mətndə yaxşılıqdan, xeyirxahlıqdan danışılır.
- Mətnlərin ideyası eynidir: Yaxşılıq elə, yaxşılıq gör.

**Tapşırıq b (iş dəftəri).**

Cavab: 1 – C; 2 – B; 3 – B; 4 – A; 5 – C.

**Tapşırıq c (iş dəftəri).**

Cavab: Yaxşılıq itməz.

Yaxşılıq yerdə qalmaz.

Yaxşılıq eləyən yaxşılıq görər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndəki hadisələrin zaman ardıcıllığını müəyyən edir. | Tap. **a** (D.) |
| Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. **b** (D.) |
| Şifahi nitqində orfoepiya normalarına (sözlərdə sait və samitlərin tələffüzü) riayət edir. | Tap. **b** (D.) |
| Müxtəlif mətnləri mövzu, məzmun baxımından müqayisə edir. | Tap. **c** (D.), tap. **b** (İ.D.) |
| Dinlədiyi mətndəki hadisələrin açıq şəkildə göstərilən səbəbini izah edir. | Tap. **a** (İ.D.) |
| Oxuduğu və dinlədiyi mətnlərin ideya yaxınlığını müəyyən edir. | Tap. **c** (İ.D.) |

## 4-cü dərs. Yaxşılıq zənciri

- Dərslik: səh. 12

**Təlim məqsədləri**

**1.** Verilmiş mövzu ilə bağlı təxəyyülü əsasında bədii mətn yazır **(st. 5-3.2.2).**

**2.** Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir **(st. 5-3.1.2).**

### Mövzuya yönəltmə

Şagirdlərin diqqəti mövzuya yönəldilir:

– "Orxan və Təpəl" və "Yaxşılıq zənciri" mətnləri nə haqdadır?

– Bu mətnlərdən hansı nəticələri çıxardınız?

### Yazı

**5-3.2.2. 5-3.1.2. Tapşırıq a (dərslik).** Əvvəlcə müəllim şagirdlərə yönəldici suallar verir:

– Yaxşılıq zəncirinin neçə halqası oldu?

– Yaxşılıq zənciri nə ilə başlayıb nə ilə bitdi?

Daha sonra isə şagirdlər "Yaxşılıq zənciri" mətnində yaxşılıq "zəncir"inə yeni "halqalar" əlavə etməklə mətni genişləndirirlər.

**Məsələn, halqaların biri belə ola bilər:**

*Yanğından xilas olan tibb bacısı və ailəsi çox sevindilər. Sahib çıxdıqları küçük onları böyük bir bəladan qurtarmışdı. Bu hadisədən sonra ailə üzvləri kimsəsiz heyvanların qayğısına qaldılar: yemlədilər, xəstə olanları baytara apardılar.*

Yazı fəaliyyətini bitirdikdən sonra hər kəs öz yazısını oxuyur, səhvləri düzəldir. Sonra cütlərin üzvləri yoldaşının essesini oxuyub münasibət bildirir və səhvlərini qeyd edir.

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdə

yazı işinin yoxlanılması və münasibət bildirməklə bağlı təlimatlandırılıblar. Münasibət bildirərkən əvvəl xoş, müsbət fikirlər söylənilir.

Yazı işini yoxlayarkən əsasən aşağıdakılar nəzərə alınmalıdır:

– sözlərin orfoqrafik normalara uyğun yazılması;
– durğu işarələrindən düzgün istifadə;
– sözlərin kontekstə uyğun istifadəsi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş mövzu ilə bağlı təxəyyülü əsasında bədii mətn yazır. | Tap. **a** (D.) |
| Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir. | Tap. **a** (D.) |

## 5-ci dərs. Sözlərdə samitlərin deyilişi və yazılışı

• Dərslik: səh. 13 • İş dəftəri: səh. 10

**Təlim məqsədləri**

**1.** Kar və cingiltili samitləri fərqləndirir **(st. 5-4.1.1).**
**2.** Sözlərdə samitlərin (d – t, k – g , b – p və s.) yazılışı və tələffüzü qaydalarına riayət edir **(st. 5-4.1.2).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).**

Cavab: ç – c, k – g, z – s, d – t.

**Dil qaydaları**

**5-4.1.1. "Yadda saxla" rubrikası.** Müəllim şagirdlərə kar və cingiltili samitlər haqqında məlumat verir.

Müəllim "Qlossari" rubrikasında verilmiş "transkripsiya" sözünü izah edir.

**Tapşırıq b (dərslik).** Samitlərin növləri haqqında bilgilərin möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq c (dərslik).** Cavab:

b, q, t, z – "t" samiti kar, digərləri cingiltilidir.
x, c, k, h – "c" samiti cingiltili, digərləri kardır.
f, ğ, n, y – "f" samiti kar, digərləri cingiltilidir.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

I sütun: *abidə, meydan, mənzil, nərgiz, uğur, dalğa, zərbə*.

II sütun: *püşk, kosa, şəfa, ipək, köks, sükut, çöp*.

III sütun: *arif, sarışın, ticarət, hekayə, imtahan, jeton, şöhrət*.

**Tapşırıq b (iş dəftəri).** Cavab: hünər, tufan.

**Müəllimin nəzərinə!** İş dəftərində təqdim edilmiş C tapşırığının yerinə yetirilməsindən əvvəl xatırladılır: "b, c, d, g" samitləri ilə bitən sözlərin düzgün yazılışını müəyyən etmək üçün sözə saitlə başlanan şəkilçi və yaxud söz artırmaq olar. Məsələn, şabalıd, yoxsa şabalıt? *Şabalıdın, şabalıd almaq*. Deməli, "şabalıd" sözü "d" hərfi ilə yazılır.

Cavab: şabalıd, kərpic, bulud, kitab, çələng, tələffüz, məqsəd, pələng, qılınc, qutab.

**5-4.1.2. Tapşırıq ç (iş dəftəri).** Cavab:
dərd çəkmək; bürünc medal; savab iş.

**Tapşırıq ç (dərslik).** Tapşırıq şagirdlərin diqqətini kar və cingiltili qarşılığı olan samitlərə və belə samitlərin iştirak etdiyi sözlərin tələffüzünə, düzgün yazılışına yönəlib.

Cavab: sənəd (rəsmi kağız) – sənət (peşə); qəlp (saxta) – qəlb (ürək).

Növbəti "Yadda saxla" rubrikasında kar və cingiltili samit cütləri və onların tələffüzü haqqında məlumat şərh edilir.

**5-4.1.2. Tapşırıq d (dərslik).**

Cavab: bulud, əlbəttə, saqqız, çiçək, tüfəng, tappıltı, seçki, corab.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərdə samitlərin yazılışı və tələffüzü qaydalarına riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 3-cü fəsil

## 1-ci dərs. Jan Valjan

• Dərslik: səh. 14-15 • İş dəftəri: səh. 11

**Təlim məqsədləri**

**1.** Bədii mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir **(st. 5-2.1.1).**

**2.** Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını izah (təxmin) edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**

**3.** Söz tərkibindəki morfemlərin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir **(st. 5-4.4.1).**

**4.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**5.** Mətnin məzmunundan çıxış edərək hadisələrin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**

**Mövzuya yönəltmə**

Müəllim lövhəyə "etimad etmək", "inanmaq", "etibar etmək", "güvənmək" sözlərini yazır. Şagirdlər bu sözlərin onlarda hansı assosiasiya yaratdığı haqqında danışırlar. Müəllim yönəldici suallar vasitəsilə onları müzakirəyə cəlb edir:

– Kiminsə etibarını qazanmaq üçün hansı xüsusiyyətlərə sahib olmaq lazımdır?

– Sizin yanınızda güvənini, etibarını itirən tanışınız olubmu?

– Hansı səbəblərdən insan etibarını itirir?

**Oxu**

**5-2.1.1. "Jan Valjan" mətni. Rollu oxu.** Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan düzgün istifadə etmələrinə, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirmələrinə diqqət edir.

**Söz ehtiyatı**

**5-2.1.3. Tapşırıq a (dərslik).**

Cavab: katorqa – sürgün edilmiş cinayətkarlar üçün icbari iş yeri;

monsenyor – xristian katolik kilsəsində yüksək vəzifəli ruhaniyə müraciət;

yepiskop – xristianlıqda ali ruhani rütbəsi;

jandarm – ölkə daxilində və orduda fəaliyyət göstərən polis.

**5-4.4.1. Tapşırıq b (dərslik).** Şagirdlər "mehmanxana" sözünün iştirak etdiyi cümləni bir daha oxuyurlar. Kontekstə əsasən bu sözün mənasını təxmin edirlər: qonaqların müvəqqəti qaldığı yer. Daha sonra tapşırıqda təqdim edilmiş "xəstəxana", "kitabxana" sözlərinin izahları ilə tanış olurlar. Bu sözlərdəki "xana" morfeminin semantik mənasına diqqət edirlər. Deməli, "xana" morfemi sözlərdə yer mənasını yaradır. Belə olduğu halda "mehman" sözünün mənası "qonaq" deməkdir.

**Oxuyub-qavrama**

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).**

Cavab: 1-ci, 3-cü suallar.

**5-2.2.1. Tapşırıq b (iş dəftəri).**

**Səbəb:** Çünki o, cinayət törədib. Katorqada olduğu üçün sarı pasportu var. Sarı pasportlu insanları isə cəmiyyət qəbul etmirdi.

**Nəticə:** Yepiskop onu evinə qəbul etdi.

**Səbəb:** Çünki onun gümüş çəngəl-bıçağı oğurladığını sanmışdılar.

**Nəticə:** Jandarmlar onu buraxdılar.

**5-2.1.2. Tapşırıq c (iş dəftəri).**

**C tapşırığının cavabı təxminən belə ola bilər:**

Cənab Miriel mərhəmətlidir, çünki:

1. Hamının çəkindiyi, qapıdan qovduğu cinayətkarı evində qonaq saxladı.

2. Evindən gümüşləri oğurlamış Jan Valjanı bağışladı.

**ç (iş dəftəri) tapşırığının cavabı:**

1. Ortaboylu, enlikürək, qüvvətli bir adam idi.

2. Baxışından sərtlik, cəsarət və yorğunluq yağırdı.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dialoji mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | "Jan Valjan" mətni |
| Sözün mənasını müxtəlif üsullarla izah edir. | Tap. a, b (D.) |

| | |
|---|---|
| Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir. | Tap. **a**, **c**, **ç** (İ.D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin səbəb və nəticəsini müəyyən edir. | Tap. **b** (İ.D.) |

## **2-ci dərs.** Jan Valjan

• Dərslik: səh. 16  • İş dəftəri: səh. 12

**Təlim məqsədləri**

**1.** Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**

**2.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.3.1).**

**3.** Hadisə, təxəyyül və təəssüratları əsasında mətn yazır **(st. 5-3.2.2).**

**4.** Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir, genişləndirir **(st. 5-2.3.6).**

**5.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim keçən dərsdə oxunmuş "Jan Valjan" mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

– Jan Valjan kim idi?

– Mehmanxana sahibi nə üçün onu qəbul etmədi?

– Jan Valjan harada gecələdi?

– Jandarmlar Jan Valjanı niyə tutdular?

– Yepiskop Jan Valjanı niyə müdafiə etdi?

**Oxuyub-qavrama**

**5-2.2.1. Tapşırıq a (dərslik).**

**Cavab təxminən belə ola bilər:**

– Jan Valjan cinayətkar idi. O həbs edilmişdi. Ömrünün neçə ilini katorqada keçirmişdi. Həmin dövrdə belə insanlara sarı pasport verirdilər. Sarı pasportlu insanları cəmiyyət qəbul etmirdi. Sarı pasport sanki onları tanıtmaq üçün nişan idi.

**5-2.3.1. Tapşırıq b (dərslik).** Müəllim yönəldici suallarla tapşırığın asanlıqla yerinə yetirilməsinə təkan verir:

– Jan Valjanın təsviri bu obraz haqqında hansı təəssüratı yaratdı?

– Müəllif bu obrazın təsviri üçün hansı sözlərdən istifadə edib?

– Bu sözlər Jan Valjan obrazını təsəvvür etmək üçün yetərlidirmi?

Daha sonra müəllim "Qlossari" rubrikasında verilmiş "bədii portret" ifadəsini izah edir. Məsələn, müəllif Jan Valjanı "qüvvətli", "cəsarət" sözləri ilə təsvir etməklə bu obraza qarşı xoş münasibətini ifadə edir.

**Yazı**

**5-3.2.2. Tapşırıq c (dərslik).**

**Müəllimin nəzərinə!** Şagirdlərə "yepiskop" sözünün mənasını xatırlatmaq tövsiyə edilir. Bundan əlavə, mətndə cənab Mirielin yaşlı olduğu deyilir. Cənab Mirielin davranışlarına əsasən onun nur üzlü, mehriban simalı biri olduğunu təsəvvür etmək mümkündür. Şagirdlər bu məlumatlara əsasən cənab Mirielin zahiri görünüşünü təsvir edirlər.

**Şagirdlər təxminən aşağıdakı məzmunda yaza bilərlər:**

Cənab Miriel şəhərin yepiskopu idi. Artıq yaşlaşmışdı. Əynindəki ağ pencəyi ağarmış saçları ilə uyarlıq yaradırdı. Onun üzündən təbəssüm əskik olmazdı. Mehriban baxışları ilə insana rahatlıq gətirirdi.

**Oxuyub-qavrama**

**5-2.3.6. Tapşırıq ç (dərslik).**

**Müəllimin nəzərinə!** Tapşırığı qruplarla da yerinə yetirmək mümkündür. Hər qrup tapşırıqdakı suala cavab tapmaq üçün mətn qurur. Mətnlər müxtəlif ola bilər. Bu da yaradıcı təfəkkürün fərqli istiqamətlərdə işləyə biləcəyinə nümunədir. Təqdim olunan mətnlərdəki oxşar və fərqli epizodlar müqayisə edilir.

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).** Şagirdlər hekayə xəritəsini tamamlamaqla mətni oxuyub qavradıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir. | Tap. **a** (D.) |
| Müəllifin obraza münasibətini göstərən ifadələri və detalları müəyyən edir. | Tap. **b** (D.) |

| | |
|---|---|
| Obrazın xarici görünüşünü sözlə təsvir edir. | Tap. **c** (D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. **ç** (D.) |
| Mətnin məzmununa uyğun hekayə xəritəsi tərtib edir. | Tap. **a** (İ.D.) |

## 3-cü dərs. Madlen

• Dərslik: səh. 16 • İş dəftəri: səh. 13

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətnlə bağlı sualları cavablandırır **(st. 5-1.1.1).**

**2.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**3.** Mətnin əsas ideyasını atalar sözləri və ya aforizmlərlə əlaqələndirir **(st. 5-2.3.1).**

**4.** Əsərin mövzu, məzmun və ideyasını nəzərə alaraq annotasiya yazır **(st. 5-3.2.3).**

### Mövzuya yönəltmə

Müəllim frontal sorğu vasitəsilə “Jan Valjan” mətninin I hissəsinin və hadisələrin davamı ilə bağlı şagirdlərin tərtib etdikləri mətnlərin məzmununu xatırladır.

### Dinləmə

5-1.1.1. **Tapşırıq a (dərslik).** Şagirdlər suallarla tanış olur və dinləmə mətnindən bu suallara cavab tapmağa çalışırlar. Eyni zamanda hadisələrin davamı ilə bağlı düşüncələrini müqayisə edirlər. Müəllim dinləmə mətnini səsləndirir:

***Madlen (II hissə)***

*1815-ci ilin sonlarında Monreyldə bir qərib peyda oldu. Bu şəhərdə onu tanımırdılar. Buraya bir dekabr axşamı kürəyində torba, əlində əsa gəlmişdi. O gələndə bir evdə yanğın baş vermişdi: şəhər idarəsi yanırdı. Bu adam təhlükəni nəzərə almayaraq özünü odun içinə atmış, jandarm kapitanının uşaqlarını xilas etmişdi. Yanğında onun torbası, içində sənədləri yanmışdı.*

*Bundan sonra o, Monreyldə yaşamağa başladı. Hamı ona Madlen deyirdi.*

*Monreyldə qədimdən daş kömür və qara şüşədən bəzək əşyaları hazırlanardı. Cənab Madlen bəzək məmulatları istehsalında qatranı yapışqanla və döymə üsulunu tökmə üsulu ilə əvəz etdi. Bu iki yenilik böyük bir sənaye inqilabına səbəb oldu. Üç il ərzində o, varlı bir adam oldu. Madlenin kəşfi sayəsində Monreyl iri ticarət mərkəzinə çevrilmişdi.*

*Madlen dalğın baxışlı və mərhəmətli bir adam idi. Hər kəsi işə götürür, işçilərindən yalnız namuslu olmağı tələb edirdi. O, şəhər yoxsullarına 1 milyon frank xərcləmişdi. Xəstəxananı böyütmüş, qızlar üçün iki məktəb tikdirmiş, qoca və şikəst fəhlələr üçün pulsuz aptek açmışdı.*

*1821-ci ildə qəzetlər yepiskop Mirielin 82 yaşında vəfat etdiyini yazdılar. Ertəsi gün cənab Madlen qara paltar geyinib şlyapasına matəm lenti taxaraq şəhərdə göründü. Adamlar onun yas saxlamasının səbəbini soruşanda demişdi:*

*– Gəncliyimdə onun yanında xidmət etmişəm...*

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər dinlədikləri mətnin qısa məzmununu yazmaqla mətni qavradıqlarını nümayiş etdirir.

### Danışma

5-1.2.2. **Tapşırıq b (dərslik).** Müəllim şagirdləri tapşırıqda verilmiş fikirlərə yönəldərək soruşur:

– Bu fikirlərdən hansı ilə razısınız?

Şagirdlər iki qrupa ayrılırlar. Hər bir qrup nümunələr gətirməklə fikirlərini əsaslandırır.

**Tapşırıq c (dərslik).** Şagirdlər Jan Valjanın xarakterinin süjet boyu necə dəyişdiyini izləyir və oxuduğu, dinlədiyi mətnlərə əsasən izah edirlər.

**Cavablar təxminən belə ola bilər:**

| Jan Valjan əvvəl | Jan Valjan sonra |
|---|---|
| sərt | mərhəmətli |
| kasıb | varlı |
| inamsız | özgüvənli |
| oğru, əliəyri | namuslu, düzgün |
| qaraqabaq | xeyirxah |
| quldurabənzər | səliqəli, xoş görünüşlü |

### Oxuyub-anlama

5-2.3.1. **Tapşırıq ç (dərslik).** Tapşırıqda verilmiş aforizm oxunur. Müəllim tapşırığın asanlıqla yerinə yetirilməsi üçün aşağıdakı yönəldici suallardan istifadə edə bilər:

– Jan Valjan obrazı necə dəyişdi?

– Bu xarakterin dəyişməsinə nə səbəb oldu?

– Siz bu mətnlərdən hansı nəticəni çıxardınız?

Suallar ətrafında müzakirədən sonra müəllim

soruşur:

– Sizcə, bu aforizm "Jan Valjan" mətninin ideyasını əks etdirirmi? Mətndən nümunələr gətirməklə fikrinizi əsaslandırın.

Şagirdlər yönəldici suallara cavab verməklə tapşırığı yerinə yetirirlər.

**Yazı**

**5-3.2.3. Tapşırıq b (iş dəftəri).**

**Müəllimin nəzərinə!** Şagirdləri yazı fəaliyyətinə başlamazdan əvvəl aşağıdakı məlumatlarla tanış etmək tövsiyə edilir:

1) Annotasiyanın əvvəlində əsərin müəllifi haqqında məlumat verilir. Sinifdə araşdırma aparmaq imkanı olan şagirdlər Viktor Hüqo haqqında məlumat toplaya bilərlər. Araşdırma imkanı olmayan şagirdlərə isə müəllim yazıçı haqqında məlumat verə bilər.

• Viktor Hüqo fransız yazıçısıdır.

• XIX əsrdə yaşayıb-yaratmışdır.

• "Səfillər", "Paris Notr-Dam kilsəsi" ən məşhur əsərləridir.

2) Şagirdlər 3-cü sinifdə Viktor Hüqonun "Səfillər" əsərinin müəyyən hissələri ilə tanış olublar. Kozetta, Qavroş obrazları haqqında məlumatları var. Şagirdlər annotasiya yazarkən bu məlumatlardan istifadə edə bilərlər.

3) Annotasiya yazılarkən nəzərə alınmalıdır: annotasiyada hadisələrin sonluğu, nəticəsi göstərilməməlidir. Əsərin məzmunu ətraflı, detallarla əks etdirilməməlidir. Oxucunun diqqətini cəlb edən, mütaliəyə həvəs yaradan məqamlardan istifadə edilməlidir.

**Annotasiyanın məzmunu təxminən aşağıdakı kimi ola bilər:**

"Səfillər" romanının müəllifi böyük fransız yazıçısı Viktor Hüqodur. Əsərdə bir neçə obrazın həyatı təsvir edilir. Katorqada dustaq olan Jan Valjan azadlığa çıxıb. Lakin sarı rəngli pasportun sahibi olduğundan gecələmək üçün döydüyü bütün qapılardan qovulur. İnsanlar ondan qorxur, cəmiyyət onu qəbul etmir. Bəs, görəsən, Jan Valjana mərhəmət göstərən biri tapılacaqmı?

Kozetta əsərin digər bir obrazıdır. Səfalət içində yaşayan balaca qız tamahkar insanlara xidmətçilik edir. Kozetta ömrünün sonuna qədər bu insanlarlamı yaşayacaq? Qızcığaz çıxış yolu tapacaqmı?

Hüqonun möhtəşəm qəhrəmanlarından biri olan Qavroş yaşadığı çətinliklərə baxmayaraq, güləruz bir oğlandır. Bir qədər kobud olsa da, bacarıqlı, fərasətli və cəsurdur. Paris küçələrində səfil həyat sürür. Bəs Qavroşun sonrakı taleyi necə olacaq?

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətnlə bağlı sualları cavablandırır. | Tap. **a** (D.) |
| Dinlədiyi mətnin qısa məzmununu yazır. | Tap. **a** (İ.D.) |
| Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. **b** (D.) |
| Süjet boyu xarakterin necə dəyişdiyini izləyir və izah edir. | Tap. **c** (D.) |
| Mətn müəllifinin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir. | Tap. **ç** (D.) |
| Oxucuda əsərə maraq oyatmaq üçün annotasiya yazır. | Tap. **b** (İ.D.) |

## 4-cü dərs. "Səhvimi anladım" hekayəsi

• Dərslik: səh. 16

**Təlim məqsədləri**

**1.** Verilmiş mövzu ilə bağlı təxəyyülü əsasında bədii mətn yazır **(st. 5-3.2.2).**

**2.** Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir **(st. 5-3.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim lövhəyə keçən dərs müzakirə olunmuş aforizmi yazır:

*İnsanı inkişaf etdirən və tərbiyələndirən yaşadığı cəmiyyət və mühitdir. İnsan bir fərd olaraq yaşadığı cəmiyyətin övladıdır. (D.Terner)*

Sonra yönəldici suallarla beyin həmləsi edir:

– Sizcə, xarakterin dəyişməsinə nə səbəb olur?

– Səhv etmiş insana ikinci şans vermək lazımdırmı? Nə üçün?

**Yazı**

**5-3.2.2. Tapşırıq a (dərslik).** İlk mərhələdə müəllim şagirdlərə mövzunu xatırladır. Şagirdləri tapşırıqda təqdim edilmiş təlimatla tanış edir.

Şagirdlərin təxəyyülünə uyğun yazıldığı üçün hekayələr müxtəlif ola bilər. Şagirdlər hətta aşağı siniflərdə oxuduqları hekayələrin süjet xəttindən istifadə edə bilərlər. Məsələn:

***Sınmış fincan***

*Bir dəfə ana evə gələndə gördü ki, onun sevimli yaşıl fincanı sınıb. Evdə isə təkcə Murad, bir də Məstan adlı pişik var idi.*

*Ana soruşdu:*

*– Fincanı kim sındırıb?*

*Murad çiyinlərini çəkdi.*

*– Aha, deməli, Məstan sındırıb, – deyə ana hirslənib Məstanı çölə çıxartdı və qapını örtdü.*

*– Ana, çöl soyuqdur axı, Məstan üşüyər, – Murad dilləndi.*

*– Eybi yoxdur, qoy başa düşsün ki, qabları sındırmaq olmaz.*

*Ana öz işi ilə məşğul oldu, pişiyi də, Muradı da unutdu. Bir azdan gördü ki, pişik evdə gəzir, amma Murad yoxdur. Aydındır ki, pişiyi evə Murad buraxmışdı. Ana onu xeyli axtardı, tapa bilmədi. Axırda qapını açıb çölə çıxdı.*

*Murad bayırda idi. Soyuqdan tir-tir əsirdi.*

*– Sən burada neyləyirsən? – deyə ana həyəcanla Muraddan soruşdu.*

*Murad başını aşağı salıb titrəyə-titrəyə dedi:*

*– Ana, fincanı mən sındırmışam.*

**5-3.1.2.** Bir-birinin yazısını qiymətləndirmək üçün müəllim bu meyarları təqdim edə bilər:

1. Obrazların təsviri ilə onların zahiri görünüşü və xarakteri haqqında təsəvvür yaradılır.
2. Hadisələrin baş verdiyi yer təsvir edilir.
3. Qəhrəmanın dəyişməsinə səbəb olan hadisə təsvir edilir.
4. Yazıda orfoqrafiya normalarına əməl edilir.
5. Durğu işarələrindən düzgün istifadə edilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş təlimatın köməyi ilə bədii mətn yazır. | Tap. **a** (D.) |
| Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir. | Tap. **a** (D.) |

## 5-ci dərs. "K" samitinin deyilişi və yazılışı

• Dərslik: səh. 17 • İş dəftəri: səh. 14

**Təlim məqsədləri**

**1.** "K" samitinin düzgün tələffüz və yazılış qaydasına əməl edir **(st. 5-4.1.2).**

**Mövzuya yönəltmə**

Dərsin ilk tapşırığı vasitəsilə şagirdləri mövzuya yönəltmək olar.

**5-4.1.2. Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqda verilmiş söz və söz birləşmələrini ucadan səsləndirirlər. Müəllim onların diqqətini "k" samitinin səslənməsinə yönəldir.

"K" hərfinin sözlərin tərkibində səslənməsi belədir:

1. **k**obud, sa**k**it – [k]
2. di**k**tor, **k**omanda – [k']
3. hik**k**ə, sürüş**k**ən – [g]
4. yemə**k** masası, xörə**k** çəkmək – [x']
5. liderli**k** etmək, ürə**k** ağrısı – [y]

"K" hərfinin ifadə etdiyi səslər haqqında müəyyən təsəvvür yarandıqdan sonra "Yadda saxla" rubrikası üzərində iş aparılır.

**Müəllimin nəzərinə!** "K" hərfinin səslənməsini əzbərlətmək vacib deyil. Məqsəd "k" hərfinin düzgün yazılışını öyrətməkdir.

"Qlossari" rubrikasında sözlərin düzgün tələffüzünün orfoepik norma olduğu bildirilir.

**Tapşırıq b (dərslik).** Tərkibində "k" hərfi işlənən sözləri orfoepik normaya uyğun yazdıqdan sonra cədvəl üzrə qruplaşdırmaq tələb olunur.

Cavab:

*1. [k'ampot], [k'ansert], [tank'], [k'anfet], [k'apitan], [k'ak'tus];*

*2. [əmlak], [kələm], [keçi], [kəndir], [kağız], [kirpi];*

*3. [diləx'], [üzüx'], [çiçəx'], [ləçəx'], [biləx'], [örnəx'];*

*4. [pişiyotu], [döşəyüzü], [ürəyaçan], [çörəyotu];*

*5. [sürtgü], [seçgi], [səpgi], [itgi].*

**Müəllimin nəzərinə!** Bu, çətin tapşırıq olduğu üçün izahat işi aparmaqla lövhədə şagirdlərlə birlikdə işlənsə, nəticəsi daha effektiv olar.

Növbəti "Yadda saxla" rubrikasında k – y əvəzlənməsi haqqında məlumat verilir. Şagirdlərə izah edilir ki, bəzi "k" ilə bitən sözlərə saitlə başlanan şəkilçi əlavə edildikdə "k" hərfi "y" ilə əvəz olunur. Bu dəyişiklik yazıda baş verir.

**Tapşırıq c (dərslik).** Bu tapşırıq qazanılmış biliyin tətbiqetməsinə xidmət edir. Nöqtələrin yerinə uyğun hərfi yazmaqla cümlələri tamamlamaq lazımdır.

Cavab:

*1. Səidə çiçəkləri dibçəyə qoydu.*
*2. Ananın tədbirdə iştirakı hamını kövrəltdi.*
*3. Arı qızılgülün ləçəyinə qondu.*
*4. Hamı alqışlarla bu təbrikə qoşuldu.*
*5. Atası Maliki üzgüçülüyə yazdırdı.*
*6. Bacısı Mələyin köynəyini ütülədi.*

**Tapşırıq a (iş dəftəri).** Bu tapşırıq əldə olunan bilikləri möhkəmləndirir. Tərkibində "k" hərfi işlənən sözlər verilib. Bu sözləri "k" hərfinin tələffüzünə uyğun qruplaşdırmaq tələb olunur.

Cavab:

*[k] – küçə, tülkü, sakin, məkan, kök;*
*[k'] – kabinet, klub, kaktus, makaron, fakt;*
*[g] – itki, bitki, yetkin, sürtkü;*
*[x'] – dirək, ürək, xizək, tənlik, mələk;*
*[y] – mixək ətri, örnək olmaq, bilik almaq, istiliköl̇çən.*

**Tapşırıq b (iş dəftəri).** Tərkibində orfoqrafik səhvlər buraxılmış cümlələr verilib. Şagirdlər səhvləri düzəldərək cümlələri yenidən köçürməlidirlər.

*1. Şair onu ürəkdən alqışlayan tamaşaçılara təşəkkür etdi.*

*2. Dağların ətəkləri kəklikotu, qantəpər və başqa faydalı bitkilərlə dolu idi.*

*3. Çiçək hər zaman bilmədiklərini öyrənməyə çalışır.*

*4. Düzənlikdə ala-bəzək kəpənəklər, xallı böcəklər uçuşurdu.*

*5. Məstan mütəkkəyə qısılıb küskün nəzərlərlə baxırdı.*

*6. Tədbirin aparıcısını püşkatma yolu ilə müəyyən etdik.*

*7. Şimşəyin işığı göz qamaşdırırdı.*

Bu tapşırıq vasitəsilə "k" hərfinin yazılışı və tələffüzü şagirdlərə mənimsədilir.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| "K" samitini orfoepik normaya uyğun fərqləndirir. | Tap. a (D.) |
| Sözləri tərkibindəki "k" samitinin tələffüzünə uyğun qruplaşdırır. | Tap. b (D.), tap. a (İ.D.) |
| Müxtəlif səslər ifadə edən "k" samitinin düzgün yazılışına riayət edir. | Tap. c (D.), tap. b (İ.D.) |

# 4-cü fəsil

## 1-ci dərs. Sözün qüdrəti

• Dərslik: səh. 18-19 • İş dəftəri: səh. 15

**Təlim məqsədləri**

**1.** Durğu işarələrini nəzərə almaqla bədii mətni müvafiq səs tonu ilə oxuyur **(st. 5-2.1.1).**
**2.** Kontekstdən çıxış edərək sözün mənasını anladığını nümayiş etdirir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**
**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim lövhəyə bu atalar sözlərini yazır:

1. Qılınc yarası sağalar, söz yarası sağalmaz.
2. İstədiyini deyən istəmədiyini eşidər.

Şagirdlər atalar sözlərini şərh edərək müzakirə açırlar.

**Oxu**

**5-2.1.1.** "Sözün qüdrəti" mətni müəyyən edilmiş müddətdə səssiz oxunur. Müəllim tapşırır ki, şagirdlər oxuduqca mətndən tanış olmayan sözləri qeyd etsinlər. Oxu başa çatdıqdan sonra şagirdlər mənasını anlamaqda çətinlik çəkdikləri sözləri səsləndirirlər. Sonra müəllimin köməyi ilə onların mənasını izah edib lüğətlə yoxlayırlar.

Şagirdlər mətnin məzmunu ilə tanış olduqdan sonra durğu işarələrini nəzərə almaqla mətni müvafiq səs tonu ilə oxuyurlar. Durğu işarələrinin funksiyasını, rolunu şərh etməklə bədii mətnin dil-üslub xüsusiyyyətlərini də nəzərdən keçirmək tövsiyə olunur.

**Söz ehtiyatı**

**5-2.1.3. Tapşırıq a (dərslik).** Bu tapşırıqda bəzi sözlərin izahı verilib. İzahlara uyğun sözləri (*endirim, qəpik-quruş, yekdil*) "Söz boğçası"ndan seçmək lazımdır. Şagirdlər təxminlərini dərsliyin sonundakı lüğətlə dəqiqləşdirib düzgün cavabı müəyyən edə bilərlər.

**Tapşırıq b (dərslik).** Tapşırığın tələbinə görə "sərgi" sözünün mətndəki mənasına aid izahı seçmək lazımdır. Şagirdlər bu sözü hər iki mənada cümlədə işlətməklə onları fərqləndirə bildiklərini nümayiş etdirirlər.

"Qlossari" rubrikasında "detektiv" termininin izahı verilir.

**Oxuyub-anlama**

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).** Tapşırığın əsas məqsədi oxuyub-anlamanı möhkəmləndirməkdir. Məzmuna aid sualları cavablandırmaqla şagirdlər mətni mənimsədiklərini nümayiş etdirirlər.

Cavablar təxminən belə ola bilər:

*1. Nərmin yoldaşları ilə kobud danışırdı. Sözlərinin kiminsə qəlbinə toxuna biləcəyindən qətiyyən narahat olmurdu. "Kitab oxuyun, biliyinizi artırın" kimi sözlərlə yoldaşlarını acılayırdı.*

*2. Gülərin səmimi şəkildə etdiyi təklif uşaqları həvəsləndirdi. Onlar Gülərin kitab sərgisi haqqında verdiyi maraqlı məlumatı eşitdikdən sonra getməyə razı oldular.*

*3. Qızlar xiyabanda gitara çalaraq pul qazanmaq istəyən musiqiçini gördülər. Musiqiçinin gözdən əlil olduğunu, insanların isə buna etinasız yanaşdığını görəndə çox təsirləndilər.*

*4. Gülərin xarakterindəki bir çox xüsusiyyətlər vəziyyəti dəyişdirdi. Gülər sözlərinə diqqət etməyi, ürəyəyatan ifadələr işlətməyi bacarırdı. O elə sözlər seçib yazdı ki, insanların fikrini lövhəyə cəlb edə bildi* və s.

Şagirdlər digər xüsusiyyətlər də söyləyib fikirlərini əsaslandıra bilərlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Durğu işarələrini nəzərə almaqla bədii mətni müvafiq səs tonu ilə oxuyur. | "Sözün qüdrəti" mətni |
| Kontekstdən çıxış edərək sözün mənasını anladığını nümayiş etdirir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir. | Tap. **a**, **b** (D.) |
| Mətndəki hadisələrin açıq şəkildə göstərilən səbəbini izah edir. | Tap. **a** (İ.D.) |

## **2-ci dərs.** Sözün qüdrəti

• Dərslik: səh. 20 • İş dəftəri: səh. 16

**Təlim məqsədləri**

**1.** Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**

**2.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.1.2).**

**3.** Mətnin əsas ideyasını atalar sözləri və ya aforizmlərlə əlaqələndirir **(st. 5-2.3.1).**

**4.** Mövzu ilə bağlı şəxsi mövqeyini bildirmək üçün esse yazır **(st. 5-3.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim mətni xatırlatmaq məqsədilə bütün məzmunu əhatə edən frontal sorğu keçirir.

**Oxuyub-anlama**

**5-2.2.1. Tapşırıq a (dərslik).** Tapşırığı cavablandırmaq üçün şagirdlərin analizetmə bacarığı olmalıdır. Oxuduqları mətndə hadisələrin necə cərəyan etdiyini xatırlayaraq belə bir nəticə çıxarırlar ki, əsas məqam "nə demək lazımdır" yox, "necə demək lazımdır" məsələsidir. Yolboyu Gülər nəzakətli şəkildə izah etməyə çalışsa da, Nərmin razılaşmırdı. Gülər musiqiçinin yanındakı lövhədə yazılan sözləri, müraciət tərzini dəyişdikdən sonra oradan keçən insanlar yazının qarşısında ayaq saxlayır, sözlərdən təsirlənərək yardım edirlər. Bunu görən Nərmin Gülərin haqlı olduğunu, yerində işlənən sözün necə güclü bir vasitə olduğunu anlayır.

**5-2.1.2. Tapşırıq b (dərslik).** Dərsin "Qlossari" rubrikasında "ziddiyyətli xarakter" anlayışı izah olunur. Nərmin də xaraktercə ziddiyyətli obrazdır. Həm müsbət, həm də mənfi xüsusiyyətləri aydın görünür. Epizodların birində uşaqlar hara getmək barədə düşünəndə Nərminin kobudluğu görünür. Eyni zamanda onun mütaliə etməyi, kitab sərgisi haqqında məlumatlı olmağı müsbət haldır. Qızların xiyabanda musiqiçi ilə qarşılaşdıqları epizodda Nərminin musiqiçiyə rəhmi gəlməsi, ona kömək etmək istəyi xarakterinin yaxşı olmasına işarədir. Eyni zamanda "Əşi, yazıb da: "Gözlərim görmür" deməsi onun etinasız münasibətindən xəbər verir.

Tapşırığın məqsədi məntiqi təfəkkürü inkişaf etdirmək, nəticəçıxarma bacarığını möhkəmləndirməkdir.

**5-2.3.1. Tapşırıq c (dərslik)**

<u>Cavab</u>: b. Ən gözəl fikir də pis ifadə edildikdə qiymətini itirir. *(Volter)*

Düzgün atalar sözünü seçməklə şagirdlər oxuduqları mətnin ideyasını müəyyən etmək bacarığını möhkəmləndirirlər.

**Yazı**

**5-3.2.2. Tapşırıq a (iş dəftəri).** Bu mərhələdə şagirdlər "Sözümüzə diqqət edək" adlı esse yazırlar. Esseni düzgün ardıcıllıqla yazmaq üçün verilən təlimatdan istifadə etmək lazımdır.

***Nümunə:***

***Sözümüzə diqqət edək***

*"Sözə diqqət etmək" nə deməkdir? Sözə necə diqqət etmək olar? Mənim fikrimcə, bu ifadənin mənasını anlamaq o qədər də çətin deyil. Yəni elə danışmaq lazımdır ki, heç kəs inciməsin.*

*Bəs buna riayət edə bilirikmi? Təəssüf ki, həmişə yox.*

*İnsan həyatında sözün əhəmiyyəti çox böyükdür.*

*Bəzən sənə çox doğma olan bir insanın qəlbini özün də istəmədən sözlə yaralayırsan. Üstündən illər keçir, amma bu yaranın göynərtisi keçmir. Əbəs yerə deməyiblər: "Qılınc yarası sağalar, söz yarası sağalmaz!"*

*Mən də həyatımda belə səhvə yol vermişəm.*

*Dayım kənddə yaşayır. Onun qızı Şəbnəm tətildə bizə qonaq gəlmişdi. Ara-sıra atam bizi gəzintiyə çıxarırdı.*

*Bir gün atamdan xahiş etdim ki, dənizə gedək. Hava küləkli olduğu üçün atam dənizə getməyi məsləhət görmədi. Mən israrla dedim:*

*– Ata, iki gün sonra Şəbnəm gedir. Kənddə dəniz var? Nə olar, gedək də... Şəbnəm də dəniz görsün. Heç olmasa, kəndə qayıdanda üç adamın yanında lovğalansın ki, mən də dənizdə çimmişəm.*

*Atam narazı halda başını buladı. Şəbnəm bizə yaxınlaşdı və incik səslə dedi:*

*– Aylin, düzdür, mən dənizdə olmamışam. Amma kəndimizin səfalı meşələrinə tez-tez səyahət edirəm, güllü-çiçəkli dağların başına qədər qalxıram, Kür çayının sahilində istədiyim qədər gəzirəm. Amma heç lovğalanmıram. Mən öz kəndimizin gözəlliyi ilə fəxr edirəm!*

*Mən pərt halda:*

*– Bağışla, Şəbnəm, mən elə demək istəmirdim, üzr istəyirəm.*

*Çox pərt idim. Mən Şəbnəmə yaxşılıq etmək, onu gəzdirmək istəyirdim. Amma, təəssüf ki, alınmadı. Sözlərimə diqqət edə bilməmişdim. Çox sevdiyim bir insanın qəlbini qırmışdım.*

*İndi də Şəbnəmlə aramızda bir soyuqluq var. Günahkar da mən özüməm. O vaxtdan hamı ilə danışarkən sözləri düzgün seçməyə çalışıram. Anlayıram ki, sözdən yerli-yerində istifadə, səliqəli müraciət forması insanın alicənablığının və intellektinin göstəricisidir.*

Yazı işi başa çatdıqdan sonra şagirdlərin esseləri oxunaraq müzakirə olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Obrazın təsvirindəki detallardan çıxış edərək onun davranışını əsaslandırır. | Tap. **a** (D.) |
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. **b** (D.) |
| Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir. | Tap. **c** (D.) |
| Mühakimə və arqumentlərini əks etdirməklə kiçikhəcmli esse yazır. | Tap. **a** (İ.D.) |

## 3-cü dərs. Padşahın yuxusu

• Dərslik: səh. 20 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətni plan əsasında nəql edir **(st. 5-1.3.1).**

**2.** Dinlədiyi mətndəki məlumatları (obraz, hadisə, zaman, məkan, fakt) müəyyənləşdirir **(st. 5-1.1.1).**

**3.** Dinlədiyi mətni mövzu, məzmun, struktur və ideya baxımından şərh edir **(st. 5-1.1.2).**

**4.** Dinlədiyi, oxuduğu, həyatda gördüyü hadisə və faktlar əsasında mətn yazır **(st. 5-3.2.2).**

### Mövzuya yönəltmə

Müəllim sinfə müraciət edir: “Təsəvvür edin ki, dostunuza xoş olmayan bir xəbəri çatdırmalısınız. Bunu necə edərdiniz?”

### Dinləmə

Müəllim şagirdlərə mətni diqqətlə dinləməyi tövsiyə edir.

***Padşahın yuxusu***

*Qədim zamanlarda uzaq bir məmləkətin padşahı yuxuda görür ki, dişləri tökülüb. Bu yuxu padşahı çox qorxudur. Səhər açılan kimi münəccimbaşını yanına çağırtdırır və tələb edir ki, yuxunu yozsun. Münəccimbaşı bir az düşünüb deyir:*

*– Padşah sağ olsun, deməyə də qorxuram. Çox pis, ağır yuxudur. Yuxuda dişin tökülməsi ağır faciələrdən xəbər verir. Sizin gözlərinizin qarşısında bütün ailə üzvləriniz bir-bir öləcək.*

*Padşah daha bu dəhşətli yozumun ardına qulaq asa bilmir. Ucadan qışqırır ki, münəccimbaşını atsınlar bayıra. Beləliklə, onu saraydan qovur. Lakin gördüyü qorxunc yuxu ona rahatlıq vermir. Gecə-gündüz bu barədə düşünür.*

*Bir neçə gün keçir, padşah indi də vəzirdən yuxusunu yozmasını tələb edir. Vəzir çox ağıllı və tədbirli adam idi. Münəccimbaşının əhvalatını xatırlayıb deyir:*

*– Padşah sağ olsun, məncə, Sizin ömrünüz bütün qohum-qardaşdan, oğul-uşaqdan uzun olacaq.*

*Bu sözlər padşahın çox xoşuna gəlir. Vəzirə çoxlu ənam bağışlayır.*

*– Atalar əbəs yerə deməyib ki, ho var, dağa qaldırar, ho var, dağdan endirər.*

**Müəllimin nəzərinə!** Qədim zamanlarda münəccim göy cisimlərinə əsasən gələcəkdən xəbər verən şəxs idi. Nağıllarımızda onların yuxuyozmasına da tez-tez rast gəlmək olur.

### Danışma

**5-1.3.1. Tapşırıq a (dərslik).** Mətn dinlənildikdən sonra şagirdlər birlikdə mətnin planını qururlar. Müəllim ən məqbul variantı seçir və lövhəyə yazır.

***Nümunə:***

1. Padşahın yuxu görməsi
2. Münəccimbaşının yozumu
3. Padşahın qəzəbi
4. Ağıllı vəzir

Şagirdlərdən bir neçəsi tərtib edilən plan əsasında nağılı nəql edir.

**5-1.1.1. Tapşırıq b (dərslik).** Şagirdlər mətnin məzmunundan çıxış edərək tapşırığı yerinə yetirə bilərlər. Təbii ki, bu məsəl hər hansı fikri

incə və düşünülmüş şəkildə deməyin, hər sözü yerində işlətməyin vacibliyini vurğulayan ifadə kimi işlədilir.

**Müəllimin nəzərinə!** Bu ifadə, əslində, qoşqu heyvanları ilə rəftarla əlaqədardır. Adətən, arabaya qoşulmuş öküz və kəlləri həm enişi enərkən, həm də yoxuşa qalxarkən "ho-ha, ho-ha" deyib səsləyirlər. Fərq ancaq bu ifadənin tələffüzündədir.

**Oxuyub-anlama**

**5-1.1.1. Tapşırıq a (iş dəftəri).** Dinləmə mətninin məzmununun mənimsədilməsini yoxlamaq məqsədilə iş dəftərində "Padşahın yuxusu" nağılına aid hekayə xəritəsi tərtib olunur. Şagirdlər mətnin adını, hadisənin baş verdiyi məkanı, əsas və köməkçi obrazları qeyd etdikdən sonra verilmiş plan əsasında nağılın qısa məzmununu yazırlar. Sonra hekayə xəritəsi parta yoldaşları arasında dəyişdirilərək oxunur. Qısa müzakirə aparılır. Səhvlər varsa, onlara aydınlıq gətirilir.

**5-1.1.2. Tapşırıq c (dərslik).** "Sözün qüdrəti" və "Padşahın yuxusu" mətnlərini janr və ideya baxımından müqayisə etmək üçün şagirdlərə oxuduqları mətni xatırlatmaq yaxşı olardı. Bunun üçün "Sözün qüdrəti" mətnini hissə-hissə bir neçə şagirdə danışdırdıqdan sonra müqayisə aparmaq tövsiyə edilir. Şagirdlər asanlıqla "Padşahın yuxusu" mətninin nağıl, "Sözün qüdrəti" mətninin isə hekayə olduğunu müəyyənləşdirə bilərlər. Lakin hər iki mətndə əsas fikir odur ki, insan danışarkən sözlərini düzgün seçməli, onlardan yerli-yerində istifadə etməlidir. Beləliklə, belə nəticəyə gəlmək olar ki, bu mətnlərin ideyası oxşar, janrı isə müxtəlifdir.

**Yazı**

**5-3.2.2. Tapşırıq ç (dərslik).** Dərsin növbəti tapşırığı **qruplarla iş** şəklində yerinə yetirilir.

Şagirdlər üç qrupa ayrılırlar. Hər qrupa bir situasiya təklif edilir. Bu situasiyalarda heç kimin xətrinə dəymədən çətin vəziyyətdən çıxmaq problemi qoyulmuşdur. Şagirdlərdən onu həll etmək tələb olunur.

***Nümunə:***

1. Uşaqlar, bu gün mən özümü çox pis hiss edirəm. Çünki ən qiymətli hədiyyəmi – dostumun bağışladığı qələmi sinifdə itirmişəm. O hər kəs üçün adi qələmdir. Amma mənə görə mənəvi dəyəri əvəzsizdir. Ümid edirəm ki, siz mənə dostumun yadigarını tapmaqda kömək edəcəksiniz. Axı siz də əsl dostlarsınız.

2. Misal bir qədər çətindir. Sən necə həll etməyi düşünürsən? İstəyirsən, gəl birlikdə həll etməyə çalışaq. Əvvəlcə bütün əməlləri gözdən keçirək. Görək nədən başlamaq lazımdır. Belə olsa, həll yolunu tapa bilərik. Məncə, belə etsək, digər bu tipli misalları da həll edə bilərik. Kimdənsə soruşmaqla, köçürməklə bir dəfə vəziyyətdən çıxmaq olar. Amma biz hər gün misallar üzərində işləyirik. Ən yaxşı odur ki, özümüz başa düşək və sərbəst həll etməyi öyrənək.

3. Anam tapşırmışdı ki, qələm alandan sonra pulun qalığına həyətdəki dükandan göyərti alım. Amma pulun qalığı cibimdə yoxdur. Heç pulu aldığım yadımda da deyil. Bilmirsən, satıcı qızın qaytardığı pulu mən hara qoydum? Bəlkə, pulu qaytarmaq satıcının yadından çıxıb? Necə edək ki, həm satıcının günahına girməyək, həm də əliboş gedib anamın xörəyini yarımçıq qoymayaq? Bəlkə, səhvən sənə vermişəm?

Qrupların yazısı hazır olduqdan sonra oxunur və münasibət bildirilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni tərtib etdiyi plan əsasında nəql edir. | Tap. a (D.) |
| Dinlədiyi mətnin məzmunundan çıxış edərək dildə işlənən obrazlı ifadənin mənasını müəyyən edir. | Tap. b (D.) |
| Dinlədiyi mətnin məzmununa uyğun hekayə xəritəsi tərtib edir. | Tap. a (İ.D.) |
| Mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. c (D.) |
| Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir. | Tap. ç (D.) |

## 4-cü dərs. "Q" samitinin deyilişi və yazılışı

• Dərslik: səh. 21 • İş dəftəri: səh. 18

**Təlim məqsədləri**

**1.** "Q" samitinin düzgün tələffüz və yazılış qaydasına əməl edir (st. 5-4.1.2).

### Mövzuya yönəltmə

Dərsin ilk tapşırığı vasitəsilə şagirdləri mövzuya yönəltmək olar.

### Dil qaydaları

5-4.1.2. **Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqda verilmiş söz və söz birləşmələrini ucadan səsləndirirlər. Müəllim onların diqqətini "q" samitinin səslənməsinə yönəldir.

"Q" hərfinin sözlərin tərkibində səslənməsi belədir:

dodaq – [x]
qələm – [q]
qulaq asmaq – [ğ]
rəqs – [k']

"Q" hərfinin ifadə etdiyi səslər haqqında müəyyən təsəvvür yarandıqdan sonra "Yadda saxla" rubrikası üzərində iş aparılır.

**Tapşırıq b (dərslik).** Tərkibində "q" hərfi işlənən sözləri orfoepik normaya uyğun yazdıqdan sonra cədvəl üzrə qruplaşdırmaq tələb olunur.

Cavab:

*[q] – qala, qohum, qələbə, qalstuk, qurd, qanun, qürur;*

*[k'] – üfüq, nitq, vərəq, nöqtə, nöqsan;*

*[x] – moruq, saçaq, daraq, yataq, parlaq, bayraq;*

*[ğ] – boyaqotu, ayaqüstü, ayaqaltı.*

**Müəllimin nəzərinə!** Bu tapşırıq izahat işi aparmaqla lövhədə şagirdlərlə kollektiv şəkildə işlənsə, daha aydın olar.

Növbəti "Yadda saxla" rubrikasında q – ğ əvəzlənməsi haqda danışılır. Şagirdlərə izah olunur ki, bəzi "q" ilə bitən sözlərə saitlə başlanan şəkilçi əlavə edildikdə "q" hərfi "ğ" ilə əvəz olunur. Bu dəyişiklik orfoqrafiyaya aiddir, yəni yazıda baş verir. Belə sözlərə saitlə başlanan söz artırdıqda isə dəyişiklik yazıda yox, tələffüzdə baş verir. "Q" hərfi [ğ] kimi tələffüz olunur.

**Tapşırıq c (dərslik).** Bu tapşırıq "q" samitinin yazılışı və tələffüzünə aid qazanılmış biliyin tətbiqetməsinə xidmət edir.

Cavab:

*1. Otaqdan uşaqların səsi eşidilirdi.*
*2. Qonağı gülərüzlə qarşılayarlar.*
*3. Qarın üzərində ayaq izləri görünürdü.*
*4. Mən vərəqdə qeydlər etdim.*
*5. Günəş üfüqdən boylanırdı.*
*6. Yataq otağı çox işıqlı idi.*

**Tapşırıq a (iş dəftəri).** Bu tapşırıq da qazanılmış bilikləri möhkəmləndirir. Tərkibində "q" hərfi işlənən sözlər verilib. Bu sözləri "q" hərfinin tələffüzünə uyğun şəkildə cədvəl üzrə qruplaşdırmaq tələb olunur. Şagirdlər tapşırığı sərbəst şəkildə yerlərində həll edirlər. Sonra müəllim cədvəlin hər xanasına aid sözləri bir-bir oxuyur, şagirdlər isə düzgün yazıb-yazmadıqlarını yoxlayırlar.

Cavab:

*[q] – qutu, qardaş, vüqar, mövqe;*

*[ğ] – uşaq arabası, dodaqaltı, dodaqucu, dırnaqarası;*

*[x] – otaq, yanaq, yarpaq, daraq;*

*[k'] – üfüq, məntiq, nöqtə, məqsəd.*

**Tapşırıq b (iş dəftəri).** Bu tapşırıqda tərkibində orfoqrafik səhvlər buraxılmış cümlələr verilib. Şagirdlər bu səhvləri düzəldərək cümlələri yenidən köçürürlər.

**Cavab:**

1. Otaqdan qarma-qarışıq səslər gəlirdi.
2. Bütün uşaqlar tədbirə gələn qonağı hərarətlə qarşıladılar.
3. Əsas məqsədimiz beynəlxalq yarışlarda iştirak etməkdir.
4. Uşağın yanaqları soyuqdan qızarmışdı.
5. Balıqçı tora düşən balaca balığı yenidən çaya atdı.
6. Üfüqdən boylanan günəş ətrafa şəfəq saçırdı.
7. Şagirdlə müəllim arasında çox maraqlı dialoq alındı.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| "Q" samitini orfoepik normaya uyğun fərqləndirir. | Tap. **a** (D.) |
| Sözləri tərkibindəki "q" samitinin tələffüzünə uyğun qruplaşdırır. | Tap. **b** (D.), tap. **a** (İ.D.) |
| Müxtəlif səslər ifadə edən "q" samitinin düzgün yazılışına riayət edir. | Tap. **c** (D.), tap. **b** (İ.D.) |

# Ümumiləşdirici təkrar

• Dərslik: səh. 22-23 • İş dəftəri: səh. 19

**Təlim məqsədləri**

**1.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**2.** Mətndəki hadisələr və obrazların davranışına əsasən ideyanı müəyyən edir **(st. 5-2.3.1).**

**3.** Sözlərin leksik və qrammatik mənasını fərqləndirir **(st. 5-4.2.2).**

**4.** Sözlərdə saitlərin və samitlərin yazılışı və tələffüzü qaydalarına riayət edir **(st. 5-4.1.2).**

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə bu bölmədə oxunmuş və dinlənilmiş mətnləri xatırladır. Mətnlərin mövzusu, məzmunu və əsas ideyası ətrafında müzakirə aparılır. Şagirdlər ən çox bəyəndikləri mətnlər və seçimlərinin səbəbi haqqında danışırlar.

### Oxuyub-qavrama

**5-2.1.2. Tapşırıq 1, 2 (dərslik).** Mətndəki faktoloji məlumatların qavranılmasını yoxlayır.

**5-2.3.1. Tapşırıq 3 (dərslik).** Mətndəki əsas fikri müəyyənləşdirmək bacarığını yoxlayır.

Cavab: c variantı

**Tapşırıq 4 (dərslik).**

Cavab: a variantı

### Dil qaydaları

Dərslikdə təqdim edilmiş 5-13-cü tapşırıqlar dil qaydaları üzrə qazanılmış biliklərin təkrarına, möhkəmləndirilməsinə yönəlib.

**5-4.2.2. 5-ci tapşırığın cavabı:** b variantı

**5-4.1.2. 6-cı tapşırığın cavabı:**

Buxar: u – qalın, dodaqlanan, qapalı; a – qalın, dodaqlanmayan, açıq.

Alqış: a – qalın, dodaqlanmayan, açıq; ı – qalın, dodaqlanmayan, qapalı.

Boran: o – qalın, dodaqlanan, açıq; a – qalın, dodaqlanmayan, açıq.

Övlad: ö – incə, dodaqlanan, açıq; a – qalın, dodaqlanmayan, açıq.

Müxbir: ü – incə, dodaqlanan, qapalı; i – incə, dodaqlanmayan, qapalı.

Eskiz: e – incə, dodaqlanmayan, açıq; i – incə,

dodaqlanmayan, qapalı.

Əfsanə: ə – incə, dodaqlanmayan, açıq; a – qalın, dodaqlanmayan, açıq.

**7-ci tapşırığın cavabı:** d variantı

**8-ci tapşırığın cavabı:** c variantı

**9-cu tapşırığın cavabı:**

gül – kül; köz – göz; küləş – güləş; dərs – tərs; tanış – danış; boz – poz.

**10-cu tapşırığın cavabı:**

pələng, mürəkkəb, kərpic, çaqqal, çörək

**Tapşırıq 11 (dərslik).** “Dördündən biri fərqlidir” tapşırıq növünü şagirdlər böyük maraq və həvəslə yerinə yetirirlər.

Cavab:

1. c. idrak; sözün sonundakı “ke” hərfi [k] kimi, digər sözlərdə isə [x'] kimi tələffüz olunur.
2. b. dialoq; sözün sonundakı “qe” hərfi [k'] kimi, digər sözlərdə isə [x] kimi tələffüz olunur.
3. d. kitab; sözün əvvəlindəki hərf [k] kimi, digər sözlərdə isə [k'] kimi tələffüz olunur.
4. b. dilək; sözün sonundakı “ke” hərfi [x'] kimi, digər sözlərdə isə [k] kimi tələffüz olunur.
5. b. ayaqyalın; sözün ortasındakı “qe” hərfi [x] kimi, digər sözlərdə isə [ğ] kimi tələffüz olunur.

**Tapşırıq 12 (dərslik).** Bu tapşırıq da şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirməyə yönəlib. Q – ğ, k – y əvəzlənməsinə aid bilik və bacarıqları möhkəmləndirir.

Cavab:

1. a. qayı**q** – qayığa; digər sözlərdə q – ğ əvəzlənməsi baş vermir: xalqı, hüququ, sadiqi;
2. d. müdri**k** – müdrikə; digər sözlərdə k – y əvəzlənməsi baş verir: qəpiyə, əriyə, ipəyə;
3. d. monolo**q** – monoloqa; digər sözlərdə q – ğ əvəzlənməsi baş verir: yatağa, budağa, qulağa.

**Tapşırıq 13 (dərslik).**

Cavab:

1. Aclıq ilə toxluğun arası bir parça çörəkdir.
2. Keçidən qurbanlıq olmaz.
3. Kələklə gələn küləklə gedər.
4. Kiçiyin kiçik yeri var, böyüyün böyük.
5. Papaqçının papağı yırtıq olar.

Bu tapşırığı adi cümlələrlə də vermək olardı. Məqsəd folklorumuza müraciət etməklə hikmətli ifadələri bir daha şagirdlərə xatırlatmaqdır.

**Tapşırıq 1 (iş dəftəri).** Cavab:

a – qalın, dodaqlanmayan, açıq
e – incə, dodaqlanmayan, açıq
ə – incə, dodaqlanmayan, açıq
ı – qalın, dodaqlanmayan, qapalı
i – incə, dodaqlanmayan, qapalı
o – qalın, dodaqlanan, açıq
ö – incə, dodaqlanan, açıq
u – qalın, dodaqlanan, qapalı
ü – incə, dodaqlanan, qapalı

**Tapşırıq 2 (iş dəftəri).** Səhv yazılmış sözlərin düzgün yazılışı:

velosiped, nümunə, müasir, pəhləvan.

**Tapşırıq 3 (iş dəftəri).** Cavab: a.

**Tapşırıq 4 (iş dəftəri).** Bu tapşırıq da öyrədilmiş orfoqrafik qaydaları yoxlamağa xidmət edir. Şagirdlər tapşırığı sərbəst şəkildə yazdıqdan sonra müəllim onları bir-bir lövhəyə çağırır. Onlar düzəliş etdikləri sözləri lövhəyə yazır, digərləri yoxlayırlar.

Cavab:

*1. nöqtə;*
*2. budağı, yarpaqları;*
*3. çiyələyin, otağa;*
*4. kiçiklərə, diqqət;*
*5. qonaq, otağı;*
*6. bıçağın;*
*7. köçkünlər;*
*8. dirrik, alaq.*

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərdə saitlərin və samitlərin yazılışı və tələffüzü qaydalarına riayət edir. | Tap. 6 – 12 (D.)<br>Tap. 1 – 4 (İ.D.) |
| Sözlərin leksik və qrammatik mənasını fərqləndirir. | Tap. 5 (D.) |

bölmə **2** 

# MƏNƏVİ DƏYƏRLƏR

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Qazi Vüsal Səttarov | Dinləmə. Yazı | 24 | 20 | 45-46 |
| 2 | Bilirdim ki, gələcəksən | Danışma. Oxu. Dil qaydaları (Leksika) | 24-25 | 21 | 46-47 |
| 3 | Bilirdim ki, gələcəksən | Oxu. Danışma. Yazı | 26 | 22 | 47-48 |
| 4 | Bilirdim ki, gələcəksən | Yazı (məktub yazmaq) | 26 | - | 49 |
| 5 | Leksik və qrammatik məna | Dil qaydaları (Leksika. Qrammatika) | 27 | 23 | 49-50 |
| **2-ci fəsil** | | | | | |
| 1 | "8" rəqəmi və tariximiz | Oxu. Dil qaydaları (Leksika) | 28-29 | 24 | 51-52 |
| 2 | Doqquz və doqquzlama | Danışma. Dinləmə | 30 | 25 | 52-55 |
| 3 | "7" rəqəmi ilə bağlı araşdırma. Təqdimat | Danışma | 30 | 26 | 55-56 |
| 4 | Sözün həqiqi və məcazi mənası | Dil qaydaları (Leksika) | 31 | 27 | 56-57 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Təcili qan lazımdır | Oxu. Dil qaydaları | 32-33 | 28 | 58 |
| 2 | Təcili qan lazımdır | Oxu | 34 | 29 | 59-60 |
| 3 | Qan qrupları | Danışma. Oxu. Yazı | 34 | 30 | 60-61 |
| 4 | Təcili qan lazımdır | Yazı | 34 | - | 61 |
| 5 | Çoxmənalı sözlər. Omonimlər | Dil qaydaları (Leksika) | 35 | 31 | 61-62 |
| **4-cü fəsil** | | | | | |
| 1 | Ad günü hədiyyəsi | Oxu. Dil qaydaları (Leksika) | 36-37 | 32 | 62-63 |
| 2 | Ad günü hədiyyəsi | Oxu. Danışma | 38 | 33 | 63-64 |
| 3 | Ad günü hədiyyəsi | Dinləmə | 38 | 34 | 64-66 |
| 4 | Ən yaddaqalan ad günüm | Yazı | 38 | | 66 |
| 5 | Cümlə sonunda durğu işarələri | Dil qaydaları (Punktuasiya) | 39 | 35 | 66-67 |
| 5 | Ümumiləşdirici təkrar | Oxu. Dil qaydaları (Leksika. Punktuasiya) | 40-41 | 36 | 68-69 |

# 1-ci fəsil

## 1-ci dərs. Qazi Vüsal Səttarov

• Dərslik: səh. 24 • İş dəftəri: səh. 20

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətni mövzu, məzmun, struktur və ideya baxımından şərh edir **(st. 5-1.1.2).**

**2.** Müsahibə almaq üçün mövzuya uyğun suallar tərtib edir **(st. 5-1.2.1).**

**3.** Dinlədiyi mətnin qısa məzmununu yazır **(st. 5-3.2.1).**

**Mövzuya yönəltmə**

Müəllim II Qarabağ savaşını xatırlatmaq məqsədilə sinfə müxtəlif suallarla müraciət edir:

1. II Qarabağ müharibəsi nə zaman başladı?
2. Bu savaş neçə gün davam etdi?
3. Hansı ərazilərimiz düşmən tapdağından azad oldu?
4. Bu savaşda hansı qəhrəmanlarımızı tanıdınız?

**Dinləmə**

**5-1.1.1. Tapşırıq a (dərslik).** Şagirdlər qeyd götürməklə “Qazi Vüsal Səttarov” mətnini dinləyirlər. Tapşırıqları yerinə yetirmək üçün şagirdlərə mətnə diqqətlə qulaq asmaq tövsiyə olunur.

*II Qarabağ savaşı başlayanda Vüsal ali məktəbdə təhsil alırdı. Müharibə xəbərini eşidən kimi təhsilini yarımçıq qoyub cəbhəyə yollandı. Əslən Zaqatala rayonundan olan Səttarov Vüsal Ramiz oğlu bölük komandiri idi.*

*2020-ci il oktyabrın 6-da düşmən Vüsalgilin bölüyünü minomyot atəşinə tutur. Vüsal həmin günü belə xatırlayır: “Müharibəni filmlərdə görmüşdük. Ani olaraq hər şey çox qorxulu gəldi. Vahiməli döyüş səhnələrini ilk dəfə canlı yaşayırdım. Zeynal, Vəfadar və mən eyni səngərdə idik. Görürdüm ki, ətraf səngərlərə mərmi düşür, uşaqlar yaralanır, şəhid olurlar. Yaralıların iniltisi eşidilirdi. Səngərdən qışqırıb onlara səslənirdim, cavab verən də olmurdu.*

*Vəfadara dedim ki, səngərdən çıxaq, yaralıları maşınla hospitala daşıyaq. Bəlkə, kimisə xilas edə bilərik. Səngərdən çıxan kimi bizi də vurdular. Ayağımdan və qulağımdan yaralandım. Amma fikir vermədim. Biz avtomatların qundağındakı rezinləri çıxarıb yoldaşlarımızın yaralarını sarıyırdıq ki, qanaxma olmasın. Onları və şəhid olan dostlarımızı çiynimizə alıb maşınlara yığdıq və Horadizdəki hospitala apardıq.*

*Sonra digər yoldaşlarımızı da çıxarmaq üçün geri qayıdanda qəribə mənzərə ilə qarşılaşdıq. Hər tərəf düşmən cəsədləri və yaralıları ilə dolu idi. Döyüş yoldaşları onları qoyub qaçmışdılar.*

*Birdən sağdakı səngərdən inilti eşitdim.*

*Yaxınlaşanda gördüm ki, Zeynaldır. Başından yaralanmışdı. Xeyli qan itirmişdi. Tez onu belimə götürüb maşına apardım... Sonradan eşitdik ki, 9 nəfər yaralımız sağalıb, lakin Zeynalı xilas etmək mümkün olmayıb...”*

*Dostları Zeynalın ölümü ilə heç cür barışa bilmir, özlərini günahkar sayırdılar: “Bəlkə, biz gecikdik, vaxtında hospitala çatdırmadıq?” – deyə əzab çəkirdilər.*

*Bir həftə sonra Cəbrayıl alındı. Vüsalgilə təbrik zəngi gəldi. Bu zəng Vüsalı, bəlkə də, geri alınan torpaqlar qədər sevindirdi. Zəng edən Zeynal idi. Sən demə, onun ölüm xəbəri yalan imiş.*

*44 günlük Vətən müharibəsi bizim xalqın əzmini, birliyini ortaya qoydu. Vüsal kimi oğullarımız öz yaralı yoldaşlarının həyatlarını canları bahasına xilas etdilər. Şəhidlərimizi döyüş meydanında qoymadılar. Öz əməlləri və qəhrəmanlıqları ilə şanlı tarix yazdılar.*

**Danışma**

Dinləmə prosesi başa çatdıqdan sonra şagirdlər mətndə təsvir olunan döyüş səhnələrini öz sözləri ilə təsvir edirlər. Müəllim şagirdlərin daha inandırıcı, təsiredici danışmasını istiqamətləndirmək üçün müəyyən tövsiyələr verə bilər.

**5-1.2.1. Tapşırıq b (dərslik).** Şagirdlər Vüsal Səttarovdan müsahibə almaq üçün belə suallar tərtib edə bilərlər:

1. Harada döyüşmüsünüz?
2. Neçə yaralını xilas etmisiniz?
3. Gözünüzün qarşısında yoldaşınız şəhid olubmu?
4. Döyüş bölgəsindən çıxara bilmədiyiniz şəhid yoldaşınız olubmu? və s.

**Yazı**

**5-3.2.1. Tapşırıq a (iş dəftəri).** Şagirdlər təqdim olunmuş plan əsasında “Qazi Vüsal Səttarov” mətninin məzmununu verilən həcmdə yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki əsas fikri öz həyat düşüncələri ilə əlaqələndirir. | Tap. **a** (D.) |
| Mövzu ilə bağlı müsahibə almaq üçün suallar tərtib edir. | Tap. **b** (D.) |
| Qurduğu plan əsasında dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. **a** (İ.D.) |

## 2-ci dərs. Bilirdim ki, gələcəksən

• Dərslik: səh. 24-25 • İş dəftəri: səh. 21

**Təlim məqsədləri**

**1.** Bədii mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir **(st. 5-2.1.1).**

**2.** Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını izah (təxmin) edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**

**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**4.** Mətnin məzmunundan çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**

**5.** Bədii mətndəki hadisələrə və obrazların davranışına əsasən ideyanı müəyyən edir **(st. 5-2.3.1)**

### Mövzuya yönəltmə

Müəllim sinfə müraciət edir:

– Dostunuzun ən yaddaqalan ifadəsi hansıdır?

**Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sualları öz şəxsi həyatlarından nümunələr gətirməklə cavablandırırlar.

### Oxu

**5-2.1.1. "Bilirdim ki, gələcəksən" mətni üzrə iş. İfadəli oxu.** Əvvəlcə şagirdlər müəyyən vaxt ərzində mətni səssiz oxuyurlar. Müəllim oxu zamanı şagirdlərə obrazların nitqinə diqqət etməyi tövsiyə edir. Bu yolla şagirdlər obrazların keçirdiyi hisslərlə tanış ola bilərlər. Səssiz oxu bitdikdən sonra növbəti mərhələdə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin səs tonunu, intonasiyaya diqqət etmələrini, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirmələrini müşahidə edərək nəzarətdə saxlayır.

### Söz ehtiyatı

Yeni sözlərin mənimsədilməsi dərslikdəki tapşırıqlar vasitəsilə həyata keçirilir.

**5-2.1.3. Tapşırıq b (dərslik)**

Cavab: 1 – c, 2 – d, 3 – ç, 4 – b, 5 – a.

Mənasını tam anladıqdan sonra şagirdlər söz və ifadələri cümlələrdə işlədib yazırlar.

**Tapşırıq c (dərslik).** Bu tapşırıqda nümunəyə əsasən avtomat hissələrinin təsvirlərini onların adları ilə uyğunlaşdırmaq lazımdır. Sonra həmin sözləri izah etmək və izahları lüğətlə müqayisə etmək tələb olunur.

Cavab:

1. lülə – odlu silahların gülləyə istiqamət verən boruşəkilli hissəsi;

3. tətik – odlu silahların atəş açmaq üçün barmaqla geri çəkilən hissəsi;

4. qundaq – tüfəngin ağac hissəsi.

### Araşdırma

**Tapşırıq ç (dərslik).** Şagirdlər Azərbaycan Silahlı Qüvvələrindəki hərbi rütbələrin kiçikdən böyüyə olan ardıcıllığını araşdırdıqdan sonra tapşırığı yerinə yetirirlər.

Cavab: çavuş, gizir, kapitan, mayor, polkovnik, general.

### Oxuyub-qavrama

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).** Verilən fikirlərin düzgün, yoxsa yanlış olduğunu müəyyən etməklə şagirdlər tapşırığı yerinə yetirirlər.

Cavab: 1, 3, 4 – yanlış; 2, 5 – düzgün fikirlərdir.

**5-2.2.1. Tapşırıq b (iş dəftəri).** Şagirdlərdən mətnin məzmununa aid səbəb-nəticə cədvəlini tamamlamaq tələb olunur.

Cavab:

1. Səbəb – Abbas həmişə Rəhimi qoruyurdu.
2. Nəticə – Rəhim düşmən gülləsinə tuş gəldi.
3. Səbəb – Abbas güllə yağışına əhəmiyyət verməyərək dostunun arxasınca gedirdi.
4. Səbəb – Çünki dostunun son sözlərini eşitmişdi.

**5-2.3.1. Tapşırıq c (iş dəftəri).** Mətndən Abbasın dostuna sadiq olduğunu təsdiq edən

nümunələr gətirməklə fikri əsaslandırmaq tələb olunur.

Cavab: Uşaq olarkən hər davada Rəhimə qahmar çıxması, heç vaxt onu tək qoymaması, müharibədə güllə yağışının altında özünü təhlükəyə atması və s.

**Tapşırıq ç (iş dəftəri).** Cavab: b

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | "Bilirdim ki, gələcəksən" mətni |
| Kontekstdən çıxış edərək sözün mənasını anladığını nümayiş etdirir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir. | Tap. **b**, **c**, **ç** (D.) |
| Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir. | Tap. **a** (İ.D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir. | Tap. **b** (İ.D.) |
| Mətn müəllifinin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir. | Tap. **c**, **ç** (İ.D.) |

## 3-cü dərs. Bilirdim ki, gələcəksən

• Dərslik: səh. 26 • İş dəftəri: səh. 22

**Təlim məqsədləri**

**1.** Başlıq və yarımbaşlıqların məzmuna uyğunluğunu müəyyən edir **(st. 5-2.3.3).**

**2.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.1.2).**

**3.** Kontekstdən (söz birləşməsi, cümlə) çıxış edərək mətndə tanış olmayan ifadənin mənasını müəyyən edir **(st. 5-2.1.3).**

**4.** Oxuduğu və dinlədiyi mətnləri növü, mövzusu, məzmunu və ideyasına görə müqayisə edir **(st. 5-2.3.5).**

**5.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**6.** Verilmiş plan əsasında hekayə yazır **(st. 5-3.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim "Bilirdim ki, gələcəksən" mətnini xatırlatmaq məqsədilə suallarla sinfə müraciət edir:

1. Hadisə harada baş verir?
2. Hekayənin əsas qəhrəmanları kim idi?

**Oxuyub-anlama**

**5-2.3.3. Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti tapşırıqda verilmiş yarımbaşlıqlara yönəldilir. Onlar bu yarımbaşlıqları mətnin məzmununa uyğunlaşdırırlar. Sonra 2-ci yarımbaşlığın (Qayğısız uşaqlıq illəri) mətndəki hadisələrin ardıcıllığını pozduğunu müəyyənləşdirirlər. Bu yarımbaşlıqdakı hadisələrin daha əvvəl – uşaqlıq dövründə baş verdiyini vurğulamaqla fikirlərini əsaslandırırlar.

**5-2.1.2. Tapşırıq b (dərslik).** Bu tapşırığın cavabı müxtəlif ola bilər, çünki şagirdlərə obrazların davranışından, danışığından və s. asılı olaraq fərqli epizodların təsir etməsi mümkündür. Şagirdlər epizodu təsvir etməklə seçimlərinin səbəbini izah edə, fikirlərini əsaslandıra bilərlər.

**Tapşırıq c (dərslik).** Şagirdlər mətni diqqətlə oxuyub qavrayıblarsa, obrazların xarakterinə bələd olublarsa, Rəhimin son sözlərini təxmin edə biləcəklər.

Cavab: *Bilirdim ki, gələcəksən.*

**Tapşırıq ç (dərslik).** Şagirdlər obrazların xarakterindəki xüsusiyyətlərlə bağlı fikirlərini mətnə istinad edərək əsaslandırmalıdırlar. Məsələn:

1. *Abbas dostluqda **etibarlıdır, sədaqətlidir**. Uşaq vaxtı dava düşəndə həmişə Rəhim ona güvənirdi, bilirdi ki, Abbas onu darda qoymaz. Müharibə zamanı isə dostuna kömək etmək üçün öz həyatını təhlükəyə atdı. Bu epizod həm də Abbasın **mərd** olduğunu göstərir.*

2. *Rəhim **mərddir, cəsurdur**. Gözünü qırpmadan düşmən üzərinə şığıyır və s. Şagirdlər bu xüsusiyyətləri davam etdirə bilərlər.*

**5-2.1.3. Tapşırıq d (dərslik)**

Cavab: İfadə çox cəsur, etibarlı, hər şeydə güvənilə bilən insan haqqında işlədilir. İfadə mətnin əsas obrazlardan olan Abbasa aid edilə bilər.

**5-2.3.5. Tapşırıq e (dərslik).** Şagirdlər dinlədikləri və oxuduqları mətnləri müqayisə edirlər.

**Müəllimin nəzərinə!** Aşağı siniflərdə şagirdlər bədii və qeyri-bədii mətn növü ilə tanış olublar. Yuxarı siniflərdə isə müxtəlif növ qeyri-bədii mətnlərlə (izahedeci, arqumentativ və

s.) tanış olacaqlar. Qeyri-bədii mətnin də qeyri-bədii mətn növlərindən biri olduğunu şagirdlərin diqqətinə çatdırmaq lazımdır.

Cavab:

**I. "Qazi Vüsal Səttarov"**

*1. Mətnin növü: qeyri-bədii.*

*2. Məzmunu: döyüş zamanı düşmən tərəfin öz yaralılarını buraxıb qaçmasından, azərbaycanlı əsgərlərin öz yaralı yoldaşlarını döyüş bölgəsində qoymamasından bəhs olunur.*

*3. Mövzusu: müharibə.*

*4. İdeyası: əsl insan, mərd döyüşçü öz yoldaşını darda qoymamalıdır.*

**II. "Bilirdim ki, gələcəksən"**

*1. Mətnin növü: bədii.*

*2. Məzmunu: dostların bir-birinə sədaqətindən, güvəncindən danışılır.*

*3. Mövzusu: dostluq.*

*4. İdeyası: əsl dost öz dostunu heç vaxt darda qoymamalı, ona arxa-dayaq olmalıdır.*

### Danışma

**5-1.2.2. Tapşırıq ə (dərslik).** Müzakirə zamanı əsgərlərin döyüşdə qələbə qazanması üçün zəruri olan mərdlik, vəfa, sədaqət, vətənpərvərlik, qayğıkeşlik və s. keyfiyyətlərdən danışılır.

### Yazı

**5-3.2.2. Tapşırıq a (iş dəftəri).** Yazı bacarığının inkişafına yönəlmiş bu tapşırıq iş dəftərində hekayə yazmaqla həyata keçirilir. Şagirdlər verilmiş təlimat əsasında mətnin tərkib hissələrini gözləməklə həyatda gördüklərini və ya düşündüklərini yazıya çevirirlər.

*Nümunə:*

***Mənim vəfalı dostum***

*Mənim məktəbdə, qonşuluqda dostlarım çoxdur. Ən güvəndiyim isə Səmradır. Səmra ilə həm qonşu, həm sinif yoldaşı, həm də sinfin əlaçılarıyıq.*

*Əvvəllər onu həmişə özümə rəqib görürdüm. Amma bir hadisədən sonra...*

*Bu, iki il bundan qabaq olmuşdu. Qəflətən halım pisləşdi. Anam həkim çağırdı. Müayinə zamanı aydın oldu ki, keçici xəstəliyə tutulmuşam. Ən azı iyirmi gün məktəbə getmək olmazdı. İlk ağlıma gələn bu oldu: "Heyif! Səmradan geri qaldım..."*

*Üç gün keçdi. Saata baxıb fikirləşirdim: "Dərs bitib. Uşaqlar evə gediblər".*

*Bu vaxt qapı döyüldü. Anam qapını açdı. Gələn Səmra idi. Onların söhbətini eşitdim:*

*– Qızım, niyə gəlmisən? Sən də xəstələnərsən. Axı Yaqutun xəstəliyi yoluxucudur.*

*– Narahat olmayın, Sevil xala. Suçiçəyidir də, mən də keçən il olmuşdum. Bir dəfə olan şeydir də. Bura gəldiyimi anam bilir. İstəmirəm Yaqut dərslərdən geri qalsın.*

*– Çox sağ ol, ay qızım, nə gözəl ürəyin var sənin... Sən əsl dostsan!*

*O gündən sağalana qədər hər gün Səmra dərsdən sonra bizə gəldi. Birlikdə çalışdıq, bütün dərslərimizi birlikdə öyrəndik... Hiss etmirdim ki, məktəbə getmirəm, müəllimin izahlarını eşitmirəm. Bütün bunların səbəbi Səmra idi. O mənə bütün məktəbi əvəz etdi.*

*İndi Səmra mənim rəqibim yox, ən etibarlı dostumdur. Mən onun üçün hər fədakarlığa hazıram. Özümü təhlükəyə ataram, onu heç vaxt köməksiz qoymaram.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. **a** (D.) |
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. **b**, **c**, **ç** ( D.) |
| Kontekstdən çıxış edərək tanış olmayan ifadənin mənasını müəyyən edir. | Tap. **d** (D.) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. **e** ( D.) |
| Həyatdan nümunələr gətirməklə fikrini əsaslandırır. | Tap. **ə** (D.) |
| Verilmiş plan əsasında hekayə yazır. | Tap. **a** (İ.D.) |

## 4-cü dərs. Bilirdim ki, gələcəksən

• Dərslik: səh. 26

**Təlim məqsədləri**

**1.** Mövzu ilə bağlı fikir və duyğularını məktub yazmaqla ifadə edir (st. 5-3.2.2).
**2.** Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir (st. 5-3.1.2.)

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin dinlədiyi və oxuduğu mətnlərin baş qəhrəmanlarının davranışlarını xatırlatmaq məqsədilə sinifdə sorğu keçirir.

**Yazı**

5-3.2.2. **Tapşırıq a (dərslik). Cütlərlə iş.** Yanaşı oturan şagirdlərin biri Vüsal Səttarova, digəri Abbasa məktub yazır.

**Müəllimin nəzərinə!** Şagirdlərə aşağı siniflərdən tanış olduqları məktub janrını, onun əsas tələblərini xatırlatmaq tövsiyə edilir.

**Nümunə:**

**1-ci məktub:**

*Salam, Vüsal, necəsən?*

*Mən 5-ci sinifdə oxuyuram. Bugünkü dərsdə sənin II Qarabağ savaşından xatirələrini dinlədik. Sənin kimi igid oğullarımızın Vətənin hər qarış torpağı üçün necə fədakarlıqla döyüşdüyünü bilirdik. Yaralı yoldaşlarınızı, eləcə də şəhid olmuş oğulları öz çiyinlərinizdə daşımağınızı, döyüş bölgəsindən çıxarmağınızı eşidəndə qürur duydum. Çünki siz dostlarınızdan ötrü özünüzü təhlükəyə atmısınız. Həmin vaxt öz həyatınızı itirə bilərdiniz. Amma siz heç nədən qorxmadan dostlarınızın köməyinə getmiş, onların həyatını xilas etmisiniz. Bu, böyük fədakarlıq, misilsiz qəhrəmanlıq nümunəsidir.*

*Mən səninlə və yoldaşlarını darda qoymayan bütün qazilərimizlə fəxr edirəm! Nə yaxşı ki, səni tanıdım. Mən səndən çox şey öyrəndim. Təşəkkür edirəm, Vüsal!*

*Hörmətlə: 5-ci sinif şagirdi Əliyev Nicat*

**2-ci məktub:**

*Salam, Abbas. Mənim adım Aygündür. Beşinci sinifdə oxuyuram. Sənin Rəhimlə olan dostluğun mənə çox doğma gəldi. Sizin bir-birinizə olan etibarınız və güvəniniz çox gözəldir. Uşaq vaxtı da bir-birinizə sadiq olmusunuz, böyüyüb əsgər olanda da... Rəhim kimi mərd, ölümdən qorxmayan, Vətən üçün canından keçən bir dostun olduğu üçün sən çox xoşbəxtsən! Bilirəm ki, Rəhim də sənin kimi bir dostu olduğuna görə həmişə qürur hissi keçirib.*

*Mənim də sənin kimi dostum var, adı Fidandır. Rəhim sənə güvənən kimi mən də həmişə Fidana güvənmişəm. O hər çətinlikdə yanımdadır. Fidan həmişə mənə irad tutur ki, hər işdə tələsirəm, tək qərar verirəm. Mən Fidanın haqlı olduğunu bilirəm, amma cavab verə bilmirəm, demirəm ki, sənə arxayınam. İndi isə cavabım var. Ona güvəndiyimi bu kəlmələrlə bildirəcəyəm: "Bilirdim ki, gələcəksən..."*

*Mən sənə minnətdaram, Abbas! Çox sağ ol, nə yaxşı ki, sizin kimi dostlar var!*

*Hörmətlə: Aygün*

5-3.1.2. **Tapşırıq b (dərslik).** Şagirdlər yazdıqları məktubu nəzərdən keçirərək yoldaşlarına ötürürlər. Cütlər bir-birinin məktubunu oxuyur, öz münasibətlərini bildirirlər. Daha sonra səhvləri qeyd edir, tövsiyələrini verirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu ilə bağlı fikir və duyğularını məktub yazmaqla ifadə edir. | Tap. a (D.) |
| Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir. | Tap. b (D.) |

## 5-ci dərs. Leksik və qrammatik məna

• Dərslik: səh. 27 • İş dəftəri: səh. 23

**Təlim məqsədləri**

**1.** Sözlərin leksik və qrammatik mənasını müəyyən edir (st. 5-4.2.2).

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər 4-cü sinifdə sözün leksik və qrammatik mənası haqqında məlumat alıblar. Müəllimin yönəldici sualları bu bilgiləri xatırlamağa və tapşırığı yerinə yetirməyə yardımçı ola bilər:

– Hansı söz heç bir suala cavab vermir?

– “Yolçu” sözünün leksik mənasını izah edə bilərsinizmi?

– “İlə” sözünün leksik mənasını izah edə bilərsinizmi?

Cavab: a. “Yad, gəlmə, yerli olmayan” “qərib” sözünün leksik mənasıdır.

b. “İlə” sözünün leksik mənası yoxdur.

### Dil qaydaları

**5-4.2.2. “Yadda saxla” rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edərək şagirdlərə sözün leksik və qrammatik mənasını izah edir.

Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar möhkəmləndirmə xarakterlidir.

**Dərslikdə verilmiş b tapşırığının cavabları:**

1. Qorxmazlıq, hünər, cürət – cəsarət;
2. Bədənin gücdən düşməsi, taqətsizlik – yorğunluq;
3. Möhkəmlik, ciddilik, sarsılmazlıq – sərtlik.

**Dərslikdə verilmiş c tapşırığının cavabları:**

| | | |
|---|---|---|
| 1 – c; | 2 – d; | 3 – b; |
| 4 – a; | 5 – e; | 6 – ç. |

**Dərslikdə verilmiş ç tapşırığının cavabları:**

Leksik və qrammatik mənası olan sözlər: *Astara, rayonu, çayı, məşhurdur, sən, haqlısan.*

Yalnız qrammatik mənası olan sözlər: *həm də, ilə, əlbəttə, də.*

**İş dəftərində verilmiş a tapşırığının cavabı:**

Şagirdlər *ki, axı, üçün, bəlkə* sözlərini cümlələrdə işlədirlər.

**İş dəftərində verilmiş b tapşırığının cavabı:**

**b** variantı

**İş dəftərində verilmiş c tapşırığının cavabı:**

***Muzey:***

**Leksik mənası:** tarix, incəsənət abidələrini, eksponatları toplayıb mühafizə və nümayiş etdirən müəssisə.

**Qrammatik mənası:** isim, tək, ümumi, konkret.

***Üçün:***

**Leksik mənası:** yoxdur.

**Qrammatik mənası:** qoşma.

**İş dəftərində verilmiş ç tapşırığının cavabı:**

1. mərhəmətli, mənzərə, müdrik, ensiklopediya, getmək.
2. lakin, əlbəttə, bəh, ilə, və.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin leksik və qrammatik mənasını fərqləndirir. | Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar |

# 2-ci fəsil

## 1-ci dərs. "8" rəqəmi və tariximiz

• Dərslik: səh. 28-30 • İş dəftəri: səh. 24

**Təlim məqsədləri**

**1.** Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını, apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir **(st. 5-1.3.2).**

**2.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**3.** Mətni oxuyarkən rast gəldiyi yeni söz və ya ifadəni cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir **(st. 5-2.1.3).**

**4.** Mətndə açıq şəkildə ifadə olunmayan informasiya haqqında fikir yürüdür **(st. 5-2.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini mətnin adına və mətnə aid şəklə yönəldir və söyləyir:

*– Sizcə, bu mətndə nədən danışılır? Mətnin məzmununu təxmin edin.*

**Danışma**

**5-1.3.2. Tapşırıq a (dərslik). Cavab:** Şagirdlər yaxın tariximizlə bağlı olduğu üçün tez-tez "44 gün" ifadəsini eşidirlər. Ona görə də sualı cavablandırmaq elə də çətin olmayacaq. Məqsəd şagirdlərin diqqətini müəyyən tarixi hadisələrlə bağlı olan tez-tez eşidilən, yaddaşımızda müəyyən assosiasiya yaradan ifadələrə yönəltməkdir.

**Tapşırıq b (dərslik).** Mövzu şagirdlərin şəxsi həyatı ilə əlaqələndirilir. Şagirdlər şəxsi həyatlarında yaddaqalan hadisələrlə bağlı müəyyən rəqəmləri (doğum günlərini, hər hansı uğur qazandıqları günü və s.) qeyd edib mövzu üzrə danışırlar.

**Oxu. Söz ehtiyatı**

**5-2.1.2.** Tanış olmayan sözləri qeyd etməklə mətnin şagirdlər tərəfindən növbəli oxusu həyata keçirilir. Oxu prosesi bitdikdən sonra qeyd edilən sözlər müəllim tərəfindən izah edilir.

**5-2.1.3. Tapşırıq c (dərslik). Oxu prosesindən sonra** "Söz boğçası" üzrə iş aparılır. Şagirdlər tapşırıqda verilmiş cümlələrdə fərqləndirilmiş ifadələri "Söz boğçası"ndakı uyğun sözlərlə əvəz etməklə öyrəndikləri yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

Cavab: *1. M.F.Axundzadəni həmişə xalqın **müqəddəratı** düşündürüb.*

*2. Hər tərəfdə **rifah** duyulurdu.*

*3. İşlərin bu **minval** ilə gedişindən hamı razı idi.*

*4. Məruzə qaldırılan bütün problemləri **ehtiva edirdi.***

*5. Onun mədəniyyət tariximizdə **müstəsna** xidmətləri olub.*

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər "Söz boğçası"ndan uyğun söz seçib yaxınmənalı sözlərin sırasını tamamlamaqla yeni sözləri daha dərindən mənimsəyirlər.

Cavab: 1. qayda, üsul, tərz, **minval**

2. bolluq, firavanlıq, rahatlıq, **rifah**

3. tale, gələcək, iqbal, **müqəddərat**

**Tapşırıq ç (dərslik).** Şagirdlər mətndə "assosiasiya" sözünün işləndiyi cümləni tapıb sözün işləndiyi mənanı müəyyənləşdirirlər.

**Kontekst:** *Uzun illərdən bəri "8" rəqəmi xanımlarla **assosiasiya** olunur. 8 Mart qadınlar üçün əlamətdar gün olduğuna görə bu rəqəm özündə gözəllik, zəriflik ehtiva edir.*

Cavab: b. Biri xatırlandıqda digəri yada düşən təsəvvürlər arasında əlaqə.

**Oxuyub-anlama**

**5-2.1.2. Tapşırıq d (dərslik).** Şagirdlər ibtidai siniflərdə açar sözlərin mahiyyətini öyrəniblər. Müəllim şagirdlərin açar sözlərlə bağlı bilgilərini xatırladır. Açar sözlər mətnin məzmunu və ideyası ilə sıx bağlı olan sözlərdir. Odur ki şagirdlər verilmiş sözlərdən mətnin məzmununu daha çox qabardan üç açar söz seçirlər. Daha sonra seçimlərini əsaslandırmaqla açar sözlərin mahiyyətini bildiklərini nümayiş etdirirlər.

Cavab: *rəqəm, səkkiz, tarix.*

**Tapşırıq e (dərslik).** Tapşırığın cütlərlə iş formasında yerinə yetirilməsi tövsiyə olunur. Şagirdlər mətni nəzərdən keçirməklə Azərbaycanın tarixi ilə bağlı xatırlanan hadisələri dəftərlərində xronoloji cədvəl tərtib etməklə qeyd edə bilərlər.

**Xatırlanan tarixi hadisələr:**

1918-ci ilin mayın 28-də Azərbaycanda Demokratik Cümhuriyyətin qurulması ilə Azərbaycanın müstəqillik qazanması;

1920-ci il aprelin 28-də Azərbaycanın bolşevik Rusiyası tərəfindən yenidən işğalı;

1991-ci ilin 18 oktyabrında Azərbaycanın

müstəqilliyini bərpa etməsi;

1992-ci ilin mayın 8-də Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi;

2020-ci ilin payızında 44 gün davam edən İkinci Qarabağ müharibəsi;

2020-ci ilin 18 oktyabr tarixində Xudafərin körpüsü üzərində Azərbaycan bayrağının dalğalanması;

2020-ci ilin noyabrın 8-də Şuşanın azad edilməsi və həmin tarixin Zəfər Günü adlanması.

5-2.2.2. **Tapşırıq ə (dərslik).** Bu tapşırıq şagirdlərdən mətni diqqətli oxumağı, məlumatları analiz edib nəticə çıxarmağı tələb edir. Məqsədi şagirdlərin mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyənləşdirmək bacarığını inkişaf etdirməkdir. Şagirdlər oxuduqları mətndə bir neçə informasiyanı əlaqələndirməklə yeni informasiya əldə etmiş olurlar.

Cavab: *1. Azərbaycan Demokratik Cümhuriyyəti neçə il fəaliyyət göstərdi?* 1918-ci ilin mayın 28-dən 1920-ci ilin aprelin 28-nə qədər. Yəni 1 il 11 ay.

*2. Neçənci ildə Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdi?* 1920-ci ildən 71 il sonra, yəni 1991-ci ildə.

3 və 4-cü sualları isə mətnə əsaslanmaqla cavablandırmaq mümkün deyil.

**Tapşırıq b (iş dəftəri).** Nöqtələrin yerinə uyğun rəqəmləri sözlə yazmaqla atalar sözlərini tamamla.

1. **Yüz** ölç, **bir** biç.
2. Əldən qalan **əlli** il qalar.
3. **Min** yeyənin olsun, **bir** deyənin olmasın.
4. **Yüz** dəfə eşitməkdənsə, **bir** dəfə görmək yaxşıdır.
5. **Bir** güllə ilə **iki** dovşan vurmaq olmaz.
6. Qorxaq gündə **yüz** dəfə ölər, igid ömründə **bir** dəfə.
7. **Bir** əldə **iki** qarpız tutmaq olmaz.
8. **Bir** dəli quyuya bir daş atdı, **yüz** ağıllı onu çıxara bilmədi.

**Müəllimin nəzərinə!** Atalar sözləri folklor nümunəsi olduğuna görə danışıq dilində atalar sözlərinin müxtəlif variantlarına rast gəlinir. Məsələn, Qorxaq gündə **yüz/min** dəfə ölər, igid ömründə bir dəfə; **Yüz/min** dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır və s.

Bu səbəbdən şagirdlər də tapşırıqda verilmiş atalar sözlərində "min" və "yüz" saylarını bir-birinin əvəzində işlədə bilərlər. Bu zaman şagirdlərin fərqli yanaşmasını janr xüsusiyyəti kimi dəyərləndirmək lazımdır.

**Tapşırıq c (iş dəftəri).** Tapşırığın məqsədi mövzunu şagirdlərin şəxsi həyatı ilə əlaqələndirməklə onların yazı bacarığını inkişaf etdirməkdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən tanış olmadığı sözləri qeyd edir. | "8 rəqəmi və tariximiz" mətni |
| Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını, rabitəli mətn şəklində təqdim edir. | Tap. **a, b** (D.) |
| Kontekstdən çıxış edərək sözün mənasını anladığını nümayiş etdirir. | Tap. **c**, **ç** (D.), tap. **a,b** (İ.D.) |
| Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir. | Tap. **d,e** (D.) |
| Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir. | Tap. **ə** (D.) |

## 2-ci dərs. Doqquz və doqquzlama

• Dərslik: səh. 30 • İş dəftəri: səh. 25

**Təlim məqsədləri**

**1.** Müəllifin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir (st. 5-2.3.2).
**2.** Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını, apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir (st. 5-1.3.2).
**3.** Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 5-1.1.1).
**4.** Dinlədiyi, oxuduğu, həyatda gördüyü hadisə və faktlar əsasında mətn yazır (st. 5-3.2.2).

**Mövzuya yönəltmə**

Müəllim sinfə "8 rəqəmi və tariximiz" mətninin məzmununa aid suallar verməklə mətni xatırladır.

*– Mətndə hansı tarixi hadisələrdən danışılır? Mətnə görə bu tarixi hadisələri nə birləşdirir?*

**Oxuyub-anlama**

**5-2.3.2. Tapşırıq a (dərslik).** Şagirdlər oxuduqları mətndə çatdırılan əsas fikri müəyyənləşdirməklə mətni qavradıqlarını nümayiş etdirirlər.

Mətndə "8" rəqəminin müqəddəsliyi və yaxud da xalqların tarixində rəqəmlərin xüsusi bir rolu olması barədə danışılmır. Müəllifin mətni yazmaqda əsas məqsədi baş vermiş tarixi hadisələr fonunda "8" rəqəminin tez-tez hallanmasını diqqətə çatdırıb bu rəqəmi rəmzləşdirməklə yaxın tariximizə nəzər salmaqdır.

**Danışma**

**5-1.3.2. Tapşırıq b (dərslik).** Tapşırığın məqsədi şagirdləri mövzu üzrə danışdırmaq, onların Azərbaycan xalqının tarixində yaddaqalan xoş və ağır günlər barədə fikirlərini öyrənməkdir. Tapşırığı qruplarla iş şəklində də yerinə yetirmək olar. Azərbaycanda dövlət səviyyəsində qeyd edilən bir sıra tarixi günlər var. Onlardan bəziləri bayram, bəziləri isə hüzn günü kimi qeyd olunur. Şagirdlərə bu günlərə dair müvafiq tapşırıq (bir qrupa bayramlarla, digər qrupa isə hüzn günləri ilə bağlı) verilə bilər. Qruplar Azərbaycanda dövlət səviyyəsində qeyd edilən xüsusi günlər və həmin günlərin tarixi ilə bağlı müzakirə edərək təqdimat hazırlaya bilərlər.

Şagirdlər mətndə haqqında danışılmayan aşağıdakı tarixi günləri qeyd edə bilərlər:

*Faşizm üzərində Qələbə Günü (mayın 9-u); Milli Qurtuluş Günü (iyunun 15-i); Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü (iyunun 26-sı); Konstitusiya Günü (noyabrın 12-si); Milli Dirçəliş Günü (noyabrın 17-si); Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü (dekabrın 31-i).*

Təqvimin bəzi günlərində isə Azərbaycan xalqının ağır günləri yad edilir. *Məsələn, 1990-cı ilin* ***20*** *yanvarında SSRİ rəhbərliyinin siyasətinə etiraz edərək Bakının küçələrinə və meydanlarına çıxan insanlara qarşı sovet ordusu yeridilmiş, nəticədədə xeyli sayda insan şəhid olmuşdu.*

*1992-ci il fevral ayının* ***26-****da Ermənistan silahlı qüvvələrinin Xankəndində yerləşən 366-cı motoalayının bilavasitə iştirakı ilə Azərbaycan xalqına qarşı Xocalı soyqırımı törədilmişdi.*

*"****31*** *Mart Azərbaycanlıların soyqırımı Günü" kimi qeyd olunur. 1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar.*

**Dinləmə**

**5-1.1.1. Tapşırıq c (dərslik).** Müəllim əvvəlcə "Doqquz və doqquzlama" mətnini səsləndirir.

**Müəllimin nəzərinə!** Şagirdlərin mətni dinlədikdən sonra dərslik və iş dəftərindəki müvafiq tapşırıqlara nəzər yetirməsi və əgər ehtiyac olarsa, mətni yenidən dinləmələri tövsiyə olunur. Şagirdlərin əvvəlcədən tapşırıqları gözdən keçirməsi onların mətni daha məqsədyönlü dinləməsinə kömək edəcək.

**Doqquz və doqquzlama**

*Qədimdə bir çox xalqlarda, o cümlədən türklərdə 9 rəqəmi müqəddəs rəqəm hesab edilirdi. İndiyə qədər də dilimizdəki bir çox atalar sözü və məsəllərdə bu rəqəmə rast gəlinir. Məsələn: "Həftə səkkiz, mən doqquz", "Adı çıxdı doqquza, enməz daha səkkizə" və s.*

*Belə bir fikir var ki, türk xalqlarında geniş istifadə olunan buta naxışı 9 rəqəmini əks etdirir.*

*Riyazi baxımdan da 9 rəqəminin özəlliyini təsdiq edən bir cəhət var. Bu ədədi başqa ədədlərə vurduqda hasildəki rəqəmlərin cəmi 9 edir. Məsələn: 9 x 6 = 54 (5+4=9), 9 x 3 = 27 (2+7=9), 9 x 7 = 63 (6+3=9) və s.*

*Qədim türk xalqlarında "doqquzlama" deyilən bir adət olub. Həmin adətə görə, hörmətli adamlara bəxşiş veriləndə hər hədiyyədən 9 ədəd olmalı idi.*

*XV əsrdə Azərbaycanda Uzun Həsənin sarayında olmuş bir İtaliya diplomatı öz ölkəsinə göndərdiyi məktubda yazmışdı: "Bu şöhrətli hökmdarın yanına Tatar xanının səfiri gəlmişdi. Hədiyyə olaraq hökmdara 9 qılınc, 9 xəncər, 9 yəhər, və 9 xəz dəri gətirmişdi".*

*Şirvanşahlar dövlətinin başçısı I İbrahimlə bağlı bir rəvayət də doqquzlama adətindən xəbər verir. Müdrik hökmdar olan İbrahim bir gün eşidir ki, Teymurləngin qoşunu Şirvanşahlar dövlətinin sərhədini keçib və onun ərazisinə daxil olub. O, çoxlu bəxşiş götürüb Teymurləngi qarşılamağa gedir. İbrahim hər hədiyyədən 9 ədəd götürür. Ancaq qullardan səkkiz nəfər aparır. Teymurləng bunun səbəbini soruşduqda İbrahim belə cavab verir:*

*– Doqquzuncu mən özüməm!*

*Bu cavab böyük fatehin çox xoşuna gəlir. Odur ki Şirvanşahı öz dostu kimi qəbul edir. Beləcə, İbrahim ağlı və müdrikliyi sayəsində Şirvanı işğaldan xilas edir.*

*Zaman keçdikcə doqquzlama adəti öz əhəmiyyətini itirdi. Artıq bir çoxları hədiyyə verərkən bu adətə əməl etmirdilər. Beləliklə, "doqquzluq gəlmək" ifadəsi yarandı. Hal-hazırda bu ifadə kimisə aldatmaq, yalan danışmaq, kələk gəlmək, hiylə işlətmək mənasında işlənir.*

*Rəqəmlərlə bağlı bir çox ifadələr xalqımızın tarixindən, adət-ənənələrindən, eləcə də dilimizin zənginliyindən xəbər verir.*

Şagirdlər mətndə səslənən deyimlərin mənalarını təxmin edib söyləyirlər:

• Həftə səkkiz, mən doqquz – tez-tez, davamlı, arzu olunmayan eyni davranışa münasibətdə işlədilən ifadədir.

• "Adı çıxdı doqquza, enməz daha səkkizə" ifadəsi insanın məşhur olduğu bir şəraitdə belə, daha yüksək məqama doğru irəliləmək istədiyini ifadə edir. Bu o deməkdir ki, insan əldə etdiyi uğuru kafi görmür və daha çox arzulayır.

Şagirdlər fikirlərini söyləyirlər. Ən doğru fikir müəllim tərəfindən təsdiqlənir.

**Müəllimin nəzərinə!** Müəllim "həftə səkkiz, mən doqquz" ifadəsi ilə bağlı əlavə informasiya verə bilər:

*Bu ifadə bir çox qədim xalqlarda mövcud olmuş təqvim düzümündən qaynaqlanır.*

*Hazırda istifadə etdiyimiz yeddi gündən ibarət olan müasir həftə, əslində, qədim yəhudi adətlərindən və "Bibliya"dan götürülmüşdür. Amma həftə tarixən ayrı-ayrı dövrlərdə müxtəlif xalqlarda fərqli tərzdə – üç, beş, yeddi və s. günlərdən ibarət hesab edilmişdir; məsələn, qədim şumerlər və babillilər yeddi günlük həftədən istifadə edirdilər.*

*Bir sıra qədim xalqlar kimi qədim romalılar (habelə etrusklar) da həftəni səkkiz gün hesablayırdılar. Həftənin yeddi günü iş günü olurdu, səkkizinci gün isə bazar günü idi. Bazar günləri (səkkizinci gün) kənd əhli şəhərlərə, böyük ticarət mərkəzlərinə gedərdilər. Həm də bayram hesab edilən belə bazar günlərində geniş miqyasda ticarət aparılır, müxtəlif ictimai tədbirlər keçirilirdi.*

*Professor Musa Adilova görə, "mən doqquz" ifadəsinin buraya əlavə edilməsi ifadədəki mənanı şiddətləndirmək məqsədi güdür. "Doqquz" rəqəmi həm "səkkiz"lə qarşılaşdırma məqsədini güdür, həm də artıqlığı, çoxluğu, son həddi bildirir.*

### Yazı

**5-3.2.2. Tapşırıq a (iş dəftəri).** Şagirdlərin dinlədikləri mətndə doqquzlama adətini təsdiq edən nümunələr bunlardır:

*1. XV əsrdə Azərbaycanda Uzun Həsənin sarayında olmuş bir İtaliya diplomatının qeydlərinə əsasən Uzun Həsənin yanına Tatar xanının səfiri gələrkən hər hədiyyədən 9 ədəd gətiribmiş.*

*2. Rəvayətə görə Şirvanşahlar dövlətinin başçısı I İbrahim Teymurləngin görüşünə gedərkən hər hədiyyədən 9 ədəd götürür. Ancaq qullardan səkkiz nəfər aparır. Teymurləng bunun səbəbini soruşduqda İbrahim Teymurləngi razı salmaq üçün doqquzuncu qulun özü olduğunu bildirir.*

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər I İbrahimlə Teymurləng haqqında dinlədikləri rəvayətə dair yadda saxladıqlarını yazırlar.

**5-1.1.1. Tapşırıq c (iş dəftəri).** "Gözəllik ondur, doqquzu dondur" atalar sözünü şagirdlər düşündükləri kimi izah edirlər. Tapşırıq yerinə yetiriləndən sonra müzakirə aparılması tövsiyə olunur. Yəqin ki, şagirdlərin çoxu xarici gözəlliyin, baxımlı olmağın, zövqlə geyinməyin vacib olduğunu vurğulayacaq, lakin atalar sözü ilə razılaşmayan, daxili gözəlliyi, mənəvi keyfiyyətləri daha üstün hesab edənlər də ola bilər.

Sonda diqqətə çatdırmaq olar ki, bəzən atalar sözləri zaman keçdikcə müəyyən təhriflərə uğrayır, əsl mahiyyətindən kənarlaşır. Belə bir fikir var ki, bu atalar sözü də təhrifə uğrayıb. Əsli isə belədir:"Gözəllik ondur, doqquzuncusu dondur".

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qeyri-bədii mətndəki fakt və fikirlərdən çıxış edərək müəllifin məqsədini müəyyən edir. | Tap. a (D.) |
| Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir. | Tap. b (D.) |

| | |
|---|---|
| Dinlədiyi mətndəki əsas fikri öz həyat düşüncələri ilə əlaqələndirir. | Tap. **c** (D.), Tap. **c** (İ.D.) |
| Qurduğu plan əsasında dinlədiyi mətnin qısa məzmununu yazır. | Tap.**a, b** (İ.D.) |

## 3-cü dərs. Təqdimat

• Dərslik: səh. 30 • İş dəftəri: səh. 26

**Təlim məqsədləri**

**1.** Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını, apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir **(st. 5-1.3.2).**

**2.** Mətndəki hadisələri, hadisə işrakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərdən soruşur:

*– Bu fasildə rəqəmlərlə bağlı hansı ifadələrin mənasını öyrəndiniz?*

**Danışma**

**5-1.3.2. Tapşırıq a (dərslik).** Sinfin texniki təchizatını nəzərə alaraq müəllim araşdırma tapşırığını şagirdlərə bir gün öncədən tapşıra bilər. Tapşırığın qruplarla iş formasında yerinə yetirilməsi tövsiyə olunur. Bu zaman qrupların da bir gün öncə müəyyən edilməsi arzu olunandır. Bu, qrup üzvləri arasında əvvəlcədən iş bölgüsünün aparılmasına (cavablandırılacaq sualların paylanmasına) kömək edə bilər.

Tapşırıqda verilmiş suallar əsasında müvafiq araşdırmalar aparan şagirdlər mövzu üzrə müzakirə edib təqdimata hazırlaşırlar. Müzakirə əsasında sualların cavablarını tezislər şəklində yazırlar. Təqdimat materialının dizaynına xüsusi diqqət yetirirlər. Sinfin kompüter təchizatı imkan verərsə, təqdimatın slaydlar şəklində hazırlanması arzuolunandır.

Şagirdlər verilmiş suallara cavab olaraq aşağıdakı məlumatları əldə edə bilərlər:

**• Nağıllarda "yeddi" sözünün işləndiyi hansı ifadələrə rast gəlirik?**

*"Yeddi qardaş 1 bacının nağılı", "yeddi divin nağılı", "yeddi qu quşu əfsanəsi", "yeddi ulduz", "yeddi gün", "yeddi gecə, "yeddibaşlı əjdaha", "yeddi dağ", "yeddi pəri", "yeddi padşah", "yeddi qızıl piyalə" və s. kimi ifadələrə rast gəlinir.*

*Həm şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatımızda bu rəqəm barəsində çox danışılır. Eyni zamanda, mifologiyada da bu rəqəmin müqəddəsliyi vurğulanır. Deyilənə görə,* Allah yer üzünü 7 gün ərzində yaradıb.

**Mənbə:** hafta.az saytı

**• "Yeddi arxa dönən" ifadəsinin mənası nədir?**

*Çox qədimlərə gedib çıxan qohumluğu, nəsli, şəcərəni bildirən ifadə.*

*İfadə türkdilli xalqların nəslə, kökə, ailə şəcərəsinə həssaslığı ilə əlaqədar meydana çıxmışdır.*

*Ən qədim qəbilə quruluşunun izlərini mühafizə edən bu ifadə həm də türklərdə ata-baba kultuna, əsil-nəcabətə, böyüklərə, ağsaqqallara dərin hörməti ifadə edir. Türk xalqları içərisində yeddi arxa dönəni tanımaq çox zəruri hesab olunurdu, bunları tanımayanlar əsilsiz-nəsəbsiz və ümumiyyətlə, dəyərsiz adam sayılır, gözdən düşürdü. Qədim qırğızlar həm ata, həm də ana xətti ilə yeddi arxa nəslini tanımayanı «qul» hesab edirdilər. Əsl adam irq baxımından saf, təmiz, kamil, qabil adamdır. Hər kəs öz şəcərəsini bilməli, tayfanın, qəbilənin banisini tanımalıdır. Bu məlumatlar yalnız yaddaşlarda yaşayır, çox az hallarda yazıya köçürülürdü.*

*Bizim günlərdə adamlar, əsasən, babasını və nənəsini tanıyırsa, min illər boyu savadsız adamlar öz nəsli haqqında daha dərin və geniş biliyə malik olurdu. Şəxs öz ailəsinin və qəbiləsinin keçmişi haqqında yazılı mənbələrdən məlumat ala bilmədikdə bu məlumatı yalnız şifahi nitq vasitəsilə almış olurdu. Bununla əlaqədar bir neçə nəslin təmsilçilərinin əsil-nəcabəti yadda saxlamaq qabiliyyəti çox güclü olurdu.*

*İfadə bəzən də "Yeddi arxa dolanan" şəklində işlənir. Qohumluq sırasında yeddi arxa dönən şəxs ən uzaq qohumdur və adətən, qohumların ardıcıllığı belə göstərilir: övlad – nəvə – nəticə – kötücə – yadıca – ötücə – yeddi arxa dönən.*

**Mənbə:** azleks.az saytı.

**• "Göyün yeddinci qatı" ifadəsi necə yaranıb?**

*Həddindən çox sevinməyi, tamamilə səadət içində olmağı bildirən ifadədir. İfadə qədim yunanların səma və onun quruluşu haqqında təsəvvürlərindən qaynaqlanaraq yayılmışdır.*

*Yunanların təsəvvürünə görə, göy hərəkət etməyən yeddi şəffaf təbəqədən (qatdan) ibarətdir. Məşhur yunan filosofu Aristotel (e.ə. 384–322) əsərində göy qübbəsinin quruluşunu məhz belə aydınlaşdırırdı. Yerdən ən uzaqda olan yeddinci sferada müqəddəslərin ruhunun yaşadığı behişt – səmavi krallıq yerləşir və hamı ora düşməyə can atır.*

*Qədim sami dillərində (assorlar, ərəblər, yəhudilər) yeddi rəqəminə and içirdilər və bu dillərdə "and içmək" feili yeddi rəqəmi ilə əlaqədardır. "Tövrat"da dəfələrlə bu rəqəm yada salınır. Brəhmən və Budda dinlərində də yeddi müqəddəs rəqəm hesab olunur. Yaponiyada yeddiyə qalıqsız bölünən bütün rəqəmlər bədbəxtlik rəmzi sayılır. "Avesta"da Yer yeddi hissəyə bölunmüş təsəvvür edilir.*

*İslam dininə görə, Allah və onu əhatə edən mələklər göyün yeddinci qatında olurlar. "Quran"ı mələklər göyün yeddinci qatından gətirmişlər.*

**Mənbə:** azleks.az saytı.

• **Doğrudanmı göy qurşağında 7 rəng var?** *Bu sual iş dəftərində a tapşırığında təqdim olunmuş mətndə cavablandırılır.*

• **Doğrudanmı oktavada 7 səs bildirən not var?**

*Oktava ən yaxın eyniadlı səslər arasındakı intervaldır. Məsələn, do, re, mi, fa, sol, lya, si, do. Göründüyü kimi, oktavada adına uyğun olaraq (oktava latın dilndə səkkizinci deməkdir) səkkiz səs var. Lakin birinci və səkkizinci səslər eyni ad daşıdığına görə oktavada yeddi səs bildirən notun olduğu söylənilir.*

### Oxuyub-anlama

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).** Tapşırığı yerinə yetirməklə şagirdlər oxuduqları mətni qavradıqlarını nümayiş etdirirlər.

**Cavab:** c. Mətndə göy qurşağındakı rənglərin sayının yeddiyə çatdırılmasının səbəbi göstərilir.

**Tapşırıq b (iş dəftəri). Doğru fikirlər: 1, 3, 4**

Tapşırıq yerinə yetiriləndən sonra şagirdlərin doğru və yanlış fikirləri mətnə istinad etməklə əsaslandırmaları tövsiyə olunur:

1. Göy qurşağı günəşli havada yaranır. *Bu fikir doğrudur. Mətndə göy qurşağının yağışdan sonra gün çıxanda yarandığı göstərilir.*

2. Göy qurşağında narıncı rəng yaşıl rəngdən sonra gəlir. *Bu fikir doğru deyil, çünki İsaak Nyuton narıncı rəngin qırmızı ilə sarı arasında olduğu fikrini irəli sürüb.*

3. Göy qurşağının rənglərinin sonsuz sayda olması elmi cəhətdən sübut olunub. *Bəli. Doğru fikirdir. XVII əsrdə məşhur ingilis alimi İsaak Nyuton sübut edib ki, göy qurşağının sonsuz sayda rəngləri var.*

4. Havada su damcıları olmasa, göy qurşağı yarana bilməz. *Bəli. Göy qurşağı Günəş şüalarının su səthinə yayılması nəticəsində meydana gəlir.*

5. Yağıntı nə qədər çox olsa, göy qurşağı bir o qədər al-əlvan olur. *Xeyr. Yanlış fikirdir. Yağıntının müxtəlif növləri var. Göy qurşağının yaranmasına səbəb yağışdır. Mətndə göstərilir ki, yağış damlaları nə qədər böyükdürsə, göy qurşağı bir o qədər parlaq və rəngarəng görünür.*

**Tapşırıq c (iş dəftəri).** Tapşırıq fənlərarası inteqrasiya imkanı yaradır və şagirdlərin dünyagörüşünü yoxlamağa imkan verir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu üzrə verilmiş tezisləri genişləndirməklə danışır. | Tap. **a** (D.) |
| Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir. | Tap. **a**, **b**, **c** (İ.D.) |

## 4-cü dərs. Sözün həqiqi və məcazi mənası

• Dərslik: səh. 31 • İş dəftəri: səh. 27

**Təlim məqsədləri**

**1.** Sözün həqiqi və məcazi mənalarını fərqləndirir, frazeologizmləri müəyyən edir **(st. 5-4.4.3).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Bu tapşırıqla şagirdləri mövzuya yönəltmək olar. Şagirdlər əvvəl "parlaq" sözünün mənasını (parıldayan, işıq verən, işıldayan, işaran, parıltılı) izah edirlər, sonra "8 rəqəmi və tariximiz" mətnində göy rənglə verilmiş cümlədəki "parlaq gün" birləşməsindəki "parlaq" sözünün işləndiyi məna (seçilən,

əlamətdar) ilə müqayisə edirlər.

**Dil qaydaları**

**5-4.4.3. "Yadda saxla" rubrikasında** sözün həqiqi və məcazi mənası haqqında məlumat verilir. "Şirin" sözünün həqiqi və məcazi mənası izah edilir. Yaxşı olar ki, sözün həqiqi və məcazi mənası digər nümunələr əsasında izah edilərək möhkəmləndirilsin.

**Tapşırıq b (dərslik).** Bu tapşırıqda *yağış* sözünün cümlədə həqiqi, yoxsa məcazi mənada işləndiyini müəyyən etmək tələb olunur.

Cavab: *"Güllə yağışı" birləşməsində "yağış" məcazi mənadadır, "güllə yağış kimi ara vermədən yağır" mənasında işlənib.*

**Tapşırıq c (dərslik).** Bu tapşırıqda eyni sözlərin həm həqiqi, həm də məcazi mənaları izah olunur. Şagirdlər həqiqi mənada işlənən izahları müəyyən etməlidirlər.

Cavab: *Sərt, şit, bürümək* sözlərinin 1-ci izahı, *dəmir* sözünün isə 2-ci izahı həqiqi mənanı əks etdirir.

**Tapşırıq ç (dərslik).** Bu tapşırıqda nöqtələrin yerinə elə söz seçib yazmaq lazımdır ki, cümlənin tərkibindəki feil məcazi məna ifadə etsin.

Cavab: 1. külək; 2. təbiət; 3. qış; 4. günəş.

**Tapşırıq d (dərslik).** Tapşırıqda eyni söz həm həqiqi, həm də məcazi mənada cümlədə işlənib. Şagirdlər bu sözlərin kontekstdən asılı olaraq hansı mənada işləndiyini və onların mənaları arasındakı yaxınlığı müəyyən edirlər.

Cavab: 1. "acı bibər" birləşməsində "acı" sözü həqiqi, "acı söz" birləşməsindəki "acı" sözü isə məcazi mənada işlənib. Acı bibər ağızı yandırdığı kimi acı söz də qəlbi yandırır və s.

2. soyuq münasibət (məcazi m.)
soyuq su (həqiqi m.)
3. qara günlər (məcazi m.)
qara karandaş (həqiqi m.)

**Tapşırıq a (iş dəftəri).** Sözün həqiqi və məcazi mənasına aid qazanılmış biliklərin möhkəmləndirilməsi prosesi iş dəftərində davam etdirilir. Bu tapşırıqda da eyni sözün həqiqi və məcazi mənası müəyyən edilərək cədvəl üzrə qruplaşdırılır.

| Həqiqi məna | Məcazi məna |
|---|---|
| dərin quyu | dərin fikir |
| geniş həyat | geniş məlumat |
| yüksək dağ | yüksək vəzifə |
| böyük ev | böyük arzu |
| dar küçə | dar düşüncə |
| duzlu xörək | duzlu zarafat |

**Tapşırıq b (iş dəftəri).** Bu tapşırıqda da şagirdlər fərqləndirilmiş sözlərin həqiqi, yoxsa məcazi mənada işləndiyini müəyyən edirlər.

Cavab: 1-ci, 3-cü, 4-cü cümlələrdə fərqləndirilmiş sözlər məcazi, 2-ci cümlədə həqiqi mənada işlənmişdir.

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər yenə də cümlələrdəki fərqləndirilmiş sözlərin hansı mənada işləndiyini müəyyən etdikdən sonra həmin sözləri fərqli mənada (həqiqidirsə, məcazi; məcazidirsə, həqiqi) cümlədə işlədirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün həqiqi və məcazi mənalarını fərqləndirir. | Tap. **a**, **b**, **c**, **ç** (D.), tap. **a**, **b**, **c** (İ.D.) |
| Sözün həqiqi və məcazi mənaları arasındakı yaxınlığı izah edir. | Tap. **d** (D.) |

# 3-cü fəsil

## 1-ci dərs. Təcili qan lazımdır

• Dərslik: səh. 32-33 • İş dəftəri: səh. 28

**Təlim məqsədləri**

**1.** Bədii mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir **(st. 5-2.1.1).**
**2.** Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını izah edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**
**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**
**4.** Mətnin tərkib hissələrini (giriş, əsas hissə, sonluq) müəyyən edir **(st. 5-2.3.3).**

**Mövzuya yönəltmə**

Müəllim sinfə müraciət edir:

– Sizcə, qəza keçirmiş bir adama necə yardım göstərmək olar?

**Oxu**

**5-2.1.1.** Mətn şagirdlər tərəfindən obrazların nitqini onların davranışına uyğun səsləndirməklə növbəli şəkildə oxunur.

**Söz ehtiyatı**

Bu dərsin dərslikdəki bütün tapşırıqları söz ehtiyatı ilə bağlıdır. Müxtəlif tapşırıqlarda fərqli üsullarla yeni sözlər mənimsədilir.

**5-2.1.3. Tapşırıq a (dərslik)**

Cavab: 1. cüssəli; 2. fərsiz; 3. avazımaq; 4. hikkə.

**Tapşırıq b (dərslik).** Bu tapşırıqda şagirdlər "Söz boğçası"nda olan sözlərin izahına aid olmayan nümunələri seçməlidirlər.

Cavab: b. güvənmək; c. əsasını qoymaq.

**Tapşırıq c (dərslik).** Şagirdlər izahın "donor" sözünə aid olduğunu müəyyən edirlər.

**Müəllimin nəzərinə!** Dərsliyin son səhifələrində izahlı lüğət verilib. Həmin lüğətdə "donor" sözünün iki mənası əks olunub. Şagirdlərin 1-ci, yoxsa 2-ci izahı seçmələrinə diqqət etmək lazımdır.

**Tapşırıq ç (dərslik).** Cavab:

Ölüm-dirim məsələsi – həyati əhəmiyyəti olan məsələ.

İki ayağını bir başmağa dirəmək – öz fikrindən, dediyindən dönməmək, inadkar olmaq.

**Oxuyub-anlama**

Oxuyub-anlama prosesi iş dəftərində aparılır.

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).** Tərtib edilən suallar mətndəki əsas məqamlara aydınlıq gətirsə, daha məqsədəuyğun olar.

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər müəyyən etməlidirlər ki, hansı cümlələrdə ifadə olunan fikir mətndə öz əksini tapmayıb.

Cavab: 4-cü, 5-ci, 6-cı cümlələr.

**Tapşırıq c (iş dəftəri)**

Cavab: 2, 3 – düzgün; 1, 4 – yanlış fikirdir.

**5-2.3.3. Tapşırıq ç (iş dəftəri).** Bu tapşırıqda verilən parçaların kimin dilindən ola bilməsi və mətnin tərkib hissəsinə uyğunluğu soruşulur. Mətni diqqətlə oxuyan, obrazların xarakterinə bələd olan şagirdlər bunu asanlıqla müəyyən edə biləcəklər. Mətndə müəllimin nitqi olmasa da, adı çəkilir. Ola bilər ki, şagirdlər müəllimin dilindən verilən fikri müəyyənləşdirməkdə çətinlik çəksinlər. Əsas bacarıq bu parçaların mətnin hansı tərkib hissəsini genişləndirə bilməsinin müəyyən edilməsidir.

Cavab: 1. Mustafanın anası – əsas hissə;
2. Mustafa – sonluq hissə;
3. Müəllim – giriş hissə.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | "Təcili qan lazımdır" |
| Yaxınmənalı sözləri müəyyən edir. | Tap. a, b (D.) |
| Sözün leksik mənasını izah edir. | Tap. c, ç (D.) |
| Mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tap. a (İ.D.) |
| Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir. | Tap. c (D.), Tap. b (İ.D.) |
| Mətnin tərkib hissələrini (giriş, əsas hissə, sonluq) müəyyən edir. | Tap. ç (İ.D.) |

## 2-ci dərs. Təcili qan lazımdır

• Dərslik: səh. 34 • İş dəftəri: səh. 29

**Təlim məqsədləri**

**1.** Mətnin hissələrini əlaqələndirməklə ümumi məzmun və obrazlar barədə fikir yürüdür **(st. 5-2.2.1).**

**2.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.1.2).**

**3.** Oxuduğu və ya dinlədiyi mətni nəql edir **(st. 5-1.3.1).**

**4.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**5.** Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**

**Mövzuya yönəltmə**

Mətni xatırlatmaq məqsədilə müəllim məzmuna aid suallarla sinfə müraciət edir.

**Oxuyub-anlama**

5-2.2.1. **Tapşırıq a (dərslik).** Mətndə Səlimin anasının söylədiyi fikri təsdiq edən epizodu müəyyənləşdirmək tələb olunur.

Cavab: *Səlim televizorda təcili qan lazım olduğu haqqında elanı eşidir. O, cəld anası ilə xəstəxanaya gedir, tanımadığı bir insanın həyatını xilas etmək üçün könüllü qan verir. Yaralının dostunun atası olduğunu sonradan bilir. Bu epizod ananın sözlərini təsdiq edir.*

5-2.1.2. **Tapşırıq b (dərslik).** Tapşırığın şərtinə əsasən obrazların nitqinə görə onların xarakterini müəyyən etmək lazımdır.

Cavab: *1-ci parça Mustafanın, 2-ci isə Səlimin nitqinə aiddir. Mustafanın sözlərindən onun laqeyd, soyuqqanlı, başqasının həyatına qarşı biganə biri olduğu anlaşılır. Səlimin sözlərindən isə aydın olur ki, o çox qayğıkeş, insanpərvər, yardımsevər insandır.*

**Tapşırıq c (dərslik).** Müzakirə xarakterli tapşırıqda əsas obrazların xarakterinə aid iki fikir verilib. Şagirdlər mətnin məzmunundan çıxış edərək sərbəst fikir yürüdürlər və niyə belə düşündüklərini əsaslandırırlar.

**Danışma**

5-1.3.1. **Tapşırıq ç (dərslik).** Plan qurmaq üçün müəllim yenidən mətnə nəzər salmağı tövsiyə edir. Şagirdlər səssiz şəkildə qurduqları planı bir-bir oxuyurlar. Müəllimin köməyi ilə ən uyğun variantı seçirlər. Plan təxminən bu ardıcıllıqla tərtib oluna bilər:

1. Yalnız qələbə
2. Səlimin pərt olması
3. Mustafanın elana münasibəti
4. Telefon zəngi
5. Xəstəxanada
6. Atanın xilası

Sonra isə qurulmuş plan ətrafında mətn nəql olunur.

Bu tapşırığı yerinə yetirməklə şagirdlər oxuyub-anlama və şifahi nitq bacarıqlarını inkişaf etdirmiş olurlar.

Mətnin məzmununun mənimsədilməsi, oxuyub-anlamanın möhkəmləndirilməsi iş dəftərində davam etdirilir.

5-2.1.2. **Tapşırıq a (iş dəftəri).** Hadisələrin səbəbini yazmaqla cədvəli tamamlamaq tələb olunur.

Cavab: *1. Səlim qapını yaxşı qoruya bilməmişdi. (Səlim futbol oyununda qapıdan top buraxmışdı və s.)*

*2. Səlim yaralıya qan vermək istəyirdi.*

*3. Mustafa Səlimi futbol oyununa görə dəyərləndirirdi.*

*4. Səlim Mustafanın atasını ölümdən xilas etdi.*

5-2.2.1. **Tapşırıq b (iş dəftəri).** Bu tapşırıq şagirdlərə mətnə istinad etməklə söylənilən fikirləri arqumentlərlə əsaslandırmaq bacarığı aşılayır.

Cavab:

***1. Nümunə:*** *Mustafa və Səlim eyni qan qrupundandırlar.*

***Əsaslandırma:*** *Hər ikisi televizorda elanı eşidəndə mənfi üç qan qrupunun onların qan qrupu olduğunu səsləndirdilər.*

***2. Nümunə:*** *Mustafanın anası mənəvi keyfiyyətlərə dəyər verir.*

***Əsaslandırma:*** *Mustafanın anası Səlimin mərifətli, qanacaqlı oğlan olduğundan ağızdolusu danışırdı.*

***3. Nümunə:*** *Səlimin anası oğlunun fikirlərinə hörmətlə yanaşır.*

***Əsaslandırma:*** *Qan vermək üçün xəstəxana-*

*ya gedən oğluna mane olmadı, onunla getdi.*

***4. Nümunə:*** *Yersiz tələskənliyi Mustafanın peşmanlığına səbəb oldu.*

***Əsaslandırma:*** *Səlim Mustafanın atasını xilas etdi. Mustafa bunu biləndə Səlimə qarşı etdiyi hərəkətdən çox utandı.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə fikir və arqumentlər arasındakı məntiqi əlaqəni müəyyən edir. | Tap. **a** (D.) |
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. **b**, **c** (D.) |
| Mətni tərtib etdiyi plan əsasında nəql edir. | Tap. **ç** (D.) |
| Mətndəki hadisələrin açıq şəkildə göstərilən səbəbini izah edir. | Tap. **a** (İ.D.) |
| Mətndə irəli sürülən fikri əsaslandıran arqumentləri müəyyən edir. | Tap. **b** (İ.D.) |

## 3-cü dərs. Qan qrupları

• Dərslik: səh. 34 • İş dəftəri: səh. 30

**Təlim məqsədləri**

**1.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**2.** Verbal-qrafik materialları (şəkil, sxem, cədvəl, məlumat vərəqi, xəritə və s.) şərh etməklə rabitəli mətn qurub danışır **(st. 5-1.3.2).**

**3.** Oxuduğu mətn haqqında rəy yazır **(st. 5-3.2.3).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə suallarla müraciət edir:

1. Sizcə, qanın insan həyatında rolu nədir?

2. Şəxsiyyət vəsiqənizdə qan qrupunuzun qeyd olunduğunu bilirsinizmi? və s.

**Danışma**

**5-1.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər onlara ünvanlanan sualları cavablandırırlar. Yəqin ki, bəziləri öz qan qruplarını bilirlər. Bilməyənlərə şəxsiyyət vəsiqələrinə baxıb öyrənməyi tövsiyə etmək olar. Şəxsiyyət vəsiqəsində qan qrupunun qeyd edilməsinin səbəbi ətrafında da müzakirə açılır, şagirdlərin fikirləri dinlənilir. Tapşırığın məqsədi şagirdlərin fikiryürütmə bacarığını inkişaf etdirməkdir.

Artıq şagirdlər sual-cavabın köməyi ilə mətnin əvvəlini xatırlayıblar. Bundan sonrakı hadisələrin necə davam edəcəyi haqqında şagirdlərin fikirləri dinlənilir. Onlar öz təxəyyüllərinə uyğun olaraq hadisələrin davamını təxmin edirlər.

Qeyri-bədii mətn şagirdlər tərəfindən növbəli şəkildə oxunur. Paralel olaraq müəllim ifadə olunan fikirləri şərh edir. Şagirdlərin diqqətini “rezus” sözünün izahına yönəldir. Mətni anladıqlarını müəyyən etmək üçün müəllim mətnin məzmunu ilə bağlı suallar verir.

**5-1.3.2. Tapşırıq b (dərslik).** Tapşırıqda qan qruplarına aid cədvəl verilib. Şagirdlər qrafik təsviri mətnə çevirib danışırlar. Yaxşı olar ki, əvvəlcə müəllim cədvəldə əks olunan məlumatları şagirdlərə sual şəklində ünvanlasın. Məsələn:

1. Neçə qan qrupu mövcuddur?

2. Hansı qan qrupu bütün qruplara donor ola bilər?

3. Bütün qruplardan qan qəbul edən qrup hansıdır?

4. Hansı qrup yalnız öz qrupundan qan qəbul edə bilər?

5. Hansı qrup yalnız öz qrupuna qan verə bilər? və s.

Sonra şagirdlər cədvəldəki məlumatları rabitəli mətn şəklində danışırlar.

**Yazı**

**5-3.2.3. Tapşırıq a (iş dəftəri).** Bu tapşırıqda şagirdlərdən oxuduğu “Təcili qan lazımdır” mətninə rəy yazmaq tələb olunur. Bu yazı növü fərdi xarakter daşıyır. Hər şagirdin müxtəlif yanaşması ola bilər. Yazı işi başa çatdıqdan sonra müəllim şagirdlərin yazdıqlarını bir-bir oxutdurur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatdan nümunələr gətirməklə fikrini əsaslandırır. | Tap. **a** (D.) |
| Qeyri-bədii mətndəki əsas faktları müəyyən edir. | Mətn |

| | |
|---|---|
| Əldə etdiyi bilgilər əsasında qrafik informasiyanı şərh edir. | Tap. **b** (D.) |
| Oxuduğu mətn haqqında rəy yazır. | Tap. **a** (İ.D.) |

## 4-cü dərs. Təcili qan lazımdır

• Dərslik: səh. 34

**Təlim məqsədləri**

**1.** Verilmiş mövzu ilə bağlı təxəyyülü əsasında bədii mətn yazır **(st. 5-3.2.2).**

**Mövzuya yönəltmə**

Mətnin məzmunu xatırladılır.

**Yazı**

**5-3.2.2. Tapşırıq a (dərslik).** Tapşırıq şagirdlərin yazı bacarığını inkişaf etdirməklə yanaşı, təxminetmə bacarığını da möhkəmləndirir. Verilmiş plan əsasında mətni davam etdirmək tələb olunur.

***Nümunə:***

*Anasının bu sözlərindən sonra Mustafa sanki yuxudan ayıldı. "Sən olmasaydın, bəlkə də..."*

*Ana demək istəyirdi ki, bəlkə də, indi Mustafanın atası həyatda yox idi...*

*Mustafa çox pərt olmuşdu. İndi futbol da, məğlubiyyət də ona o qədər mənasız gəlirdi ki...*

*Mustafa Səlimə yaxınlaşdı, başını aşağı salaraq dedi:*

*– Səlim, məni bağışla, mən sənə qarşı çox haqsız oldum. Mən səni tanımamışam. Sən mənə elə yaxşılıq etdin ki, həyatım boyu əvəzini qaytara bilmərəm.*

*Səlim Mustafanı qucaqladı:*

*– Sən də olsaydın, belə edərdin. Mən buna əminəm.*

*Mustafa lap utandı.*

*İki gün sonra dostlar birlikdə atanın yanına getdilər.*

*Ata onları gülərüzlə qarşıladı. Səlimin əlindən tutub: "Mənim xilaskarım" dedi. Sonra üzünü Mustafaya tutdu:*

*– Sən belə dostun olduğu üçün həmişə fəxr etməlisən. Sənin dostun əsl insandır. O nainki uşaqların, heç böyüklərin edə bilmədiyi bir fədakarlıq etdi. Səlim bir insanın həyatını xilas etdi.*

*Həmin gündən Mustafa və Səlim ayrılmaz dostlara çevrildilər. Mustafa anlamışdı ki, Səlim yaxşı futbolçu olmaya bilər, amma insanlıqda ona çatan çətin ki tapıla...*

Təbii ki, bu bir nümunədir. Şagirdlərin düşüncəsi daha fərqli nümunələr yarada bilər.

Yazı işi bitdikdən sonra hər kəs öz yazısını oxuyur, kollektiv olaraq ən bəyənilən yazı nümunəsini müəyyən edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin davamını təxmin edib yazır. | Tap. **a** (D.) |

## 5-ci dərs. Çoxmənalı sözlər. Omonimlər

• Dərslik: səh. 35 • İş dəftəri: səh. 31

**Təlim məqsədləri**

**1.** Çoxmənalı sözün mənaları arasındakı yaxınlığı müəyyən edir **(st. 5-4.4.2).**

**2.** Omonim və çoxmənalı sözləri fərqləndirir **(st. 5-4.4.2).**

**Mövzuya yönəltmə**

**5-4.4.2. Tapşırıq a (dərslik).** Tapşırıq vasitəsilə şagirdləri mövzuya yönəltmək olar.

**Dil qaydaları**

"Yadda saxla" rubrikasında çoxmənalı sözlərdən danışılır. Bu mövzu şagirdlərə aşağı siniflərdən tanışdır. Müəllim başqa çoxmənalı sözləri də nümunə gətirməklə mövzunu xatırladır.

**Tapşırıq b (dərslik)**

Cavab: *Hər üç birləşmədə "burun" sözü irəli çıxan hissəni bildirir.*

**Tapşırıq c (dərslik).** Bu tapşırıqda da çoxmənalı sözlərin mənaları arasındakı yaxınlıq izah olunur.

**Tapşırıq a (iş dəftəri)**

Cavab: *1 – b; 2 – c; 3 – a.*
*1 – b; 2 – a; 3 – c.*

**Tapşırıq b (iş dəftəri).** Tapşırığın şərtinə əsasən şagirdlər "diş" sözünü müxtəlif mənalarda (məsələn: uşağın dişi, darağın dişi) cümlələrdə işlədib yazırlar.

Növbəti "Yadda saxla" rubrikasında omonim sözlər haqqında danışılır. Bu mövzu da aşağı si-

niflərdən şagirdlərə tanışdır. Çoxmənalı sözlər və omonimlər paralel şəkildə öyrədiləndə daha effektli olur.

**Müəllimin nəzərinə!** Çoxmənalı sözlərdən fərqli olaraq, omonimlərin yalnız həqiqi məna ifadə etməsini, həm eyni, həm də müxtəlif nitq hissəsinə aid olmasını, omonim sözlər arasında məna yaxınlığının olmamasını şagirdlərin diqqətinə çatdırmaq olar.

**Tapşırıq ç (dərslik).** Şagirdlər cümlələrdə işlənmiş omonimlərin ifadə etdiyi mənanı izah edirlər. Mənalar arasında yaxınlıq olmadığı üçün onların omonim olduğunu əsaslandırırlar.

**Tapşırıq c (iş dəftəri)**
Cavab: omonim, çoxmənalı söz, omonim.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Çoxmənalı sözün mənaları arasındakı yaxınlığı müəyyən edir. | Tap. **a**, **b**, **c** (D.), tap. **a**, **b** (İ.D.) |
| Omonim və çoxmənalı sözləri fərqləndirir. | Tap. **ç** (D.), tap. **c** (İ.D) |

# 4-cü fəsil

## 1-ci dərs. Ad günü hədiyyəsi

• Dərslik: səh. 36-37 • İş dəftəri: səh. 32

**Təlim məqsədləri**

**1.** Bədii mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir **(st. 5-2.1.1).**
**2.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.3.1).**
**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**
**4.** Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir **(st. 5-2.3.3).**

### Mövzuya yönəltmə

Müəllim lövhəyə "Əlamətdar günlər" başlığı yazır.

**Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqda qoyulmuş suallara cavab verir, nümunələr söyləməklə fikirlərini əsaslandırırlar.

### Oxu

**5-2.1.1. "Ad günü hədiyyəsi" mətni. Rollu oxu.** Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan düzgün istifadə etmələrinə, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirmələrinə diqqət edir.

### Oxuyub-qavrama

**5-2.3.1. Tapşırıq b (dərslik). Cavablar təxminən belə ola bilər:**

Məsələn, mətndə deyilir ki, əgər Aytən kiməsə xoş münasibət bəsləyirdisə, bunu elə edirdi ki, hamı həmin adamı sevməyə başlayırdı. Deməli, Aytən nitqi və hərəkətləri ilə ətrafdakıları ardınca aparmağı bacarırdı.

Və yaxud konsert zamanı Aytənin ifasını alqışlayan bir qadın qeyri-ixtiyari dillənir:

– Balaca qızdır, gör nə gözəl ifa edir!

Deməli, Aytən bacarığı, davranışı ilə ətrafdakıların diqqətini cəlb edə bilir.

**5-2.1.2. Tapşırıq c (dərslik).** Cavab:

1. Yanlış. Çünki Səmra anası ilə cümə axşamı söhbət etdi. Ertəsi gün, yəni cümə günü məktəb-

dən gələndən sonra rəsm çəkməyə başladı.

2. Düzgün.

3. Yanlış. Kimsə Aytəni təriflәyəndə Səmra sevinir. O istəyir ki, rəfiqəsi öz arzusuna çatsın.

**5-2.3.3. Tapşırıq ç (dərslik).** Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə mətnin hissələri haqqında biliklərini xatırladır:

– Mətnin hansı hissələri var?

– Mətnin giriş hissəsində nə təsvir edilir?

– Mətnin əsas hissəsini necə müəyyənləşdirirsiniz?

– Mətnin nəticə hissəsində nə əks etdirilir?

Daha sonra şagirdlərin diqqəti “Diqqət et” rubrikasına yönəldilir. Şagirdlər mətnin hissələri haqqında yeni məlumatla tanış olurlar: Bəzən mətnlərdə giriş hissə əvvəldə verilməyə bilər.

“Ad günü hədiyyəsi” mətnində də giriş hissə əvvəldə verilməyib. Giriş hissə “Səmra ilə Aytən bir sinifdə oxuyurdular” və “Aytən deyib-gülən, şən qız idi” cümləsi ilə başlanan abzaslardır.

**Tapşırıq d (dərslik).** Mətnin aşağıda təqdim edilən hissəsi zaman ardıcıllığını pozur:

*“Səmra ilə Aytən bir sinifdə oxuyurdular”* cümləsi ilə başlanan və *“Səmra isə anası ilə piyada gedirdi”* cümləsi ilə bitən hissə.

**Tapşırıq e (dərslik).** Şagirdlər əvvəlki tapşırıqda gəldikləri nəticəyə əsasən mətni zaman ardıcıllığına uyğun nəql edirlər.

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).** Cavab: a. Şənbə.

**Tapşırıq b (iş dəftəri).** Cavab: Rəfiqəsi Aytənin ad günü üçün hədiyyə seçə bilmirdi.

**Tapşırıq c (iş dəftəri).** Cavab: Səmra, qızım, sən elə bir hədiyyə hazırla ki, yaddaqalan olsun. Hədiyyənin bahalı olmağı önəmli deyil.

**Tapşırıq ç (iş dəftəri).** Cavab:

*Giriş:*

• Səmra ilə Aytən yaxın rəfiqə idilər.

• Aytən yaxşı piano çalır, Səmra isə gözəl rəsmlər çəkirdi.

*Əsas hissə:*

• Səmra Aytənə alacağı hədiyyə haqqında düşünürdü.

• Anası Səmraya məsləhət verdi.

• Səmra Aytənin məşhur pianoçu olmaq haqqında arzularını xatırladı.

*Sonluq:*

• Səmra fırçanı əlinə alıb rəfiqəsinin şəklini çəkməyə başladı.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dialoji mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | “Ad günü hədiyyəsi” mətni |
| Mətndəki obrazları xarakterizə edir. | Tap. **b** (D.) |
| Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir. | Tap. **c** (D.), tap. **a**, **b**, **c** (İ.D.) |
| Mətnin tərkib hissələrini (giriş, əsas hissə, sonluq) müəyyən edir. | Tap. **ç**, **d**, **e** (D.), tap. **ç** (İ.D.) |

## 2-ci dərs. Ad günü hədiyyəsi

• Dərslik: səh. 38 • İş dəftəri: səh. 33

**Təlim məqsədləri**

**1.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**2.** Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir **(st. 5-2.3.3).**

**3.** Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir, genişləndirir və ya təcrübədə tətbiq edir **(st. 5-2.3.6).**

**4.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.3.1).**

### Mövzuya yönəltmə

Müəllim “Ad günü hədiyyəsi” mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

– Mətndə hansı obrazlar iştirak edir?

– Səmranın problemi nə idi?

– Səmra bu barədə kiminlə məsləhətləşdi?

### Danışma

**5-1.2.2. Tapşırıq a (dərslik).** Tapşırıqda verilmiş sual sanki beyin həmləsi edərək şagirdlərin hadisələrin davamı ilə bağlı təxəyyülünü işə salır.

**Tapşırıq b (dərslik).** Tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlərin diqqəti “Diqqət et” rubri-

kasına yönəldilir. Burada mətnin əsas hissəsini müəyyənləşdirmək üçün məsləhət verilib. Şagirdlər baş qəhrəmanın, yəni Səmranın qarşılaşdığı problemi xatırlayırlar: "Səmra rəfiqəsi Aytənin ad günü üçün hədiyyə seçimi etməkdə çətinlik çəkirdi. O, anasının məsləhəti ilə rəfiqəsi üçün rəsm çəkməyə başladı". Mətnin sonunda Səmranı narahat edən məsələ həllini tapdımı?

Cavab: Xeyr, mətnin sonunda problem həll olunmadı. Səmra çəkdiyi şəkli Aytənə hədiyyə verəcəkmi? Aytən bu hədiyyəni necə qarşılayacaq? Oxucu bu suallara cavab tapa bilmədi.

### Oxuyub-anlama

**5-2.3.3. Tapşırıq c (dərslik).** Cavab: Səmra Aytənin nə vaxtsa söylədiklərini xatırladı:

– Bilirsən, mən böyüyəndə pianoçu olacağam. İstəyirəm bütün dünyanı gəzib konsertlər verim. Təsəvvür edirsən, hamı ayağa qalxıb qışqırır: "Bravo, Aytən!"

Həmin an Səmra da çox istəyirdi ki, rəfiqəsi nə vaxtsa bu arzusuna çatsın...

Şagirdlər sualın ikinci hissəsinə təxəyyüllərinə uyğun cavab verir və əsaslandırırlar. **Cavablar müxtəlif ola bilər. Nümunə:**

– Bəli, düşünürəm ki, rəsm Aytənin xoşuna gələcək, çünki bu rəsmdə Səmra onun arzusunu canlandırmışdı.

**5-2.3.6. Tapşırıq ç (dərslik)**

**Müəllimin nəzərinə!** Bu tapşırığı qruplarla da yerinə yetirmək mümkündür. Hər bir qrup tapşırıqdakı suallara cavab tapmaq üçün mətn qurur. Müxtəlif mətnlər yarana bilər. Bu da yaradıcı təfəkkürün fərqli istiqamətlərdə işləyə biləcəyinə nümunədir. Qruplar qurduqları mətni təqdim edirlər. Mətnlərdəki oxşar və fərqli epizodlar müqayisə edilir.

**5-2.3.1. Tapşırıq a (iş dəftəri).** Cavablar təxminən belə ola bilər:

**Obrazın təqdimatı:** Aytən Səmranın rəfiqəsi idi.

**Xarakteri:** şən, səmimi.

**Əsaslandırma:** Aytən deyib-gülməyi sevirdi. Pianoda çalır, gözəl rəqs edirdi.

**Obraza münasibətim:** Həmişə hisslərini açıq büruzə verirdi. Əgər Aytən kiməsə xoş münasibət bəsləyirdisə, bunu elə edirdi ki, hamı həmin adamı sevməyə başlayırdı.

**Obrazın təqdimatı:** Səmra Aytənlə bir sinifdə oxuyurdu.

**Xarakteri:** həssas, qapalı.

**Əsaslandırma:** Səmra rəfiqəsinə hədiyyə seçərkən xeyli düşündü, narahat oldu. Aytən onun hədiyyəsini açarkən çox həyəcanlandı.

**Obraza münasibətim:** Səmra hisslərini büruzə vermirdi: onun sevinci də, kədəri də içində idi.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. a, b (D.) |
| Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir. | Tap. c (D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. ç (D.) |
| Obrazlar xəritəsi tərtib edir. | Tap. a (İ.D.) |

## 3-cü dərs. Ad günü hədiyyəsi

• Dərslik: səh. 38 • İş dəftəri: səh. 34

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir **(st. 5-1.1.2).**

**2.** Bədii mətndəki hadisələrə və obrazların davranışına əsasən ideyanı müəyyən edir **(st. 5-2.3.2).**

**3.** Oxuduğu mətn haqqında rəy yazır **(st. 5-3.2.3).**

### Mövzuya yönəltmə

Müəllim frontal sorğu vasitəsilə "Ad günü hədiyyəsi" mətninin I hissəsini və hadisələrin davamı ilə bağlı şagirdlərin tərtib etdikləri mətnlərin məzmununu xatırladır.

### Dinləmə

**5-1.1.2. Tapşırıq a (dərslik).** Müəllim dinləmə mətnini səsləndirir:

***Ad günü hədiyyəsi (II hissə)***

*Ad günü restoranda keçirilirdi. Zalda yalnız uşaqlar idi. Küncdəki masanın üstü əlvan hədiyyə*

*qutuları ilə dolu idi. Aytən çox xoşbəxt görünürdü; deyib-gülür, hamıya diqqət göstərirdi.*

*Şam yeməyindən sonra əyləncələr başladı. Uşaqlar arasında oyunlar keçirildi. Kimi oxumaqda, kimi şeir deməkdə, kimi də rəqsdə öz məharətini göstərdi. Səmra əvvəlcə sıxılırdı. Amma sonra o da uşaqlara qoşulub oxumağa, rəqs etməyə başladı.*

*Masanın üstünə iri bir tort qoyuldu. Üstündəki 10 dənə şamı yandırdılar. Aytən "Ad günün mübarək" mahnısının sədaları altında şamları üfürüb söndürdü. Nazlı-qəmzəli ada ilə dedi:*

*– Hə, gəlin indi sizin hədiyyələrə baxaq. Görüm kim məni daha çox istəyir.*

*Bu anda Səmranın ürəyi sıxıldı. İstəyirdi qışqırsın: "Yox! Lazım deyil! Evdə baxarsan!"*

*Aytən səbirsiz hərəkətlərlə bağlamaları bir-bir açıb bahalı hədiyyələri hamıya göstərirdi:*

*– Oho! Nə gözəl dondur! Sağ ol e, Nigar... Rüstəm, bu nədir? Boyunbağı? Bunu, yəqin, Səlmi xala seçib. İnanmıram ki, sənin belə şeylərdən başın çıxa... Ay da, uşaqlar, bir baxın, mənim indi iki telefonum var. Günaya təşəkkürlər...*

*Nəhayət, növbə Səmranın hədiyyəsinə çatdı. Aytən bağlamanın üstündəki açıqçaya baxdı:*

*– Hə, görək əziz dostum Səmra nə alıb?*

*Səmra yerindəcə büzüşdü. Az qala yalvaracaqdı: "Nə olar, açma da!" İmkanı olsa idi, bu yerdən qaçıb uzaqlaşardı.*

*Aytən qutunu açıb rəsmə baxdı. Sonra gözlərini qaldırıb uşaqların arasında Səmranı axtardı.*

*– Səmra! – deyə pıçıltı ilə səsləndi.*

*Aytənin sifəti dəyişmişdi. Sanki bayaqdan uşaqlarla zarafat edən şıltaq qız deyildi. Yenidən rəsmə baxdı. Səmraya yaxınlaşdı, rəfiqəsini qucaqladı. Onun gözləri dolmuşdu. Yalnız Səmranın eşidə biləcəyi səslə pıçıldadı:*

*– Səmra! Sən mənim ən sevimli rəfiqəmsən!*

*Uşaqlar qışqırışdılar:*

*– Ver, biz də baxaq... Ver baxaq... O nədir ki?..*

*Rəsm əldən-ələ keçdi. Orada piano çalan qız təsvir olunmuşdu. Ətrafı gül-çiçəklə dolu idi. Arxa planda tamaşaçıların heyran baxışlı üzləri görünürdü. Onların üstündə buludlarda yazılmışdı: "Bravo, Aytən!", "Bravissimo!"*

*Hamı qibtə ilə Səmraya baxırdı...*

**Oxuyub-anlama**

**5-2.3.2. Tapşırıq b (dərslik). Cavab təxminən belə ola bilər:**

Maddiyyatın deyil, mənəviyyatın əsasında qurulan dostluq möhkəm və qırılmaz olur.

Mətndən uyğun epizodları nümunə gətirməklə fikirlərini əsaslandıra bilərlər.

**1. Anasının Səmra ilə söhbəti:**

– Qızım, vacib deyil ki, bahalı hədiyyə olsun.

– Demirəm ki, çox bahalı olsun...

– Bilirsən, hədiyyə gərək yaddaqalan olsun, özəl olsun... Gəl belə edək. Sən Aytən üçün gözəl bir rəsm çək. Mən mağazadan şüşəli çərçivə alaram. Sənin şəklini salarıq çərçivəyə, onu da qoyarıq hədiyyə qutusuna.

**2. Səmra ilə Aytənin söhbəti:**

– Bilirsən, mən böyüyəndə pianoçu olacağam. İstəyirəm bütün dünyanı gəzib konsertlər verim. Təsəvvür edirsən, hamı ayağa qalxıb qışqırır: "Bravo, Aytən!"

Həmin an Səmra da çox istəyirdi ki, rəfiqəsi nə vaxtsa bu arzusuna çatsın...

İndi Səmra həmin anı xatırladı və fırçanı əlinə alıb şəkil çəkməyə başladı.

**3. Aytənin etirafı:**

Aytənin sifəti dəyişmişdi. Sanki bayaqdan uşaqlarla zarafat edən şıltaq qız deyildi. Yenidən rəsmə baxdı. Səmraya yaxınlaşdı, rəfiqəsini qucaqladı. Onun gözləri dolmuşdu. Yalnız Səmranın eşidə biləcəyi səslə pıçıldadı:

– Səmra! Sən mənim ən sevimli rəfiqəmsən!

**Yazı**

**5-3.2.3. Tapşırıq a (iş dəftəri)**

**Müəllimin nəzərinə!** Şagirdlərə aşağı siniflərdə oxuduqları və ya dinlədikləri mətn haqqında "rəy" yazmaq öyrədilib. Bu tapşırıq vasitəsilə şagirdlərin bilikləri xatırladılır, sərbəst yazı bacarıqları inkişaf etdirilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. a (D.) |
| Bədii mətndəki hadisələrə və obrazların davranışına əsasən ideyanı müəyyən edir. | Tap. b (D.) |

| | |
|---|---|
| Oxuduğu mətn haqqında rəy yazır. | Tap. **a** (İ.D.) |

## **4-cü dərs.** Ən yaddaqalan ad günüm

• Dərslik: səh. 38

**Təlim məqsədləri**
**1.** Mövzu ilə bağlı fikir və duyğularını müxtəlif yazı formalarında (esse, hekayə və s.) ifadə edir **(st. 5-3.2.2).**
**2.** Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir **(st. 5-3.1.2).**

**Mövzuya yönəltmə**
Müəllim aşağıdakı sualları verməklə şagirdlərin diqqətini mövzuya yönəldə bilər:
– Sizin üçün hansı günlər özəldir?
– Özəl günlər nə üçün fərqlənir?
– Siz özəl günlərinizi necə qeyd edirsiniz?

**Yazı**
**5-3.2.2. 5-3.1.2. Tapşırıq a (dərslik)**
**Müəllimin nəzərinə!** Yazıya başlamazdan öncə esse yazının xüsusiyyətləri xatırladılır:
– esse yazarkən mövzu haqqında fikirlərinizi bildirin;
– arqumentlər gətirməklə fikirlərinizi əsaslandırın;
– mətni giriş, əsas və nəticə hissəsi olmaqla strukturlaşdırın;
– uyğun yerlərdə müvafiq modal sözlərdən istifadə edin (*məncə, mənim fikrimcə* və s.).

Yazı fəaliyyətini bitirdikdən sonra hər kəs öz yazısını bir daha oxuyur, səhvlər üzərində iş aparır. Daha sonra cütlər dəftərlərini bir-birinə ötürürlər. Hər kəs yoldaşının essesini oxuyub münasibət bildirir və səhvlərini qeyd edir.

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdə yazı işinin yoxlanılması və münasibət bildirməklə bağlı təlimatlandırılıblar. Münasibət bildirərkən əvvəl xoş, müsbət fikirlər söylənilir.

Yazı işini yoxlayarkən, əsasən, aşağıdakılar nəzərə alınmalıdır:
– sözlərin orfoqrafik normalara uyğun yazılması;
– durğu işarələrindən düzgün istifadə;
– sözlərin kontekstə uyğun istifadəsi.

**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır. | Tap. **a** (D.) |
| Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir. | Tap. **a** (D.) |

## **5-ci dərs.** Cümlə sonunda durğu işarələri

• Dərslik: səh. 39 • İş dəftəri: səh. 35

**Təlim məqsədləri**
**1.** Cümlələrin məqsəd və intonasiyaya görə növünü müəyyən edir **(st. 5-4.2.5).**
**2.** Məqsəd və intonasiyadan asılı olaraq cümlə sonunda uyğun durğu işarələrindən (nöqtə, üç nöqtə, sual işarəsi, nida işarəsi) istifadə edir **(st. 5-4.3.1).**

**Mövzuya yönəltmə**
Şagirdlər aşağı siniflərdə cümlənin məqsədə və intonasiyaya görə növləri barədə məlumat alıblar. Nəqli, sual, əmr və nida cümlələri haqqında bilgiləri var. Müəllim bu haqda frontal sorğu keçirir.

**Dil qaydaları**
**5-4.2.5. Tapşırıq a (dərslik).** Şagirdlər “Ad günü hədiyyəsi” mətninin ilk cümləsini, daha sonra tapşırıqdakı cümləni oxuyurlar. Müəllim şagirdlərin diqqətini cümlələrin sonunda qoyulmuş durğu işarələrinə yönəldir:
– Cümlələrin sonunda hansı durğu işarələri qoyulub?
– Cümlələr hansı məqsədlə işlədilib?
– Cümlələr eyni intonasiya ilə tələffüz edilir? Niyə? Fikrinizi əsaslandırın.

**“Yadda saxla” rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları şərh edir. Şagirdlərin cümlənin məqsədə görə növləri haqqında bilikləri xatırlanır və genişləndirilir.

**5-4.3.1. Tapşırıq b (dərslik).** Şagirdlərin diqqəti “üç nöqtə”yə yönəldilir.

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdə

üç nöqtə və bu durğu işarəsinin müxtəlif funksiyaları haqqında məlumat alıblar. Müəllim həmin bilgiləri xatırlatmaq üçün aşağıdakı nümunələrdən istifadə edə bilər.
1. Fikrin bitmədiyini bildirir. Məsələn:
– Siz niyə dərsə gecikmisiniz?
– Biz gəlirdik, amma...
– Amma nə?
2. Danışanın həyəcanlı olduğunu əks etdirir. Məsələn: Mən... mən... bunu bilmirdim...
3. Bəzən sitatların müəyyən hissəsinin ixtisar edildiyini göstərir. Məsələn: Heydər Əliyev demişdir: “...Mən fəxr edirəm ki, azərbaycanlıyam”.

**Tapşırıq c (dərslik).** Möhkəmləndirmə xarakterli bu tapşırıq cümlənin məqsəd və intonasiyaya görə növləri haqqında aldıqları biliklərin tətbiqinə yönəlib.

**5-4.2.5. Tapşırıq a (iş dəftəri).** Cavab:
1. nəqli; 2. sual; 3. əmr;
4. sual; 5. nəqli; 6. əmr.

**Tapşırıq b (iş dəftəri).** Cavab:
Ah, nə yaxşı gəlib çıxdın!
Yaşasın Odlar Yurdu Azərbaycan!
Bəh-bəh, nə ətirli çaydır!

**Tapşırıq c (iş dəftəri).** Cavablar təxminən belə ola bilər:
1. **Of**, gözləməkdən səbrim tükəndi!
2. **Bəh-bəh**, plov elə ətirlidir ki, yedikcə yemək istəyirsən!
3. **Ura**, gözlədiyim gün yetişdi!

**Tapşırıq ç (iş dəftəri).** Cavab:
Leyla heyranlıqla Aysunun düzəltdiyi fiqurlara baxırdı:
– Nə gözəldir! Nə qəşəngdir! Lap nağıllardakı kimidir!
Aysu əvvəlcə qürrələndi, sonra qızın nidalarından bezib başını qaldırdı:
– Belə də, məncə, pis alınmayıb.
– Bəs sən bunları necə düzəltmisən?
– ...
Aysu susurdu, diqqəti fiqurda idi. Amma Leyla onu sual yağışına tutmuşdu:
– Görəsən, mən də düzəldə bilərəm? Səncə, məndə də alınar?

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlələrin məqsəd və intonasiyaya görə növünü müəyyən edir. | Tap. **a** (D.), **a**, **b** (İ.D.) |
| Məqsəd və intonasiyadan asılı olaraq cümlə sonunda uyğun durğu işarələrindən istifadə edir. | Tap. **b, c** (D.), **c**, **ç** (İ.D.) |

## Ümumiləşdirici təkrar

• Dərslik: səh. 40-41 • İş dəftəri: səh. 36

**Təlim məqsədləri**

**1.** Sinonimlərdən istifadə etməklə sözü izah edir **(st. 5-4.4.2).**

**2.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**3.** Mətn müəllifinin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir **(st. 5-2.3.2).**

**4.** Sözün həqiqi və məcazi mənalarını fərqləndirir **(st. 5-4.4.3).**

**5.** Məqsəd və intonasiyadan asılı olaraq cümlə sonunda uyğun durğu işarələrindən istifadə edir **(st. 5-4.3.1).**

**6.** Sözlərin leksik və qrammatik mənasını fərqləndirir **(st. 5-4.4.1).**

### Mövzuya yönəltmə

Dərsin əsas məqsədi bu bölmədə öyrədilən dil qaydalarını, oxuyub-anlama bacarığını bir daha mənimsətmək və inkişaf etdirməkdir. Müəllim bölmənin mövzularına aid suallar vasitəsilə xatırlatmalar edir.

### Oxu

Bu bölmədəki mətnlər və keçilən dil qaydaları frontal sorğu vasitəsilə yada salınır. Sonra "Qəribə adam" mətninin oxusu həyata keçirilir. Oxu zamanı düzgün səs tonunun seçilməsinə diqqət yetirmək tövsiyə olunur. Oxu prosesi bitdikdən sonra mətnin məzmununa aid (1-5-ci) möhkəmləndirmə tapşırıqları üzərində iş aparılır.

### Söz ehtiyatı

**5-4.4.2. Tapşırıq 1 (dərslik).** Şagirdlər "kətil" sözünün qarşılığını müəyyənləşdirməklə sözü izah etdikdən sonra lüğətlə yoxlaya bilərlər.

Cavab: c. taburet

### Oxuyub-anlama

**5-2.1.2. Tapşırıq 2 (dərslik).** Tapşırığın məqsədi şagirdlərin diqqətini yoxlamaqdır. Mətni diqqətlə oxuyan şagird cavabı mətndə olmayan sualı müəyyən edə biləcək. Mətndə Molyerin ayaqqabısılənə nə qədər pul verdiyi açıqlanmır.

Cavab: b

**5-2.3.2. Tapşırıq 3 (dərslik).** Bu tapşırığı yerinə yetirmək üçün şagirdlərin məntiqi düşüncəsi güclü olmalıdır. İlk iki bənddə verilmiş kəlamlar mətnin məzmununa uyğun olsa da, ideyası ilə səsləşmir. Lakin 3-cü kəlamda ifadə olunan fikir mətnin ideyasına uyğundur.

Cavab: c

**Tapşırıq 4 (dərslik).** Tapşırıqda "Qəribə adam" mətnindən Molyer və ayaqqabısılənə aid iki cümlə verilib. Bu cümlələrdə ifadə olunan fikir obrazların xarakterini açmağa imkan verir.

1-ci cümlədən belə nəticəyə gəlmək olar ki, Molyer zəhmətə dəyər verəndir. İşini həvəslə yerinə yetirən insana hörmət edir. Əliaçıqdır və s.

2-ci cümlənin məzmunundan ayaqqabısılənin gözü-könlü tox, heç kimin pulunda gözü olmayan biri olduğu anlaşılır.

Tapşırığın əsas məqsədi şagirdlərin təhliletmə bacarığını inkişaf etdirməkdir.

**5-2.1.2. Tapşırıq 5 (dərslik).** Növbəti tapşırıqda mənəvi keyfiyyətlər sadalanır və bunlardan hansının mətnin məzmununa aid olduğu soruşulur.

Cavab:

***Gözütoxluq*** – *Ayaqqabısılən Molyerin çoxlu qızıl pul verdiyini görəndə onları geri qaytarmaq istəyir. Onun bu pula ehtiyacı olsa da, halallığı vacib bilir. Aydın olur ki, onun heç kimin pulunda gözü yoxdur.*

***Düzgünlük*** – *Yenə də həmin epizodu misal gətirmək olar. Ayaqqabısılən Molyerin səhvən qızıl pul verdiyini düşünür. Ona görə də Molyerə yaxınlaşaraq pulların qızıl olduğunu deyir. Molyer isə onun dürüstlüyünü dəyərləndirərək yenə pul verir.*

***Əliaçıqlıq*** – *Molyerə aid xüsusiyyətdir. Ayaqqabısılənə zəhmətindən qat-qat artıq pul verməsi buna sübutdur.*

Növbəti tapşırıqlar dil qaydalarını möhkəmləndirməyə xidmət edir.

**5-4.4.3. Tapşırıq 6 (dərslik).** Şagirdlər dördüncü sinifdən sözün həqiqi və məcazi mənası haqqında məlumatlıdırlar. Bu bölmədə yenidən bu mövzuya toxunulduğu üçün onları fərqləndirmək o qədər də çətin olmayacaq.

Cavab:

geniş – 2. Sahə etibarilə böyük. *Geniş küçə.*

donmaq – 2. Buz halında olmaq. *Şaxtanın təsirindən su donmuşdu.*

qızıl – 1. Qiymətli metal. *Qızıl saat.*

axsamaq – 2. Ayağını çəkərək yerimək. *Bala dovşan axsayırdı.*

**Tapşırıq 7 (dərslik).** Növbəti tapşırıq sözün həqiqi və məcazi mənasına aid qazanılmış bilikləri möhkəmləndirir.

Cavab:

*1. Nazim ağacın kölgəsində **dayandı**. (həqiqi m.)*

*Güclü yağış birdən-birə **dayandı**. (məcazi m.)*

*2. Çay sakit-sakit **axırdı**. (həqiqi m.)*

*Zaman su kimi **axırdı**. (məcazi m.)*

*3. Əli toplanmış zibilləri **atdı**. (həqiqi m.)*

*O, başındakı pis fikirləri **atdı**. (məcazi m.)*

**Müəllimin nəzərinə!** Yaxşı olar ki, şagirdlərin diqqəti məcaziliyi yaradan sözlərə yönəlsin. Məsələn: "dayandı" sözü tək işləndikdə onun mənasını müəyyən etmək düzgün olmaz. Verilən nümunədə bu sözə məcazilik çaları gətirən "yağış" sözüdür.

**Tapşırıq 1 (iş dəftəri).** Sözün həqiqi və məcazi mənasına aid bilgilərin möhkəmləndirilməsi bu tapşırıqla davam etdirilir.

Cavab:

**Həqiqi məna:** küt bıçaq, sərin su, cəsarətli oğlan, yüngül zənbil, qaynar çaydan, acı xörək, qara paltar.

**Məcazi məna:** küt ağrı, sərin münasibət, cəsarətli addım, yüngül hərəkət, qaynar həyat, acı kəlmə, qara gün.

**Tapşırıq 2 (iş dəftəri).** Omonim və çoxmənalı sözləri fərqləndirmək, onları kontekstə uyğun olaraq cümlələrdə işlətməklə lazımi bacarığı möhkəmləndirmək mümkündür.

Cavab:

1-ci cümlədə fərqləndirilmiş "yaz" (feili) sözünü cümlə daxilində omonim (isim) kimi işlətmək lazımdır.

*Nümunə: Mən **yaz** fəslini çox sevirəm.*

2-ci cümlədəki "göz" sözünü çoxmənalı söz kimi (məcazi mənada) cümlədə işlətmək tələb olunur.

*Nümunə: Açarı dolabın **gözünə** qoydum.*

3-cü cümlədəki "xal" sözünü cümlədə omonim kimi işlətmək lazımdır.

*Nümunə: Maralın belində ağ **xalları** var idi.*

4-cü cümlədəki "yol" sözünü çoxmənalı söz kimi cümlədə işlətmək lazımdır.

*Nümunə: Misalı asan **yolla** həll etdim.*

Növbəti tapşırıqlarda şagirdlərin məntiqi təfəkkürünü yoxlamaq üçün ən maraqlı və lakonik üsuldan istifadə edilib.

**8-ci tapşırığın cavabı:**

1. Məgər bu hadisə haqqında məlumatın yoxdur? (Məlumat almaq məqsədilə işlənir. Sual cümləsidir.)

2. Bakı küləklər şəhəridir. (Məlumat vermək məqsədilə işlənir. Nəqli cümlədir.)

3. Gəl birlikdə araşdırma aparaq. (Təklif etmək məqsədilə istifadə edilir. Əmr cümləsidir.)

4. Qoy dünyada sülh olsun! (Hissi ifadə edir. Nida cümləsidir.)

**Dərslikdə təqdim edilmiş 9-cu tapşırığın cavabı:**

1. Üç nöqtə nitqdəki fasiləyə işarədir.

2. Cümlədə hiss-həyəcan ifadə edildiyi üçün "nida"dan istifadə edilib.

3. Məlumat almaq məqsədilə işləndiyi üçün "sual" işarəsindən istifadə edilib.

**10-cu tapşırığın cavabı:**

Leksik mənası olan sözlər: *onlar, köhnə, dostlar, görüşdülər, sabah, yağış, yağacaq*.

Yalnız qrammatik mənası olan sözlər: *lap, kimi, bəlkə*.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yaxınmənalı sözləri müəyyən edir. | Tap. 1 (D.) |
| Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir. | Tap. 2, 5 (D.) |
| Mətn müəllifinin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir. | Tap. 3, 4 (D.) |
| Sözün həqiqi və məcazi mənalarını fərqləndirir. | Tap. 6, 7 (D.), tap. 1,2 (İ.D.) |
| Məqsəd və intonasiyadan asılı olaraq cümlə sonunda uyğun durğu işarələrindən istifadə edir. | Tap. 8, 9 (D.), tap. 4 (İ.D.) |

bölmə 3 **ANA TƏBİƏT**

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Yazın oğlan çağında | Oxu. Dil qaydaları (Leksika) | 42-43 | 37 | 71-72 |
| 2 | Payızda | Oxu. Dinləmə | 43-44 | 38 | 72-74 |
| 3 | Qarışqa və Cırcırama | Oxu. Dinləmə | 44 | 39 | 75-76 |
| 4 | Qarlı-şaxtalı qış günü | Yazı | 44 | - | 76 |
| 5 | Kök və şəkilçi. Leksik və qrammatik şəkilçilər | Dil qaydaları (Qrammatika) | 45 | 40 | 76-77 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Ağac əkən adam | Oxu. Dil qaydaları (Leksika) | 46-47 | 41 | 77-78 |
| 2 | Ağac əkən adam | Oxu. Danışma | 47-48 | 42 | 78-79 |
| 3 | Qarabağın təbiətinə qarşı terror | Dinləmə | 48 | 43 | 79-81 |
| 4 | Beynəlxalq Meşələr Günü | Yazı | 48 | - | 81-82 |
| 5 | Sözün quruluşca növləri | Dil qaydaları (Qrammatika) | 49 | 44 | 82-83 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Ağıllı canlılar | Oxu. Dil qaydaları (Leksika) | 50-51 | 45 | 83-85 |
| 2 | Bala delfin | Dinləmə | 52 | 46 | 85-87 |
| 3 | İtlər ağıllıdır, yoxsa pişiklər? | Yazı | 52 | 47 | 87-88 |
| 4 | Memar canlılar | Danışma | 52 | - | 88-89 |
| 5 | Ahəng qanunu. İki və dörd cür yazılan şəkilçilər | Dil qaydaları (Qrammatika) | 53 | 48 | 89-90 |
| **4-cü fəsil** | | | | | |
| 1 | Meşə simfoniyası | Oxu. Dil qaydaları (Leksika) | 54-56 | 49 | 90-91 |
| 2 | Təbiət düşünür | Oxu. Danışma | 56 | 50 | 91-92 |
| 3 | Təbiəti düşünək | Yazı (esse) | 56 | 51 | 92-93 |
| 4 | Mürəkkəb sözlərin yazılışı | Dil qaydaları (Orfoqrafiya) | 57 | 52 | 93-94 |
| 5 | Ümumiləşdirici təkrar | Oxu. Dil qaydaları | 58-59 | 53 | 94-95 |

# 1-ci fəsil

## 1-ci dərs. "Yazın oğlan çağında"

• Dərslik: səh. 42-43 • İş dəftəri: səh. 37

**Təlim məqsədləri**

**1.** Söz və ifadələrin mənalarını müxtəlif üsullarla izah edir (st. 5-4.4.2).
**2.** Mətni oxuyarkən sözləri düzgün tələffüz edir və məzmuna uyğun səs tonu seçir (st. 5-2.1.1).
**3.** Bədii mətndəki obrazlara və müəllif yanaşmasına öz münasibətini bildirir (st. 5-2.3.6).

### Mövzuya yönəltmə

Müəllim lövhəyə "TƏBİƏT" yazıb soruşur:

– "Təbiət" deyəndə ilk olaraq yadınıza nələr düşür?

Təbiətlə bağlı yada düşən ilk sözlər səsləndirilir və lövhədə yazılır. Şagirdlər onlardan söz birləşmələri və mövzuya uyğun cümlələr qururlar. Sonda fikirlərini ümumiləşdirib "təbiət" sözünün mənasını izah edirlər.

Məqsəd şagirdlərin mövzu ilə bağlı ilkin biliklərini öyrənməkdir.

**Müəllimin nəzərinə!** "Təbiət" sözünün daha dəqiq izahı verilə bilər:

– Təbiət insan fəaliyyətindən asılı olmayaraq mövcud olan hər şey deməkdir.

Şagirdlərdə dərsin mövzusuna maraq oyatmaq və xoş ovqat yaratmaq üçün bülbül səslərinə aid videoçarxın nümayiş etdirilməsi və ya Rimski-Korsakovun "Arının uçuşu" musiqi parçasının səsləndirilməsi tövsiyə olunur.

### Söz ehtiyatı

5-4.4.2. **Tapşırıq a (dərslik).** Müəllim qış fəslinin xüsusiyyətlərini soruşur, sonra "qışın oğlan çağı" ifadəsi ilə bağlı yönəldici suallar verir:

*– Sizcə, bu ifadədə nə üçün "oğlan" sözü işlənir? Oğlanların xarakteri (fiziki cəhətdən daha güclü, dözümlü) ilə qış fəslinin xarakterik xüsusiyyətlərini (qarlı-şaxtalı, sərt hava şəraiti) müqayisə edin.*

Şagirdlər ifadənin qış fəslinin sərt dövrü haqqında işlədilməsi qənaətinə gəlirlər.

### Oxu

5-2.1.1. **"Yazın oğlan çağında" mətni. Səsli oxu.** Şagirdlər mətni növbə ilə səsli oxuyurlar. Bu oxu özündə təkcə anlamağı deyil, həm də anlatmağı ehtiva etdiyi üçün sözlərin düzgün tələffüz edilməsinə, mətnin normal templə (tələsmədən), məzmuna müvafiq intonasiya ilə oxunmasına fikir verilməlidir. Müəllim şagirdlərin mətni diqqətlə oxuduqlarını və dinlədiklərini yoxlamaq üçün oxunu dayandırıb faktoloji suallar verə bilər.

### Söz ehtiyatı

5-4.4.2. **Tapşırıq b (dərslik).** Tapşırığın məqsədi şagirdləri dildə işlənən ifadələr üzərində düşündürmək, onların dil duyumunu inkişaf etdirməkdir. Mətndə müəllif yaz fəslinin ən gözəl dövrünü "yazın oğlan çağı" adlandırır. Bu ifadə ədəbi dildə işlənməsə də, müəllif ondan bədii dildə üslubi fiqur kimi istifadə edir. Bəzi şagirdlər müəllifin işlətdiyi "yazın oğlan çağı" ifadəsi ilə bağlı fikirlərini təxminən belə əsaslandıra bilərlər:

– Mən müəlliflə razı deyiləm. Yaz fəslinin ən gözəl çağını bildirmək üçün "qız" sözündən istifadə edilməsi daha ağlabatan olardı. Çünki gözəllik deyəndə yada qızlar, qadınlar düşür.

**Tapşırıq c (dərslik). Kollektiv iş.** İlin fəsilləri və təbiət hadisələri ilə bağlı ifadələrin izahı:

<u>Tut ucundan, göyə çıx</u> – Yağışın güclü və davamlı yağması göydən aşağı enən ipə bənzədilir. Yəni yağış elə yağır ki, tut ucundan, göyə çıx.

<u>Qızıl payız</u> – Payızda ağacların yarpaqları saralır. Təbiətin sarı-qızılı rəngə boyanmasına görə bu fəsil haqqında "qızıl payız" ifadəsini işlədirlər.

<u>Şaxta qılınc kimi kəsir</u> – Qarlı-şaxtalı havada adamın əl-üzü, ağız-burnu şaxtadan göynəyir, sanki qılınc kəsib yaralayır. Havanın həddən artıq soyuq olduğunu bildirmək üçün bu ifadə işlədilir.

Şagirdlər ifadələri cümlələrdə işlədirlər.

**Tapşırıq a, b (iş dəftəri).** Mətndəki yeni söz və ifadələrin mənimsədilməsinə yönəlmişdir.

**a tapşırığı üzrə nümunələr:**

Axşam **çağı** qonaqlarımız gəldi.

Nə vaxt **boş-bikar** olsan, gəl, kitab klubuna gedək.

O, **qarınqulu**dur, doymaq bilmir.

**b tapşırığının cavabı:**

Bəhsə girmək – mübahisə etmək, yarışmaq;

Nəfəs dərmək – dincəlmək üçün dayanmaq, azacıq istirahət etmək.

### Oxuyub-anlama

5-2.3.6 **Tapşırıq ç (dərslik).** Şagirdlər sualları təxminən belə cavablandıra bilərlər:

– Məncə, arını "qarınqulu" hesab etmək düzgün deyil. Qışda gül-çiçək olmur və arılar şirə çəkib qidalana bilmirlər. Ona görə də arılar yayda gecə-gündüz çalışıb qış üçün qida toplayırlar.

– Məncə, bülbülləri "boş-bikar, "səfeh" adlandırmaq düzgün deyil. Bülbüllər öz nəğmələri ilə digər quşları səsləyir, hansısa məlumatı (qida, təhlükə və s. haqqında) ötürürlər. Həmçinin quşların nəğməsi insanlarda xoş ovqat yaradır.

**Müəllimin nəzərinə!** Nəğməkar quşlarla bağlı əlavə məlumat verilə bilər. Həkimlərin qənaətinə görə, quşların buraxdığı səs titrəyişləri bir sıra ağrıları aradan qaldırır. Harmonik səs titrəyişləri yuxusuzluqdan əziyyət çəkənlər üçün çox faydalıdır.

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər mətnin məzmununa əsasən bülbül və arı obrazlarının fikirlərini yazır və münasibət bildirirlər.

1) Bülbüllərin fikrinə görə, arılar qarınquludur. Bütün günü yorulmadan, bezmədən işləyirlər. Bunun əvəzinə nəğmə oxusalar, daha yaxşı olar.

Münasibətim: Bülbüllər haqlı deyillər. Arılar yayda çalışıb qış üçün qida toplayırlar.

2) Arıların fikrinə görə, bülbüllər boş-bikar oturur, bütün günü nəğmə oxuyurlar. Bunun nə insanlara, nə də özlərinə xeyri var.

Münasibətim: Arılar haqlı deyillər. Bülbüllər nəğmələri ilə digər quşlara müxtəlif məlumat ötürürlər. Onların səsi insanda xoş ovqat yaradır.

**Müəllimin nəzərinə!** Tapşırığın icrasından sonra müəllim şagirdlərə əlavə sual verə bilər:

– *Bəs qızılgüllər ətrafına toplaşmış bülbül və arılar haqqında nə düşünür?*

Şagirdlər mətnin nəticə hissəsinə istinad edərək sualı cavablandırırlar.

### Araşdırma

**Tapşırıq d (dərslik).** Tapşırıq şagirdlərin tədqiqat vərdişlərinin, biliklərə müstəqil yiyələnmə bacarıqlarının formalaşmasına yönəldilmişdir.

Müəllim şagirdləri qruplara bölür, verilən mövzu üzrə şəkillər toplamağı tapşırır. Müvafiq suallar təqdim etməklə şagirdlərin araşdırma fəaliyyətini istiqamətləndirir.

**I qrup üçün yönəldici suallar:** *Quşlar ağacların sağlamlığını necə qoruyurlar? Hansı quşu "meşə həkimi" adlandırırlar? Ev quşlarının faydası nədir? Quşların hansı xüsusiyyətləri insanlarda xoş ovqat yaradır? İnsanlar quşları müşahidə etməklə nələri öyrəniblər?*

**II qrup üçün yönəldici suallar:** *Bülbüllər, arılar və digər həşəratlar güllərdən necə faydalanır? Güldən məişətdə nə hazırlanır? Hansı güllər ətri və gözəlliyi ilə xoş ovqat yaradır? Güllərdən hansı məqsədlərlə istifadə olunur?*

**III qrup üçün yönəldici suallar:** *Sincablar meşələrin çoxalmasına necə kömək edir? Ev heyvanlarından hansı məqsədlər üçün istifadə olunur? Piyaləyə dolanan ilan nəyin rəmzidir?*

**IV qrup üçün yönəldici suallar:** *Havanın təmizlənməsində ağacların rolu nədən ibarətdir? Meşələrin qırılması quşların, həşəratların və heyvanların yaşamasına necə təsir edir? Ağacdan tikinti və məişətdə hansı məqsədlərlə istifadə olunur?*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə rast gəldiyi söz və ifadələrin mənalarını müxtəlif üsullarla izah edir. | Tap. a, b, c (D.), tap. a, b (İ.D.) |
| Uyğun səs tonu seçməklə mətnin məzmununu anladığını nümayiş etdirir. | "Yazın oğlan çağında" mətni |
| Bədii mətndəki obrazlara və müəllif yanaşmasına öz münasibətini bildirir. | Tap. ç (D.), Tap. c (İ.D.) |

## 2-ci dərs. Payızda

• Dərslik: səh. 43-44 • İş dəftəri: səh. 38

**Təlim məqsədləri**

**1.** Bədii mətndəki hadisələrə və obrazların davranışına əsasən ideyanı müəyyən edir **(st. 5-2.3.1).**

**2.** Dinlədiyi mətni mövzu, məzmun, struktur və ideya baxımından şərh edir **(st. 5-1.1.2).**

**3.** Oxuduğu və dinlədiyi mətni mövzu, məzmun, ideya və dil-üslub xüsusiyyətlərinə görə müqayisə edir **(st. 5-2.3.5).**

**4.** Apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir **(st. 5-1.3.2).**

**5.** Fakt, hadisə və fikirləri mətnin abzas və hissələri üzrə strukturlaşdırır **(st. 5-3.1.1)**

**Mövzuya yönəltmə**

Müəllim suallar verməklə “Yazın oğlan çağında” mətnini xatırladır.

**Oxuyub-anlama**

**5-2.3.1. Tapşırıq a (dərslik).** “Yazın oğlan çağında” mətninin ideyası müəyyənləşdirilir. Cavab: c.

Şagirdlər mətnin məzmununa istinad edərək fikirlərini əsaslandırırlar:

– Mətndə həm arılar, həm də bülbüllər gördükləri işi faydalı hesab edib başqalarını sevindirdiklərini düşünürlər. Qızılgül də onun ətrafında dolaşan arıların və bülbüllərin xoşbəxt, şən görünməsinə sevinir və buna özünün səbəb olduğunu düşünür. “Faydalı olub başqasını sevindirmək xoşbəxtlikdir” fikri mətnin nəticə hissəsində açıqlanır.

**Dinləmə**

**5-1.1.2. Tapşırıq b (dərslik).** Mətn səsləndirilir.

***Payızda***

*Yağışlı payız günü idi. Meşədə həzin bir ab-hava hökm sürürdü. Külək əsdikcə ağacların saralıb-solmuş yarpaqları yerə tökülürdü. Ətrafda heç bir canlı gözə dəymirdi. Quşların səsi də kəsilmişdi. Bircə ağacların budaqlarını yuyan yağışın səsi eşidilirdi.*

*Ağaclardan biri öz-özünə düşünürdü: “Mənim kimi köhnə ağaca heç kim fikir verməz. Artıq heç kimə faydam yoxdur. Gövdəm düyünlü, budaqlarım isə bükülmüş vəziyyətdədir. Bütün vücudum ağrıyır”. Ağac ah çəkdi. Gövdəsinin iki böyük budağının birləşdiyi yerdə yağış suyu yığılmışdı. Qabığına su hopduğu üçün gövdəsi yumşaq və nəm idi.*

*Meşədə bəzi canlılar, eləcə də göbələklər köhnə, nəm ağacları xoşlayır. Odur ki ağacın iki budağının birləşdiyi çökək yerində göbələklər böyüməyə başladı. Kökləri ilə ağacın daxilinə gedən göbələklər onun şirəsi ilə qidalanırdı. Bu isə ağacın çürüyüb zəifləməsinə səbəb olurdu. Ağac artıq ağır budaqlarını saxlamaqda çətinlik çəkirdi.*

*Qaranlıq və yağışlı bir gecə idi. Çürümüş Ağac çat verdi və budaqlarından biri qopdu. Ağac ağlamağa başladı: “Bundan sonra mənim kimi çürümüş köhnə bir ağac heç kimə gərək olmaz”. Bir azdan özündə yüngüllük hiss edib düşündü: “Eybi yox, heç olmasa, ağır budağı saxlamağın əziyyətindən qurtardım”.*

*Cücülər isə sevinirdilər, çünki çürümüş, yumşaq ağacın çatları onların yumurta qoyması üçün əlverişli yerdir. Odur ki cücülər ağacın ölü, nəmli gövdəsini yeyib böyüməyə başladılar.*

*Belə ağaclarda cücülərin yuva saldığını bilən quşlar ağacdakı çuxura girdilər. Cücüləri yemək üçün ağacın gövdəsini dimdiklədilər. Beləcə, çuxur getdikcə böyüdü. Ana quş boş çuxurun içərisini yoxladı: “Bura yuva üçün uyğundur”. O, yuvanı mamır, qoyun yunu və heyvan tükləri ilə örtdü. Sonra yeddi yumurta qoydu. Ağac həyəcanla yumurtadan balaların çıxmasını gözlədi. Bir müddət keçdi.*

*Nəhayət, Ağac sevinirdi. Çünki onun gövdəsinin çuxurunda yeddi civildəşən cücə var idi. Ağac çuxurda çırpınan canlıların hərarətini hiss etdikcə fərəhlənirdi: “Mən o qədər də yararsız deyiləm. Mənə ehtiyacı olan canlılar da var”.*

Şagirdlər mətni dinləyir və dərslikdəki sualları cavablandırırlar.

**Oxuyub-anlama**

**5-2.3.5. Tapşırıq c (dərslik).** Şagirdlər mətnləri təxminən belə müqayisə edə bilərlər:

**Oxşar xüsusiyyətlər:**

**Mövzu:** Hər iki mətn təbiət mövzusuna həsr olunub. Canlıların faydaları haqqında danışılır.

**İdeya:** Hər iki mətnin ideyasına görə yararlı olmaq, başqalarını sevindirmək böyük xoşbəxtlikdir.

**Fərqli xüsusiyyət:**

**Məzmun:** Mətnlərin birində yaz, digərində payız fəslinin xüsusiyyətləri əks olunub. “Yazın oğlan çağında” mətnində özlərini faydalı və xoşbəxt hiss edən arı, bülbül və qızılgülün fikirləri, “Payızda” mətnində isə özünü yararsız, faydasız hesab edən köhnə bir ağacın kədərli düşüncələri əks olunur.

**Tapşırıq a (iş dəftəri).** Qızılgül və Ağac – hər ikisi başqalarına fayda verdikləri üçün sevinir. Qızılgül fikirləşir ki, arılar və bülbüllərə şən əhvali-ruhiyyə bəxş edən odur. Ağac da düşünür ki, onun çürümüş gövdəsinə sığınan canlılar var.

**Danışma**

**5-1.3.2. Tapşırıq ç (dərslik). Qruplarla iş.** Qruplar ötən dərsdə onlara təqdim olunmuş mövzu üzrə əldə etdikləri bilgiləri müzakirə edir, vacib hesab etdikləri məlumatları qeyd edirlər.

Müəllim qruplara təqdimat üzrə müvafiq tövsiyələr verir:

**Təqdimat materialının hazırlanması:**

1) Bilgilərinizi iki istiqamətdə qruplaşdırıb yarımbaşlıqlarla adlandırın: 1. Canlıların təbiətə faydaları; 2. Canlıların insanlara faydaları.

2) Danışacağınız vacib məlumatları uyğun yarımbaşlığın altında qısa şəkildə sadalayın.

3) Müvafiq şəkillər əlavə edin.

4) Mövzunun adını və yarımbaşlıqları iri şriftlərlə yazın.

**Təqdimat zamanı:**

1) Giriş hissədə mövzu haqda ümumi məlumat verin və təqdimatınızı hazırlayarkən hansı mənbələrdən faydalandığınızı, kimlərdən kömək aldığınızı bildirin.

2) Əsas hissədə bilgilərinizi yarımbaşlıqlar üzrə sadalayın. Müvafiq şəkillər göstərməklə fikirlərinizi dəstəkləyin.

3) Nəticə hissəsində fikirlərinizi ümumiləşdirin.

4) Dinləyicilərə diqqətlərinə görə təşəkkür edin.

**Müəllimin nəzərinə!** Təqdimat zamanı çıxış edən qrup üzvünün əvvəlcə qrup daxilində məşq etməsinə imkan yaradılmalıdır.

**I qrup:** *Quşlar zərərli həşəratlarla qidalanaraq təbiəti zərərvericilərdən təmizləyirlər. Məsələn: Ağacdələn meşədəki ağaclara qonur, uzun dimdiyi ilə ağacın içərisində yuva qurmuş həşəratları tapıb yeyir, ağacları çürüməkdən xilas edir. Ona görə də ağacdələnə "meşənin həkimi" deyirlər. Quşlar olmasa, meşələr məhv olar.*

*Quşların insanlara da böyük faydası var. Ev quşlarının ətindən, yumurtasından qida kimi istifadə olunur. Tükündən yastıqlar, müxtəlif növ bəzək əşyaları hazırlanır. Quşların nəğmələri insanların əhvalına müsbət təsir göstərir. Quşları izləməklə insanlar uçuş qaydalarını öyrənib uçuş aparatlarının yaradılmasında istifadə etmişlər.*

**II qrup:** *Arılar, kəpənəklər, eləcə də digər həşəratlar çiçəkdən çiçəyə qonaraq onların şirələri ilə qidalanırlar. Arılar bu şirədən bal hazırlayırlar. Çiçəklərə qonan həşəratlar isə quşlar üçün qida mənbəyidir.*

*Güllər insana sevinc gətirir, zövqünü oxşayır. Güllərdən ətir hazırlanır. Qızılgül, zanbaq, lalə, bənövşə təbiətimizi, bir sıra dibçək gülləri isə evimizi bəzəyir. Güllər evin havasını təmiz saxlayır, ətrafa xoş ətir saçır.*

*Güldən mürəbbə bişirilir, gül suyu, yağı bir çox xəstəliklərin müalicəsində istifadə edilir.*

**III qrup:** *Heyvanlar ölmüş heyvan cəmdəklərini, bitki qalıqlarını yeməklə, bir çox su heyvanları isə suyu təmizləməklə təbiətə fayda verir.*

*Heyvanlar bitki toxumlarının yayılmasında mühüm rol oynayır. Məsələn, sincab qış üçün qoza ehtiyatı görərkən payızın əvvəlində tapdığı qozaların bir hissəsini torpağa basdırır. Lakin qış vaxtı qozanı harada basdırdığını unudur. Sincabın bu xüsusiyyəti şam meşələrinin yaranmasına və genişlənməsinə səbəb olur.*

*İnsanlarda müxtəlif yoluxucu xəstəliklər törədən və yayan, kənd təsərrüfatına ziyan vuran gəmirici heyvanların sayının tənzimlənməsində ilanlar və digər sürünənlər böyük rol oynayır.*

*Təbabətin rəmzi nişanında piyaləyə sarınmış zəhərli ilanın təsvir olunması təsadüfi deyildir. İlan zəhərinin müalicəvi xüsusiyyətlərindən qədim zamanlardan geniş istifadə olunmuşdur.*

**IV qrup:** *Ağaclar atmosferin çirklənməsinin qarşısını alan ən etibarlı müdafiə vasitəsidir. Onlar havanı zəhərli qazlardan təmizləyir. Bir ağacın il ərzində atmosferə buraxdığı oksigen üç nəfərdən ibarət bir ailənin bütün il boyu tənəffüsünə bəs edər.*

*Ağaclar bizə meyvə verir. Bundan əlavə, bir çox ağacların qabığından, yarpağından müxtəlif dərmanlar hazırlanır.*

*Ağaclardan taxta-şalban alınır, mebellər hazırlanır. Həmçinin ondan kağız düzəldilir, yanacaq kimi istifadə edilir.*

### Yazı

**5-3.1.1. Tapşırıq b (iş dəftəri).** Şagirdlər araşdırma zamanı, eləcə də qrup təqdimatlarından əldə etdikləri bilgilərin köməyi ilə fərdi şəkildə tapşırığı yerinə yetirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəllifin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir. | Tap. **a** (D.) |
| Dinlədiyi mətnlə bağlı sualları cavablandırır. | Tap. **b** (D.) |
| Oxuduğu və dinlədiyi mətndəki obrazları müqayisə edir. | Tap. **c** (D.), tap. **a** (İ.D.) |
| Hazırladığı şəkil və açar sözlərdən ibarət təqdimat materialını rabitəli şəkildə təqdim edir. | Tap. **ç** (D.) |
| Mətn yazarkən fakt və fikirləri abzaslar üzrə strukturlaşdırır. | Tap. **b** (İ.D.) |

## 3-cü dərs. Qarışqa və Cırcırama

• Dərslik: səh. 44 • İş dəftəri: səh. 39

**Təlim məqsədləri**

**1.** Mətnin janr xüsusiyyətlərini səciyyələndirən bədii təsvir və ifadə vasitələrini müəyyən edir **(st. 5-2.3.4)**

**2.** Bədii mətndəki hadisələrə və obrazların davranışına əsasən ideyanı müəyyən edir **(st. 5-2.3.1)**

**Mövzuya yönəltmə**

Müəllim yönəldici suallar vasitəsilə şagirdləri müzakirəyə cəlb edir:

*– Oxuduğunuz və dinlədiyiniz mətnlərdə hadisələr hansı fəsillərdə baş verir? Mətnlərdə fəsillərin hansı xüsusiyyətləri təsvir edilmişdir?*

*– Hansı mətndə obrazlar şən, xoşbəxt təsvir olunurlar? Onların əhvalını yaz fəsli ilə əlaqələndirə bilərikmi?*

*– Siz yaz fəslini, yoxsa payız fəslini daha çox sevirsiniz? Səbəbini izah edin.*

Məqsəd şagirdlərin diqqətini bədii mətnlərdə təbiətin təsviri mövzusuna yönəltməkdir.

**Oxuyub-anlama**

**5-2.3.4. “Qlossari” rubrikası.** Şagirdlər ədəbiyyat və təsviri incəsənət fənnindən peyzaj haqqında məlumatlıdırlar. Şagirdlərin bu bilikləri “qlossari”də verilmiş məlumatla inteqrasiya edilir və diqqət mətnlərdə təbiətin təsvirinə yönəldilir.

**Tapşırıq a (dərslik).** “Yazın oğlan çağında” mətni xatırladılır. Mətndəki obrazların xarakteri və əhvali-ruhiyyəsi yaz fəsli ilə əlaqələndirilir:

– Yazın gəlişi ilə təbiət canlanır. Günəş hər tərəfi isitməyə başlayır. Qaranquşlar uçub gəlir, qış yuxusunda olan canlılar oyanır, ağaclar çiçəkləyir, bülbüllər dilə gəlir, arılar iş başına keçir və s.

**Müəllimin nəzərinə!** “Payızda” mətnindəki köhnə Ağacın əhvali-ruhiyyəsi payız fəslinin xüsusiyyətləri ilə müqayisə edilə bilər.

**“Xatırla” rubrikası.** Müəllim “Şəxsləndirmə nədir?” sualı ilə şagirdlərin 4-cü sinifdə (I hissə, səh. 24) bu haqda öyrəndiklərini xatırladır. Rubrikadakı məlumatlar şərh olunur.

**Tapşırıq b (dərslik).** Tapşırıq vasitəsilə şəxsləndirmə haqqında bilgilər möhkəmləndirilir.

Cavab: 1-ci və 3-cü cümlə.

**Tapşırıq c (dərslik).** Əvvəlcə şagirdlərin təmsil haqqında bilikləri yoxlanılır: “Təmsilin hansı xüsusiyyətləri var?”

**Müəllimin nəzərinə!** Yönəldici suallarla şagirdlərin aşağıdakı məqamları səsləndirmələrinə imkan yaratmaq olar:

– Təmsil janrında təbiət cisimləri və heyvanlar şəxsləndirilir – insan kimi danışdırılır. Təmsil həcmcə kiçik olur və dərin məna ifadə edir. Təmsildə insanlara xas olan nöqsanlar əşya, bitki və heyvanların timsalında əks etdirilir.

Daha sonra “Cırcırama və Qarışqa” təmsili oxunur. Şagirdlər bu qənaətə gəlirlər ki, digər mətnlərdən fərqli olaraq təmsildə obrazların (həşəratların) nitqi dialoq şəklində qurulur.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər mətndən qızılgül, bülbül və arıların bir-biri haqqında düşüncələrini seçib nümunə gətirə bilərlər.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

1) Ağac ağlamağa başladı: “Daha bundan sonra mənim kimi çürümüş köhnə bir ağac heç kimə gərək olmaz”.

2) Özündə yüngüllük hiss edən Ağac düşündü: “Eybi yox, heç olmasa, ağır budağı saxlamağın əziyyətindən qurtardım”.

3) Cücülər isə sevinirdilər, çünki onlar çürümüş, yumşaq ağacı xoşlayırlar.

**Müəllimin nəzərinə!** Tapşırığın icrasından sonra şagirdlər seçimlərini əsaslandırmalıdırlar.

**5-2.3.1. Tapşırıq c (iş dəftəri). Yazı ilə inteqrasiya.** Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirməklə yanaşı, təmsilin janr xüsusiyyətlərinin daha dərindən mənimsənilməsinə kömək edir. Şagirdlər təmsilin adından çıxış edib obrazların nitqini tamamlaya bilərlər. Sonda müəllimin təmsilin həmin hissəsini oxuması tövsiyə olunur. Bu, şagirdlərə təmsili öz variantları ilə müqayisə etmək imkanı yaradar.

***Kökündən ayrı düşəndə***

*– Kirpi qağa, sən çox ağıllısan. De görüm, mən niyə günü-gündən saralıb-soluram, çürüyürəm?*

*– Kökündən, gövdəndən ayrılmısan, ona görədir, – deyə Kirpi Almanı tikanlarına taxıb yuvasına apardı.*

*Cəbrail Həşimov*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətnin janrını səciyyələndirən dil-üslub xüsusiyyətlərini müəyyən edir. | Tap. **a**, **b**, **c** (D.), tap. **a, b** (İ.D.) |
| Mətni məzmun və janrın tələbinə uyğun tamamlayır. | Tap. **c** (İ.D.) |

## 4-cü dərs. Qarlı-şaxtalı qış günü

• Dərslik: səh. 44

**Təlim məqsədləri**

**1.** Verilmiş mövzu ilə bağlı təxəyyülü əsasında bədii mətn yazır **(st. 5-3.2.2)**

**Mövzuya yönəltmə**

Müəllim aşağıdakı suallar üzrə şagirdlərlə söhbət aparır:

*– Qışda təbiət necə olur? Qış fəslini hansı səbəblərdən sevirik? Bu fəsildə hansı bayramlar qeyd olunur? Qar yağmasının sağlamlığa faydası nədir? Qışın gəlişi yaşayış üçün hansı problemləri yaradır? Onları həll etməkdə insanlar və ya canlılar bir-birinə necə kömək edə bilərlər?*

**Yazı**

**5-3.2.2. Tapşırıq a (dərslik).** Müəllim şagirdlərə "Qarlı-şaxtalı qış günü" mövzusunda mətn yazmaq üçün qısa təlimat verir:

1) Giriş hissədə zamanı və məkanı təsvir edin.

2) Seçdiyiniz obrazların dili ilə qış fəsli haqqında düşüncələrinizi ifadə edin:

– qarın yağması gözəl və faydalıdır, yaxud qarın yağması problemlər yaradır.

3) Mətninizin ideyasını müəyyənləşdirin.

Müəllim şagirdlərə "Yazın oğlan çağında" və "Payızda" mətnlərindəki obrazların düşüncələrini nümunə gətirərək buna bənzər mətnin qurulmasını tövsiyə edə bilər. Kömək məqsədilə qış fəsli ilə bağlı konkret situasiya təklif edə bilər:

– Təsəvvür edin ki, səhər yuxudan oyanıb pəncərədən bayıra baxırsınız. Ətraf bəyaz örtüyə bürünüb və hələ də qar yağır. Bu gözəllik sizdə hansı hisslər oyadır? Nələr düşünürsünüz?

...Bir az sonra küçədə çarəsiz halda addımlayan bir canlı (it, pişik və s.) görürsünüz. Sizcə, həmin canlı nə düşünür? Çətin vəziyyətə düşən tək odurmu? Çətinlikdən necə xilas ola bilər? Bu haqda düşüncələrinizi və davranışlarınızı yazın.

...Aram-aram yağan qar dənəcikləri onların gözəlliyini hiss edənlər və qarın problem yaratdığını hesab edənlər haqqında nə düşünə bilər?

Fikirlərinizi ümumiləşdirib mətninizin ideyasını müəyyənləşdirin. Məsələn:

– Qarlı qış günü bəziləri üçün sevinc, bəziləri üçün isə problem deməkdir.

– Hər qaranlıq gecənin aydın bir səhəri var. Yəni çətinliyə dözən, səbirli olan hər kəs sonda uğur əldə edir və s.

**Müəllimin nəzərinə!** Çətinlik çəkən şagirdlərə məkanın, obrazların təsvir edilməsi üçün nümunələr verilə bilər:

**Təsvir üçün ifadələr:** lopa-lopa yağan qar, ürəkaçan qar dənəcikləri, həyətin, küçələrin toz-torpağını, eyiblərini örtən qar, şən uşaqlar və s.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu ilə bağlı təxəyyülü əsasında bədii mətn yazır. | Tap. **a** (D.) |

## 5-ci dərs. Kök və şəkilçi. Leksik və qrammatik şəkilçilər

• Dərslik: səh. 45 • İş dəftəri: səh. 40

**Təlim məqsədləri**

**1.** Leksik və qrammatik şəkilçilərin funksiyasını müəyyən edir **(st. 5-4.2.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlərin aşağı siniflərdən kök və şəkilçi haqqında bilgiləri vardır.

Tapşırığın icrasından sonra müəllimin yönəldici sualları ilə kök və şəkilçi leksik mənalarının olub-olmamasına görə müqayisə oluna bilər.

**Yönəldici suallar:** "Bağ" sözünün leksik mənasını izah edin. "Bağçada" sözündəki *-ça* şəkilçisinin leksik mənası varmı? və s.

**Dil qaydaları**

**5-4.2.1. "Yadda saxla" rubrikası.** Rubrikadakı məlumatlar oxunub şərh edilir.

**Tapşırıq b (dərslik).** Şagirdlərin kök və şəkilçi haqqındakı bilgilərini üzə çıxarır. Tapşırığı cütlərlə iş formasında yerinə yetirmək olar.

**Tapşırıq c (dərslik).** Cavab: Bu **çaydan** su ilə doludur.

*Çay – qurudulmuş yarpaqlarından ətirli içki hazırlanan bitki.*

*Çay**dan** – çay dəmləmək və ya su qaynatmaq üçün qab.*

**"Yadda saxla" rubrikası.** Leksik və qrammatik şəkilçilərin fərqi nümunələrlə şərh edilir.

**Tapşırıq ç (dərslik).** Cavab:

**Yalnız leksik şəkilçisi olan sözlər:** müəllim-lik, təhlükə-li.

**Həm leksik, həm də qrammatik şəkilçisi olan sözlər:** oxu-cu-dan, hazır-la-dı, maraq-lı-dır.

**Tapşırıq d (dərslik).** Cavab:

1) gözəl-lik; 2) yol-daş-lıq; 3) yaz-ı-çı-lıq

**Tapşırıq e, ə (dərslik).** Şagirdlər sözlər arasında əlaqə yaratmaq üçün uyğun qrammatik şəkilçilərdən istifadə edirlər.

ə tapşırığında verilmiş mətndə leksik şəkilçili sözlər: yırtıcılar, məharətli, ovçudur, qidalanır.

Şagirdlər iş dəftərindəki tapşırıqlar vasitəsilə mövzu üzrə bilgilərini nümayiş etdirirlər.

**Tapşırıq a (iş dəftəri).** Cavab: "qəhrəman**lıq**" və "qayğı**keş"** sözlərində leksik, digər sözlərdə isə qrammatik şəkilçi işlənmişdir.

**Tapşırıq b (iş dəftəri).** Cavab: 1. qayğı**keş** – leksik şəkilçi; 2. redaktor**u** – qrammatik şəkilçi; 3. sakit**ləş** – leksik şəkilçi; 4. buludlu**dur** – qrammatik şəkilçi; 5. axtar**dı** – qrammatik şəkilçi.

**Tapşırıq c (iş dəftəri).** Cavab: 1. inadkar uşaq; 2. naxışlı nəlbəki; 3. çoşqun dəniz; 4. təmirli bina.

**Tapşırıq ç (iş dəftəri).** Cavab:

**Yalnız leksik şəkilçili sözlər:** sərinlik, yağış, susuz, ətirli, dadlı.

**Yalnız qrammatik şəkilçili sözlər:** gətirir, yağır, torpaqlar, meyvələr, süfrələri, bəzəyir.

**Həm leksik, həm qrammatik şəkilçili sözlər:** canlanır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Leksik və qrammatik şəkilçilərin funksiyasını müəyyən edir. | Dərslik və iş dəftərindəki tapşırıqlar |

## 2-ci fəsil

### 1-ci dərs. Ağac əkən adam

• Dərslik: səh. 46-47 • İş dəftəri: səh. 41

**Təlim məqsədləri**

**1.** Kontekstdən çıxış edərək mətndə tanış olmayan sözün mənasını müəyyən edir **(st. 5-2.1.3).**

**2.** Söz tərkibindəki morfemlərin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir **(st. 5-4.4.1).**

**3.** Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə gəldiyi nəticələri əsaslandırır **(st. 5-2.3.2)**

#### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlər mövzu ilə əlaqədar oxuduqları əsərləri xatırlayıb danışırlar.

**Müəllimin nəzərinə!** Şagirdlər 2-ci sinifdən "Ana təbiətin uşaqlara məktubu", "Təbiəti sevənlər komandası", "Yadplanetlinin dərsi", "Kürən pişiyin əşyaları" mətnləri ilə tanışdırlar.

#### Oxu. Söz ehtiyatı

**"Ağac əkən adam" mətni.** Şagirdlər əvvəlcə "Ağac əkən adam" kitabının annotasiyasını oxuyur, mətnin mövzusu haqqında məlumat alırlar. Müəllim şagirdlərin diqqətini mətnin məzmununa yönəltmək məqsədilə soruşur:

*– Sizcə, çoban ucsuz-bucaqsız bir çöldə təkbaşına ağac əkməklə nəticə əldə edə bilərmi?*

Mətndə şagirdlərə tanış olmayan xeyli söz var. Müəllim onlara mətn oxunduqca həmin sözləri dəftərlərində qeyd etməyi tapşırır.

Şagirdlər mətni növbə ilə səsli oxuyurlar. Abzaslar oxunduqca müəllim şagirdlərə tanış olmayan sözlərlə bağlı suallar verib həmin sözlərin mənasını kontekstə əsasən müəyyənləşdirməyə təşviq etməlidir. Bununla şagirdlərdə mütaliə zamanı yeni sözlərin mənasını araşdırmaq vərdişi formalaşdırılır. İzahlı lüğətin köməyindən istifadə edilməsi də tövsiyə olunur.

**5-2.1.3. Tapşırıq b (dərslik).** Şagirdlər mətndən həmin sözlərin işləndiyi cümlələri tapıb oxuyurlar və mətnə çəkilmiş illüstrasiyanı nəzərdən keçirirlər. Kontekst və illüstrasiyanın köməyi ilə "qumquma" və "lavanda" sözlərinin mənasını izah edirlər.

**Kontekst:** ...Yaxınlaşıb su istədim. **Qumquma-**

**sını** mənə uzatdı.

...Ucsuz-bucaqsız, bomboş və qupquru yaylada təkcə çiçək açmış **lavandalar** gözə dəyirdi.

**Sözlərin izahı:**

**Qumquma** – oval formalı, kiçik suqabı.

**Lavanda** – bənövşəyi çiçək açan və quraqlığa dözən bitki.

Şagirdlər yeni sözləri cümlədə işlətməklə onları mənimsədiklərini nümayiş etdirə bilərlər.

**5-4.4.1. Tapşırıq c (dərslik).** "Zəncir" sözünün mənasını oxuduqdan sonra şagirdlər "Yaylada canlanma zəncirvari şəkildə baş vermişdi" cümləsini bir daha oxuyurlar. Mətnin sonluğunda ağacların əkilməsi ilə təbiətdə baş verən canlanmanı nümunə gətirib hadisələrin bir-biri ilə zəncir kimi əlaqəli olmasını söyləyirlər. Fikirlərini ümumiləşdirib "zəncirvari" sözünü izah edirlər.

**Zəncirvari** – zəncir kimi, bir-biri ilə əlaqəli.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətini *-vari* şəkilçisinə yönəltməklə bu şəkilçinin sözə gətirdiyi mənanı vurğulamaq tövsiyə olunur. Növbəti bölmədə belə şəkilçilər haqqında ətraflı məlumat veriləcək.

**5-2.1.3. Tapşırıq a (iş dəftəri).** Krosvordun cavabı:

**Yuxarıdan aşağı:** 1. lavanda; 3. çayır; 5. qumquma; 7. gəmirici; 8. bəşər.

**Soldan-sağa:** 2. yayla; 4. orman; 6. qamış; 9. fidan; 10. ruzigar.

**Tapşırıq b (iş dəftəri).** Cavab: **c. Göyərmək, bitmək. □ *Şitillərin hamısı tutdu.***

Tapşırıq həm də öyrədici funksiya daşıyır. Şagirdlər "tutmaq" sözünün izahlı lüğətdəki bir neçə mənası ilə tanış olurlar.

**Müəllimin nəzərinə!** İzahlı lüğətdə "tutmaq" sözünün digər mənaları da nəzərdən keçirilə bilər.

### Oxuyub-anlama

**5-2.3.2. Tapşırıq c (iş dəftəri).** Mətnə istinad edərək fikirlərin səhv olduğunu əsaslandırırlar.

1. *Xeyr. Mətndə göstərilir ki, iyunun günəşli günlərindən biri idi.*

2. *Xeyr. Mətndə göstərilir ki, gənc adam su tapmaq ümidi ilə xeyli gəzib-dolaşır, amma ətrafda nə bir bulaq, nə də quyu görür.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstə və illüstrasiyaya istinad etməklə mətndə rast gəldiyi yeni söz və ifadələrə aydınlıq gətirir. | "Ağac əkən adam" mətni, tap. **b** (D.) |
| Sözün morfoloji tərkibindən çıxış edərək sözün mənasını izah edir. | Tap. **c** (D.) |
| Kontekstdən çıxış edərək sözün mənasını anladığını nümayiş etdirir. | Tap. **a**, **b** (İ.D.) |
| Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə gəldiyi nəticələri əsaslandırır. | Tap. **c** (İ.D.) |

## 2-ci dərs. Ağac əkən adam

• Dərslik: səh. 47-48 • İş dəftəri: səh. 42

**Təlim məqsədləri**

**1.** Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**

**2.** Mətndəki obrazla bağlı məlumatlar əsasında obraz xəritəsi tərtib edir **(st. 5-2.3.1)**

**3.** Qrafik materialı şərh etməklə rabitəli mətn qurub danışır **(st. 5-1.3.2).**

**4.** Mövzu ilə bağlı fikir və duyğularını məktub yazmaqla ifadə edir **(st. 5-3.2.2).**

### Mövzuya yönəltmə

Müəllim "Ağac əkən adam" mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

– *Mətndə hansı obrazlar iştirak edir?*

– *Hadisələr harada baş verirdi?*

### Oxuyub-anlama

**5-2.2.1. Tapşırıq a, b (dərslik).** Mətndə göstərilir ki, vaxtilə kənd əhalisinin odun kömürü hazırlamaqla məşğul olması bu yerlərin viran qalmasına səbəb olmuşdu.

Şagirdlər bu məlumatdan çıxış edərək Alp dağlarının yamaclarının xarabalığa çevrilməsi səbəblərini müzakirə edirlər.

**Səbəblər: a tapşırığı:** Əhali ağacların qırılması hesabına qazanc əldə edirmiş. Bu, böyük bir ərazidə meşələrin məhv olmasına səbəb olmuşdu.

**b tapşırığı:** Kənd əhalisi qazanc əldə edə bilmədiyi üçün bu əraziləri tərk edib.

**5-2.3.1. Tapşırıq c (dərslik).** Şagirdlər mətnin sonluğuna istinad etməklə dəyişiklikləri sadalayırlar:

Cavab: Dərələrdən su axırdı. Hər tərəf yaşıllığa qərq olmuşdu. Bölgənin havası mülayimləşmişdi, daha sərt küləklər əsmirdi.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər bu məlumatları yaza bilərlər.

**Görünüşü:** Onun əlli-əlli beş yaşı olardı. Üzgözündən təmkinli, səmimi, mehriban birinə bənzəyirdi.

**Həyat tərzi:** Tək-tənha yaşayırdı. Onun əsas məşğuliyyəti ağac əkmək idi.

**Yaşadığı yerin təsviri:** Çoban Alp dağlarının yamaclarında ucsuz-bucaqsız, quraqlıq bir ərazidə yaşayır. Ətrafda uçub-dağılmış evlər var.

**Düşüncələri:** Ömrünün sonuna qədər saysız-hesabsız ağac əkməyi düşünür.

**Müəllimin nəzərinə!** Tapşırığın icrasında çətinlik çəkən şagirdlər məlumatları tapmaq üçün mətni nəzərdən keçirə bilərlər. Bununla şagirdlərin lazım olan məlumatları mətndə sürətlə tapmaq bacarığı inkişaf etdirilər.

### Danışma

**5-1.3.2. Tapşırıq ç (dərslik).** Bu tapşırığı qruplarla iş formasında yerinə yetirmək olar. Hər bir qrup tapşırıqdakı sxemi müzakirə edib ağacların quraqlıq ərazidə suyun əmələ gəlməsindəki rolu haqqında kiçik təqdimat materialı hazırlaya bilər.

**Sxemin şərhi:**

*Yer altındakı sular ağacın köklərinə daxil olub ağacın gövdəsinə doğru hərəkət edir. Yarpaqlara çatanda buxarlanaraq buludlara çevrilir. Buludlardan əmələ gələn yağış meşəyə qayıdır.*

**Müəllimin nəzərinə!** Şagirdləri düşündürmək üçün suallar verilə bilər. Məsələn:

*– Sizcə, çoban nə üçün palıd ağacına üstünlük verirdi?*

Şagirdlər sualı cavablandırmaqda çətinlik çəkərlərsə, müəllim özü məlumat verə bilər:

*Palıd ağacının kökləri çox dərinə gedir və şaxələnir. Bu, ağacın yeraltı sular hesabına qidalanıb böyüməsinə kömək edir. Bu ağac şiddətli şaxtaya, kəskin istilərə davamlı olur.*

### Yazı

**5-3.2.2. Tapşırıq b (iş dəftəri).** Məktubun məzmunu təxminən belə ola bilər:

*Salam, təkbaşına böyük bir meşə yaradan adam!*

*Sizin haqqınızda yazılan əsəri oxuduqca heyrətlənirdim. Fikirləşirdim ki, təkbaşına, köməksiz yaşayan adam bunu necə bacarıb? Siz nə qədər də dözümlü, səbirlisiniz!*

*Kaş ki hamı sizin kimi təbiəti sevəydi, yaşadığımız dünyanı qorumağa çalışardı. Mən bu əsərdən çox şey öyrəndim. Mən də sizin kimi mübariz, təbiətə qarşı qayğıkeş olacağıma söz verirəm.*

*Xidmətlərinizə görə sizə təşəkkür edirəm.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir. | Tap. a, b, c (D.) |
| Sxemi şərh etməklə rabitəli mətn qurub danışır. | Tap. ç (D.) |
| Mətndəki obrazla bağlı məlumatlar əsasında obraz xəritəsi tərtib edir. | Tap. a (İ.D.) |
| Əsərin baş qəhrəmanına məktub yazır. | Tap. b (İ.D.) |

## 3-cü dərs. Qarabağ təbiətinə qarşı terror

• Dərslik: səh. 48 • İş dəftəri: səh. 43

**Təlim məqsədləri**

**1.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2)**

**2.** Mətni dinləyərkən açar sözləri qeyd edir **(st. 5-1.1.1)**

**3.** Dinlədiyi mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirir **(st. 5-1.1.2).**

### Mövzuya yönəltmə

"Ağac əkən adam" mətninin xatırlanması üçün sual verilir:

*– Alp dağlarının yamaclarında meşələrin məhv olmasına səbəb nə idi?*

### Danışma

**5-1.2.2. Tapşırıq a (dərslik).** Müzakirə zamanı

şagirdlər fikirlərini əsaslandırmalıdırlar.

Məsələn, meşələrə gəzintiyə çıxan bəzi insanların məsuliyyətsiz davranışlarından meşələrə yanğın düşə bilər. Bəzən onlar kabab bişirmək üçün ocaq qalayır və söndürməyi unudur və s.

Kağız istehsalı meşələrin azalma səbəblərindəndir. Belə ki, kağız hazırlamaq üçün ağaclardan istifadə edirlər. Kağıza qənaət edilmirsə, tələbat daha çox ağacın qırılmasına səbəb olur.

**Dinləmə**

**5-1.1.1. Tapşırıq b (dərslik).** Şagirdlər əvvəlcə dərslikdə verilmiş yaddaş xəritəsini dəftər və ya A4 vərəqdə çəkirlər. Müəllim mətni səsləndirdikcə lazım olan faktları uyğun xanalarda qeyd edirlər. Müəllim mətni sinfin səviyyəsini nəzərə alaraq yavaş və ya normal templə səsləndirir:

***Qarabağ təbiətinə qarşı terror***

*Qarabağın zəngin bitki örtüyü var. Burada 2000-dən çox bitki növünə rast gəlinir. Bu bölgənin flora və faunasını qorumaq məqsədilə ötən əsrin ortalarından başlayaraq bir sıra dövlət qoruqları təşkil edilmişdir.*

*Bəsitçay dövlət qoruğu Zəngilan rayonunda yerləşir. Burada, əsasən, nadir Şərq çinarları qorunur. Bu çinarlardan birinin yaşı 1200-ə çatır, hündürlüyü isə 53 metrdir. Onun gövdəsindən əmələ gələn 200-ə yaxın pöhrə də nəhəng ağaclara bənzəyir. Bu əzəmətli görünüşü ilə həmin çinar xalqımızın vüqarının, tariximizin qədimliyinin, təbiətimizin əzəmətinin simvoluna çevrilmişdir.*

*Laçın, Şuşa və Xocalı ərazisində qoruqlar yaradılmışdır. Hacısamlı meşəsində qırmızı palıd ağacları, Topxana meşəsində fıstıq, qarağac, saqqızağacı, vələs, Qarabağ dağ laləsi, xarıbülbül və s. bitkilər qorunur.*

*Təəssüf ki, meşə sərvətimiz uzun illər erməni işğalçıları tərəfindən talan edilmişdir. Hələ 1988-ci ildə ermənilər Şuşa yaxınlığındakı Topxana meşəsini qırıb tikinti işləri aparmağa cəhd etdilər. O vaxt yüz minlərlə insan Bakının Azadlıq meydanına toplaşaraq bu hadisəyə etirazını bildirdi. Etirazlar get-gedə böyüyərək sovet hakimiyyətinə qarşı milli azadlıq hərəkatına çevrildi və Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdi.*

*1992-1993-cü illərdə Ermənistan silahlı ordusu tərəfindən işğal olunması Qarabağın təbiətinə ciddi zərbə vurdu. Azərbaycanın 261 min hektar meşə sahəsi məhv edilmiş, torpaq örtüyü və su hövzələri zəhərli maddələrlə çirkləndirilmişdir. Nəticədə həmin ərazilərdə heyvan və quşların, çay balıqlarının sayı kəskin azalmışdır.*

*2020-ci ildə rəşadətli Azərbaycan ordusu Qarabağı azadlığına qovuşdurdu.*

*İndi parklar, qoruqlar bərpa olunur. Torpaqlar minalardan təmizlənir. Çirklənmiş çaylar, göllər durulur. Qarabağın təbiəti yenidən dirçəlir.*

**Müəllimin nəzərinə!** Sinfin səviyyəsindən asılı olaraq mətn ikinci dəfə səsləndirilə bilər.

**Yaddaş xəritəsində qısa qeydlər:**

**Məkan:** *Qarabağ*

**Zaman:** *1988-2020*

**Meşələri, təbiət qoruqları:** *Bəsitçay dövlət qoruğu, Hacısamlı və Topxana meşələri*

**Tarixi hadisələr:** *1988-ci ildə ermənilər Topxana meşəsini qırdılar, buna etiraz olaraq milli azadlıq hərəkatı başlandı və Azərbaycan xalqı dövlət müstəqilliyinə nail oldu. 1992-1993-cü illərdə Qarabağ və ətraf rayonlar Ermənistan ordusu tərəfindən işğal edildi. Otuz il düşmən tapdağı altında qalan torpaqlarımız 2020-ci ildə azadlığa qovuşdu.*

**Nadir bitki növləri:** *Şərq çinarları, qırmızı palıd ağacları, fıstıq, qarağac, saqqızağacı, vələs ağacları, Qarabağ dağ laləsi, xarıbülbül*

Şagirdlərin tərtib etdikləri yaddaş xəritəsi üzrə təqdimat etməsi tövsiyə olunur.

İş dəftərindəki tapşırıqlar vasitəsilə şagirdlər dinlədikləri mətndəki hadisələr arasında səbəb və nəticə əlaqəsini müəyyənləşdirməklə dinləyib-qavrama bacarıqlarını inkişaf etdirirlər.

**5-1.2.2. Tapşırıq a (iş dəftəri).** Cavab:

**Səbəb:** 1988-ci ildə ermənilər Şuşa yaxınlığındakı Topxana meşəsini qırmaqla tikinti işləri aparmağa cəhd etdilər.

**Nəticə:** Azərbaycan xalqı dövlət müstəqilliyinə nail oldu.

**Nəticə:** Qarabağın təbiətinə ciddi ziyan dəydi. Meşələr məhv edilmiş, torpaq örtüyü və su hövzələri zəhərli maddələrlə çirkləndirilmişdir. Nəticədə həmin ərazilərdə heyvan və quşların, çay balıqlarının sayı kəskin azalmışdır.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

*1. Meşələr məhv edilmişdir.*

*2. Torpağa zəhərli maddələr qarışdığı üçün bitkilər məhv olmuşdur.*

*3. Su hövzələri çirkləndirilmişdir.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. **a** (D.) |
| Qeyd götürməklə dinləyir. | Tap. **b** (D.) |
| Dinlədiyi mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirir. | Tap. **a**, **b** (İ.D.) |

## 4-cü dərs. Beynəlxalq Meşələr Günü

• Dərslik: səh. 48

**Təlim məqsədləri**

**1.** Bədii mətndəki hadisələrə və obrazların davranışına əsasən ideyanı müəyyən edir **(st. 5-2.3.1).**

**2.** Mövzu ilə bağlı təqdimat materialı hazırlayır **(st. 5-3.2.4).**

**3.** Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir **(st. 5-3.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim Beynəlxalq Meşələr Günü ilə bağlı simvolik şəkillər göstərir və həmin şəkilləri şərh etməyi tapşırır:



Bu şəkli şagirdlər belə şərh edə bilərlər:

– Yer planetini – yaşadığımız dünyanı xilas etmək bizim əlimizdədir. Ağacların sayını çoxaltmalı, meşələrin məhv olmasının qarşısını almalıyıq.

**Dərslikdə verilmiş şəkil:** Canlıların yaşaması üçün meşələr çox vacibdir. Meşələr olmazsa, canlılar da məhv olar.

**Oxuyub-anlama**

**5-2.3.1. Tapşırıq a (dərslik).** Şagirdlər sualı belə cavablandıra bilərlər:

– Müəllif "Ağac əkən adam" əsərini yazmaqla insanları təbiəti qorumağa çağırır. O, əsərdə meşələrin məhv olmasının bir çox fəsadlarını göstərməklə təbiətin gələcəyindən narahatlığını ifadə edir. Ağac əkmək nəticəsində təbiətin canlandığını göstərməklə oxucuları bu işə səsləyir.

**5-3.2.4. Tapşırıq b (dərslik).** Şagirdlər qruplara bölünür və uyğun təqdimatlar hazırlayırlar. Şagirdlər ibtidai təhsildə elan, plakat, müsahibə ilə bağlı bilik və bacarıqlara yiyələnmişlər.

**Müəllimin nəzərinə!** Sinfin təchizat imkanlarından asılı olaraq şagirdlərin kompüter bacarıqlarından istifadə etməsinə şərait yaratmaq olar və yaxud təqdimatla bağlı müvafiq işlər uyğun ölçüdə kəsilmiş vərəqlər üzərində görülə, sonra hazır vərəqlər vatman kağızı üzərinə yapışdırıla bilər.

Müəllim qruplara tövsiyələr verə bilər:

**I qrup:**

1. Elanın məzmunu aydın yazılmalıdır.
2. Tədbirin keçiriləcəyi vaxt və yer dəqiq göstərilməlidir.
3. Sonda tədbirin təşkilatçısı qeyd olunmalıdır.

Elan təxminən aşağıdakı kimi ola bilər:

***ELAN***

*12 noyabr saat 12:00-dan 16:00-dək Cəlilabad rayonu Üçtəpə kənd tam orta məktəbinin həyətyanı sahəsində iməcilik, yaşıllaşdırma və ağacəkmə aksiyası keçiriləcək.*

*Aksiya zamanı 100-ə yaxın müxtəlifcinsli ağac tinglərinin əkilməsi nəzərdə tutulub.*

*Aksiyada məktəbin müəllim kollektivi və şagirdlər iştirak edəcəklər.*

*Təşkilatçı: $V^a$ sinfi.*

**II qrup:**

Şüar üçün seçdiyiniz cümlələr (**"Hərəmiz bir ağac əkək! Dünyamızı ağaclarla xilas edək! Beynəlxalq Meşələr Gününüz mübarək! Təbiəti qorumaq bizim əlimizdədir! Ağacları sev, onlar bizim həyatımızdır! və s.**) qısa və cəlbedici olmalıdır.

– Plakatın məzmunu 2 metr uzaqdan oxuna bilməlidir.

– Plakatın kənarlarını mövzuya uyğun qrafik elementlərlə bəzəyin.

– Ən çox 2-3 rəngdən istifadə edin.

– Şəkil və ya rəsmdən istifadə oluna bilər.

**III qrup:**

Müəllim III qrupa kömək məqsədilə yaşıllaşdırma idarəsinin gördüyü işlərlə bağlı məlumat təqdim edə bilər.

*Yaşıllaşdırma idarələri müvafiq ərazidə meşələrin, bağların, parkların salınması və qorunması, onlara ziyan vuran şəxslərlə bağlı müəyyən tədbirlərin görülməsi və s. işləri həyata keçirir.*

*Yaşıllaşdırma idarələri sakinlərə təhlükə yaradan ağaclarla bağlı da yardım göstərir. Bunun üçün bir neçə sakin məktub yazıb vəziyyət haqqında məlumat verməlidir. Mütəxəssislər ağacın, həqiqətən də, təhlükəli vəziyyət yaratdığını müəyyənləşdirsə, o zaman yaşıllaşdırma idarəsinin əməkdaşları həmin ağacı kəsə bilərlər.*

Qrup üzvləri məlumatlardan çıxış edərək uyğun suallar tərtib edə bilərlər.

**Müəllimin nəzərinə!** Müsahibədə şərti olaraq əməkdaşın adı, tarixlər və rəqəmlər qeyd edilə bilər.

### Yazı

**5-3.1.2. Yazı işinin yoxlanması.** Hər bir qrupun lideri təqdimat edir və digər qruplar yoldaşlarının yazı işini yoxlayıb qiymətləndirirlər.

Müəllim bununla bağlı şagirdlərə əvvəlcədən müvafiq tövsiyələr verir:

– Yazı işinə münasibət bildirərkən əvvəlcə yazı işinin müsbət tərəflərini söyləyin.

– Hər bir yazı işində məzmunun əhatə olunub-olunmaması üzrə fikirlərinizi bildirin.

– Sözlərin orfoqrafik normalara uyğunluğunu, durğu işarələrindən düzgün istifadəni, sözlərin kontekstə uyğun işlədilməsini yoxlayıb bu haqda fikirlərinizi bildirin.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətn müəllifinin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir. | Tap. **a** (D.) |
| Mövzu ilə bağlı yazılı təqdimat hazırlayır. | Tap. **b** (D.) |
| Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir. | Tap. **b** (D.) |

## 5-ci dərs. Sözün quruluşca növləri

• Dərslik: səh. 49 • İş dəftəri: səh. 44

**Təlim məqsədləri**

**1.** Sözün morfoloji tərkibini, quruluşca növünü müəyyən edir **(st. 5-4.2.1).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Cavab: 1 – b; 2 – d; 3 – a; 4 – c.

### Dil qaydaları

**5-4.2.1. "Yadda saxla" rubrikası.** Müəllim dilin lüğət tərkibi haqqında qısa məlumat verir, sözə leksik şəkilçinin artırılması və sözlərin birləşməsi ilə yeni sözlərin yaranmasını dilin lüğət tərkibinin zənginləşməsi yollarından biri kimi şərh edir.

**Tapşırıq b, c (dərslik).** Sözün quruluşca növləri üzrə biliklərin yoxlanılmasına yönəldilib.

**Yalnız sadə sözlərdən ibarət atalar sözü:** Dost dostun eybini üzünə deyər.

**Tapşırıq ç, d (dərslik).** Tapşırıqlar şagirdlərin dilin lüğət tərkibinin zənginləşməsi yolları üzrə qazandıqları biliklərin tətbiqinə yönəldilib.

**ç tapşırığının cavabı:** Çalışqan – çox çalışan, səy göstərən, zəhmətsevən;

Gəmiçi – gəmini idarə edən, yaxud gəmidə işləyən adam;

Söyüdlük – söyüd ağacları olan yer.

**d tapşırığının cavabı:** qırxayaq, qızılgül, üçbucaq, Ağdaş.

**Müəllimin nəzərinə!** Sinfin səviyyəsindən asılı olaraq sözlərin sayı artırıla bilər.

**Tapşırıq a, b, c (iş dəftəri).** Şagirdlərin mövzu üzrə bilik və bacarıqları inkişaf etdirilir.

**a** tapşırığının cavabı: 1. balıq – sadə söz; 2. balıqçı – düzəltmə söz; 3. balıqqulağı – mürəkkəb söz.

**c** tapşırığının cavabı: İdmançılar böyük meydançada qaçışa hazırlaşırlar.

**Tapşırıq ç (iş dəftəri).** Söz yaradıcılığı üzrə təsəvvürlərin genişləndirilməsinə yönəldilmişdir.

Cavab:

1. Yaşıl**lıq** – təzə otlarla örtülü yer.

Yaşıl**laş**(maq) – otla, yarpaqla örtülmək.

2. Göz**lük** – gözə taxılan şüşə əşya.

Göz**lə**(mək) – bir şeyin və ya bir adamın inti-

zarını çəkmək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün morfoloji tərkibini, quruluşca növünü müəyyən edir. | Dərslik və iş dəftərindəki tapşırıqlar |

# 3-cü fəsil

## 1-ci dərs. Ağıllı canlılar

• Dərslik: səh. 50-51 • İş dəftəri: səh. 45

**Təlim məqsədləri**

**1.** Mətnin bitkin hissələrini yarımbaşlıqlarla adlandırır **(st. 5-2.3.3).**
**2.** Verbal-qrafik materialı şərh etməklə rabitəli mətn qurub danışır **(st. 5-1.3.2).**
**3.** Mətnin tərkib hissələrini (giriş, əsas hissə, sonluq) müəyyənləşdirir **(st. 5-2.3.3).**
**4.** Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə gəldiyi nəticələri əsaslandırır **(st. 5-2.3.2).**

**Mövzuya yönəltmə**

Müəllim soruşur:

– *Keçmişdə uzaq məsafəyə məktubu necə göndərirdilər? Sizcə, göyərçinlər hansı xüsusiyyətinə görə məktubu lazım olan ünvana daşıya bilirdi?*

– *Yaddaşı və ağıllı davranışları ilə tanınan hansı canlıları tanıyırsınız? Onlar haqqında bildiklərinizi danışın.*

**Oxu. Oxuyub-anlama**

**“Ağıllı canlılar” mətni.** Mətnin giriş hissəsi oxunur. Girişdə qoyulan suala cavab axtarmaq üçün şagirdlər 6 kiçik qrupa bölünürlər.

5-2.3.3. **Tapşırıq a (dərslik). Qruplarla iş.** Qrup üzvləri mətnin müvafiq hissəsini oxuyur, məzmununu əhatə edən yarımbaşlıqla adlandırırlar. Hər bir qrupun lideri təqdimat edir.

**Mətnin hissələrinə uyğun yarımbaşlıqlar:**

1. Güclü yaddaş
2. Alətdən istifadə bacarığı
3. Özünütanıma bacarığı
4. Hiss və emosiyaların nümayişi
5. Alət hazırlama bacarığı
6. Ünsiyyət bacarığı

**Danışma**

5-1.3.2. **Tapşırıq b (dərslik).** Şagirdlər intellekt anlayışını izah edən sxemi analiz edirlər. Müəyyənləşdirirlər ki, intellektin ilkin səviyyəsi dərk etmək, anlamaq, ən yüksək səviyyəsi isə yaratmaqdır. Onlar mətndən nümunələr gətirməklə canlıların əqli xüsusiyyətlərini sxem əsasında şərh edə bilərlər. Məsələn, Sidr quşunun güclü yaddaşı onun intellekt göstəricisi

sayılmır. Ancaq intellektin inkişafı üçün yaddaş da önəmlidir. Qarğaların daşdan və kiçik çubuqlardan istifadə edərək yem əldə etməsi isə intellektin "nəticə çıxarmaq" mərhələsində yekunlaşır. Problemi həll etmək üçün sadə alətlər yaratmağı bacaran yeganə heyvan isə şimpanzedir. Ancaq şimpanzelərin də əqli xüsusiyyəti epizodik xarakter daşıyır. İntellekti yüksək səviyyədə inkişaf etmiş yeganə canlı insandır.

**Müəllimin nəzərinə!** Şagirdlər "IQ ("ay-kü") səviyyəsi", "IQ testləri" ifadələrini, yəqin ki, tez-tez eşidirlər. Şagirdlərə bu barədə kiçik məlumat verilə bilər:

*IQ (ingiliscə intelligence quotient) – insanın düşünmə qabiliyyətinin ölçülməsi üçün qəbul olunmuş intellekt əmsalıdır. Dünyada insanların intellekt qabiliyyətini aşkar edən bir çox testlər mövcuddur. Test tapşırıqlarına gündəlik həyatda rast gəlinən məsələlər və problemlərdən suallar daxil edilir. Testin nəticələri düsturlar vasitəsilə hesablanır və IQ səviyyəsi müəyyən olunur.*

### Oxuyub-anlama

**5-2.3.3. Tapşırıq c (dərslik).** Oxu və yazı məzmun xətlərinin inteqrasiyasına imkan yaradır.

Müəllim "Diqqət et" rubrikasındakı məlumatları şagirdlərə xatırladır və onların diqqətini "Ağıllı canlılar" mətninin strukturuna yönəldir. Suallar verir:

*– Mətnin giriş hissəsində nədən bəhs edilir? Müəllif mətnin əsas hissəsindəki fikri ("Bir çox canlıların əqli xüsusiyyətləri vardır") əsaslandırmaq üçün hansı faktları sadalayır? Mətndə sonluq hissə varmı?*

Şagirdlər mətnin əsas hissəsindəki fakt və hadisələrin ümumiləşdirilib sonluq hissədə ifadə olunmadığı qənaətinə gəlirlər.

**Qruplarla iş.** Girişdə verilmiş suala münasibət bildirilməklə mətnin sonluq hissəsi yazılır.

**Mətnin sonluq hissəsinin məzmunu təxminən belə ola bilər:**

*Müşahidələr, eksperimentlər planetdə yaşayan bir çox heyvanların hafizəli və şüurlu olmasını deməyə əsas verir. Ancaq heyvanların şüuru sistemli, ardıcıl xarakter daşımır. Bütün əqli xüsusiyyətlərə eyni anda sahib olan yeganə ali varlıq insandır. Təkcə insan şifahi və yazılı nitqə, dünyagörüşünə, elmə, texnologiyaya, mədəniyyətə, incəsənətə sahibdir. Biz cümlələr vasitəsilə yaşadıqlarımızı təsvir edir, fikirlərimizi, hisslərimizi ifadə edə bilirik. Keçmişə nəzərən gələcəyi proqnozlaşdıra bilirik. Ən əsası isə əldə etdiyimiz bilik və təcrübələrimizi yazılı şəkildə nəsildən nəslə ötürə bilirik.*

**Müəllimin nəzərinə!** Şagirdlərə bu sinifdə qeyri-bədii mətnlər haqqında ümumi məlumatlar verilir. 6-cı sinifdəisə belə mətnlərin arqumentativ olduğu şagirdlərə öyrədiləcək.

**5-2.3.2. Tapşırıq a (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin mətni nə dərəcədə oxuyub-qavradıqları yoxlanılır.

**a tapşırığının cavabı:**

*Qarğa kiçik çubuqlardan istifadə edərək yemi dərin yarıqdan çıxarmağı bacarır.*

*Delfin güzgüdə özünü tanıyaraq bədənindəki həmin ləkəni silməyə çalışıb.*

**Tapşırıq b, c (iş dəftəri).** Tapşırıqlar şagirdlərin fikrini əsaslandırmaq bacarığının inkişafına yönəlmişdir.

**b tapşırığının cavabı:**

**Fillər hisslərini nümayiş etdirə bilir.**

Mətndə göstərilir ki, fillər özlərini yaxşı hiss edəndə sevinir, qəmgin olanda ağlayırlar.

**Şimpanzelər alət düzəltməyi bacarır.**

Mətndə göstərilir ki, budaqdan iti çubuqlar, iri yarpaqdan "fincan" düzəldə bilirlər.

**c tapşırığı üzrə cavablar təxminən belə ola bilər:**

*– Biz fikirlərimizi, gün ərzində baş verən hadisələri şifahi şəkildə bir-birimizə çatdıra bilirik.*

*– Biz müxtəlif elm sahələri üzrə biliklər əldə edə bilir, mürəkkəb texnologiyalar yarada bilirik.*

*– Biz mədəniyyət və incəsənət əsərləri (rəsm, heykəltaraşlıq, ədəbiyyat nümunələri, kino, teatr və s.) yarada bilirik.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin bitkin hissələrini yarımbaşlıqlarla adlandırır. | Tap. **a** (D.) |
| Sxemdəki məlumatları mətnin məzmunu ilə əlaqələndirir. | Tap. **b** (D.) |
| Mətnin məzmunundan çıxış edərək mətnin sonluğunu yazır. | Tap. **c** (D.) |

| | |
|---|---|
| Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə gəldiyi nəticələri əsaslandırır. | Tap. a, **b** (İ.D.) |

## 2-ci dərs. Bala delfin

• Dərslik: səh. 52 • İş dəftəri: səh. 46

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir **(st. 5-1.1.2).**

**2.** Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir **(st. 5-2.3.5).**

**3.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Müəllim şagirdlərin delfinlər haqqında bildiklərini (III sinif. I hissə. səh. 76-78) yönəldici suallar vasitəsilə xatırladır.

**Yönəldici suallar:** *Delfinlər bir-birinə məlumatları necə ötürürlər? Delfini əhliləşdirmək olarmı? Delfinlər insanları nə üçün xilas edirlər?*

**Dinləmə**

**5-1.1.2. Tapşırıq b (dərslik).** Müəllim şagirdlərə tövsiyə verir:

– Mətni dinlədikcə delfinlərin davranışlarına diqqət edin. Onların əqli xüsusiyyətlərini göstərən epizodları qeyd edin.

Müəllim mətni səsləndirir:

***Bala delfin***

*Xəfif yaz küləyi dalğaları sahilə tərəf qovurdu. Bir neçə delfin şən səslər çıxararaq dalğaların üzərində atılıb-düşürdü.*

*Uzaqdan mühərrikli qayıq göründü. Delfinlər qayığı görcək ona tərəf üzməyə başladılar. Qayığı dövrəyə aldılar. Qoca balıqçı gətirdiyi balıqları onlara tərəf uzatdı. Delfinlər qəribə səslərlə sanki qocanı salamladılar və balıqları onun əlindən alıb yedilər.*

*Qoca balıqçı delfinlərlə sağollaşıb mühərriki işə saldı. Qayıq yerindən tərpənəndə delfinlər həmişəki kimi cərgələnib qayıqla yarışa başladılar. Onlar gah qayığın yanı ilə üzür, gah da önünə keçib suya baş vurur, şən səslər çıxarırdılar.*

*Birdən bala delfin sürətlə gedən qayığa çırpılıb yaralandı. Bunu görən balıqçı özünü suyun üzərində hərəkətsiz qalan delfin balasına yetirdi. Ətrafındakı delfinlər elə bil haray qoparır, nalə çəkirdilər. Yaralı delfinin anası isə burnunun ucu ilə ona toxunub yanıqlı səslər çıxarırdı. Elə bil gözləri ilə qoca balıqçıya yalvarır, "balamı xilas et" deyirdi. Qoca üzünü ana delfinə tutub "Sənə söz verirəm, balanı sağ-salamat sənə qaytaracağam", – deyib mühərriki işə saldı və yaxınlıqdakı delfinariyə yollandı. Ora qocanın tək ümid yeri idi. Qızı Darya orada delfin tərbiyəçisi idi.*

*Ana delfin yaralı balasının arxasınca baxıb haray çəkir, özünü sahilə atmaq istəyirdi. Yanındakı delfinlər isə onun qarşısını kəsib nəsə deyirmiş kimi əcaib səslər çıxarırdılar.*

*Ertəsi gün hovuzun bir küncünə sığınmış bala delfin gözünü açıb qorxu, təəccüb dolu nəzərlərlə ətrafa baxdı. Birdən ona elə gəldi ki, anasının səsini eşidir. Sevindiyindən atlanmaq istədi, amma bacarmadı. Səsini yüksəldib elə bil "Ana, mən buradayam" dedi.*

*Bütün gecəni sahildə dayanıb ümidlə balasını səsləyən, onu gözləyən ana delfin balasının səsini eşidəndə suyun üzündə rəqs edirmiş kimi dövrələr vurmağa başladı.*

*Beləcə, aylar ötdü. Bu müddətdə bala delfinin qayğısına balıqçının qızı Darya qalırdı. Bala delfin çətin günlərində yanında olan Daryaya xüsusi məhəbbət bəsləyirdi. Təlim zamanı onun bütün tapşırıqlarını yerinə yetirirdi. O, nimçədən səliqə ilə balıq götürüb yeməyi, yanan şamı söndürməyi, voleybol oynamağı, rəqs etməyi öyrənmişdi. Artıq onu delfinariyə gələn qonaqların qarşısına çıxarırdılar. O hamının sevimlisinə çevrilmişdi.*

* * *

*Sahildə böyük izdiham var idi. Qoca balıqçı delfini anasına təhvil verəcəkdi. Hamı həmin anı səbirsizliklə gözləyirdi. Darya göz yaşları içində son dəfə dostunu qucaqlayıb burnunun ucundan öpdü. Delfin heç nə başa düşə bilmir, çaşqın-çaşqın ağlayan Daryaya baxırdı.*

*Delfin birdən anasının səsini eşitdi. O da qırıq-qırıq səslər çıxarmağa başladı. Qoca balıqçı üzünü qürurla ana delfinə tutub "Mən sözümü tutdum, balanı sağ-salamat gətirdim", – dedi. Ana delfinin kiçik gözlərində minnətdarlıq dolu bir ifadə var idi. O, burnunu balasının burnuna toxundurub əzizləyirdi.*

*Bala delfin sanki birdən ayıldı və delfinlərdən ayrılaraq özünü sahilə – qumların üzərinə tulladı. Bu mənzərədən hər kəs dəhşətə gəlmişdi. Darya*

*tez özünü çatdırdı. Onu qucaqlayaraq "Niyə belə etdin axı, yaralanarsan", – deyib ağlamağa başladı. Bala delfin isə çırpınaraq şən səslər çıxarırdı. Adamlar delfini çəkib suya saldılar. Amma o, Daryanın getmək istədiyini görəndə yenə sahilə atıldı. Burnunu Daryanın üzünə sürtüb körpə kimi qığıldadı. Sanki deyirdi: "Məni qoyub getmə".*

*(Yaşar Süleymanlının "Delfin dilində üç kiçik qığıltı" əsəri əsasında işlənmişdir)*

Şagirdlər mətni dinlədikdən sonra müəllim mətnin məzmunu üzrə faktoloji suallar verir:

*– Delfinlər nə üçün balıqçının ətrafına toplaşdılar? Bala delfin niyə yaralandı? Balıqçı onu hara apardı? Balasından ayrı düşən ana delfin nə edirdi? Darya kim idi? Bala delfin Daryadan nə üçün ayrılmaq istəmirdi?*

Şagirdlər "Bala delfin" mətninin bədii mətn olmasını əsaslandırır və bədii mətnin sonluq hissəsini təxəyyüllərinə əsasən yazırlar.

Mətnin sonluq hissəsi şagirdlərin təxəyyülünə uyğun yazıldığından müxtəlif variantlarda ola bilər. Axırda müəllim əsərin son hissəsini səsləndirir. Şagirdlər öz variantları ilə müqayisə edirlər.

**"Bala delfin" mətninin sonluğu:**

*Axırda hamı bir nəfər kimi onun delfinariyə qaytarılmasına qərar verdi. Axı o bu gedişlə özünü yaralaya və ya öldürə bilərdi.*

*Adamlar bala delfini delfinariyə aparanda o, sahildən bir az aralıda onu gözləyən anasına baxıb şən və uzun bir səs çıxardı. Elə bil "Salamat qal, ana, darıxma mənim üçün", – deyirdi. Ana delfin də fərqli səslə ona qarşılıq verərək "Sən buraya aidsən, hara gedirsən", – deyirdi elə bil.*

*Hər il bala delfinlə Daryanın çıxışlarını izləmək üçün delfinariyə minlərlə adam gəlir. Hər kəs bu sevimli cütlüyü ayaq üstə alqışlayır.*

*Bəs görəsən, bala delfini ucsuz-bucaqsız dənizi ataraq kiçik bir hovuza bağlayan, onu anasından və başqa delfinlərdən ayıran nədir? Bu, delfin dilində qığıltı ilə ifadə edilən sevgidir.*

**5-2.3.5. Tapşırıq c (dərslik).** "Ağıllı canlılar" və "Bala delfin" mətnlərinin müqayisəsi:

**Növünə görə:** "Ağıllı canlılar" – qeyri-bədii, "Bala delfin" bədii mətndir.

**Mövzusuna görə:** Hər iki mətnin mövzusu heyvanlar haqqındadır.

**Məzmuna görə:** "Ağıllı canlılar" mətnində bir neçə heyvan və quşun əqli xüsusiyyətləri aydınlaşdırılır. "Bala delfin" mətnində isə bir delfinin başına gələn hadisələr: onun insanlar tərəfindən xilas edilməsi, insanlarla mehriban münasibəti, həmçinin ana delfinin balası üçün fəryad qoparması, onun yolunu gözləməsi və s. danışılır.

**Əsas fikrinə görə:** "Ağıllı canlılar" – İnsandan başqa bəzi canlıların da düşünmə qabiliyyəti var. Ancaq insandan fərqli olaraq heyvanlarda bu qabiliyyət yüksək səviyyədə inkişaf etməyib.

"Bala delfin" – Delfinlər öz hisslərini, sevgilərini ifadə edə bilirlər. Onlar hiss edirlər ki, insanlar onlardan daha ağıllıdır. Ona görə də çətin anlarda insanlara sığınırlar.

**5-1.1.2.** İş dəftərində verilmiş tapşırıqları yerinə yetirən şagirdlər dinlədikləri mətni qavradıqlarını fərdi şəkildə nümayiş etdirirlər.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

1. Çünki balıqçını tanıyırdılar, balıqçı hər dəfə onlara yem gətirirdi; 2. Hər gün sahildə dayanıb balasını səsləyirdi; 3. O, nimçədən səliqə ilə balıq götürüb yeməyi, yanan şamı söndürməyi, voleybol oynamağı, rəqs etməyi öyrənmişdi.

**Tapşırıq b (iş dəftəri).** Cavab: 2. Hisslərini müxtəlif səslərlə ifadə edirlər; 3. Hisslərini müxtəlif hərəkətlərlə ifadə edirlər; 4. Öyrənmə qabiliyyətləri güclüdür. Təlimçinin əmrlərini yerinə yetirməyi bacarırlar.

**Danışma**

**5-1.2.2. Tapşırıq ç (dərslik).** Müəllim sinfin səviyyəsindən asılı olaraq debat üçün ayrılmış vaxt və qaydaları müəyyənləşdirir, uyğun təlimat verir. Mövzu təqdim edilir:

Heyvanları təbiətdən ayırıb sirk, zoopark, delfinari kimi yerlərdə saxlamaq:

1) düzgündür; 2) düzgün deyil.

Qruplar iki fikirdən birini seçir və onu əsaslandırmaq üçün arqumentlər müəyyənləşdirirlər.

**Birinci qrup belə arqumentlər gətirə bilər:**

Biz hesab edirik ki, heyvanların sirkdə, delfinaridə və ya zooparkda saxlanılması düzgündür.

**1.** Müxtəlif canlılarla tanış olub onlar haqqında məlumat əldə edə bilirik. Necə deyərlər, yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır.

**2.** "Qırmızı kitab"a düşən bir çox nadir canlıları zooparkda qoruyub sayını çoxaldırlar.

**3.** Bunlar canlıların öyrənilməsi üçün tədqiqat

mərkəzidir.

**Digər qrup əks-arqumentlər müəyyənləşdirir:** Biz hesab edirik ki, heyvanlar sirkdə, delfinaridə və ya zooparkda deyil, təbiətdə olmalıdırlar.

**1.** Heyvanlar da canlıdır, onların azad yaşamağa haqqı var. İnsan qəfəsə salınsa, bir gündən artıq dözməz.

**2.** Gəlir əldə etmək üçün heyvanları əhliləşdirərkən onlara əziyyət verirlər. Bu, doğru deyil və bir çox ölkələrdə qadağan olunub.

**3.** Heyvanların əyləncə məqsədilə nümayiş etdirilməsi canlılara qarşı kobud davranışdır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyən edir. | Tap. **b** (D.) |
| Dinlədiyi mətnin məzmunu ilə bağlı sualları cavablandırır. | Tap. **a**, **b** (İ.D.) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. **c** (D.) |
| Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. **ç** (D.) |

## 3-cü dərs. İtlər ağıllıdır, yoxsa pişiklər?

• Dərslik: səh. 52 • İş dəftəri: səh. 47

**Təlim məqsədləri**

**1.** Fakt, hadisə və fikirləri mətnin abzas və hissələri üzrə strukturlaşdırır **(st. 5-3.1.1).**

**2.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2)**

**3.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.3.1).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərdən soruşur:

– *İtiniz və ya pişiyiniz varmı? İt və pişiklərin hansı ağıllı davranışları diqqətinizi çəkib? Siz hansı ev heyvanını saxlamaq istəyərsiniz? Səbəbini izah edin.*

Müəllimin polis, hərbi, xilasetmə əməliyyatlarında iştirak edən itlərlə bağlı videoçarx və ya şəkillər nümayiş etdirməsi tövsiyə olunur.

**Yazı**

**5-3.1.1. Tapşırıq a (dərslik).** Şagirdlər müqayisə cədvəlini oxuyurlar, müəllimin suallarını cavablandırmaqla kollektiv şəkildə müzakirə edirlər.

**Yönəldici suallar:** *Hansı ev heyvanının növü daha çoxdur? Hansı heyvan insanlar tərəfindən daha tez əhliləşdirilib? İnsanlara daha çox it xidmət göstərir, yoxsa pişik? Ünsiyyət bacarıqlarına görə itlərlə pişiklərin hansı fərqləri var? Təlim zamanı hansı heyvan daha tez əmrlərə tabe olur?*

**Müəllimin nəzərinə!** Şagirdlərə müqayisə cədvəli üzrə sual tərtib etməyi tapşırmaq olar.

Müəllim şagirdlərdən qeyri-bədii mətnin struktur xüsusiyyətlərini soruşub sinfin səviyyəsindən asılı olaraq müvafiq tövsiyələr verə bilər:

– Girişdə it və pişiklər haqqında ümumi məlumat (onların digər canlılardan üstünlüyü və nə üçün insanların dostu olduqları haqqında) verin.

– Giriş və əsas hissəni əlaqələndirən keçid cümlə yazın. *(Bəs görəsən, bu ev heyvanlarından hansı daha ağıllıdır?)*

– Əsas hissədə bu sualı cavablandıran fikrinizi bildirin. *(Bir çox üstünlüklərinə görə itləri daha ağıllı hesab etmək olar.)*

– Müqayisə cədvəlindən nümunələr gətirərək fikrinizi (*Bir çox üstünlüklərinə görə itləri daha ağıllı hesab etmək olar*) əsaslandırın.

– Sonluq hissədə fikirlərinizi ümumiləşdirib gəldiyiniz nəticəni bildirin.

**Müəllimin nəzərinə!** Şagirdlərə bildirilməlidir ki, mətn yazarkən cədvəldəki bütün məlumatlardan istifadə edilməsi vacib deyil.

**Mətn təxminən belə qurula bilər:**

*İt və pişik insanların dostları hesab olunur. Onlar insanlarla ünsiyyət qura, quyruq hərəkətləri, müxtəlif səslərlə yemək istədiklərini, hirsləndiklərini, sevindiklərini və s. ifadə edə bilirlər. Bu və ya digər xüsusiyyətləri onların da ağıllı olmasını deməyə əsas verir.*

*Bəs görəsən, bu ev heyvanlarından hansı daha ağıllıdır?*

*Bir çox üstünlüklərinə görə itləri daha ağıllı hesab etmək olar. İtlər təxminən 15000 il bundan öncə əhliləşdirilmiş və ev sahibinin yaxın köməkçisinə çevrilmişlər. İtlər haqqında əsərlərdə, filmlərdə tez-tez görürük ki, onlar həm də mahir polis, ən təhlükəli vəziyyətlərdə xilasedici ola bilir.*

*Bu onların təlim zamanı yüksək öyrənmə bacarığını göstərir. Onlar təxminən 300-ə qədər əmri yerinə yetirməyi bacarır. Bu xüsusiyyət onların pişiklərə nisbətən daha ağıllı olmasını göstərir.*

*Bundan başqa, itlər qədim zamanlardan çobanların, ovçuların köməkçisi olublar. Onlar sürüyə canavar soxulan kimi duyuq düşür, hürərək çobana xəbər verirlər. Canavarları qova bilirlər.*

*Pişiklər isə mehriban, nazlı ev heyvanlarıdır. Onlar itlər qədər çətin, ağır işlərin öhdəsindən gələ bilmirlər. Düzdür, pişiklər yoluxucu xəstəliklər yayan siçanları məhv etməklə fayda verirlər. Ancaq bu onların ağıllı olmasını göstərmir.*

*Göründüyü kimi, itlərin əqli xüsusiyyətləri pişiklərə nisbətən daha yüksək inkişaf edib.*

Yazı fəaliyyətini bitirdikdən sonra hər kəs öz yazısını oxuyur, səhvlər üzərində iş aparır.

**Oxuyub-anlama**

**5-2.1.2. Tapşırıq b, c, ç (iş dəftəri).** Mətnin məzmunu üzrə suallar cavablandırılır.

**Tapşırıq b (iş dəftəri).** Cavab: Yapıncı – plaşa oxşar qolsuz, uzun, enli yun geyim.

**Tapşırıq c (iş dəftəri).** Cavab: Mətndə göstərilir: *Payız dolandı, qış keçdi. Biz yenidən yaylağa qalxdıq.* Deməli, Boğar sahibini 1 il gözləyib.

**5-2.3.1. Tapşırıq ç (iş dəftəri).** Cavab: Qoçaqdır – sürüyə yalquzağı (canavarı) yaxın buraxmazdı; Vəfalıdır – sahibinin yolunu bir il gözləyir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fakt, hadisə və fikirləri mətnin abzas və hissələri üzrə strukturlaşdırır. | Tap. **a** (D.) |
| Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir. | Tap. **b**, **c** (İ.D.) |
| Mətndəki obrazları xarakterizə edir. | Tap. **ç** (İ.D.) |

## 4-cü dərs. Memar canlılar

• Dərslik: səh. 52

**Təlim məqsədləri**

**1.** Apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir **(st. 5-1.3.2).**

**Mövzuya yönəltmə**

Şagirdlərin diqqəti mövzuya yönəldilir:

*– Memarlıq sənəti haqqında nə bilirsiniz? Peşəkar bir memar olmaq üçün nə etmək lazımdır?*

**Araşdırma**

Şagirdlər bu dərsdə “Memar canlılar” mövzusunda təqdimat edəcəklər. Buna görə də müəllim şagirdləri qruplara bölür və tapşırıqda verilmiş mövzuları təqdim edir. Mövzuya uyğun məlumatlar və şəkillər əldə etməyi tapşırır. Təqdimata hazırlaşmaq üçün dərslikdə verilmiş təlimatı (səh. 52.) şagirdlərin nəzərinə çatdırır.

**Müəllimin nəzərinə!** Sinif təchizatından asılı olaraq şagirdlər bir gün öncə araşdırma aparıb təqdimata hazırlaşa bilərlər.

**Danışma**

**5-1.3.2. Tapşırıq a (dərslik). Qruplarla iş.** Qruplar topladıqları məlumatları müzakirə edirlər. Şagirdlərdən biri müzakirə zamanı vacib məlumatları vərəqdə qeyd edir. Daha sonra onları qruplaşdırıb təqdimat materialı hazırlayırlar.

Şagirdlərin təqdimat zamanı məlumatları ümumi mövzu (“Memar canlılar”) ilə əlaqələndirmələri tövsiyə olunur. Giriş cümlələri təxminən aşağıdakı kimi ola bilər.

**Giriş: 1)** Canlılar aləmində memar kimi tanınanlardan biri də termitdir. **2)** Pətəyin hazırlanması çox böyük möcüzədir. **3)** Canlı aləmdə tikinti ilə məşğul olan heyvanlardan biri də qunduzdur. **4)** Mükəmməl yuva hazırlayan quşlardan biri də çardaq quşudur.

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdə təqdimat bacarıqlarına yiyələnmişlər. Bu dərsdə diqqət şagirdlərin topladıqları məlumatları uyğun ardıcıllıqla (giriş, əsas və sonluq hissələr) təqdim etmələrinə yönəldilməlidir. Təqdimat verilən vaxta uyğun olmalıdır.

**Təqdimat materialı təxminən belə ola bilər:**

***Termit yuvası***

***Boyu:*** *1-2 sm.*

***Özəllikləri:*** *Qəsrə bənzər mürəkkəb quruluşlu yuva tikirlər. Yuvada toplum halında yaşayırlar. Toplum kral və kraliçadan, işçi və əsgərlərdən ibarət olur. Yuvanın içində tunellər, keçidlər, ventilyasiya sistemləri, xüsusi göbələk becərmə bağçaları və təhlükəsiz çıxışlar var.*

***Yuvanın hündürlüyü:*** *6-7 m.*
***Yuvanın materialı:*** *torpaq, ifraz etdikləri selik.*
***Mənbə:*** *Ensiklopediya, "dusunek.com" saytı.*

***<u>Çardaq quşunun yuvası</u>***

***Boyu:*** *Göyərçin boyda olur.*

***Özəllikləri:*** *Quş topladığı yüzlərlə incə budağı qarşı-qarşıya düzərək çardaq formasında yuva qurur. Çardağın qarşısına, əsasən, mavi rəngli əşyalar yığır. Bu əşyalar kəpənək qanadı, quş tükü, kağız-kuğuz və sairə ola bilər.*

***Yuvasının rəngi:*** *Müxtəlif rəngli bitkilərdən və onların suyundan istifadə edərək yuvasının divarlarını rəngləyir.*

***<u>Qunduz yuvası</u>***

***Həyat tərzi:*** *Yuvalarını, adətən, çay kənarında tikirlər. Məharətlə üzə və suyun dibinə baş vura bilirlər. Quruda isə nisbətən az hərəkət edirlər.*

***Yuvalarının özəllikləri:*** *Yuvaları iki hissədən ibarətdir. Yuvaya giriş suyun dibində olsa da, yaşayış otağı suyun üzərində yerləşir. Yuvalarının bu quruluşu onları təhlükədən qoruyur.*

*Suyun yuxarı mərtəbəni basmaması üçün bənd düzəldir, hər gün bəndlərin möhkəmliyini yoxlayır, zədələnmiş yerləri bərpa edirlər.*

***Bəndlərin tikintisi:*** *Qunduzların mişar kimi sərt və iti dişləri olur. Onlar dişləri ilə ağacları dibindən kəsib suya yıxır, sonra gövdə və budaqları suyun dibinə basdırırlar. Qamış, daş və palçıqdan istifadə edərək boşluqları doldururlar.*

***Yuvanın tikintisinə sərf olunan vaxt:*** *On metrlik bəndin tikintisi üçün qunduz ailəsinə cəmi bir həftə vaxt kifayət edir.*

***Ən böyük qunduz yuvası:*** *Amerikanın Montana ştatında yerləşən çayda qunduzlar tərəfindən 700 metr uzunluğunda bənd tikilib. Hazırda bu, məlum olan ən böyük qunduz bəndidir.*

***Mənbə:*** *Uşaq bilik portalı.*

***<u>Arı pətəyi</u>***

***Pətəyin forması:*** *Bir-birindən fərqlənməyən altıbucaqlı xanalardan ibarət olur.*

***Hazırlanması:*** *Pətək eyni anda 2-3 arı tərəfindən yuxarıdan aşağıya doğru hörülür. Hər bir arının müstəqil hazırladığı hissələr bir-biri ilə mükəmməl şəkildə birləşdirilir. Hazır pətəyin birləşmə yerlərini müəyyən etmək mümkün olmur.*

***Pətəkdəki xanaların sayı və ölçüsü:*** *Pətəyin eyni ölçülü yüzlərlə xanası olur.*

***Kiçik bir eksperiment:*** *Bir vərəqdə bir neçə küncdən başlayaraq altıbucaqlılar çəkək və səhifənin ortasında bu altıbucaqlıları birləşdirməyə çalışaq. Lakin elə edək ki, heç bir birləşmə nöqtəsi bilinməsin. Ən əsası da bunu xətkeş və pərgardan istifadə etmədən və heç bir hesablama işi aparmadan etməyə çalışaq. Bunun çox çətin olduğunu, hətta mümkün olmadığını görəcəyik.*

***Mənbə:*** *Vikipediya.*

**Müəllimin nəzərinə!** Təqdimat materialı "PowerPoint" proqramında slaydlar formasında da yığıla bilər. Hər yarımbaşlıq bir slaydda əhatə olunmalı, müvafiq şəkil və dizaynla səliqəli şəkildə yığılmalıdır. Hər bir slaydda təqdim olunan məlumatın yığcam şəkildə ifadə olunması tövsiyə edilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir. | Tap. **a** (D.) |

## 5-ci dərs. Ahəng qanunu. İki və dörd cür yazılan şəkilçilər

• Dərslik: səh. 53 • İş dəftəri: səh. 48

**Təlim məqsədləri**

**1.** Sözün ahəng qanununa tabe olub-olmamasını müəyyənləşdirir **(st. 5-4.1.1).**

**2.** İki və dörd cür yazılan şəkilçilərin yazılış qaydasını izah edir **(st. 5-4.1.1).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti sözdəki saitlərin qalın və ya incə olmasına yönəldilir.

### Dil qaydaları

**5-4.1.1. Tapşırıq b (dərslik).** Ahəng qanunu barədə biliklərin xatırlanmasına yönəldilmişdir.

İş dəftərindəki **a** və **b** tapşırıqları ahəng qanunu haqqında biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq a (iş dəftəri).** <u>Cavab</u>: b

**Tapşırıq b (iş dəftəri).** <u>Cavab</u>: **1. şeir** – sözlərin nizamla, müəyyən qayda ilə düzüldüyü əsər; **2. həkim** – müayinə və müalicə edən şəxs; **3. həyət** – adətən, evin qabağında ətrafı hasara alın-

mış sahə; **4. məktəb** – təlim-tərbiyə müəssisəsi.

**Tapşırıq c (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərin diqqəti iki və dörd cür yazılan şəkilçilər mövzusuna yönəldilir.

Tapşırıq yerinə yetirildikdən sonra şagirdlər şəkilçilərdə saitin necə dəyişildiyini təxminən belə şərh edə bilərlər:

– *Heyvanın* sözündəki *-ın* şəkilçisini *qunduz* sözünə əlavə edə bilmirik, çünki bu sözdəki son sait qalın olmaqla yanaşı, həm də dodaqlanandır. Qunduz sözünə *-un* şəkilçisi əlavə edilməlidir.

**"Yadda saxla" rubrikası.** Müəllim rubrikadakı məlumatları nümunələr əsasında şərh edir.

**Tapşırıq ç (dərslik).** Tapşırıq həm öyrədici, həm də tətbiqi xarakter daşıyır.

Cavab:

İki cür yazılan şəkilçilərin tərkibində **a, ə** saitləri, dörd cür yazılan şəkilçilərin tərkibində **ı, i, u, ü** saitləri iştirak edir.

Müəllim şagirdlərdən bu saitlərin açıq, yoxsa qapalı olmasını soruşmaqla şagirdlərin 1-ci bölmədə öyrəndikləri bilgiləri xatırlada bilər.

**Tapşırıq d (dərslik).** Cavab:

dad+sız$^4$, oyun+çu$^4$+dan$^2$, yaxın+laş$^2$+dı$^4$, meydan+ça$^2$+lar$^2$+ın$^4$, cəsarət+li$^4$+dir$^4$ və s.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

ord**u**d**a** – qalın, dodaqlanan saitlərdir.

metr**o**n**u**n – qalın saitlərdir.

g**ü**n**ə**ş**i**n – incə, dodaqlanmayan saitlərdir.

**ö**k**ü**z**ə** – incə saitlərdir.

**Tapşırıq ç (iş dəftəri)**

Cavab: **-ır$^4$** – keçir, qorxur, sürüşür; **-sız$^4$** – xalçasız, meyvəsiz, qanunsuz, südsüz; **-dır$^4$** – yaxındır, gecdir, oyundur, közdür; **-ın$^4$** – otağın, tənbəlin, noğulun, söyüdün.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün ahəng qanununa tabe olub-olmamasını müəyyənləşdirir. | Tap. **b** (D.), tap. **a, b** (D.) |
| İki və dörd cür yazılan şəkilçilərin yazılış qaydalarına riayət edir. | Tap. **c, ç, d** (D.), tap. **c, ç** (D.) |

# 4-cü fəsil

## 1-ci dərs. Meşə simfoniyası

• Dərslik: səh. 54-56 • İş dəftəri: səh. 49

**Təlim məqsədləri**

**1.** Kontekstdən çıxış edərək mətndə tanış olmayan sözün mənasını müəyyən edir **(st. 5-2.1.3).**

**2.** Müxtəlif janrları səciyyələndirən bədii təsvir və ifadə vasitələrini müəyyən edir **(st. 5-2.3.4).**

**3.** Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir və ya genişləndirir **(st. 5-2.3.6).**

**4.** Oxuduğu mətni plan əsasında nəql edir **(st. 5-1.3.1).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Müəllim yönəldici suallarla şagirdləri mövzu ətrafında söhbətə cəlb edir:

– *Hansı dağlarda, meşələrdə olmusunuz? Həmin ərazidə çaylar, göllər var idimi? Siz orada olanda hava necə idi? Həmin yerlərdə hansı çətinliklərlə rastlaşmısınız? Çayın şırıltısı, göy gurultusu, yağışın səsi, meşədəki quşların səsləri və s. sizdə necə təəssürat yaradıb?* və s.

Şagirdlərdə dərsin mövzusuna maraq oyatmaq və xoş ovqat yaratmaq üçün təbiət mənzərəsinə və təbiətdə eşidilən səslərə aid videoçarxın nümayiş etdirilməsi tövsiyə olunur. Aşağıdakı linkdən istifadə oluna bilər:

https://www.youtube.com/watch?v=FEicFW7welU

### Oxu. Söz ehtiyatı

**5-2.1.3. "Meşə simfoniyası" mətni. Təxminetmə.** Şagirdlər əvvəlcə başlıqdan və illüstrasiyadan çıxış etməklə mətnin mövzusunu və məzmununu təxmin edirlər. Bu üsul şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirər, həmçinin mətnin oxunmasına maraq oyadar.

Mətn hissələrlə oxunur və hər hissədən sonra hadisələrin davamı təxmin edilir.

Mətnin oxunması zamanı şagirdlər tanış olmayan sözləri qeyd edir və oxu bitdikdən sonra "söz boğçası" və digər sözlər üzərində iş aparılır. Şagirdlər kontekstdən çıxış edərək tanış olmayan söz və ifadələrin təxmini mənasını söyləyirlər. Sonra müəllimin və ya izahlı lüğətin köməyi ilə həmin söz və ifadələrin mənası dəqiqləşdirilir.

**Müəllimin nəzərinə!** Mətndə işlənmiş *simfoniya, arfa* və *təbil* sözlərinin növbəti tapşırıqda şərh ediləcəyi nəzərə alınmalıdır.

**Tapşırıq b (dərslik).** Şagirdlər mətndə *arfa, təbil* və *simfoniya* sözlərinin işləndiyi cümlələri tapıb oxuyurlar.

**5-2.3.4. Tapşırıq c (dərslik).** Şagirdlər bənzətmələri təxminən belə şərh edə bilərlər:

*Mətndə ildırım təbillərə bənzədilir. Çünki ildırım çaxanda göy guruldayır, sanki təbil çalınır.*

*Yağışın səsi arfada ifa olunan musiqiyə bənzədilir. Yağış damcılarının göydən yerə davamlı düşməsi arfanın simləri kimi görünür.*

*Simfoniya eyni anda müxtəlif alətlərdə çalınan böyük musiqi əsəridir. Təbiətdə eyni anda müxtəlif hadisə və varlıqların ətrafa səs yayması (küləyin əsməsi, ağacların səsi, yağışın yağması, otların xışıltısı və s.) simfoniyaya bənzədilir.*

Tapşırığın ikinci mərhələsi şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirir. Müəllim yönəldici suallar verməklə onları düşünməyə sövq edə bilər:

– *Hansı canlıları təbiətin nağməkarı hesab etmək olar?* (quş, cırcırama, qurbağa, canavar və s.)

– *Çayların şırıltısını hansı musiqi alətinin ifasına bənzədərsiniz?*

**5-2.1.3. Tapşırıq a (iş dəftəri).** Cavab:

**füsunkar** – valehedici, heyranedici, əfsanəvi.

**tala** – *Onlar talada sərin bulaq tapdılar.*

**ehmalca** – yavaş-yavaş, sakitcə, astadan, ehtiyatla. *Ana yatmış körpəni ehmalca qucağına aldı.*

**Tapşırıq b (iş dəftəri).** Cavab: Çay şırıldayır, yarpaqlar xışıldayır, göy guruldayır, külək vıyıldayır, ağaclar cırıldayır, yağış çadırı döyəcləyir.

Müəllim dilimizdə təqlidi yolla yaranan sözlər haqqında qısa məlumat verməklə şagirdlərin dil duyumunun inkişafına kömək edə bilər.

**5-2.3.4. Tapşırıq c (iş dəftəri). Şərh:** "Cırtdan" nağılının baş qəhrəmanı yoldaşları ilə meşəyə odun yığmağa gedir. Ancaq odun şələsini daşıya bilmir. Yorulub ağlayır. Onun əvəzinə odun şələsini yoldaşları daşıyır.

**Müəllimin nəzərinə!** Şifahi və yazılı nitq zamanı hər hansı əsərdən, filmdən nümunə gətirmək nitqi zənginləşdirir, ifadə təsirini gücləndirir. Bunu şagirdlərin diqqətinə çatdırmaq tövsiyə olunur.

**5-2.3.6. Tapşırıq ç (dərslik).** Şagirdlər günəşli yay səhərində meşə simfoniyasının necə səslənə biləcəyini xəyallarında canlandıraraq təsvir edirlər.

**Tapşırıq ç (iş dəftəri).** Dialoq təxminən belə qurula bilər:

– *Hara getmişdin?*

– *Atamla dağda idim. İki gün orada qaldıq.*

– *Oralar necə idi? Təbiəti gözəldirmi?*

– *Çox gözəl idi. Meşədəki talada çadır qurduq. Yaxınlıqdan çay axırdı. Çayın şırıltısı, quşların səsi, güllərin ətri adamı valeh edirdi.*

**Danışma**

**5-1.3.1. Tapşırıq d (dərslik).** Atanın dilindən nəqletmə təxminən belə ola bilər:

*Yazda mən dostlarımla tez-tez təbiət qoynuna çıxırdım. İki-üç gün səyahət edirdik. Bu müddətdə oğlum məni səbirsizliklə gözləyirdi. Çox istəyirdi ki, onu da özümlə aparım. Ancaq balaca idi. Dağa xeyli yolu piyada qalxmaq, çadırda yaşamaq, odun toplayıb ocaq qalamaq və s. işlər onun üçün çətin olardı...*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş şəklin və izahın aid olduğu sözü müəyyən edir. | Tap. **b** (D.), tap. **a**, **b** (İ.D.) |
| Bədii mətndə işlənən bənzətmələri şərh edir. | Tap. **c** (D.), tap. **c** (İ.D.) |
| Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir. | Tap. **ç** (D.), tap. **ç** (İ.D.) |
| Mətni tərtib etdiyi plan əsasında nəql edir. | Tap. **d** (D.) |

## 2-ci dərs. Təbiət düşünür

• Dərslik: səh. 56 • İş dəftəri: səh. 50

**Təlim məqsədləri**

**1.** Mətni oxuyarkən sözləri düzgün tələffüz edir və məzmuna uyğun səs tonu seçir **(st. 5-2.1.1).**
**2.** Müxtəlif janrları səciyyələndirən bədii təsvir və ifadə vasitələrini müəyyən edir **(st. 5-2.3.4).**
**3.** Təsviri xarakterli mətn yazır **(st. 5-3.2.2).**

### Mövzuya yönəltmə

Müəllim “Meşə simfoniyası” mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

– *Oğlan meşədə olarkən gecə nə üçün yata bilmirdi? O nədən qorxurdu? Ata təbiət simfoniyası deyəndə nəyi nəzərdə tuturdu?* və s.

### Oxu

**5-2.1.1. Tapşırıq a (dərslik).** Şagirdlər onlara verilən vaxt ərzində şeiri səssiz oxuyurlar. Şeiri necə səsləndirəcəklərini müəyyənləşdirirlər. Daha sonra növbə ilə şeiri müvafiq intonasiya və ritmlə səsləndirirlər.

Oxu prosesi bitəndən sonra şeirin 2-ci bəndinin “Meşə simfoniyası” mətnindəki peyzajla səsləşdiyini müəyyənləşdirirlər. Şeirin müəllifi bildirir ki, təbiət qoynunda tar, kaman, qavala ehtiyac yoxdur. Təbiətin özünün nəğməsi də, nəğməkarı (buludları yara-yara uçan qartal) da var.

**5-2.3.4. Tapşırıq b (dərslik).** Şagirdlər lilpar gülünün şəklinə baxıb bu qənaətə gəlirlər ki, lilpar sulu ərazilərdə bitir. Lilpar bitkisinin varlığı həmin yerlərdə suyun bol olduğuna işarədir. Ona görə də təbiət qoynuna çıxanın özü ilə suqabı (dolça) götürməsinə ehtiyac qalmır.

**Tapşırıq c (dərslik).** Şagirdlər şeirdə təsvir edilmiş bənzətmələri seçib şərh edirlər:

– *Çəmən yerə sərilən xalça kimi yumşaqdır.*

– *Təbiət qoynunda eşidilən səslər tar, kaman, qaval səsinə, quşlar isə nəğməkara bənzədilir.*

– *Şəffaf suyu olan göl güzgüyə bənzədilir. Gölə baxanda adam öz əksini görür.*

– *Şimşək mayaka bənzədilir. Gecə vaxtı çaxan şimşək mayak kimi işıq saçır.*

– *Sağlamlığa faydalı olan çiçəklər isə dərmanı əvəz edir.*

### Yazı

**5-3.2.2. Tapşırıq a (iş dəftəri).** Şagirdlər təbiət mənzərəsini təxminən belə təsvir edə bilərlər:

*Sərin bir payız səhəridir. Günəş üfüqdən yenicə boylanır, şüaları ilə təbiəti gözəlləşdirir. Ağacların üzərinə düşən işıq onları daha da cazibədar edir. Burada təbiət min bir rəngə boyanıb. Sarı, qızılı, narıncı, qırmızı rənglər göz oxşayır. Bəzi ağaclar isə yaşıl donunu hələ də soyunmayıb.*

*Çayın şırıltısı, civildəşən quşların səsi, arabir əsən mehin təsirindən otların, xəzəlin xışıltısı adamın ruhunu dincəldir.*

**Tapşırıq b (iş dəftəri). *Nümunə:***

Məncə, peyzaj yaratmaq üçün söz daha geniş imkanlara malikdir. Məsələn, “Təbiət düşünür” şeirini oxuduqca sanki gözlərimiz önündə təbiət mənzərəsi canlanır. Sanki torpağın ətrini duyursan, buz bulaqlardan su içirsən, havanın sərinliyindən üşüyürsən, qartalların uçuşundan, nəğməkar quşların səsindən valeh olursan.

Bütün bunları oxucuya hiss etdirmək üçün söz daha güclü vasitədir.

***Və yaxud:***

Məncə, təbiəti fırça ilə daha yaxşı canlandırmaq olar. Təbiətin gözəlliyi onun rənglərindədir. Rəngləri təsvir etmək üçün isə fırça daha güclü vasitədir. Məsələn, rəssam Rafiq Mehdiyevin yuxarıdakı peyzajı bunu təsdiq edir. O elə rəng tonlarından istifadə edib ki, sanki rəsmə deyil, gerçək təbiətə boylanırsan.

**Müəllimin nəzərinə!** Sinfin səviyyəsini nəzərə alaraq əvvəlcə tapşırıq üzrə şifahi müzakirə təşkil etmək olar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmununa uyğun səs tonu seçir. | “Təbiət düşünür” şeiri |
| Mətnin bədii, poetik xüsusiyyətlərini müəyyənləşdirir və onların ekspressiv təsirini izah edir. | Tap. a, b, c (D.) |
| Təsviri xarakterli mətn yazır. | Tap. a (İ.D.) |
| Şəxsi mövqeyini bildirməklə kiçikhəcmli mətn yazır. | Tap. b (İ.D.) |

## 3-cü dərs. Təbiəti düşünək

• Dərslik: səh. 56

**Təlim məqsədləri**

**1.** Mövzu ilə bağlı şəxsi mövqeyini bildirmək üçün esse yazır (st. 5-3.2.2).

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini “Təbiət düşünür” şeirinin son iki misrasına yönəldir və həmin misraları şərh etməyi tapşırır:

*– Şair nə üçün insanları təbiəti düşünməyə səsləyir? "Təbiət özü hər şeyi düşünür" deməklə nəyi nəzərdə tutur?*

**Yazı**

**5-3.2.2. Tapşırıq a (dərslik).** Yazı fəaliyyətinə başlamazdan əvvəl müəllim yönəldici suallardan istifadə edə bilər:

*– Sağlam ətraf mühitdə yaşamaq üçün nə etməliyik? Parkların, yaşıllıqların salınması nə üçün vacibdir? Ağaclar, meşələr təbiətdə suyun dövranına necə təsir göstərir? Təbiətin çirkləndirilməsinin canlıların yaşaması üçün hansı mənfi təsirləri var?*

Şagirdlər yazı işində bölmə boyunca oxuduqları, dinlədikləri mətnlərdən nümunələr gətirməklə fikirlərini əsaslandırmalıdırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu ilə bağlı şəxsi mövqeyini bildirmək üçün esse yazır. | Tap. a (D.) |

## 4-cü dərs. Mürəkkəb sözlərin yazılışı

• Dərslik: səh. 57 • İş dəftəri: səh. 51

**Təlim məqsədləri**

**1.** Mürəkkəb sözün komponentləri arasındakı məna əlaqəsindən çıxış edərək onun düzgün yazılışını müəyyən edir **(st. 5-4.1.6).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər 4-cü sinifdə mürəkkəb sözlər və söz birləşmələri haqqında məlumat alıblar. Müəllim yönəldici suallarla şagirdlərin bu mövzuda bilgilərini xatırlamağa, həm də tapşırığı yerinə yetirməyə yardımçı ola bilər:

Cavab: **b.** Ana qonaqlıqdan sonra **qabyuyan** maşını işə saldı.

**b.** Sərçə, **sarıköynək** və qaranquşların səsi bir-birinə qarışmışdı.

Tapşırıq vasitəsilə şagirdlər söz birləşməsindən fərqli olaraq mürəkkəb sözün bir anlayış ifadə etməsini mənimsəyirlər.

**Dil qaydaları**

**5-4.1.6. Tapşırıq b (dərslik).** Cavab:

1 – c; 2 – a; 3 – b; 4 – d.

**Tapşırıq c (dərslik).** *Gözütox* sözü bitişik yazılır. Çünki müxtəlifmənalı sözlərin birləşməsindən yaranıb.

*Səs-küy* defislə yazılır. Çünki yaxınmənalı sözlərin birləşməsindən yaranıb.

**Tapşırıq ç (dərslik).** Cavab:

– İki eyni sözün ortasına *a, ha, ba, bə* artırdıqda yaranan mürəkkəb söz bitişik, digər hallarda defislə yazılır.

**Tapşırıq d (dərslik).** Şagirdlərin diqqəti verilmiş mürəkkəb sözlərin tərkibindəki sözlərə yönəldilir. Şagirdlər həmin sözlərin bildirdiyi ümumi mənanı müəyyənləşdirirlər: süd-qatıq (süd məhsulları), çəngəl-bıçaq (yemək ləvazimatları), qoyun-keçi (ev heyvanı).

**"Yadda saxla" rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edərək şagirdlərə yaxınmənalı sözlərin birləşməsindən əmələ gələn mürəkkəb sözlər barədə daha ətraflı məlumat verir.

**Tapşırıq e (dərslik).** Cavab:

Bitişik yazılanlar: ipəkqurdu; hazırcavab; aybaay; ağacdələn; suiti; gethaget; balıqqulağı.

Defislə yazılanlar: tez-tez; dost-tanış; dil-dodaq; gediş-gəliş; şimal-şərq.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 1-ci sütun: gecə-gündüz; 2-ci sütun: Göygöl; 3-cü sütun: söz-söhbət; 4-cü sütun: baş-ayaq.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

**düzbucaq** – müxtəlifmənalı sözlərin birləşməsi ilə yaranan mürəkkəb sözlər bitişik yazılır.

**yarımada** – müxtəlifmənalı sözlərin birləşməsi ilə yaranan mürəkkəb sözlər bitişik yazılır.

**topa-topa** – eyni sözün təkrarı ilə əmələ gələn mürəkkəb sözlər defislə yazılır.

**balqabaq** – müxtəlifmənalı sözlərin birləşməsi ilə yaranan mürəkkəb sözlər bitişik yazılır.

**irəli-geri** – əksmənalı sözlərin birləşməsi ilə yaranan mürəkkəb sözlər defislə yazılır.

**əzab-əziyyət** – yaxınmənalı sözlərin birləşməsi ilə yaranan mürəkkəb sözlər defislə yazılır.

**Tapşırıq c (iş dəftəri).** Tapşırıq şagirdlərin mürəkkəb sözlərin yazılışı ilə bağlı bilik və bacarıqlarını yoxlamaq imkanı verir.

Cavab: 1) açıqsözlü, açıq-aşkar, açıqfikirli, açıq-aydın, açıqgözlü; 2) isti-isti, istiot, istiqanlı,

isti-soyuq; 3) ürəyiaçıq, ürəyiyumşaq, ürəyigeniş, ürəyitəmiz.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb sözlərin tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək onların düzgün yazılışını müəyyən edir. | Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar |

## Ümumiləşdirici təkrar

• Dərslik: səh. 58-59 • İş dəftəri: səh. 52

**Təlim məqsədləri**

**1.** Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**

**2.** Sözün morfoloji tərkibini və quruluşca növünü müəyyən edir **(st. 5-4.2.1).**

**3.** İki və dörd cür yazılan şəkilçilərin yazılış qaydalarına riayət edir **(st. 5-4.1.1).**

**4.** Mürəkkəb sözlərin bitişik və ya defislə yazılış qaydalarına riayət edir **(st.5-4.1.6).**

### Mövzuya yönəltmə

Müəllim sinkveyn üsulundan istifadə edərək "Ana təbiət" bölməsi üzrə ümumiləşdirmə apara bilər.

### Oxu

**5-2.2.1. Tapşırıq 1 (dərslik).** Tapşırığın kollektiv şəkildə yerinə yetirilməsi tövsiyə olunur.

Şagirdlər mətndəki hadisələr arasında səbəb və nəticə əlaqəsini müəyyənləşdirməklə mətndəki faktoloji məlumatları qavradıqlarını nümayiş etdirirlər.

1. Kirpi yağışlı havada sevinirdi, çünki soxulcan, böcək, ilbizi asanlıqla tapa bilərdi.
2. Kirpi həyəcanlandı, çünki qarşıdan qış gəldiyini eşidib ac qalacağını düşündü.
3. Kirpi heyvanları izləməyə başladı, çünki vəziyyətdən çıxış yolu tapmaq istəyirdi.
4. Kirpi yuxudan oyananda ətrafa baxıb gülümsədi, çünki artıq bahar gəlmişdi.

**5-2.2.1. Tapşırıq 2, 3, 4 (dərslik).** Tapşırıqlar şagirdlərin fikrini əsaslandırmaq bacarığını inkişaf etdirir.

Qarğanın Kirpidən daha ağıllı olması fikrini (**2-ci tap.**) belə əsaslandıra bilərlər:

Bu mətndə göstərilir ki, Qarğa ilbizin çanağını sındırmaq üçün onu qayaya çırpır və içərisindəki ilbizi yeyir.

**Müəllimin nəzərinə!** Şagirdlərə bu bölmədə oxuduqları "Ağıllı canlılar" mətnini xatırlatmaq olar. Bu mətndə zəka göstəricilərindən biri alətdən istifadə etmək bacarığı hesab olunur.

Kirpilərin noyabrdan marta qədər qış yuxusuna getməsi fikrini (**3-cü tap.**) təxminən belə əsas-

landırırlar:

*Mətndəki hadisələr: Kirpinin Qarğa ilə söhbəti, Kirpinin qışı keçirmək üçün çıxış yolu axtarması payızın sonları baş verir. Mətnin sonluğunda isə Kirpinin yuxudan bahar fəslində oyandığı göstərilir.*

*Şagirdlər **4-cü tapşırıqda** verilmiş fikirlərin düzgün, yoxsa yanlış olduğunu müəyyənləşdirir və seçimlərini mətndən nümunələr gətirməklə əsaslandırırlar:*

Cavab: 1. Düzgün fikirdir. Mətndə göstərilir ki, Kirpi qorxub yumağa döndü.

2. Yanlış fikirdir. Mətndə göstərilir ki, Kirpi axşam düşən kimi yem axtarışına çıxdı.

3. Düzgün fikirdir. Mətndə göstərilir ki, Kirpi çoxlu yarpaq toplayıb üst-üstə yığdı. Yorulub yarpaqların üstündə yatmaq istədi.

4. Yanlış fikirdir. Mətndə Qarğa Kirpiyə qış vaxtı qurd, ilbiz, böcək tapmağın çətin olacağını söyləyir.

Dərslikdə təqdim edilmiş **5-11**-ci tapşırıqlar sözlərin quruluşca növləri, şəkilçilərin növləri və yazılışı üzrə qazanılmış biliklərin möhkəmləndirilməsinə yönəlib.

**5-4.2.1. Tapşırıq 5 (dərslik).** Cavab: peşə-karlıq, tanı-ş-lıq, yor-ucu və s.

**Tapşırıq 6 (dərslik).** Cavab: 1-ci sıra: qarmaq; 2-ci sıra: barış; 3-cü sıra: kələk; 4-cü sıra: balıq.

**Tapşırıq 7 (dərslik).** Cavab:

**Yalnız qrammatik şəkilçili sözlər:** çiyələklərdən, dərib, yedi, səbətinə, baxdı, meyvələri.

**Yalnız leksik şəkilçili sözlər:** dadlı, ləzzətlə, dolu.

**Həm leksik, həm qrammatik şəkilçisi olan sözlər:** fikirləşdi, yoldaşları, paylaşsın.

Tapşırıq yerinə yetirildikdən sonra qrammatik şəkilçilərin cümlədə sözlər arasında əlaqə yaratmasını şagirdlərin bir daha diqqətinə çatdırmaq faydalı olar.

**5-4.1.1. Tapşırıq 8 (dərslik).** Şagirdlər şəkilçiləri funksiyasına görə fərqləndirməklə yanaşı, həmçinin şəkilçilərin iki və dörd cür yazılışını müəyyənləşdirirlər.

Şagirdlərə leksik şəkilçi vasitəsilə yaranan sözün mənasını izah etməyi tapşırmaq olar. Bununla diqqəti leksik şəkilçilərin söz yaradıcılığındakı roluna yönəltmək olar.

**5-4.1.6. Tapşırıq 9, 11 (dərslik).** Şagirdlərin mürəkkəb sözlərin yazılış qaydalarını mənimsədikləri yoxlanılır.

Cavab: **1.** toz-torpaq, toz-duman, tozsoran; **2.** ac-susuz, acgöz, acqarına; **3.** daşürəkli, daşdivar, daş-qaş.

Cavab: səs-küy; günorta; başıqarlı; açıq-aşkar; dəftər-kitab; açıqürəkli; ağlabatan; sülhsevər; var-dövlət; dərə-təpə; külqabı; aşsüzən; az-çox.

İş dəftərindəki **1-5-ci tapşırıqlar** sözün morfoloji tərkibinin müəyyən edilməsi üzrə möhkəmləndirmə məqsədi daşıyır.

İş dəftərindəki **5-ci** tapşırıq nisbətən çətindir. Bu tapşırıq şagirdlərin yaradıcı və məntiqi təfəkkürünü inkişaf etdirir. Müəllim sinfin səviyyəsindən asılı olaraq şagirdlərə 1-ci sıranı nümunə olaraq izah edə bilər:

*– 1-ci sırada verilmiş üç söz quruluşca sadədir, ona görə də sıranı tamamlamaq üçün sadə söz əlavə olunmalıdır. Məsələn, armud.*

Sıralar üzrə məntiqi ardıcıllıq belədir: *Sadə, düzəltmə, mürəkkəb, sadə, düzəltmə, mürəkkəb.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir. | Tap. **1** (D.) |
| Mətndəki məlumatları müqayisə etməklə gəldiyi nəticələri əsaslandırır. | Tap. **2**, **3**, **4** (D.) |
| Sözün morfoloji tərkibini, quruluşca növünü müəyyən edir. | Tap. **5**, **6**, **7**, **10** (D.), tap. **1**, **2**, **3**, **4**, **5** (İ.D.) |
| İki və dörd cür yazılan şəkilçilərin yazılış qaydalarına riayət edir. | Tap. **8** (D.) |
| Mürəkkəb sözlərin tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək onların düzgün yazılışını müəyyən edir. | Tap. **11** (D.) |

bölmə 4

# NİYƏ BELƏ DEYİRİK?

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Qədim yunan sözləri | Oxuyub-anlama | 60-61 | 54 | 97-98 |
| 2 | Qədim yunan sözləri | Danışma | 62 | - | 98 |
| 3 | Qədim yunan sözləri | Dinləmə | 62 | 55 | 98-100 |
| 4 | Qədim yunan sözləri | Yazı | 62 | 56 | 100-101 |
| 5 | Alınma sözlər və şəkilçilər | Dil qaydaları (Leksika) | 63 | 57 | 101 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Hacı Qara | Oxuyub-anlama | 64-65 | 58 | 102-103 |
| 2 | Poçt qutusu | Danışma. Dinləmə. Yazı | 66 | 59 | 103-104 |
| 3 | Rəmzə çevrilmiş adlar | Yazı. Danışma | 66 | 60 | 104-106 |
| 4 | Sinonimlər və antonimlər | Dil qaydaları (Leksika) | 67 | 61 | 106-107 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Onlar kimdir? | Oxuyub-anlama. Yazı | 68-69 | 62 | 108-109 |
| 2 | Qordi düyünü | Oxuyub-anlama | 69-70 | 63 | 109-110 |
| 3 | Təqdimat | Yazı. Danışma | 70 | - | 110-111 |
| 4 | Birgünlük xəlifə | Dinləmə | 70 | 64 | 111-112 |
| 5 | Sözün sətirdən sətrə keçirilməsi | Dil qaydaları (Orfoqrafiya) | 71 | 65 | 112 |
| **4-cü fəsil** | | | | | |
| 1 | Bəs zınqırovu kim asacaq? | Oxuyub-anlama | 72-73 | 66 | 113 |
| 2 | İlanın yarpızdan zəhləsi gedir? | Oxuyub-anlama | 73-74 | 67 | 113-114 |
| 3 | Gəmiləri yandırmaq | Dinləmə. Yazı | 74 | 68 | 114-115 |
| 4 | Lüğətdən istifadə | Dil qaydaları (Leksika) | 75 | 69 | 115-116 |
| 5 | Ümumiləşdirici təkrar | Oxuyub-anlama. Dil qaydaları | 76-77 | | 116-117 |
| | I yarımil üzrə ümumiləşdirici təkrar | Dinləmə. Dil qaydaları | | 69-71 | 118 |

# 1-ci fəsil

## 1-ci dərs. Qədim yunan sözləri

• Dərslik: səh. 60-61 • İş dəftəri: səh. 53

**Təlim məqsədləri**

**1.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**2.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**3.** Mətndəki faktlardan istifadə etməklə müəllifin birbaşa ifadə etmədiyi fikirləri müəyyənləşdirir **(st. 5-2.2.2).**

**4.** Mətni oxuyarkən rast gəldiyi yeni söz və ya ifadəni cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir **(st. 5-2.1.3).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir:

– Sizcə, bu bölmədə nə haqda danışılacaq?

– Bu bölmə sizin diqqətinizi cəlb etdimi? Nə üçün?

**Danışma**

**5-1.2.2. Tapşırıq a (dərslik).** Müəllim lövhədə BİBÖ cədvəli çəkir:

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |

Şagirdlər Qədim Yunanıstan, qədim yunan alimləri və qəhrəmanları haqqında bildiklərini, bilmək istədiklərini cədvəldə qeyd edirlər.

**Oxu**

**"Qədim yunan sözləri" mətni üzrə iş.** Şagirdlər mətni səssiz oxuyurlar. **"Qlossari"** rubrikasında verilmiş sözlərin mənası ilə tanış olurlar.

**Oxuyub-anlama**

**5-2.1.2. Tapşırıq b (dərslik).** Şagirdlər fikirlərin doğru və ya yanlış olduğunu müəyyən etməklə yanaşı mətndən müvafiq cümlələri oxumaqla fikirlərini əsaslandırırlar.

Cavab: doğru; yanlış; yanlış; doğru; doğru.

**Tapşırıq c (dərslik).** Şagirdlərin cavabı təxminən belə ola bilər:

Böyük yunan alimi Aristotel öz gimnaziyasını yaratmışdı. O, Afina sakini deyildi, buna görə də Afinada ev və torpaq almaq hüququ yox idi. Bu səbəbdən onun açdığı məktəb şəhərdən kənarda yerləşirdi. Onun açdığı məktəb "Likey" adlanırdı.

Məşhur alim Platon "akademiya" adlanan təpədə öz məktəbini yaratmışdı. Məktəb yerləşdiyi təpəciyin adı ilə "Akademiya" adlandırıldı. Bu məktəb dünyada ilk ali təhsil ocağı sayılır.

**Tapşırıq a (iş dəftəri).** Cavab: d

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər mətnə istinad etməklə cədvəli tamamlayırlar.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

1. Qədim Yunanıstan elmin beşiyi sayılır, çünki *bir çox elm sahələri məhz burada yaranmışdır.*

2. Yunanlar hesab edirdilər ki, insan həm əqli, həm də fiziki cəhətdən inkişaf etməlidir, ona görə də *gimnaziyada təlim-tərbiyə yalnız fiziki və hərbi məşqlərlə məhdudlaşmırdı.*

3. Aristotelin məktəbi Afinanın kənarında yerləşirdi, çünki *o, Afina vətəndaşı deyildi, buna görə də Afinada ev və torpaq almaq hüququ yox idi.*

**5-2.2.2. Tapşırıq ç (dərslik). Şagirdlər təxminən belə cavab verə bilərlər:**

Mətnin məqsədi elm və təhsillə bağlı bir çox sözlərin yunan dilində yarandığı və sonradan başqa dillərə keçməsi haqqında məlumat verməkdir. Müəllif gimnaziya, lisey, akademiya sözlərinin mənşəyini izah etməklə fikrini əsaslandırır.

**Tapşırıq d (dərslik).** Şagirdlər fikirlərini təxminən belə əsaslandıra bilərlər: Məsələn, "gimnaziya" sözü yunanca "gymnasium", yəni "çılpaq halda məşq etmək üçün yer" adlanırdı. Qədim yunan dilindən tərcümədə "likiya" sözü "canavarları məhv edən" deməkdir. "Likey" sözü illər keçdikcə "lisey"ə çevrildi. O vaxtdan bir çox ölkələrdə uşaqlar üçün təhsil ocaqları "lisey" adlandırıldı.

**Tapşırıq e (dərslik).** Qədim yunanlar fiziki tərbiyəyə çox diqqət yetirirdilər. Yeniyetmə və gənclərin fiziki hazırlığı üçün xüsusi yerlər ayrılırdı. Burada onlar idmanla yarıçılpaq məşğul olurdular ki, paltar bədənlərini narahat etməsin. Bu səbəbdən məşğələlərdə yalnız oğlanlar iştirak edirdilər.

**5-2.1.3. Tapşırıq ç (iş dəftəri).** Şagirdlər təxminən aşağıdakı məzmunda cümlələr yaza bilərlər:

Platon ritorika elmi ilə məşğul olub.

Etimologiya ilə məşğul olan alimlər sözlərin mənşəyini araşdırırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. **a** (D.) |
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırır. | Tap. **b**, **c** (D.), tap. **a**, **b**, **c** (İ.D.) |
| Mətni oxuyarkən rast gəldiyi yeni söz və ya ifadəni cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir. | Tap. **ç** (İ.D.) |
| Mətndəki faktlardan istifadə etməklə müəllifin birbaşa ifadə etmədiyi fikirləri müəyyənləşdirir. | Tap. **ç**, **d**, **e** (D.) |

## 2-ci dərs. Qədim yunan sözləri

• Dərslik: səh. 62

**Təlim məqsədləri**

**1.** Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir **(st. 5-2.3.3).**

**2.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim keçən dərsdə oxunmuş "Qədim yunan sözləri" mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

– Mətn nə haqda idi?

– Mətndən hansı sözlərin mənşəyi haqqında məlumat aldınız?

**Oxuyub-anlama**

**5-2.3.3. Tapşırıq a (dərslik).** Cavab:

1. Yunan alimləri haqqında məlumatlardan istifadə etməklə mətnin giriş hissəsini genişləndirmək mümkündür. "Böyük yunan alimləri biliklərini gənc nəslə ötürmək üçün öz məktəblərini yaradırdılar" cümləsindən sonra əlavə etmək mümkündür: Məsələn, Hippokrat təbabət, Pifaqor riyaziyyat, Herodot tarix, Arximed isə fizika elmi ilə məşğul olmuşdur.

2. Platon haqqında məlumatla "Akademiya" adlı yarımbaşlıqdakı məlumatları genişləndirmək mümkündür. Bu məlumatı "Platon özü də gimnaziya təhsili almışdı" cümləsindən sonra əlavə etmək olar.

3. Aristotel haqqında məlumatla "Lisey" adlı yarımbaşlıqdakı məlumatları genişləndirmək mümkündür. Bu məlumatı "Böyük yunan alimi Aristotel də öz gimnaziyasını yaratmışdı" cümləsindən sonra əlavə etmək olar.

**5-1.2.2. Tapşırıq b (dərslik).** Şagirdlər artıq ibtidai məktəbi bitirib orta məktəb mərhələsinə başlayıblar. Təhsilin mərhələləri (məktəbəqədər, ibtidai, orta, ali) haqqında müəyyən təsəvvürləri var. Beləliklə, şagirdlər şəxsi həyatlarına istinad etməklə bu sualı cavablandırırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir. | Tap. **a** (D.) |
| Həyatdan nümunələr gətirməklə fikrini əsaslandırır. | Tap. **b** (D.) |

## 3-cü dərs. Teatr

• Dərslik: səh. 62 • İş dəftəri: səh. 54

**Təlim məqsədləri**

**1.** Mətni dinləyərkən əsas faktları (adlar, tarixlər və s.) qeyd edir **(st. 5-1.1.1).**

**2.** Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını, apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir **(st. 5-1.3.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini mövzuya cəlb

etmək üçün aşağıdakı sualları verir:

– Hansı qədim yunan sözlərini tanıyırsınız?

– Bu sözlərin mənşəyi haqqında nə bilirsiniz?

**Dinləmə**

**5-1.1.1. Tapşırıq a (dərslik).** Müəllim dinləmə mətnini səsləndirir:

***Teatr***

*Miladdan öncə VI əsrdə Afinada açıq havada tamaşa göstərmək üçün ilk teatrlar tikildi. Yunan sözü olan "teatr" "tamaşa yeri" deməkdir. Xorun çıxış etdiyi yer "orkestr", aktyorların oynadığı yer "sçene", yəni "səhnə" adlanırdı.*

*Miladdan öncə V əsrin sonları – IV əsrdə bütün yunan şəhərlərində açıq havada tamaşa göstərmək üçün teatrlar tikilmişdi.*

*Azərbaycanda teatr sənətinin kökləri xalqın məişəti, adət- ənənələri ilə bağlıdır. Qədim tarixə malik "Novruz" mərasiminə aid "Kosa-kosa" oyunu teatr örnəklərimizdən biridir. Teatr tamaşasında xüsusi paltar geyinən, maska taxan aktyorlar iştirak edir.*

**Yaddaş xəritəsi təxminən bu məzmunda ola bilər:**

**Sözün mənası** – yunan mənşəlidir, "tamaşa yeri" mənasındadır.

**Yaranma tarixi** – e.ə. VI – V əsrlər.

**Azərbaycanda ilk teatr nümunələri** – "Kosa-kosa" oyunu.

**Tapşırıq a (iş dəftəri).** Dinləmə mətninin məzmununun necə mənimsənildiyini yoxlayır.

Cavab: 1. orkestr; 2. aktyor; 3. afina; 4. maska; 5. teatr.

**5-1.3.2. Tapşırıq b (dərslik).**

**Müəllimin nəzərinə!** Şagirdlərə bir gün əvvəlcədən araşdırma tapşırıla bilər. Sinif şəraitindən asılı olaraq şagirdlər onlayn lüğətlərdən (https://www.azleks.az/online-dictionary) və yaxud ənənəvi lüğətlərdən istifadə edə bilərlər.

Cavab:

**I qrupun sözləri:**

**Stadion** – yunan sözü "stadios" təsbit edilmiş, müəyyən olunmuş mənasını verirdi. Buna görə də müəyyən edilmiş məsafəni "stadion" adlandırırdılar. Olimpiya oyunlarında qaçış üçün nəzərdə tutulmuş ənənəvi olimpiya məsafəsi bir stadiona (190 metrə) bərabər idi. Beləliklə, məsafənin uzunluğu qaçış növünün adına çevrildi. Tədricən bu ad qaçış üzrə yarışların keçirildiyi yerə şamil edilməyə başlandı. Bu gün "stadion" idman tədbirlərinin keçirildiyi tikililər kompleksidir.

**Labirint** – yunanca *labyrinthos* dolaşıqlıq deməkdir. Qədim Misirdə və Yunanıstanda çox mürəkkəb quruluşu olan, qəsdən dolaşıq yollar qoyulmuş, giriş və çıxışını tapmaq çətin olan xəzinə yeri.

**Qəzet –** Təxminən 1550-ci ildə Venesiyada ən son xəbərlər çap olunmuş vərəqələr yayılmağa başladı. Bu vərəqələr, demək olar ki, o zamanın qəzetləri idi. Onlar balaca, kələ-kötür və çox ucuz idi. Dəyəri çox az olan metal pula bu vərəqələrin bir nüsxəsini və ya bu vərəqələrdəki xəbərlərin ucadan oxunduğu toplantıya buraxılışı almaq olurdu. Bu metal pullar "gazzetta" adlanırdı. Tezliklə xəbər vərəqələri də belə adlandırılmağa başladı.

**Kataloq** – yunanca *katalogos* siyahı deməkdir. Müəyyən qayda üzrə tərtib edilmiş şeylərin (kitabların, əlyazmaların, muzey eksponatlarının və s.) siyahısı.

**II qrupun sözləri:**

**Metr** – yunanca *metron* – meyar, ölçü vahidi.

**Kilometr** – 1000 metrə bərabər, məsafəsi 1000 metr olan uzunluq ölçüsü.

**Qram** – yunanca *gramma* – cizgi, hərf, yazılış.

**Kiloqram** – 1000 qrama bərabər çəki ölçüsü.

**III qrupun sözləri:**

**Xor** – yığıncaq, camaat; hər hansı vokal əsəri bir vaxtda ifa edən oxuyanlar dəstəsi.

**Ritm** – ahəng, uyğunluq; səs, nitq və s. ünsürlərinin təkrarlanmasında müəyyən ardıcıllıq; ahəng.

**Melodiya** – nəğmə, hava; müəyyən musiqi vəhdəti əmələ gətirən səslərin ahəngdar ardıcıllığı.

**Harmoniya** – əlaqə, rabitə, uyğunluq, tarazlıq; həmahəng tonlar, ahəngdarlıq.

**IV qrupun sözləri:**

**Allergiya** – yunanca *allos* – başqa + *ergon* – təsir; orqanizmin bu və ya başqa maddəyə ifrat dərəcədə həssaslığı, bu həssaslığın doğurduğu fəsadlar (dəri səpməsi, göz yaşarması və s.).

**Analiz** – yunanca *analysis* – bölmək, ayırmaq; tədqiq edilən obyektin xəyalən tərkib hissələrinə ayrılması və hər hissə haqqında fikir yürüdülmə-

sindən ibarət olan elmi araşdırma üsulu, təhlil.

**Aptek** – yunanca *apotheke* – anbar; reseptlə dərman hazırlayan, hazır dərman və digər tibbi mallar saxlanan və satılan tibbi müəssisə.

**Diaqnoz** – yunanca *diagnosis* – dərketmə, təyinetmə; sistemli müayinə əsasında xəstəliyin müəyyən edilməsi.

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər "Qədim yunan sözləri" mətnində Qədim Yunanıstanda təhsil ocaqları haqqında xeyli məlumat alıblar. Özlərini gid kimi təsəvvür edən şagirdlər aldıqları məlumatları turistlərə ötürməlidirlər.

**Müəllimin nəzərinə!** Şagirdlərə məlumat verilə bilər:

• Gid – turist qruplarını müşayiət edən bələdçi, ekskursiyaçıdır.

• Bələdçi məlumatları elə çatdırmalıdır ki, dinləyicilərin marağını çəksin.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndəki məlumatları mənimsədiyini nümayiş etdirir. | Tap. **a** (D.), tap. **a** (İ.D.) |
| Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını, apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir. | Tap. **b** (D.), tap. **b** (İ.D.) |

## 4-cü dərs. Qədim yunan sözləri

• Dərslik: səh. 62 • İş dəftəri: səh. 55

**Təlim məqsədləri**

**1.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**2.** Mövzu ilə bağlı şəxsi mövqeyini bildirmək üçün esse yazır **(st. 5-3.2.2).**

**3.** Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir **(st. 5-2.3.3).**

**Mövzuya yönəltmə**

Müəllim qədim yunan filosofları, alimləri haqqında frontal sorğu keçirir.

– Hansı yunan alimlərini tanıyırsınız?

– Onlar elmin hansı sahəsi ilə məşğul olmuşlar?

– Bu alimlər haqqında hansı məlumat sizin marağınıza səbəb oldu?

**Danışma**

**5-1.2.2. Tapşırıq a (dərslik). Şagirdlər təxminən aşağıdakı izahı verə bilərlər:**

Platon ədaləti, həqiqəti hər şeydən üstün tuturdu. Hətta müəllimi Sokratla belə fikir ayrılıqları olanda o, həqiqəti seçirdi.

**Yazı**

**5-3.2.2. Tapşırıq b (dərslik). Esse təxminən belə ola bilər:**

Müzakirələri çox sevirəm. Hər hansı bir mövzuda müəyyən bir mövqe tutmaq, fikir söyləmək xoşuma gəlir. Lakin bəzən müzakirələr zamanı fikir ayrılığı olur. Yoldaşlarımla, hətta müəllimlərimlə. Bəs hər hansı məsələdə mövqeyimiz müəllimin mövqeyindən fərqlənirsə, bu vəziyyətdə nə etməliyik? Məncə, hər bir kəsin fikir söyləmək və mövqe nümayiş etdirmək haqqı var. Lakin bu zaman müəyyən sərhədləri keçmək olmaz.

Düşünürəm ki, müzakirədə iştirak edən hər bir kəs ilk növbədə bir-birinin fikirlərinə hörmətlə yanaşmalıdır. Əgər həmsöhbətinin fikri ilə razılaşmırsansa, "Sizin fikrinizə hörmətlə yanaşıram, amma mən belə düşünürəm ki..." ifadəsi ilə başlayaraq fikrimizi izah edə bilərik.

Müzakirə zamanı müəllim hər bir şagirdin fikrini dinləyir. Onların mövqeyini tam qəbul etməsə də, ortaq nöqtədə müzakirələri yekunlaşdırır.

**5-2.3.3. Tapşırıq a (iş dəftəri).** Cavab:

***Muzey***

*Dilimizdəki yunan mənşəli bəzi sözlər elm və mədəniyyətlə bağlıdır.*

*Aralıq dənizi sahilində yerləşən İsgəndəriyyə şəhəri vaxtilə dünyanın mədəniyyət mərkəzi sayılırdı. Bu şəhərdə elm xadimlərinin yaradıcılıqla məşğul ola biləcəkləri bir kitabxana yaradılmışdı. Bu kitabxana yunan mifologiyasında incəsənət və elm ilahələrinin şərəfinə "Museyon" adlanırdı. Sonralar incəsənət və elm sahələrindəki nailiyyətləri nümayiş etdirmək üçün tikilmiş binaları "museyon", yəni "muzey" adlandırdılar.*

*Beləliklə, bu gün istifadə etdiyimiz "muzey" sözü yunan mənşəlidir.*

**Tapşırıq b (iş dəftəri).** Cavab:

1. Uraniya; 2. Klio.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatdan nümunələr gətirməklə fikrini əsaslandırır. | Tap. **a** (D.) |
| Mövzu ilə bağlı fikir və duyğuları ifadə edən mətn yazır. | Tap. **b** (D.) |
| Mətnin tərkib hissələrini (giriş, əsas hissə, sonluq) müəyyən edir. | Tap. **a** (İ.D.) |

## 5-ci dərs. Alınma sözlər və şəkilçilər

• Dərslik: səh. 63 • İş dəftəri: səh. 56

**Təlim məqsədləri**

**1.** Söz tərkibindəki morfemlərin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir **(st. 5-4.4.1).**

### Mövzuya yönəltmə

**5-4.4.1. Tapşırıq a (dərslik). Cavablar təxminən belə ola bilər:**

– Leksik şəkilçilər vasitəsilə: məsələn, *yağ* isimdir, *yağlı* isə sifətdir.

– Mürəkkəb sözlərin yaranması ilə: *ayaq* və *qab* sözlərindən yeni bir anlayış bildirən söz yaranır: *ayaqqabı*.

**"Yadda saxla" rubrikası.**

**Müəllimin nəzərinə!** Alınma sözləri əsl Azərbaycan sözlərindən fərqləndirən xüsusiyyətlər çox olsa da, bu dərsdə yalnız biri haqda məlumat verilir. Bütün xüsusiyyətləri şagirdlərə izah etməyə ehtiyac yoxdur. Dərsin məqsədi alınma sözləri əsl Azərbaycan sözlərindən fərqləndirmək deyil. Şagirdlər dilin lüğət tərkibinin alınma sözlər hesabına da zənginləşdiyini bilməlidirlər.

**Tapşırıq b (dərslik).**

Cavab: 2. Azərbaycan Cənubi Qafqazda yerləşən ölkədir, deməli, ayı bizim ərazimizdə də yaşayır. Təbii ki, bu heyvanın adı əsl Azərbaycan sözüdür; "ayı" sözü ahəng qanununa tabe olur.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

**Əsl Azərbaycan sözləri:** ana, səksən, burun, ayaq, nənə.

**Alınma sözlər:** ruhani, alim, jaket, rəssam, səadət.

**Tapşırıq c (dərslik).**

Cavab: *mikrorayon* – kiçik rayon; *mikroorqanizm* – adi gözlə görünməyən kiçik orqanizm.

**Tapşırıq ç (dərslik).** Cavab:

**Mikroskop** – adi gözlə görünməyən şeylərə baxmaq üçün çox böyüdücü şüşələr sistemi olan optik cihaz.

**Orfoqrafiya** – sözlərin düzgün yazılışını tənzimləyən vahid qaydalar sistemi.

**Biologiya** – canlı cisimlərin həyat və inkişafı qanunlarını tədqiq edən elm.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

**Avtoqraf** – müəllifin öz kitabı üzərində çəkdiyi imza, yazdığı xatirə qeydi

**Akvapark** – xüsusi su hovuzları, su attraksionları, idman qurğuları və s. olan əyləncə mərkəzi

**Akvarium** – su heyvanlarını və bitkilərini saxlamaq, yaxud çoxaltmaq üçün xüsusi şüşə qab

**Avtoban** – avtomobillərin sürətli hərəkəti üçün geniş magistral yol

**Tapşırıq d (dərslik).** Cavab:

1. "pərəst" şəkilçisi "xoşlayan" mənasını yaradır.
2. "dan" şəkilçisi "qab" mənasını yaradır.

**Tapşırıq e (dərslik).**

**Müəllimin nəzərinə!** Aşağı siniflərdə şagirdlər şəkilçilərin variantları, iki və dörd cür yazılması haqqında məlumat alıblar.

Cavab: 1. -çı$^4$; 2. -keş; 3. -maq$^2$; 4. -pərvər.

**Tapşırıq c (iş dəftəri).**

Cavab: başla, gözlə; ədəbiyyatşünas, hüquqşünas.

**Tapşırıq ç (iş dəftəri).** Cavab:

2. -kar; 3. -ça$^2$; 4. -lar$^2$; 5. -daş; 6. -lı$^4$.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz tərkibindəki morfemlərin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 2-ci fəsil

## 1-ci dərs. Hacı Qara

• Dərslik: səh. 64-65 • İş dəftəri: səh. 57

**Təlim məqsədləri**

**1.** Bədii mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir **(st. 5-2.1.1).**
**2.** Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını izah (təxmin) edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**
**3.** Tərkib hissələrinə və janr xüsusiyyətlərinə görə mətni təhlil edir **(st. 5-2.3.3).**
**4.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.3.1).**
**5.** Oxuduğu mətnin qısa məzmununu yazır **(st. 5-3.2.1).**

**Mövzuya yönəltmə**

Müəllim lövhəyə "xəsislik" sözünü yazır və soruşur:

– Bu söz sizdə hansı assosiasiyanı yaradır?

**Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqda qoyulmuş suala cavab verir, nümunələr söyləməklə fikirlərini əsaslandırırlar.

**Oxu**

5-2.1.1. **Tapşırıq b (dərslik). "Hacı Qara" mətni. Rollu oxu.** Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Oxu zamanı şagirdlərin jest və mimikalardan yerində, düzgün istifadə etməsinə diqqət edir, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə necə səsləndirmələrini müşahidə edir.

**Söz ehtiyatı**

5-2.1.3. **Tapşırıq c (dərslik).**

Cavab: *yaraq-yasaq, yasavul, qaçaqmalçılıq* sözləri hadisələrin keçmişdə baş verdiyini göstərir.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətini mətndə işlənmiş "şahı", "abbası" sözlərinə də yönəltmək məqsədəuyğundur.

**Oxuyub-anlama**

**Tapşırıq ç (dərslik).** Cavab:
1 arşın çit alınır – 1 abbası
1 arşın çit satılır – 6 şahı
Xeyir – 2 şahı
1 abbası bərabərdir 4 şahıya.

Deməli, abbası şahıdan böyük pul vahididir.

5-2.1.1. **Tapşırıq d (dərslik).** Şagirdlər mətndən Hacı Qaranın monoloqlarını seçir, onun xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirirlər.

5-2.3.3. **Tapşırıq e (dərslik).** Şagirdlər **"Qlossari"** rubrikasındakı məlumatlara istinad edərək tapşırığı yerinə yetirirlər.

Cavab: "Hacı Qara" dram əsəridir, çünki bu əsərdə monoloq və dialoqlardan istifadə edilmişdir. Əsər Hacı Qara obrazının monoloqlarından, Hacı Qara ilə Əsgər bəy, Hacı Qara ilə Tükəz arasında dialoqlardan ibarətdir.

5-2.3.1. **Tapşırıq ə (dərslik).**

Cavab: Arvadı Tükəzin nitqinə görə, Hacı Qaranın pulu çoxdur, amma yığdığı pulları nə özünə, nə də ailəsinə xərcləyir. Deməli, Hacı Qara çox xəsis insandır.

Hacı Qaranın 100 manat qazanca görə qaçaqmalçılığa razılaşması onun tamahkar olmasına işarədir. Arvadı Tükəzin nitqinə görə, Hacı Qara yüz manat zərərdən ötrü özünü öldürür. Bu da onun tamahkar olmasının göstəricisidir.

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını və nə dərəcədə qavradıqlarını yoxlamağa yönəldilib.

**Tapşırıq f (dərslik).**

Cavab: Tükəzin nitqində Hacı Qaranın xəsisliyi daha qabarıq əks olunub. Xəsis insanlara "Hacı Qara" deyirlər.

5-2.3.3. **Tapşırıq a (iş dəftəri).**

Cavab: 1 – təəccüblə; 2 – əminliklə; 3 – narazılıqla; 4 – acizanə.

**Yazı**

5-3.2.1. **Tapşırıq b (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş plana əsasən "Hacı Qara" əsərinin məzmununu yazırlar.

**Tapşırıq c (iş dəftəri).**

Cavab: Xəsis acgöz olar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | "Hacı Qara" mətni, tap. **b**, **d** (D.) |

| | |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını təxmin edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir. | Tap. **c, ç** (D.), tap. **a** (İ.D.) |
| Tərkib hissələrinə və janr xüsusiyyətlərinə görə mətni təhlil edir. | Tap. **e** (D.), Tap. **a** (İ.D.) |
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. **ə**, **f** (D.) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. **b** (İ.D.) |

## 2-ci dərs. Poçt qutusu

• Dərslik: səh. 66 • İş dəftəri: səh. 58

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətnlə bağlı suallar tərtib edir **(st. 5-1.1.1).**

**2.** Dinlədiyi bədii mətndəki epizodlardan çıxış edərək obrazlara münasibətini əsaslandırır **(st. 5-1.1.2).**

**3.** Oxuduğu və dinlədiyi mətnləri mövzu, ideya baxımından müqayisə edir **(st. 5-2.3.5).**

**4.** Əsərin mövzu, məzmun və ideyasını nəzərə alaraq annotasiya yazır **(st. 5-3.2.3).**

**Mövzuya yönəltmə**

Müəllim lövhəyə "avamlıq" sözünü yazır və soruşur:

– Bu söz sizdə hansı assosiasiyanı yaradır?

**Dinləmə**

**5-1.1.1. Tapşırıq a (dərslik).** Müəllim dinləmə mətnini səsləndirir:

***Poçt qutusu***

*Vəli xan Cəfər ağaya məktub yazdı. İstədi nökəri çağırsın ki, aparıb salsın poçta; amma yadına düşdü ki, nökəri göndərib özgə işə. Bu vaxt qapı döyüldü. Gələn xanın öz kəndlisi Novruzəli idi.*

*Xan Novruzəliyə poçt qutusunun harada yerləşdiyini deyib məktubu verdi ki, aparıb yola salsın. Sonra da bərk-bərk tapşırdı:*

*– Novruzəli, bilməzsən kağızı verərsən özgəsinə ha! Heç kəsə vermə, heç kəsə göstərmə! Tez sal qutuya, qayıt gəl!*

*Novruzəli cavab verdi:*

*– Mən uşaq deyiləm ki, kağızı özgəsinə verəm! Heç naçalnik də bu kağızı mənim əlimdən ala bilməz.*

*İki saat keçdi. Novruzəli gəlib çıxmadı. Xan narahat oldu ki, Novruzəlinin başına bir iş gəldi ki, bu qədər yubandı. Elə bu vaxt polis yasavulu qapıdan içəri girdi:*

*– Xan, pristav buyurur gələsiniz polisə, kəndlinizə zamin olasınız. Yoxsa pristav göndərəcək qazamata.*

*Xan bu sözlərə təəccübləndi:*

*– Balam, o, fağır adamdır, nə edib ki, pristav onu tutub saxlayıb?*

*Xan polisə getdi. Novruzəliyə zamin olub onu evə gətirdi. Novruzəli başına gələnləri nəql etdi:*

*– Xan, başına dönüm, mən kağızı buradan apardım, getdim çıxdım naçalnik divanxanasının yanına. Sən mənə nişan verdiyin qutunu tapdım, qutunun qapağını qaldırdım. İstədim kağızı salam qutuya; bir kağıza baxdım, bir qutuya baxdım. Doğrusu, qorxdum ki, sənin mənə acığın tuta. Bilmədim, salım, salmayım; çünki yadımdan çıxdı səndən soruşum ki, kağızı qutuya salandan sonra durum qutunun yanında, ya qoyum gəlim evə. Fikirləşdim ki, əgər kağızı salım, durum qutunun yanında, nə vaxtadək durum? Axır ki, ürəkləndim, "bismillah" deyib qutunun qapağını qaldırdım, kağızı saldım qutuya. Elə bir az uzaqlaşmışdım ki, bir rus gəldi yetişdi qutunun yanına. Mən əvvəl elə bildim ki, bu da istəyir qutuya kağız salsın. Amma gördüm, xeyr, fikri özgədi, sağ əlini uzadıb qutunun içinə. Utanmaz-utanmaz kağızları qutudan ehmallıca çıxartdı, dəstələyib vurdu qoltuğuna! Mən tez qaçıb yapışdım onun qolundan, qoymadım getsin. Dedim, hara aparırsan kağızları? Xalq səndən ötrü kağızları bura salmayıbdı ki! Dinməz-söyləməz xalqın kağızlarını qoy yerinə! Dedim, Novruzəli hələ ölməyibdi ki, sən onun ağasının kağızını aparasan. Belə işlər yaxşı deyil, adam özgənin malına tamah salmaz. Nə qədər yalvardım, yapışdım ki, barı mənim xanımın kağızını ver; illah dedi ki, vermərém. Gördüm ki, hərif istəyir qoya qaça. Vallah, hirs vurdu təpəmə, ikiəlli yapışdım kafirin çiynindən, bunu üzüüstə elə gətirdim yerə ki, qorxudan ağzı qanadı. Sonra naçalnik divanxanasından soldatlar tökülüb məni döyə-döyə aparıb atdılar dama.*

**5-1.1.2. Tapşırıq b (dərslik). Şagirdlərin**

**cavabı təxminən belə ola bilər:** Əsərin əsas qəhrəmanı Novruzəlidir. Novruzəli təmizürəkli, zəhmətkeş, sadə və mehriban bir kəndlidir. O, imkansız, yoxsul bir adamdır, yumşaq xasiyyəti, xoş rəftarı, səmimiyyət və sədaqəti ilə fərqlənir. Lakin yazıçı Novruzəlinin avamlığını ön plana çəkmişdir. Poçt qutusu ilə bağlı başına gələnlər avamlığının nəticəsidir.

**5-2.3.5. Tapşırıq c (dərslik).** Cavab:

– "Hacı Qara" dram əsəridir, "Poçt qutusu" isə hekayədir.

– "Hacı Qara" əsərində xəsislik və tamahkarlıq ön plana çəkilib. "Poçt qutusu" əsərində isə avamlıq, savadsızlıq.

**5-1.1.1. Tapşırıq a (iş dəftəri).** Şagirdlər hekayə xəritəsi tərtib edərək dinlədikləri mətndəki məlumatları mənimsədiklərini nümayiş etdirirlər.

**5-3.2.3. Tapşırıq ç (dərslik). "Poçt qutusu" kitabına annotasiya təxminən aşağıdakı məzmunda yazıla bilər:**

"Poçt qutusu" böyük yazıçı Cəlil Məmmədquluzadənin əseridir. "Poçt qutusu" hekayəsinin qəhrəmanı Novruzəlidir. Novruzəli məktəb görməmiş, oxumağı, yazmağı bilməyən avam adamdır. Xan Novruzəliyə məktub verir ki, poçt qutusuna salsın. Olanlar da bundan sonra başlayır. Poçt qutusuna məktub salmaq çətin işdirmi? Görəsən, xan nə üçün narahatdır? Novruzəlinin poçt qutusu ilə bağlı macəraları sizi də maraqlandırsa, bu kitabı oxuya bilərsiniz.

**"Hacı Qara" kitabına annotasiya təxminən aşağıdakı məzmunda yazıla bilər:**

"Hacı Qara" əsərinin müəllifi Mirzə Fətəli Axundzadədir. Əsərdə xəsislik, tamahkarlıq ön plana çəkilib. Hacı Qara həm xəsis, həm də tamahkar bir tacirdir. Özünün dediyinə görə, dükanında işləri yaxşı getmir: mallarını sata bilmir. Əsgər bəy Hacı Qaraya gizli yollarla Təbrizə getməyi məsləhət görür. Guya ki ucuz qiymətə qaçaq mal gətirib baha qiymətə sataraq xeyli gəlir əldə edəcəklər. Görəsən, Hacı Qara Əsgər bəyin məsləhətinə qulaq asacaqmı? Qaçaqmalçılıq etməyə razılaşacaqmı? Ailəsi, yaxınları bu işə razı olacaqlarmı?

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətnlə bağlı suallar tərtib edir. | Tap. **a** (D.), tap. **a** (İ.D.) |
| Dinlədiyi mətndə obrazların davranışına münasibət bildirir. | Tap. **b** (D.) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. **c** (D.) |
| Məzmunu ilə tanış olduğu kitab haqqında annotasiya yazır. | Tap. **ç** (D.) |

## 3-cü dərs. Rəmzə çevrilmiş adlar

• Dərslik: səh. 66 • İş dəftəri: səh. 59

**Təlim məqsədləri**

**1.** Mövzu ilə bağlı yazılı təqdimat hazırlayır **(st. 5-3.2.4).**

**2.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**3.** Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir, genişləndirir və ya təcrübədə tətbiq edir **(st. 5-2.3.6).**

### Mövzuya yönəltmə

Müəllim lövhəyə "Hacı Qara" və "Novruzəli" sözlərini yazır və soruşur:

– Bu sözlər sizdə hansı assosiasiyanı yaradır?

### Yazı

**5-3.2.4. Tapşırıq a (dərslik).** İlk mərhələdə müəllim şagirdləri qruplara ayırır. Aşağıdakı mətnləri çap edərək qruplara paylayır.

I qrup üçün mətn: ***Qurbanəli bəy***

*"Qurbanəli bəy" Cəlil Məmmədquluzadənin 1907-ci ildə yazdığı məşhur hekayələrindən biridir. Hekayənin baş qəhrəmanı Qurbanəli bəy Qapazlı kəndinin mülkədarıdır. Bu bəy yaltaqlığı, ikiüzlülüyü, yüngül adam olması, kobudluğu, zalımlığı ilə məşhurdur. O, rus məmurlarına və onların arvadlarına – "Mən istəyirəm sizə nökərçilik eləyim", "Sənə mən nökərəm", "Nə qədər ki mən sağam, nökərəm sənə", – deyə yaltaqlanır. Bununla da o, çar məmurlarının kölgəsində rahat yaşamaq istəyir. Amma özündən zəiflərlə: nökəri Kərbəlayı Qasımla, aşpaz Əli ilə, qulluqçu qadınla çox kobud rəftar edir.*

*Bir gün Qurbanəli bəy çar məmurları üçün*

*təşkil olunmuş qonaqlıqda sərxoş olur. Burada iştirak edən məmurları, rus xanımlarını evinə qonaq çağırır. Evinə qayıtdıqdan sonra isə qonaqlıq haqda unudur. Səhəri gün qonaqların gəldiyini biləndə qaçıb tövlədə gizlənir. Qonaqlar dünən onun təriflədiyi atlarına baxmaq üçün tövləyə girir və Qurbanəli bəyin axurda gizləndiyini görürlər.*

*İndi də verdiyi sözdən qaçan adamı Qurbanəli bəyə, onun davranışını isə "Qurbanəli bəyin qonaqlığı"na oxşadırlar.*

II qrup üçün mətn: ***Sonuncu mogikan***

*Amerika yazıçısı Fenimor Kuper "Sonuncu mogikan" adlı tarixi romanını 1826-cı ildə yazmışdır. Hindu qəbilələri Amerikada hökmranlıq etmək istəyən ingilis və fransız orduları ilə mübarizə aparır. Burada yaşayan müxtəlif hindu qəbilələri həm də öz aralarında müharibə edirlər.*

*Əsərin baş qəhrəmanları ağdərili Şahingöz (Natti Bampo) və onun hindu dostları Çinqaçkuk və Unkasdır. Unkas Çinqaçkukun oğludur və onlar mogikan qəbiləsindəndirlər.*

*Bir gün quron hinduları polkovnik Munronun qızları Alisa və Koranı əsir götürürlər. Natti Bampo igid mogikan dostları – Çinqaçkuk və Unkasla birlikdə Munro bacılarını düşmən əsirliyindən xilas edir. Bu zaman Unkas və Kora həlak olurlar. Müəllif Unkası "sonuncu mogikan" adlandırır. Çünki o, mogikanlar qəbiləsinin sağ qalmış yeganə nümayəndəsi idi.*

*İndi məşhur nəsilləri*

*n, hər hansı sahənin çox görkəmli olan son nümayəndələrini "sonuncu mogikan" adlandırırlar.*

III qrup üçün mətn: ***Şerlok Holms***

*Şerlok Holms ingilis yazıçısı Artur Konan Doylun yaratdığı xəfiyyə obrazıdır. Oxucular bu obrazla ilk dəfə 1887-ci ildə "Al-qırmızı etüd" povestində tanış olmuşlar. Holms cinayətkarları təqib edir, dolaşıq cinayət işlərinin üstünü açırdı.*

*Şerlok Holms obrazının prototipi doktor Cozef Belldir. O, tibb məktəbində müəllim işləmişdir və Konan Doyla dərs demişdir. Holmsun güclü mühakimə qabiliyyəti var idi. O, xəstələrin diaqnozunu müəyyən etmək üçün qeyri-adi metodlardan istifadə edirdi.*

*Şerlok Holms bəzən evdən çıxmadan müəmmalı cinayətlərin üstünü açan unikal fenomendir. Dörd roman və 50-dən çox hekayədən ibarət bu külliyyatda Holms onlarla cinayətin üstünü açır. Ədəbiyyat dünyası bir çox detektivlər ortaya çıxarıb. Amma onlardan heç biri Şerlok Holms qədər populyar ola bilməyib. Holms – haqqında ən çox film çəkilmiş xarakterdir. Buna görə Ginnesin rekordlar kitabına salınıb.*

*Müşahidəçi, məntiqli, ayıq-sayıq insan haqqında danışarkən onu "Şerlok Holms" adlandırırlar.*

IV qrup üçün mətn: ***Robinzon Kruzo***

*"Robinzon Kruzonun macəraları" ingilis yazıçısı Daniel Defonun ən məşhur romanıdır. Müəllif bu əsəri 1719-cu ildə qələmə almışdır.*

*Əsərin baş qəhrəmanı Robinzon Kruzodur. Gəmi qəzasından sonra güclə sağ qalan Robinzon Kruzo ayağı torpağa dəyəndə çox sevinir. Lakin bu sevinc çox çəkmir. Kimsəsiz adaya düşdüyünü anlayan Robinzon hər vasitə ilə buradan xilas olmaq istəyir. Amma... O, adada 28 il tək qalır. Həm təbiət qüvvələrinə, həm də dəniz quldurlarına qarşı təklikdə mübarizə aparmalı olur. Dəli olmamaq və nitq qabiliyyətini itirməmək üçün həmişə tutuquşularla söhbət edir, zamanı dəyişik salmamaq üçün gündəlik tutur, hər gün orada başına gələn hadisələri yazır.*

*Adada yerlilərlə rastlaşır, adət-ənənəsi, dili fərqli olan insanlarla ünsiyyət qurmağa çalışır.*

*Robinzon Kruzo həyatın macəralar burulğanından daim qələbə ilə çıxan əbədi bir insan obrazıdır.*

*Çətin anlarda iradə, dözüm nümayiş etdirən, yaradıcılıq imkanları ilə vəziyyətdən çıxa bilən insanları "Robinzon Kruzo" adlandırırlar.*

**I qrupun** məlumat vərəqi bu məzmunda ola bilər:

***Əsərin adı:*** *Qurbanəli bəy*

***Əsərin janrı:*** *hekayə*

***Əsərin müəllifi:*** *Cəlil Məmmədquluzadə*

***Baş qəhrəman:*** *Qurbanəli bəy*

***Obrazın qabarıq xüsusiyyəti:*** *yaltaqlıq, ikiüzlülük, yalançılıq, kobudluq*

***İfadənin rəmzi mənası:*** *verdiyi sözdən qaçan adam*

**II qrupun** məlumat vərəqi bu məzmunda ola bilər:

***Əsərin adı:*** *Sonuncu mogikan*

***Əsərin janrı:*** *roman*
***Əsərin müəllifi:*** *Fenimor Kuper*
***Baş qəhrəman:*** *Unkas – mogikanlar qəbiləsinin nümayəndəsi*
***Obrazın qabarıq xüsusiyyəti:*** *mübarizlik*
***İfadənin rəmzi mənası:*** *məşhur nəslin və ya peşə sahəsinin çox görkəmli olan sonuncu nümayəndəsi*

**III qrupun** məlumat vərəqi bu məzmunda ola bilər:

***Əsərin adı:*** *Al-qırmızı etüd*
***Əsərin janrı:*** *povest*
***Əsərin müəllifi:*** *Artur Konan Doyl*
***Baş qəhrəman:*** *xəfiyyə Şerlok Holms*
***Obrazın qabarıq xüsusiyyəti:*** *ayıq-sayıqlıq (məntiqli)*
***İfadənin rəmzi mənası:*** *müşahidəçi, məntiqli, ayıq-sayıq insan*

**IV qrupun** məlumat vərəqi bu məzmunda ola bilər:

***Əsərin adı:*** *Robinzon Kruzo*
***Əsərin janrı:*** *roman*
***Əsərin müəllifi:*** *Daniel Defo*
***Baş qəhrəman:*** *Robinzon Kruzo*
***Obrazın qabarıq xüsusiyyəti:*** *iradəli, yaradıcı*
***İfadənin rəmzi mənası:*** *çətin anlarda iradə, dözüm nümayiş etdirən, yaradıcılıq imkanları ilə vəziyyətdən çıxa bilən insan*

**Oxuyub-anlama**

**5-2.1.2. Tapşırıq a (iş dəftəri)**

Cavab: 1 – Qurbanəli bəy; 2 – Robinzon Kruzo; 3 – hindu Unkas; 4 – Şerlok Holms.

**Tapşırıq b (iş dəftəri)**

Cavab: Müəllif Unkası "sonuncu mogikan" adlandırır. Çünki o, mogikanlar qəbiləsinin sağ qalmış yeganə nümayəndəsi idi. İndi məşhur nəsillərin, hər hansı sahənin çox görkəmli olan son nümayəndələrini "sonuncu mogikan" adlandırırlar.

**5-2.3.6. Tapşırıq c (iş dəftəri).** Qruplar təqdimat etdikdən sonra bütün şagirdlər dilimizdə işlənən sözügedən ifadələrin hansı əsərlərlə bağlı olduğunu öyrənmiş olurlar. Yaxşı olar ki, müəllim I qrupun təqdimatı zamanı şagirdlərə yönəldici suallar verməklə Qurbanəli bəy obrazı ilə bağlı daha ətraflı informasiya verilməsinə çalışa bilər. Ətraflı informasiya iş dəftərindəki c tapşırığının asanlıqla yerinə yetirilməsinə kömək edə bilər. Şagirdlər mətni təxminən aşağıdakı məzmunda davam etdirə bilərlər:

*Oqtay məzuniyyətə çıxmışdı. Sərxanın təklifini xatırlayıb düşündü:*

*– Həqiqətən də, İstanbulda olmağı çox istəyirəm. Bir neçə gün Sərxangildə qalaram. Heç nə olmaz. Özü demişkən, uşaqlıq dostuyuq axı.*

*Oqtay telefonu götürüb dostuna zəng vurmaq istədi. Amma sonra fikrini dəyişdi:*

*– Yaxşısı budur, sürpriz edim. İstanbuldan yığaram ki, qapını aç, mən gəlirəm.*

*İki gündən sonra Oqtay artıq İstanbulda idi. Aeroporta enən kimi dostuna zəng vurdu. Amma dostu Oqtayın İstanbulda olduğunu eşidəndə bir anlıq tutuldu. Sonra kəkələyə-kəkələyə dedi:*

*– Oqtay, bilirsən... gərək əvvəlcədən mənə xəbər verərdin. Mən indi burada deyiləm... İzmirdəyəm... konfransda...*

*Sərxana Oqtayın belə danışığı tanış idi: yalan danışanda həmişə kəkələyərdi. Axı nə də olsa, uşaqlıq dostu idilər. Bir-birini yaxşı tanıyırdılar.*

*Oqtay daha heç nə demədi. Qurbanəli bəyi xatırladı. İndi neyləsin? Bundan sonra Sərxanı "Qurbanəli bəy" deyəmi çağırsın?*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
| --- | --- |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır. | Tap. **a** (D.) |
| Mətnin məzmunu ilə bağlı suallara cavab verir. | Tap. **a**, **b** (İ.D.) |

## 4-cü dərs. Sinonimlər və antonimlər

• Dərslik: səh. 67 • İş dəftəri: səh. 60

**Təlim məqsədləri**

**1.** Sinonim və antonimlərin nitqdəki rolunu izah edir **(st. 5-4.4.2).**
**2.** Sinonim və antonimlərdən istifadə etməklə sözü izah edir **(st. 5-4.4.2).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik)**

Cavab: Hacı Qara obrazı xəsisliyin rəmzinə çevrilib.

**Dil qaydaları**

**5-4.3.1. "Yadda saxla" rubrikası.** Müəllim

şagirdlərə sinonim və antonimlərin nitqdə rolu haqqında məlumat verir.

**Tapşırıq b (dərslik).** Cavab:

1. Müəllim yeni mövzunu izah etdi. Sinonimlərin cümlədə rolunu şagirdlərə anlatdı.

2. Konsertə çox adam gəlmişdi. Xeyli tamaşaçı ayaq üstə qalmışdı.

3. Kitabxanaçı hirslənmişdi. Oxucuların kitablarla kobud rəftarı onu əsəbiləşdirmişdi.

**Tapşırıq c (dərslik).** Cavab:

1. Qorxaq gündə yüz yol ölər, igid ömründə bir yol.

2. Əvvəl düşün, sonra danış.

3. Dost başa baxar, düşmən ayağa.

4. Gecənin xeyrindən gündüzün şəri yaxşıdır.

**Tapşırıq ç (dərslik).** Cavab: b

**Tapşırıq d (dərslik)**

Cavab: **b.** duzlu – şit; **c.** getmək – gəlmək; **e.** cəsarətli – qorxaq.

**Tapşırıq e (dərslik)**

**Müəllimin nəzərinə!** Tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlərə sözün izahı haqqında aşağıdakı məlumatları vermək tövsiyə edilir: Sözün leksik mənasını bir neçə yolla izah etmək olar:

1. Verilən sözə yaxınmənalı söz seçməklə. Məsələn: azadlıq – müstəqillik – sərbəstlik.

2. Verilən sözə əksmənalı söz seçməklə. Məsələn: şit – duzlu olmayan.

3. Əşyanın, hərəkətin əlamətlərini izah etməklə. Məsələn: dəmirçi – metaldan müxtəlif alətlər hazırlayan peşə sahibi.

4. Sözün hissələrinin mənasını açmaqla. Məsələn: aşsüzən – düyü və s. süzmək üçün çoxlu deşikləri olan qab.

Cavab:

gözəl – qəşəng; eybəcər olmayan

gödək – qısa; uzun olmayan

zərif – incə; kobud olmayan

**Tapşırıq a (iş dəftəri).** Cavab:

1. müdrik, ağıllı, dərrakəli

2. səmt, cəhət, istiqamət, tərəf, yön

3. döyüşmək, dalaşmaq, savaşmaq, vuruşmaq

**Tapşırıq b (iş dəftəri)**

Cavab: adət-ənənə, dadlı-ləzzətli, güllü-çiçəkli, güc-qüvvət.

**Tapşırıq c (iş dəftəri)**

Cavab: gec-tez, get-gəl, ağ-qara, aşağı-yuxarı.

**Tapşırıq ç (iş dəftəri).** Cavab:

1. Göydə; (açması: turp)

2. Gecə; (açması: hörümçək)

3. Gələr; (açması: günəş)

4. İçi; (açması: əncir)

**Tapşırıq d (iş dəftəri).** Cavab:

dəcəl – nadinc; sakit olmayan

nəzakətli – mədəni; kobud olmayan

asta – yavaş; cəld olmayan

isti – qaynar; soyuq olmayan

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sinonim və antonimlərdən istifadə etməklə sözü izah edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 3-cü fəsil

## 1-ci dərs. Onlar kimdir?

• Dərslik: səh. 68-69 • İş dəftəri: səh. 61

**Təlim məqsədləri**

**1.** Mətni oxuyarkən rast gəldiyi yeni söz və ya ifadəni cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir **(st. 5-2.1.3).**

**2.** Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.2).**

**3.** Mövzu ilə bağlı fikir və duyğularını məktub yazmaqla ifadə edir **(st. 5-3.2.2).**

**4.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim lövhədə “Qurbanəli bəy”, “Sonuncu mogikan”, “Robinzon Kruzo”, “Şerlok Holms”, “Novruzəli”, Hacı Qara” ifadələrini yazır. Şagirdlərə keçən dərsdə öyrəndikləri ifadələri xatırlatmaq üçün soruşur:

– Bu adlar sizdə hansı assosiasiyanı yaradır?

– Bu adların rəmzi mənaları nədir?

– Sizcə, bu ifadələri hansı situasiyalarda işlətmək olar?

– Adıçəkilən şəxslər haqqında məlumatı olmayanlar da bu ifadələri nitqlərində istifadə edə bilərmi? Niyə?

**“Axillesin dabanı” mətni.** Şagirdlərə mətni oxumaq üçün müəyyən vaxt verilir. Şagirdlər mətni oxuyur, tanış olmayan, mənasını anlamadıqları sözləri qeyd edir, mənalarını araşdırırlar.

**Söz ehtiyatı**

**5-2.1.3. Tapşırıq a (dərslik).**

Cavab: 1. qaməti; 2. qisasını; 3. inancına.

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).** Cavab: 1. Paris; 2. Fetida; 3. Hektor; 4. Axilles; 5. Troya.

**Oxuyub-anlama**

**5-2.2.2. Tapşırıq b (dərslik).** Şagirdlər təxminən bu məzmunda cavab verə bilərlər:

İllüstrasiyada təsvir edilib ki, Fetida Axillesin dabanından yapışıb onu çaya sallayır. Buradan belə nəticə çıxarmaq olar ki, çayın suyu Axillesin dabanına dəyməyib. Mətnin məzmunu da bunu təsdiq edir: Paris bilirdi ki, Axillesin bədəni istənilən ölümcül yaraya davam gətirə bilər, təkcə dabanından başqa.

**Tapşırıq c (dərslik).**

Cavab: Adətən, bir adamın xarakterindəki zəif cəhət “Axillesin dabanı” ifadəsi ilə bildirilir.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

Fetida oğlunu suya salarkən dabanından tuturdu, **ona görə də çayın suyu bədəninin həmin yerinə dəymədi.**

**Hektor Axillesin yaxın dostunu qətlə yetirmişdi.** Axilles Hektorla təkbətək döyüşə çıxdı.

**Axilles Parisin qardaşı Hektoru öldürmüşdü.** Paris Axillesi öldürmək üçün fürsət axtarırdı.

**Axillesin bədəni istənilən ölümcül yaraya davam gətirə bilirdi, təkcə dabanından başqa.** Paris oxla Axillesin dabanını nişan aldı.

**Yazı**

**5-3.2.2. Tapşırıq ç (dərslik).** Şagirdlər təxminən bu məzmunda məktub yaza bilərlər:

*Əziz dostum Ayxan, salam.*

*Neçə illərdir ki, səninlə dostluq edirik. Bilirsən ki, sənin xətrini çox istəyirəm. Biz dostuq: sənin problemin mənim də problemim deməkdir.*

*Yarışın nəticələrindən xəbərim var. Səni yaxşı tanıyıram, yəqin, indi “daha bitdi”, “daha boksla məşğul olmayacağam” deyirsən. Ən kiçik uğursuzluqdan belə ruhdan düşmək sənin “Axilles dabanındır”. Səndən xahişim var, uğur qazanmadın deyə geri çəkilmə. Düşünürəm ki, çətinliklərlə qarşılaşanda təslim olmaq lazım deyil. Əksinə, mübarizə aparmaq, daha da çox çalışmaq lazımdır. İnanıram ki, gün gələcək sənə təbrik məktubu yazacağam.*

*Hörmətlə: dostun Səidə.*

**Tapşırıq c (iş dəftəri).** Yazının məzmunu təxminən belə ola bilər:

*Troyalılarla döyüşlərin birində Paris yayını çəkib Axillesin dabanını nişan aldı. O bilirdi ki, Axillesin bədəni istənilən ölümcül yaraya davam gətirə bilər, təkcə dabanından başqa. Fetida oğlu ölümsüz olsun deyə onu hələ körpə ikən yeraltı səltənətdən keçən çayın sularına salmışdı. Bu çayın suyu bədənin hansı hissəsinə dəyərdisə, oraya heç bir qılınc və ya ox təsir etməzdi. Su Axillesin dabanından başqa bütün bədəninə dəymişdi. Buna görə də Paris oxunu düz Axillesin dabanına yönəltdi. Beləliklə, Axilles aldığı yaradan həlak oldu.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı me-

yar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək sözün mənasını anladığını nümayiş etdirir. | Tap. **a**, **c** (D.) |
| Mətndə sətiraltı fikir və informasiyanı izah edir. | Tap. **b** (D.) |
| Mövzu ilə bağlı fikir və duyğularını məktub yazmaqla ifadə edir. | Tap. **ç** (D.) |
| Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir. | Tap. **a**, **b**, **c** (İ.D.) |

## 2-ci dərs. Qordi düyünü

• Dərslik: səh. 69-70 • İş dəftəri: səh. 62

**Təlim məqsədləri**

**1.** Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını izah (təxmin) edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**

**2.** Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir, genişləndirir və ya təcrübədə tətbiq edir **(st. 5-2.3.6).**

**3.** Mətndəki obrazlardan birinə münasibət bildirən məktub yazır **(st. 5-3.2.2).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Cavab:

düyünə düşmək – nəyinsə həllində çətinliklə qarşılaşmaq, tilsimlənmək, həll edilə bilməmək;

düyünə salmaq – çətinləşdirmək, dolaşdırmaq.

**Müəllimin nəzərinə!** İfadələrin mənalarının asanlıqla izah edilməsi üçün şagirdlərin diqqəti “düyün” sözünə yönəldilir:

– Düyün nədir?

– Sözün həqiqi mənasında “düyünə düşmək”, “düyünü açmaq” nə deməkdir?

### Söz ehtiyatı

**5-2.1.3. “Qordi düyünü” mətni.** Mətni oxumaq üçün müəyyən vaxt verilir. Şagirdlər mətni oxuyur, tanış olmayan, mənasını anlamadıqları sözləri qeyd edir, mənalarını araşdırırlar.

**Tapşırıq b (dərslik).**

Cavab: *orakul.* Şagirdlər mətndən aşağıdakı cümləni oxuyaraq fikirlərini əsaslandıra bilərlər:

• *Orakul deyir ki, şəhərə araba ilə daxil olan ilk şəxs hökmdar olacaq.* Deməli, orakul gələcəkdən xəbər verir.

**Tapşırıq c (dərslik).** Şagirdlər təxminən bu məzmunda cavab verə bilərlər:

“Qordi düyünü” çətin, mürəkkəb, dolaşıq olan.

“Qordi düyününü kəsmək” mürəkkəb, dolaşıq bir məsələni güc yolu ilə həll etmək.

### Oxuyub-anlama

**5-2.4.2. Tapşırıq a (iş dəftəri).** Şagirdlər təxminən belə davam edə bilərlər:

Bütün misalları düz edirəm, məsələdə isə ilişirəm. Bu isə o deməkdir ki, mən riyaziyyatdan heç vaxt beş ala bilməyəcəyəm. Məsələ həlli mənim üçün “qordi düyünü”nə çevrilib.

Anası “qordi düyünü” ifadəsini eşidəndə gülümsədi:

– Qızım, gör problemini necə gözəl izah edirsən. Mən əminəm ki, həllini də tapacaqsan. Bir az səbirli ol. Daha çox çalış.

### Yazı

**5-3.2.2. Tapşırıq b (iş dəftəri).** Şagirdlər təxminən belə davam edə bilərlər:

*Əziz dostum Ləman, salam.*

*Dünən riyaziyyat dərsindən sonra kefin pozuldu. Heç danışmaq belə istəmədin. Parta yoldaşı olduğumuz üçün istəmədən dəftərini gördüm. Deyəsən, yenə də məsələni düz həll etməmişdin. İlk günlərdə mən də çox səhv edirdim. İndi bu üsuldan istifadə edirəm.*

*Əvvəlcə məsələni anlamaq üçün suallar ver:*

*1. Mənə nə məlumdur?*

*2. Bəs nəyi tapmalıyam?*

*Daha sonra plan qur.*

*Məsləhət görürəm ki, bu üsulu sınayasan. Məncə, faydası olacaq. Sən ağıllı qızsan. İnanıram ki, tez bir zamanda “qordi düyününü kəsəcəksən”.*

*Hörmətlə: dostun Səidə.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətndəki sadə üslubi fiqurları (antiteza, məşhur deyimlər, rəmzi adlar və s.) izah edir. | Tap. **a**, **c** (D.) |

| | |
|---|---|
| Kontekstdən çıxış edərək sözün mənasını anladığını nümayiş etdirir. | Tap. **b** (D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. **a** (İ.D.) |
| Mətndəki obrazlardan birinə münasibət bildirən məktub yazır. | Tap. **b** (İ.D.) |

## 3-cü dərs. Təqdimat

- Dərslik: səh. 70

**Təlim məqsədləri**

**1.** Verbal-qrafik materialları (şəkil, sxem, cədvəl, məlumat vərəqi, xəritə və s.) şərh etməklə rabitəli mətn qurub danışır **(st. 5-1.3.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə keçən dərsdə tanış olduqları "Axillesin dabanı" və "Qordi düyünü" ifadələrini xatırladır. Şagirdlər bu ifadələrin mənasını, yaranma tarixçəsini danışırlar. Bu ifadələrin işlənə biləcəyi situasiyalar düşünürlər.

**5-1.3.2. Tapşırıq a (dərslik).** Tapşırıq şagirdlərdə nitq söyləmək bacarığını formalaşdırır.

**Müəllimin nəzərinə!** Tapşırığın araşdırma mərhələsini sinif şəraitindən asılı olaraq müxtəlif yollarla yerinə yetirmək mümkündür. İnternet resursları olan siniflər onlayn lüğətlərdən (https://www.azleks.az/online-dictionary) istifadə edə bilər. İnternet resursları olmayan siniflərdə müəllim metodik vəsaitdə verilmiş materialın nüsxəsini şagirlərə təqdim edə bilər. Tapşırıq mütləq təlimata uyğun təqdim edilməlidir. Qrup üzvləri təqdim edəcəkləri məlumatı öz aralarında bölüşdürə bilər. Məsələn, "Pirr qələbəsi" haqqında qrup üzvlərindən biri danışmağa başlayır, müəyyən bir hissədə digər qrup üzvü onu əvəz edir.

Şagirdlər təxminən aşağıdakı məzmunda təqdimat edə bilərlər:

**I qrup: PİRR QƏLƏBƏSİ**

***Mənası:*** *Çox itkilər hesabına başa gələn, məğlubiyyətə bərabər, mənasız qələbə.*

***İfadənin tarixçəsi*** *Romaya qarşı uzunmüddətli və səmərəsiz müharibə aparmış yunan çarı Pirrin adı ilə bağlıdır.*

*Yunanıstanda Pirr adlı çar Roma ilə uzunmüddətli və amansız müharibəyə başlayır. O, ordusundakı döyüş fillərinin hesabına romalıları iki dəfə məğlub edə bilir. Amma ikinci qələbə Pirrə elə çox qurban bahasına başa gəlmişdi ki, qələbədən sonra çar qışqıraraq "bir də belə qələbə qazansaq, mən qoşunsuz qalacağam" demişdi. Doğrudan da, müharibə Pirrin məğlubiyyəti və İtaliyadan geri çəkilməsi ilə sona çatır.*

**II qrup: AVGİ TÖVLƏSİ**

***Mənası:*** *Son dərəcə sahmansız, lazımsız əşyalar yığılmış, illərlə əl dəyilməyən, təmizlənməsi çox güc tələb edən zir-zibilli yer.*

***İfadənin tarixçəsi*** *qədim yunan mifologiyasından qaynaqlanmışdır.*

*Qədim Yunanıstan çarı Edip Avgi at həvəskarı imiş. Onun tövləsində üç min at varmış, lakin bu atların saxlandığı tövlə 30 il idi ki, təmizlənmirdi və ona görə də peyin hətta tövlənin damına kimi qalxmışdı.*

*Çar Avgi əfsanəvi qəhrəman Herakla tövləni təmizləməyi tapşırdı, çünki bilirdi ki, bu işi ondan başqa heç kim bacarmaz. Herakl isə təkcə fiziki cəhətdən güclü deyildi, həm də ağıllı və tədbirli idi. O, Alfey çayının istiqamətini dəyişib suyu tövləyə tərəf yönəltdi. Güclü su axını tövlənin bütün zir-zibilini təmizlədi.*

**III qrup: SİZİF ƏMƏYİ**

***Mənası:*** *Çətin, sonu görünməyən, faydasız və səmərəsiz şəkildə təkrarlanan bir iş.*

***İfadənin tarixçəsi*** *qədim yunan mifologiyasından qaynaqlanır.*

*Yunan mifologiyasında Sizif – hiyləgər və qürurlu Korinf kralıdır. O, həmişə tanrıları aldadır və ələ salaraq onların sirlərini insanlara xəbər verirdi. Bundan qəzəblənən Zevs onu sərt cəzalandırdı: o, dağın zirvəsinə diyirləyərək daş qaldırmalı və həmin daş təzədən aşağı dığırlanmalı idi. Sizif hər dəfə həmin işi yenidən başlamalı idi.*

**IV qrup: DAMOKL QILINCI**

***Mənası:*** *daimi qorxu, gərginlik və narahatlıq, insanın başı üzərindən əskik olmayan təhlükə.*

***İfadənin tarixçəsi*** *qədim yunan əfsanəsi ilə əlaqədar yayılmışdır.*

*Dionisi adlı sərkərdə yunanların Siciliyada ən mühüm şəhəri olan və çiçəklənmə dövrünü yaşayan Sirakuzanın hökmdarı oldu. Onun hakimiyyəti illərində Sirakuzanın qüdrəti artmaqda davam etdi. O, hökmranlıq etdiyi 40 ilə yaxın dövrdə hakimiyyəti uzun müddət özündə saxlamaq üçün bir anlığa belə ehtiyatı əldən vermir, mühafizəçiləri həmişə yanında olur, heç kimə və heç nəyə inanmırdı.*

*Bir dəfə saray əyanlarından olan Damokl onun şan-şöhrətinə həsəd aparanda Dionisi ona öz hakim kreslosunu təklif edir. Heç olmasa, birgünlüyə də olsa, onu əvəz eləməyə razı salır. Damokl razılaşır və axşam ziyafətində masanın yuxarı başında əyləşir.*

*Ancaq o, dərhal başı üzərində nəyinsə hamının diqqətini cəlb elədiyini hiss edir. Yuxarı baxır və başı üzərində sıyrılmış iti qılınc görür. Qılınc bircə tüklə tavana bərkidilmişdi. Damokla yerindən qalxmağa icazə verilmədiyindən o bütün axşamı boğazından bir tikə keçmədən beləcə tərpənməz oturur. Həmin gecə onun üçün həyatının ən əzablı sınağı olur.*

*Dionisi bununla hər bir hökmdarın həyatının əbədi qorxu və qeyri-müəyyənlik içində, böhran anının nə vaxt gələcəyini gözləməklə keçdiyini vurğulayır.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal-qrafik informasiyadan ibarət araşdırma materiallarını rabitəli mətn şəklində təqdim edir. | Tap. **a** (D.) |

## 4-cü dərs. Birgünlük xəlifə

• Dərslik: səh. 70 • İş dəftəri: səh. 63

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətnlə bağlı suallar tərtib edir **(st. 5-1.1.1).**

**2.** Bədii mətndəki sadə üslubi fiqurları ( məşhur deyimlər, rəmzi adlar və s.) müəyyən edir **(st. 5-4.4.3).**

**3.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.3.1).**

**4.** Mövzu ilə bağlı şəxsi mövqeyini bildirmək üçün esse yazır **(st. 5-3.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə keçən dərsdə tanış olduqları ifadələri xatırladır. Şagirdlər bu ifadələrin mənasını, yaranma tarixçəsini danışırlar. Bu ifadələrin işlənə biləcəyi situasiyalar düşünürlər.

**Dinləmə**

**5-1.1.1. Tapşırıq a (dərslik).** Müəllim dinləmə mətnini səsləndirir:

***Birgünlük xəlifə***

*Xəlifə Harun ər-Rəşidin dövründə Bağdad şəhərində Əbül Həsən adlı bir gənc yaşayırdı. Çox xeyirxah və qonaqpərvər adam idi. Əbül Həsənin qəribə bir xasiyyəti vardı. Hərdən şəhər darvazasının qarşısına çıxar, şəhərə daxil olan qəribləri evinə dəvət edər, onları doyunca yedirib-içizdirərdi.*

*Bir gün libasını dəyişmiş Harun ər-Rəşid öz qulu ilə birgə şəhərə daxil olur. O, vaxtaşırı məmləkətini beləcə gəzər, ölkədə baş verənlərdən hali olardı. Əbül Həsən tacir qiyafəsində olan xəlifəni tanımayıb onu evinə dəvət etdi. Bu qəribə təklif xəlifəni maraqlandırdı və o razılaşdı. Əbül Həsən qonaqları evinə gətirdi. Burada onlar ləziz təamlardan yeyə-yeyə şirin söhbət etməyə başladılar. Ev sahibindən çox razı qalan Harun ər-Rəşid üzünü ona tutub dedi:*

*– Ey Əbül Həsən, mənə etdiyin hörmətdən çox məmnun qaldım. Amma istərdim ki, sən də məni xoş sözlərlə xatırlayasan. Buna görə də rica edirəm, mənə ən böyük arzunu söylə. Onu da bil ki, sənin istənilən arzunu yerinə yetirməyə imkanım çatar.*

*Əbül Həsən dedi:*

*– Ömrün uzun olsun, əziz qonağım. Mən sadə bir adamam. Lütfkarlıq edib evimə gəlməyin, süfrəmdə çörək kəsməyin mənim üçün ən böyük mükafatdır. Amma indi ki israr edirsən, deyim. Bizim şəhər bazarının bir darğası var. Hələ yer üzü onun kimi əzazil adam görməyib. Bütün bazar əhlinin gününü qara edib. Bax mən də Allahdan bircə şey istəyirəm: bircə gün Harun ər-Rəşidin yerinə xəlifə olaydım, o darğanı tutdurub yüz şallaq vurdurardım ki, ağlı başına gəlsin.*

*Bunu eşidən Harun ər-Rəşid gizlicə Əbül Həsənin badəsinə yuxu dərmanı tökdü. Ev sahibi badədən bir qurtum içən kimi dərin yuxuya getdi. Xəlifənin əmri ilə onun qulu oğlanı çiyninə aldı və onlar saraya yollandılar. Sarayda xəlifə hamını çağırıb əhvalatı danışdı və tapşırdı:*

*– Sabah səhərdən özünüzü elə aparmalısınız ki, guya bu gənc Harun ər-Rəşiddir. Səhər oğlan yuxudan oyanıb özünü sarayda, şahanə bir yataqda görüb mat qaldı, elə bildi ki, hələ də yatır, yuxu görür. Amma ətrafındakı adamların – nökərlərin, kənizlərin ona “Ey qibleyi-aləm” deyə müraciət etdiyini eşidəndə fikirləşdi ki, Allah onun arzusunu eşidib, o, doğrudan da, xəlifədir.*

*Səhər yeməyindən sonra baş vəzir içəri girib Əbül Həsənin qarşısında təzim etdi:*

*– Ey qibleyi-aləm! Vəzirlər, vəkillər, əyanlar divanxanada toplaşıb sənin təşrif buyurmağını gözləyirlər. Əbül Həsən divanxanaya daxil olub*

*əsl xəlifə kimi şikayətlərə baxmağa, hökmlər çıxarmağa başladı. Sonra şəhər valisinə əmr etdi ki, darğanı tutub camaata zülm etdiyinə görə yüz şallaq vurdursun.*

*Nəhayət, divanxanadakı işlər başa çatdı və Əbül Həsən saraya qayıtdı. Burada onu səhərkindən də təmtəraqlı nahar dəsgahı gözləyirdi. Əmrə müntəzir nökərlərin, kənizlərin əhatəsində Əbül Həsən özünü göyün yeddinci qatında hiss edirdi.*

*Bütün bu müddət ərzində Harun ər-Rəşid gizlicə Əbül Həsənə göz qoyurdu. Artıq tamaşaya son qoymaq vaxtı idi. Xəlifənin əmri ilə yenə də Əbül Həsənin badəsinə yuxu dərmanı töküb yatırtdılar və öz evinə apardılar. Səhər yuxudan öz yatağında oyanan oğlan başına gələnlərin yuxu olduğunu düşündü.*

**Tapşırıq a (iş dəftəri).**
**Cavab:** 8, 3, 5, 1, 7, 2, 6.

5-2.3.1. **Tapşırıq b (iş dəftəri).** Cavab təxminən belə ola bilər:

Əbül Həsən qonaqpərvər idi. **O, şəhərə daxil olan qəribləri evinə dəvət edər, onları doyunca yedirib-içizdirərdi.**

Əbül Həsən ədalətli idi. **O, xəlifə olanda ədalətli qərar verərək şəhər valisinə əmr etdi ki, darğanı tutub camaata zülm etdiyinə görə yüz şallaq vurdursun.**

5-4.4.3. **Tapşırıq b (dərslik).** Şagirdlərin cavabı təxminən belə ola bilər:

Müvəqqəti, çox az müddətdə hakimiyyət sürən, vəzifə başında çox az müddətdə olan adamlar haqqında deyilir.

**Yazı**

5-3.2.2. **Tapşırıq c (dərslik).** Tapşırıq şagirdlərin mühakimə yürütmə, fikirlərini arqumentlərlə izah etmə bacarığı ilə yazı vərdişlərini də möhkəmləndirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətnlə bağlı suallar tərtib edir. | Tap. a (D.), tap. a (İ.D.) |
| Mətndəki obrazları xarakterizə edir. | Tap. b (İ.D.) |
| Bədii mətndəki məşhur deyimləri izah edir. | Tap. b (D.) |
| Mühakimə və arqumentlərini əks etdirməklə kiçikhəcmli mətn yazır. | Tap. c (D.) |

## 5-ci dərs. Sözün sətirdən sətrə keçirilməsi

• Dərslik: səh. 71 • İş dəftəri: səh. 64

**Təlim məqsədləri**

**1.** Sözün sətirdən sətrə keçirilmə qaydalarına riayət edir **(st. 5-4.1.3).**

**Mövzuya yönəltmə**

5-4.1.3. **Tapşırıq a (dərslik).** Tapşırıq şagirdlərin aşağı siniflərdə heca haqqında öyrəndikləri biliklərin xatırlanmasına, təkrar edilməsinə yönəldilib.

**Tapşırıq b (dərslik).**

Cavab: *ümid, azad.* Çünki bir saitdən ibarət hecanı sətrin sonunda saxlamaq olmaz.

**Tapşırıq c (dərslik).** Cavab:

ida-rə, bə-dii, ədə-biy-yat, əməl, asu-də.

**Tapşırıq ç (dərslik).** Cavab:

quş-üzü-mü, yad-el-li, yarım-ada, soy-ad, Məmməd-əli, gün-or-ta, yer-al-tı, göz-ucu, on-il-lik, dağ-üs-tü, göz-al-tı

**Tapşırıq d (dərslik)**

Cavab: 1 – d; 2 – c; 3 – a; 4 – b.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin sözlərin sətirdən sətrə keçirilməsi haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün sətirdən sətrə keçirilmə qaydalarına riayət edir. | D. və İ.D. təqdim edilmiş tapşırıqlar |

# 4-cü fəsil

## 1-ci dərs. Bəs zınqırovu kim asacaq?

• Dərslik: səh. 72-73 • İş dəftəri: səh. 65

**Təlim məqsədləri**

**1.** Dialoji mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir **(st. 5-2.1.1).**
**2.** Kontekstə əsasən ifadələrin mənasını izah edir **(st. 5-2.1.3).**
**3.** Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir **(st. 5-2.3.6).**
**4.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim lövhəyə "böyük-böyük danışmaq" ifadəsini yazır. Şagirdlər bu ifadənin mənasını izah edir, bununla bağlı öz mövqelərini bildirir və onu əsaslandırırlar.

**Oxu**

**5-2.1.1. "Bəs zınqırovu kim asacaq?" mətni.** Şagirdlər mətni səssiz oxuyur, anlamadıqları sözlərin mənasını araşdırırlar.

**Söz ehtiyatı**

**5-2.1.3. Tapşırıq a (dərslik).** Cavab:

ürəyindən xəbər vermək – birinin ürəyindən keçən fikirləri hiss edərək söyləmək; ürəyincə olmaq, məmnun etmək.

sinəsinə dağ çəkmək – ağır mənəvi zərbə vurmaq, yandırıb-yaxmaq, əzab vermək.

**5-2.3.6. Tapşırıq b (dərslik).** Şagirdlər tapşırıqdakı sualı belə cavablandıra bilərlər: "*Bəzən kimsə maraqlı bir təklif irəli sürür. Lakin onun həyata necə keçiriləcəyi haqqında düşünmür. Belə məqamlarda bu məsəli işlədirlər*".

Şagirdlərin qurduğu hekayə isə təxminən aşağıdakı məzmunda ola bilər:

***Bəs zınqırovu kim asacaq?***

*Eldarla Rəsul dostluq edirdilər. Onların ataları da uşaqlıq dostları idilər. Eyni kənddə böyümüşdülər. Həm də qonşu olmuşdular. Elə ona görə də uşaqlar yay tətilində nənələrinin, babalarının yanına gedəndə də vaxtlarını bir yerdə keçirirdilər.*

*Bu yay tətilində Eldarla Rəsul yeni əyləncə tapmışdılar: kəndə yaxın meşədən cır meyvələr toplamaq. Gülşən nənə nə qədər deyirdi:*

*– Ay oğlum, bu meyvələri neyləyirsiz yığıb gətirirsiz? Axı heç yemirsiz də.*

*– Nənə, biz yeməsək də, quzulara veririk.*

*Bir gün meyvə yığarkən uşaqlar ağacdan sallanan bal pətəyi gördülər. İndiyə qədər bu cür pətəyi ancaq şəkillərdə görmüşdülər. Eldar maraqla soruşdu:*

*– Rəsul, görəsən, içində bal var? Maraqlıdır, dadı necədir?*

*Rəsul dilləndi:*

*– Burada nə var ki, əvvəlcə nazik bir çubuq tapmalıyıq. Sonra ağaca dırmaşmaq lazımdır. Astaca pətək sallanmış budağın üstündə oturub çubuğu deşikdən içəri salıb balın dadına baxarıq.*

*Eldar əllərini bir-birinə vurub güldü:*

*– Bəh-bəh, nə gözəl fikirdir! Lap yaxşı! İndi de görüm, "bəs zınqırovu kim asacaq", sən, yoxsa mən?*

**Oxuyub-anlama**

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).** Şagirdlər mətnin hekayə xəritəsini tərtib etməklə mətni kompleks təhlil edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstə əsasən ifadələrin mənasını izah edir. | Tap. a (D.) |
| Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir. | Tap. b (D.) |
| Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir. | Tap. a (İ.D.) |

## 2-ci dərs. İlanın yarpızdan zəhləsi gedir?

• Dərslik: səh. 73-74 • İş dəftəri: səh. 66

**Təlim məqsədləri**

**1.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**
**2.** Nitqin ekspressivliyində məcaz və leksik fiqurların rolunu izah edir **(st. 5-4.4.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqda qoyulmuş məsəllə bağlı fərziyyələr irəli sürürlər.

**Söz ehtiyatı**

**5-4.4.3. "İlanın zəhləsi yarpızdan gedir?" mətni.** Şagirdlər mətni səssiz oxuyur, anlamadıqları sözlərin mənasını araşdırırlar.

**Tapşırıq b (dərslik).**

Cavab: yuvanın qarşısı.

**Tapşırıq c (dərslik).** Cavab: qənim.

**Danışma**

**5-1.2.2. Tapşırıq ç (dərslik).** Şagirdlər təxminən belə situasiya danışa bilərlər:

- Bəyənmədiyin mahnını televiziyada və yaxud radioda tez-tez səsləndirirlər. Hər dəfə kanalı dəyişəndə qarşına çıxır.
- Xoşlamadığın şəxslə tez-tez rastlaşırsan.

**5-4.4.3. Tapşırıq a (iş dəftəri).** Şagirdlər mətni təxminən belə məzmunda davam etdirə bilərlər:

Çox güman ki, bu "bəlkə" deyil, "bəlgə"dir. Çünki "bəlgə" əkin sahələri arasında boş qalan, əkilməyən yer deməkdir. Məntiqlə ifadə "Bəlgəni əkiblər, bitməyib" kimi işlənməlidir. Yəqin ki, "bəlgə" sözünün "bəlkə" sözü ilə oxşarlığı məsəlin təhrif olunmasına gətirib çıxarmışdır.

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər mətni təxminən belə məzmunda davam etdirə bilərlər:

Çox güman ki, ifadə "Yol böyüyün, suç kiçiyindir" şəklində olmalıdır. Çünki kiçiklər təcrübəsizlikdən tez-tez səhv edirlər. Böyüklər isə onlara yol göstərir, məsləhət verirlər. Yəqin ki, zaman keçdikcə "suç" sözü təhrif edilərək "su" kimi işlənmişdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. **a** (D.) |
| Nitqin ekspresivliyində məcaz və leksik fiqurların rolunu izah edir. | Tap. **b**, **c**, **ç** (D.), tap. **a**, **b** (İ.D.) |

## 3-cü dərs. Gəmiləri yandırmaq

• Dərslik: səh. 74 • İş dəftəri: səh. 67

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətnlə bağlı suallar tərtib edir **(st. 5-1.1.1).**
**2.** Oxuduğu və ya dinlədiyi mətni nəql edir **(st. 5-1.3.1).**
**3.** Nitqin ekspressivliyində məcaz və leksik fiqurların rolunu izah edir **(st. 5-4.4.3).**
**4.** Verbal-qrafik informasiyanı rabitəli mətn şəklində yazır **(st. 5-3.2.1).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə keçən dərsdə tanış olduqları ifadələri xatırladır. Şagirdlər bu ifadələrin mənasını, yaranma tarixçəsini danışırlar. Bu ifadələrin işlənə biləcəyi situasiyalar düşünürlər.

**Dinləmə**

**5-1.1.1. Tapşırıq a (dərslik).** Müəllim dinləmə mətnini səsləndirir:

***Gəmiləri yandırmaq***

*"Gəmiləri yandırmaq" ifadəsi "geriyə yol qoymamaq, arxaya çəkilməyə qəti imkan verməmək, yalnız irəli gedərək döyüşmək və qələbə çalmaq əzmini nümayiş etdirmək" mənasında işlənir. Qədim zamanlarda öz döyüşçülərinin cəsarətinə o qədər də bel bağlamayan qətiyyətli sərkərdələr sahilə çıxandan sonra gəmiləri yandırırdılar ki, döyüş meydanından qaçmaq imkanı qalmasın. Geriyə yolun olmadığını görən döyüşçülər ölümü gözə alaraq əzmkarlıqla vuruşur və çox zaman qalib gəlirdilər.*

*İfadənin yaranması ilə bağlı müxtəlif mülahizələr var. Onlardan ən qədimi Troya müharibəsi ilə bağlıdır. Yunanlarla müharibədən sonra troyalılar İtaliya sahillərinə üzüb gəlmişdilər. Bu yerlərin təbiəti Troya qadınlarının elə xoşuna gəlir ki, ərləri buradan heç yerə getməsinlər deyə bütün gəmiləri yandırıblar.*

*Şərqdə isə bu ifadə ərəb xilafətinin hərbi yürüşlərindən sonra geniş yayılmışdır. VIII əsrdə islam dininin Avropaya da yayılması üçün hərbi yürüşlər başlanmışdı. 711-ci ildə məşhur sərkərdə Tariq ibn Ziyadın başçılığı ilə ərəb ordusu Cəbəlüttariq boğazını keçərək İspaniya torpaqlarına çıxır. Ordu sahilə çıxan kimi ibn Ziyad əsgərlərin geri qaçmaması üçün hamının gözü qarşısında bütün gəmiləri yandırmağı əmr edir. Sərkərdə*

*ordu qarşısındakı çıxışında bildirir ki, bu müqəddəs məqsəd üçün ölənədək döyüşmək lazım gələcək: "Arxanızda düşmən kimi dəniz, önünüzdə dəniz kimi düşmən! Sonadək döyüşməkdən başqa yol qalmamışdır".*

### Danışma

5-1.3.1. **Tapşırıq b (dərslik).** Şagirdlər dinlədikləri mətn haqqında aşağıdakı məzmunda məruzə edə bilərlər:

**İfadə:** Gəmiləri yandırmaq.

**İfadənin yaranma tarixçəsi:** 1) Troya müharibəsindən sonrakı hadisələr; 2) Ərəb ordusunun İspaniyaya hücumu.

**Troya müharibəsi ilə bağlı:** Yunanlarla müharibədə məğlub olandan sonra troyalılar İtaliya sahillərinə üzüb gəlmişlər. Bu yerlərin təbiəti troyalıların arvadlarının elə xoşuna gəlib ki, ərləri buradan heç yerə getməsinlər deyə bütün gəmiləri yandırıblar.

**Ərəb xilafəti ilə bağlı:** Ərəb sərkərdəsi Tariq ibn Ziyadın başçılığı ilə ərəb ordusu İspaniya torpaqlarına çıxır. Ordu sahilə çıxan kimi ibn Ziyad əsgərlərin geri qaçmaması üçün hamının gözü qarşısında bütün gəmiləri yandırmağı əmr edir.

**İfadənin mənası:** Geriyə yol qoymamaq, keçmişlə əlaqəni tamamilə kəsmək.

### Söz ehtiyatı

5-4.4.3. **Tapşırıq c (dərslik).** Şagirdlərin cavabı təxminən belə ola bilər:

Körpü iki sahili birləşdirən vasitədir. Gəmilər də bir limandan digərinə çatmaq üçün vasitədir. Əgər gəmiləri yandırmaq "əlaqələri kəsmək" mənasını ifadə edirsə, deməli, "körpüləri yandırmaq" ifadəsi də oxşar məna daşıyır. Lakin hazırda "körpüləri yandırmaq" ifadəsi başqa mənada işlənir, hansısa münasibətin qəti şəkildə pozulduğunu, yenidən bərpasının mümkünsüzlüyünü bildirir.

**Tapşırıq a (iş dəftəri).** Cavab: d
**Tapşırıq b (iş dəftəri).** Cavab: b
**Tapşırıq c (iş dəftəri).** Cavab: c
**Tapşırıq ç (iş dəftəri).** Cavab: Savaşanda barışmağa üz saxla.

### Yazı

5-3.2.1. **Tapşırıq ç (dərslik).** Şagirdlərin yazdığı mətn təxminən aşağıdakı məzmunda ola bilər:

*Divanü lüğat-it-türk türk dünyasının ilk lüğətidir. XI əsrdə Bağdadda böyük türk alimi Mahmud Kaşğari tərəfindən yaradılmışdır.*

*Kitab quruluş etibarilə lüğətdir. Lakin hikmətli sözlər, atalar sözləri, şeir, nəsr kimi nümunələrlə zəngindir. Belə ki, "Divanü lüğat-it-türk" kitabında 9222 türk sözü, söz birləşmələrinin izahı ilə yanaşı, şeir parçaları, atalar sözlərinə də yer ayrılıb. Türk dillərində ahəng qanunu haqqında ilk dəfə bu kitabda məlumat verilmişdir. Lüğətin sonunda türk dünyasının ərazisini əks etdirən xəritə çəkilmişdir.*

*Lüğətin məqsədi türk sözlərini ərəb dilinə tərcümə və izah etməkdir. Yəni türkcə-ərəbcə izahlı lüğətdir.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətnlə bağlı suallar tərtib edir. | Tap. a (D.), tap. a, b, c, ç (İ.D.) |
| Oxuduğu və ya dinlədiyi mətni nəql edir. | Tap. b (D.) |
| Sözün həqiqi və məcazi mənalarını fərqləndirir, frazeologizmləri müəyyən edir. | Tap. c (D.) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli qeyri-bədii mətn yazır. | Tap. ç (D.) |

## 4-cü dərs. Lüğətdən istifadə

• Dərslik: səh. 75 • İş dəftəri: səh. 68

**Təlim məqsədləri**

**1.** Söz və ya ifadənin mənasını izah etmək üçün lüğətdən istifadə etmək bacarığını nümayiş etdirir (st. 5-4.4.2).

### Mövzuya yönəltmə

Müəllim yönəldici sual vasitəsilə beyin həmləsi edir:

– Tanış olmayan sözlərin mənasını necə araşdırırsınız?

### Söz ehtiyatı

5-4.4.2. **Tapşırıq a (dərslik).** Şagirdlər lüğətin quruluşu ilə tanış olurlar.

**Tapşırıq b (dərslik).** Cavab:
1. adət, ala-bəzək, alpinist
2. batut, bəkməz, bərbər
3. çəpər, çərçivə, çərkəzi

**Tapşırıq c (dərslik).**

**Müəllimin nəzərinə!** Omonimlər ayrı-ayrı leksik vahidlərdir. Buna görə də lüğətlərdə omonimlər ayrı-ayrı sözlər kimi verilir və onların üzərində sıra nömrəsi qoyulur. Çoxmənalı sözlərdə mənalardan biri əsas, digərləri isə ondan törəmə olur. Lüğətlərdə çoxmənalı sözlər eyni sözün müxtəlif mənaları kimi verilir və qarşısında sıra nömrələri qoyulur.

**Tapşırıq ç (dərslik).**

Mürəkkəb[1], *sifət; Mən sadə və mürəkkəb cümlələrə aid nümunələr yazdım.*

mürəkkəb[2], *isim; Qələmim yazmır, deyəsən, mürəkkəbi qurtarıb.*

ayaq, *isim; 1. Dünən çox idman etmişəm deyə ayaqlarım çox ağrıyır.*

ayaq, *isim; 2. Kəndin ayağında böyük bir mağaza açıblar.*

**Tapşırıq a (iş dəftəri). Düzgün cavab nümunəsi:**

***Söz:*** *şeh*

***Aid olduğu nitq hissəsi:*** *isim*

***İzah:*** *Rütubətli havada gecələr torpaq, bitki və s.-nin üzərinə qonan incə su damcıları*

***Kontekst:*** *Qızılgül kollarının üstünə düşən şehi görəndə elə bildim yağış yağıb.*

**Tapşırıq b (iş dəftəri).** Şagirdlərin cavabları təxminən belə ola bilər:

**qol** *isim.* – 1. insan bədəninin, çiynin başından barmaqların ucuna qədər olan iki üzvündən hər biri; 2. dastanın ayrı-ayrı hissəsi, fəsli, hekayəsi, epizodu.

**Tapşırıq c (iş dəftəri).** Şagirdlərin cavabları təxminən belə ola bilər:

**Bel**[1] *isim.* – bədənin ortası, qurşaq bağlanan yeri.

**Bel**[2] *isim.* – sağ və ya sol yanında ayaqla basmaq üçün çıxıntısı olan uzunsaplı qazma aləti.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz və ya ifadənin mənasını izah etmək üçün lüğətdən istifadə etmək bacarığını nümayiş etdirir. | Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar |

## Ümumiləşdirici təkrar

• Dərslik: səh. 76-77

**Təlim məqsədləri**

**1.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**2.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.3.1).**

**3.** Söz tərkibindəki morfemin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir **(st. 5-4.4.1).**

**4.** Söz və ifadələri müxtəlif yollarla (cümlədə işlətməklə, sinonim və antonimlərdən istifadə etməklə və s.) izah edir **(st. 5-4.4.2).**

**5.** Sözün sətirdən sətrə keçirilmə qaydalarına riayət edir **(st. 5-4.1.3).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə bu bölmədə oxunmuş və dinlənilmiş mətnləri xatırladır. Bu mətnlərin mövzusu, məzmunu və əsas ideyası ətrafında müzakirə aparılır. Şagirdlər ən çox bəyəndikləri mətnlər və seçimlərinin səbəbi haqqında danışırlar.

**Oxu**

**Tapşırıq 1 (dərslik).** Cavab:

1 – düzgün; 2 – yanlış; 3 – düzgün;
4 – düzgün; 5 – yanlış.

**5-2.3.1. Tapşırıq 2 (dərslik).** Cavab:

**uzaqgörən** – kral cəngavərləri arasında "kim krala yaxın oturur" söhbətlərinin yarana biləcəyi haqqında əvvəlcədən fikirləşirdi.

**tədbirli** – kral yığıncaqları dəyirmi masa arxasında keçirirdi.

**ədalətli** – iştirakçılar hər dəfə saat əqrəbi istiqamətində yerlərini dəyişirdilər. Burada birinci və yaxud ikinci yer yox idi.

**5-4.4.2. Tapşırıq 3 (dərslik).** Cavab:

*– Qonaqlar üçün dəyirmi masada süfrə açdıq.*

*– Bu məsələ haqqında dəyirmi masa arxasında müzakirə aparıldı.*

**5-4.4.1. Tapşırıq 4 (dərslik).** Cavab:

*televizor* – televiziya verilişlərini və onların səsini qəbul edən radiotexniki qurğu, cihaz.

*teleskop* – göy cisimlərini müşahidə etmək üçün optik cihaz.

*telefon* – danışığı uzaq məsafəyə verən qurğular sistemi; elektrik rabitə növü.

*telepatiya* – hiss orqanlarının köməyi ilə fikir və duyğuların müəyyən məsafəyə ötürülməsi; məsafədən duyma.

**Tapşırıq 5 (dərslik).** Cavab:

1. sənətdən (-dan²), sənətin (-ın⁴), sənətkar (-kar)

2. dəftərxana (-xana), dəftərə (-a²), dəftərim (-ım⁴)

3. qayğılar (-lar²), qayğılı (-lı⁴), qayğıkeş (-keş)

4. qənddan (-dan), qəndin (-ın⁴), qəndsiz (-sız⁴)

5-4.4.2. **Tapşırıq 6 (dərslik).** Cavab:

1. gözəl; 2. döyüşdülər; 3. yüksək; 4. qaçdı.

**Tapşırıq 7 (dərslik).** Cavab:

qapalı – örtülü, açıq olmayan

fərəhlənmək – sevinmək, yəni qüssələnməmək

təvazökar – sadə, lovğa olmayan

şən – şad, qəmli olmayan

5-4.1.3. **Tapşırıq 8 (dərslik).** Cavab:

acı-dil, dil-ucu, Həsən-əli, yer-üs-tü, yüz-il-lik, gün-ara-sı, dağ-ətə-yi

**Tapşırıq 9 (dərslik).** Cavab:

universitetdə, 1973-cü, M.Adilov, etimologiyasını

5-4.4.2 **Tapşırıq 10 (dərslik).** Cavab:

**biz¹** *əvəzlik*. Biz beşinci sinifdə oxuyuruq.

**biz²** *isim*. Çəkməçi biz ilə deşik açdı.

**diş** *isim.* 1. Uşağın dişi bərk ağrıyırdı. 2. Darağın dişi qırılmışdı.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir. | Tap. 1 (D.) |
| Mətndəki obrazları xarakterizə edir. | Tap. 2 (D.) |
| Morfeminin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. 4 (D.) |
| Sözü izah etmək üçün cümlədə işlədir, sinonim və antonimlərdən istifadə edir. | Tap. 3, 6, 7, 10 (D.) |
| Sözün sətirdən sətrə keçirilmə qaydalarına riayət edir. | Tap. 8, 9 (D.) |

## I yarımil üzrə ümumiləşdirici təkrar

• İş dəftəri: səh. 69-71

I yarımildə keçirilmiş mövzuların təkrarı üçün iş dəftərində təqdim edimiş sual və tapşırıqlar dinləmə və dil qaydaları məzmun xəttini əhatə edən standartlar üzrə şagirdlərin bilik və bacarıqlarını yoxlamağa imkan verir.

**Dinləmə**

**5-2.1.2. Tapşırıq 1 (iş dəftəri).** Müəllim mətni səsləndirir.

***Ustadın dərsi***

*Çin hökmdarı oğlunu taxta hazırlamaq üçün ustadının yanına göndərir.*

*Ustad şahzadəyə tapşırır ki, meşədə bir il yaşamalı və bu müddətdə eşitdiyi səslər haqqında gəlib ona danışmalıdır.*

*Bir il keçir, şahzadə qayıdır. O, ustadına meşədə eşitdiyi səslərdən – quşların nəğməsindən, yarpaqların xışıltısından, arıların vızıltısından danışır. Ancaq gəncin cavabı ustadı qane etmir. Şahzadəni yenidən meşəyə göndərir və tapşırır ki, təbiətin səsinə daha diqqətlə qulaq assın.*

*Meşəyə qayıdan şahzadə uzun müddət təklikdə təbiətin səsinə qulaq kəsilib indiyə qədər eşitmədiklərini eşitməyə çalışır.*

*Bir gün şahzadə bir ağacın altında dincələrkən indiyə qədər duymadığı zəif səslər eşitməyə başlayır. Şahzadə sevinir. Çünki o, ustadına nə cavab verəcəyini artıq öyrənmişdi.*

*Vaxt tamam olanda şahzadə ustadının yanına qayıdır və ona əvvəl eşitmədiyi səslərdən danışır: çiçək necə açılır, günəş yeri necə isidir, bitkilər səhər şehini necə udur. Ustad razılıqla başını tərpədir və deyir:*

*– Eşidilməyəni eşitmək – bu, idarəçi olmaq üçün vacib səriştədir. Hökmdar insanların səsləndirilməyən düşüncələrini, hiss və arzularını eşitdiyi zaman öz xalqının etibarını qazana bilər.*

**Tapşırıq 2 (iş dəftəri).** <u>Cavab</u>: d

**Tapşırıq 3 (iş dəftəri).** Şagirdlər mətnin məzmunundan çıxış edərək cədvəli tamamlayırlar.

| Ustadın tapşırığı | Şahzadənin eşitdiyi səslər |
|---|---|
| Şahzadə meşədə bir il yaşayıb eşitdiyi səsləri gəlib ona danışmalıdır. | quşların nəğməsi, yarpaqların xışıltısı, arıların vızıltısı. |
| Şahzadəni yenidən meşəyə göndərir və tapşırır ki, təbiətin səsinə daha diqqətlə qulaq assın. | çiçəyin açılması, günəşin yeri isitməsi, bitkilərin səhər şehini udması. |

**Tapşırıq 4 (iş dəftəri).** <u>Cavab</u>: b

**Tapşırıq 5 (iş dəftəri).** Mətnin sonuncu abzasına əsasən sual cavablandırılır: *Hökmdar insanların səsləndirilməyən düşüncələrini, hiss və arzularını eşitməlidir.*

**Dil qaydaları**

**Tapşırıq 6 (iş dəftəri).** <u>Cavab</u>: 1, 3, 4-cü sözlərin şəkilçiləri 2-ci cür, 2,5,6-cı sözlərdəki şəkilçilər isə 4 cür yazılır.

**Tapşırıq 7 (iş dəftəri).** <u>Cavab</u>:

1. Rüfətin hərarəti **yüksək** idi.
2. Kişi **köhnə** paltosunu çıxarıb asılqandan asdı.
3. İradəsi **güclü** olan insan daim uğur qazanır.
4. **Qızmar** günəş şüaları sağlamlıq üçün təhlükəlidir.

**Tapşırıq 8 (iş dəftəri).** <u>Cavab</u>:
gümrah – sağlam, xəstə olmayan,
rəhmdil – xeyirxah, biganə olmayan.

**Tapşırıq 9 (iş dəftəri).** <u>Cavab</u>:
yad-el-li, dağ-üs-tü, göz-ucu.

**Tapşırıq 10 (iş dəftəri).** <u>Cavab</u>:
**ləpə**[1]-qoz, fındıq, badam kimi qabıqlı meyvələrin içi.
**ləpə**[2]- suyun üzündə əmələ gələn kiçik dalğa.

**Tapşırıq 11 (iş dəftəri).** <u>Cavab</u>:
pilləkən, münbit, həyəcan, kollektiv.

**Tapşırıq 12 (iş dəftəri).** <u>Cavab</u>: seçki, çiçək,rəqs, papaq.

**Tapşırıq 13 (iş dəftəri).** <u>Cavab</u>: yastıq, qüssələnmək, hekayə, sürətlə, beş.

**Tapşırıq 14 (iş dəftəri).** <u>Cavab</u>: qiymətli hədiyyə (həqiqi), qiymətli fikir (məcazi); ağır vedrə (həqiqi), ağır söz (məcazi); qızıl boyunbağı (həqiqi), qızıl ürək (məcazi).

**Tapşırıq 15 (iş dəftəri).** <u>Cavab</u>:
gül**lük** – çoxlu gül əkilmiş və ya gül açmış yer; çiçəklik;
gül**dan** – dərilmiş gülü qoymaq üçün müxtəlif formalı qab; gülqabı.

**Tapşırıq 16 (iş dəftəri).** <u>Cavab</u>:
ağ-qara, yer-yurd, isti-soyuq, əl-ayaq.

bölmə **5** 

# ÖZÜNƏ İNAN

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Ala-bəzək torba | Oxu | 6-8 | 3 | 121-122 |
| 2 | Ala-bəzək torba | Oxu. Danışma | 9 | 4 | 122-123 |
| 3 | Demosfen | Dinləmə. Yazı | 9 | - | 123-124 |
| 4 | Əsas və köməkçi nitq hissələri | Dil qaydaları | 10 | 5 | 124-125 |
| 5 | Köməkçi nitq hissələri | Dil qaydaları | 11 | 6 | 125-126 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Əlvida, "bilmirəm"! | Oxu | 12-14 | 7 | 127-128 |
| 2 | Əlvida, "bilmirəm"! | Oxu. Danışma | 14-15 | 8 | 129 |
| 3 | Şəxsiyyət və xarakter | Danışma | 15 | 9 | 129-131 |
| 4 | Xarakterimdəki hansı zəif cəhətə *"əlvida"* demək istərdim | Yazı | 15 | - | 131-132 |
| 5 | İsim | Dil qaydaları | 16 | 10 | 132-133 |
| 6 | Toplu isimlər | Dil qaydaları | 17 | 11 | 133 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Elektron ünvanım olsaydı... | Oxu. Dil qaydaları (Leksika) | 18-20 | 12 | 134 |
| 2 | Geytsin uğur taleyi | Dinləmə | 20 | 13 | 135-136 |
| 3 | İsmin mənsubiyyətə görə dəyişməsi | Dil qaydaları | 21 | 14 | 137 |
| **4-cü fəsil** | | | | | |
| 1 | Sonuncu düym | Oxu | 22-24 | 15 | 138 |
| 2 | Sonuncu düym | Oxu. Danışma | 24-25 | 16 | 139-140 |
| 3 | Əzmkar alpinist | Oxu. Dinləmə | 25-26 | 17 | 140-141 |
| 4 | Özünə qalib gəlmək | Yazı | 26 | - | 141-142 |
| 5 | İsmin şəxsə görə dəyişməsi | Dil qaydaları | 27 | 18 | 142-143 |
| 6 | Ümumiləşdirici təkrar | | 28-29 | 19 | 143-145 |

# 1-ci fəsil

## 1-ci dərs. Ala-bəzək torba

• Dərslik: səh. 6-8 • İş dəftəri: səh. 3

**Təlim məqsədləri**

**1.** Mətni oxuyarkən rast gəldiyi yeni söz və ya ifadəni cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir **(st. 5-2.1.3).**

**2.** Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını izah (təxmin) edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**

**3.** Mətndə açıq şəkildə ifadə olunmayan informasiya haqqında fikir yürüdür **(st. 5-2.2.2).**

**4.** Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Bu tapşırıqla şagirdləri mövzuya yönəltmək olar. Şagirdlər verilən suallara uyğun bildikləri cavabı seçirlər. Onlar öz cavablarını əsaslandırırlar. Yaranan müzakirə nəticəsində şagirdlər öz fikirlərini sərbəst şəkildə ifadə etmiş olurlar.

### Oxu

“Ala-bəzək torba” mətninin növbəli oxusu həyata keçirilir.

### Söz ehtiyatı

**5-2.1.3. Tapşırıq b (dərslik).** Tapşırıqda nöqtələrin yerinə uyğun gələn sözü “Söz boğçası”ndan seçib yazmaq tələb olunur. Şagirdlər sözün kontekstə görə mənasını müəyyən etməklə tapşırığı yerinə yetirirlər.

Cavab: 1. müdhiş; 2. müşkül; 3. konfrans; 4. ehtimal.

**Tapşırıq c (dərslik).** Tapşırığın şərtinə görə “xof” sözünə aid yaxınmənalı sözləri müəyyənləşdirmək lazımdır. Şagirdlər mənasına bələd olduqları uyğun sözləri seçməklə tapşırığı yerinə yetirirlər. Mətndə “xof” sözü işlənmiş cümlədə verilmiş sözləri işlətməklə də bu işi yerinə yetirmək olar.

Cavab: 1. vahimə; 2. qorxu; 3. dəhşət.

**“Qlossari”** rubrikasında “natamamlıq kompleksi” ifadəsi izah edilir. Müəllim bu izahın üzərində iş aparsa, faydalı olar. Məsələn, şagirdlər özlərində və ya sinif yoldaşlarında müşahidə etdikləri komplekslər haqqında danışa bilərlər.

**Tapşırıq ç (dərslik).** “Natamamlıq kompleksinə qalib gəlmək” ifadəsini şərh etmək bu tapşırığın tələbidir. Şagirdlər mətndəki Aygün obrazının nümunəsində bunu edə bilərlər.

**Cavab təxminən belə ola bilər:** İnsan özünə güvənməklə, özünəinam hissini formalaşdırmaqla natamamlıq kompleksindən azad ola bilər.

**5-2.2.2. Tapşırıq a (iş dəftəri).** Tapşırığın şərtinə əsasən şagirdlər mətndəki əsas fikrin açılmasında mühüm rolu olan epizodları müəyyən etməlidirlər.

Cavab: 2, 3, 4.

**Tapşırıq b (iş dəftəri).** Tapşırığın tələbinə əsasən Aygündə özünəinam hissinin olmamasını mətndən nümunələr gətirməklə əsaslandırmaq lazımdır. Bu, Aygünün nitqindən və davranışından açıq-aydın bilinir. *Məsələn*: Həmişə düşünür ki, birdən nəyisə düz etməz və yaxud çaşa bilər, ona gülərlər. Və yaxud məruzə hazırlayarkən düşünür ki, kaş məruzəni mən hazırlayaydım, çıxışı isə başqası təqdim edəydi.

**Tapşırıq c (iş dəftəri).** Bu tapşırıqda şagirdlər torbanın sirrini izah etməlidirlər.

Cavab: Atanın tikdirdiyi torbada gizli cib var idi. Ata mavi şarları bu cibə qoymuşdu. Ata mavi şarları həmin cibdən çıxarır.

**5-2.2.1. Tapşırıq ç (iş dəftəri).** Oxuyub-anlama bacarığını möhkəmləndirən bu tapşırıqda şagirdlər baş verən hadisənin səbəbini müəyyən edirlər.

**I hadisə:** Aygün məruzəni yazsa da, çıxış etmək istəmirdi.

**Səbəbi:** Çünki özünə inanmırdı. Düşünürdü ki, birdən yoldaşları ona gülərlər. Aygünün natamamlıq kompleksi var idi.

**II hadisə:** Ata rəngli şarlarla oyun keçirdi.

**Səbəbi:** Ata Aygünü natamamlıq kompleksindən azad etmək istəyirdi.

**III hadisə:** Aygün çıxışından bir gün əvvəl səhərəcən məşq etdi.

**Səbəbi:** Aygün istəyirdi ki, məruzə zamanı özünü itirməsin. Özünəinam hissi formalaşsın.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözü izah etmək üçün cümlədə işlədir, lüğəvi izahla uyğunluğunu müəyyən edir, sinonimlərdən istifadə edir. | Tap. **b**, **c**, **ç** (D.) |
| Mətndə sətiraltı fikir və informasiyanı izah edir. | Tap. **a**, **b**, **c** (İ.D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin səbəb və nəticəsini müəyyən edir. | Tap **ç** (İ.D.) |

## 2-ci dərs. Ala-bəzək torba

• Dərslik: səh. 9 • İş dəftəri: səh. 4

**Təlim məqsədləri**

**1.** Mətnə aid fakt və fikirləri müəyyən edir **(st. 5-2.1.2).**
**2.** Mətnin məzmunundan çıxış edərək müəllifin birbaşa ifadə etmədiyi fikirləri müəyyənləşdirir **(st. 5-2.2.2).**
**3.** Mətnin epiqrafını onun məzmunu ilə əlaqələndirir **(st. 5-2.3.3).**
**4.** Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun genişləndirir **(st. 5-2.3.6).**
**5.** Oxuduğu və ya dinlədiyi mətnin qısa məzmununu yazır **(st. 5-3.2.1).**

**Mövzuya yönəltmə**

Mətni xatırlatmaq məqsədilə məzmun üzrə frontal sorğu keçirilir. Sonra tapşırıqların yerinə yetirilməsinə başlanılır.

**Oxuyub-qavrama**

**5-2.1.2. Tapşırıq a (dərslik).** Şagirdlər verilənlərin içərisindən düzgün fikirləri seçməlidirlər.

Tapşırığın 1-ci cümləsində verilən fikir doğru deyil. Çünki Aygün məruzə hazırlamaqda çətinlik çəkmirdi, onu təqdim etməkdən çəkinirdi.

2-ci cümlədəki fikir doğrudur. Aygünü həmişə ətrafdakı insanların onun haqqında nə düşündükləri narahat edirdi.

3-cü cümlədəki fikir yanlışdır. Çünki şarları ata özü torbanın içinə yerləşdirmişdi.

4-cü cümlədəki fikir yanlışdır. Ana atanın planından xəbərdar idi.

5-ci cümlədəki fikir doğrudur. Nəzərə alaq ki, bu oyun Aygün 5-ci sinifdə oxuyarkən olub və həmin əhvalatdan 14 il keçəndən sonra onun atası vəfat edib. Bu halda Aygün 25-26 yaşlarda ola bilər.

Cavab: 2, 5.

**5-2.2.2. Tapşırıq b (dərslik).** Bu tapşırıqda şagirdlərə belə bir sual ünvanlanır: Sizcə, nə üçün ata məruzə edərkən Leyliyə baxmağı tövsiyə etdi?

**Cavab təxminən belə ola bilər:** Çünki Leyli Aygünün ən yaxın rəfiqəsi idi. Aygün Leyliyə çox güvənirdi və ona baxanda ürəklənirdi. Ata da düşünürdü ki, belə vəziyyətdə Aygün diqqətini cəmləşdirə bilər, çaşmaz.

Dərsliyin bu səhifəsində **"Qlossari"** rubrikasında *epiqraf* sözü izah edilir. Müəllim epiqraf sözünün mənasını izah edir və növbəti tapşırığa keçid olunur.

**5-2.3.3. Tapşırıq c (dərslik).** Bu tapşırıqda şagirdlər mətnin əvvəlində verilən U.Rocersin "Məğlubiyyətin əsas səbəbi ümidsizlik və qorxudur" aforizmini mətnin məzmunu ilə əlaqələndirirlər.

Cavab: Aygün əvvəl məruzə etməkdən çox qorxurdu. Təqdimatının uğurlu olacağına ümidi yox idi. Lakin atasının köməyi ilə bu mənfi hissləri özündən uzaqlaşdırdı. Nəticədə hər kəsin bəyəndiyi bir çıxışla uğur qazandı.

**Tapşırıq ç (dərslik).** Mətndə altından xətt çəkilmiş cümlələrin əvvəlində üç nöqtə qoyulub: "...Axşam Zərifə müəllim Aygünün anasına zəng etdi" və "...On dörd il sonra" cümlələrində üç nöqtə əvvəldə qoyulub. Bu işarə hadisənin müəyyən zaman keçdikdən sonra baş verdiyini bildirir. Digər cümlələrin sonunda qoyulan üç nöqtə fikrin hələ davam etdiyini bildirir.

**5-2.3.6. Tapşırıq d (dərslik).** Növbəti tapşırıqda iki yarımbaşlıq təqdim olunur. Bu yarımbaşlığa aid epizodlar mətndə öz əksini tapmayıb. Şagirdlər təxəyyüllərinə uyğun olaraq epizodlar düşünüb mətni genişləndirməlidirlər. *Nümunə:*

**I epizod:** *Aygünün təqdimatı.*

Nəhayət, Azərbaycan dili dərsi başladı. Uşaqlar bir-bir öz məruzələrini təqdim etdilər. Yaxşı çıxış edən də oldu, özünü itirən də...

Növbə Aygünə çatdı. O, asta-asta lövhənin qarşısına keçdi. Həyəcanlı idi. Hiss edirdi ki, ayaqları əsir, əlləri titrəyir. Axı ilk dəfə idi ki, təq-

dimatla çıxış edirdi. Birdən atasının sözlərini xatırladı. Sinfə göz gəzdirdi. Leyli gülümsəyərək ona baxırdı. Sanki “qorxma, mən buradayam”, – deyirdi. Birdən-birə Aygün özünü toparladı və təqdimata başladı. O, əvvəlcə gözlərini Leylidən çəkmədən danışırdı, lakin get-gedə digər yoldaşları ilə də göz təması qurur, daha da sərbəstləşirdi. Hamı Aygünə heyranlıqla tamaşa edirdi. O, məşqdəkindən daha rahat, daha arxayın görünürdü. Aygün təqdimatını bitirən kimi alqış sədaları eşidildi.

**II epizod:** *Aygünün həyatda uğurları.*

Artıq Aygün heç nədən və heç kimdən çəkinmirdi. Özünəinam hissi o qədər güclü idi ki, hər işin öhdəsindən gəlməyi bacarırdı. Məktəbin bütün tədbirlərində fəal iştirak edirdi. Məktəbi əla qiymətlərlə başa vurduqdan sonra universitetə daxil oldu. Universitetdə də ən fəal tələbə kimi tanındı. İş həyatında da uğurları bir-birini əvəz etdi.

Bu tapşırıq şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirməklə yanaşı, həm də nitq fəaliyyətini, danışma bacarığını fəallaşdırmağa xidmət edir.

### Yazı

**5-3.2.1. Tapşırıq a (iş dəftəri).** İş dəftərində mətnin məzmununu əhatə edən altı bənddən ibarət plan təqdim olunur. Şagirdlər bu plan əsasında mətnin qısa məzmununu yazırlar.

**Müəllimin nəzərinə!** Yazı işinin asanlaşdırılması məqsədilə şagirdlərə mətni bir daha səssiz oxumaq tapşırıla bilər. Yazı prosesi zamanı şagirdlərin dərslikdən istifadə etməməsi tövsiyə olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır. | Tap. d (D.) |
| Plan əsasında oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. a (İ.D.) |
| Epiqrafı mətnin məzmunu ilə əlaqələndirir. | Tap. c (D.) |

## 3-cü dərs. Demosfen

• Dərslik: səh. 9

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətnlə bağlı sualları cavablandırır (st. 5-1.1.1).
**2.** Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 5-2.3.5).
**3.** Oxuduğu və ya dinlədiyi mətnin qısa məzmununu yazır (st. 5-3.2.1).

### Mövzuya yönəltmə

Müəllim natiqlik sənəti haqqında məlumat verir, natiqlik sənətinin izahını verir.

*Nümunə*:

Hələ lap qədim zamanlardan gözəl nitq qabiliyyətinə malik insanlar olub. Onlar özlərinin danışıq tərzi ilə minlərlə insanların diqqətini cəlb etməyi bacarıblar. Belə insanlar “natiq”, məşğul olduqları sənət növü isə “natiqlik sənəti” adlanır. Natiqlər öz nitqlərini onları dinləyənlərin anlaya biləcəyi səviyyədə qurur, jest və mimikadan yerli-yerində istifadə edirlər. Müasir dövrdə də güclü natiqlər var.

### Dinləmə

**5-1.1.1.** Müəllim dinləmə mətnini səsləndirir.

***Demosfen***

*Qədim Yunanıstanda natiqlik sənəti çox dəbdə idi. Dərin biliklərə və gözəl danışma bacarığına malik olan natiqlər meydanlarda camaatın qarşısında saatlarla çıxış edir, onların rəğbətini qazanırdılar. Belə məşhur natiqlərdən biri də Demosfen olmuşdur.*

*Arıq, cılız və fiziki cəhətdən zəif olan Demosfen uşaqlıqdan “r” səsini tələffüz edə bilmirdi. Tez-tez kəkələdiyinə görə onun dediklərini anlamaq çətin olurdu. Demosfen danışarkən çox həyəcanlanır, tez-tez çiynini atır, şax dayana bilmirdi. Bütün bu qüsurlara baxmayaraq, gənc Demosfen natiqlik sənəti ilə məşğul olmağa qərar verir. O, gözəl və mənalı bir mətn hazırlayır, nitq söyləmək üçün kütlə qarşısına çıxır. Lakin onun xalq qarşısında ilk çıxışı uğursuzluqla nəticələnir. Camaatın səs-küyü, gülüşü onun zəif səsini batırır. İşi belə görən Demosfen xəcalətindən plaşı ilə üzünü örtərək meydanı tərk edir.*

*Hər bir işini təhlil etməyi bacaran Demosfen*

*anlayır ki, kütləni ələ almaq üçün yalnız mətnin maraqlı olması azdır. Yaxşı natiq intonasiya ilə danışmağı, səs tonunu tənzimləməyi, jest və mimikadan yerli-yerində istifadə etməyi bacarmalıdır.*

*Demosfen qüsurlarını aradan qaldırmaq üçün fəaliyyətə başlayır. O, diksiyasını düzəltmək üçün hər gün dəniz sahilinə gedir, ağzına xırda daşlar dolduraraq yüksək səslə danışmağa çalışır. Demosfen elə ucadan danışırdı ki, dənizin güclü dalğalarının səsi onun səsini batıra bilmirdi. İradəli gənc çiynini atmağı tərgitmək üçün tavandan bir qılınc asmışdı. Danışanda qılıncın altında dayanırdı. Çiynini atanda qılınc onu yaralayırdı. Beləcə, o bu vərdişini də tərgidir. Nəhayət, gənc natiq öz bədənini və səsini mükəmməl şəkildə idarə etməyi öyrənir.*

*Artıq xalq Demosfenin çıxışlarını böyük coşqu ilə qarşılayırdı. Beləliklə, Demosfen nəinki Afinada, hətta bütün dünyada ən mahir natiq kimi yaddaşlara həkk olundu.*

**Tapşırıq a (dərslik).** Bu tapşırıqda "Demosfen" mətninin məzmununa aid faktoloji suallar təqdim olunub. Şagirdlər götürdükləri qeydlər əsasında sualları cavablandırırlar. Şagirdlər suallar ətrafında geniş danışsalar, sonrakı yazı tapşırığını yerinə yetirmək asanlaşar.

**5-2.3.5. Tapşırıq b (dərslik).** Tapşırığın şərtinə görə "Ala-bəzək torba" və "Demosfen" mətnləri üçün ortaq cəhətləri müəyyənləşdirmək lazımdır.

Cavab: Hər iki mətnin qəhrəmanı yorulmadan məşq edir, israrla çalışaraq özünəinam hissi formalaşdırır. Onlar əzmkarlıqları sayəsində ətrafdakı insanların rəğbətini qazanırlar.

### Yazı

**5-3.2.1. Tapşırıq c (dərslik).** Bu tapşırıq şagirdlərin yazı bacarığını inkişaf etdirir. Şagirdlər "Demosfen" mətninə aid plan tərtib edirlər.

*Nümunə*:

1. Yunanıstanda natiqlik sənəti
2. İlk cəhd və uğursuzluq
3. Aramsız məşqlər
4. Ən mahir natiq

Sonra isə plan əsasında mətnin qısa məzmununu yazırlar.

**Müəllimin nəzərinə!** Mətnin planını kollektiv şəkildə qurmaq daha effektiv olar. Sonra şagirdlər yazı işinə başlaya bilərlər. Proses bitdikdən sonra şagirdlər yazılarını oxuyaraq bir-birinin işinə münasibət bildirə bilərlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırır. | Tap. **a** (D.) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. **b** (D.) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli qeyri-bədii mətn yazır. | Tap. **c** (D.) |

## 4-cü dərs. Əsas nitq hissələri

• Dərslik: səh. 10 • İş dəftəri: səh. 5

**Təlim məqsədləri**

**1.** Sözlərin leksik və qrammatik mənasını müəyyən edir **(st. 5-4.2.2).**

**2.** Əsas nitq hissələrinin ümumi qrammatik mənalarını müəyyən edir **(st 5-4.2.1).**

**3.** Əsas və köməkçi nitq hissələrini fərqləndirir **(st. 5-4.2.2).**

### Mövzuya yönəltmə

Müəllim əsas nitq hissələrini frontal sorğu keçirməklə şagirdlərə xatırladır. Lövhəyə əsas nitq hissələrinə aid nümunələr yazır. Şagirdlər sual verməklə onların hansı nitq hissəsinə mənsub olduğunu söyləyirlər.

### Dil qaydaları

**5-4.2.2. Tapşırıq a (dərslik).** Bu tapşırıqda cümlənin tərkibində fərqləndirilmiş hansı sözlərin leksik mənası olduğu soruşulur. Onların leksik və qrammatik mənalarını izah etmək tələb olunur.

**5-4.2.1."Yadda saxla"** rubrikasında şagirdlərin aşağı siniflərdən tanış olduğu əsas nitq hissələri xatırladılır.

**Tapşırıq b (dərslik).** Nöqtələrin yerinə verilmiş suallara cavab verən əsas nitq hissəsinə aid sözlər yazmaq tələb olunur. Şagirdlər uyğun sözləri yazmaqla yanaşı, eyni zamanda, artırılan sözlərin hansı nitq hissəsinə aid olduğunu müəy-

yən edirlər.

*Nümunə*: 1. Havaya rəngbərəng şarlar (*nə?*) buraxıldı. (*isim*)

**Tapşırıq c (dərslik).** Növbəti tapşırıqda verilmiş sözləri qrammatik mənalarla uyğunlaşdırmaq lazımdır.

Cavab: 1 – b; 2 – ç; 3 – a; 4 – c.

**Tapşırıq ç (dərslik). Qruplarla iş.** Dörd qrupun hər birinə iki cümlə təqdim olunur. Cümlələrdə altından xətt çəkilmiş sözlərin leksik və qrammatik mənalarını müəyyən etmək tələb olunur.

Cavab: *Nümunə*:

**I qrup:**

çoxlu

*Leksik mənası:* xeyli, az olmayan.

*Qrammatik mənası:* qeyri-müəyyən miqdar sayıdır, quruluşca düzəltmədir.

bayraqlar

*Leksik mənası:* dövlətin və ya hər hansı bir varlığın rəmzini ifadə edən əşya.

*Qrammatik mənası:* isimdir, konkretdir, ümumidir, quruluşca sadədir, cəmdədir, ismin adlıq halındadır və s.

cavan

*Leksik mənası:* gənc, yaşlı olmayan.

*Qrammatik mənası:* sifətdir, əlamət bildirir, quruluşca sadədir, adi dərəcədədir.

böyümüşdü

*Leksik mənası:* yekəlmişdi, iriləşmişdi.

*Qrammatik mənası:* feildir, III şəxsin təkindədir, keçmiş zamandadır və s.

**Tapşırıq a (iş dəftəri).** Tapşırığın tələbinə əsasən şagirdlər cümlələrdə fərqləndirilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu müəyyən edirlər. Tapşırıq qazanılmış biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**5-4.2.2. Tapşırıq b, ç (iş dəftəri).** Cümlələrin tərkibində fərqləndirilmiş sözlərin əsas, yoxsa köməkçi nitq hissəsi olduğunu müəyyən etmək tələb olunur.

**Tapşırıq c (iş dəftəri).** Bu tapşırıqda şagirdlər əsas nitq hissələrinin sırasını davam etdirməklə mövzunu mənimsədiklərini nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin leksik və qrammatik mənalarını izah edir. | Tap. a, b, c, ç (D.), tap a, c (İ.D.) |
| Əsas və köməkçi nitq hissələrini fərqləndirir. | Tap. b, ç (İ.D.) |

## 5-ci dərs. Köməkçi nitq hissələri

• Dərslik: səh. 11 • İş dəftəri: səh. 6

**Təlim məqsədləri**

**1.** Köməkçi nitq hissələrinin cümlədəki funksiyasını müəyyən edir (st. 5-4.2.2).

### Mövzuya yönəltmə

Müəllim köməkçi nitq hissələrini frontal sorğu keçirməklə şagirdlərə xatırladır.

### Dil qaydaları

**5-4.2.2. Tapşırıq a (dərslik).** Tapşırıqda cümlə verilib. Şagirdlər cümlənin tərkibindəki hansı sözlərin suala cavab vermədiyini müəyyən edirlər.

Cavab: ay, ha

**"Yadda saxla"** rubrikasında köməkçi nitq hissələrinin qrammatik mənaları haqqında məlumat verilir. Onların cümlənin tərkibində hansı funksiya daşıdıqları izah olunur.

**"Qlossari"** rubrikasında "funksiya" sözünün mənası izah olunur.

**Tapşırıq b (dərslik).** Tərkibində köməkçi nitq hissələri işlənmiş cümlələr verilib. Həmin nitq hissələrinin hansı funksiyanı yerinə yetirdikləri müəyyənləşdirilməlidir. Tapşırıq köməkçi nitq hissələrindən nitqdə düzgün istifadə bacarığı formalaşdırır.

**Tapşırıq c (dərslik).** Bu tapşırıqda şagirdlər dördündən biri fərqli olan sözü müəyyən edirlər.

Cavab: 1. lakin; 2. ancaq; 3. ki.

**Tapşırıq a (iş dəftəri).** Qazanılmış biliklərin möhkəmləndirilməsinə xidmət edən bu tapşırıq şagirdlərdən diqqət tələb edir. Onlar cümlənin

tərkibində işlənmiş köməkçi nitq hissəsini müəyyən edərək altından xətt çəkməlidirlər. Sonra isə cümlədəki funksiyasını yazmalıdırlar.

Cavab:

1. Daha – sözün təsir gücünü artırır.
2. Ona görə də – cümlələr arasında əlaqə yaradır.
3. Yəqin ki – fikrə münasibət ifadə edir.
4. Vay-vay – hiss-həyəcan bildirir.

**Tapşırıq ç (dərslik).** Nöqtələrin yerinə uyğun gələn köməkçi nitq hissəsini yazmaq və həmin nitq hissəsinin funksiyasını müəyyən etmək tələb olunur. Şagirdlər cümlələri diqqətlə oxuyaraq semantik cəhətdən uyğun sözlər seçməklə tapşırığı yerinə yetirə bilərlər.

Cavab:

1. ən (cümlənin təsir gücünü artırır);
2. sonra (məna çaları yaradır);
3. və (sözlər arasında əlaqə yaradır);
4. ona görə də (cümlələr arasında əlaqə yaradır);
5. əvvəl (məna çaları yaradır);
6. nəhayət (fikrə münasibət bidirir).

**Tapşırıq b (iş dəftəri).** Bu tapşırıqda cümlələrdəki boşluqlara köməkçi nitq hissələri yazmaq tələb olunur. Həmin köməkçi nitq hissələrinin funksiyasına uyğun sözlər yazmaqla cümlələri tamamlamaq lazımdır.

Cavab:

1. görünür, deyəsən, yəqin ki, bəlkə də və s.
2. ona görə də, o səbəbdən və s.
3. qədər, kimi, -dək, -can, yaxın və s.
4. çox, olduqca, daha və s.
5. afərin, əhsən və s.

Şagirdlər verilən nümunələrdən istənilən birini boşluqlara yaza bilərlər.

**Tapşırıq c (iş dəftəri).** Bu tapşırıqda cümlələrin tərkibində işlənən köməkçi nitq hissələrindən birinin funksiyası fərqlidir. Şagirdlər bu fərqi müəyyən etməlidirlər. A, B, D, E bəndlərində işlənmiş köməkçi nitq hissəsi (kimi, savayı, tərəf, ötrü) qoşmadır. C bəndindəki nitq hissəsi isə (bəlkə də) modal sözdür.

Cavab: C

Bu tapşırıq köməkçi nitq hissələrinin funksiyasına aid biliklərin möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər köməkçi nitq hissələrinin semantikasını dərk etdikdən sonra onlardan öz nitqlərində və yazı fəaliyyətlərində yerli-yerində istifadə etmək vərdişinə yiyələnəcəklər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Köməkçi nitq hissələrini müəyyən edir. | Tap. **a**, **b**, **c** (D.) |
| Köməkçi nitq hissələrini funksiyasına görə fərqləndirir. | Tap. **ç** (D.), tap **a**, **b**, **c** (İ.D.) |

# 2-ci fəsil

## 1-ci dərs. Əlvida, “bilmirəm”!

• Dərslik: səh. 12-14 • İş dəftəri: səh. 7

**Təlim məqsədləri**

**1.** Kontekstə əsasən sözün mənasını müəyyən edir **(st. 5-2.1.3).**

**2.** Mətndə açıq şəkildə ifadə olunmayan informasiya haqqında fikir yürüdür **(st. 5-2.2.2).**

**3.** Mətndə öz əksini tapmış fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**4.** Mətnin hissələrini əlaqələndirməklə ümumi məzmun və obrazlar barədə fikir yürüdür **(st. 5-2.2.1).**

### Mövzuya yönəltmə

Mövzuya yönəltmə mərhələsi **a** tapşırığı ilə həyata keçirilə bilər. Müəllim sinfə müraciət edir:

– Xarakter sözünü necə başa düşürsünüz? Xarakterinizdəki hansı cəhətləri dəyişmək istərdiniz?

**Müəllimin nəzərinə!** Şagirdlərin özlərinə tənqidi yanaşmasına, onlarda etiraf etmək bacarığının formalaşdırılmasına nail olmaq üçün müəllim özündən nümunə gətirə bilər. Bu üsul şagirdlərə stimul verə bilər və onlar öz düşüncələrini daha səmimi şəkildə ifadə edə bilərlər.

Hər bir şagirdə söz demək imkanı yaratmaqla prosesi başa çatdırdıqdan sonra oxuya başlamaq olar.

### Oxu. Söz ehtiyatı

Mətni oxumaq üçün müəllim müəyyən vaxt ayırır (5-8 dəq.). Oxu prosesi səssiz həyata keçirilir. Şagirdlərə mətni oxuyarkən tanış olmayan sözləri qeyd etmək tapşırılır. Oxu zamanı şagirdlər *ovqat, sima, kompliment, təəssürat, ərköyün, təsərrüfat* və digər sözləri qeyd edə bilərlər. Mətnin oxusu bitdikdən sonra qeyd olunan sözlər üzərində iş aparılır. Hətta mətndəki bəzi cümlələrdə ifadə olunan fikirlər də şagirdlər tərəfindən izah olunsa, iş daha səmərəli və maraqlı olar. *Məsələn: Sadəcə, o, qayğılarını qapı arxasında qoyub sinfə daxil olur; Sinfimin ən qapalı xarakterli uşağı Oqtaydır. Onun qəlbinə yol tapa bilmirəm və s.*

**5-2.1.3. Tapşırıq b (dərslik).** Bu tapşırıq “anonim” sözünün izahına həsr olunub. Tapşırıq iki mərhələdən ibarətdir. Şagirdlər əvvəlcə sözün mənasını lüğətlə dəqiqləşdirirlər (müəllifinin adı göstərilməyən, gizli saxlanılan əsər, məktub və s.), sonra onu hansı sözlə işlətməyin mümkünlüyünü müəyyən edirlər.

Cavab: anonim məktub.

Sonrakı mərhələdə şagirdlərə “Oxuduğunuz hekayəyə anonim demək olarmı?” sualı ünvanlanır. Şagirdlər bu suala düzgün cavab verməklə sözün mənasını anladıqlarını bir daha sübut edirlər. Müəllim əlavə olaraq soruşa bilər: “Bəs oxuduğunuz nağılların müəllifi varmı?”

Məqsəd şifahi xalq ədəbiyyatı nümunələrinin anonim ədəbiyyat olduğunu xatırlatmaqdır.

Cavab: Bu hekayəyə anonim demək olmaz, çünki Rafiq İsmayılov hekayənin müəllifidir.

### Oxuyub-anlama

**5-2.2.2. Tapşırıq c (dərslik).** Bu tapşırıqda şagirdlər sualları cavablandırmaqla Günay müəllimin keçdiyi dərsi təhlil etmiş olurlar.

**1-ci sualın cavabı:** Günay müəllimin məqsədi şagirdlərin özlərini daha dərindən tanımaq, zəif cəhətlərini üzə çıxarmaq, onlarda etiraf etmək bacarığını formalaşdırmaq idi.

Növbəti sualda, təbii ki, söhbət pedaqoji anlamda dərs mərhələlərindən getmir. Əsas məsələ Günay müəllimin öz məqsədinə çatmaq üçün hansı üsullardan istifadə etməsi və işi necə qurmasıdır.

**2-ci sualın cavabı təxminən belə ola bilər:** Günay müəllim qarşısına məqsəd qoymuşdu ki, şagirdlər özlərinə daha tənqidi yanaşsınlar, özlərində cəmləşən qüsurları görməyi və aradan qaldırmağı bacarsınlar. Bunun üçün o, əvvəlcə şagirdləri düşünməyə vadar etdi. Uşaqlar öz xasiyyətlərini analiz edərək zəif cəhətlərini üzə çıxardılar. Günay müəllim özü də bu prosesə qoşulur ki, şagirdlər daha səmimi şəkildə düşündüklərini yazsınlar. Sonra isə uşaqlarla birlikdə çala qazaraq zəif cəhətlərin qeyd olunduğu vərəqləri basdırırlar. Bu iş şagirdlərin özləri tərəfindən aparıldığı üçün yaddaşlarında qalacağı şübhə doğurmur.

**3-cü sualın cavabı:** Bəli, Günay müəllim öz məqsədinə nail oldu. Bütün uşaqlar öz zəif cə-

hətlərini aşkara çıxararaq vərəqdə yazırlar. Sonra isə vərəqləri çalada basdırmaqla qüsurlardan xilas olmağı bacarırlar. Beləliklə, şagirdlərə həyat dərsi öyrədən Günay müəllimin dərsi uğurlu alındı. Şagirdlər sualları təxminən bu şəkildə cavablandırsalar, məqbul hesab etmək olar.

**Tapşırıq ç (dərslik).** Bu tapşırıq da şagirdlərin oxuyub-anlama bacarığını möhkəmləndirməyə xidmət edir. Eyni zamanda şagirdlərin fikirlərini sərbəst ifadə etməyə, düşündüklərini şərh etməyə imkan verir.

**Cavab təxminən belə ola bilər:** Sorğu anonim keçiriləndə insanlar fikirlərini daha rahat və açıq şəkildə ifadə edə bilirlər. Günay müəllim də bunu bildiyinə görə sorğunu anonim keçirdi.

**Tapşırıq d (dərslik).** Mətndə altından xətt çəkilmiş cümlələr var. Bu tapşırıqda həmin cümlələrdəki fikrin şərh edilməsi tələb olunur. Cümlələr bunlardır: Əvvəlcə özümü itirdim. Sonra isə sevinc və qürur hissi keçirdim.

Cavab: Şagirdlər öz fikirlərini təxminən belə ifadə edə bilərlər. Günay müəllim yazısını dəyişmək üçün Nigara müraciət edir. Əvvəlcə Nigar qulaqlarına inanmır. Müəllimin öz hisslərini bir şagirdlə bölüşməsi Nigara inandırıcı gəlmir. Lakin sonra özünü ələ alır və müəllimin göstərdiyi səmimi münasibət Nigarı həddən artıq qürurlandırır.

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).** İş dəftərində "Əlvida, "bilmirəm"! mətninin məzmununa aid suallar verilib. Şagirdlərdən hansı sualların cavabının mətndə olmadığı soruşulur. Mətni diqqətlə oxuyanlar asanlıqla müəyyən edəcəklər ki, 3-cü və 4-cü sualların cavabı mətndə öz əksini tapmayıb. Çünki Günay müəllimin şagirdlərinin tətil təəssüratları və Oqtayın ünsiyyətcil olmamasının səbəbləri haqqında mətndə danışılmır.

**5-2.2.1. Tapşırıq b (iş dəftəri).** Bu tapşırıqda müxtəlif fikirlərin ifadə olunduğu cümlələr verilib. Şagirdlər bu fikirləri mətndən nümunələr gətirməklə əsaslandırırlar.

Cavab: *1-ci cümlə:* Günay müəllim anası ilə yaşamırdı.

*Əsaslandırma:* Günay müəllim etirafında yazır ki, bəzən həftələrlə ata-anasına baş çəkə bilmir.

*2-ci cümlə:* Nigarın riyazi bilikləri o qədər də qənaətbəxş deyildi.

*Əsaslandırma:* Nigar etirafında yazır ki, məsələnin tənliyini qura bilmir.

*3-cü cümlə:* Günay müəllim gizli sorğu keçirdi.

*Əsaslandırma:* Günay müəllim uşaqlara müraciətində deyir: Yazınızı imzalamağa ehtiyac yoxdur. Sorğu anonim keçirilir.

*4-cü cümlə:* Günay müəllimin yolunu davam etdirmək istəyənlər var idi.

*Əsaslandırma:* Nigar Günay müəllim haqqında deyir: Mənim rəfiqələrimdən bir neçəsi ona oxşamağa çalışır, onun kimi müəllim olmaq istəyirlər.

Şagirdlər verilən fikirləri mətndən nümunə gətirərək əsaslandırmaqla oxuyub-anlama bacarığını inkişaf etdirirlər.

**Tapşırıq c (iş dəftəri).** Növbəti tapşırıqda səbəb-nəticə cədvəlini tamamlamaq tələb olunur.

| Səbəb | Nəticə |
|---|---|
| Məktəbin həyətində çala qazmaq lazım idi. | Oğlanlardan biri təsərrüfat otağından bel gətirdi. |
| Nigar qeydlərini heç kimlə paylaşmaq istəmirdi. | Günay müəllim ona yaxınlaşdı və öz yazısını onunla dəyişdi. |
| Günay müəllim hamıya həyat dərsi verdi. | Şagirdlər öz zəif cəhətlərinə "əlvida" dedilər. |

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstə əsasən sözün mənasını müəyyən edir. | Tap. **b** (D.) |
| Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir. | Tap. **c** (D.)<br>Tap. **a, b** (İ.D.) |
| Obrazın davranışının və keçirdiyi hisslərin səbəbini izah edir. | Tap. **d** (D.) |
| Mətnlə bağlı səbəb-nəticə əlaqəsi cədvəlini tamamlayır. | Tap. **c** (İ.D.) |

## 2-ci dərs. Əlvida, "bilmirəm"!

• Dərslik: səh. 14-15 • İş dəftəri: səh. 8

**Təlim məqsədləri**

**1.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**2.** Mətni nəql edərkən təhkiyəçinin və obrazların nitqini fərqli səs tonu ilə ifadə edir **(st. 5-1.4.2).**

**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

### Mövzuya yönəltmə

Müəllim "Əlvida, "bilmirəm"! mətni ilə bağlı müxtəlif suallar verməklə məzmunu şagirdlərə xatırladır.

### Danışma

**5-1.2.2. Tapşırıq a (dərslik).** Şərtə görə şagirdlər verilən iki fikirdən birini seçməli və seçimini əsaslandırmalıdırlar. Bu tapşırığın cavabı subyektiv səciyyəlidir. Çünki bu sualı hər şagird öz düşüncəsinə və istəyinə əsasən cavablandırır. Belə ki, onlar bu hekayəni bəyənib-bəyənmədiklərini öz arqumentləri ilə təsdiq edirlər.

**Tapşırıq b (dərslik).** Tapşırığın sualı belədir:

Sizcə, nə üçün müəllif mətni 1-ci şəxsin dilindən nəql edir? Şagirdlər öz ehtimallarını söyləyərək sualı cavablandırırlar. Cavab təxminən belə ola bilər:

Mətn 1-ci şəxsin dilindən danışılanda daha təsirli, daha inandırıcı ola bilər. Əhvalatın şahidi olan şəxsin onu nəql etməsi oxucuda dərin maraq yaradır.

**"Qlossari"** rubrikasında təhkiyə və təhkiyəçi sözləri izah edilir.

**5-1.4.2. Tapşırıq c (dərslik).** Bu tapşırığın tələbinə əsasən hekayə Günay müəllimin dilindən nəql edilməlidir. Nəqletmə zamanı Günay müəllimin hiss və düşüncələri, davranışının səbəbləri onun öz dilindən çatdırılmalıdır. Bunun üçün şagirdlər Günay müəllimin hiss və duyğularını daha dərindən duymalı, özlərini onun yerinə qoymağı bacarmalıdırlar.

Mətnin qısa məzmunu Günay müəllimin dilindən bu məzmunda səsləndirilə bilər:

*Hər dəfə sinfə daxil olanda çalışıram ki, uşaqların əhvalı xoş olsun. Mənim nə qədər problemlərim, qayğılarım olsa da, şagirdlərim bunu duymamalıdırlar. Heç bir çətinliyi sinfə gətirmək olmaz. Bu dəfə də ilk dərs günündə şagirdlərimin tətili necə keçirdiklərini soruşdum. Onlara ürəkləri açılsın deyə xoş sözlər, komplimentlər dedim. Yeni mövzuya keçəndə dərsin adını elan etmədim. İstədim ki, uşaqları düşündürüm, mövzunun adını özləri müəyyən etsinlər və s.*

Şagirdlər mətni sona qədər davam etdirirlər. Müəllim Günay müəllimin dilindən bir neçə şagirdi danışdırmaqla müqayisə apara bilər. Kimin daha səmimi və təsirli danışmasını şagirdlər özləri müəyyən edə bilərlər. Bu tapşırıq həm təxəyyülü, həm yaradıcı yanaşmanı, həm də nitq bacarığını inkişaf etdirir.

### Oxuyub-anlama

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).** İş dəftərində hekayə xəritəsini tamamlamaq tapşırığı verilir. Aşağı siniflərdən bu vərdişə yiyələnən şagirdlər boşluqları tələblərə və təqdim olunmuş plana uyğun dolduraraq hekayə xəritəsi yazırlar. Tapşırıq həm oxuyub-anlamanı, həm də fikri yazılı şəkildə ifadə etmək bacarığını formalaşdırır və inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. a (D.) |
| Mətni nəql edərkən təhkiyəçinin və obrazların nitqini fərqli səs tonu ilə ifadə edir. | Tap. b,c (D.) |
| Mətnin məzmununa uyğun hekayə xəritəsi tərtib edir. | Tap. a (İ.D.) |

## 3-cü dərs. Şəxsiyyət və xarakter

• Dərslik: səh. 15 • İş dəftəri: səh. 9

**Təlim məqsədləri**

**1.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**2.** Çoxmənalı sözün və ya omonimin mətndəki

mənasını digər mənalarından fərqləndirir **(st. 5-2.1.3).**

**3.** Mövzu ilə bağlı fikir və duyğularını ifadə etmək üçün məktub yazır **(st. 5-3.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim sinfə müraciət edir:

– Etiraf nədir? Xarakter sözünü necə başa düşürsünüz?

**Danışma**

**5-1.2.2. Tapşırıq a (dərslik).** Bu tapşırıqda şagirdlərə iki sual ünvanlanıb:

1. Sizcə, hər kəs zəif cəhətlərini etiraf etməyi bacarırmı?

Cavab: Təbii ki, hər kəs etiraf etməyi bacarmır. Bu insanın xarakterindən asılıdır.

2. Hansı insanlar xarakterindəki qüsurlardan xilas ola bilərlər?

Cavab: Yalnız iradəli, güclü xarakterə malik insanlar öz qüsurlarından xilas olmağı bacararlar.

**"Qlossari"** rubrikasında xarakter anlayışı termin kimi şərh olunur.

**Tapşırıq b (dərslik).** Tapşırıqda güclü xarakter ifadəsinin nə demək olduğu soruşulur. Şagirdlər bu haqda fikirlərini söyləyirlər. Oxuduqları əsərlərdə güclü xarakterə malik obrazları sadalayır və fikirlərini əsaslandırırlar. Məsələn: "Bilirdim ki, gələcəksən" hekayəsinin qəhrəmanı olan Abbas güclü xarakterli oğlandır. Şagirdlər başqa obrazların da adlarını çəkə bilərlər. Bütün şagirdlər bu haqda öz düşündüklərini söyləyirlər.

**Tapşırıq c (dərslik).** Bu tapşırığı şagirdlərlə birlikdə əyani şəkildə keçirmək çox maraqlı və faydalı olar.

Müəllim sinfə müraciət edir:

– Hansı insan hədəfə uğurla çata bilər?

Şagirdlər müxtəlif fikirlər söyləyirlər. Hər kəs öz versiyasını əsaslandırmağa çalışır. Müəllim lövhəyə böyük 1 rəqəmi yazır və deyir: "Uşaqlar, fərz edək ki, bu xarakterdir. Xarakter sahib ola biləcəklərimizin ən dəyərlisidir". Sonra 1-in yanına 0 yazaraq deyir:

– Bu, bacarıqdır. Güclü xarakterli insan bacarığın köməyi ilə 1-i 10 etməyə qadirdir.

Sonra müəllim daha bir sıfır əlavə edərək deyir:

– Bu isə təcrübədir. Təcrübə və bacarıq varsa, 1-i 100 etmək mümkündür. Bu minvalla şagirdlərin iştirakı ilə sıfırları istedad, intizam, sevgi adı ilə artırmaq olar.

Sinifdə ümumi təsəvvür yarandıqdan sonra müəllim 1-i pozur və deyir:

– Əgər insanda xarakter yoxdursa, digərlərinin də heç bir əhəmiyyəti yoxdur. Bu sıfırların ifadə etdiyi xüsusiyyətlər yalnız xarakteri zənginləşdirmək üçün lazımdır. Yekunda bir daha şagirdlərin fikirlərini dinləmək olar. Bu əyani üsulla xarakterin insan həyatında əvəzsiz rolunu şagirdlərə izah etmək mümkündür.

**Tapşırıq ç (dərslik).** Şagirdlər öz müəllimlərinin keçdiyi "Şəxsiyyət və xarakter" dərsi ilə Günay müəllimin dərsini müqayisə edərək ortaq cəhətləri müəyyən etməlidirlər.

Cavab: Hər iki dərsdə müəllimlər şagirdlərə əyani şəkildə dərs keçdilər, onları düşündürə bildilər. Şagirdlər özləri nəticə çıxarmağı öyrəndilər və s.

**Söz ehtiyatı**

**5-2.1.3. Tapşırıq a (iş dəftəri).** Şagirdlər mətndəki "bilmirəm" sözünün işləndiyi mənanı müəyyən etməlidirlər.

Cavab: b

Sonra isə seçimlərini mətnə görə əsaslandırırlar. Bunu Günay müəllimin nitqinə əsasən müəyyən etmək olar: Bu gündən "bilmirəm"lərlə vidalaşırıq. İnanıram ki, siz onları "bilirəm", "bacarıram"la əvəz edəcəksiniz.

**Yazı**

**5-3.2.2. Tapşırıq b (iş dəftəri).** Bu tapşırıq şagirdlərə öz fikirlərini sərbəst şəkildə ifadə etməyə imkan yaradır. Kimə yazmaq seçimi də öz öhdələrinə buraxılır. Ürək sözlərini Günay müəllimə də, Nigara da ünvanlaya bilərlər.

*Nümunə*:

Salam, Nigar! Necəsən? Bu sözləri sənə yazmaq ürəyimdən keçdi. Sən özündə cəsarət tapıb zəif cəhətlərini yazmısan. Bu mənim çox xoşuma gəldi. Mən də sənin kimi məsələnin tənliyini qurmaqda çətinlik çəkirdim, amma bunu kiməsə deməyə utanırdım. Sənin xarakterinin necə dəyişdiyini görəndən sonra mən də qətiyyətli olmağı qərara aldım. Riyaziyyat müəllimimə bu problemi dedim. Lalə müəllim bir neçə gün dərsdən sonra mənimlə məşğul oldu. İndi mənim tənlik qurmaqla bağlı elə bir çətinliyim yoxdur. Artıq

bu işin öhdəsindən çox həvəslə gəlirəm. Hər şeyə görə sənə minnətdaram. Sən bu cəsarətinlə mənim kimi bir çox yaşıdlarına örnək oldun.

Hörmətlə: Sevinc

*Nümunə*:

Salam, Günay müəllim. Necəsiniz? Mənim bu sözləri yazmaqda məqsədim Sizə təşəkkür etməkdir. Mən sizin şagirdiniz olmasam da, Sizdən çox şey öyrəndim. Sizin özünüzün zəif cəhətlərinizi qeyd etməyiniz, fikirlərinizi şagirdlərinizlə bölüşməyiniz mənə stimul verdi. Mən də qüsurlarımı müəyyən etdim, xəyalımda sizinlə paylaşdım. Siz mənə çox dəstək oldunuz. Mənim də kiçik qardaşım tez-tez özünə qapanırdı, amma bu məni narahat etmirdi. Lakin sizin Oqtay barədə nigarançılığınızı görəndən sonra onunla xeyli vaxt keçirirəm. Qardaşım, demək olar ki, xeyli dəyişib. Siz mənə həyat dərsi öyrədən müəllimim oldunuz. Hər şeyə görə Sizə minnətdaram.

Hörmətlə: Sevinc

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatdan nümunələr gətirməklə fikrini əsaslandırır. | Tap. **a**, **b**, **c** (D.) |
| Kontekstə əsasən sözün mənasını müəyyən edir. | Tap. **b** (İ.D.) |
| Mövzu ilə bağlı fikir və duyğularını ifadə etmək üçün məktub yazır. | Tap. **b** (İ.D.) |

## 4-cü dərs. Xarakterimdəki hansı zəif cəhətə “əlvida” demək istərdim

• Dərslik: səh. 15

**Təlim məqsədləri**

**1.** Mövzu ilə bağlı şəxsi mövqeyini bildirmək üçün esse yazır **(st. 5-3.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim sinfə müraciət edir:

– Xarakterinizdəki hansı xüsusiyyəti bəyənmirsiniz? Bəs hansı cəhətiniz xoşunuza gəlir? və s. Şagirdlərin sərbəst fikir yürütməsinə şərait yaratmaq üçün sualların sayını artırmaq olar.

**Yazı**

**5-3.2.2. Tapşırıq a (dərslik).** Bu dərs bütünlüklə esse yazmağa həsr olunur. Essenin adından da göründüyü kimi, artıq mövzu şagirdlərə tanışdır. Bu haqda onlarda müəyyən qədər fikir formalaşıb. Dərslikdə essenin planı təqdim edilib. Şagirdlər dərsin əvvəlindəki sual-cavab və verilən plan əsasında esse yazırlar.

*Nümunə*:

Xarakter nədir? Hər hansı bir insanın bütün xüsusiyyətləri birlikdə onun xarakterini təşkil edir. İnsan xarakterinin həm yaxşı, həm də qüsurlu tərəfləri ola bilər. Elə bir insan yoxdur ki, onun xasiyyətinin zəif cəhətləri olmasın. Ona görə də hər kəs öz xarakterini möhkəmləndirməyi bacarmalıdır.

Bəs bunu necə etmək olar? Xarakteri möhkəmləndirmək üçün insan öz qüsurlarını görməyə, onları heç olmasa özünə etiraf etməyə can atmalıdır. Öz səhvlərini görməyən insanın onları düzəltməyə də gücü çatmaz.

Bütün insanlar kimi mənim də güclü və zəif cəhətlərim var. Hər işdə yalnız özümə güvənməyim, özünəinam hissi xarakterimin ən güclü cəhətidir. Paxıllıq hissi mənə tamamilə yaddır. Bunu da mən yaxşı xüsusiyyət kimi dəyərləndirirəm.

Mənə görə, iki zəif cəhətim var. Birincisi budur ki, hamıya inanıram. Bəzən bu mənə problem yaradır. İkinci xoşlamadığım cəhətim isə tez ruhdan düşməyimdir. Bu çatışmazlıqları özümdən uzaqlaşdırsam, xarakterimi möhkəmləndirmiş olaram.

İnsanın xarakteri mükəmməl olsa, həyatda həmişə uğur qazanar. Heç bir çətinlik onun nailiyyətlərinin qarşısını kəsə bilməz. Mən hələ ki beşinci sinifdə oxuyuram. Gələcək həyatımla bağlı xeyli arzularım və məqsədim var. Ona görə də qarşıda uğurlarla dolu həyat yaşamaq üçün dediyim qüsurlardan xilas olmalıyam. İnanıram ki, bunu bacaracağam!

Yazı işi bitdikdən sonra müəllim şagirdlərin yazılarını oxutdurur. Şagirdlər yoldaşlarının yazılarına münasibət bildirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu ilə bağlı şəxsi mövqeyini bildirmək üçün esse yazır. | Tap. **a** (D.) |

## 5-ci dərs. İsim

• Dərslik: səh. 16  • İş dəftəri: səh. 10

**Təlim məqsədləri**

**1.** Əsas nitq hissələrinin ümumi qrammatik mənalarını və morfoloji tərkibini müəyyən edir **(st. 5-4.2.1).**

**Mövzuya yönəltmə**

Frontal srğu yolu ilə ismin qrammatik xüsusiyyətləri xatırladılır: kim? nə? hara? suallarına cavab verir, ümumi və xüsusi olur, konkret və mücərrəd olur, hallana bilir və s.

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdən ismin bir çox qrammatik xüsusiyyətləri ilə tanışdırlar. Bu dərsdə ismə aid həmin bilgilər təkrarlanır.

**Dil qaydaları**

**5-4.2.1. Tapşırıq a (dərslik).** Bu tapşırıqda isimlər təqdim olunur. Şagirdlər sual verməklə onları qruplaşdırmalıdırlar.

Cavab: Kim? – müəllim, rəfiqə, uşaqlar, oğlan;
Nə? – dərs, vərəq, fikir, qutu, qürur, qapı;
Hara? – ağaclıq, məktəb.

Tapşırığın məqsədi ismin suallarını xatırlatmaqdır.

**Tapşırıq b (dərslik).** Tapşırığın məqsədi isimlərin quruluşca növünü yada salmaqdır.

Cavab: *Sadə isimlər:* əhəng, təbəssüm, masa, səhifə, dodaq, torpaq, sükut.

*Düzəltmə isimlər:* meydança, çəki, dostluq, çıxış, kəşfiyyat, görüş.

*Mürəkkəb isimlər:* ata-ana, qol-budaq, üz-göz.

**Tapşırıq c (dərslik).** Tapşırıq ümumi və xüsusi isimlərin təkrarına yönəlib.

Cavab: çiçək, arzu, bahar, sədaqət, reyhan, damla, nərgiz, mirvari, sevinc.

**Tapşırıq ç (dərslik).**

Əvvəlcə "Xatırla" rubrikasında verilmiş məlumatlar şərh olunur və şagirdlər ismin halları ilə bağlı bilikləri yada salırlar. Daha sonra cümlədəki sözlərin hansı halda işləndiyini müəyyən edirlər.

Cavab:
1. çayda – harada? – yerlik hal
2. mağazadan – haradan? – çıxışlıq hal
3. kitabın – nəyin? – yiyəlik hal
4. tamaşa – nə? – adlıq hal
5. ağacı – nəyi? – təsirlik hal
6. Gülaya – kimə? – yönlük hal

**Tapşırıq d (dərslik).** Tapşırıq ismin hallarına aiddir.

"Çala" sözünə kontekstə uyğun hal şəkilçiləri artırmaqla cümlələrdəki nöqtələrin yerinə yazırlar.

1. çala – adlıq hal; 2. çalaya – yönlük hal; 3. çalanı – təsirlik hal; 4. çalanın – yiyəlik hal.

**Tapşırıq e (dərslik).** Bu tapşırığın əsas məqsədi sözün morfoloji tərkibini müəyyən etmək bacarığını inkişaf etdirməkdir.

Şərh (nümunə):

Saitlə başlanan sözlər ismin yiyəlik, yönlük, təsirlik hallarında işləndikdə sözlə hal şəkilçisi arasında "n", "y" bitişdirici samitlərindən istifadə olunur.

**Tapşırıq ə (dərslik). Qruplarla iş.** Şagirdlər qruplara bölünərək müvafiq cümlədəki isimlərin qrammatik xüsusiyyətlərini müəyyənləşdirirlər. Məsələn, Vasif – xüsusi isimdir, adlıq haldadır. Konkret isimdir. Təkdədir. Quruluşca sadədir.

**Tapşırıq a (iş dəftəri).** Tapşırıq isimlərin quruluşca növünə aid bilik və bacarıqların möhkəmləndirilməsinə yönəlib. Şagirdlər nöqtələrin yerinə ardıcıl olaraq sadə, düzəltmə, mürəkkəb isimləri seçib yazmalıdırlar.

Cavab: 1. karandaş; 2. ədəbiyyat; 3. tozsoran.

Bu tapşırıq şagirdlərdən biliklə yanaşı, diqqət də tələb edir.

**Tapşırıq b (iş dəftəri).** Bu tapşırıq sözlərin yaranma yollarını ehtiva edən bilik və bacarıqları möhkəmləndirir. Tapşırıq uyğunluq testi vasitəsilə yerinə yetirilir.

Cavab: 1 – d; 2 – a; 3 – b; 4 – c.

**Tapşırıq c (iş dəftəri).** Bu tapşırığın əsas məqsədi ismin hallarını bir daha xatırlamaq, onların işlənmə mövqeyini müəyyən etməkdir. Cümlələrin qarşısında ***film*** sözünün ismin hansı halında işləndiyini yazmaq lazımdır.

**Tapşırıq ç (iş dəftəri).** Şagirdlərdən düzəltmə sözlərin sırasını davam etdirmək tələb olunur.

Eyni zamanda, hər sıradakı sözlərin kökünün hansı nitq hissəsinə aid olduğunu da qeyd etmək lazımdır.

Cavab: Çıxış, gülüş, baxış, duruş, döyüş və s. (*Kökü feildir.*)

Səmimiyyət, qalibiyyət, məğlubiyyət, məhdudiyyət və s. (*Kökü sifətdir.*)

Müəllimlik, meşəlik, çəmənlik, güllük, və s. (*Kökü isimdir.*)

| Meyarlar | Materiallar |
|---|---|
| Əsas nitq hissələrinin ümumi qrammatik mənalarını və morfoloji tərkibini müəyyən edir. | Tap. **a** – **ə** (D.), tap **a** – **ç** (İ.D.) |

## **6-cı dərs.** Toplu isimlər

• Dərslik: səh. 17 • İş dəftəri: səh. 11

**Təlim məqsədləri**

**1.** Toplu isimlərin qrammatik-semantik funksiyasını (çoxluq bildirməsi, cəm şəkilçisi qəbul etməsi və s.) izah edir **(st. 5-4.2.1).**

**5-4.2.1. Tapşırıq a (dərslik).** Bu tapşırıqda isimlərin təkdə və cəmdə işlənə bilməsi xatırlanır. Şagirdlər cümlələrin tərkibindəki isimləri seçməli, onların təkdə və ya cəmdə işləndiyini müəyyən etməlidirlər.

**Tapşırıq b (dərslik).** Tapşırığın tələbinə əsasən cəm şəkilçisi qəbul etməyən sözləri seçmək lazımdır.

Cavab: müəllimlik, riyaziyyat, həkimlik, sədaqət, səadət, məsuliyyət.

**Tapşırıq c (dərslik).** Bu tapşırığın şərti belədir: Hansı isimlər cəm şəkilçisi qəbul etməsə də, çoxluq bildirir? Məqsəd toplu isimləri tanıtmaqdır.

Cavab: ilxı, sürü, el, qoşun.

**"Yadda saxla"** rubrikasında toplu isimlər haqqında məlumat verilir. Müəllim toplu isimlər haqqında ətraflı şərh verir.

**Tapşırıq ç (dərslik).** Bu tapşırıqda da toplu isimləri müəyyənləşdirmək tələb olunur.

Cavab: 1. xalq; 2. əhali; 3. naxır.

**Tapşırıq d (dərslik).** Tapşırıqda verilmiş varlıq adları ilə toplu isimlərin uyğunluğu müəyyən edilməlidir.

Cavab: inək-naxır; qarışqa-koloniya; qoyun-sürü; at-ilxı.

Bu tapşırıqların əksəriyyəti kollektiv şəkildə şifahi yerinə yetirilə bilər.

**Tapşırıq a (iş dəftəri).** Bu tapşırığın əsas məqsədi cəmdə olan isimlərlə bağlı orfoqrafik (morfonoloji) normanı xatırlatmaqdır. Şagirdlərin ibtidai siniflərdə əldə etdikləri bilgilər tapşırığı yerinə yetirməyə imkan verir.

**Tapşırıq b (iş dəftəri).** Bu tapşırıqda toplu isimlərə aid qazanılmış biliklərin möhkəmləndirilməsi prosesi aparılır. Cəm şəklində verilmiş isimləri toplu isimlə əvəz edərək nöqtələrin yerinə yazmaq tələb olunur.

Cavab: 1. əhali və ya xalq; 2. sürü; 3. ordu; 4. ilxı.

**Tapşırıq c (iş dəftəri).** Tapşırıq isim mövzusu üzrə ümumiləşdirici xarakter daşıyır. Şagirdlər bu dərsdə və ibtidai siniflərdə əldə etdikləri bilgilərdən istifadə etməklə cümlələrdə fərqləndirilmiş isimlərin qrammatik xüsusiyyətlərini müəyyən edirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Toplu isimlərin qrammatik-semantik funksiyasını (çoxluq bildirməsi, cəm şəkilçisi qəbul etməsi və s.) izah edir. | Tap. **a** – **d** (D.), tap **a** – **c** (İ.D.) |

# 3-cü fəsil

## 1-ci dərs. Elektron ünvanım olsaydı...

• Dərslik: səh. 18-20 • İş dəftəri: səh. 12

**Təlim məqsədləri**

**1.** Kontekstdən çıxış edərək sözləri verilmiş izahlarla uyğunlaşdırır **(st. 5-2.1.3).**
**2.** Söz və ifadələrin həqiqi və məcazi mənasını fərqləndirir **(st. 5-4.4.3).**
**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**
**4.** Mətnin məzmunundan çıxış edərək hadisələrin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**

### Mövzuya yönəltmə

Müəllim sinfə müraciət edir:

– Sizin elektron ünvanınız varmı? Sizcə, elektron ünvanı olmaq hamıya lazımdırmı?

### Oxu

Mətn şagirdlər tərəfindən növbəli şəkildə oxunur. Obrazların nitqini onların davranışına uyğun səsləndirməklə oxu prosesi başa çatdırılır.

### Söz ehtiyatı

**5-2.1.3. Tapşırıq b (dərslik).** Şagirdlərdən verilmiş sözləri izahlarla uyğunlaşdırmaq tələb olunur. Sözlərin kontekstdəki mənasına əsaslanmaqla izahlar seçilir.

Cavab: 1 – ç; 2 – a; 3 – d; 4 – b; 5 – c.

**5-4.4.3. Tapşırıq c (dərslik).** Mətndə altından xətt çəkilmiş cümlədə “sağ əl” ifadəsi məcazi mənada işlənib. Həmin ifadəni həm həqiqi, həm də məcazi mənada başqa cümlələrdə işlətmək lazımdır. Mətndəki cümlə belədir: Günlərin bir günü bu gənc Bill Geytsin sağ əli olacaq.

*Nümunə*:

1. İdman edərkən Adil sağ əlini zədələdi.
2. Kiçik qardaşım atamın sağ əli idi.

**5-2.1.3. Tapşırıq a (iş dəftəri).** Bu tapşırıqda mətndəki sözlərin izahlarla uyğunlaşdırılması lazımdır. Verilmiş izahların qarşısındakı boş sətrə uyğun yeni söz yazılır:

Cavab: 1. prinsip; 2. konstruktor; 3. aparat.

**5-2.1.2. Tapşırıq ç (dərslik).** Bu tapşırıqda şagirdlər mətnin məzmununa aid verilən sualları cavablandırırlar.

### Oxuyub-anlama

**Tapşırıq b (iş dəftəri).** Tapşırıq oxuyub-anlama bacarığını inkişaf etdirir. Mətnin məzmununu mənimsədikdən sonra onun planı tərtib edilir. Mətnin giriş və sonluq hissələrinə bir bənddən, əsas hissəyə isə 2-3 bənddən ibarət plan tərtib oluna bilər. *Nümunə*:

1. Coninin idealı; 2. Coninin şirkətə müraciəti; 3. Elektron ünvan tələbi; 4. Kiçik biznes; 5. Coninin milyonçuya çevrilməsi.

**5-2.2.1. Tapşırıq c (iş dəftəri).** Bu tapşırıq da oxuyub-anlama bacarığını inkişaf etdirir. Şagirdlər bir hadisənin həm başvermə səbəbini, həm də ondan doğan nəticəni yazmalıdırlar. Tapşırıq şagirddən güclü məntiq və diqqət tələb edir.

Cavab:

*Hadisə*: “Maykrosoft” şirkəti Conini işə qəbul etmədi.

*Səbəbi*: Şirkət Conidən elektron ünvan tələb etdi, lakin onun elektron ünvanı yox idi.

*Nəticəsi*: Coni özünə ayaqqabısilmə məntəqəsi açdı.

*Hadisə*: Coni diş fırçaları düzəldən konstruktorları işə cəlb etdi.

*Səbəbi*: Coninin yaratdığı elektrik qurğu müxtəlif ölçüdə olan ayaqqabıları insan əli kimi təmizləyə bilmirdi.

*Nəticəsi*: Konstruktorların köməyi ilə avtomatik ayaqqabısilmə aparatı düzəldildi.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz və ifadələri aid olduğu izahlarla uyğunlaşdırır. | Tap. b (D.), tap a (İ.D.) |
| Mətnlə bağlı səbəb-nəticə əlaqəsi cədvəlini tamamlayır. | Tap. c (İ.D.) |

## 2-ci dərs. Geytsin uğur taleyi

• Dərslik: səh. 20 • İş dəftəri: səh. 13

**Təlim məqsədləri**

**1.** Bədii mətndəki hadisələrə və obrazların davranışına əsasən ideyanı müəyyən edir **(st. 5-2.3.1).**

**2.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**3.** Dinlədiyi mətnlə bağlı suallar tərtib edir **(st. 5-1.1.1).**

**4.** Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir **(st. 5-2.3.6).**

**5.** Dinlədiyi mətnin qısa məzmununu yazır **(st. 5-3.2.1).**

**Mövzuya yönəltmə**

Müəllim suallar vasitəsilə mətnin məzmununu xatırladır.

**Oxuyub-anlama**

**5-2.3.1. Tapşırıq a (dərslik).** Tapşırığın tələbi budur ki, şagirdlər mətnin sonuncu cümləsinə əsaslanaraq ideyanı müəyyən etsinlər.

Mətnin sonuncu cümləsi belədir: Elektron poçtum olsaydı, indi "Maykrosoft"da süpürgəçi işləyirdim!..

İnsanın özünəinamı, qətiyyəti, əzmkarlığı onu istənilən uğura çatdıra bilər.

Əgər Coni güclü xarakterə malik olmasaydı, tələb olunan elektron ünvanı düzəltməklə məşğul olsaydı, doğrudan da, sıravi bir işçi kimi qala bilərdi.

**5-2.1.2. Tapşırıq b (dərslik).** Tapşırıqda verilən fikirlərin düzgün, yanlış, yoxsa ehtimal olduğunu müəyyən etmək tələb olunur. Mətnin məzmununa əsaslanmaqla şagirdlər sualı cavablandırırlar.

Cavab: 1 – doğru; 5 – yanlış; 2, 3, 4 – ehtimal.

**Dinləmə**

**5-1.1.1.** Şagirdlərə tövsiyə edilir ki, mətni diqqətlə dinləsinlər. Çünki dinləmə mətni bitdikdən sonra məzmuna aid suallar tərtib ediləcək.

**Tapşırıq c (dərslik).** Müəllim mətni səsləndirir:

**Geytsin uğur taleyi**

*Bill Geyts 1955-ci ildə Amerikada doğulub. Ziyalı insanların əhatəsində böyüyən Bill mükəmməl təhsil almışdı. O, arıq, çəlimsiz, həm də utancaq və təvazökar bir uşaq idi. 12 yaşı olanda kompüterdə proqramlaşdırma işini öyrənməyə başladı. Başqa fənlərdən uğur qazana bilməsə də, riyaziyyatdan yüksək qiymətlər alırdı. Atası istəyirdi ki, Bill böyüyəndə riyaziyyatçı olsun. Amma o, başqa yolu seçdi.*

*13 yaşı olanda Bill Geyts ilk kompüter proqramı hazırladı. Eyni zamanda oxuduğu kollecdə şirkət yaratdı. Şirkətdə onun sinif yoldaşları işləyirdilər. Onlar yerli hakimiyyət üçün kompüter proqramları hazırlayır, şəhər nəqliyyatının hərəkət qrafikini avtomatlaşdırırdılar. Küçə hərəkət qaydalarını nizamlamaq üçün proqram yaradanda Billin 15 yaşı vardı. Bu yaşda o, 20000 dollar qazandı. Bundan sonra Bill müxtəlif iş təklifləri, sifarişlər almağa başladı.*

*Bill Geyts və dostu Pol Allen proqramlaşdırma üzərində səylə işləməyə başladılar. Nəhayət, "Maykrosoft" şirkətinin təməli qoyuldu.*

*Artıq 35 yaşı olanda Bill milyarder idi. O, bir neçə dəfə uğursuzluğa düçar olsa da, ruhdan düşmürdü. Əksinə, yeni-yeni proqramlar hazırlayaraq dünyada ən məşhur insanlardan birinə çevrildi. 2009-cu ildə dünyanın ən varlı adamlarının siyahısında birinci yeri tuturdu.*

*2018-ci ildə Bill Geyts "Maykrosoft" şirkətini tərk etdi və həyat yoldaşı ilə birlikdə xeyriyyəçiliklə məşğul olmağa başladı. O, bu gün də həmin işi uğurla davam etdirir.*

Müəllim mətni oxuyub qurtardıqdan sonra şagirdlər mətnin məzmununa aid suallar tərtib edirlər. Sonra həmin sualları bir-birilərinə ünvanlayaraq cavablandırırlar.

**Tapşırıq ç (dərslik). Fənlərarası inteqrasiya.** (Riyaziyyat) Tapşırığı şagirdlər dinləmə mətnindən götürdükləri qeydlər əsasında yerinə yetirirlər. Təqdim edilən iki fikrin düzgünlüyünü mətndəki məlumatlara əsaslanmaqla riyazi hesablama yolu ilə müəyyən edirlər.

**I fikir.** Bill Geyts dünyanın ən varlı adamı kimi tanındıqdan 9 il sonra xeyriyyəçiliklə məşğul olmağa başladı. Bu fikir düzdür. Çünki Bill 2009-cu ildə dünyanın ən varlı adamı kimi məşhurlaşdı. O, 2018-ci ildə xeyriyyəçiliklə məşğul olmağa qərar verdi. 2018-dən 2009 çıxanda 9 alınır.

**II fikir.** Bill Geyts 1970-ci ildə proqram hazırladı. Mətndə deyilir ki, B.Geyts 1955-ci ildə doğulub. 15 yaşı olanda küçə hərəkətlərini nizamlamaq üçün proqram hazırlayıb. 1955-lə 15-i toplayanda 1970 edir. Beləliklə, şagirdlər bu hesablamaları aparmaqla verilən fikirləri faktlarla sübut etmiş olurlar.

**Oxuyub-anlama**

**5-2.3.6. Tapşırıq d (dərslik).** Bu tapşırıqda mətnin epizodu dəyişdirilir və şagirdlərin təxəyyülünə uyğun davam etdirilir. “Əgər Coni işə götürülsəydi, hadisələr necə cərəyan edə bilərdi?” sualına cavab olaraq şagirdlər öz yaradıcı təfəkkürlərinə uyğun olaraq mətni nəqletmə yolu ilə dəyişdirirlər. Bu tapşırıqda şagirdlər sərbəst şəkildə öz versiyalarını təqdim edirlər. *Nümunə*:

*Coni çox xoşbəxt idi. İstədiyi şirkətdə işləyirdi. Artıq elektron ünvanı da var idi. İşə çox həvəslə gedib-gəlirdi. Qısa müddət ərzində özünü tanıtmış, hamının hörmətini qazanmışdı.*
*Növbəti iş günlərindən biri idi. Artıq axşam düşmüşdü. İşçilərin, demək olar ki, hamısı çıxıb getmişdi. Coni dəhlizdəki zibil qutularını boşaldırdı. Onun əhvali-ruhiyyəsi çox yüksək idi. Qulaqcıqdan eşitdiyi musiqi səsinə rəqs edə-edə işini görürdü. Başı rəqsə və işə elə qarışmışdı ki, şirkət sahibinin ona yaxınlaşmasını hiss etməmişdi. Çevriləndə gözlərinə inanmadı. Bill Geyts gülümsəyərək ona tamaşa edirdi. İlk dəfə idi ki, Coni belə məşhur bir insanı yaxından görürdü. Cəld qutuları kənara çəkdi. Qulaqcıqları və əlcəkləri çıxardı. Bill Geytsə əl uzadaraq şən səslə salamlaşdı. Onun belə cəsarəti və səmimiyyəti*
*Geytsin çox xoşuna gəldi. Öz cavanlığını xatırladı. O, əvvəllər çox çəkingən, utancaq bir gənc idi. Bu xarakterinə görə özünü çox qınayırdı. Həmişə düşünürdü ki, bu xüsusiyyəti ona həyatda mane olacaq. Bu cəhətdən xilas olmaq üçün vaxtilə xeyli əziyyət çəkmişdi.*

*Geyts Coniyə əl uzadaraq onunla görüşdü. Onu tanımaq üçün bir neçə sual verdi. Coninin danışıq tərzini, hazırcavablığını çox bəyəndi. Bill Geyts Coninin qoluna girib öz otağına apardı.*

*Səhəri gün Coni qonşusu Toması özü ilə şirkətə gətirdi. Onun sənədlərini qəbul şöbəsinə təqdim etdi. Tomas Coninin işini davam etdirəcəkdi. Coni isə Bill Geytsin xüsusi tapşırıqlarını yerinə yetirəcəkdi. Kim güman edə bilərdi ki, Coni adlı bu qaradərili oğlan günlərin birində Bill Geytsin sağ əli olacaq...*

Şagirdlər mətni təxəyyüllərinə uyğun dəyişib nəql etdikdən sonra müəllim bu nümunəni də şagirdlərə oxuya bilər. Sinifdaxili kiçik bir müsabiqə keçirib ən yaxşı düşünülmüş mətni müəyyənləşdirmək yaxşı olardı.

**Yazı**

**5-3.2.1. Tapşırıq a (iş dəftəri).** İş dəftərində dinləmə mətninin məzmununa aid plan təqdim olunub. Şagirdlər planın ardıcıllığını müəyyən etməli və mətnin qısa məzmununu yazmalıdırlar.

“Geytsin uğur taleyi” mətninin planının ardıcıllığı belədir:

1 – c; 2 – d; 3 – a; 4 – e; 5 – b; 6 – ç.

Ardıcıllıq müəyyən edildikdən sonra mətnin qısa məzmunu yazılır. Yazı işi başa çatdıqdan sonra şagirdlər bir-birinin yazısını yoxlaya bilərlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə öz əksini tapan (tapmayan) fikirləri müəyyənləşdirir. | Tap. **b** (D.) |
| Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir. | Tap. **a** (D.) |
| Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır. | Tap. **c** (D.) |
| Qurduğu plan əsasında dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. **a** (İ.D.) |

## 3-cü dərs. İsmin mənsubiyyətə görə dəyişməsi

• Dərslik: səh. 21 • İş dəftəri: səh. 14

**Təlim məqsədləri**

**1.** Cümlədə mənsubiyyət şəkilçili isimləri müəyyən edir **(st. 5-4.2.1).**

### Mövzuya yönəltmə

Bu dərsin ilk tapşırığı vasitəsilə şagirdləri mövzuya yönəltmək olar.

**Tapşırıq a (dərslik).** Şagirdlər "poçt" sözünə artırılmış şəkilçilərin funksiyasını izah edirlər: poçtunuz sözündəki -unuz şəkilçisi poçtun sizə (II şəxsin cəminə) mənsub olduğunu bildirir. Poçtum sözündəki -um şəkilçisi poçtun mənə (I şəxsin təkinə) mənsub olduğunu bildirir.

**Müəllimin nəzərinə!** Nümunə dərslikdəki mətndən götürüldüyü üçün şagirdlər birinci cümlənin bir adama – Coniyə ünvanlandığını bilirlər. Müəllim onlara xatırlada bilər ki, rəsmi münasibət, yaxud hörmət məqsədilə "sən" əvəzinə "siz" işlədilir. Bu zaman "siz" sözünün baş hərfi böyük yazılır.

### Dil qaydaları

**5-4.2.1.** Tapşırığın ardınca **"Yadda saxla"** rubrikasında mənsubiyyət şəkilçiləri haqqında məlumat verilir.

**Tapşırıq b (dərslik).** Bu tapşırıqda nöqtələrin yerinə mənsubiyyət şəkilçilərinə uyğun şəxs əvəzlikləri yazmaq tələb olunur. Şagirdlər asanlıqla şəxs əvəzliklərini uyğunlaşdırıb yaza bilərlər.

**Tapşırıq c (dərslik).** Tapşırığın şərtinə əsasən nöqtələrin yerinə tələb olunan mənsubiyyət şəkilçisi yazmaqla cümlələri tamamlamaq lazımdır.

**Cavab:** 1. məktəbimiz; 2. pəncərəsi; 3. arzum; 4. eviniz; 5. kitabın; 6. küçələri.

**Tapşırıq ç (dərslik).** Bu tapşırıqda bir neçə cümlə verilib. 2 cümlədə mənsubiyyət şəkilçili sözlərin neçənci şəxsə aid olduğunu dəqiq müəyyən etmək mümkün deyil. *Cavabını* və *yolunu* sözlərinin həm II, həm də III şəxsin təkində işləndiyini düşünmək mümkündür: sənin, yoxsa onun.

Cavab: 1, 4.

**Tapşırıq a (iş dəftəri).** Altından xətt çəkilmiş şəkilçinin neçənci şəxsin mənsubiyyət şəkilçisi olduğu müəyyən edilməlidir.

**Tapşırıq b (iş dəftəri).** Bu tapşırıqda nöqtələrin yerinə tələb olunan mənsubiyyət şəkilçiləri yazmaq lazımdır. Bu tapşırıqlar dərslikdəki qazanılmış biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq c (iş dəftəri).** Bu tapşırıq dərslikdəki ç tapşırığı ilə eyni xarakterlidir.

Cavab: 1, 3, 6.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə mənsubiyyətə görə dəyişən isimləri müəyyən edir. | Tap. **a**, **b**, **c**, **ç** (D.); **a**, **b**, **c** (İ.D.) |

# 4-cü fəsil

## 1-ci dərs. Sonuncu düym

• Dərslik: səh. 22-24 • İş dəftəri: səh. 15

**Təlim məqsədləri**

**1.** Mətnin hissələrini əlaqələndirməklə ümumi məzmun və obrazlar barədə fikir yürüdür **(st. 5-2.2.1).**

**2.** Kontekstdən çıxış edərək sözün mənasını izah edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**

**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

### Mövzuya yönəltmə

Müəllim sinfə müraciət edir:

– Təsəvvür edin ki, təhlükəli və çıxılmaz bir durumdasınız. Həm özünüzün, həm də ətrafdakı insanların həyatı sizdən asılıdır. Sizə tanış olmayan bir işi üzərinizə götürməli və sona çatdırmalısınız. Bunun üçün xarakterinizdə hansı xüsusiyyətlərin olması vacibdir?

### Oxu

“Sonuncu düym” mətninin növbəli oxusu başlanır. Şagirdlər mətni müəyyən edilmiş hissəyə qədər oxuduqdan sonra proses yarımçıq saxlanılır. Bu məqamda a tapşırığının icrasına başlanılır.

### Oxuyub-qavrama

**5-2.2.1. Tapşırıq a (dərslik).** Şagirdlər bir daha ata ilə oğulun dialoquna nəzər salaraq onlar haqqında fikir yürüdürlər. Şagirdlər deyə bilərlər ki, Devi tənha olduqlarını dərk edir və qorxur. Düşünür ki, onların burada olmasından heç kimin xəbər tutmaması çox təhlükəlidir. Başlarına pis bir iş gəlsə, heç kim bunu bilməyəcək. Dialoqa əsasən demək olar ki, hələ ki Ben qorxmur, özünə arxayındır. Onun danışığında bir əminlik hiss olunur. Sonra isə şagirdlər hadisələrin davamı ilə bağlı öz təxminlərini söyləyirlər. Onların hər birini dinlədikdən sonra mətnin oxusu davam etdirilir. Oxu prosesi başa çatdıqdan sonra şagirdlərin təxəyyülü ilə mətnin məzmunu müqayisə edilir.

Tapşırığın əsas məqsədi nitq bacarığını inkişaf etdirməkdir.

### Söz ehtiyatı

**5-2.1.3. Tapşırıq b (dərslik).** Tapşırığın şərtinə görə şagirdlər “Söz boğçası”nda verilən sözlərin kontekstə görə mənasını müəyyən edir və onları aid olduğu məna qrupu ilə uyğunlaşdırırlar.

Cavab: 1 – ç; 2 – e; 3 – a; 4 – c; 5 – b; 6 – d.

### Oxuyub-anlama

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).** Tapşırıq oxuyub-anlama bacarığının inkişafına yönəlib. Mətnin məzmununa aid suallar təqdim olunub. Şagirdlər bu sualları yazılı şəkildə cavablandırırlar. Tapşırığın 1-ci sualı belədir: Mətnin təhkiyəçisi kimdir?

Bu bölmədə **“Qlossari”** rubrikasında təhkiyə və təhkiyəçi haqqında məlumat verilir. Şagirdlər təhkiyəçinin müəllif olduğunu, mətnin müəllifin dilindən nəql olunduğunu yazacaqlar.

Mətnin digər sualları da məzmuna əsaslanmaqla cavablandırılır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. a (D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. a (D.) |
| Mətni oxuyarkən qabaqcadan müəyyən olunmuş sualların cavablarını mətndən seçir. | Tap. a (İ.D.) |
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tap. b (D.) |

## 2-ci dərs. Sonuncu düym

• Dərslik: səh. 24-25 • İş dəftəri: səh. 16

**Təlim məqsədləri**

**1.** Mətndəki fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**2.** Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**

**3.** Mətnin epiqrafını müəyyən edir **(st. 5-2.3.3).**

**Mövzuya yönəltmə**

Müəllim mətni xatırlatmaq məqsədilə bütün məzmunu əhatə edən frontal sorğu keçirir.

**Oxuyub-anlama**

**5-2.1.2. Tapşırıq a (dərslik).** Dərsin ilk tapşırığında verilmiş hansı fikirlərin mətndə öz əksini tapdığı müəyyən edilir. Mətnin məzmununu mənimsəyən şagirdlər verilən fikirlərin mətnə uyğunluğunu faktlar əsasında təsdiq edir və düzgün bəndləri seçirlər.

**a bəndi:** Devi ilk dəfə idi ki, atası ilə Köpəkbalığı körfəzinə gedirdi. Devinin atasına verdiyi suallardan aydın olur ki, o buraya ilk dəfədir ki, gəlir. Çünki Devinin körfəz haqqında məlumatsız olduğu görünür.

**b bəndi:** Ben təcrübəli təyyarəçi idi. Bu, həqiqətən, belədir. Çünki o, yaralı olsa da, oğlunu düzgün istiqamətləndirir və nəticədə Devi təyyarəni endirməyi bacarır.

**c bəndi:** Ben xilas olacaqlarına əmin idi. Lakin mətnin məzmunundan da aydın görünür ki, Ben xilas olacaqlarına əmin deyildi. Çünki Devi uşaq idi və onun bu işi bacaracağı sual altında idi. Benin düşüncələri də bunu təsdiq edir. Düşünürdü ki, ona bir şey olsa, oğlu səhralıqda tək-tənha qalacaq. Onun burada qalmasından heç kim xəbər tutmayacaq və s.

**ç bəndi:** Devi uşaq olsa da, bir çox çətinliklərin öhdəsindən gəlməyi bacardı. Bu, həqiqətən də, belədir. Devi atasını təyyarəyə mindirməyi, atasının izahına əsasən təyyarəni idarə etməyi və yerə endirməyi bacardı.

**d bəndi:** Əsərin müəllifi kiçik təyyarələrin idarə edilməsi ilə bağlı müəyyən bilgilərə malikdir. Bu mətndən açıq-aydın hiss olunur. Təyyarənin yerə enməsi üçün müəyyən ölçülərin, məsələn, sonuncu, yəni altıncı düym haqqında məlumatlı olması, dəstəyin düzgün istiqamətə yönləndirilməsi və s.

Cavab: a, b, ç, d.

Tapşırıq oxuyub-anlama bacarığını inkişaf etdirir.

**5-2.2.1. Tapşırıq b (dərslik).** Təqdim olunan cümlələri mətnin məzmununa istinad etməklə tamamlamaq tələb olunur.

1. Akulalar qan iyini çox tez hiss edirlər, ona görə də Ben suya girərkən özü ilə ət parçası götürür. Məlumdur ki, Ben akulalarla bağlı çəkiliş etməli idi. O istəyirdi ki, akulalar ona yaxınlaşsın və onları yaxından çəkmək mümkün olsun. Ət parçası ilə suya girməyin səbəbi də bu idi.

2. Ben huşunu itirməkdən çox qorxurdu, çünki o, huşunu itirsəydi, Devi çaşbaş qalardı, nə edəcəyini bilməzdi. Hər ikisinin həyatı məhv ola bilərdi.

Cümlələr tamamlandıqdan sonra onların səbəb, yoxsa nəticə olduğunu müəyyən edirlər.

Cavab: a – 1; b – 2.

**Tapşırıq c (dərslik).** Bu tapşırıqda atanın sözlərini izah etmək tələb olunur. Bunun üçün şagird Həyat bilgisindən və ya digər mənbələrdən istifadə edə bilər. Ata nə üçün deyir ki, qolumu yuxarıdan möhkəm sıx. Yəqin ki, şagirdlər bunun qanaxmanın qarşısını almaq üçün lazım olduğunu deyəcəklər.

**Tapşırıq ç (dərslik).** Tapşırıq nəticəçıxarma üçün düşünülüb. Sual belədir: Nə üçün müəllif əsərini "Sonuncu düym" adlandırıb? Bu sualı cavablandırmaq üçün müəllim şagirdlərə müxtəlif sualların köməyi ilə istiqamət versə, yaxşı olar.

Bu mətndə sonuncu düym simvolik məna daşıyır. Sonuncu cəhd mənasını verir. Ben bilir ki, düzgün hesablanmış sonuncu düym yaşamaq uğrunda mübarizənin sonuncu cəhdidir. Sonuncu – altıncı düym dəqiq müəyyən edilərsə, yaşamaq cəhdi də uğurlu alınar. Müəllifin oxucuya çatdırmaq istədiyi fikir bundan ibarətdir.

**5-2.3.3. Tapşırıq d (dərslik).** Bu tapşırıq da mətnin ideyası ilə bağlıdır. Əvvəlki fəsillərdən şagirdlərin epiqrafla bağlı müəyyən təsəvvürləri var. Mətndə üç cümlənin altından xətt çəkilib. Bunlardan birini mətnin ideyası kimi qəbul etmək mümkündür. Tapşırığın şərtinə görə həmin cümlə mətndən seçilməli və seçim əsaslandırılmalıdır.

Cavab: Özünü sınamadan heç vaxt nəyə qadir olduğunu bilməzsən.

Mətndə bu fikri Ben oğlu Deviyə söyləyir. Həqiqətən də, sonda məlum olur ki, Devinin özünü sınamadan "mən bacarmaram" deməsi onun yanıldığını göstərir. İnsan öz gücünə inanmalı, özünə güvənməlidir. Öz gücünü bilmədən, sınamadan geri çəkilmək düzgün deyil.

**Tapşırıq e (dərslik).** Dərslikdəki sonuncu tapşırıq da nəticəçıxarma bacarığının möhkəmləndirilməsinə xidmət edir. Tapşırıq mətnin ideyası ilə bağlıdır. Verilən aforizmləri mətnin ideyası ilə əlaqələndirmək tələb olunur.

1-ci aforizm U.Şekspirə aiddir: Bizim şəxsiyyətimiz bağçadırsa, iradə onun bağbanıdır. Şagirdlər bu aforizmi mətnlə belə əlaqələndirə bilərlər. Bir bağça o zaman gözoxşayan, məhsuldar olar ki, gözəl bağbanı olar, əkilər, becərilər, qulluq göstərilər. Bağbanı olmayan bağçanı otalaq basar, xarabazarlığa çevrilər. Atalar demişkən, bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar. Aforizmin mənası odur ki, bağı bağ edən bağbandırsa, şəxsiyyəti də şəxsiyyət edən iradədir. İradəsi olmayandan şəxsiyyət olmaz.

2-ci aforizm Bernanosa məxsusdur: Ən böyük qələbə ümidsizlik üzərində qələbədir. Bu aforizmi mətnlə belə əlaqələndirmək olar. Benin xilas olmaq üçün heç bir ümidi qalmamışdı. Devi də təyyarəni idarə edə biləcəyini ağlına belə gətirmirdi. Ən son anda, ümidsizliyə qapıldığı bir zamanda özünü toparlayaraq atasının dediklərinə əməl edərək təyyarəni idarə edə bildi. Həm özünün, həm də atasının həyatını xilas etdi.

5-2.1.2. **Tapşırıq a (iş dəftəri).** Dərsin sonuncu tapşırığı iş dəftərində öz əksini tapıb. Hekayə xəritəsinin bəzi yarımbaşlıqlarına aid məlumatlar açıq şəkildə mətndə verilib, bəziləri isə şagirdlərin analiz etmək bacarığı sayəsində yazılacaq. Hekayə xəritəsini tamamlamaqla şagirdlər mətnin məzmununu anladıqlarını bir daha nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir. | Tap. **a**, **b**, **c** (D.); **a** (İ.D.) |
| Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir. | Tap. **ç**, **d**, **e** (D.) |

## 3-cü dərs. Əzmkar alpinist

• Dərslik: səh. 25-26 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri**

**1.** Müzakirə zamanı mövzu ilə bağlı mülahizələrini söyləyir, mühakimə yürüdür **(st. 5-1.2.2).**
**2.** Mətni dinləyərkən açar sözləri qeyd edir **(st. 5-1.1.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Tapşırıqda qoyulan sual (Uğursuzluğa düçar olmuş insanla qarşılaşsaydınız, ona nə deyərdiniz?) mövzuya yönəltmə üçün yaxşı imkan yaradır. Şagirdlər bu suala müxtəlif cür cavab verə bilərlər. Lakin təxmini cavab belə ola bilər.

Mən elə adamla qarşılaşsaydım, deyərdim ki, heç bir uğursuzluğa görə ruhdan düşmək olmaz. İnsan uğursuzluqla qarşılaşdıqca daha mübariz, daha əzmkar olmalıdır. Məqsədə çatmaq üçün sona qədər inadla çalışmaq lazımdır. Heç vaxt insanın bütün cəhdləri boşa çıxa bilməz. Günlərin birində mütləq hər kəs öz əməyinin müqabilində zəhmətinin bəhrəsini görməlidir.

**Oxu**

Sonra "Əzmkar alpinist" mətni şagirdlər tərəfindən səssiz şəkildə oxunur.

Oxu prosesi başa çatdıqdan sonra digər çalışmaların həllinə başlanılır.

**Danışma**

5-1.2.2. **Tapşırıq b (dərslik).** Cavab: Edmund Hillarinin ilk dəfə Everesti fəth etmək cəhdi uğursuz olmuşdu. O isə bu məğlubiyyətlə barışmaq istəmirdi. Edmund Everestə müraciətində bildirmişdi ki, Everest mənə qalib gəlməklə gözümdə daha da böyüdü. Amma mənim mübarizəm hələ bitməyib.

**Tapşırıq c (dərslik). Fənlərarası inteqrasiya.** Şərtə görə şagirdlər alpinizm idman növü və

onun xüsusiyyətləri haqqında danışmalıdırlar. Şagirdlər dünyagörüşləri, baxdıqları filmlər, digər fənlərdən qazandıqları biliklər əsasında bu sual ətrafında fikir yürüdə bilərlər.

**Tapşırıq ç (dərslik).** Bu tapşırıqda "yeni zirvələri fəth etmək" ifadəsinin məcazi mənasının izahı soruşulur.

Cavab: uğur qazanmaq, uğurlara imza atmaq və s. Şagirdlər qarşılarında duran zirvələr haqqında söhbət açır və ona necə çatmaq yolları barədə danışırlar.

**5-1.1.1. Tapşırıq d (dərslik).** Bu tapşırıq dinləmə mətni əsasında yerinə yetirilir.

**Müəllimin nəzərinə!** Bu mətnlə bağlı dərslikdə və iş dəftərində tapşırıqlar verilmişdir. Mətn faktlarla zəngindir, buna görə də şagirdlərin mətni dinləməzdən əvvəl tapşırıqlarla tanış olması tövsiyə edilir. Bu onlara mətni dinləyərkən nələrə diqqət yetirməli olduqlarını müəyyənləşdirməyə imkan yaradar.

Müəllim dinləmə mətnini oxuyur.

**Zirvələr və onların fəthi**

*Hündür zirvələr içərisində Everest xüsusi yer tutur. Bu zirvə dünyanın ən hündür sıra dağları sayılan Himalay dağlarında yerləşir. Hündürlüyü 8.848 metrdir. Zirvənin daha qədim adı Comolunqmadır. Zirvə Çin–Nepal sərhədində yerləşir.*

*Son 20 il müddətində Everestə çıxanların sayı təqribən 10 dəfə artıb. Təkcə 2019-cu ildə 876 alpinist Everesti fəth edib.*

*2015-ci ildə Himalay dağ silsiləsində baş verən güclü zəlzələdən sonra Everestdə dəyişiklik olub. Alimlərin hesablamalarına görə zirvə 1 metrə qədər yüksəlib.*

*Yer üzündə hündürlüyü 8000 metrdən çox olan 14 zirvə mövcuddur. Onların hamısı Asiyada Himalay və Karakurum dağ silsilələrində yerləşir. Bu zirvələrin fəth edilməsi üçün müxtəlif cəhdlər olub. Amma bu cəhdlərin heç də hamısı uğurla nəticələnməyib.*

*14 zirvənin hamısını fəth edən birinci şəxs Raymond Messner olub. Məlumdur ki, yüksəklik artdıqca havada oksigenin miqdarı azalır. Buna görə də alpinistlər oksigen balonundan istifadə edirlər. Messner isə bu zirvələri oksigen balonundan istifadə etmədən fəth edib. Ondan bir il sonra, 1987-ci ildə polyak E.Kukuçka da həmin zirvələri fəth edən ikinci şəxs oldu. Kukuçka bu işi 8 il ərzində görüb.*

*1995-ci ildə isveçrəli E.Loretan da oksigen balonundan istifadə etmədən Messnerin rekordunu təzələdi.*

*Nepallı F.Taşi 1998-2011-ci illər ərzində səkkizminlik zirvələri ən çox fəth etmiş alpinist kimi tarixə düşdü. O bu işin öhdəsindən 30 dəfə gəlib.*

*Hələ bundan sonra da ən hündür zirvələrə qalxmağa cəhd edən, bu rekordları təzələyən yüzlərlə alpinistlər yetişəcək.*

Dinləmə mətni bitdikdən sonra şagirdlər götürdükləri qeydlər əsasında təqdim olunan sualları cavablandırırlar.

**Tapşırıq a (iş dəftəri).** Dinləmə mətninin məzmununa əsasən verilən məlumatları tamamlamaq tələb olunur. Bütün bu məlumatlar "Zirvələr və onların fəthi" mətnində öz əksini tapıb. Əgər şagirdlər qeydgötürmə bacarığından düzgün istifadə edə biliblərsə, məlumatları asanlıqla tamamlaya biləcəklər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Göterdüyü qeydlər əsasında mətnin məzmununa uyğun faktları müəyyənləşdirir. | Tap. **d** (D.); **a** (İ.D.) |
| Müzakirə zamanı mövzu ilə bağlı mülahizələrini söyləyir, mühakimə yürüdür. | Tap. **b,c,ç** (D.) |

## 4-cü dərs. Özünə qalib gəlmək

• Dərslik: səh. 26

**Təlim məqsədləri**

**1.** Mövzu ilə bağlı şəxsi mövqeyini bildirmək üçün esse yazır (st. 5-3.2.2).

**Mövzuya yönəltmə**

Dərsdə essenin strukturu və esse yazmaq haqqında təlimat verilib. Bundan başqa **"Diqqət et"** rubrikasında esse yazan zaman nələrə diqqət etməyin vacibliyi vurğulanır. Bütün bunları şagirdlərlə müzakirə etməklə mövzuya yönəltmək olar.

**Yazı**

**5-3.2.2. Tapşırıq a (dərslik).** Esseni təqdim olunmuş struktur əsasında genişləndirmək və tamamlamaq lazımdır. Problem, münasibət, nəticə yığcam formada verilib. Şagirdlər oxuduqları və dinlədikləri mətnlərdən, eləcə də **"Diqqət et"** rubrikasında da qeyd olunduğu kimi digər mənbələrdən arqumentlər gətirməklə yazı işini tamamlamalıdırlar.

**Müəllimin nəzərinə!** Şagirdlərə izah etmək lazımdır ki, essenin əsas hissələri dərslikdə verilib. Onlar müxtəlif arqumentlər gətirib fikirlərini əsaslandırmalıdırlar.

*Nümunə*: İnsanın həyatda müəyyən məqsədləri olur. Bu hədəflərinə çatmaq üçün həmişə insan mübarizə aparır. Rast gəldiyi çətinliklərə sinə gərərək hədəfə doğru can atır. Lakin bəzən olur ki, bu keşməkeşli yolda insan cəhd edir, əziyyət çəkir, nə qədər zəhmətə qatlaşırsa da, məqsədinə nail ola bilmir. Bəs, görəsən, buna uğursuzluq demək olarmı?

Bəlkə də, çoxları bunu uğursuzluq kimi qəbul edə bilər. Amma, mənim fikrimcə, uğur məqsədə çatmaq deyil. Əsl uğur tutduğun yoldan dönməmək, mübarizədən çəkinməmək, cəhd etməkdən yorulmamaqdır. Oxuduğumuz əsərlərdən, baxdığımız bir çox filmlərdən də məqsədi uğrunda mübarizə aparan obrazlarla tanışıq. Məsələn, "Əzmkar alpinist" əsərinin qəhrəmanı Edmund Hillari Everestə qalxmaq üçün cəhd edir və bu cəhdi uğursuz olur. Amma bu onu ruhdan salmır. Əksinə, məğlubiyyəti qəbul etmir. Yenidən daha əzmlə bu cəhdini təkrar edir və Everesti fəth edərək məqsədinə nail olur. Başqa bir misal. "Sonuncu düym" mətninin əsas qəhrəmanları ata-oğul – Ben və Devi ölüm-dirim mübarizəsində iradə nümayiş etdirirlər. İçlərindəki qorxu hissini boğmağı, ruh düşkünlüyünə qalib gəlməyi və öz həyatlarını xilas etməyi bacarırlar. Belə nümunələr çox çəkmək olar.

Beləliklə, bir daha əmin olursan ki, insan uğursuzluqla qarşılaşanda ruhdan düşməzsə, daha qətiyyətlə mübarizə apararsa, xarakteri möhkəmlənər, güclü şəxsiyyətə çevrilər. Əsas məsələ özünə qalib gəlməkdir.

Essenin yazılması başa çatdıqdan sonra şagirdlər esselərini oxuyur və bir-birlərinin yazısını müzakirə edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mühakimə və arqumentlərini əks etdirməklə kiçikhəcmli esse yazır. | Tap. a (D.) |

## 5-ci dərs. İsmin şəxsə görə dəyişməsi

• Dərslik: səh. 27 • İş dəftəri: səh. 18

**Təlim məqsədləri**

**1.** Cümlədə şəxs şəkilçiləri qəbul etmiş isimləri müəyyənləşdirir **(st. 5-4.2.1).**

**Mövzuya yönəltmə**

Xatırlatmaq məqsədilə müəllim ismin qrammatik xüsusiyyətlərinə aid müxtəlif suallar verir.

**Dil qaydaları**

**5-4.2.1. Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələrdə nöqtələrin yerinə uyğun şəxs şəkilçiləri artırırlar. Şagirdlər dil daşıyıcısı olduqları üçün bu işin öhdəsindən gələ biləcəklər.

**"Yadda saxla"** rubrikasında ismin xəbərlik şəkilçiləri diqqətə çatdırılır.

**Tapşırıq b (dərslik).** Tapşırıqda xəbərlik şəkilçili sözlərin neçənci şəxsə aid olduğunu müəyyən etmək tələb olunur.

Cavab:

1. əsgərdir – III şəxsin təki; 2. qızsan – II şəxsin təki; 3. təşkilatçıyam – I şəxsin təki; 4. qonşusunuz – II şəxsin cəmi; 5. sinifik – I şəxsin cəmi; 6. iştirakçılarıdır – III şəxsin cəmi.

**Tapşırıq c (dərslik).** Tapşırıqda dördündən biri fərqli olanı müəyyən etmək lazımdır.

Cavab: 1 – c; 2 – d.

**Tapşırıq ç (dərslik).** Nöqtələrin yerinə tələb olunan şəxs şəkilçiləri yazmaqla cümlələri tamamlamaq tələb olunur.

Cavab:

1. Ariflə birinci sinifdən dostuq.
2. Həqiqətən də, bu uğura layiqsiniz.
3. Məlum oldu ki, Elxanın bacısıdır.

**Tapşırıq a (iş dəftəri).** Cümlələrin tərkibindəki fərqləndirilmiş xəbərlik şəkilçilərinin neçənci şəxsə aid olduğunu müəyyən etmək tələb olunur.

Cavab:

1. tanışıq – I şəxsin cəmi; 2. insanam – I şəxsin təki; 3. quşdur – III şəxsin təki; 4. müəllimsiniz – II şəxsin cəmi; 5. uşaqsan – II şəxsin təki; 6. tapşırıqlardır – III şəxsin cəmi.

Tapşırıq qazanılmış biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq b (iş dəftəri).** Bu tapşırıqda şeirdən bəndlər verilib. Misralardakı xəbərlik şəkilçili sözlərin altından xətt çəkmək tələb olunur.

*Sən Xəzərin sahilində*
*Ulu, qədim şəhərsən.*
*Bütün Azərbaycana*
*Nur çiləyən şəhərsən.*

*Mən torpağam, məni atəş yandırmaz,*
*Tərkibimdə kömürüm var, külüm var.*
*Mən baharam, çəmən-çəmən*
*Çiçəyim var, gülüm var.*

**Tapşırıq c (iş dəftəri).** Növbəti tapşırıqda nöqtələrin yerinə xəbərlik şəkilçisi yazmaqla cümlələri tamamlamaq lazımdır. Bu tapşırıq şagirdlər tərəfindən rahatlıqla yerinə yetiriləcək. Çünki onlar artıq bu şəkilçilərin qrammatik funksiyasını mənimsəyiblər.

**Tapşırıq ç (iş dəftəri).** Boş xanalara xəbərlik şəkilçili sözlər yazmaqla cədvəli tamamlayırlar. İstənilən ismə şəxs sonluqları artırmaqla tapşırığı yerinə yetirmək mümkündür. Bu tapşırıqların köməyilə şagirdlər ismin xəbərlik şəkilçisinə aid mənimsədikləri bilik və bacarıqları bir daha tətbiq etmiş olacaqlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə ismin hansı şəxsə görə dəyişdiyini müəyyən edir. | Tap. **a**, **b**, **c**, **ç** (D.); **a**, **b**, **c**, **ç** (İ.D.) |

## Ümumiləşdirici təkrar

• Dərslik: səh. 28-29 • İş dəftəri: səh. 19

**Təlim məqsədləri**

**1.** Suallara cavab verməklə mətni mənimsədiyini nümayiş etdirir (st. 5-2.1.2).
**2.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir (st. 5-2.1.2).
**3.** Əsas və köməkçi nitq hissələrini fərqləndirir (st. 5-4.2.2).
**4.** Cümlədə sözlərin qrammatik xüsusiyyətlərini müəyyən edir (st. 5-4.2.1).

### Mövzuya yönəltmə

Dərsin əsas məqsədi bu bölmədə oxunan mətnləri, öyrədilən dil qaydalarını, oxuyub-anlama bacarığını bir daha möhkəmləndirmək və inkişaf etdirməkdir. Müəllim bölmənin mövzularına aid suallar vasitəsilə xatırlatmalar edir.

### Oxu

“Qalib Qurbağa” mətninin oxusu həyata keçirilir. Oxu zamanı düzgün səs tonunun seçilməsinə diqqət yetirmək tövsiyə olunur. Oxu prosesi bitdikdən sonra mətnin məzmununa aid (1-4) möhkəmləndirmə tapşırıqları üzərində iş aparılır.

### Oxuyub-anlama

**5-2.1.2. Tapşırıq 1 (dərslik).** Tapşırıqda 4 sual verilib. Hansı sualın cavabının mətndə olmadığını müəyyən etmək lazımdır. Tapşırığın əsas məqsədi şagirdlərin diqqətini yoxlamaqdır. Mətni diqqətlə oxuyan şagird verilmiş sualları cavablandırmaqla cavabı mətndə olmayan sualı müəyyən edə biləcək. Mətnin məzmununda a, b, d suallarının cavabı əhatə olunub. Lakin Qurbağanın neçə dəqiqəyə qalanın başına çıxması haqqında mətndə məlumat yoxdur.

Cavab: c bəndinin cavabı mətndə yoxdur.

**Tapşırıq 2 (dərslik).** Tapşırıqda şagirdlər “Qalib Qurbağa” mətninin təmsil olduğunu təsdiq edən fikirləri seçməlidirlər.

Cavab: c

**Tapşırıq 3 (dərslik).** Verilmiş nəsihətamiz ifadələrlə mətnin sonluğunu uyğunlaşdırmaq lazımdır. Bu tapşırığı yerinə yetirmək üçün şagirdlərin məntiqi düşüncəsi güclü olmalıdır. İlk üç kəlam mətnin ideyası ilə səsləşmir. Lakin 4-cü

kəlamda ifadə olunan fikir mətnin ideyasına uyğundur.

Cavab: d

**5-2.1.2. Tapşırıq 4 (dərslik).** Tapşırıqda fakt və ehtimalların toplandığı cədvəl təqdim olunur. Şagirdlər həmin fikirlərin cədvələ uyğunluğunu müəyyən etməlidirlər.

Fakt sütunundakı 2-ci fikir ehtimaldır, cədvələ görə yanlışdır. Ehtimal sütunundakı 4-cü fikir faktdır, cədvələ görə yanlışdır.

Cavab: b

**5-4.2.2. Tapşırıq 5 (dərslik).** Tapşırığın əsas məqsədi şagirdlərin dil qaydaları biliklərini yoxlamaqdır. Verilmiş cümlələrin tərkibində işlənmiş əsas və köməkçi nitq hissələrini cədvəl üzrə qruplaşdırmaq tələb olunur. Şagirdlər nitq hissələrini qrammatik xüsusiyyətlərinə görə ayırmaqla mövzunu mənimsədiklərini nümayiş etdirirlər.

**5-4.2.1. Tapşırıq 6 (dərslik).** Növbəti tapşırıqda nitq hissələrinin qrammatik xüsusiyyətləri cədvəl üzrə qruplaşdırılır.

| Söz | Tək/ cəm | Mənsubiyyət | Hal | Xəbərlik |
|---|---|---|---|---|
| şəhərimizi | tək | I şəxsin cəmi | təsirlik | - |
| məktəblilərin | cəm | III şəxsin cəmi | yiyəlik | - |
| bayrağımızdır | tək | I şəxsin cəmi | adlıq | 3-cü şəxs |
| xalqımız | tək | I şəxsin cəmi | adlıq | - |
| arzusuna | tək | III şəxsin təki | yönlük | - |
| yazıçının | tək | - | yiyəlik | - |
| hekayəsinin | tək | III şəxsin təki | yiyəlik | - |
| qızdır | tək | - | adlıq | 3-cü şəxs |

**Tapşırıq 7 (dərslik).** Verilən nümunə əsasında ismə qoşulmuş şəkilçilərin funksiyası müəyyən edilməlidir.

**Müəllimin nəzərinə!** Dərslikdə "yoldaşımındır" sözü nümunə olaraq verilmişdir. Şagirdlər bu nümunə əsasında digər sözlərə qoşulmuş şəkilçiləri izah edirlər.

**Tapşırıq 1 (iş dəftəri).** Tapşırığın şərtinə əsasən verilmiş cümlələrdəki sözlər cədvəl üzrə qruplaşdırılır.

Cavab:

İsim: dəniz, külək, dəftər.

Sifət: güclü, maraqlı, isti.

Say: beşincilər, üç.

Əvəzlik: bu, biz.

Feil: dalğalanır, əsirdi, almalıyam.

Zərf: astaca, bura.

Tapşırıq əsas nitq hissələrinə aid qazanılmış bilikləri möhkəmləndirir.

**5-4.2.2. Tapşırıq 2 (iş dəftəri).** Bu tapşırıq köməkçi nitq hissələrinin funksiyası haqqındadır. Uyğunluğu müəyyən etmək tələb olunur.

Cavab: 1 – d; 2 – b; 3 – a; 4 – c; 5 – e.

**5-4.2.1. Tapşırıq 3 (iş dəftəri).** Mənsubiyyət və hal şəkilçiləri artırmaqla təqdim olunmuş yarımçıq cümlələri tamamlamaq lazımdır. Tapşırıq möhkəmləndirmə xarakteri daşıyır.

Cavab:

1. Mən ailəmə çox dəyər verirəm.
2. Sənin xasiyyətindən xoşum gəlir.
3. O öz fikirlərini idarə heyətinə bildirdi.
4. Bizim həyətimizdə meyvə ağacları çoxdur.
5. Sizin həyatınızda maraqlı anlar kifayət qədərdir.

**Tapşırıq 4 (iş dəftəri).** Bu tapşırıqda şagirdlər sözlərə qoşulmuş şəkilçilərin funksiyasını yazmalıdırlar.

Cavab:

1. məktəb-li-lər-imiz-dir

-li – isimdən isim düzəldən leksik şəkilçidir;

-lər – ismin cəm şəkilçisidir;

-imiz – I şəxsin cəminin mənsubiyyət şəkilçisidir;

-dir – 3-cü şəxsin xəbərlik şəkilçisidir.

2. kitab-xana-mız-da-sınız

-xana – isimdən isim düzəldən leksik şəkilçidir;

-mız – I şəxsin cəminin mənsubiyyət şəkilçisidir;

-da – ismin yerlik hal şəkilçisidir;

-sınız – II şəxsin cəminin xəbərlik şəkilçisidir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə öz əksini tapan (tapmayan) fikirləri müəyyənləşdirir. | Tap. **1**, **2** (D.) |
| Əsas və köməkçi nitq hissələrini fərqləndirir. | Tap. **5** (D.); **2** (İ.D.) |
| Cümlədə sözlərin qrammatik xüsusiyyətlərini müəyyən edir. | Tap. **6**, **7** (D.); **1**, **3**, **4** (İ.D.) |

bölmə **6** # SƏYAHƏT

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Balaca Qara Balıq | Oxu | 30-32 | 20 | 147 |
| 2 | Balaca Qara Balıq | Oxu. Danışma | 32-33 | 21 | 148-149 |
| 3 | Balaca Qara Balıq | Oxu. Yazı | 33 | 22 | 149-151 |
| 4 | Balaca Qara Balıq | Yazı | 33 | - | 151-152 |
| 5 | Sifət | Dil qaydaları (Qrammatika) | 34-35 | 23 | 152-153 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Misirə səyahət | Danışma. Oxu | 36-38 | 24 | 153-154 |
| 2 | Misirə səyahət | Oxu | 39 | 25 | 154-156 |
| 3 | Misirə səyahət | Dinləmə. Danışma | 39 | 26 | 156-158 |
| 4 | Reklam vərəqi | Oxu. Yazı | 40 | - | 158 |
| 5 | Say | Dil qaydaları (Qrammatika) | 41-42 | 27 | 159 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Sorğu | Danışma | 43 | - | 160 |
| 2 | Bir mərcin tarixçəsi | Oxu | 43-45 | 28 | 160-161 |
| 3 | Bir mərcin tarixçəsi | Oxu. Yazı | 46-47 | 29 | 161-163 |
| 4 | Bir mərcin tarixçəsi | Yazı | 47 | 30 | 163-164 |
| 5 | Feil | Dil qaydaları (Qrammatika) | 48-49 | 31 | 164-165 |
| **4-cü fəsil** | | | | | |
| 1 | Qafqaz səfəri | Danışma. Oxu | 50-52 | 32 | 166 |
| 2 | Qafqaz səfəri | Oxu. Danışma | 53 | 33 | 166-168 |
| 3 | Qafqaz səfəri | Yazı | 53 | 34 | 168 |
| 4 | Zərf | Dil qaydaları (Qrammatika) | 54 | 35 | 168-169 |
| 5 | Zərf | Dil qaydaları (Qrammatika) | 55 | 36 | 169-170 |
| 6 | Ümumiləşdirici təkrar | Oxu. Dil qaydaları | 56-57 | 37 | 170-171 |

# 1-ci fəsil

## 1-ci dərs. Balaca Qara Balıq

• Dərslik: səh. 30-32 • İş dəftəri: səh. 20

**Təlim məqsədləri**

**1.** Müzakirədə səslənən fikirləri əlavə bilikləri ilə müqayisə edir və münasibət bildirir **(st. 5-1.2.2).**
**2.** Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını təxmin edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**
**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**
**4.** Qrafik və ya verbal-qrafik informasiyanı rabitəli mətn şəklində yazır **(st. 5-3.2.1).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldərək soruşur:

– "Səyahət" deyəndə ilk olaraq yadınıza nələr düşür? Səyahətlə bağlı yada düşən ilk sözlər səsləndirilir və lövhədə yazılır. Şagirdlər "səyahət" sözünün mənasını izah edir və mövzu ilə bağlı fikirlərini bildirirlər.

**Danışma**

**5-1.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər aşağı siniflərdə oxuduqları mətnlərə istinad edərək təxminən belə cavablar verə bilərlər:

• "80 gün dünya ətrafında" mətninin baş qəhrəmanı Mister Foq 80 gün ərzində dünyanı səyahət edə biləcəyi haqqında mərc gəlir. İddiasını sübut etmək üçün səyahətə çıxır.

• Xristofor Kolumb Hindistana gedən dəniz yolunu tapmaq məqsədilə səyahətə çıxır.

**Oxu**

**"Balaca Qara Balıq" mətni üzrə iş. Rollu oxu.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində "Balaca Qara Balıq" mətnini səssiz oxuyurlar. Bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan yerində, düzgün istifadə etməsinə diqqət edir, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə necə səsləndirmələrini müşahidə edir.

**Söz ehtiyatı**

**5-2.1.3. Tapşırıq b (dərslik).**
Cavab: 1 – arx; 2 – gölməçə; 3 – çay; 4 – dəniz.

**Oxuyub-qavrama**

Bu dərsdə oxuyub-qavrama üzrə tapşırıqlar iş dəftərində verilmişdir.

**Faktoloji qavrama**

**5-2.1.2. Tapşırıq a, b (iş dəftəri).**
**a tapşırığının cavabı:** 1 – D; 2 – D; 3 – Y; 4 – Y; 5 – D; 6 – Y.
**b tapşırığının cavabı:** ç

**Yazı**

**5-3.2.1. Tapşırıq c (iş dəftəri).** Şagirdlərin cavabı təxminən belə ola bilər:

Cavab: Balaca Balıq xeyli üzüb gölməçəyə düşdü. Burada minlərlə çömçəquyruq var idi. Onlar Balaca Balığı görən kimi ona güldülər:

– Bunun görkəminə bax! Sən kimsən?!

– Mənim adım Balaca Balıqdır. Bəs siz?..

– Bizə "çömçəquyruq" deyərlər. Səhərdən axşamacan dünyanı gəzirik.

– Dünya?! Siz nə danışırsınız?! Siz ki heç vaxt gölməçədən qırağa çıxmamısınız. Dünyanı dolanmaqdan necə danışa bilərsiniz?

– Məgər gölməçə dünya deyil? Gölməçədən başqa da dünya var?

– Bəs necə? Özünüz fikirləşin, yaşadığınız su haradan axır? Sudan kənarda nələr var?

Çömçəquyruqlar gülüşdülər:

– Suyun da kənarı olar?

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirədə səslənən fikirləri əlavə bilikləri ilə müqayisə edir və münasibət bildirir. | Tap. a (D.) |
| Verilmiş izahlarla sözləri uyğunlaşdırır. | Tap. b (D.) |
| Mətndəki hadisələri, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir. | Tap. a, b (İ.D.) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. c (İ.D.) |

## **2-ci dərs.** Balaca Qara Balıq

• Dərslik: səh. 32-33 • İş dəftəri: səh. 21

**Təlim məqsədləri**

**1.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**2.** Verbal-qrafik materialları (şəkil, sxem, cədvəl, məlumat vərəqi, xəritə və s.) şərh etməklə rabitəli mətn qurub danışır **(st. 5-1.3.2).**

**3.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.3.1).**

**4.** Müzakirə zamanı mövzu ilə bağlı mülahizələrini söyləyir, mühakimə yürüdür **(st. 5-1.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim keçən dərsdə oxunmuş “Balaca Qara Balıq” mətnini xatırlatmaq üçün frontal sorğu keçirir. Frontal sorğu zamanı aşağıdakı suallardan istifadə edilə bilər:

1) Balaca Qara Balıq nə üçün səyahət etmək istəyirdi?

2) Anası Balaca Qara Balığın fikrinə necə münasibət göstərdi?

3) Balaca Balıq səyahəti zamanı kimlərlə tanış oldu?

**Oxuyub-qavrama**

**5-2.1.2. Tapşırıq a (dərslik).**

Cavab: c

**Danışma**

**5-1.3.2. Tapşırıq b (dərslik).**

**a. Məlumatlardan istifadə edərək uyğun epizodları genişləndirib danışın.**

Şagirdlər məlumat vərəqlərindəki məlumatlardan istifadə edərək mətnin uyğun epizodlarını genişləndirib danışırlar.

**Müəllimin nəzərinə!** Məlumat vərəqlərində mətnin obrazları kimi təqdim edilmiş canlılar haqqında məlumatlar verilib. Şagirdlər həmin məlumatları oxuduqları mətnin üslubuna uyğunlaşdıraraq təqdim edirlər.

**Cavablar təxminən belə ola bilər:**

*Çömçəquyruq haqqında məlumatlara istinad etməklə mətnin bu hissəsini genişləndirmək mümkündür:*

Balaca Balıq bir xeyli üzüb gölməçəyə düşdü. Suda minlərlə çömçəquyruq gəzişirdi. Onların bəziləri o qədər kiçik idilər ki qara nöqtəni xatırladırdılar. Kiçik quyruğu olanlar isə lap vergülə oxşayırdılar. Balaca Qara Balıq çömçəquyruqların qurbağa balaları olduğunu eşidəndə çox təəccübləndi. Çömçəquyruqlar dedilər:

– 14 gündən sonra biz də anamız kimi olacağıq.

*Kərtənkələ haqqında məlumatlara istinad etməklə mətnin bu hissəsini genişləndirmək mümkündür:*

Dərə ilə axan suyun kənarında iri bir kərtənkələ daşa söykənib özünü günə verirdi. Axı onlar istini çox sevirlər. Kərtənkələ Balaca Qara Balığın salamını mehribanlıqla aldı. Nə də olsa kərtənkələlər balıq yemirlər, həşəratlarla qidalanırlar. Yəqin ona görə də Balaca Qara Balığı mehribanlıqla qarşıladı.

*Qutan haqqında məlumatlara istinad etməklə mətnin bu hissəsini genişləndirmək mümkündür:*

Xırda balıqlardan bir neçəsi mızıldandı:

– Qutan olmasaydı, biz də səninlə gedərdik. Yəqin Qutan haqqında eşitmisən. Balıqlar onların yemidir. Dimdiyinin altında, genələ bilən dərin torba yerləşir. Kim o torbaya düşsə, çətin ki, oradan xilas olsun.

**b. Məlumatlara istinad etməklə mətnin uyğun hissəsini genişləndirmək mümkündür:**

**Balaca Qara Balıq və Çömçəquyruqlar**

Balaca Qara Balıq biləndə ki, Qurbağa Çömçəquyruqların anasıdır çox təəccübləndi:

– Axı siz heç ananıza bənzəmirsiniz?

– Biz hələ balacayıq. Vaxt keçdikcə quyruğumuz da olacaq.

Qurbağa Balaca Qara Balığın sözlərinə lap əsəbiləşdi:

– Sən hər şeyə qarışmasan yaxşı olar. Görürəm, bizimlə çox maraqlanırsan? Qoy 14 gün keçsin, Çömçəquyruqlar eynilə mənə oxşayacaqlar.

**Balaca Qara Balıq və Kərtənkələ**

Dərə ilə axan suyun kənarında iri Kərtənkələ daşa söykənib özünü günə verirdi. Uzun quyruğunu o tərəfə bu tərəfə yellədirdi. Balaca Qara Balıq ilk dəfə idi ki, belə uzun quyruğu olan bir məxluq görürdü. Balaca Qara Balıq onunla salamlaşdıqdan sonra soruşdu:

– Belə uzun quyruğu ardınca daşımaq çətin deyil ki?

– Yox... Mən öyrəşmişəm.

– Birdən bir yerə ilişib qırılsa? Axı çox nazikdir.

– Hə, düz tapmısan. Hərdən ora-bura ilişib qırılır, amma tez də yenidən uzanır. Yəni, yerində başqası əmələ gəlir.

Eşitdikləri Balaca Qara Balığı xeyli təəccübləndirmişdi.

**Balaca Qara Balıq və Qutan**

Xırda balıqlar da Balaca Balığa qoşuldular. Bir xeyli üzmüşdülər ki, birdən başları üzərinə sanki bir örtük çəkildi. Hər yer qaranlıqlaşdı, qaçmağa imkan qalmadı. Balaca Qara Balıq xırda balıqlara dedi:

– Deyəsən, Qutanın kisəsinə düşmüşük. Bu haqda Kərtənkələ mənə danışmışdı. Qutanın kisəsi boğazının altında yerləşir. Qutan balıqla qidalanır. Tox olanda tutduğu balıqları kisəsində saxlayır. Yəqin, indi ac deyil. Yoxsa çoxdan bizi udmuşdu.

**Oxuyub-qavrama**

**5-2.3.1. Tapşırıq a (iş dəftəri).**

Cavab: 1 – b; 2 – ç; 3 – d; 4 – a; 5 – c.

**Tapşırıq c (dərslik). Cavablar təxminən belə ola bilər:**

Balaca Qara Balığın ailəsi, qonşuları və ətrafındakı digər balıqlar, hətta gölməçədə rastlaşdıqları çömçəquyruqlar bir-birinə oxşayan günlər keçirir, eyni tərzdə yaşayır, darıxdırıcı həyat sürürdülər. Bütün ömürlərini kiçik bir arxda keçirirdilər.

Balaca Qara Balığın ailəsi, qonşuları və ətrafındakı digər balıqlar köhnə qaydaların, köhnəliyin tərəfdarı idilər. Yeni qaydaları, yeniliyi qəbul edə bilmirdilər. Özləri necə yaşamışdılarsa, Balaca Qara Balığın da elə yaşamasını istəyirdilər.

Düşünürəm ki, dəyişiklik, müxtəliflik həyata rəng qatır, onu daha da maraqlı edir.

**5-2.1.2. Tapşırıq b (iş dəftəri).**

Cavab: 1 – kərtənkələ; 2 – qurbağa; 3 – qutan; 4 – qonşular; 5 – çömçəquyruqlar; 6 – Balaca Qara Balığın anası; 7 – Balaca Qara Balıq; 8 – xırda balıqlar.

**Tapşırıq c (iş dəftəri).** Cavablar təxminən belə ola bilər:

Məncə, xırda balıqlar qorxaq, avam və satqın idilər. Qutanla mübarizə aparmaq əvəzinə Balaca Qara Balığı öldürmək onlara daha asan gəldi. Başqasına xəyanət edərək sağ qalmaq istədilər. Qutanın sözlərinə inanmaları onların avamlığını göstərir.

**Tapşırıq ç (iş dəftəri). Cavablar təxminən belə ola bilər:**

Balaca Qara Balıq tanımadığı uzun bir yolda bütün təhlükələrlə mübarizə apardı.

Qutanın kisəsindən xilas oldu.

**Danışma**

**5-1.2.2. Tapşırıq ç (dərslik).**

**Müəllimin nəzərinə!** Köməkçi suallar vasitəsilə şagirdləri müzakirəyə cəlb etmək olar:

– Sizcə, anası nə üçün Balaca Qara Balığın səyahətə çıxmasını istəmirdi? Ana qorxmaqda haqlı idimi? Hansı hadisələr ananın sözlərinə haqq verir?

– Balaca Qara Balığın səyahət arzusuna necə münasibət bəsləyirsiniz? Hansı hadisələr səyahət etməyin faydalarını əks etdirir? Sizcə, Balaca Qara Balıq səyahətə çıxdığı üçün peşman oldumu?

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə öz əksini tapan (tapmayan) fikirləri müəyyənləşdirir. | Tap. a, tap b (İ.D.) |
| Məlumat vərəqini şərh etməklə rabitəli mətn qurub danışır. | Tap. b (D.) |
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. c (D.); a, c, ç (İ.D) |
| Müzakirələrdə mövzuya aid fikir bildirir. | Tap. ç (D.) |

## 3-cü dərs. Balaca Qara Balıq

• Dərslik: səh. 33 • İş dəftəri: səh. 22

**Təlim məqsədləri**

**1.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.3.1).**

**2.** Mətni ideya və məzmun cəhətdən təhlil edərkən struktur elementlərini (başlıq, illüstrasiya, haşiyə və s.) nəzərə alır **(st. 5-2.3.3).**

**3.** Mətni təxəyyülə uyğun genişləndirir **(st. 5-2.3.6).**

## Mövzuya yönəltmə

Müəllim sinfə "Balaca Qara Balıq" mətninin məzmununa aid müxtəlif suallar verməklə şagirdləri nəqletməyə cəlb edir.

## Oxuyub-qavrama

**5-2.3.1. Tapşırıq a (dərslik).** Şagirdlər Balaca Qara Balığın xarakterindəki xüsusiyyətlərlə bağlı fikirlərini mətnə istinad edərək əsaslandırmalıdırlar. *Məsələn*:

• Balaca Qara Balıq **cəsurdur**. O, Qutanın kisəsinə düşəndə qorxmadı, onunla sonuna qədər mübarizə apardı.

• Balaca Qara Balıq **özgüvənlidir**. Xırda balıqlar ona Qutandan qorxduğunu söyləyəndə Balaca Balıq inamla deyir ki, Qutanın çənginə düşsək, xilas yolunu bilir.

• Balaca Qara Balıq **yenilikçidir**. Mətnin əvvəlində anası ilə dialoqundan belə anlaşılır ki, Balaca Balıq eyni yerdə yaşamaqdan, eyni yerləri görməkdən bezib. Arxın qurtaracağını tapmaq istəyir. Bilmək istəyir ki, başqa yerlərdə nə var, nə yox?

• Balaca Qara Balıq **qətiyyətlidir**. Anası, qonşuları nə qədər dil töksələr də, Balaca Qara Balığı fikrindən daşındıra bilmirlər. Onun qərarı qəti idi.

• Balaca Qara Balıq **uzaqgörən** idi. Xırda balıqlar Qutanın təklifinə aldanırlar. Azad olmaq istəyi ilə Balaca Balığa hücum edirlər. Balaca Balıq isə əvvəlcədən bilirdi ki, Qutan hər şeyə rəğmən onları udacaq. Özünü ölülüyə vurur haqlı olduğunu sübut edir.

• Balaca Balıq **nəzakətlidir**. O, yolboyu rastlaşdığı bütün canlılarla nəzakətlə davranır. Məsələn, Kərtənkələ ilə ədəb-ərkanla salamlaşır, tanış olur.

**Tapşırıq b (dərslik).** Cavablar təxminən belə ola bilər:

• Yenilikçi, daim axtarışda olan insanlar haqqında danışarkən onları "Balaca Qara Balıq" adlandırırlar.

**5-2.3.3. Tapşırıq c (dərslik).** Cavablar təxminən belə ola bilər:

İllüstrasiyada bir dəstə balığın birlikdə eyni istiqamətdə üzməyi təsvir edilir. Bu balıqlar Balaca Qara Balığın yaşadığı cəmiyyəti əks etdirir. Balaca Qara Balıq isə tək axına doğru üzür. Bu isə onun yenilikçi, araşdırmaçı olduğunu göstərir. O çoxluğa qarşı tək mübarizə aparmaqdan qorxmur.

## Yazı

**5-2.3.6. Tapşırıq a (iş dəftəri).** Cavablar təxminən belə ola bilər:

**Balaca Qara Balıqla anasının söhbəti:**

Bir gün Balaca Qara Balıq anasına dedi:

– Anacan, mən eyni yerləri görməkdən bezmişəm. Görəsən, başqa yerlərdə nə var, nə yox? Görəsən, arx harada qurtarır?

*– Arxın nə əvvəli var, nə axırı. Elə gördüyün nə varsa, odur.*

– Məncə, belə deyil, anacan. Hər şeyin bir əvvəli, axırı var. Gərək özüm gedib arxın qurtaracağını tapım.

*– Mənim balam, tərslik eləmə. Buralar da gözəldir. Gərək mütləq harasa gedəsən?*

– Bəli, anacan, hökmən getməliyəm.

**Balaca Qara Balıqla Kərtənkələnin söhbəti:**

Kərtənkələ Balaca Qara Balığa dedi:

*– Çalış, Qutanın kisəsinə düşməyəsən!*

– Kisə nədir? Quşun da kisəsi olar? – Balaca Qara Balıq təəccübləndi.

*– Bəli, Qutanın boğazının altında kisəsi var. Tox olanda tutduğu balıqları o dəqiqə udmur. Həmin kisədə ehtiyatda saxlayır. Acanda onları udur. Onun qarnına düşdünsə, artıq hər şey bitdi.*

– Deməli, Qutanın qarnına düşəndən sonra xilas olmaq üçün çarə yoxdur?

*– Geriyə yol yoxdur. Kisədə olarkən xilas oldun, deməli yaşadın.*

**Balaca Qara Balıqla xırda balıqların söhbəti:**

Qutan xırda balıqlara dedi:

– Bu boşboğaz balığı öldürməklə xilas ola bilərsiniz. Balaca Qara Balıq xırda balıqları kənara çəkib pıçıldadı:

*– Qorxaqlıq etməyin. Biz bir olsaq, daha güclü olarıq.*

– Biz azad olmaq istəyirik, onunçün də səni öldürməliyik! – deyə xırda balıqlar yazıq-yazıq cavab verdilər.

*– İndi ki belədir, gəlin mən özümü ölülüyə vurum. Görək Qutan sizi azad edəcəkmi?!*

Xırda balıqlar Balaca Qara Balığın dediyi kimi də etdilər.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. **a** (D.) |
| İllüstrasiyannı mətnin məzmunu ilə əlaqələndirir. | Tap. **c** (D.) |
| Mətni təxəyyülə uyğun genişləndirir. | Tap. **a** (İ.D.) |

## 4-cü dərs. Balaca Qara Balıq

• Dərslik: səh. 33

**Təlim məqsədləri**

**1.** Verilmiş plan əsasında mövzuya uyğun hekayə yazır **(st. 5-3.2.2).**

**2.** Əsərin mövzu, məzmun və ideyasını nəzərə alaraq annotasiya yazır **(st. 5-3.2.3).**

**Mövzuya yönəltmə**

"Balaca Qara Balıq" əsərinin məzmunu xatırladılır.

**Yazı**

**5-3.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqda təqdim edilmiş plan əsasında "Balaca Qara Balıq" əsərinin mövzusuna uyğun hekayə yazırlar.

**Mətn təxminən belə ola bilər:**

**Balaca səyyah**

*Sonanın 12 yaşı var. Onun iri, qara gözləri ağ bənizinə xüsusi yaraşıq verir. Saçlarını həmişə iki yerə ayırıb hörür, uclarına da qırmızı lent bağlayır. Gəzəndə hörükləri ora-bura yellənir.*

*Sona ailəsi ilə birlikdə Qusarda yaşayır. Onun yaşadığı kənd uca dağların ətəyində yerləşir. Kəndlərinin bir tərəfi qalın meşəlikdir. Sona babası ilə tez-tez gəzintiyə çıxır. Baba ilə nəvə şirin söhbət edə-edə dağların döşünə qalxır, oradan ətrafı seyr edirlər.*

*Sona hələ uşaqlıqdan müşahidəçi bir qız idi. Təbiəti seyr edərkən, adətən, babasını sual yağışına tutardı:*

*– Baba, meşədə bu qədər ağacı kim əkib?*

*– Niyə havalar soyuyanda ağacların yarpaqları saralır?*

*– Quşlar nə üçün dəstə ilə uçur?*

*– Babası da Sonanın suallarını həvəslə cavablandırır.*

*Bir yaz günü baba ilə nəvə yenə dağlara qalxmışdılar. Sona qarşı tərəfdəki uca dağlara baxıb nə isə düşünürdü. Sonra isə babasından soruşdu:*

*– Baba, görəsən, gəzə-gəzə getsək, bu dağları neçə saata aşıb keçərik? Necə maraqlıdır, baba, gəzə-gəzə bütün dünyanı səyahət edirsən. Baba, gəl səninlə səyahətə çıxaq.*

*Babası Sonanın arzularına qol-qanad verdi:*

*– Əlbəttə, qızım, niyə də olmasın. Biz səninlə səyyah olarıq. Amma, səyyahlar səyahətə çıxmazdan əvvəl bir səyahət planı hazırlayarlar. Səyahət zamanı onlara lazım olacaq əşyaları, geyimləri hazırlayarlar.*

*Həmin gündən, Sona səyahət planı qurmağa başladı. Gündəliyinə səyahətinin marşrutunu çəkdi. Yolda lazım olacaq əşyaların siyahısını tutdu.*

*Yay gəldi. Sona tətilə çıxdı. O, hazırladığı səyahət planını babasına göstərdi. Səyahətə Sonanın atası da qoşuldu. Lazım olan əşyaları yol çantalarına yığıb yola çıxdılar. Məqsədləri qarşıdakı dağları aşıb keçmək idi.*

*Səyyahlar bir müddət yol getdilər. Uzaqdan çayın şırıltısı eşidilirdi. Deməli, dağın ətəyindən çay da axır. Babası dedi:*

*– Dağ çayıdır, suyu soyuq olacaq. Çayı keçmək elə də asan olmayacaq. Ata çantaya qoyduğu kəndiri çıxarıb bir ucunu belinə digər ucunu çayın kənarındakı qaya parçasına bağladı. Daha sonra Sonanın əlindən yapışıb çaya girdi. Sonaya bərk-bərk tapşırdı:*

*– Ayağını yerə möhkəm qoy. Çaydaşları sürüşkən olur. Atası ilə Sona asta-asta, ehtiyatla çayın o biri sahilinə çıxdılar. Daha sonra atası babanı gətirmək üçün geri qayıtdı.*

*Çayı keçəndən sonra islanmış paltarlarını dəyişdilər. Torbaya qoyduqları dəyişikləri geyindilər. Daha sonra dağa qalxmağa başladılar. Bu Sonanın düşündüyü qədər asan deyildi. Üçü də yorulmuşdu. Bir qədər dincəlmək üçün oturdular. Yol üçün götürdükləri yeməyi yedilər. Artıq axşam düşürdü. Hava qaralmamış dağı aşıb keçsələr, yaxşı olardı. Dağın o biri tərəfində qonşu kəndin yerləşdiyini baba da, ata da yaxşı bilirdilər. Amma Sonaya heç nə demirdilər. Yoxsa, "gənc səyyahın" səyahət həyacanını məhv edərdilər.*

*Nəhayət, dağın ətəyindəki kəndə gəlib çatdılar. Sona çox sevinirdi:*

*– Mən böyüyəndə səyyah olacağam. Bütün dünyanı gəzə-gəzə səyahət edəcəyəm. Yeni yerlər görəcək, yeni insanlarla tanış olacağam.*

5-3.2.3. **Tapşırıq b (dərslik).** Şagirdlər yazdıqları hekayənin məzmununa əsasən illüstrasiya çəkir və üzqabığı hazırlayırlar. Daha sonra yaratdıqları "kitaba" annotasiya yazırlar.

**Müəllimin nəzərinə!** Şagird hekayəni özü yazdığı üçün soyadını və adını annotasiyada müəllif kimi qeyd edə bilər.

**Tapşırıq c (dərslik).** Şagirdlər bir-birinin hekayəsini oxuyur və münasibət bildirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş plan əsasında mövzuya uyğun hekayə yazır. | Tap. a (D.) |
| Məqsədə uyğun olaraq annotasiya yazır. | Tap. b (D.) |

## 5-ci dərs. Sifət

• Dərslik: səh. 34-35 • İş dəftəri: səh. 23

**Təlim məqsədləri**

**1.** Əlamət və keyfiyyət bildirən sifətləri fərqləndirir **(st. 5-4.2.1).**
**2.** Sifətin dərəcələrinin hansı yollarla əmələ gəldiyini izah edir **(st. 5-4.2.1).**
**3.** Azaltma və çoxaltma dərəcəsində olan sifətlərin yazılış qaydalarına əməl edir **(st. 5-4.1.7).**
**4.** Sözün həqiqi və məcazi mənalarını müəyyən edir **(st. 5-4.4.3).**

**Mövzuya yönəltmə**

Müəllim hər hansı bir varlığın əlamətini və keyfiyyətini söyləyir, şagirdlər bunlara əsasən varlığın adını tapırlar. *Məsələn*:

Qırmızı, yumru, saplaqlı, tumlu, turşməzə – albalı.

Ağ, bərk, şirin, dördkünc – qənd.

**Dil qaydaları**

5-4.2.1. **Tapşırıq a (dərslik).**

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdə sifət haqqında məlumat alıblar.

Şagirdlərin sifət haqqındakı bilikləri tapşırığı asanlıqla yerinə yetirməsinə kömək edir.

Cavab:

1. Dibçəkdəki güllər (hansı güllər?), böyük otaq (hansı otaq?).
2. Dünyagörmüş baba (hansı baba?), maraqlı nağıllar (necə nağıllar?).
3. Sınayıcı nəzərlər (necə nəzərlər?).
4. Ağıllı düşmən (necə düşmən?), nadan dost( necə dost?).
5. Geniş foyesində (hansı foyesində?).

**Tapşırıq b (dərslik).** Şagirdlər aşağı siniflərdə qazandıqları biliklərə istinad etməklə sxemi şərh edirlər.

Cavab: Sifət varlığın əlamətini və keyfiyyətini bildirir. Əlamət deyərkən varlığın rəngi, ölçüsü, forması, zahiri görkəmi nəzərdə tutulur. *Məsələn*: sarı çiçəyin rəngini, iri daşın ölçüsünü, yumru daşın formasını, arıq uşağın zahiri görkəmini əks etdirir. Keyfiyyət deyərkən isə dad, xasiyyət, intellekt, hal, vəziyyət nəzərdə tutulur. *Məsələn*: turş alçanın dadını, səbirli adamın xasiyyətini, ağıllı qızın intellektini, sağlam uşağın halını, vəziyyətini əks etdirir.

5-4.4.3. **Tapşırıq c (dərslik).**

Cavab: b. Camaat kəndin mərkəzindəki böyük meydana toplaşmışdı. Bu cümlədə "böyük" sözü həqiqi mənada işlənmişdir.

**Tapşırıq ç (dərslik).**

Cavab: şirin çay, şirin söz; geniş otaq, geniş ürək; gözəl paltar, gözəl fikir; dərin quyu, dərin düşüncə; ağır çanta, ağır xasiyyət.

5-4.2.1. **Tapşırıq d (dərslik).**

Cavab: 1 – c; 2 – b; 3 – a.

**Tapşırıq e (dərslik).**

Cavab:

Adi dərəcədə olan sifətlər: saf, enli, uca, zəif.

Azaltma dərəcəsində olan sifətlər: bozumtul, ala-çiy, kəmşirin, açıq-göy.

Çoxaltma dərəcəsində olan sifətlər: bomboz, qapqara, çox dadlı, dümağ.

**"Yadda saxla" rubrikası.** Müəllim **"Yadda saxla"** rubrikasındakı məlumatları şərh edir, nümunələr əsasında azaltma və çoxaltma dərəcəli sözlərin yazılışını izah edir.

**5-4.1.7. Tapşırıq ə (dərslik).**
Cavab: lap qısa, tumturş, qaraşın, qurutəhər.

**Tapşırıq f (dərslik).**
Cavab: dupduru, tərtəmiz, dopdoğru, bapbalaca, qıpqırmızı, dümdüz, sapsağlam.

**Tapşırıq g (dərslik).**
Cavab: 1. açıq-qırmızı; 2. sarıtəhər; 3. ala-çiy; 4. ağappaq, dümqırmızı.

**Tapşırıq ğ (dərslik).**
Cavab: "Açıq-aşkar" mürəkkəb sifətdir, çünki "açıq" sözü rəng bildirməyən sözə qoşulub. "Açıq-yaşıl" isə yaşıl rənginin azaltma dərəcəsini bildirir.

• "Zir-zibil" mürəkkəb isimdir. "Tərtəmiz" isə təmiz sifətinin çoxaltma dərəcəsindədir.

• "Kəmşirin" şirin sözünün azaltma dərəcəsini göstərir. "Kəm-kəsir" mürəkkəb isimdir. "Kəmsavad" sözündə isə "kəm" sözü ismə qoşulduğu üçün azaltma dərəcəsi deyil, mürəkkəb sifət yaradır.

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlmişdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsas nitq hissələrinin ümumi qrammatik mənalarını və morfoloji tərkibini müəyyən edir. | Tap. **a**, **b**, **d**, **e** (D.) Tap. **a**, **b** (İ.D.) |
| Azaltma və çoxaltma dərəcəli sözlərin yazılışında orfoqrafiya qaydalarına riayət edir. | Tap. **ə**, **f**, **g**, **ğ** (D.) Tap. **c**, **ç** (İ.D.) |
| Sözün həqiqi və məcazi mənasını müəyyən edir. | Tap. **c**, **ç** (D.) |

# 2-ci fəsil

## 1-ci dərs. Misirə səyahət

• Dərslik: səh. 36-38 • İş dəftəri: səh. 24

**Təlim məqsədləri**

**1.** Verbal-qrafik materialları (şəkil, sxem, cədvəl, məlumat vərəqi, xəritə və s.) şərh etməklə rabitəli mətn qurub danışır **(st. 5-1.3.2).**
**2.** Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**
**3.** Söz tərkibindəki morfemlərin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir **(st. 5-4.4.1).**
**4.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

### Mövzuya yönəltmə

Müəllim şagirdlərdən soruşur:
– Hansı səyyahları tanıyırsınız? Onlar haqqında bildiklərinizi danışın.

### Danışma

**5-1.3.2. Tapşırıq a (dərslik).** Şagirdlər məlumat vərəqindəki məlumatları aşağıdakı kimi rabitəli mətn şəklində təqdim edə bilərlər:

**Övliya Çələbi**

*Övliya Çələbi XVII əsrdə yaşamış tədqiqatçı-səyyah, tarixçi və yazıçı olmuşdur. O, 1611-ci ildə Türkiyədə, İstanbul şəhərində dünyaya göz açmışdır. Çələbi əvvəlcə mədrəsədə, daha sonra isə saray məktəbində təhsil almışdır. Məktəb təhsili ilə yanaşı xəttatlıq, musiqi, bədən tərbiyəsi və xarici dillər üzrə müəllimlərdən fərdi dərs alırdı.*

*Avropa, Qafqaz, Misir və s. kimi bir çox ölkələrə səyahət etmişdir. Gəzdiyi yerlər barədə təəssüratlarını 10 cildlik "Səyahətnamə" əsərində qeyd etmişdir.*

*Övliya Çələbi 1682-ci ildə Misirdə vəfat etmişdir.*

**Tapşırıq b (dərslik).** Şagirdlər Qədim Misir, fironlar, mumiyalar, Misir piramidaları haqqında bildiklərini danışırlar.

### Oxu

**"Misirə səyahət" mətni.** Əvvəlcə şagirdlər verilmiş vaxt ərzində mətni səssiz oxuyurlar. Oxu

zamanı tanış olmayan sözləri kontekstə əsaslanaraq izah etməyə çalışır, daha sonra isə lüğət vasitəsilə dəqiqləşdirirlər.

**Oxuyub-qavrama. Söz ehtiyatı**

5-2.2.1. **Tapşırıq c (dərslik).**

**Müəllimin nəzərinə!** Şagirdlər artıq riyaziyyat fənninin tədrisi zamanı simmetriya sözü ilə tanış olublar.

**Cavablar təxminən belə ola bilər:** Simmetriya hər hansı bir əşyanı tən ortadan iki hissəyə böldükdə hər iki hissənin eyni forma və ölçüdə olmasıdır; mütənasiblikdir. Övliya Çələbinin simmetriya haqqında məlumatı var idi. O bilirdi ki, xəritəni tən ortadan bölsə, sonra digər hissəsini bərpa edə bilər.

5-4.4.1. **Tapşırıq ç (dərslik).** Tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlərin diqqəti haşiyədə verilmiş “namə” sözünün izahına yönəldilir.

Cavab: “Səyahətnamə” sözünün mənası səyahət haqqında əsər deməkdir.

**Tapşırıq d (dərslik).**

Cavab: dəvətnamə – çağırış kağızı, dəvət kağızı; nəsihətnamə – nəsihət, öyüd, böyüyə hörmət ifadə olunan əsər; təşəkkürnamə – təşəkkür yazılmış rəsmi sənəd, təşəkkür bildirən kağız; etibarnamə – bir şəxsin və ya idarənin adından iş görmək üçün icazə verilən rəsmi kağız, sənəd; vəsiyyətnamə – yazılı vəsiyyət, vəsiyyət kağızı, vəsiyyət sənədi; tələbnamə – bir şeyin verilməsi və ya bir işin görülməsi haqqında rəsmi xahiş (kağız).

5-2.1.2. **Tapşırıq a (iş dəftəri).** Şagirdlər hekayə xəritəsini tamamlamaqla mətni oxuyub qavradıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal-qrafik informasiyanı rabitəli mətn şəklində təqdim edir. | Tap. a (D.) |
| Mətndə səbəbi açıq şəkildə əks olunmayan hadisənin nə üçün baş verdiyini təxmin edir. | Tap. c (D.) |
| Söz tərkibindəki morfemlərin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. ç, d (D.) |
| Hekayə xəritəsi hazırlayır. | Tap. a (İ.D.) |

## 2-ci dərs. Misirə səyahət

• Dərslik: səh. 39 • İş dəftəri: səh. 25

**Təlim məqsədləri**

**1.** Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**
**2.** Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir, genişləndirir və ya təcrübədə tətbiq edir **(st. 5-2.3.6).**
**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim keçən dərsdə oxunmuş “Misirə səyahət” mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

– Övliya Çələbi kim idi?
– Çələbi nə üçün Misirə səyahət etmək istəyirdi?
– O səyahətə kimlə çıxdı?
– Onlar yolda hansı təhlükələrlə rastlaşdılar?

**Oxuyub-qavrama**

5-2.1.2. **Tapşırıq a (iş dəftəri).**

Cavab: ç, d

5-2.2.1. **Tapşırıq a (dərslik). Şagirdlərin cavabı təxminən belə ola bilər:** Məncə, müxtəlif dilləri bilmək səyyahlar üçün böyük üstünlükdür. Müxtəlif dilləri bilmək onların işlərini asanlaşdırır. Mətndə qeyd olunur ki, Çələbi karvanbaşı və dəstə üzvlərinin söhbətini anlamır, ona görə də onların planlarını yalnız təxmin edir.

**Tapşırıq b (dərslik).** Şagirdlər əlavə bilgilərdən çıxış edərək bu sualı cavablandıra bilərlər.

**Cavablar təxminən belə ola bilər:** Dəvə çox dözümlü heyvandır, günlərlə ac-susuz qala bilir. Uzun səfərə çıxmazdan əvvəl dəvə doyunca yeyib-içir. Yeyib-içdiyinin bir hissəsini həzm edir, qalanını piyə çevirib hürgücündə dar günə saxlayır. Onun belindəki çıxıntıya hürgüc deyirlər.

Dəvə səhrada çətinlik çəkmədən hərəkət edir. Onun ayaqları xüsusi piy qatı ilə örtüldüyünə görə isti qumda yanmır. Dəvənin yunu onu qızmar günəşdən və gecənin soyuğundan qoruyur. Dəvə səhrada bitən acı yovşanla, tikanlı kollarla da qidalanır.

Saydığımız bu xüsusiyyətlər atda yoxdur. At tez susayır. Ayaqları nazik və uzun olduğundan qumda çətinliklə yeriyir və bu səbəbdən də tez yorulur.

**Tapşırıq b (iş dəftəri).**

**Cavablar təxminən belə ola bilər:**

Çələbi Misirə səyahət etməyi çox istəyirdi, *çünki piramidaları görməyi arzulayırdı.*

Karvanbaşı Çələbini Misirə aparmaqda tərəddüd edirdi, *çünki çətin təhlükəli yola çıxdığını bilirdi. Qorxurdu ki, Çələbi bu çətinliyə dözməz.*

Bədəvilər səyyahlara hücum edib onları soydular, *ona görə də səyyahlar çətin vəziyyətə düşdülər: səhrada dəvəsiz, silahsız qaldılar.*

Dəvəçi karvanın Misirə səyahət etdiyini eşidəndə çox həyəcanlandı, *çünki piramidalardakı xəzinəni göstərən xəritəsi var idi.*

Çələbi xəritəni iki yerə bölüb bir hissəsini gizlətdi, *xəritənin gizlətdiyi hissəsindən istifadə edib xəzinəni tapmaq imkanı qazandı.*

Dəstə üzvləri dəvəsini və xəritəni Çələbinin əlindən aldılar, *çünki xəzinəni onunla bölmək istəmirdilər.*

**“Diqqət et” rubrikası.**

**Müəllimin nəzərinə!** Bu rubrikada verilmiş məlumatlar şərh edilir. “Misirə səyahət” mətninin nümunəsində şagirdlər fəaliyyətə cəlb edilir, mətndə rast gəlinən faktlar, yer və şəxs adları ilə bağlı araşdırma aparırlar. *Məsələn*, Misir haqqında məlumat toplayırlar:

- İqlimi necədir?
- Hansı görməli yerləri var?
- Hansı tarixi abidələri var?
- Mətbəxi necədir?

Misir piramidaları və yaxud Övliya Çələbi haqqında məlumatlar bu mətni daha dərindən başa düşməyə kömək edəcək.

**5-2.3.6. Tapşırıq c (dərslik).**

Cavab:

**• Qum fırtınası**

Qum fırtınası təbiət hadisəsidir. Güclü külək yerdən xeyli miqdarda toz, ya da qumu havaya sovurur. Əsasən quraq bölgələrdə, səhralarda baş verir. Bir neçə dəqiqədən bir neçə günədək davam edə bilir. Qum fırtınası gözlərin qıcıqlanmasına, görmədə problemlərə və nəfəsalmanın çətinləşməsinə gətirib çıxara bilər. Qum fırtınası zamanı göz, ağız və burun örtülməli, varsa, qoruyucu eynək taxılmalıdır. Fırtına zamanı mümkün qədər hərəkət edilməməlidir.

**• Bədəvilər**

Ön Asiya və Şimali Afrika səhralarında yaşayan köçəri ərəblərdir. Ərəb dilində “bədəvi” sözünün mənası “səhranın köçəriləri” deməkdir. Bədəvilər ailənin ən hörmətli və varlı şəxsinin – şeyxin idarə etdiyi kiçik tayfalar şəklində açıq səma altında yaşayırlar. Əsasən, dəvəçiliklə məşğul olurlar.

**• Böyük piramida**

Misir ehramları hər biri 20 ton ağırlığında olan qaya parçalarından tikilmişdir. Bu qaya parçalarının yonulduğu karxanalar isə ehramların yerləşdiyi ərazidən 200 km uzaqlıqda yerləşirdi. Onların necə daşınması haqqında ağlabatmayan fərziyyələr irəli sürülüb. Giza ehramları dünyanın ən böyük ehramları hesab olunur. Buraya Xeops, Xefren və Mikerin ehramları daxildir və bu adlar onları tikdirmiş fironların adlarıdır. Giza ehramları digər ehramlardan əsasən onunla fərqlənir ki, bu ehramlarda heç bir yazıya rast gəlinməyib və onların necə tikilməsi hələ də elmə məlum deyildir.

Firon Xeopsun oğlu Xefren üçün tikilmiş ehramın hündürlüyü 136 metrə çatır. Giza ehramları arasında yalnız Xefren ehramının daxilinə giriş vardır və bu giriş “ölülər” otağına aparır.

**• Sina çölü**

Bəzi mənbələrdə Sinay kimi də adlandırılır. Sina Misirdə yerləşən yarımadadır. Sina Yarımadası şimaldan Aralıq dənizi və cənubdan Qırmızı dəniz ilə əhatə olunmuşdur. Yarımada 60.000 km$^2$ əraziyə malikdir. Sinanın böyük hissəsi səhralarla örtülüdür. Yalnız şimalda, Aralıq dənizi sahilindəki qumlu çimərliklər boyunca zeytun bağları uzanır. Yarımadanın şimal-şərqində Bardavil gölü yerləşir. Göldə ekzotik balıq növlərinə rast gəlinir. Yarımadanın cənubu dağlarla örtülüdür.

Vaxtilə Qədim Misir fironları Sina yarımadasında qızıl və mis hasilatı ilə məşğul olmuşlar.

**Tapşırıq ç (dərslik).**

**Müəllimin nəzərinə!** Bu tapşırığı qruplarla da

yerinə yetirmək mümkündür. Hər bir qrup tapşırıqdakı suallara cavab tapmaq üçün mətn qurur. Belə halda müxtəlif versiyada mətnlər yarana bilər. Bu da yaradıcı təfəkkürün fərqli istiqamətlərdə işləyə biləcəyinə nümunədir. Qruplar qurduqları mətni təqdim edirlər. Mətnlərdəki oxşar və fərqli epizodlar müqayisə edilir.

**Cavablar təxminən belə ola bilər:**

**İlanlar**

Karvan səhra ilə bir xeyli yol getmişdi. Birdən dəvələr hürküb dayandılar. Karvanbaşı qışqırdı:

– Ehtiyatlı olun. Yəqin, heyvanlar ilan görüblər.

Doğrudan da, diqqətlə baxanda qarşıda isti qumun üzərində qıvrılıb özünü günə verən ilanları görmək olurdu. Bu ilanların nə qədər zəhərli olduğunu hamımız bilirdik. Odur ki yolumuzu dəyişib ilanlardan uzaqlaşdıq.

**Əqrəblər**

Artıq hava qaralırdı. Gecələmək üçün düşərgə saldıq. Həşəratlardan, ilanlardan qorunmaq üçün çadırı quma yaxşı bərkitmək lazım idi. Hələ yola çıxmazdan əvvəl hansı təhlükələrlə rastlaşacağımız haqqında maraqlanmışdım. Əgər səhrada səyahət edirsənsə, təhlükələrdən ən böyüyünü əqrəblər yarada bilər. Bilirdim ki, əqrəbin sancmağı ölümcül ola bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə səbəbi açıq şəkildə əks olunmayan hadisənin nə üçün baş verdiyini təxmin edir. | Tap. **a**, **b** (D.); **b** (İ.D.) |
| Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır. | Tap. **c**, **ç** (D.) |
| Mətnin məzmununa aid yanlış fikri seçir. | Tap. **a** (İ.D.) |

## 3-cü dərs. Misirə səyahət

• Dərslik: səh. 39 • İş dəftəri: səh. 26

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətnlə bağlı sualları cavablandırır **(st. 5-1.1.1).**

**2.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**3.** Mətndəki obrazla bağlı məlumatlar əsasında obraz xəritəsi tərtib edir **(st. 5-2.3.1).**

### Mövzuya yönəltmə

Müəllim frontal sorğu vasitəsilə “Misirə səyahət” mətninin I hissəsinin məzmununu xatırladır.

### Dinləmə

**5-1.1.1. Tapşırıq a (dərslik).** Şagirdlər suallarla tanış olur və dinləmə mətnindən bu suallara cavab tapmağa çalışırlar. Müəllim dinləmə mətnini səsləndirir:

**Misirə səyahət (II hissə)**

*Xəritənin yarısını çıxarıb qumun üstünə sərdim. Digər yarısını da qumda çəkdim. Xəritədə piramidanın dörd qapısı təsvir olunmuşdu. Baxdım ki, əgər şimal qapısından girsəm, xəzinəyə daha tez çataram. Bunun üçün piramidaya girəndən sonra dörd qapıdan keçməli idim. Digər qapılardan girsəydim, aza bilərdim.*

*Mən əlimdə xəritə piramidanın qarşısında dayanmışdım. ”Görəsən, bunlardan hansı şimal qapısıdır?” – deyə düşündüm. Tez xurma ağaclarının gövdəsinə baxdım. Mamır axtarırdım. Amma bu istidə mamır nə gəzirdi?*

*Bir gözüm qumun üstündə hərəkət edən qarışqalara sataşdı. Qarışqaları yuvalarına qədər izlədim. Yuvaların hamısının ağzı eyni tərəfə baxırdı. Deməli, bura cənub tərəfdir. Əks istiqamətə getdim. Bir azdan böyük bir qapının ağzında dayanmışdım.*

*Əlimi qapının üzərində gəzdirib ulduz işarəsinin üstündə saxladım. Qapı gurultu ilə, lakin yavaş-yavaş açıldı. Çəkinə-çəkinə içəri girdim. Qapı bağlandı. Elə bir neçə addım atmışdım ki, səs eşidildi:*

*– Bu otaqdan keçə bilmən üçün bir suala cavab verməlisən:*

*Mən ayaq saxladım. Səs davam etdi:*

*– Suya rəsm çəkilərmi?*

*Bir xeyli düşündüm. Vaxt gedirdi. Cavab verə bilməsəm, nəinki xəzinəyə çata, heç geri dönə bilməzdim. Sonuncu saniyələrdə həyəcanla dedim:*

*– Çəkilə bilər.*

*– Necə?*

*– Ebru ilə çəkilər.*

*Bu otaqdan digərinə keçdim. Xeyli yol getdim.*

*Birdən qarşıma böyük bir güzgü çıxdı. Güzgüdə minlərlə əksimi gördüm. Yenə həmin səs eşidildi:*

*– Bunlardan hansı sənsən? Düzgün cavab versən, növbəti otağa keçərsən, yoxsa...*

*Xeyli güzgüyə baxıb durdum. Sonra əlimi qaldırdım. İlk qalxan əl mənim olmalı idi. Digərləri əllərini daha gec qaldırdılar. Tez həmin güzgünü göstərib bərkdən qışqırdım:*

*– Bax bu, bu mənum əksimdir!*

*Yenə də doğru cavabı tapdığıma sevinirdim. Növbəti otağa keçdim. Otağın küncündə bir sandıq qoyulmuşdu. Gəlib sonuna çatmışdım. Bir azdan dünyanın ən varlı insanı olacaqdım. Əlimi uzadıb sandığı yavaş-yavaş açdım. Ləl-cəvahiratın işığı gözlərimi qamaşdırdı. Bir də baxdım ki, sandığın içindəkilər sanki quyuya tökülürmüş kimi aşağı axır. Özümü toparlayıb əlimi uzadınca sandıqda heç nə qalmadı.*

*– Axı niyə? – deyə qışqırdım.*

*– Əslində bu bir oyundur. Sən də oyunu qazanmısan. Həyatda hər bir şey bu qızıllar kimi axıb gedər. Ruhdan düşmə. Sandığın dibindəki məktubu götür və oxu.*

*Zərfi götürüb açdım. Orada yazılmışdı: "Ey xəzinə ovçusu, sən əlindən gələni elədin, doğru yolla irəlilədin. Buna səbəb dürüst, ədalətli və ağıllı olmağındır. Bu xüsusiyyətlərə sahib biri əsla uduzmaz".*

**Müəllimin nəzərinə!** Şagirdlər ebru sözünün mənasını bilməsələr, izahını verməktövsiyə edilir. Ebru – su üzərində rəsm çəkmə sənətidir.

**5-1.2.2. Tapşırıq b (dərslik). Şagirdlərin cavabı təxminən belə ola bilər:**

Məlumatda qeyd edilir ki, mamır rütubətin çox olduğu yerdə bitir. Səhrada isə istidir. İsti yerdə quraqlıq olur. Yəqin ki, Çələbi quraqlıq yerdə mamırın bitmədiyinə işarə edir.

**Tapşırıq c (dərslik).** Şagirdlərin cavabı təxminən belə ola bilər:

**• Səmti müəyyən etmək üçün üfüqün cəhətlərini bilmək lazımdır.**

Üfüqün cəhətlərini bilmədən səyahət edən insan meşədə, çöldə, səhrada, dənizdə və başqa açıq ərazilərdə mənzilbaşına aparan yolu tapa bilməz. Üfüqün 4 cəhəti var: Şimal, Cənub, Şərq, Qərb. Günəşin çıxdığı tərəfi Şərq, batdığı tərəfi Qərb adlandırırlar. Günorta Günəş Cənubda olur. Üfüqün Şimal adlanan dördüncü cəhətində isə Günəş heç vaxt görünmür. Mətndən məlum olur ki, Çələbi piramidanın şimal qapısını axtarır. Düzgün istiqamətə, səmtə getmək üçün Şimal cəhətini müəyyənləşdirməyi bacarır. Deməli, cəhətləri bilmək mənzilə çatmaq üçün vacibdir.

**• Qarışqalar yuvalarını ağacların, kolların cənub tərəfində qurur.**

Mətndə deyilir ki, Çələbi qarışqaları yuvalarına qədər izləyir. Yuvaların ağzı hansı tərəfə baxırsa, o tərəfin cənub olduğunu anlayır. Çünki qarışqaların yuvasını cənub tərəfdə qurduğunu əvvəlcədən bilirdi.

**Müəllimin nəzərinə!** Müəllim cəhətləri müəyyənləşdirməyin yolları haqqında şagirdlərə əlavə məlumat verə bilər: Kompas adlanan sadə cihaz üfüqün cəhətlərini müəyyən etmək üçündür. Bəs kompas olmadıqda üfüqün tərəflərini necə müəyyən etmək olar? Həm Günəş görünməyəndə, həm də kompas olmayanda üfüqün cəhətlərini necə təyin etmək olar? Günəşdən başqa, cəhətləri mamırın ağacın hansı tərəfində bitməsinə, qarışqa yuvasına görə müəyyən etmək olar? Meşədə ağacların şimal tərəfində rütubəti çox sevən mamır bitkisi xalı kimi örtük yaradır. Qarışqa yuvaları isə ağacların, kolların cənub tərəfində yerləşir.

**5-2.3.1. Tapşırıq a (iş dəftəri).** Cavablar təxminən belə ola bilər:

**Obrazın təqdimatı:** Övliya Çələbi gənc səyyah idi.

**Xarakteri:** məqsədyönlü

**Əsaslandırma:** O, piramidaları görmək istəyirdi. Məqsədinə çatmaq üçün müxtəlif çətinliklərə sinə gəldi.

**Xarakteri:** xoşrəftar

**Əsaslandırma:** Mətndə qeyd edilir ki, Çələbi insanlarla tez ünsiyyət qurur, onlarla mehribanlıqla söhbət edir. Məsələn, dəvəçi ilə səmimi söhbəti buna nümunə ola bilər.

**Xarakteri:** ehtiyatlı (ayıq-sayıq)

**Əsaslandırma:** Çələbi dəstə üzvlərinin davranışını əvvəlcədən təxmin etmişdi. Ona görə də ehtiyatlı davranıb xəritənin bir hissəsini gizlətmişdi.

**Xarakteri:** savadlı

**Əsaslandırma:** Xəritəni simmetrik bölməyi

onun riyazi biliklərinin, piramidanın şimal qapısını kompassız tapmağı təbiət elmlərinə aid biliklərə yiyələndiyini göstərir.

**Xarakteri:** hazırcavab

**Əsaslandırma:** Xəzinəyə gedən yoldakı sual-cavablar Çələbinin nə qədər hazırcavab olmasını sübut edir.

**Tapşırıq b (iş dəftəri).** Şagirdlərin cavabı təxminən belə ola bilər:

Balaca Qara Balıqla səyahətə çıxan xırda balıqlar yolda Balaca Balığa xəyanət etdilər, onlar dara düşən kimi yoldaşlarını satdılar. Karvanbaşı və dəstə üzvləri də yolda Çələbiyə xainlik etdilər, xəritəni əlindən alıb yarı yolda qoydular. Xırda balıqlarla karvanbaşı və dəstə üzvləri xain xüsusiyyətlərinə görə oxşardırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətnlə bağlı sualları cavablandırır. | Tap. **a** (D.) |
| Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və əsaslandırır. | Tap. **b**, **c** (D.), tap. **b** (İ.D.) |
| Obraz xəritəsi tərtib edir. | Tap. **a** (İ.D.) |

## 4-cü dərs. Reklam vərəqi

• Dərslik: səh. 40

**Təlim məqsədləri**

**1.** Verbal-qrafik informasiyanı (məlumat vərəqi, cədvəl, sxem) mənimsədiyini nümayiş etdirir **(st. 5-2.1.2).**

**2.** Mövzu ilə bağlı reklam vərəqi hazırlayır **(st. 5-3.2.3).**

### Mövzuya yönəltmə

Müəllim aşağıdakı sualları verməklə şagirdlərin diqqətini mövzuya yönəldə bilər:

– Səyahətə çıxmağa hazırlaşdığınız ölkə haqqında əvvəlcədən hansı məlumatları bilmək istərdiniz?

– Bu məlumatlar səyahət zamanı sizə nədə kömək edə bilər?

### Oxuyub-qavrama

**5-2.1.2. Tapşırıq a (dərslik).** Şagirdlər İstanbul haqqında reklam vərəqi ilə tanış olurlar.

**Müəllimin nəzərinə!** Müəllimə növbəti tapşırıqların şərtini nəzərə alaraq yönəldici suallarla şagirdlərin diqqətini lazımi məqamlara yönəltmək tövsiyə edilir. Bu, şagirdlərə növbəti tapşırıqları asanlıqla yerinə yetirməyə kömək edəcək.

– Reklam vərəqində İstanbul haqqında məlumatlar hansı yarımbaşlıqlar altında təqdim edilib?

– Sizcə, İstanbulu qədim şəhər hesab etmək olarmı?

– Hansı qitələri tanıyırsınız?

– İstanbul şəhəri hansı qitədə yerləşir?

– Türk mətbəxinə məxsus hansı yeməkləri tanıyırsınız?

**Tapşırıq b (dərslik).** Şagirdlərin cavabı təxminən belə ola bilər:

• **Dünyanın ən qədim şəhərlərindən biridir.** Məlumatlarda qeyd olunub ki, İstanbul XV əsrə qədər "Konstantinopol" adlandırılmışdır. Deməli, İstanbul şəhəri XV əsrdən öncə də mövcud olmuşdur.

• **Qitələrarası şəhərdir.** Məlumatlarda qeyd olunub ki, Bosfor körpüsü İstanbulun Avropa və Asiya hissələrini birləşdirir. Deməli, İstanbul iki qitədə yerləşir, iki qitəni, yəni Avropa və Asiyanı birləşdirir.

• **Zəngin mətbəxi var.** Reklam vərəqində türk mətbəxinə aid müxtəlif yeməklər: ət yeməkləri, şirniyyatlar haqqında məlumat verilib. Bu türk mətbəxinin zəngin olmasını göstərir.

### Yazı

**5-3.2.3. Tapşırıq c (dərslik). Qruplarla iş.** Verbal və vizual məlumatlardan istifadə etməklə reklam materialı (poster) hazırlamaq bacarığını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal-qrafik informasiyanı (məlumat vərəqi, cədvəl, sxem) mənimsədiyini nümayiş etdirir. | Tap. **a**, **b** (D.) |
| Verbal və vizual məlumatlardan ibarət reklam materialı (poster) hazırlayır. | Tap. **c** (D.) |

## 5-ci dərs. Say

• Dərslik: səh. 41-42 • İş dəftəri: səh. 27

**Təlim məqsədləri**

**1.** Sayın mənaca növünü müəyyən edir **(st. 5-4.2.1).**

**2.** Sayların yazılış qaydalarına əməl edir **(st. 5-4.1.5).**

### Mövzuya yönəltmə

Müəllim lövhədə miqdar, qeyri-müəyyən miqdar, kəsr və sıra sayları bildirən sözlər yazır. Şagirdlər bugünkü dərsin mövzusunu təxmin edirlər.

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdə sayın məna növləri haqqında məlumat alıblar.

5-4.2.1. **Tapşırıq a (dərslik).**

Cavab: miqdar sayları: yüz iyirmi, xeyli, yüzlərlə, otuz, bir çox, az, 263, üç-dörd, onlarca, bir neçə; sıra sayları: onuncu, 12-ci, doxsan beşinci, IX, yüz qırx birinci, VIII

**Tapşırıq b (dərslik).**

Cavab: 2 – iki, 1 – bir, I – birinci, 4 – dörd, 2-ci – ikinci, 4-cü – dördüncü, 24-cü – iyirmi dördüncü, II – ikinci.

**Tapşırıq c (dərslik).**

Cavab: İkinci cümlədə verilən “beş min” sözü varlığın dəqiq sayını ifadə edir.

**“Yadda saxla” rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları şərh edir. Şagirdlərin miqdar sayları haqqında bilikləri xatırlanır və genişləndirilir.

**Tapşırıq ç (dərslik).**

Cavab: 1. on – müəyyən miqdar sayı; 2. beş-altı – qeyri-müəyyən miqdar sayı; 3. iki – müəyyən miqdar sayı; 4. dörddə bir – kəsr sayı; 5. minlərlə – qeyri-müəyyən miqdar sayı; 6. üçdə bir – kəsr sayı.

**“Yadda saxla” rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları şərh edir. Şagirdlərin sayların yazılışı haqqında bilikləri xatırlanır və genişləndirilir.

5-4.1.5. **Tapşırıq d (dərslik).**

Cavab:

1. XXI əsr
2. III Şah Abbas
3. Kral XIV Lüdovik
4. II Dünya müharibəsi

**Tapşırıq e (dərslik).**

Cavab: 7/10 – onda yeddi; 11,3 – on bir tam onda üç; 1,63 – bir tam yüzdə altmış üç; 5-6 – beş-altı; XIX – on doqquzuncu; 0,37 – sıfır tam yüzdə otuz yeddi; 1/10 – onda bir.

**Tapşırıq ə (dərslik).** Kifayət qədər çətin və diqqət tələb edən tapşırıqdır.

Cavab: b. Bu variantda eyni sayın müxtəlif yazılış formaları verilib.

**Tapşırıq f (dərslik).**

Cavab:

1. Səbirə **5-ci** sinifdə oxuyur.
2. Dörddə üç sayını **3/4** kimi ifadə etmək olar.
3. **XXI** əsr **3-cü** minilliyin ilk əsridir.
4. Məktəbin akt zalına **yüzlərlə** şagird toplaşmışdı.

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlmişdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sayın mənaca növünü müəyyən edir. | Tap. **a**, **b**, **c**, **ç** (D.) |
| Sayın yazılış qaydalarına əməl edir. | Tap. **d**, **e**, **ə**, **f** (D.) |

# 3-cü fəsil

## 1-ci dərs. Sorğu

• Dərslik: səh. 43

**Təlim məqsədləri**

**1.** Verbal-qrafik materialları (şəkil, sxem, cədvəl, məlumat vərəqi, xəritə və s.) şərh etməklə rabitəli mətn qurub danışır **(st. 5-1.3.2).**

**2.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərdən soruşur:

– Böyüyəndə hansı peşəyə yiyələnmək istərdiniz?

**5-1.3.2. Tapşırıq a (dərslik).** "Peşə seçimi" haqqında sinifdə sorğu keçirilir. Şagirdlər bir vərəqdə yiyələnmək istədikləri peşənin adını qeyd edirlər. Sorğunun nəticələri əsasında diaqram qurulur.

**Müəllimin nəzərinə!** Şagirdlərin cavab yazdıqları vərəq toplanır. Qeyd olunan peşə adları qeyd olunur. Diaqramda oğlan və qızların seçimi ayrıca göstərilir. Aşağıda diaqram nümunəsi təqdim edilmişdir.




**Müəllimin nəzərinə!** Şagirdlərin diaqramı asanlıqla şərh etməsi üçün yönəldici suallardan istifadə etmək olar:

– Sorğuda neçə nəfər şagird iştirak edib?

– Şagirdlər hansı peşələri qeyd ediblər?

– Qızlar ən çox hansı peşəni seçiblər?

– Oğlanlar ən çox hansı peşəni seçiblər?

**5-1.2.2. Tapşırıq b (dərslik).** Şagirdlər "oğlan peşəsi", "qız peşəsi" ifadələrini izah edir, buna münasibət bildirirlər.

**Müəllimin nəzərinə! b** tapşırığını **a** tapşırığı ilə əlaqələndirmək üçün müəllimə şagirdlərin diqqətini diaqrama yönəltmək tövsiyə edilir. Müəllim şagirdlərdən soruşur:

– Tərtib etdiyimiz diaqrama əsasən hansı peşəni "qız peşəsi" adlandırmaq olar? Bəs hansı peşə "oğlan peşəsi" adlandırıla bilər?

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal-qrafik materialları şərh etməklə rabitəli mətn qurub danışır. | Tap. **a** (D.) |
| Həyatdan nümunələr gətirməklə fikrini əsaslandırır. | Tap. **b** (D.) |

## 2-ci dərs. Bir mərcin tarixçəsi

• Dərslik: səh. 43-45 • İş dəftəri: səh. 28

**Təlim məqsədləri**

**1.** Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir **(st. 5-2.3.3).**

**2.** Mətni oxuyarkən rast gəldiyi yeni söz və ya ifadəni cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir **(st. 5-2.1.3).**

**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim soruşur:

– "Mərc gəlmək" ifadəsini izah edin. Oxuduğunuz hansı əsərlərdə əsas hadisələr mərc gəlməklə başlayıb?

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə "80 gün dünya ətrafında" əsərini xatırlada bilər.

**Oxu. Oxuyub-qavrama**

**5-2.3.3. Tapşırıq a (dərslik). "Bir mərcin tarixçəsi" mətni.** Mətnin oxusundan əvvəl şagirdlərin diqqəti mətnə çəkilmiş illüstrasiyalara cəlb edilir. Şagirdlər illüstrasiyalara əsasən mətndə hansı mərcdən danışıldığını təxmin edirlər. Daha sonra mətn şagirdlər tərəfindən

səssiz oxunur və təxminləri ilə müqayisə edilir.

**Söz ehtiyatı**

**5-2.1.3. Tapşırıq b (dərslik).**

Cavab:

1. Bu ad getdikcə məşhur idman geyim **brendinə** çevrilmişdi.
2. Köynəyinin üzərində çalışdığı şirkətin **loqosu** təsvir edilmişdi.
3. Rəsul doğum **şəhadətnaməsini** şirkətə təqdim etdi.
4. Rəqib komanda bu oyunda məşhur idman ayaqqabı brendini **reklam** edirdi.

**Tapşırıq c (dərslik).** Şagirdlər aşağı siniflərdə bəzi sözlərdə "o" hərfinin "a" kimi tələffüz olunması haqqında məlumat almışlar. Bu tapşırıqda şagirdlərə iki söz təqdim edilib:

Kompaniya – şirkət və kampaniya – müəyyən məqsədlə keçirilən silsilə tədbirlər.

"Kompaniya" sözündəki "o" hərfi "a" kimi tələffüz olunur. Buna görə də "kampaniya" sözü ilə eyni cür tələffüz olunur.

**Oxuyub-qavrama**

Bu dərsdə oxuyub-qavrama üzrə tapşırıqlar iş dəftərində verilmişdir.

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).**

Cavab:

1. Dostlar arasında mübahisə
2. Cəlbedici səyahət təklifi
3. Müqavilənin ürək açmayan bəndi
4. Səyahətə çıxmaq üçün vəsait axtarışında
5. İlk reklam kampaniyası
6. Səyahətlə bağlı bədbin təəssürat
7. Xilas yolu
8. Qalib Enni

**Tapşırıq b (iş dəftəri).**

Cavab:

1. Mister Rider 10 min dollardan mərc gəldi ki, heç bir qadın velosipedlə dünya ətrafına dövrə vura bilməz.
2. Albert Poup məhz Enni Koenin mərci uda biləcəyinə əmin idi, çünki onun işgüzarlığına, insanları inandırmaq və məqsədinə çatmaq bacarığına inanırdı.
3. Enni əvvəlcə bu təklifi təəccüblə qarşıladı, çünki o heç velosiped sürməyi bacarmırdı.
4. Müqavilənin sonuncu bəndi Ennini çox məyus etdi, çünki dünya səyahəti böyük xərc tələb edirdi.
5. Enni səyahətinə kişi geyimi ilə davam etdi, çünki əynindəki qadın geyimi çox narahat idi: köynəyinin hündür yaxalığı boynunu yara eləmişdi, uzun ətəyinin aşağısı zəncirə dolaşıb cırıq-cırıq olmuşdu.
6. Qısa müddətdə Enni çox məşhurlaşmışdı, çünki bütün qəzetlər ondan yazırdı.

**Tapşırıq c (iş dəftəri).**

Cavab: ç

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir. | Tap. a (D.) |
| Mətni oxuyarkən rast gəldiyi yeni söz və ya ifadəni cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir. | Tap. b, c (D.) |
| Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir. | Tap. a, b, c (İ.D.) |

## 3-cü dərs. Bir mərcin tarixçəsi

• Dərslik: səh. 46-47 • İş dəftəri: səh. 29

**Təlim məqsədləri**

**1.** Mətndəki obrazları xarakterizə edir **(st. 5-2.3.1).**

**2.** Bədii mətndəki hadisələrə və obrazların davranışına əsasən ideyanı müəyyən edir **(st. 5-2.3.1).**

**3.** Bədii və qeyri-bədii mətnləri fərqləndirir **(st. 5-2.3.5).**

**4.** Oxuduğu mətn haqqında rəy yazır **(st. 5-3.2.3).**

**Mövzuya yönəltmə**

Müəllim keçən dərsdə oxunmuş "Bir mərcin tarixçəsi" mətninin məzmununa aid frontal sorğu keçirir, mətnin məzmunu xatırlanır.

**Oxuyub-qavrama**

**5-2.3.1. Tapşırıq a (dərslik).**

Cavab:

**cəsur** – Velosipedlə dünya səyahətinə çıxmaq bir qadın üçün cəsur addım idi.

**qətiyyətli** – Müqavilənin sonuncu bəndi onu qane etməsə də, səyahət etmək fikrindən daşınmadı. Səyahətin ilk dövrlərində yorulsa da, geri dönmədi.

**tədbirli** – Səyahət zamanı qarşılaşa biləcəyi təhlükələri nəzərə alaraq hər ehtimala qarşı revolver götürmüşdü.

**ağıllı** – Səyahət boyu Enni bir çox ağıllı qərarlar aldı: velosipedi dəyişmək, ona narahatlıq yaradan qadın paltarını kişi geyimi ilə əvəz etmək və sairə.

**fərasətli** – Qəzetdə reklam şöbəsində çalışan Enni reklam etmək bacarığından fərasətlə istifadə etdi: səyahətə lazım olan pulu qazandı.

**Tapşırıq b (dərslik). Şagirdlərin cavabları təxminən belə ola bilər:**

**Təəccüb**

Poup Enni ilə görüşüb onu məsələdən agah etdi. Gənc qadın əvvəlcə bu təklifi təəccüblə qarşıladı:

– Siz zarafat edirsiniz? Mən heç velosiped sürməyi də bacarmıram. Özü də, üç uşaq anasıyam. Yox, yox, bu iş mənlik deyil...

**Kədər**

Müqavilənin sonuncu bəndi Ennini çox məyus etdi. Axı dünya səyahəti böyük xərc tələb edirdi.

**Yorğunluq**

Enni gündə 13-15 km yol qət edirdi. Bu minvalla o, Çikaqoya üç aya çatdı. Çox yorğun idi, 9 kq arıqlamışdı. Aydın idi ki, bu sürətlə səyahəti vaxtında bitirmək mümkün olmayacaq.

**Narahatlıq**

Velosipedi dəyişmək lazım idi. Bu velosipedin təkərləri tez-tez boşalır, zənciri yerindən çıxırdı. Bundan başqa, əynindəki qadın geyimi lap bezdirmişdi: köynəyinin hündür yaxalığı boynunu yara eləmişdi, uzun ətəyinin aşağısı zəncirə dolaşmaqdan cırıq-cırıq olmuşdu. “Aman Allah! Bu qədər pulu haradan tapacağam?!” – Enni əlləri ilə başını tutub gözlərini yumdu.

**Sevinc**

“Sterlinq” velosiped zavodunun nümayəndəsi Enniyə səyahətini onların velosipedi ilə davam etməyi təklif etdi. Sonra uzun-uzadı “Sterlinq” kompaniyasının velosipedlərini tərifləməyə başladı. Amma Enni artıq onu eşitmirdi. Onun sevincdən başı hərlənirdi.

**5-2.3.1. Tapşırıq c (dərslik). Cavablar təxminən belə ola bilər:**

Enninin qələbəyə gedən yolunu enişli-yoxuşlu təsvir etməkdə müəllifin məqsədi oxucunu intizarda saxlamaq, qəhrəmanın aqibəti haqqında düşünməyə məcbur etməkdir. Məsələn, Enniyə edilən cəlbedici səyahət təklifi haqqında oxuyanda düşündüm ki, bəxti üzünə gülüb. Həm də bu, mətnin ardını oxumağa məndə maraq yaratdı: görəsən, bir qadın velosipedlə dünya ətrafında səyahət edə biləcəkmi?

Sonrakı epizodlarda Enni çətinliklərlə qarşılaşdı: yorğun idi, 9 kq arıqlamışdı, səyahəti vaxtında bitirəcəyini düşünmürdü, əli hər yerdən üzülmüşdü. Bu epizod Enninin aqibəti haqqında maraq oyatdı: görəsən, əsərin qəhrəmanı nə edəcək, hansı qərarı verəcək?

**Tapşırıq ç (dərslik). Cavablar təxminən belə ola bilər:**

“Bunu deyib Albert Rider otağın küncündəki seyfə tərəf yönəldi” cümləsini yazmaqla müəllif demək istəyir ki, Enni səyahətini yekunlaşdırıb və mükafatını alacaq. Cümlədə işlənən ***seyf*** sözü bu qənaətə gəlməyə kömək edir. ***Seyf*** – sənəd, pul və s. saxlamaq üçün yanmayan metaldan düzəldilmiş şkaf və ya yeşik. Yəqin ki, Albert Rider pulu götürmək üçün seyfə yaxınlaşır.

**5-2.3.5. Tapşırıq d (dərslik). Cavablar təxminən belə ola bilər:**

“Bir mərcin tarixçəsi” bədii mətndir. Çünki:

• Müəllif Enninin daxili aləmini açmağa çalışıb.

• Hadisələrin və obrazların təsvirində müəllif faktlara deyil, öz təxəyyülünə əsaslanıb.

• Mətndə Enni ilə digər obrazların dialoqlarına, Enninin düşüncələrinin təsvirinə geniş yer verilib.

• “Bir mərcin tarixçəsi” mətni tarixi sənədlərin fotoları deyil, rəssamın çəkdiyi illüstrasiyalarla müşayiət olunub.

**“Diqqət et” rubrikası.** Müəllim şagirdlərin diqqətini “diqqət et” rubrikasına yönəldir və burada verilmiş məlumatları şərh edir.

**Tapşırıq e (dərslik). Cavablar təxminən belə ola bilər:**

**Müəllimin nəzərinə!** Müqayisənin nəticə-

lərinin aydın görünməsi üçün cədvəldən istifadə etmək olar.

Cədvəlin birinci xanasında mətndəki məlumatlara uyğun olan faktlar, ikinci xanasında isə yeni faktlar qeyd edilə bilər.

**Yazı**

5-3.2.3. **Tapşırıq a (iş dəftəri)**. Şagirdlər "Bir mərcin tarixçəsi" mətni haqqında rəy yazır, münasibət bildirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Süjet boyu xarakterdə təzahür edən fərqli xüsusiyyətləri izləyir və izah edir. | Tap. **a**, **b** (D.) |
| Mətnləri məzmun və dil-üslub xüsusiyyətlərinə görə təhlil edir. | Tap. **c**, **ç** (D.) |
| Bədii və qeyri-bədii mətnləri fərqləndirir. | Tap. **d** (D.) |
| Oxunulmuş bədii və qeyri-bədii mətnləri məzmun baxımından müqayisə edir. | Tap. **e** (D.) |
| Oxuduğu mətn haqqında rəy yazır. | Tap. **a** (İ.D.) |

## 4-cü dərs. Bir mərcin tarixçəsi

• Dərslik: səh. 47 • İş dəftəri: səh. 30

**Təlim məqsədləri**

**1.** Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli qeyri-bədii mətn yazır (st. 5-3.2.1).
**2.** Verilmiş izahları aid olduğu sözlərlə uyğunlaşdırır (st. 5-2.1.3).
**3.** Mövzu ilə bağlı yazılı təqdimat hazırlayır (st. 5-3.2.4).

**Mövzuya yönəltmə**

Müəllim aşağıdakı sualları verməklə şagirdlərin diqqətini mövzuya yönəldə bilər:

– "Bir mərcin tarixçəsi" mətnində əsas obraz kimdir?

– Enni Koen haqqında daha hansı faktlarla tanış oldunuz?

**Yazı**

5-3.2.1. **Tapşırıq a (dərslik).** Tapşırığın ilk mərhələsində şagirdlər Enni Londonderri haqqında tapşırıqda verilmiş faktlarla tanış olurlar. Fəsil boyu əldə etdikləri məlumatlar əsasında bu şəxs haqqında qeyri-bədii mətn yazırlar.

**Müəllimin nəzərinə!** Yazıya başlamazdan əvvəl şagirdləri yazacaqları mətnin planını tərtib etməyə istiqamətləndirmək tövsiyə edilir. Plan təxminən belə ola bilər:

• Enni Koenin kimliyi
• Enni Koenin Albert Poupla işbirliyi
• Velosipedlə dünya səyahəti
• İlkə imza atan qadın

**Qeyri-bədii mətnin məzmunu təxminən belə ola bilər:**

*Enni Koen velosipedlə dünya ətrafında səyahət etmiş ilk qadındır.*

*Enni 1870-ci ildə Latviyada, yəhudi ailəsində anadan olmuşdur. 1875-ci ildə onun ailəsi Amerikaya, Boston şəhərinə köçmüşdür. Bostonda təhsil alan Enni bir müddət qəzetlərdə reklam agenti vəzifəsində işləmişdir.*

*Gözlənilməz bir hadisə Enninin bütün həyatını dəyişdirir. Albert Poup adlı bir sahibkardan velosipedlə dünya səyahətinə çıxmaq təklifi alır. Albert Poup Bostondakı ilk velosiped şirkətinin sahibi idi. Enni onun vasitəçiliyi ilə Albert Rider adlı bir həkimlə müqavilə bağlayır. Albert Rider Enniyə 10 min dollar mükafat təklif edir. Bu mükafatı qazanmaq üçün Enni Tomas Stivensin rekordunu təzələməli idi. Tomas Stivens velosipedlə dünya ətrafına dövrə vurmaqla ilkə imza atmış şəxs idi. Stivens səyahətə 1884-cü ilin aprelində başlamış, 1886-cı ilin dekabrında bitirmişdir. Onun səyahəti iki il səkkiz ay çəkmişdi.*

*Enni əvvəlcə bu təklifi qəbul etməkdə tərəddüd edirdi. Çünki o velosiped sürməyi belə bacarmırdı. Böyük bir məsafəni velosipedlə qət etmək möcüzə olardı. Həm də Enni üç uşaq anası idi. Uşaqlarını uzun müddətə tək qoyub getmək istəmirdi. Lakin on min dollar Enni üçün fantastik məbləğ idi. Mərci udsaydı, bu pula yeni ev alar, uşaqlarını yaxşı məktəbə qoyardı.*

*Enni 1894-cü il iyunun 27-də velosipedlə dünya ətrafında səyahətə çıxır. Səyahət zamanı müxtəlif çətinliklərlə qarşılaşır: bir neçə dəfə qarət edilir, Fransa sərhədində velosipedi müsadirə olunur, hətta velosipedlə qəza keçirib biləyini sındırır. Buna baxmayaraq, səyahətini müqavilədə göstərilən vaxtdan iki həftə tez bitirir. 1895-ci il*

*sentyabrın 12-də səyahətini bitirir və mərci udur.*

*Beləliklə, Enni Koen velosipedlə dünya səyahəti etmiş ilk qadın kimi tarixin yaddaşında qalmışdır.*

Yazı fəaliyyətini bitirdikdən sonra hər kəs öz yazısını bir daha oxuyur, səhvlər üzərində iş aparır. Daha sonra cütlər dəftərlərini bir-birinə ötürürlər. Hər kəs yoldaşının yazısını oxuyub münasibət bildirir və səhvlərini qeyd edir.

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdə yazı işinin yoxlanılması və münasibət bildirməklə bağlı təlimatlandırılıblar. Münasibət bildirərkən əvvəl xoş, müsbət fikirlər söylənilir. Yazı işini yoxlayarkən, əsasən, aşağıdakılar nəzərə alınmalıdır:
– faktların düzgünlüyü;
– sözlərin orfoqrafik normalara uyğun yazılması;
– durğu işarələrindən düzgün istifadə;
– sözlərin kontekstə uyğun istifadəsi.

**Oxuyub-qavrama**

**5-2.1.3. Tapşırıq a (iş dəftəri).** Şagirdlər krossvordu həll edirlər.

Cavab:

**Soldan-sağa:** 2. Boston; 4. Stivens; 5. Yəhudi; 6. Sterlinq; 7. Albert.

**Yuxarıdan aşağı:** 1. Londonderri; 3. Latviya.

**Yazı**

**5-3.2.4. Tapşırıq b (iş dəftəri).** Şagirdlərin tərtib etdiyi məlumat vərəqinin məzmunu təxminən belə ola bilər:

**Enni Koen**
**Doğum yeri:** Latviya
**Doğum tarixi:** 1870-ci il
**Milliyyəti:** yəhudi
**Yaşadığı ölkə:** Amerika
**Peşəsi:** reklamçı
**İmza atdığı yenilik:** velosipedlə dünya səyahəti etmiş ilk qadın

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli qeyri-bədii mətn yazır. | Tap. a (D.) |
| Verilmiş izahları aid olduğu sözlərlə uyğunlaşdırır. | Tap. a (İ.D.) |
| Əldə etdiyi məlumatlar əsasında məlumat vərəqi hazırlayır. | Tap. b (İ.D.) |

## 5-ci dərs. Feil

• Dərslik: səh. 48-49 • İş dəftəri: səh. 31

**Təlim məqsədləri**

**1.** Feilin qrammatik xüsusiyyətlərini (zamana, şəxsə görə dəyişməsi, təsdiqdə və ya inkar olması, quruluşca növü) müəyyənləşdirir **(st. 5-4.2.1).**

**2.** Mürəkkəb feillərin yazılış qaydasına əməl edir **(st. 5-4.1.6).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).**

Cavab:

1. Keçən il burada nərgiz əkmişəm. (*keçmiş zaman, I şəxsin təki*)
2. Siz divar qəzeti hazırladınız? (*keçmiş zaman, II şəxsin cəmi*)
3. Neçə gündür ki, bu xəbəri gözləyirik. (*indiki zaman, I şəxsin cəmi*)
4. Dost dar gündə tanınar. (*gələcək zaman, III şəxsin təki*)
5. Birincilər ön sırada əyləşəcəklər. (*gələcək zaman, III şəxsin cəmi*)
6. Əminəm ki, müzakirəyə ciddi hazırlaşacaqsan. (*gələcək zaman, II şəxsin təki*)

**Dil qaydaları**

**5-4.2.1. "Yadda saxla" rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edərək şagirdlərə feilin zamana görə dəyişməsi haqqında məlumat verir.

**"Yadda saxla" rubrikası.** Şəxs şəkilçilərinin sözə zaman şəkilçilərindən sonra qoşulduğu diqqətə çatdırılır.

**Tapşırıq b (dərslik).** Cavab:

1. Sabah yeni kitabları rəflərə düzərəm. (*gələcək zaman, I şəxsin təki*)
2. Mən dərslərimi çoxdan hazırlamışam. (*keçmiş zaman, I şəxsin təki*)
3. Çox vacib məsələ haqqında danışacağıq. (*qəti gələcək zaman, I şəxsin cəmi*)
4. Uşaqlar məktəbin həyətində ağac əkirlər. (*indiki zaman, III şəxsin cəmi*)

**Tapşırıq c (dərslik).**
Cavab: danışırsınız, sevindim, düşünəcəklər, qoruyuruq, axtardın.

**Tapşırıq ç (dərslik).** Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini -ma$^2$ şəkilçisinə cəlb edir. Müəllimin nəzərinə! Müəllimə -ma$^2$ şəkilçisi ilə bağlı aşağıdakı məlumatları şagirdlərin nəzərinə çatdırmaq tövsiyə edilir:

Feilin inkar forması -ma$^2$ şəkilçisi vasitəsilə yaranır. Feilin inkar formasının şəkilçisi ilə isim və sifət düzəldən -ma$^2$ şəkilçisi oxşardır. Lakin nəzərə almaq lazımdır ki, -ma$^2$ inkarlıq bildirərkən qrammmatik, isim və sifət düzəldərkən isə leksik şəkilçi hesab edilir.

Cavab: 2. Qızım, pəncərələri bağlama. 4. Çalış xətləri əyri çəkmə.

**Tapşırıq d (dərslik).** Cavab:
görüşmürəm, çıxmıram, yoxlamıram, hazırlamırıq;
görüşməyəcəksiniz, çıxmayacaqsınız, yoxlamayacaqsınız, hazırlamayacaqsınız;
görüşməyəcək, çıxmayacaq, yoxlamayacaq, hazırlamayacaq;
görüşmədiniz, çıxmadınız, yoxlamadınız, hazırlamadınız.

**Tapşırıq e (dərslik).** Cavab: b

**Tapşırıq ə (dərslik).** Cavab: duz – isim; çox – say; boz – sifət; uzaq – zərf.

**5-4.1.6. Tapşırıq f (dərslik).**
Cavab: dəyib-dolaşmaq, atılıb-düşmək, keçib-getmək, ölçüb-biçmək.

**Tapşırıq g (dərslik).** Tapşırığın həlli zamanı aşağıdakı cədvəldən istifadə etmək tövsiyə olunur.

| Feillər | Etmək | Olmaq |
|---|---|---|
| xahiş | xahiş etmək | - |
| nail | - | nail olmaq |
| and-aman | and-aman etmək | - |
| cəhd | cəhd etmək | - |
| mane | - | mane olmaq |
| muğayat | - | muğayat olmaq |
| mübahisə | mübahisə etmək | - |
| göz-qulaq | - | göz-qulaq olmaq |

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin feil bəhsi üzrə aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin qrammatik xüsusiyyətlərini (zamana, şəxsə görə dəyişməsi, təsdiqdə və ya inkar olması, quruluşca növü) müəyyənləşdirir. | Tap. a, b, c, ç, d, e, ə (D.), tap. a, b, c, (İ.D.) |
| 0Mürəkkəb feillərin yazılış qaydasına əməl edir. | Tap. f, g (D.) |

# 4-cü fəsil

## 1-ci dərs. Qafqaz səfəri

• Dərslik: səh. 50-52 • İş dəftəri: səh. 32

**Təlim məqsədləri**

**1.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**2.** Kontekstdən çıxış edərək sözün mənasını anladığını nümayiş etdirir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**

**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**Mövzuya yönəltmə**

**5-1.2.2. Tapşırıq a (dərslik).** Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir.

**5-2.1.2. Tapşırıq b (dərslik).** Şagirdlər Aleksandr Dümanın "Qafqaz səfəri" kitabının üzqabığına baxır, annotasiyasını oxuyurlar. Diqqətlərini cəlb edən məqamları və bu kitabı oxumaq istəmələrinin səbəbini izah edirlər.

**Oxu**

**"Qafqaz səfəri" mətni.** Şagirdlər sözləri düzgün tələffüz etməklə və uyğun səs tonu seçməklə mətni oxuyurlar.

**Müəllimin nəzərinə!** Şagirdləri "Nuxa"nın Şəkinin əvvəlki adı olduğu haqqında məlumatlandırmaq tövsiyə edilir. 1846-cı ildən 1968-ci ilə qədər Şəki "Nuxa" adlandırılmışdır.

**Söz ehtiyatı**

**5-2.1.3. Tapşırıq c (dərslik).**
Cavab: 1. sac; 2. oxlov; 3. kündə.

**Tapşırıq ç (dərslik).** Cavab: lavaş, yuxa.

**Tapşırıq d (dərslik).**
Cavab: yoldaşlıq, dostluq etmək. Bu adət azərbaycanlıların qonaqpərvərliyini göstərir.

**Tapşırıq a (iş dəftəri).**
Cavab:
1. Belə sürətlə iki verst yol gedəndən sonra mənzil başına çatarsan.
2. O, dəstəyi qiymətli qaşlarla bəzədilmiş xəncəri 100 franka almışdı.
3. Fransız tacirləri bu il ərzində min funt yağ satmışdılar.

**Oxuyub-qavrama**

**5-2.1.2. Tapşırıq b (iş dəftəri). Cavab:**
1. 1858-ci ilin ortalarından 1859-cu ilin əvvəllərinə kimi Rusiya və Qafqaza səyahət etmişdi.
2. A.Düma Dərbənd, Quba, Bakı, Şamaxı və Nuxaya səfər etmişdi.
3. Şişlik Dümanı heyran etmişdi.
4. Səfər zamanı rəssam dostu Jan-Pyer Moyne A.Dümanı müşayiət edirdi.

Mətndə beşinci suala cavab yoxdur (A.Düma hansı məşhur azərbaycanlı ilə görüşmüşdü?).

6. A.Düma şişlik, sac üstündə ət və lavaşın hazırlanma qaydalarını təsvir edib.

**Tapşırıq c (iş dəftəri)**
Cavab: d

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fikirlərini arqumentlərlə izah edir. | Tap. a (D.) |
| Kontekstdən çıxış edərək sözün mənasını anladığını nümayiş etdirir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir. | Tap. c, ç, d (D.); a (İ.D.) |
| Mətni oxuyarkən qabaqcadan müəyyən olunmuş sualların cavablarını mətndən seçir. | Tap. b (D.), tap. b (İ.D.) |

## 2-ci dərs. Qafqaz səfəri

• Dərslik: səh. 53 • İş dəftəri: səh. 33

**Təlim məqsədləri**

**1.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**2.** Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir, genişləndirir və ya təcrübədə tətbiq edir **(st. 5-2.3.6).**

**3.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**4.** Mətndəki faktları ümumiləşdirərək nəticə çıxarır **(st. 5-2.3.2).**

## Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik)**

**Müəllimin nəzərinə!** Bu tapşırıq Azərbaycanın inzibati xəritəsinə əsasən yerinə yetirilir. Sinif şəraitindən asılı olaraq Azərbaycanın inzibati xəritəsi, xəritənin şəkli və yaxud elektron variantından istifadə etmək olar.




Şagirdlər A.Dümanın Azərbaycana səfərinin marşrutunu xəritədə göstərir və bu şəhərlə bağlı yazıçının təəssüratlarını xatırlayırlar.

## Oxuyub-qavrama

İş dəftərində verilmiş tapşırıqlar keçən dərsdə oxunmuş mətnin məzmununu xatırlatmağa yönəlib.

**5-2.1.2. Tapşırıq a (iş dəftəri).** Şagirdlər "Qafqaz səfəri" mətninin məzmununa aid 5 sual yazırlar. Sonra hər şagird yazdığı sualları oxuyur, digərləri isə cavablandırırlar. Beləliklə, mətnin məzmunu xatırlanır.

**Tapşırıq b (iş dəftəri)**

Cavab:

1. Çünki onlar Dümanı və yoldaşlarını qonaqpərvərliklə qarşılamışdılar.

2. Tərəkəmələrin adətinə görə, qonağa təkcə şam yeməyi vermək kifayət deyil. Onlar qonağı sabahkı günün naharı üçün də hər şeylə təmin edirlər.

3. Çünki çap etdirəcəyi kulinariya kitabını zənginləşdirmək istəyirdi.

**5-2.3.2. Tapşırıq b (dərslik).** Cavablar təxminən belə ola bilər:

• Azərbaycan Qafqaz dağlarının ətəyində yerləşir.

• Bakıda atəşpərəstlərin müqəddəs məbədi olan Atəşgah var.

• Quba, Bakı, Şamaxı, Nuxa Azərbaycanın böyük şəhərləridir.

• İndiki Şəki şəhəri əvvəl "Nuxa" adlanırmış.

• Azərbaycanda ticarətin əsasını ipək, xalça, zəfəran, neft təşkil edirdi.

**5-2.3.6. Tapşırıq c (dərslik).** Cavab olaraq şəkli təxminən belə təsvir edə bilərlər:

Qafqazda səfərdə olan Aleksandr Düma Bakı şəhərinə gəlir. Bakıda qonaq olarkən Xurşidbanu Natəvan və onun həyat yoldaşı knyaz Xasay Usmiyevlə tanış olur. Onlar arasında səmimi dostluq münasibətləri yaranır. Bir gün fransız yazıçı Düma Azərbaycan şairəsi Natəvanla şahmat oynayır. Oyunun nəticəsi isə çox yaddaqalan olur. Belə ki, Natəvan Dümanı mat edir.

Bu, Dümanın Bakı səfəri təsvir edilmiş hissəni genişləndirə bilər.

**Rəsmdə pəncərədən İçərişəhər və Qız qalası görünür. Bu detal Düma və Natəvanın görüşünün Bakıda baş tutduğunu göstərir.**

## Danışma

**5-1.2.2. Tapşırıq ç (dərslik).** Şagirdlər mətnə istinad edərək "Səyahət xalqlar arasında mədəni əlaqələri inkişaf etdirir" fikrini əsaslandırırlar. Müzakirə zamanı təxminən belə fikirlər səsləndirilə bilər:

Düma Azərbaycanda səfərdə olarkən xalqın mətbəxi ilə tanış olur. "Qafqaz səfəri" kitabında yazır: "Yeni şeylər öyrənmək üçün səyahət edirəm və haradasa dadlı bir yeməyə rast gələndə bir gün çap etdirəcəyim kulinariya kitabını zənginləşdirmək üçün həmin an yeməyin reseptini istəyirəm. Ona görə də şişliyin reseptini istədim". Deməli, Fransada çap olunan kulinariya kitabında Azərbaycan mətbəxinə aid yemək haqqında məlumat var. Bu, xalqlar arasında mədəni əlaqələrin inkişafına nümunədir. Dümanın fransız oxucusuna Azərbaycan xalqının adət-ənənələri, ölkəmizin şəhərləri, sakinlərinin məşğul olduğu istehsal sahələri və s. haqqında məlumat verməsi də buna xidmət edir.

## Araşdırma

Şagirdlər növbəti dərsdə "Azərbaycan milli yeməkləri" mövzusunda resept hazırlayacaqlar. Buna görə də müəllim şagirdləri qruplara bölür və tapşırıqda verilmiş mövzuları təqdim edir. Mövzuya uyğun məlumatlar və şəkillər əldə etməyi tapşırır. "Qafqaz səfəri" mətnində verilmiş resept nümunəsini (səh. 52. "Şişliyin resepti") şagirdlərin nəzərinə çatdırır.

**Müəllimin nəzərinə!** Sinif təchizatından asılı olaraq şagirdlər növbəti dərs zamanı sinifdə araşdırma aparıb resept yaza bilərlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tap. **a** (İ.D.) |
| Mətndəki hadisələrin açıq şəkildə göstərilən səbəbini izah edir. | Tap. **b** (İ.D.) |
| Mətndəki faktları ümumiləşdirərək nəticə çıxarır. | Tap. **b** (D.) |
| Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır. | Tap. **c** (D.) |
| Fikirlərini arqumentlərlə izah edir. | Tap. **ç** (İ.D.) |

## **3-cü dərs.** Qafqaz səfəri

• Dərslik: səh. 53 • İş dəftəri: səh. 34

**Təlim məqsədləri**

**1.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz fikrini söyləyir və əsaslandırır **(st. 5-1.2.2).**
**2.** Məqsədə müvafiq olaraq təlimat yazır **(st. 5-3.2.3).**
**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı müəyyən edir **(st. 5-2.1.2).**
**4.** Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir **(st. 5-3.2.2).**

**Mövzuya yönəltmə**

Şagirdlərin diqqəti mövzuya yönəldilir:

– Sizcə, tanış olmayan bir yeməyi necə hazırlamaq olar? Yeməyi düzgün hazırlamağa nə kömək edər?

**Danışma**

**5-1.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqdakı sualı cavablandırır, seçimlərinin səbəbini izah edirlər.

**Yazı**

**5-3.2.3. Tapşırıq b (dərslik). Qruplarla iş.** Müəllim şagirdləri fəaliyyətə yönəldir:

1. "Qafqaz səfəri" mətnində verilmiş resept nümunəsi (şişliyin resepti) ilə tanış olun.
2. Resept hansı ardıcıllıqla yazılıb?
3. Sizcə, nə üçün əvvəl yeməyin tərkibi qeyd olunur?
4. Sizcə, yeməyin hazırlanması nə üçün ardıcıllıqla qeyd olunmalıdır?
5. Yeməyin bişirilmə müddəti və bişirilmə dərəcəsi qeyd olunması vacibdirmi? Nə üçün?

**Oxuyub-qavrama**

**5-2.1.2. Tapşırıq a (iş dəftəri)**

**Krosvordun cavabları:**

**Soldan-sağa:** 1. Şahdağ; 4. Rusiya; 5. Düşərgə; 7. Şamaxı.

**Yuxarıdan aşağı:** 2. Dərbənd; 3. Lavaş; 6. Şişlik.

**Dümanın aforizmi:** Uğurun iki səbəbi var: səbir və ümid.

**Yazı**

**5-3.2.2. Tapşırıq b (iş dəftəri).** Şagirdlər təxminən aşağıdakı kimi yaza bilərlər:

Mən keçən il idman yarışlarında iştirak etsəm də, yer tuta bilmədim. Amma ruhdan düşməmişəm. Əksinə, daha çox məşq edirəm, inanıram ki, qalib gələcəyəm. Çünki, həqiqətən də, "uğurun iki səbəbi var: səbir və ümid".

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı təlimat hazırlayır. | Tap. **b** (D.) |
| Mövzuya uyğun situasiya düşünüb yazır. | Tap. **b** (İ.D.) |
| Müzakirələrdə səslənən fikirlərlə bağlı öz fikrini söyləyir və əsaslandırır. | Tap. **a** (D.) |
| Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı müəyyən edir. | Tap. **a** (İ.D.) |

## **4-cü dərs.** Zərf

• Dərslik: səh. 54 • İş dəftəri: səh. 35

**Təlim məqsədləri**

**1.** Zərfin mənaca növlərini fərqləndirir **(st. 5-4.2.1).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Motivasiya xarakterli bu tapşırıq şagirdlərin zərflə bağlı aşağı sinifdə öyrəndikləri bilikləri xatırladır.

Cavab:

1. Gecəyarısı güclü yağış başladı. (*Nə vaxt başladı?*)
2. Bu hadisədən sonra çox dəyişmişdi. (*Nə qədər dəyişmişdi?*)
3. Qonaqlar ev yiyəsi ilə salamlaşıb içəri keçdilər. (*Hara keçdilər?*)
4. Babam gənclik illərini həsrətlə xatırlayırdı. (*Necə xatırlayırdı?*)

### Dil qaydaları

**"Yadda saxla" rubrikası**. Şagirdlər verilmiş nəzəri məlumatlarla tanış olur. Müəllim əlavə nümunələr əsasında zərfin mənaca növlərini şərh edir.

5-4.2.1. **Tapşırıq b (dərslik).** Cavab:

1. Birlikdə hazırladılar. (*tərzi-hərəkət zərfi*)
2. Günorta endilər. (*zaman zərfi*)
3. Çoxdan unutmuşdu. (*zaman zərfi*)
4. İrəlidə gözləyirdi. (*yer zərfi*)
5. Birə-beş artmışdı. *(miqdar zərfi)*

**Tapşırıq c (dərslik).** Şagirdlər müvafiq zərflər əlavə edərək cümlələri genişləndirirlər.

1. Müəllim mövzunu **həvəslə** izah etdi.
2. **Sabah** məktəbimizdə esse yazı müsabiqəsi keçiriləcək.
3. Teymur **yuxarıda** kirşə ilə sürüşürdü.
4. Dinləyicilər şairin çıxışını **xeyli** alqışladılar.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin zərf bəhsi üzrə aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Zərfin mənaca növlərini fərqləndirir. | Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar |

## 5-ci dərs. Zərf

• Dərslik: səh. 55 • İş dəftəri: səh. 36

**Təlim məqsədləri**

**1.** Qrammatik xüsusiyyətlərinə görə zərfi digər nitq hissələrindən fərqləndirir **(st. 5-4.2.1).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir.

"Qarşımızda gözəl mənzərə açıldı" cümləsində "gözəl" sözü varlığa, yəni "mənzərə" sözünə aid olduğu üçün sifətdir. "Natiq fikirlərini gözəl ifadə edirdi" cümləsində isə "gözəl" sözü hərəkətə aid olduğu üçün zərfdir.

### Dil qaydaları

5-4.2.1. **"Yadda saxla" rubrikası.** Müəllim şagirdlərə həm zərf, həm də digər nitq hissəsi (isim, sifət, say) kimi işlənə bilən sözlər haqqında məlumat verir.

**Tapşırıq b (dərslik).** Cavab:

1. *Gecə* şəhərə çatdıq. (Şəhərə nə vaxt çatdıq? Gecə çatdıq.) *zərf*
2. Yayda *gecə* gündüzdən qısa olur. (Yayda nə qısa olur? Gecə.) *isim*
3. *Doğru* cavabları seçib dəftərinizə yazın. (Hansı cavabları? Doğru cavabları.) *sifət*
4. Hamıdan *doğru* danışmağı xahiş edirəm. (Necə danışmağı xahiş edirəm? Doğru danışmağı.) *zərf*
5. Bu məsələni həll etmək üçün *xeyli* düşündüm. (Nə qədər düşündüm? Xeyli düşündüm.) *zərf*
6. Teatr salonunda *xeyli* tamaşaçı var idi. ( Nə qədər tamaşaçı var idi? Xeyli tamaşaçı.) *say*

**"Yadda saxla" rubrikası.** Müəllim şagirdlərə zərfin quruluşca növləri haqqında məlumat verir.

**Tapşırıq c (dərslik).** Cavab:

1. Ürəkdən – düzəltmə
2. Səbirsizliklə – düzəltmə
3. Asta-asta – mürəkkəb / üzüyuxarı-mürəkkəb
4. Taybatay – mürəkkəb
5. Geri – sadə

**Tapşırıq ç (dərslik).** Cümlə nümunələri:

1. O, aydın səslə cavab verdi. (*sifət*)
2. Müəllim qaydanı aydın izah etdi. (*zərf*)

3. Bu gün çox işim var. (*say*)
4. Səbuhi çox çalışır. (*zərf*)
5. Müğənninin çox gözəl səsi var. (*ədat*)
6. Səhər açıldı. (*isim*)
7. Səhər zəngli saatım çalmadı. (*zərf*)
8. Fiqurları masanın üzərinə düz. (*feil*)
9. Sən düz danışırsan. (*zərf*)
10. Düz sözə zaval yoxdur. (*sifət*)

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin zərf bəhsi üzrə aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qrammatik xüsusiyyətlərinə görə zərfi digər nitq hissələrindən fərqləndirir. | Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar |

## Ümumiləşdirici təkrar

• Dərslik: səh. 56-57 • İş dəftəri: səh. 37

**Təlim məqsədləri**

**1.** Mətni oxuyarkən sözləri düzgün tələffüz edir və məzmuna uyğun səs tonu seçir **(st. 5-2.1.1).**
**2.** Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını izah edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**
**3.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**
**4.** Əsas nitq hissələrinin ümumi qrammatik mənalarını və morfoloji tərkibini müəyyən edir **(st. 5-4.2.1).**
**5.** Azaltma və çoxaltma dərəcəsində olan sifətlərin yazılış qaydalarına riayət edir **(st. 5-4.1.7).**
**6.** Sayların yazılış qaydalarına əməl edir **(st. 5-4.1.5).**

**Mövzuya yönəltmə**

Dərsin əsas məqsədi bu bölmədə öyrədilən dil qaydalarını, oxuyub-anlama bacarığını bir daha mənimsətmək və inkişaf etdirməkdir. Müəllim bölmənin mövzularını xatırlatmaq məqsədilə frontal sorğu keçirir.

**Oxu**

**5-2.1.1.** “72 günə dünya səyahəti” mətninin oxusu həyata keçirilir. Mətnin məzmununa aid (1-4-cü) möhkəmləndirmə tapşırıqları üzərində iş aparılır.

**Söz ehtiyatı**

**5-2.1.3. Tapşırıq 1 (dərslik)**
Cavab: 1 – b; 2 – c; 3 – a.

**5-2.1.2. 2 (dərslik)**
Cavab: c

**Tapşırıq 3 (dərslik).** Cavab:
• Elizabet qəzetin redaktoruna sərt məktub yazdı, çünki qadınların ictimai həyatda heç bir rolu olmaması, yalnız ev işləri ilə məşğul ola bilmələri haqqında məqalə onu əsəbiləşdirmişdi.
• Qəzet redaktoru Elizabetə iş təklifi etdi, çünki o, qızın cəsarətli məktubundan çox təsirlənmişdi.
• Hamı Nellini “Ledi Sensasiya” adlandırırdı, çünki onun hər yazısı cəmiyyətdə sensasiya

doğururdu.

**Tapşırıq 4 (dərslik)**
Cavab: c

Dərslikdə təqdim edilmiş 5-10-cu tapşırıqlar dil qaydaları üzrə qazanılmış biliklərin təkrarına, möhkəmləndirilməsinə yönəlib.

**5-4.1.7. Tapşırıq 5 (dərslik).** Cavab:
Çayın suyu dupduru idi.
Qızın gömgöy gözləri dənizi xatırladırdı.
Yeməyin acıtəhər dadı var idi.
Bu gün ala-yarımçıq işlərimi bitirməliydim.

**5-4.1.5. Tapşırıq 6 (dərslik).** Cavab:
1. Oniki – on iki, müəyyən miqdar sayı.
2. 2/1 – 1/2 , kəsr sayı.
3. IX-cu – IX, sıra sayı.
4. 10-larla – onlarla, qeyri-müəyyən miqdar sayı.

**5-4.2.1. Tapşırıq 7 (dərslik).** Cavab:
Biz ünvana çatırıq.
Sən cavab vermək istədin?
İgid oğlanlarımız Vətəni qoruyacaqlar.

**Tapşırıq 8 (dərslik)**
Cavab: b. I şəxsin cəmindədir.

**Tapşırıq 9 (dərslik)**
Cavab: c. Oğuz velosipedi üzüaşağı sürdü.

**Tapşırıq 10 (dərslik).** Cavab:
Sadə: gec, ora, axşam.
Düzəltmə: hərdən, daxilən.
Mürəkkəb: günorta, səhərəyaxın, tez-tez, üzüyuxarı, birə-beş.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin dil qaydaları üzrə aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözləri düzgün tələffüz etmədikdə cümləni yenidən oxuyur. | “72 günə dünya səyahəti” mətni |
| İzahları aid olduğu sözlərlə uyğunlaşdırır. | Tap. 1 (D.) |
| Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir. | Tap. 2, 3, 4 (D.) |
| Əsas nitq hissələrinin ümumi qrammatik mənalarını və morfoloji tərkibini müəyyən edir. | Tap. 7, 8, 9, 10 (D.), tap 2, 3, 4 (İ.D.) |
| Azaltma və çoxaltma dərəcəsində olan sifətlərin yazılış qaydalarına əməl edir. | Tap. 5 (D.), tap. 1 (İ.D.) |
| Sayların yazılış qaydalarına əməl edir. | Tap. 6 (D.) |

bölmə **7**

# İDMAN VƏ SAĞLAMLIQ

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Fiziki məşqlər və insan orqanizmi | Danışma. Oxu. Oxuyub-anlama | 58-60 | 38 | 173-174 |
| 2 | Fiziki məşqlər və insan orqanizmi | Danışma | 61 | 39 | 174 |
| 3 | Fiziki məşqlər və insan orqanizmi | Yazı | 61 | 40 | 174-175 |
| 4 | Təsriflənməyən feillər. Məsdər | Dil qaydaları | 62-63 | 41 | 175-176 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Çempion ola bilərəm? | Danışma. Oxu. Oxuyub-anlama | 64-66 | 42 | 176-178 |
| 2 | Çempion ola bilərəm? | Danışma. Yazı | 66 | - | 178 |
| 3 | Paralimpiyanın tarixindən | Oxuyub-anlama. Danışma | 67 | 43 | 178-179 |
| 4 | Feili sifət | Dil qaydaları | 68 | 44 | 179-180 |
| 5 | Feili bağlama | Dil qaydaları | 69 | 45 | 180-181 |
| **3-cü fəsil** | | | | | |
| 1 | İdmanda uduzanda nə edək? | Danışma. Oxu. Oxuyub-anlama. Yazı | 70-71 | 46 | 181-182 |
| 2 | İdmanda uduzanda nə edək? | Oxuyub-anlama. Danışma. Yazı | 71-73 | 47 | 182-183 |
| 3 | İdmançı xarakteri | Yazı | 73 | 48 | 183 |
| 4 | Əvəzliyin məna növləri | Dil qaydaları | 74-75 | 49 | 184 |
| **4-cü fəsil** | | | | | |
| 1 | Marafon: Afinadan Bakıya | Danışma. Oxu | 76-78 | 50 | 185-186 |
| 2 | Marafon: Afinadan Bakıya | Oxuyub-anlama. Yazı | 78 | 51 | 186-187 |
| 3 | Küləyə qalib gələnlər | Oxu. Yazı | 79 | 52 | 187 |
| 4 | İsimləşmə və sifətləşmə | Dil qaydaları | 80-81 | 53 | 187-188 |
| 5 | Ümumiləşdirici təkrar | Oxu. Dil qaydaları | 82-83 | 54 | 189-190 |

# 1-ci fəsil

## 1-ci dərs. Fiziki məşqlər və insan orqanizmi

• Dərslik: səh. 58-60 • İş dəftəri: səh. 38

**Təlim məqsədləri**

**1.** Müzakirədə səslənən fikirləri əlavə bilikləri ilə müqayisə edir və problemə münasibətini bildirir **(st. 5-1.2.2).**

**2.** Əldə etdiyi məlumatları ümumiləşdirərək təqdimat edir **(st. 5-1.3.2).**

**3.** Mətndəki fikirlərin hansı faktlarla əsaslandırıldığını müəyyən edir **(st. 5-2.3.2).**

**4.** Çoxmənalı sözün və ya omonimin mətndəki mənasını digər mənalarından fərqləndirir **(st. 5-2.1.3).**

**5.** Mətnin məzmunu ilə bağlı məlumatları (hadisə, fakt) müəyyənləşdirir **(st. 5-2.1.2).**

**Mövzuya yönəltmə**

Sizcə, insan orqanizminin quruluşunu bilmək nə üçün lazımdır?

İnsanın hansı orqanlar sistemi var?

Bu sistemlərə nələr daxildir?

Sağlamlığı qorumaq üçün nə etməliyik?

**Danışma**

**5-1.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər fiziki tərbiyə dərsinin əhəmiyyəti barədə fikir bildirirlər, həmin dərsdəki fəaliyyətləri haqqında məlumat verirlər.

**Tapşırıq b (dərslik).** Müəllim lövhədə BİBÖ cədvəli çəkir:

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |
| | | |

Şagirdlər bədən orqanları və onların funksiyaları haqqında bildiklərini, bilmək istədiklərini cədvəldə qeyd edirlər.

**Oxu. Oxuyub-anlama**

**5-1.3.2. Tapşırıq c (dərslik). Qruplarla iş.** Şagirdlər qruplara bölünür. Qrup üzvləri "Fiziki məşqlər və insan orqanizmi" mətninin müvafiq hissəsini oxuyurlar. Sonra təbiət fənnindən öyrəndiklərinə əsasən mətnin həmin hissəsini müzakirə edib təqdimat hazırlayırlar. Hər bir qrupun lideri şifahi təqdimat edir.

**5-2.3.2. Tapşırıq ç (dərslik).** Mətnin 1-ci hissəsi oxunduqdan sonra şagirdlər həmin hissəyə aid suallara cavab verirlər.

**Tapşırıq d (dərslik).** Mətnin 2-ci hissəsi oxunur. Şagirdlər təbiət fənnindən aldıqları bilgiləri tətbiq edirlər. Suallara verilən cavablar əsasında həmin hissəni genişləndirirlər:

*Orqanizmə ağız vasitəsilə daxil olan qidalar həzm kanalında parçalanır və sorulur, yəni həzm olunur. Həzm kanalı boruşəkilli orqandır. Həzm prosesində həzm kanalı ilə yanaşı, ağız, ağız suyu vəziləri, qaraciyər, mədə, mədəaltı vəzi iştirak edir. Bütün bunlar həzm sistemini təşkil edir. Fiziki məşqlər isə həzm sisteminin fəaliyyətini gücləndirir.*

**Tapşırıq e (dərslik).** Bu hissəni oxuduqdan sonra şagirdlər idmanın tənəffüs prosesindəki rolunu öyrənir və suala cavab verirlər.

**5-2.1.3. Tapşırıq ə (dərslik)**

Cavab: Tənəffüs – fasilə, ara. Omonim sözdür.

**5-2.3.2. Tapşırıq f (dərslik).** Şagirdlər bu hissədən aldıqları məlumat əsasında sümük-əzələ sisteminin roluna dair suala cavab verirlər, idmanın bu sistemə təsirindən bəhs edirlər.

**Tapşırıq g (dərslik).** Şagirdlər fiziki tərbiyə və idmanın hansı keyfiyyətlərin formalaşmasında əhəmiyyətli olduğunu öz sözləri ilə izah edirlər.

**5-2.1.2. Tapşırıq a (iş dəftəri)**

Cavab: 1 – D; 2 – Y; 3 – D; 4 – E; 5 – Y; 6 – E.

**5-2.3.2. Tapşırıq b (iş dəftəri).** Şagirdlərdən mətnin məzmununa aid səbəb-nəticə cədvəlini tamamlamaq tələb olunur.

Cavab:

1. Səbəb – Ürək əzələləri daim işləyərək qanın damarlarla axınını təmin edir.

Nəticə – Bədəndə qan təzyiqi normallaşır, ürək döyüntüləri sabitləşir.

2. Səbəb – Maddələr mübadiləsi yaxşılaşır.

Nəticə – Piylənmə baş vermir.

3. Səbəb – Ağciyər daha aktiv işləyir, onun tutumu artır.

Nəticə – İnsan daha rahat nəfəs alır.

4. Səbəb – Əzələ sistemi yaxşı inkişaf edir.

Nəticə – İnsan gözəl atletik bədən quruluşuna malik olur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirələrdə səslənən problemlərə münasibət bildirir. | Tap. **a**, **b**, **c** (D.) |
| Qeyri-bədii mətndəki əsas faktları müəyyən edir. | Tap. **ç**, **d**, **e**, **f**, **g** (D.) |
| 5-ci sinfə uyğun bilgiləri əsasında mövzu üzrə verilmiş tezisləri genişləndirməklə danışır. | Tap. **d** (D.) |
| Sözü izah etmək üçün cümlədə işlədir, lüğəvi izahla uyğunluğunu müəyyən edir. | Tap. **a** (D.) |
| Mətnlə bağlı səbəb-nəticə əlaqəsi cədvəlini tamamlayır. | Tap. **b** (İ.D.) |

## 2-ci dərs. Fiziki məşqlər və insan orqanizmi

• Dərslik: səh. 61 • İş dəftəri: səh. 39

**Təlim məqsədləri**

**1.** Müsahibə almaq üçün mövzuya uyğun suallar tərtib edir **(st. 5-1.2.1).**
**2.** Əldə etdiyi məlumatları ümumiləşdirərək təqdimat edir **(st. 5-1.3.2).**
**3.** Sözün verilmiş izahlarla uyğunluğunu müəyyən edir **(st. 5-2.1.3).**

### Danışma

5-1.2.1. **Tapşırıq a (dərslik).** Əvvəlcə şagirdlər “Fiziki məşqlər və insan orqanizmi” mətninin mövzusu ilə bağlı almaq istədikləri əlavə məlumatları qeyd edirlər və suallar hazırlayırlar. Tapşırığın şərtinə əsasən şagirdlərdən müəllimlərlə birlikdə mətbuat konfransı təşkil etmək tələb olunur. Müəllim şagirdlərin diqqətini təlimata yönəldir.

5-1.3.2. **Tapşırıq b (dərslik).** Şagirdlər mövzu üzrə əldə etdikləri bilgiləri müzakirə edir, vacib hesab etdikləri məlumatları qeyd edirlər. Bu bilgilər və konfransın materialları əsasında təqdimatlar hazırlayırlar.

### Söz ehtiyatı

5-2.1.3. **Tapşırıq a (iş dəftəri). Krosvordun cavabı:**

Yuxarıdan aşağı: 1. ağciyər; 2. qan; 5. əzələ; 6. ürək.

Soldan-sağa: 3. bağırsaq; 4. oksigen; 7. tənəffüs; 8. həzm.

**Tapşırıq b (iş dəftəri).** “Ağciyər” sözünün 2 mənada cümlələrdə işlədilməsi tələb olunur: 1) tənəffüs orqanı kimi; 2) qorxaq, cəsarətsiz, aciz.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müsahibə almaq üçün mövzuya uyğun suallar tərtib edir. | Tap. **a** (D.) |
| Əldə etdiyi məlumatları ümumiləşdirərək təqdimat edir. | Tap. **b** (D.) |
| Sözü izah etmək üçün cümlədə işlədir, lüğəvi izahla uyğunluğunu müəyyən edir. | Tap. **b** (İ.D.) |

## 3-cü dərs. İdman və sağlamlıq

• Dərslik: səh. 61 • İş dəftəri: səh. 40

**Təlim məqsədləri**

**1.** Sosial mövzuda çağırış xarakterli poster hazırlayır **(st. 5-3.2.3).**
**2.** Mətnin tərkib hissələrini müəyyənləşdirir **(st. 5-2.3.3).**
**3.** Müəllifin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir **(st. 5-2.3.2).**

### Mövzuya yönəltmə

Müəllim aşağıdakı sualları verməklə şagirdlərin diqqətini mövzuya yönəldə bilər:

– Siz sağlam olmaq üçün nə edirsiniz?
– Hansı idman növləri ilə maraqlanırsınız?
– Özünüz hansı idman növü ilə məşğul olursunuz?

**Müəllimin nəzərinə!** Tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlərin diqqəti **“Qlossari”** rubrikasında verilmiş sözlərin izahına yönəldilir.

### Yazı

5-3.2.3. **Tapşırıq a (dərslik).** Müəllim şagirdlərin diqqətini rubrikada poster (plakat) haqqında verilmiş məlumata yönəldir. Şagirdlər posterin tərtibi üzrə tövsiyələri oxuyurlar. Bu

tövsiyələr əsasında onlar mövzuya uyğun poster hazırlayırlar.

**Oxuyub-qavrama**

**5-2.3.3. Tapşırıq a (iş dəftəri).** Yazının məzmunu təxminən belə ola bilər:

Şəkildə həzm sisteminə aid orqanlar təsvir olunur. Biz təbiət dərsində öyrənmişik ki, mədə əzələli orqandır. Qida mədədə həzm olunur. Daha sonra qida qalıqları nazik bağırsağa ötürülür. Nazik bağırsaqdan həmin qalıqlar yoğun bağırsağa keçir. Yoğun bağırsağa nisbətən nazik bağırsaq bir qədər uzundur.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

Ağciyər cüt orqandır və döş qəfəsində yerləşir. – 3-cü hissə

Daim fəal hərəkət etmək normal çəkini saxlamağa imkan verir. – 2-ci hissə

Qan damarları arteriya, vena və kapilyarlara bölünür. – 1-ci hissə

İdmanla məşğul olanda sümüklər daha da möhkəmlənir. – 4-cü hissə

**5-2.3.2. Tapşırıq c (iş dəftəri).** Cavab:

Sağlam bədəndə sağlam ruh olar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və vizual məlumatlardan ibarət reklam materialı (poster) hazırlayır. | Tap. **a** (D.) |
| Mətnin tərkib hissələrini müəyyənləşdirir. | Tap. **a, b** (İ.D.) |

## 4-cü dərs. Təsriflənməyən feillər. Məsdər

• Dərslik: səh. 62-63 • İş dəftəri: səh. 41

**Təlim məqsədləri**

**1.** Məsdərin qrammatik xüsusiyyətlərini izah edir (st. 5-4.2.1).

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqdakı fərqləndirilmiş feilləri müqayisə edirlər və şəxsə görə dəyişməyən feili tapırlar. Bu tapşırıq şagirdlərə aşağı siniflərdə feilin şəxsə və zamana görə dəyişməsi haqqında aldıqları bilikləri xatırlatmaq məqsədi daşıyır.

Cavab: oxuyub

**Dil qaydaları**

**5-4.2.1. “Yadda saxla” rubrikası.** Məlumdur ki, şəxsə görə dəyişən feillər təsriflənən (dəyişən) feillər adlanır. Lakin elə feillər də var ki, şəxsə görə dəyişmir. Müəllim şəxsə görə dəyişməyən feillərin təsriflənməyən feillər adlandığını qeyd edir. Bildirir ki, bunlar feillə yanaşı, başqa nitq hissələrinin qrammatik xüsusiyyətlərini də daşıyır.

**Tapşırıq b (dərslik), a (iş dəftəri).** Bu tapşırıqlar qazanılmış biliyin tətbiq olunmasına xidmət edir. **b** tapşırığında nöqtələrin yerinə təsriflənməyən feillər yazmaqla cümləmləri tamamlamaq və həmin sözlərin hansı suala cavab verdiyi müəyyən etmək lazımdır.

Cavab:

1. Yaylağa gedən yol sıx meşəlikdən keçirdi.
2. Biz evə qayıdanda yağış yağırdı.
3. Bir vacib məsələ barədə sizinlə məsləhətləşmək istəyirəm.
4. Qalib gələn komandaya mükafat veriləcək.

**a** tapşırığında verilmiş cümlələrdə təsriflənməyən feillərin altından xətt çəkmək lazımdır.

Cavab:

1. Məktəbin direktoru uşaqları salamlayaraq təbrik etdi.
2. Yaşadığımız küçə şəhərin mərkəzindədir.
3. Yaz gəlincə ağaclar yaşıl donunu geyindi.
4. Oxumaq, təhsil almaq çox vacibdir.
5. Havalar soyuyanda ayı qış yuxusuna gedir.

**“Yadda saxla” rubrikası.** Müəllim hərəkətin adını bildirən sözlərin məsdər olduğunu bildirir, məsdərin həm feilin, həm də ismin xüsusiyyətlərini daşımasını qeyd edir.

**Tapşırıq c, ç (dərslik).** Tapşırıqlar şagirdlərin məsdər haqqında qazandıqları biliklərin tətbiqinə yönəldilib.

**c tapşırığının cavabı:** fərəhlənmək, gözləmək, yaranmaq, bağlamaq, toplamaq, inanmaq, yazmaq.

**ç tapşırığının cavabı:**

1. Uzaq səmada ulduzlar parıldamağa başlayırdı.
2. Açıq havada gəzməyin faydası çoxdur.
3. Sevinc bağçadakı güllərə qulluq etməkdən

zövq alırdı.

4. Bu məsələ haqqında danışmağı özünə borc bilirdi.

5. Belə cavab verməkdə çox haqlı idi.

6. Hazırlaşmaq çox vaxt tələb edəcək.

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər müxtəlif zamanlarda verilmiş feilləri məsdərə çevirib yazırlar.

Cavab: 1. – çəkməyi, olmaq, çalışmaq; 2. – çıxmaq, tutmaq; 3. – əkmək, sevmək, qorumaq.

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər feillərə məsdər və hal şəkilçilərini əlavə etməklə məsdərlərin ismin hansı halında işlənməsini tapırlar.

Cavab: 1. – baxmağa; 2. – qaçmağın; 3. – saymağı; 4. – işləməkdən; 5. – qalxmaq; 6. – çalışmaqda.

**Tapşırıq d (dərslik).** Burada şagirdlər məsdərlərə neçənci şəxs mənsubiyyət şəkilçilərinin artırıldığını göstərirlər.

Cavab: 1. – 1-ci şəxsin təki; 2. – 3-cü şəxsin təki; 3. – 1-ci şəxsin cəmi; 4. – 2-ci şəxsin cəmi; 5. – 2-ci şəxsin təki.

**Tapşırıq e (dərslik).** Nöqtələrin yerinə məsdərlər əlavə etmək və onları müvafiq mənsubiyyət şəkilçisi ilə işlətməklə cümlələri tamamlamaq tələb olunur.

Cavab: 1. gecikməyi; 2. gülməyin; 3. boyamağımız; 4. sevinməyiniz; 5. sınması.

**Tapşırıq ə, f (dərslik), ç (iş dəftəri).** Şagirdlərin mövzu üzrə bilik və bacarıqları inkişaf etdirilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin məsdər formasını zaman və şəxs şəkilçili feillərdən fərqləndirir, ümumi qrammatik mənasını müəyyən edir. | Dərslik və iş dəftərindəki tapşırıqlar |

# 2-ci fəsil

## 1-ci dərs. Çempion ola bilərəm?

• Dərslik: səh. 64-66 • İş dəftəri: səh. 42

**Təlim məqsədləri**

**1.** Müzakirədə səslənən fikirləri əlavə bilikləri ilə müqayisə edir və problemə münasibət bildirir **(st. 5-1.2.2).**

**2.** Çoxmənalı sözün mətndəki mənasını digər mənalarından fərqləndirir **(st. 5-2.1.3).**

**3.** Mətndəki fikirlərin hansı faktlarla əsaslandırıldığını müəyyən edir **(st. 5-2.3.2).**

**4.** Mətnin tərkib hissələrini (giriş, əsas hissə, sonluq) müəyyənləşdirir **(st. 5-2.3.3).**

**5.** Mətndəki obrazla bağlı məlumatlar əsasında obraz xəritəsi tərtib edir **(st. 5-2.3.1).**

### Mövzuya yönəltmə

"Çempion ola bilərəm?" mətninin mövzusuna diqqət yönəltmək üçün şagirdlərin aşağı siniflərdə keçdikləri mətnlər xatırladılır. Şagirdlər "Uğurun sirri" (2-ci sinif), "Nikbinlik" (3-cü sinif), "Özünə inan" (4-cü sinif) mətnlərinin qəhrəmanlarının ortaq cəhətini müəyyənləşdirirlər. Onların həyatda uğur qazanmalarının səbəbini xarakterlərindəki əzmkarlıqla, özünəinam hissinin güclü olması ilə izah edirlər. Bundan əlavə, müəllim Paralimpiya çempionlarımız haqqında videolar nümayiş etdirə bilər.

### Danışma

5-1.2.2. **Tapşırıq a (dərslik).** Şagirdlər onlara ünvanlanan sualları cavablandırırlar. Onlar Paralimpiya yarışları barədə bildiklərini yada salırlar, bu yarışlarla adi idman yarışları arasındakı fərqi izah edirlər. Tapşırığın məqsədi şagirdlərin fikir yürütmə bacarığını inkişaf etdirməkdir.

### Oxuyub-anlama

**Tapşırıq b (dərslik).** Sonra şagirdlərin diqqəti mətnə aid şəkillərə, yarımbaşlıqlara, "Söz boğçası"na yönəldilir. Şagirdlər tapşırığın şərtinə əsasən yarımbaşlıqları oxuyur və şəkillərə baxırlar. Mətnin növünü müəyyən edirlər. Şagirdlər mətnin struktur elementlərini nəzərdən keçirirlər. Məqsəd şagirdlərdə oxuyacaqları mətnə maraq oyatmaqdır.

### Oxu

Şagirdlər mətni növbəli şəkildə səsli oxuyurlar. Paralel olaraq müəllim ifadə olunan fikirləri

şərh edir. Mətni anladıqlarını müəyyən etmək üçün müəllim mətnin məzmunu ilə bağlı suallar verir.

**Söz ehtiyatı**

**"Söz boğçası" rubrikasındakı sözlərin izahı:**

*hüquqşünas* – hüquqşünaslıq mütəxəssisi; hüquqçu

*israrlı* – dediyindən dönməyən; inadlı

*depressiya* – sevinc əhvali-ruhiyyəsinin, nikbinliyin, ətraf aləmə marağın itməsi

*dəf etmək* – maneəni keçmək, ortadan qaldırmaq

**5-2.1.3. Tapşırıq c (dərslik)**

Cavab: 2. – Ana Nərminin yaxşı şəkillər çəkdiyini görüb onu rəsm dərnəyinə yazdırdı.

**Tapşırıq ç (dərslik)**

Cavab: a. Topu boş qapıya yönəldə bilməyən futbolçu stres keçirdi.

b. Uzun müddət səhvini unuda bilməyən futbolçu depressiyaya düşdü.

**Oxuyub-anlama**

**5-2.3.2. Tapşırıq d (dərslik).** Şagirdlər mətnlə bağlı faktoloji sualları cavablandırırlar.

Cavab:

1. Şəhanənin valideynləri onun idmançı olması ilə niyə razılaşdılar?

3. Şəhanə nə üçün depressiyaya düşdü?

**Müəllimin nəzərinə!** Dördüncü sualla bağlı şagirdlərə məlumat verilməsi tövsiyə olunur. 2020-ci il paralimpiya oyunları COVİD-19 pandemiyası səbəbindən 2021-ci ildə keçirilmişdir.

**Tapşırıq e (dərslik).** Şagirdlər təxminən bu məzmunda cavab verə bilərlər:

*Şəhanənin gözləri getdikcə zəifləyirdi. Yarışların birində çiyni möhkəm zədələnmişdi. Şəhanənin özünəinamı azalmışdı, əhvalı yaxşı deyildi. Böyük idmanda qələbələr qazanan Şəhanə paralimpiyaçı olmağa da utanırdı. Düşünürdü ki, daha heç kəs onu sağlam və güclü idmançı hesab etməyəcək.*

**5-2.3.3. Tapşırıq ə (dərslik)**

**Müəllimin nəzərinə!** Şagirdlərə mətnin hissələri haqqında biliklərini xatırlatmaq lazımdır.

**Şagirdlər təxminən bu məzmunda cavab verə bilərlər:**

1. Girişdə deyilir ki, Şəhanənin valideynləri onu idmana yazdırmaq istəmirlər. Amma o, çempion olur.

2. Mətnin əsas hissəsi bu yarımbaşlıqlardan ibarətdir: "Şəhanənin inadkarlığı", "Həkim: "Bu problemin həlli yoxdur", "Artıq idmanlıq deyiləm", "Olimpiyadan Paralimpiyaya". Sonluq hissədə əsas fikir budur ki, insan iradəli, daxilən güclü olmalıdır, ruhdan düşməməlidir, özünə inanmalıdır.

**5-2.3.1. Tapşırıq a (iş dəftəri).** Şagirdlər "Çempion ola bilərəm" mətninin baş qəhrəmanı Şəhanəyə aid obraz xəritəsini tamamlamaqla onu xarakterizə edirlər. Tapşırıq şagirdlərdə obrazlar xəritəsinin hazırlanması bacarığının möhkəmləndirilməsinə xidmət edir.

**Müəllimin nəzərinə!** Dərslikdə verilmiş e və ə tapşırıqlarının icrası bu tapşırığın asanlıqla yerinə yetirilməsinə zəmin yaradır.

**"Çempion ola bilərəm?"** mətninə aid obraz xəritəsi təxminən belə ola bilər:

**Obrazın təqdimatı:** Şəhanə paracüdoçudur. Olimpiya çempionudur.

**Xarakteri:** 1. inadkar; 2. mübariz

**Əsaslandırma:** Şəhanə israrla idmançı olmaq istəyir. Valideynlərini çətinliklə razı salır. Məqsədinə çatmaq üçün daim mübarizə aparır.

**Hissləri:**

1. Xəstəliyi güclənəndə depressiyaya düşür. Fikirləşir ki, idmanla vidalaşmalıdır.

2. Valideynlərinin, müəlliminin dəstəyi onu sevindirir. Bundan ruhlanır, yenə yarışlarda qalib gəlir.

**Obraza münasibətim:** Çətinliklərə baxmayaraq, yolundan dönmür. Özünəinamı onu qələbələrə aparır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı səslənən problemlərə münasibət bildirir. | Tap. a (D.) |
| Sözü izah etmək üçün cümlədə işlədir, lüğəvi izahla uyğunluğunu müəyyən edir. | Tap. c, ç (D.) |
| Mətnin tərkib hissələrini (giriş, əsas hissə, sonluq) müəyyən edir. | Tap. ə (D.) |

| Obrazlar xəritəsi tərtib edir. | Tap. **a** (İ.D.) |
|---|---|

## 2-ci dərs. Çempion ola bilərəm?

• Dərslik: səh. 66

**Təlim məqsədləri**

**1.** Müzakirədə səslənən fikirləri əlavə bilikləri ilə müqayisə edir və problemə münasibət bildirir **(st. 5-1.2.2).**
**2.** Mətndəki obrazlardan birinə məktub yazır **(st. 5-3.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim **"Çempion ola bilərəm?"** mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

– Mətndə nə barədə danışılırdı?
– Mətndə əsas qəhrəman kimdir?

**Danışma**

**5-1.2.2. Tapşırıq a (dərslik).** Müəllim sinfin səviyyəsindən asılı olaraq debat üçün ayrılmış vaxt və qaydaları müəyyənləşdirir, uyğun təlimat verir. 2 qrup müəyyənləşdirilir və mövzular təqdim edilir:

**I qrup:** Qızların əlbəyaxa döyüş növləri ilə məşğul olması məqsədəuyğun deyil.

**II qrup:** Qızlar da əlbəyaxa döyüş növləri ilə məşğul ola bilərlər.

Qruplar fikirləri əsaslandırmaq üçün arqumentlər müəyyənləşdirirlər.

**Birinci qrup belə arqumentlər gətirə bilər:**

Biz hesab edirik ki, qızlar əlbəyaxa döyüş növləri ilə məşğul olmamalıdır.

1. Belə döyüş növləri oğlanlar üçündür.
2. Qızlar üçün çətin olar.
3. Bu idman növü qızları kobudlaşdıra bilər.

**Digər qrup əks-arqumentlər müəyyənləşdirir:**

Biz hesab edirik ki, qızlar belə idman növləri ilə məşğul olmalıdır.

1. Özlərini müdafiə edə bilərlər.
2. Daha çevik, güclü ola bilərlər.
3. Müasir dövrdə qızlar da oğlanlar üçün olan bir çox idman növü ilə məşğul olurlar.

**Yazı**

**5-3.2.2. Tapşırıq b (dərslik).** Şagirdlər təxminən bu məzmunda məktub yaza bilərlər:

*Salam, Şəhanə, necəsən? Mənim adım Ləmandır. İdmanı çox sevirəm. Özüm idmançı olmasam da, müxtəlif yarışları izləyirəm. Sənin də iştirak etdiyin yarışlarda olmuşam. Həyat hekayənlə də tanışam. Çox şadam ki, sən paralimpiyaçı kimi yola davam edirsən. Sənin bir daha Paralimpiya çempionu olmağını çox arzulayıram. İnanıram ki, növbəti dəfə də bu titulu qazanacaqsan. Sənə uğurlar!*

*Hörmətlə, Ləman*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə və ya debat zamanı tərəflərin fikirləri ilə bağlı qeydlər götürür. | Tap. **a** (D.) |
| Dinlədiyi fikirlərlə bağlı arqument və əks-arqumentlər gətirir. | Tap. **a** (D.) |
| Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir. | Tap. **b** (D.) |

## 3-cü dərs. Paralimpiyanın tarixindən

• Dərslik: səh. 67 • İş dəftəri: səh. 43

**Təlim məqsədləri**

**1.** Qeyd götürməklə mətni oxuyur **(st. 5-2.1.2).**
**2.** Mətni tərtib etdiyi plan və götürdüyü qeydlər əsasında nəql edir **(st. 5-1.3.1).**
**3.** Oxuduğu mətnləri növü, mövzusu, məzmunu və ideyasına görə müqayisə edir **(st. 5-2.3.5).**
**4.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**
**5.** Mətni oxuyarkən rast gəldiyi yeni söz və ya ifadəni cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir **(st. 5-2.1.3).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə yenə Paralimpiya mövzusu ilə bağlı suallar verə bilər. Mətnin oxunmasından əvvəl müxtəlif illərdə keçirilən Paralimpiya oyunlarına dair, habelə Azərbaycan Milli Paralimpiya Komitəsinin fəaliyyəti ilə bağlı videolar nümayiş etdirilməsi məqsədəuyğun olar.

**Söz ehtiyatı**

**"Söz boğçası" rubrikası.** Bu rubrikada verilmiş sözlərin izahı:

*təşəbbüs* – bir işə başlama; hər hansı bir işdə rəhbər rol, birincilik, başçılıq

*status* – hüquqi vəziyyət

**Oxu. Oxuyub-anlama**

**5-2.1.2. Tapşırıq a (dərslik).** "Paralimpiyanın tarixindən" mətni verilmiş müddət ərzində səssiz oxunur. Şagirdlərə tapşırılır ki, mətnin əsas ideyasını əks etdirən məqamları qeyd etsinlər və açar sözləri çıxarsınlar.

Cavab: paralimpiya, fiziki məhdudiyyət, Lüdviq Quttman, Stok Mandevil.

**5-2.3.5. Tapşırıq a (iş dəftəri)**

Cavab: 1 – A; 2 – B; 3 – A; 4 – C; 5 – B.

**5-2.1.2. Tapşırıq b (dərslik).** Bu tapşırığı yerinə yetirməzdən əvvəl müəllim şagirdlərin diqqətini "Qeydgötürmə" üzrə tövsiyələrə yönəldir. Tapşırıq oxuyub-qavrama, mətnin məzmunu, strukturu üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir. Eyni zamanda şagirdlərdə təhliletmə və qruplaşdırma bacarıqlarını inkişaf etdirir. Daha sonra şagirdlər götürdükləri qeydlər əsasında mətnin planını tərtib edirlər.

**5-2.1.2. Tapşırıq b, c (iş dəftəri).** Tapşırıqlar şagirdlərin "Paralimpiyanın tarixindən" mətnini nə qədər diqqətlə oxuduqlarını yoxlamağa yönəlmişdir.

**b tapşırığının düzgün cavabları:**

Olimpiya hərəkatının təşəbbüskarı Lüdviq Quttmandır.

1960-cı ildə Stok Mandevil oyunları hələ beynəlxalq status almamışdı.

**c tapşırığının düzgün cavabları:**

1 – c; 2 – b; 3 – ç; 4 – a.

**Danışma**

**5-1.3.1. Tapşırıq c (dərslik).** Şagirdlər tərtib etdikləri plan və götürdükləri qeydlər əsasında mətni nəql edirlər.

**Yazı**

**5-2.1.3. Tapşırıq ç (iş dəftəri)**

Cavab:

1. Müəllim uşaqların yarışa qoşulmaq təşəbbüsünü alqışladı.

2. Komandamız yarışlarda xüsusi statusda iştirak edəcək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qeyd götürməklə mətni oxuyur. | Tap. a, b (D.) |
| Mətni tərtib etdiyi plan və götürdüyü qeydlər əsasında nəql edir. | Tap. c (D.) |
| Müxtəlif mətnləri mövzu, məzmun baxımından müqayisə edir. | Tap. a (İ.D.) |
| Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir. | Tap. b (İ.D.) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. c (İ.D.) |
| Sözü izah etmək üçün cümlədə işlədir. | Tap. ç (İ.D.) |

## 4-cü dərs. Təsriflənməyən feillər. Feili sifət

• Dərslik: səh. 68-69 • İş dəftəri: səh. 44

**Təlim məqsədləri**

**1.** Feili sifətin qrammatik xüsusiyyətlərini müəyyən edir **(st. 5-4.2.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər verilmiş cümlələrdə *hansı?* sualına cavab verən sözləri seçirlər. Sonra həmin sözlərin aid olduğu nitq hissəsini müəyyən edirlər.

Cavab: 1 – uçan; 2 – yarışan; 3 – baxdığım.

**Dil qaydaları**

**5-4.2.1. "Yadda saxla" rubrikası.** Müəllim bildirir ki, feili sifət feilin təsriflənməyən formalarından biridir. Feili sifət həm sifətin, həm də feilin xüsusiyyətlərini daşıyır. Başqa sözlə, sifət kimi hansı sualına cavab verir. Feil kimi hərəkət bildirir, təsdiq və inkarda olur.

**Tapşırıq b, d (dərslik).** Tapşırıqlar şagirdlərin təsriflənməyən feilləri fərqləndirmək bacarığının inkişafına yönəldilib.

**b tapşırığının cavabı:** 1. – gördüyün; 2. – yük-

lənmiş; 3. – içməli; 4. – görüləsi.

**d tapşırığının cavabı:** a

**Tapşırıq c (dərslik)**

Cavab: 1. – gəzən; 2. – soyumuş; 3. – oxuduğumuz; 4. – kəsilməli; 5. – veriləcək.

**Tapşırıq ç (dərslik)**

Cavab: 4. Zəhmət çəkməyən adam rahatlığın qədrini bilməz.

**Tapşırıq a, c, ç (iş dəftəri).** Tapşırıqlar feili sifəti müəyyənləşdirmək bacarığının inkişafına yönəldilib.

**a** tapşırığında "görüləcək" və "alınacaq" sözlərinin cümlədə sifət və feil kimi işlədilməsi tələb olunur.

**c tapşırığının cavabı:**

1. Nigarın əzbərlədiyi şeir hamının xoşuna gəldi.
2. Mağazadan alınacaq ərzaqların siyahısını yazmalıyam.
3. Qəhrəmancasına döyüşən ordumuz qalib gəldi.
4. Məclisdə çağırılmamış qonaqlar da vardı.
5. Ürəyimizdə deyiləsi sözlər çoxdur.

**ç** tapşırığında feilləri feili sifətə çevirərək cümlədə işlədilməsi tələb olunur.

**"Yadda saxla" rubrikası.** Müəllim şagirdlərin diqqətini feili sifətlə feildən düzələn sifətin fərqləndirilməsinə yönəldir. O göstərir ki, bu söz qrupları arasında əsas fərq düzəltmə sifətlərin inkarlıq şəkilçisi qəbul edə bilməməsidir.

**Tapşırıq e (dərslik).** Bu tapşırıq yuxarıda verilmiş qaydanın tətbiqini əks etdirir.

Solmuş – solmamış, qorxmuş – qorxmamış, ağlayan – ağlamayan.

**Tapşırıq b (iş dəftəri)**

Cavab: d. utancaq; b. qaçan.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feili sifəti feilin təsriflənən formalarından fərqləndirir, ümumi qrammatik mənasını müəyyən edir. | Dərslik və iş dəftərindəki tapşırıqlar |

## 5-ci dərs. Feili bağlama

• Dərslik: səh. 69 • İş dəftəri: səh. 45

**Təlim məqsədləri**

**1.** Feili bağlamanın qrammatik xüsusiyyətlərini müəyyən edir **(st. 5-4.2.1).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik)**

Cavab: 1 – təyyarə görünəndə; 2 – səhər.

### Dil qaydaları

**5-4.2.1. "Yadda saxla" rubrikası.** Burada təsriflənməyən feillərdən biri olan feili bağlama haqqında məlumat verilir, onun feilin və zərfin xüsusiyyətlərini daşıması göstərilir.

**Tapşırıq b (dərslik)**

Cavab: 1 – gələndə; 2 – məğlub olub; 3 – düşünmədən; 4 – axşam düşəndə; 5 – görüncə.

**Tapşırıq b (iş dəftəri)**

Cavab:

2. Gələndə mənə dondurma alarsan.
4. Filmi izləyərkən çox həyəcanlandım.
5. Xəbər tutanda çox təəssüfləndim.

**Tapşırıq c (dərslik)**

Cavab: 1 – gülüb; 2 – getdikcə; 3 – dayanmadan; 4 – çıxanda.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırmaq lazımdır ki, "qayıdanda" sözündə *t-d* əvəzlənməsi baş verir. *T* kar samiti iki saitin arasında işləndiyi üçün cingiltili samitlə əvəzlənir. Bu hadisənin baş verdiyi feillərdən misal göstərmək olar.

**Tapşırıq a (iş dəftəri)**

Cavab: 1. Qida maddələri həzm olunaraq qana sorulur.

2. İnsan nəfəs alarkən hava ağciyərlərə daxil olur.

3. Əzələlər boşalanda uzanır və nazikləşir.

**Tapşırıq c (iş dəftəri)**

Cavab: əkdiyimiz – feili sifət – hansı?
düzəltmək – məsdər – nə etmək?
işıqlananda – feili bağlama – nə vaxt?
çimmək – məsdər – nə etmək?
görüşməyən – feili sifət – hansı?
qayıdarkən – feili bağlama – nə vaxt?

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feili bağlamanın qrammatik xüsusiyyətlərini müəyyən edir. | Dərslik və iş dəftərindəki tapşırıqlar |

# 3-cü fəsil

## 1-ci dərs. İdmanda uduzanda nə edək?

• Dərslik: səh. 70-71 • İş dəftəri: səh. 46

**Təlim məqsədləri**

**1.** Müzakirədə səslənən problemlərə münasibət bildirir **(st. 5-1.2.2).**
**2.** Müəllifin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir **(st. 5-2.3.2).**
**3.** Mətni oxuyarkən rast gəldiyi yeni söz və ya ifadəni cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir **(st. 5-2.1.3).**
**4.** Mətndə ifadə olunmuş məlumatları müəyyənləşdirir **(st. 5-2.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim sinfə müraciət edir:

– Uşaqlar, sizcə, uğur qazanmaq üçün nə etmək lazımdır?

Şagirdlər təxminən belə cavab verə bilərlər:

1. qarşıya məqsəd qoymaq
2. çox çalışmaq

**Danışma**

**5-1.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər xoşladıqları idmançılar və onların həyatı barədə bildiklərini danışırlar.

**Tapşırıq b (dərslik).** Yarışlarda iştirak edən şagirdlər öz təəssüratlarını bölüşürlər, məğlubiyyətlə bağlı hisslərindən bəhs edirlər.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırmaq lazımdır ki, mətn mühakimə xarakterlidir. Mətnin sonluğu ümumiləşdirici forma daşımalıdır. Bu hissədə mətnin əsas ideyası öz əksini tapmalıdır.

**Söz ehtiyatı**

**"Söz boğçası" rubrikası.** Burada verilmiş sözlərin izahı:

*karyera* – vəzifədə və ya müxtəlif fəaliyyət sahələrində irəliləmə, uğur qazanma

*potensial* – bir işi görmək üçün ehtiyatda olan, istifadə olunmamış enerji, güc, qüvvə, ağıl, vasitələr

**Oxu. Oxuyub-anlama**

Şagirdlər mətni səsli oxuyurlar. Müəllim tapşırır ki, şagirdlər oxuduqca mətndən tanış ol-

mayan sözləri qeyd etsinlər. Oxu başa çatdıqdan sonra şagirdlər mənasını anlamaqda çətinlik çəkdikləri sözləri səsləndirirlər. Sonra müəllimin köməyi ilə onların mənasını izah edib lüğətlə yoxlayırlar.

**5-2.3.2. Tapşırıq c (dərslik).** Şagirdlər mətni oxuduqdan sonra müəllifin əsas məqsədini müəyyən etməyə çalışırlar. Cavab: c

**Danışma**

**5-1.2.2. Tapşırıq ç (dərslik).** Şagirdlərdən mətnin başlığında qoyulan suala müəllifin verdiyi cavabı səsləndirmək tələb olunur. Onlar təxminən bu məzmunda cavab verə bilərlər:

*Hər bir yarışda udmaq da olar, uduzmaq da. Amma uduzmaq uğursuzluq deyil. Qarşına məqsəd qoyub növbəti dəfələrdə qalib gələ bilərsən. Məqsədə çatmaq üçün çox çalışmaq lazımdır.*

**Tapşırıq d (dərslik).** Şagirdlər müəllifin fikrinə münasibət bildirərək mövzu ilə bağlı öz mövqelərini açıqlayırlar.

**Tapşırıq e (dərslik).** Şagirdlər təxminən bu məzmunda cavab verə bilərlər:

*Müəllif göstərir ki, yarışda ikinci yer tutduğuma görə çox dilxor olmuşdum. Sonra isə yazır ki, yarışda neçənci yer tutmağın heç bir fərqi yoxdur. Bu fikirlər bir-birinə ziddir. Məncə, müəllif yarışda sadəcə iştirak etməyi daha vacib sayır.*

**5-2.1.3. Tapşırıq a (iş dəftəri).** Şagirdlər verilmiş sözləri uyğun cümlələrdə nöqtələrin yerinə yazırlar. Cavab:

1. Bu futbolçu idman karyerasına 17 yaşından başlayıb.
2. Mən qalib gəlmək üçün bütün potensialımdan istifadə edəcəyəm.
3. Bu məsələ ilə bağlı onun mühakimələri inandırıcı deyil.

**5-2.1.2. Tapşırıq b (iş dəftəri).** Cavab:

1 – qaçış

*Əsaslandırma:* Mən qaçanda çoxlu dövrələr etməliyəm. Bu, bəzən çox darıxdırıcı olur. Amma bilirəm ki, bunlar mənim daha sürətli qaçmağım üçün vacibdir.

2 – 12 yaşından

*Əsaslandırma:* İlk böyük yarışıma 12 yaşımda çıxdım.

3 – uduzmağa normal baxır.

*Əsaslandırma:* Hər kəs nədəsə uduzur və idmanda hansısa yarışı uduzmaq normaldır. Mənim idman karyeramda uduzduğum yarışlar çox olub. Əsl məğlubiyyət məşqlərdə və yarışlarda bacardığından az əmək sərf etməkdir.

**Tapşırıq c (iş dəftəri).**
Cavab: 2. İnsanları olduqları kimi qəbul edin.

**Tapşırıq ç (iş dəftəri).** Cavab: d

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı səslənən problemlərə münasibət bildirir. | Tap. a, b (D.) |
| Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq və s.) müəyyən edir. | Tap. c (D.) |
| Mətndə irəli sürülən fikri əsaslandıran arqumentləri müəyyən edir. | Tap. ç, d (D.); b (İ.D.) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır. | Tap. c (İ.D) |

## 2-ci dərs. İdmanda uduzanda nə edək?

• Dərslik: səh. 71-73 • İş dəftəri: səh. 47

**Təlim məqsədləri**

**1.** Oxunulmuş mətnləri əlaqələndirir, ümumiləşdirmə aparır **(st. 5-2.3.5).**
**2.** Mövzu ilə bağlı şəxsi mövqeyini bildirmək üçün esse yazır **(st. 5-3.2.2).**
**3.** Mətndəki faktları ümumiləşdirərək nəticə çıxarır **(st. 5-2.3.2).**

**Mövzuya yönəltmə**

Müəllim ötən dərsdə oxunan mətnlə bağlı frontal sorğu keçirir:

– Mətn kimin dilindən qələmə alınıb?
– Mətndə hansı fikirlər irəli sürülür?

**Oxuyub-anlama. Danışma**

**5-2.3.5. Tapşırıq a (dərslik).** Oxuduqları əsasında şagirdlər müəllif haqqında məlumat əldə edirlər. Aldıqları məlumatları müəllifin fikirləri ilə əlaqələndirirlər.

**Tapşırıq b (dərslik). Cavab təxminən belə ola bilər:**

*Kelli Holms 12 yaşından yarışlarda iştirak edir. Yarışlarda uğur qazanmayıb. Yalnız 34 yaşında Olimpiya çempionu olub. Deməli, müəllifin fikrincə, qarşıya məqsədlər qoymaq daha vacibdir.*

**Oxuyub-anlama**

**Tapşırıq c (dərslik).** Tapşırıqda verilmiş sitatlar səssiz oxunur. Şagirdlər bəyəndikləri sitatı seçirlər.

**5-2.3.2. Tapşırıq b (iş dəftəri)**

**Doğulduğu il:** 1970

**Doğulduğu yer:** İngiltərə

**İştirak etdiyi yarışlar:** Bir çox beynəlxalq yarışlar, 2004-cü ildə Afinada keçirilən Olimpiya oyunları.

**Əsas fikirləri:**

Qalib gəlməməyimiz heç də həmişə uğursuzluq deyil.

Qarşına məqsədlər qoymaq daha vacibdir.

Əgər diqqətini məqsədlərinə çatmağa yönəltsən, getdikcə nəticəni yaxşılaşdıracaqsan.

Qələbə bir göz qırpımında qazanılmır.

Zövq almadığın işdə qalib ola bilməzsən!

**Yazı**

**5-3.2.2. Tapşırıq a (iş dəftəri).** Şagirdlər mətndə müəllifin qaldırdığı problemlə bağlı öz fikirlərini yazırlar.

**Sual:** Yarışa çıxanda birinci olmağı məqsəd kimi qoymaq vacibdirmi?

Kelli Holmsun fikrincə,yarışda hər zaman birinci olmaq mümkün deyil. O, qarşıya qoyulan məqsədə çatmağı böyük nailiyyət hesab edir.

*Mənim fikrimcə, ............*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qeyri-bədii mətndəki əsas faktları müəyyən edir. | Tap. a, b (D.) |
| Mətndəki faktlardan çıxış edərək fərziyyələr irəli sürür. | Tap. c (D.) |
| Mətndə ifadə edilən fikirə öz münasibətini bildirir. | Tap. a (İ.D.) |

## 3-cü dərs. İdmançı xarakteri

• Dərslik: səh. 73 • İş dəftəri: səh. 48

**Təlim məqsədləri**

**1.** Əldə etdiyi məlumatlara münasibət bildirməklə kiçikhəcmli qeyri-bədii mətn yazır **(st. 5-3.2.2).**

**2.** Mətndəki faktları ümumiləşdirərək nəticə çıxarır **(st. 5-2.3.2).**

**Yazı**

**5-3.2.2. Tapşırıq a (dərslik).** Bu tapşırıq şagirdlərə aldıqları biliklərin tətbiqi üçün imkan yaradır. Şagirdlər keçən dərsdə oxuduqları sitatlardan istifadə edərək uyğun məzmunda mühakimə xarakterli mətn yazırlar.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırılmalıdır ki, mühakimə müəllifə fikrini daha aydın ifadə etməyə imkan verir. İrəli sürülmüş fikirlərlə arqumentlər arasında məntiqi əlaqə olmalıdır.

**5-2.3.2. Tapşırıq a (iş dəftəri).** Bu tapşırıqda aforizmlərdə irəli sürülən mühakimələri genişləndirərək cədvəli tamamlamaq tələb olunur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mühakimə və arqumentlərini əks etdirməklə kiçikhəcmli esse yazır. | Tap. a (D.) |
| Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır. | Tap. a (İ.D.) |

## **4-cü dərs.** Əvəzliyin məna növləri

• Dərslik: səh. 74-75 • İş dəftəri: səh. 49

**Təlim məqsədləri**

**1.** Əvəzliyin ümumi qrammatik mənalarını və növlərini müəyyən edir **(st. 5-4.2.1).**

**Mövzuya yönəltmə**

**5-4.2.1. Tapşırıq a (dərslik).** Şəxs əvəzlikləri haqqında bilgilərin möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər nöqtələrin yerinə uyğun şəxs əvəzliklərini yazırlar və seçimlərini əsaslandırırlar.

Cavab: 1 – mən; 2 – biz; 3 – siz.

**Tapşırıq b (dərslik).** Şagirdlər şəxs əvəzliklərini kontekstə görə yerində işlətmək bacarığına yiyələnirlər.

Cavab: 1. – sən, bizim; 2. – sən, mənim; 3. – mənim; 4. – siz, biz; 5. – o.

**Tapşırıq c (dərslik)**. Cavab: 1 – belə tədbirlər; 2 – o sinfin; 3 – bu xəbəri.

**Tapşırıq a (iş dəftəri)**

Cavab: 2. O bina keçən il tikilib.

**Müəllimin nəzərinə!** Bu tapşırıqda şagirdlər kontekstə görə “o” əvəzliyinin işarə, yoxsa şəxs əvəzliyi qismində iştirak etdiyini müəyyənləşdirirlər.

**Tapşırıq ç (iş dəftəri)**

Cavab: a. Vətənə belə oğullar gərəkdir.

**Tapşırıq ç (dərslik).** Cavab:

1. Onlar *kimi* şənliyə dəvət etmək istəyirlər?
2. Qatar *nə vaxt* yola düşür?
3. *Neçənci* sırada boş yer var?
4. Yarışda *hansı* idmançılar iştirak edəcəklər?
5. *Hara* yeni şagird gəldi.
6. Rəşad *necə* dostdur?
7. *Nə* bilik mənbəyidir?

**Tapşırıq c (iş dəftəri).** Cavab: d

**Tapşırıq d (dərslik).** Bu tapşırıq qeyri-müəyyən əvəzliklər haqqında məlumatın verilməsinə yönəldilib.

Cavab: 2-ci cümlədə

**“Yadda saxla” rubrikası.** Müəllim rubrikada qeyri-müəyyən əvəzliklər haqda verilən məlumatları şərh edir.

**Tapşırıq e (dərslik).** Cavab:

1. O *heç nə* başa düşməmişdi.
2. *Heç kəs* bilmədi ki, bu sözləri kim deyib.
3. *Biri* mənim sualıma cavab versin.
4. *Kimi* kitab oxuyur, *kimi* televizora baxırdı.

**Tapşırıq d (iş dəftəri).** Cavab: b

**Tapşırıq ə (dərslik).** Bu tapşırıq təyini əvəzliklər haqqında məlumatın verilməsinə yönəldilib.

Cavab: 1-ci cümlədə

**"Yadda saxla" rubrikası.** Müəllim təyini əvəzliklər barədə verilən məlumatları şərh edir.

**Tapşırıq f (dərslik).** Cavab: c

**Tapşırıq b, e (iş dəftəri).** Bu tapşırıqlar əvəzliklərin növlərini dəqiq müəyyənləşdirmək bacarıqlarının möhkəmlənməsinə yönəlib.

**b tapşırığının cavabı:** 1 – ç; 2 – a; 3 – b; 4 – c.

**e tapşırığının cavabı:** şəxs əvəzliyi – biz; işarə əvəzliyi – o; sual əvəzliyi – hansı; qeyri-müəyyən əvəzlik – hamı; təyini əvəzlik – hər

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əvəzliyin ümumi qrammatik mənalarını və növlərini muəyyən edir. | Dərslik və iş dəftərindəki tapşırıqlar |

# 4-cü fəsil

## 1-ci dərs. Marafon: Afinadan Bakıya

• Dərslik: səh. 76-78 • İş dəftəri: səh. 50

**Təlim məqsədləri**

**1.** Müzakirədə səslənən fikirləri əlavə biliklər ilə müqayisə edir **(st. 5-1.2.2).**

**2.** Kontekstdən çıxış edərək yeni rast gəldiyi ifadənin mənasını izah edir **(st. 5-2.1.3).**

**3.** Söz tərkibindəki morfemlərin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir **(st. 5-4.4.1).**

**4.** Xronoloji ardıcıllığı müəyyənləşdirir **(st. 5-2.1.2).**

**5.** Sözün məcazi mənasının yaranma yollarını izah edir **(st. 5-4.4.3).**

### Mövzuya yönəltmə

"Marafon: Afinadan Bakıya" mətninin mövzusuna diqqət yönəltmək üçün şagirdlərin aşağı siniflərdə keçdikləri mətnlər xatırladılır. Şagirdlər "Qələbə", "Qələbə xəbəri" (2-ci sinif) mətnləri ilə bu mətnin ortaq cəhətini müəyyənləşdirirlər.

### Danışma

**5-1.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər onlara ünvanlanan sualları cavablandırırlar. Onlar "marafon" sözünün mənşəyi, Marafon qaçışı və yarışları barədə bildiklərini yada salırlar. Tapşırığın məqsədi şagirdlərin fikiryürütmə bacarığını inkişaf etdirməkdir.

### Oxu

**"Marafon: Afinadan Bakıya" mətni.** Şagirdlər mətni növbə ilə səsli oxuyurlar. Oxu zamanı şagirdlər əvvəlcə tanış olmayan sözləri qeyd edirlər. Sonra onları kontekstə əsaslanaraq izah etməyə çalışır, daha sonra isə lüğət vasitəsilə və ya müəllimin köməyi ilə dəqiqləşdirirlər.

### Söz ehtiyatı

**5-2.1.3. Tapşırıq b (dərslik).** Şagirdlər kontekstə görə "stereotipi qırmaq" ifadəsini izah edirlər. Müəllim əvvəlcə stereotip sözünün mənasını xatırladır. Bildirir ki, bu söz "poliqrafiyada nəşrlərin çoxaldılması üçün hazırlanan qəlib" deməkdir. Amma bu söz məcazi mənada da işlədilir. Məhz bu baxımdan "stereotipi qırmaq" ifadəsi "uzunmüddətli sosial-tarixi təcrübə nəticəsində şüurlarda kök salmış, daşlaşmış, qəlibləşmiş şablon fikirlərdən əl çəkmək, uzaqlaşmaq" mənasında işlədilir, bir növ "qəlibdən çıxmaq" mənasını verir.

**5-4.4.1. Tapşırıq c (dərslik).** Bu tapşırıqda şagirdlərə "telepatiya" sözü xatırladılır. Müəllim şagirdlərin nəzərinə çatdırır ki, bu söz "hiss orqanlarının köməyi ilə fikir və duyğuların müəyyən məsafəyə ötürülməsi; məsafədən duyma" deməkdir. Şagirdlər tapşırıqda verilmiş məlumatlardan istifadə edərək "antipatiya" və "simpatiya" sözlərini izah edirlər.

Cavab: antipatiya – ikrah, nifrət; simpatiya – bir insana qarşı rəğbət, meyil, cazibə.

**Tapşırıq ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş "ultramikroskopik" və "ultramüasir" sözlərinin mənasına əsasən "ultramarafon" terminini izah edirlər. Onlar marafon məsafəsi haqqında bilgilərinə istinad edərək ultramarafon qaçışının 42 km-dən çox olduğu qənaətinə gəlirlər.

**5-4.4.3. Tapşırıq d (dərslik).** Tapşırıqda verilmiş cümlədə "marafon" sözü məcazi mənada işlənmişdir. Şagirdlər kontekstə görə "rəqs marafonu" ifadəsini uzunsürən, davamlı rəqs, yaxud rəqs yarışı kimi müəyyən edə bilərlər. Sonra isə şagirdlərdən marafon sözünü başqa bir məcazi mənada da cümlədə işlətmək tələb olunur. Məsələn, onlar "xeyriyyə marafonu" ifadəsini cümlədə işlədə bilərlər.

**5-2.1.3. Tapşırıq a (iş dəftəri).** Şagirdlər krosvordu həll etməklə mətndə rast gəldikləri yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

**Krosvordun cavabı:** 1. simpatiya; 2. pioner; 3. menecer; 4. çip; 5. xadim; 6. əcnəbi; 7. zona.

**5-2.1.2. Tapşırıq b (iş dəftəri)**

Cavab:

1896 – I Olimpiya oyunları
1967 – Boston Marafonu
1974 – Nyu-York Marafonu
2005 – Hamburq Marafonu
2016 – Bakı Marafonu

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirələrdə səslənən problemlərə münasibət bildirir. | Tap. **a** (D.) |
| Mətni oxuyarkən tanış olmadığı sözləri qeyd edir. | "Marafon: Afinadan Bakıya" mətni |
| Sözün həqiqi və məcazi mənalarını fərqləndirir. | Tap. **b**, **d** (D.) |
| Kontekstdən çıxış edərək sözün mənasını anladığını nümayiş etdirir. | Tap. **c**, **ç** (D.); **a** (İ.D.) |

## 2-ci dərs. Marafon: Afinadan Bakıya

• Dərslik: səh. 78 • İş dəftəri: səh. 51

**Təlim məqsədləri**

**1.** Mətnin məzmunu ilə bağlı doğru və ya yanlış fikirləri müəyyən edir **(st. 5-2.1.2).**

**2.** Mətnin tərkib hissələrini müəyyənləşdirir **(st. 5-2.3.3).**

**3.** Mətndəki fikirlərin hansı faktlarla əsaslandırıldığını müəyyən edir **(st. 5-2.3.2).**

**Mövzuya yönəltmə**

Müəllim keçən dərsdə oxunmuş "Marafon: Afinadan Bakıya" mətnini xatırlatmaq üçün frontal sorğu keçirir.

1. Marafon hansı şəhərlərdə keçirilib?
2. Niyə əvvəllər qadınlar marafonlarda iştirak etmirdi?
3. Necə oldu ki, Ketrin Svitzer marafona qatıla bildi?
4. Bakı Marafonunun marşrutu necədir?

**Oxuyub-anlama**

**5-2.1.2. Tapşırıq a (dərslik)**

Cavab: 1, 4, 6 – doğru; 2, 3, 5 – yanlış.

**5-2.3.3. Tapşırıq b (dərslik).** Şagirdlər cavabı belə əsaslandıra bilərlər:

"Klassik marafon yarışlarında qaçış məsafəsi təxminən 40-42 km olsa da, bu gün 10 km-dən çox məsafəyə istənilən qaçışa da marafon deyilir" cümləsi ilə başlayan abzas 2-ci hissə ola bilər.

**Tapşırıq c (dərslik).** Tapşırıq iki mərhələdə yerinə yetirilir. Şagirdlər mətni yenidən oxuyur, yarımbaşlıqlara ayırırlar.

**Müəllimin nəzərinə!** Yaxşı olar ki, şagirdlər mətni yarımbaşlıqlarla adlandıranda müəllim həmin yarımbaşlıqları lövhədə yazsın.

**Yarımbaşlıqlar təxminən belə ola bilər:**

1. Ənənəvi marafon yarışları
2. Qadınlar və marafon
3. Ketrin Svitzerin marafonda iştirakı
4. Bakı Marafonu
5. Bakı Marafonunun xüsusiyyətləri
6. Bakı Marafonunun şüarı

**Tapşırıq ç (dərslik).** Şagirdlər haşiyədə verilmiş məlumatdan istifadə edərək sualları belə cavablandıra bilərlər:

Qeyri-bədii mətndir. Müəllif oxucunun diqqətini çəkmək üçün məlumatı haşiyədə verib.

Daha sonra haşiyədəki məlumata ad vermək tələb olunur.

**Müəllimin nəzərinə!** "Diqqət et!" rubrikasında haşiyə haqqında olan məlumat şagirdlərin nəzərinə çatdırılır.

**Tapşırıq d (dərslik).** Şagirdlər cavabı təxminən belə əsaslandıra bilərlər:

*Svitzer elə soyaddır ki, onun daşıyıcısının qadın və ya kişi olduğu anlaşılmır. Ketrin qeydiyyatdan keçərkən adının baş hərfini və soyadını yazmışdı. Ona görə də qadın olduğunu heç kəs anlamamışdı.*

**5-2.3.2. Tapşırıq a (iş dəftəri).** Tapşırığın əsas məqsədi oxuyub-anlamanı, yazı bacarıqlarını möhkəmləndirməkdir. Məzmuna aid sualları cavablandırmaqla şagirdlər mətni mənimsədiklərini nümayiş etdirirlər.

**Cavablar təxminən belə ola bilər:**

1. Öz güclərini sınamaq üçün.
2. Ketrin Svitzer.
3. Çünki onların buna fiziki gücü çatmaz.
4. Olimpiya marafonlarında kişi və qadın idmançılar ayrı-ayrı komandalarda çıxış edir. Adi marafonlarda təkcə idmançılar yox, hamı iştirak edə bilər.
5. Çünki 21 km məsafəni əhatə edir.

**Tapşırıq b (iş dəftəri)**

Cavab: 1. ... çünki adını tam yazmamışdı. 2. ... idmançının marşrut boyu göstəricilərini izləmək, finiş xəttini keçərkən göstərdiyi nəticəni görmək

mümkün olsun.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qeyri-bədii mətndəki əsas faktları müəyyən edir. | Tap. **a** (D.); **a**, **b** (İ.D.) |
| Mətnin bitkin hissələrini yarımbaşlıqlarla adlandırır. | Tap. **c** (D.) |
| Mətndəki faktlardan çıxış edərək fərziyyələr irəli sürür. | Tap. **b**, **ç**, **d** (D.) |

## 3-cü dərs. Küləyə qalib gələnlər

• Dərslik: səh. 79 • İş dəftəri: səh. 52

**Təlim məqsədləri**

**1.** Qeyd götürməklə mətni oxuyur **(st. 5-2.1.2).**
**2.** İştirak etdiyi və ya şahidi olduğu tədbir, hadisə (ekskursiya və s.) haqqında reportaj yazır **(st. 5-3.2.1).**
**3.** Keçiriləcək tədbir haqqında elan tərtib edir **(st. 5-3.2.3).**

**Oxuyub-anlama**

**5-2.1.2. Tapşırıq a (dərslik).** "Küləyə qalib gələnlər" mətni səssiz oxunur. Şagirdlərə tapşırılır ki, mətnin əsas ideyasını əks etdirən məqamları qeyd etsinlər. Onlar **"Qlossari"** rubrikasında verilmiş "*reportaj*" sözünün mənası ilə tanış olurlar.

**Yazı**

**5-3.2.1. Tapşırıq b (dərslik).** Verilmiş təlimata əsasən şagirdlərdən reportaj hazırlanması tələb olunur.

**5-3.2.3. Tapşırıq a (iş dəftəri).** Bu tapşırıqda şagirdlərdən elan hazırlanması tələb olunur.

Şagirdlər ibtidai təhsildə elan, plakat, müsahibə ilə bağlı bilik və bacarıqlara yiyələnmişlər.

Müəllim şagirdlərə tövsiyələr verə bilər:

1. Elanın məzmunu aydın yazılmalıdır.
2. Tədbirin keçiriləcəyi vaxt və yer dəqiq göstərilməlidir.
3. Sonda tədbirin təşkilatçısı qeyd olunmalıdır. Elan təxminən aşağıdakı kimi ola bilər:

***ELAN***

*Hörmətli izləyicilər və marafonda iştirak etmək istəyənlər!*

*Sizi 16 aprel şənbə günü saat 10:00-da Dövlət Bayrağı Meydanında marafon öncəsi məşqlərə dəvət edirik!*

*Məşqdə qaçış zamanı necə nəfəs almaq, qaçışda addım növləri, fərdi qaçış proqramını hazırlamaq barədə danışılacaq, qidalanma məsləhətləri veriləcək.*

*Bakı Marafonunun Təşkilat Komitəsi*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qeyd götürməklə mətni oxuyur. | Tap. **a** (D.) |
| Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir. | Tap. **b** (D.) |
| Keçiriləcək tədbir haqqında elan tərtib edir. | Tap. **a** (İ.D.) |

## 4-cü dərs. İsimləşmə və sifətləşmə

• Dərslik: səh. 80-81 • İş dəftəri: səh. 53

**Təlim məqsədləri**

**1.** Cümlələrdə isimləşmiş və sifətləşmiş sözləri müəyyən edir **(st. 5-4.2.1).**

**Mövzuya yönəltmə**

Dərsin ilk tapşırığı vasitəsilə şagirdləri mövzuya yönəltmək olar.

**Tapşırıq a (dərslik).** İsim və sifət haqqında biliklərin möhkəmləndirilməsinə xidmət edir. Tapşırıqda verilən sözlərin cümlələrdə işlənməsi nəzərdən keçirilir. Şagirdlər həmin sözlərə sual verməklə hansı nitq hissəsinə aid olduğunu tapırlar.

**Dil qaydaları**

**5-4.2.1. "Yadda saxla" rubrikası.** Müəllim rubrikada verilən məlumatları şərh edir. O qeyd edir ki, bəzən sifətlər, saylar və feili sifətlər cümlədə işlənərkən ismin qrammatik xüsusiyyətlərini qəbul edir. Bu zaman həmin nitq hissələri isimləşir.

**Tapşırıq b (dərslik).** Cavab:

1. *Qurunun* oduna *yaş* da yanar.
2. *Çoxları* bu xəbəri səbirsizliklə gözləyirdi.
3. Növbəti oyunda sən *qaralarla* oynayacaqsan.

4. Sülh *milyonların* arzusudur.
5. *İgid* ölər, adı qalar.

**Tapşırıq c (dərslik).** Cavab:
1. igidin – kimin? sualına cavab verir, yiyəlik haldadır, təkdədir.
2. cəsurlar – kim? sualına cavab verir, adlıq haldadır, cəmdədir.
3. qocadan, cavandan – kimdən? sualına cavab verir, çıxışlıq haldadır, təkdədir.
4. qəhrəmanları – kimi? sualına cavab verir, təsirlik haldadır, cəmdədir.
5. tənbələ – kimə? sualına cavab verir, yönlük haldadır, təkdədir.

**Tapşırıq a (iş dəftəri).**
Cavab: 1. a. Yalan; 2. b. Oğru, doğru.

**Tapşırıq b (iş dəftəri).** Cavab: 2

**Tapşırıq c (iş dəftəri).** Cavab: 2

**Tapşırıq ç (dərslik).**
Cavab: 1. işləməyən; 2. cəfa çəkməyən; 3. gəzən

**Tapşırıq d (dərslik).**
Bu tapşırıq şagirdlərin diqqətini ismin sifət kimi işlənməsinə yönəldir.
Cavab: b. bürünc.

**"Yadda saxla" rubrikası.** Müəllim rubrikada verilən məlumatları şərh edir. O qeyd edir ki, bəzi isimlər əlamət bildirir və sifətləşir.

**Tapşırıq d (dərslik).** Cavab:
1. Bu *qızıl* saatdan cəmi 50 ədəd istehsal olunub.
2. Ev uca *daş* hasarla əhatə olunmuşdur.
3. Muzeydə qədim dövrlərə aid *gümüş* bilərzik vardı.
4. Bu zavodda *beton* konstruksiyalar hazırlanır.

**Tapşırıq e (dərslik).** Verilmiş nümunələrə əsasən *ipək, taxta, dəmir, polad* sözlərinin cümlədə həm sifət, həm də isim kimi işlədilməsi tələb olunur.

**Tapşırıq ə (dərslik).** Bu tapşırıqda şagirdlər onlara təqdim edilmiş göy rəngli sözləri Kerrol diaqramı üzrə qruplaşdırırlar. Tapşırıq şagirdlərə Kerrol diaqramının xüsusiyyətini izah etməklə yanaşı, eyni zamanda onlarda qrafik informasiyanı şifahi təqdim etmək bacarıqlarının inkişafına yönəlib. Onlar sözləri Kerrol diaqramında qruplaşdırmaqla həmçinin bu diaqramın mahiyyətini anladıqlarını nümayiş etdirirlər.

| | isim | sifət |
|---|---|---|
| Kim? nə? sualına cavab verir. | 4, 7 | 5, 8 |
| Necə? hansı? sualına cavab verir. | 1, 3 | 2, 6 |

**Tapşırıq ç (iş dəftəri)**
Cavab: b

**Tapşırıq d (iş dəftəri)**
Cavab:
a. Aşpaz **kağız** dəsmal ilə əllərini sildi.
b. **İpək** kəlağayı qıza çox yaraşırdı.
a. Qəsəbəyə **asfalt** yol çəkiləcək.
b. **Dəri** palto məni soyuqdan qoruyar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlələrdə isimləşmiş və sifətləşmiş sözləri müəyyən edir. | Dərslik və iş dəftərindəki tapşırıqlar |

# Ümumiləşdirici təkrar

• Dərslik: səh. 82-83 • İş dəftəri: səh. 54

**Təlim məqsədləri**

**1.** Mətndəki faktları ümumiləşdirərək nəticə çıxarır **(st. 5-2.3.2).**

**2.** Əsas nitq hissələrinin qrammatik xüsusiyyətlərini, məna növlərini müəyyən edir **(st. 5-4.2.1).**

**Mövzuya yönəltmə**

Dərsin əsas məqsədi bu bölmədə öyrədilən dil qaydalarını, oxuyub-anlama bacarığını bir daha mənimsətmək və inkişaf etdirməkdir. Müəllim bölmənin mövzularına aid suallar vasitəsilə xatırlatmalar edir.

**Oxu**

Bu bölmədəki mətnlər və keçilən dil qaydaları frontal sorğu vasitəsilə yada salınır. Sonra "Vitaminlər və qidalanma" mətninin oxusu həyata keçirilir. Oxu zamanı düzgün səs tonunun seçilməsinə diqqət yetirmək tövsiyə olunur. Oxu prosesi bitdikdən sonra mətnin məzmununa aid (1-3-cü) möhkəmləndirmə tapşırıqları üzərində iş aparılır.

**Oxuyub-anlama**

**5-2.3.2. Tapşırıq 1, 2, 3 (dərslik).** Tapşırıqların məqsədi şagirdlərin diqqətini yoxlamaqdır. Mətni diqqətlə oxuyan şagird cavabı mətndə olmayan sualı müəyyən edə biləcək.

**1-ci tapşırığın cavabı:** b. Hansı vitamin insan üçün daha vacibdir?

**2-ci tapşırığın cavabı:** d. Portağal və limon C vitamini ilə zəngindir.

**3-cü tapşırığın cavabı:** 1, 3 – yanlış; 2, 4 – düzgün.

Növbəti tapşırıqlar dil qaydalarını möhkəmləndirməyə xidmət edir.

**5-4.2.1. Tapşırıq 4 (dərslik)**

Cavab:

1. Füzuliyə *çatan* təyyarəmiz yavaş-yavaş aşağı enməyə başladı.
2. Məktəbin *yerləşdiyi* ikimərtəbəli binanın ətrafında meyvə ağacları var.
3. Yenicə *rənglənmiş* döşəmə güzgü kimi parıldayırdı.
4. Ana *bişirəcəyi* yeməklər üçün ərzaq aldı.

**Tapşırıq 5 (dərslik).** Bu tapşırıqda *başla, gəl, ye* sözlərini cümlədə məsdər, feili sifət, feili bağlama kimi işlətmək tələb olunur.

**Tapşırıq 6 (dərslik)**

1. qaralanda – feili bağlama, nə vaxt? sualına cavab verir.
2. seyr etməkdən – məsdər, nədən? çıxışlıq halda işlənib.
3. verdiyin – feili sifət, hansı? sualına cavab verir.
4. verməyə – məsdər, nəyə? yönlük halda işlənib.

**Tapşırıq 7 (dərslik).**

Cavab: 1. hamı – qeyri-müəyyən əvəzlik;
2. necə – sual əvəzliyi;
3. belə – işarə əvəzliyi;
4. hər – təyini əvəzlik;
5. o – şəxs əvəzliyi.

**Tapşırıq 8 (dərslik)**

Cavab:

1. Körpü *polad* dayaqlar üzərində qurulmuşdu.
2. Arxeoloji qazıntılar zamanı tapılan *metal* əşyalar muzeyə verildi.
3. Fəhlələr *rezin* əlcəkləri geyib işə başladılar.
4. *Pambıq* geyimlər insan bədəninə ağırlıq yaratmır.

**Tapşırıq 9 (dərslik).** *Birinci, gənc, qırmızı, çox* sözlərinin cümlədə isimləşmiş söz kimi işlədilməsi tələb olunur.

**Tapşırıq 1 (iş dəftəri).** Dil qaydaları üzrə bilgilərin möhkəmləndirilməsi bu tapşırıqla davam etdirilir.

Cavab:

I sütun: *eşitmək, qaytarmaq, göndərmək, ruhlanmaq*

II sütun: *razılaşan, yazılmış, görməli, bildiyim*

III sütun: *yanaşaraq, dinlədikcə, istəyəndə*

**Tapşırıq 2 (iş dəftəri)**

Cavab: gəzəcəkləri – hansı?; düşünmək – nə?; qurumuş – necə?; yazanda – nə vaxt?; yorulmadan – necə?

**Tapşırıq 3 (iş dəftəri)**

Cavab: d. kimsə, hamı, *sən*, hərə.

**Tapşırıq 4 (iş dəftəri).** Cavab: a

**Tapşırıq 5 (iş dəftəri).** Cavab: a. Sİ; b. İ; a. İ; b. Sİ; a. İ; b. Sİ; a. Sİ; b. İ.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə öz əksini tapan (tapmayan) fikirləri müəyyənləşdirir. | Tap. 1, 2 (D.) |
| Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir. | Tap. 3 (D.) |
| Əsas nitq hissələrinin ümumi qrammatik mənalarını və morfoloji tərkibini müəyyən edir. | Tap. 4, 5, 6, 7, 8, 9 (D.); 1, 2, 3, 4, 5(İ.D.) |

# bölmə 8 TARİXDƏ QADINLAR

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Qədim türklərdə qadınlar | Oxu. Dil qaydaları (Leksika) | 84-85 | 55 | 192-193 |
| 2 | Mətn üzrə iş. Qanlı Qoca oğlu Qanturalı boyu | Oxuyub-anlama. Dinləmə | 85-86 | 56 | 193-195 |
| 3 | Mövzu üzrə essenin yazılması | Yazı | 86-87 | - | 195-196 |
| 4 | Söz birləşmələri | Dil qaydaları (Qrammatika) | 88-89 | 57 | 196-197 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Sara xatun | Oxu. Dil qaydaları (Leksika) | 90-92 | 58 | 197-198 |
| 2 | "Sara xatun" mətni üzrə iş | Oxuyub-anlama | 93 | 59 | 198-200 |
| 3 | Azərbaycan XV əsrdə | Dinləmə | 93 | 60 | 200-201 |
| 4 | Frazeoloji birləşmə | Dil qaydaları (Leksika) | 94 | 61 | 201-202 |
| 5 | Frazeoloji birləşmələrin sinonimliyi və antonimliyi | Dil qaydaları (Leksika) | 95 | 62 | 203 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Savadlı qadın – savadlı millət | Oxu. Dil qaydaları (Leksika) | 96-98 | 63 | 204-205 |
| 2 | Şərqdə ilk dünyəvi qızlar məktəbi xatirələrdə | Oxuyub-anlama. Yazı | 98-99 | 64 | 205-206 |
| 3 | Mövzu ilə bağlı essenin yazılması | Yazı | 99 | - | 206-207 |
| 4 | Cümlə üzvləri. Baş üzvlər | Dil qaydaları (Qrammatika) | 100 | 65 | 207-208 |
| 5 | İkinci dərəcəli cümlə üzvləri | Dil qaydaları (Qrammatika) | 101 | 66 | 208-209 |
| **4-cü fəsil** | | | | | |
| 1 | Cığır açan qadınlar (divar qəzeti) | Oxu. Oxuyub-anlama | 102-103 | 67 | 209-210 |
| 2 | Mövzu üzrə şifahi təqdimat | Danışma. Yazı | 103 | 68 | 210-212 |
| 3 | Sadə və mürəkkəb cümlələr | Dil qaydaları (Qrammatika) | 104 | 69 | 212-213 |
| 4 | Mürəkkəb cümlədə bağlayıcı və vergül | Dil qaydaları (Qrammatika) | 105 | 70 | 213-214 |
| 6 | Ümumiləşdirici təkrar | Oxu. Dil qaydaları | 106 | 71 | 215-216 |

## 1-ci fəsil

### 1-ci dərs. Qədim türklərdə qadınlar

• Dərslik: səh. 84-85 • İş dəftəri: səh. 55

**Təlim məqsədləri**

**1.** Qeyri-bədii mətni oxuyarkən müvafiq səs tonu seçir **(st. 5-2.1.1).**

**2.**Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını izah (təxmin) edir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir **(st. 5-2.1.3).**

**3.** Frazeoloji ifadənin mənasını kontekstə əsasən müəyyən edir **(st. 5-2.1.3)**

**4.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir **(st. 5-2.1.2).**

**5.** Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir **(st. 5-2.3.3).**

Bölmədə türk dünyasında qadınların ictimai həyatdakı fəallığından bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Məqsəd bu mətnlərdən istifadə etməklə şagirdlərin müxtəlif nitq bacarıqlarını inkişaf etdirməkdir.

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər aşağı siniflərdən və tarix fənnindən əldə etdikləri bilgilər əsasında sualı cavablandırırlar.

**Cavab:** Tarixi mənbələr (qədim əşyalar, abidələr, xalça, əsərlər) əsasında qədim dövrlərdə yaşamış insanların həyatı, mədəniyyəti və baş vermiş tarixi hadisələr haqqında məlumat toplanır.

**Oxu**

**5-2.1.1. "Qədim türklərdə qadınlar" mətni.** Şagirdlər mətni oxuyurlar. Müəllim mətnin müvafiq hissələrini yenidən oxutmaqla şagirdlərin hər hansı vacib məlumatı, əsas faktı xüsusi səs tonu ilə fərqləndirmələrinə və ya onların mətndə verilmiş şeir parçasını ifadəli oxumalarına diqqət yetirə bilər. Müəllim şagirdlərin mətni diqqətlə oxuduqlarını yoxlamaq üçün faktoloji suallar verə bilər:

*– Qədim dövrdə türk qadınlarının döyüşkən, qorxmaz olduğunu hansı tarixi mənbələr göstərir?*

*– Qədim dövrdə türk xalqlarında hökmdar xanımına və şahzadə qızlarına nə deyirdilər? İndi dilimizdə bu sözlərdən hansı işlənir?*

*– Monqolustanda tapılan daş kitabədə qadınlar ilə bağlı hansı məlumatlara rast gəlinir?*

Müəllim mətnin yazılma məqsədi barədə şagirdləri düşündürmək üçün sual verə bilər:

*– Sizcə, mətndə şəkillər hansı məqsədlə verilmişdir? (Oxucuya mühakimələri inandırmaq üçün müvafiq şəkillərdən – tarixi mənbələrdən istifadə edilmişdir)*

**Söz ehtiyatı**

**5-2.1.3. Tapşırıq b (dərslik).** Tapşırığın məqsədi şagirdlərin söz ehtiyatını artırmaqdır. Şagirdlər "Söz boğçası"ndakı sözləri oxuyub uyğun sözü (kitabə) seçirlər.

Müəllim kitabə haqqında əlavə məlumat verə bilər:

*– Kitabələrin əksəriyyəti qədim dövrə aid olan qəbirdaşılarıdır. Onların bir çoxunda vəfat etmiş şəxsin təvəllüd və ölüm tarixi, atasının, babasının adı, həmçinin doğulduğu yer, sənəti də göstərilir ki, belə kitabələr tarixi mənbələr sırasına daxildir.*

**Tapşırıq c (dərslik).** Şagirdlər mətndə "yağmalamaq" sözünün işləndiyi cümləni tapıb sözün mənasını kontekstə əsasən müəyyənləşdirirlər.

**Cavab:** soymaq, qarət etmək, talamaq.

**5-2.1.3. Tapşırıq ç (dərslik).** "Dövlət idarəçiliyində qadınların rolu" yarımbaşlığına aid hissədən aydın olur ki, "söz sahibi olmaq" ifadəsi el içində sayılıb-seçilən, tanınan, hörmət edilən müdrik insanlar haqqında işlədilir.

Müəllim şagirdlərin bu ifadəni daha yaxşı qavraması və nitqlərində işlətməsi üçün onlara əlavə sual verə bilər:

*– Ətrafınızda kimləri söz sahibi hesab edirsiniz? Onun sözlərinə nə üçün əməl etmək istəyirsiniz?*

**a və b tapşırıqları (iş dəftəri).** Şagirdlərin mətndə rast gəldikləri yeni söz və ifadələrin mənimsədilməsinə yönəlmişdir.

**a tapşırığının cavabı:**

Əsrlər boyu *acdadlarımız* vətən uğrunda mübarizə aparıblar.

Əkinçi padşaha *təzim edərək* salam verdi.

**b tapşırığının cavabı:**

Şagirdlər mətndə haşiyədə verilmiş məlumatlardan çıxış edərək cümlələri tamamlayırlar.

1. *Xaqan* qədim türk xalqlarında dövlət baş-

çısının tituludur.

2. Türk xalqlarında hökmdar xanımı *xatun* adlanırdı.

### Oxuyub-qavrama

**5-2.1.2. Tapşırıq c (iş dəftəri).** Şagirdlər mətnin dördüncü yarımbaşlığında əldə etdikləri bilgilərə əsasən c variantındakı fikrin yanlış olduğunu müəyyənləşdirirlər. Bununla şagirdlərin faktoloji qavrama bacarığı yoxlanılır.

**Tapşırıq ç (iş dəftəri).** "Kitabi-Dədə Qorqud" dastanında Salur Qazan öz anasını xilas etmək üçün evlərindən, xəzinəsindən, çoxlu sayda at və dəvələrindən, hətta qırx igidlə oğlundan da imtina edir.

**5-2.3.3. Tapşırıq d (iş dəftəri). Doğru cavab:** Dövlət idarəçiliyində qadınların rolu.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən müvafiq səs tonu seçir. | Mətn |
| Sözün izahla uyğunluğunu müəyyən edir, sinonimlərdən istifadə edir. | Tap. **b**, **c**, **ç** (D.); tap **a** (İ.D.) |
| Mətndə öz əksini tapan fikirləri müəyyənləşdirir. | Tap. **c**, **ç** (İ.D.) |
| Məlumatın aid olduğu yarımbaşlığı müəyyən edir. | Tap. **b**, **d** (İ.D.) |

## 2-ci dərs. Mətn üzrə iş. Qanlı Qoca oğlu Qanturalı boyu

• Dərslik: səh. 85-86 • İş dəftəri: səh. 56

**Təlim məqsədləri**

**1.** Mətn müəllifinin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir **(st. 5-2.3.2).**
**2.** Mətndəki fikirlərin hansı faktlarla əsaslandırıldığını müəyyən edir **(st. 5-2.3.2).**
**3.** Dinlədiyi bədii mətndəki epizodlardan çıxış edərək obrazlara münasibətini əsaslandırır **(st. 5-1.1.3).**

### Mövzuya yönəltmə

Müəllim suallar verməklə "Qədim türklərdə qadın" mətnini xatırladır.

– Qədim zamanlarda türk qadınlarının cəmiyyətdə mövqeyi necə idi?

### Oxuyub-qavrama

**5-2.3.2. Tapşırıq a (dərslik).** Mətndə qədim türk toplumunda qadınların fəal rolu və nüfuzundan bəhs olunur.

Şagirdlər mətnin məzmununa istinad edərək fikirlərini əsaslandırırlar:

– Düzdür, mətndə qədim türk dövlətlərinin idarəçilik sistemi, həmçinin qədim türklərin yaşayış tərzi, adət-ənənələri haqqında bilgilər almaq olar. Ancaq mətndə bu məlumatlar epizodik xarakterlidir. Mətndə qədim türk toplumunda qadınların fəal rola və nüfuza malik olması fikri əsaslandırılır.

**5-2.3.2. Tapşırıq b (dərslik).** Şagirdlər müəllifin mövzu ilə bağlı yürütdüyü mühakimələri oxuyur, həmin mühakimələri təsdiq edən arqumentləri səsləndirirlər. Şagirdlərə mətni nəzərdən keçirib arqumentləri seçmək üçün müəyyən vaxt verilməsi tövsiyə olunur.

*Müharibələr zamanı türklər ilk növbədə öz qadınlarını düşməndən qoruyurdular.* Türklərin müharibə vaxtı qadınları düşməndən qorumaq məqsədilə qalalar tikməsi, döyüşdən qabaq qızgəlinləri orada yerləşdirməsi buna bariz nümunədir.

*Türk qadınları dövlətin idarə olunmasında iştirak edirdilər.* Monqolustanda tapılan VII əsrə aid daş kitabələrdə dövlət işlərini bilən xatunlardan bəhs edilməsi.

*Türklər ananı müqəddəs hesab edirlər.* "Kitabi-Dədə Qorqud"da "Ana haqqı tanrı haqqı" deyiminin işlədilməsi. Həmçinin dastanda bir çox epizodlarda anaya yüksək dəyər verilməsi.

*Türklər görkəmli qadınların adlarını əbədiləşdirirdilər.* Özbəkistanda yerləşən Bibixanım məscidini Əmir Teymurun öz xanımı Bibixanımın şərəfinə tikdirməsi.

### Dinləmə

**5-1.1.3. Tapşırıq c, ç (dərslik).** Müəllim mətni səsləndirir:

***Qanlı Qoca oğlu Qanturalı***

*Qədim zamanlarda Oğuz elində Qanlı Qoca deyilən bir müdrik kişi vardı. Onun Qanturalı adında bir igid oğlu vardı. Bir gün Qanlı Qoca qə-*

*rara gəlir ki, Qanturalını evləndirsin. Qanturalı deyir: "Ata, istəyirəm, evlənəcəyim qız igid, döyüşkən, bacarıqlı olsun!"*

*Qanlı Qoca gəzib oğlu üçün igid bir qız axtardı. Nəhayət, gəlib Trabzon elinə çatdı. Sən demə, Trabzon hakiminin gözəl-göyçək, igid bir qızı varmış. O çox yaxşı at çapar, atdığı ox hədəfdən yayınmazmış.*

*Trabzon hakimi üç heyvan saxlayırmış, üçü də əjdahaya bərabər. O vəd etmişdi ki, hər kim o üç heyvanı məğlub etsə, qızımı ona verəcəyəm.*

*Qanlı Qoca evinə qayıdır və olanları Qanturalıya danışır. Qanturalı qırx igidlə birlikdə Trabzona gedir. Vəhşi heyvanlarla döyüşüb qalib gəlir. Sonra hakimin qızı Selcan xatunu da götürüb Oğuz yurduna tərəf yola düzəlir.*

*Qanturalı və Selcan xatun yeddi gün, yeddi gecə yol gedirlər. Gözəl bir yerdə çadır qurub, yeyib-içib dincəlirlər. Qırx igidi isə Qanlı Qocanı muştuluqlamaq üçün Oğuz yurduna göndərirlər.*

*Oğuz igidlərinin başına nə gəlsə, yuxuda gələrmiş. Qanturalının da yuxusu gəlir və yatır. Selcan xatun isə fikirləşir ki, bu evliliyə paxıllıq edənlər onun ardınca gələ bilər. Odur ki yatmır. Qanturalının atını yəhərləyir. Özü də altdan yaraqlanıb, üstdən geyinir. Süngüsünü əlinə alır, bir yüksək yerə çıxıb keşik çəkir. Gecəyarısı görür ki, yağılar üstlərinə gəlirlər. Qanturalını tez yuxudan oyadır. Hər ikisi yağılarla döyüşməyə başlayır. Bir müddət sonra Selcan xatun görür ki, yağılar dərədə Qanturalını mühasirəyə alıblar. Onun atı da, özü də yaralanıb. Selcan xatun vuruşub düşmən ordusunu pərən-pərən salır. Sonra Qanturalını atının tərkinə mindirir. Onlar birlikdə Oğuz yurduna tərəf yola düzəlirlər.*

*Qanturalı ürəyində düşünür: "Birdən Selcan xatun Oğuza çatanda "Qanturalını ölümdən mən qurtardım" – deyib özünü öyər. El içində rüsvay olaram". Buna görə də Selcan xatunu öldürməyə qərar verir. Selcan xatun əvvəlcə şirin dillə Qanturalını bu fikrindən daşındırmaq istəyir. Amma Qanturalı təkid edir. Belə olduqda Selcan xatun Qanturalı ilə qarşı-qarşıya gəlir. Qanturalının istəyi ilə döyüşə Selcan xatun başlayır. O, Qanturalıya ucu iti olmayan bir ox atır. Qanturalı Selcan xatunun onu öldürmək istəmədiyini anlayır. İrəli gəlib Selcan xatunu qucaqlayır və "səni sınayırdım", – deyir.*

Şagirdlər mətni dinləyir və müəllimin faktoloji suallarına cavab verirlər.

**Suallar:** *Qanturalı Trabzona nə üçün getmişdi? Qanturalı nə üçün Selcan xatunu öldürməyə qərar verir? Selcan xatun Qanturalı ilə savaşanda niyə ona ucu küt ox atırdı?*

Selcan xatunun timsalında qədim dövrdə qadının ailədə və cəmiyyətdə rolu ilə bağlı mühakimələr yürüdüb uyğun epizodlardan arqument gətirərək fikirlərini əsaslandırırlar.

Mühakimələr təxminən belə ola bilər:

1. Qədim dövrdə qadınlar at çapmağı, ox atmağı bacarır, savaşlarda iştirak edirmişlər. *Selcan xatun düşmən ordusu ilə vuruşur. Yaralanmış Qanturalını atının tərkinə mindirir və Oğuz yurduna yollanır.*
2. Oğuz elində igidlərin mühasirəyə düşməsi və ya məğlub olması qəbuledilməzdir. *Qanturalı düşünür ki, Oğuz elinə gedəndə Selcan xatun özünü öyüb onu xilas etdiyini söyləyə bilər. Odur ki Selcan xatunu öldürmək qərarına gəlir.*
3. Oğuz elində qadına böyük hörmət bəslənilir. *Qanturalı ilə Selcan xatun döyüşmək qərarına gəldikdə Qanturalı döyüşə Selcan xatunun başlamasını istəyir.*

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər dinlədikləri mətn əsasında verilmiş fikirləri tamamlayırlar.

1. ... Trabzon hakiminin qızı Selcan xatunu oğlu Qanturalı üçün istəyəcəkdi.
2. ... Trabzon hakimi Selcan xatunun Qanturalı ilə evlənməsinə razılıq verdi.
3. ... bu evliliyə paxıllıq edənlər onların ardınca gələ bilərlər.
4. ... Selcan xatun Oğuz elinə çatar-çatmaz Qanturalını mühasirədən xilas etdiyini xəbər verib özünü öyər.

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər Selcan xatun haqqında obraz xəritəsini tamamlamaqla dinlədikləri mətn üzrə ümumiləşdirmə aparırlar.

**Tapşırıq c (iş dəftəri).** Mühakimələr təxminən aşağıdakı kimi əsaslandırıla bilər:

Mühakimə: *Qədim türklər evlənərkən döyüşkən, igid, qoçaq qızlara üstünlük verirmişlər.*

Əsaslandırma: Qanturalı atasına deyir: *"Ata, istəyirəm, evlənəcəyim qız igid, döyüşkən, baca-*

*rıqlı olsun!"*

Mühakimə: *Selcan xatun Qanturalı ilə döyüşə girsə də, onu öldürmək fikri yox idi.*

Əsaslandırma: Selcan xatun Qanturalı ilə döyüşdə ucu iti olmayan oxdan istifadə etdi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəllifin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir. | Tap. **a** (D.) |
| Müəllifin mövzu ilə bağlı yürütdüyü mühakimələri oxuyur, həmin mühakimələri təsdiq edən arqumentləri səsləndirirlər. | Tap. **b**, **ç** (D.); **c** (İ.D.) |
| Dinlədiyi mətnin məzmununa uyğun olan fikirləri müəyyənləşdirir. | Tap. **a**, **b**, **c** (İ.D.) |

## **3-cü dərs.** Mövzu üzrə essenin yazılması

• Dərslik: səh. 86-87

**Təlim məqsədləri**

**1.** Əldə etdiyi məlumatlara münasibət bildirməklə kiçikhəcmli qeyri-bədii mətn yazır **(st. 5-3.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim yönəldici suallar vasitəsilə şagirdləri müzakirəyə cəlb edir:

– İndiyə qədər *oxuduğunuz və dinlədiyiniz nağıllarda qadın hökmdarlara rast gəlmisinizmi? Bu barədə bildiklərinizi danışın.*

Məqsəd şagirdlərin diqqətini məlumat vərəqlərinə yönəltmək və qədim türk tarixində dövlətin idarə edilməsində qadınların rolu mövzusunda şagirdləri düşündürməkdir.

**Yazı**

**5-3.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər əvvəlcə məlumat vərəqlərini oxuyurlar. Müəllim faktoloji suallarla şagirdlərin məlumatları oxuyub-qavradıqlarını yoxlayır:

– *Müsəlman aləmində ilk hökmdar qadın kim olub və nə vaxt yaşayıb? Hansı qadının hökmdar olmasına atası qərar verib? Hansı hökmdarın həyat yoldaşı dövlət işlərində ona böyük dəstək olub? Kimin şərəfinə ölümündən sonra türbə ucaldılıb? Oğlunun əvəzinə dövləti idarə edən kim olub? 50 il Naxçıvana hakimlik edən qadın kim olub? Öz sarayında idarəetmədə qadınların işləməsinə şərait yaradan kim olub? və s.*

Bu mərhələdə şagirdlərin də bir-birinə sual verməsi onların mövzunu daha dərindən mənimsəməsinə kömək edər.

Növbəti mərhələdə şagirdlər essenin strukturu ilə bağlı təlimatla tanış olurlar.

Esse yazmaqda çətinlik çəkən şagirdlərə kömək məqsədilə təlimatda verilmiş mühakimələrin şifahi şəkildə müzakirəsini təşkil etmək olar.

Esse təxminən belə yazıla bilər:

*Qədim dövrdə türk dövlətlərinin idarəçiliyində qadınların böyük rolu olmuşdur. Bu barədə tarixi mənbələrdə maraqlı məlumatlar var.*

*Müsəlman dünyasında ilk hökmdar qadın türk olub. XIII əsrdə yaşamış Raziyə sultan Hindistanda yaradılan Dehli müsəlman türk dövlətinin hökmdarı kimi tarixə düşüb. Atası qızının mərdliyinə, cəsarətinə və iti ağlına güvənərək taxt-tacını məhz ona həvalə etmişdir.*

*Hökmdar yaşca kiçik olanda dövləti onun anası idarə edərmiş. Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətainin vəfatından sonra oğlu Təhmasib taxta çıxmışdır. Yaşca kiçik olan Təhmasibin əvəzinə Səfəvilər dövlətini onun anası Taclı bəyim idarə edirmiş. O, dövləti ustalıqla xarici hücumlardan qoruya bilir, xalqının yaxşı yaşayışı üçün var gücü ilə çalışırmış. Deyilənə görə, o, bütün varidatını xeyriyyə qurumlarına bağışlamışdır.*

*Xaqanların həyat yoldaşları dövlət idarəçiliyində yaxından iştirak etmiş, xaqanın verdiyi qərarlara təsir göstərə bilmişlər. Atabəy Şəmsəddinin yaxın məsləhətçisi olan Möminə xatun Atabəylər dövlətinin idarə olunmasında fəal iştirak etmişdi.*

*Hökmdar qadınlar ictimai-siyasi həyatda qadınların fəal iştirakına şərait yaradırmış. Bu baxımdan XIII əsrdə yaşamış Cəlaliyyə xatun nümunə ola bilər. Cəlaliyyə xatun 50 il Naxçıvana hakimlik etmişdir. Bu müddət ərzində o sarayında əsas işləri qadınlara tapşırarmış.*

*Göründüyü kimi, türk dünyasında dövlətin idarə olunmasında qadınların böyük rolu olmuşdur. Həmin qadınları tarix yaşadır, onlar haqqın-*

*da rəvayətlər, tarixi əsərlər yazılır.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mühakimə və arqumentlərini əks etdirməklə kiçikhəcmli esse yazır. | Tap. **a** (D.) |

## 4-cü dərs. Söz birləşmələri

• Dərslik: səh. 88-89 • İş dəftəri: səh. 57

### Təlim məqsədləri

**1.** Cümlədə söz birləşmələrini müəyyənləşdirir **(st. 5-4.2.3).**

**2.** Söz birləşmələrinin əsas və asılı tərəfini müəyyən edir **(st. 5-4.2.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər dünyagörüşlərinə əsaslanaraq şəkilləri verilmiş topları bir-birindən fərqləndirmək üçün söz birləşmələrindən istifadə etməli olacaqlar. Şagirdlərin diqqətini bu məqama yönəltməklə mövzu haqqında ilkin təsəvvürün (söz birləşməsi varlığı sözə nisbətən daha konkret adlandıra bilir) yaradılması tövsiyə olunur.

**Söz birləşmələri:** futbol topu, basketbol topu, voleybol topu, tennis topu.

**Dil qaydaları**

**5-4.2.3. Tapşırıq b, c, ç (dərslik).** Şagirdlər aşağı siniflərdən söz birləşmələrini mürəkkəb söz və cümlədən fərqləndirən xüsusiyyətlərlə tanışdırlar. Bu tapşırıqlar vasitəsilə şagirdlərə həmin bilgilər xatırladılır.

**Şagirdlər c tapşırığını belə cavablandıra bilərlər:**

1-ci cümlədə boşqab sözü mürəkkəbdir və bir anlayış ifadə edir, bir suala (nə?) cavab verir. 2-ci cümlədə isə "boş qab" söz birləşməsidir, "boş" sözü qab sözünə aiddir və onu izah edib aydınlaşdırır. Hər bir söz ayrılıqda bir suala cavab verir: boş (necə?) qab (nə?).

**ç tapşırığının cavabı:**

*1-ci sıra: Günəş işığı*
*2-ci sıra: Dəvə karvanı*
*3-cü sıra: Abadlaşan küçələr*
*4-cü sıra: Geniş park*

**Tapşırıq d (dərslik).** Şagirdlərdən tapşırıqda "qabdakı qırmızı alma" şəklini müəyyənləşdirmək tələb olunur.

**Cavab:** üçüncü şəkil.

Üç şəkildə qırmızı alma var. Amma tapşırıqda soruşulan məhz "qabdakı qırmızı alma"dır. Şagirdlər bu tapşırıq vasitəsilə söz birləşməsinin mahiyyətini daha dərindən anlayırlar.

**5-4.2.3. Tapşırıq e (dərslik). Cavab:** 1) kosmosa uçuş, Londona uçuş;

2) söhbət qurtaranda, kino qurtaranda.

• Göy rəngli sözlər söz birləşməsinin sonunda işlənir.

• Hər bir birləşmədə II söz (uçuş, qurtaranda) əsas mənanı ifadə edir.

I söz (kosmosa, Londona) isə mənanı konkretləşdirir.

**"Yadda saxla" rubrikası.** Rubrikada söz birləşməsinin əsas və asılı tərəfi haqqında verilmiş məlumatlar oxunub şərh edilir.

**Tapşırıq ə (dərslik).** Söz birləşmələrinin asılı və əsas tərəfi müəyyənləşdirilir. Söz birləşmələrinin asılı tərəfini təxminən aşağıdakı kimi dəyişdirirlər:

*Evin qapısı, qəşəng görünən, anaya məhəbbət, böyük hədiyyə, məktəbdən yadigar, nağara çalmaq, müəllimə hörmət, zalda gözləyən, küləkli hava.*

**Tapşırıq f (dərslik).** Şagirdlər verilmiş sözlərdən əsas tərəfi feilin təsriflənməyən formaları ilə ifadə olunan birləşmələr yaradırlar:

*Anasını sevindirən, hədiyyə hazırlayanda, üzündən köçürmək, həyətdə oynayan, şəhərdə yaşayarkən, tamaşadan qayıdan, məktub göndərmək, xeyli gözləyən.*

**Tapşırıq g (dərslik).** Məqsəd şagirdlərin cümlədə işlənən söz birləşmələrinin müəyyən etmək bacarığını möhkəmləndirməkdir.

**Cavab:**

*1. Kəndə (asılı) çatanda (əsas), güclü (asılı) yağış (əsas).*

*3. Yaxınlıqdakı (asılı) yeməkxana (əsas).*

*4. Cıdır (asılı) düzü (əsas), Novruz (asılı) tonqalı (əsas).*

*5. Birinci (asılı) olmaq (əsas), hamının (asılı)*

*arzusu (əsas).*

*6. Qədim (asılı) şəhər (əsas).*

**Tapşırıq ğ (dərslik).** Tapşırıqda söz birləşmələrini genişləndirməklə mənanın daha da konkretləşdiyi diqqətə çatdırılır. Şagirdlər söz birləşmələrini təxminən belə genişləndirə bilərlər:

*Ayın zəif işığı, dənizin sərin suyu, mənim sevimli müəllimim, məktubun gec çatması, paltarın yaxşı keyfiyyəti, atamın qara pencəyi, vətənimin bərəkətli torpağı, toyda gözəl oynamaq, məktəbin geniş həyatı.*

Şagirdlər iş dəftərində təqdim edilmiş tapşırıqlar vasitəsilə söz birləşmələri mövzusu üzrə bilgilərini nümayiş etdirirlər.

**Tapşırıq a (iş dəftəri). Cavab:** köynəyin düyməsi, filmin sonu, dünyadan xəbərsiz, əlləri bağlı.

**Tapşırıq b (iş dəftəri). Cavab:** evin açıq pəncərəsi; akvariumdakı balaca balıqlar; el-obamızın igid oğlanları; meşələrin təmiz havası; qalaya gedən yol; masadakı zəngli saat.

**Tapşırıq ç (iş dəftəri). Cavab:**

1. Düzlük xoşbəxtliyin açarıdır.
2. Doğru söz dəmiri dələr.
3. Sahibsiz qoyunu qurd yeyər.
4. Yalan danışan hamını qanmaz bilər.
5. Şirin dil ilanı yuvadan çıxardar.
6. Söz həyatın bəzəyidir.
7. Sərçədən qorxan gərək darı əkməsin.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz birləşməsini söz və cümlədən fərqləndirir. | Tap. b, c, ç, d (D.); a, b, c (İ.D.) |
| Söz birləşməsinin asılı və əsas tərəfini müəyyənləşdirir. | Tap. e, ə, f, g (D.); ç (İ.D.) |
| Söz birləşməsini genişləndirməklə onun mənasını daha da konkretləşdirir. | Tap. ğ (D.); b (İ.D.) |

# 2-ci fəsil

## 1-ci dərs. Sara xatun

• Dərslik: səh. 90-92 • İş dəftəri: səh. 58

**Təlim məqsədləri**

**1.** Dialoji mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 5-2.1.1).

**2.** Söz tərkibindəki morfemlərin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir (st. 5-4.4.1).

**3.** Çoxmənalı sözün mətndəki mənasını digər mənalarından fərqləndirir (st. 5-2.1.3).

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlər Uzun Həsən və Sara xatun haqqında tarix fənnindən öyrəndiklərini xatırlayıb danışırlar. Məqsəd şagirdlərdə oxuyacaqları mətnin mövzusuna maraq oyatmaqdır.

### Oxu. Söz ehtiyatı

5-2.1.1. **“Sara xatun” mətni.** Şagirdlər mətni səssiz oxuyurlar. Mətndə şagirdlərə tanış olmayan xeyli söz var. Müəllim onların nəzərinə çatdırır ki, mətni oxuduqca ilk dəfə rast gəldikləri sözləri dəftərlərində qeyd edib soruşsunlar. Bununla şagirdlərin mütaliə zamanı yeni sözlərin mənasını araşdırmaq vərdişləri formalaşdırılır. İzahlı lüğətin köməyindən istifadə edilməsi də tövsiyə olunur.

Mətnin hər bir hissəsi oxunub qurtardıqdan sonra müəllim həmin hissənin məzmunu üzrə şagirdlərə faktoloji suallar verir:

I hissə – *Uzun Həsən niyə fikirli idi. Sara xatun oğlunun yanına gələndə nə üçün yağış barəsində danışdı? Sara xatun oğluna nə təklif etdi? Uzun Həsən bu təkliflə razılaşdımı?*

II hissə – *Despinə xatun kim idi? Sara xatun ona nə üçün üzük verdi?*

III hissə – *Əbu Saidin döyüşçüləri nə üçün Sara xatunu görəndə təəccübləndilər? Əbu Said danışıqlardan sonra hansı qərara gəldi? Sara xatun bu qərardan razı qaldımı?*

5-4.4.1. **Tapşırıq b (dərslik).** Şagirdlər əvvəlcə mətndən həmin sözlərin işləndiyi cümlələri tapıb oxuyurlar və sözün mənasını “-gah” şəkilçisinin köməyi ilə izah edirlər.

**Kontekst:** ...Təpədən aşağıda *ordugahın* ça-

dırları cərgə ilə düzülmüşdü; Əbu Səidin *ordugahına* yaxınlaşanda sultanın döyüşçüləri onların qarşısını kəsdi.

...Hökmdarın iqamətgahına bir az qalmış atdan düşüb piyada getmək adət idi.

**Tapşırıq c (dərslik).** Şagirdlərin diqqəti "-gah" şəkilçisinə yönəldilməklə məhz bu şəkilçinin sözə gətirdiyi məna vurğulanır. Şagirdlər sözün tərkibini təhlil etməklə verilmiş sözləri izah edirlər.

**Sözlərin izahı:**

*nişangah* – 1. Güllə, ox və s. ilə vurulmalı olan yer, hədəf, nöqtə. 2. Odlu silahlarda hədəfi nişan almaq üçün lülə üzərində çıxıntı. 3. Bir şeyə, hadisəyə xatirə olmaq üçün nişan qoyulmuş yer; nişanə.

*söhbətgah* – İstirahət yerlərində içərisində oturmaq üçün skamyalar qoyulan üstüörtülü kiçik tikili.

*qurbangah* – qurban kəsilən yer.

*qərargah* – Qərarların qəbul olunduğu yer. Ordunun idarə edilməsi üçün xüsusi orqan qərargah adlanır. Ordu qərargahının əsas vəzifəsinə komandanlıq üçün məlumatların toplanması, mövcud əməliyyat şəraitinin öyrənilməsi, döyüş planlarının hazırlanması, bütün qüvvələrin qarşılıqlı əlaqəsinin təmin edilməsi və bu kimi məsələlər daxildir.

Şagirdlər yeni sözləri cümlədə işlətməklə onları mənimsədiklərini nümayiş etdirə bilərlər:

*1. Anam qonşularla söhbətgahda oturub dincəlir. 2. Əsgər nişangaha baxıb ataş açdı. 3. Qərargahdan xoş xəbərlər gözləyirik.*

**5-2.1.3. Tapşırıq ç (dərslik).** Şagirdlər əvvəlcə mətnin II hissəsində "zireh" sözünün işləndiyi cümləni oxuyurlar: *Sara xatun sultanın əynində zirehi görəndə həyəcanladı.*

Tapşırıqda "zireh" sözünün bir neçə mənası verilmişdi. Mətndə bu söz "ox və s. silahlardan qorunmaq üçün döyüşçülərin üstdən geydikləri hərbi geyim" mənasında işlənmişdir.

**Tapşırıq a, b (iş dəftəri).** Şagirdlər mətndə "yağmaq" sözünün məcazi mənada işləndiyini müəyyən edirlər. Bundan sonra bu sözün məcazi mənada işləndiyi digər cümlələri tapırlar:

*Döyüş vaxtı başımıza güllə yağırdı.*

*Qocanın sifətindən nur yağırdı.*

**Tapşırıq c (iş dəftəri).** Mətndə bir neçə cümlədə "kimi" qoşması işlənmişdir. Şagirdlərin diqqəti "kimi" qoşmasının bənzətmə ilə yanaşı, həm də məsafə bildirməsinə yönəldilir.

**Cavab:** 2. Atın yüyənindən tutub Sultanın çadırının yanına kimi apardılar.

**5-4.4.1. Tapşırıq ç (iş dəftəri).** 3-cü cümlədə işlənmiş "agah" sözü yalnız kökdən ibarətdir. Digər cümlələrdəki "Ataşgah" və "ibadətgah" sözlərində isə "-gah" şəkilçidir.

**Sözlərin izahı:**

*ataşgah* – həmişə od yanan yer, od olan yer;

*ibadətgah* – içərisində ibadət edilən yer, ibadət yeri, məbəd (məscid, kilsə və s.).

**5-2.1.3. Tapşırıq d (iş dəftəri).** Məqsəd şagirdlərin kontekstə görə sözün mənasını müəyyənləşdirmək bacarığını inkişaf etdirməkdir.

**Cavab:** 3. Qüvvət, zor, güc, asılılıq. Bir zalımın pəncəsinə düşüb.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | "Sara xatun" mətni |
| Söz tərkibindəki morfemin (-gah) semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. b, c (D.); ç (İ.D.) |
| Kontekstdən çıxış edərək sözün mənasını anladığını nümayiş etdirir. | Tap. ç (D.); a, b, c, d (İ.D.) |

## 2-ci dərs. "Sara xatun" mətni üzrə iş

• Dərslik: səh. 93 • İş dəftəri: səh. 59

**Təlim məqsədləri**

**1.** Mətndəki hadisələri, hadisə iştirakçılarını, zaman və məkanı, fakt və fikirləri müəyyənləşdirir (st. 5-2.1.2).

**2.** Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir (st. 5-2.2.2).

**3.** Mətndəki obrazları xarakterizə edir (st. 5-2.3.1).

### Mövzuya yönəltmə

Müəllim keçən dərsdə oxunmuş “Sara xatun” mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

– *Mətndə hansı obrazlar iştirak edir?*

– *Hadisələr harada baş verirdi? və s.*

### Oxuyub-qavrama

5-2.1.2. **Tapşırıq a (dərslik).** Tapşırıq şagirdlərin faktoloji qavramasını yoxlayır.

**Cavab:** 1 – Ç; 2 – C; 3 – B; 4 – A.

**Tapşırıq b (dərslik).** Mətnin I hissəsində təsvir edilir ki, neçə vaxt idi ki, Qarabağa yağış düşmürdü. Düzənlərin otu qurumuşdu, heyvanlar, atlar otlamağa bir şey tapmırdı.

Bu abzasa əsasən məlum olur ki, tapşırıqda verilmiş “Aramsız yağışlar Uzun Həsənə döyüşə başlamağa imkan vermirdi” fikri yanlışdır.

5-2.2.2. **Tapşırıq c (dərslik).** Şagirdlər mətnin məzmunundan çıxış edərək hadisələrin səbəbini izah edirlər.

**Cavab:** 1. Uzun Həsən anasının təklifi ilə razılaşmaq istəmədi, çünki anasını düşmən üzərinə göndərməyi özünə ar bildi, qorxaqlıq hesab etdi.

2. Dəstə başçısı Sara xatunun iqamətgaha qədər piyada getməsinə razı olmadı, çünki Sara xatun qadın idi.

3. Sultan Əbu Səid Sara xatunla qarşılaşanda özünü itirdi, çünki ilk dəfə idi ki, qadın elçi ilə üzbəüz gəlirdi.

5-2.3.1. **Tapşırıq ç (dərslik).** Şagirdlər Sara xatun ilə gəlini Dəspinə xatun arasındakı dialoqdan çıxış edərək onların xarakterinə münasibət bildirirlər.

*Sara xatun müdrik, ismətli, qeyrətli qadındır. O, ağır bir səfərə çıxmazdan öncə gəlininin yanına gələrək ona vəziyyət barədə xəbər verir. Gəlininə müharibəyə hazır olması üçün məsləhət verir. Dəspinə xatun da Sara xatuna dəstək olur. Onlar birlikdə əgər müharibə olarsa, düşmən əlinə keçməmək üçün zəhərli üzükdən istifadə edəcəklərini planlaşdırırlar. El-obanın, vətənin namusunu qorumaq üçün ölümü əsir düşməkdən üstün tuturlar. Çünki türk adət-ənənəsinə görə qız-gəlinlərin düşmən əlinə keçməsi fəlakət hesab olunur.*

5-2.1.2. **Tapşırıq a (iş dəftəri).** Tapşırıqda “Sara xatun” mətni ilə bağlı bu məlumatlar yazıla bilər:

**I hissə:**

**Məkan:** Kirs dağı, çadırın yanı

**Zaman:** Axşamüstü

**İştirak edən obrazlar:** Uzun Həsən, Sara xatun

**Obrazların qərarı:** Sara xatun Əbu Səidin yanına elçi gedəcək.

**II hissə:**

**Məkan:** Dəspinə xatunun çadırı

**Zaman:** Axşam

**İştirak edən obrazlar:** Sara xatun, Dəspinə xatun

**Obrazların qərarı:** Əgər döyüş olsa, Sara xatun və Dəspinə xatun zəhərli üzükdən istifadə edəcəklər.

**III hissə:**

**Məkan:** Əbu Səidin ordugahı

**Zaman:** Səhər

**İştirak edən obrazlar:** Sara xatun, Əbu Səid və onun adamları

**Obrazların qərarı:** Əbu Səid qışı Qarabağda keçirmək şərtilə Uzun Həsənlə vuruşmaqdan vaz keçir.

**Müəllimin nəzərinə!** Tapşırığı yerinə yetirməkdə çətinlik çəkən şagirdlər uyğun məlumatları tapmaq üçün mətni nəzərdən keçirə bilərlər. Bununla şagirdlərin lazım olan məlumatları mətndə sürətlə tapmaq bacarığı inkişaf etdirilə bilər.

5-2.3.1. **Tapşırıq b (iş dəftəri).** Sara xatunla bağlı fikirlərə əsasən onun xarakterini müəyyən edirlər.

**Cavab:**

1. Qayğıkeşdir.
2. Diplomatik bacarıqları var.
3. Qeyrətlidir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmununa uyğun olan fikirləri müəyyənləşdirir. | Tap. **a**, **b** (D.); **a** (İ.D.) |
| Obrazın davranışının və keçirdiyi hisslərin səbəbini izah edir. | Tap. **c** (D.) |

| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. **ç** (D.); **b** (İ.D.) |
|---|---|

## **3-cü dərs.** Azərbaycan XV əsrdə

• Dərslik: səh. 93 • İş dəftəri: səh. 60

**Təlim məqsədləri**

**1.** Mətni dinləyərkən açar sözləri qeyd edir **(st. 5-1.1.1).**

**2.** Dinlədiyi mətndəki hadisələrin ardıcıllığını müəyyən edir **(st. 5-1.1.2).**

**3.** Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir **(st. 5-2.3.5).**

**Mövzuya yönəltmə**

Müəllim "Sara xatun" mətninin xatırlanması üçün aşağıdakı sualı təqdim edə bilər:

*– Sizcə, əsərdə təsvir olunan hansı hadisələr müəllifin bədii təxəyyülünün məhsuludur?*

*1. Uzun Həsənin qürub çağı qara buludlara baxıb fikrə getməsi;*

*2. Sara xatunun Uzun Həsəni yağış xəbəri ilə sevindirməsi;*

*3. Əbu Səidin Azərbaycana hücumu;*

*4. Sara xatunun Dəspinə xatuna zəhərli üzük verməsi;*

*5. Uzun Həsənin Əbu Səidin yanına elçilər göndərməsi.*

Bu sual vasitəsilə şagirdlərin diqqəti tarixi əsərlərdə tarixi faktlardan necə istifadə olunmasına yönəldilir. Tarixi hadisələrdən bəhs edən bədii əsərlərdə əsas obrazlar çox zaman tarixi şəxsiyyətlər olur. Lakin qeyri-bədii mətnlərdən fərqli olaraq, bu əsərlərdə müəllif həmin şəxsiyyətləri öz təxəyyülünə uyğun təsvir edir. Çünki onun əsas məqsədi tarixi həqiqətləri oxucuya çatdırmaq deyil, oxucuda öz qəhrəmanının xarakterinə və taleyinə maraq oyatmaqdır.

"Sara xatun" mətnində də müəllifin əsas məqsədi Əbu Səidin Azərbaycana hücumunu təsvir etmək deyil, çətin məqamlarda vətənini qorumağa çalışan hökmdar və müdrik bir ana obrazı yaratmaqdır.

**Dinləmə**

**5-1.1.1. Tapşırıq a (dərslik).** Şagirdlər əvvəlcə dərslikdə verilmiş yaddaş xəritəsini dəftər və ya A4 vərəqdə çəkirlər. Müəllim mətni səsləndirdikcə lazım olan faktları uyğun xanalarda qeyd edirlər. Müəllim mətni sinfin səviyyəsini nəzərə alaraq yavaş və ya normal templə səsləndirir:

***Azərbaycan XV əsrdə***

*Qədim zamanlarda Azərbaycanın və Cənubi Qafqazın böyük bir ərazisində Ağqoyunlular adlanan oğuz tayfası yaşayırdı. Bu tayfanın soykökü "Kitabi-Dədə Qorqud"un qəhrəmanı Bayandur xana gedib çıxır.*

*XV əsrin 40-50-ci illərində Ağqoyunluların yaratdığı dövlət Cahangir Mirzənin dövründə xeyli zəifləmişdi. Onun anası Sara xatunun müdrikliyi və saraydakı nüfuzu sayəsində dövlətin varlığı qorunub saxlandı. Belə ki, Sara xatun o biri oğlu Uzun Həsənin Ağqoyunlu taxtına çıxmasına nail oldu.*

*Hərbi istedadı və uzaqgörənliyi ilə seçilən Uzun Həsən dövləti xeyli möhkəmləndirdi. Bu işdə onun ən yaxın məsləhətçisi anası Sara xatun idi. Bu müdrik qadın türk-müsəlman dünyasının ilk qadın diplomatı hesab edilir.*

*Uzun Həsən Azərbaycanda vahid dövlət yaratmaq istəyirdi. Lakin Osmanlı sultanı II Mehmed də Azərbaycan torpaqlarına yiyələnmək istəyirdi. Osmanlılarla müharibə Ağqoyunlu dövlətini zəiflədə bilərdi. Odur ki 1461-ci ildə Sara xatun Sultan II Mehmedin yanına yollandı. Mənbələrə görə, diplomatik danışıqlar zamanı Sara Xatun və II Mehmed bir-birinə "ana", "oğul" deyə müraciət edirmişlər. Sara Xatun iki türk dövləti arasında sülh bağlanmasına nail oldu.*

*Bundan bir neçə il sonra – 1465-ci ildə Sara xatun vəfat etdi.*

*Uzun Həsən yeni bir təhlükə ilə üzləşdi. Ağqoyunlu dövlətinin güclənməsi Teymuri hökmdarı Əbu Səidi qorxudurdu. Odur ki 1468-ci ildə böyük ordu ilə Azərbaycana yürüşə başladı. Uzun Həsən müharibədən çəkinərək Əbu Səidin yanına bir neçə dəfə elçilər göndərdi. Amma Əbu Səid qərarından dönmədi. Belə olduqda Uzun Həsən 1469-cu ildə Əbu Səidin düşərgəsinə hücum edərək teymuriləri darmadağın etdi. Əbu Səid əsir götürülərək öldürüldü.*

*Beləliklə, Uzun Həsən qüdrətli bir türk dövlətini – Ağqoyunlu dövlətini yaratmağa nail oldu.*

Şagirdlər mətni dinlədikcə aşağıdakı qeydləri götürə bilərlər:

| Tarix | Tarixi şəxsiyyət | Tarixi hadisə | Əlavə qeyd |
|---|---|---|---|
| XV əsrin 60-cı illəri | Uzun Həsən | Qüdrətli Ağqoyunlu dövlətini yaratmağa nail oldu. | Sara xatunun oğlu olub. |
| 1461-ci il | Sara xatun və Osmanlı sultanı II Mehmed | Sara xatun II Mehmedi müharibə etmək fikrindən daşındırdı. | Sara Xatunla danışıqlar zamanı ona “ana” deyə müraciət edirmiş. |
| 1465-ci il | Sara xatun | Sara xatun vəfat etdi. | |
| 1468-ci il | Teymuri hökmdarı Əbu Səid | Böyük ordu ilə Azərbaycana yürüşə başladı. | Uzun Həsən onun yanına elçilər göndərdi. Amma Əbu Səid fikrindən dönmədi. |
| 1469-cu il | Əbu Səid və Uzun Həsən | Uzun Həsən Əbu Səidin düşərgəsinə hücum edərək teymuriləri məğlub etdi. | Əbu Səid öldürüldü. |

**5-1.1.1. Tapşırıq b (dərslik).** Şagirdlər dinlədikləri mətn əsasında hadisələrin xronoloji ardıcıllığını müəyyənləşdirirlər:

5. Uzun Həsən Ağqoyunlu taxtına çıxdı.

3. Sara xatun Osmanlı dövləti ilə sülhün bağlanmasına nail oldu.

4. Sara xatun vəfat etdi.

1. Teymuri hökmdarı Əbu Səid Azərbaycana yürüşə başladı.

2. Ağqoyunlularla Teymurilərin döyüşündə Əbu Səid əsir götürülərək öldürüldü.

**5-2.3.5. Tapşırıq c (dərslik).** Qeyri-bədii mətndə göstərilir ki, Sara xatun 1461-ci ildə vəfat edir. Əbu Səidin Azərbaycana yürüşü isə 1468-ci ildə başlayır. Bu məlumatlardan çıxış edərək demək olar ki, “Sara xatun” mətnində Sara xatunun Əbu Səidlə görüşü tarixi fakt deyil.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər oxuduğu və dinlədikləri mətnlərə aid xüsusiyyətləri cədvəldə qeyd etməklə bədii və qeyri-bədii mətnin xüsusiyyətlərini fərqləndirə bildiklərini nümayiş etdirirlər.

Sara xatun mətni: Bədiidir. 1, 2, 3, 5

“Azərbaycan XV əsrdə” mətni: Qeyri-bədii mətndir. 1, 4

**Tapşırıq b (iş dəftəri).** Dinlədikləri mətnə əsasən sualları cavablandırırlar.

1. Anası Sara xatun; 2. Sultan II Mehmed; 3. 1465-ci ildə; 4. Uzun Həsən Əbu Səidin ordusuna qalib gəldi.

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər oxuduqları və dinlədikləri mətnlərdən əldə etdikləri məlumatları ümumiləşdirib Sara xatun haqqında məlumat vərəqini tamamlayırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qeyd götürməklə dinləyir. | Tap. a (D.) |
| Dinlədiyi mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. b (D.) |
| Araşdırdığı mənbələr əsasında mətndəki məlumatın həqiqətəuyğun olub-olmadığını müəyyən edir. | Tap. c (D.) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. a, c (İ.D.) |
| Dinlədiyi mətnin məzmunu ilə bağlı sualları cavablandırır. | Tap. b (İ.D.) |

## 4-cü dərs. Frazeoloji birləşmələr

- Dərslik: səh. 94
- İş dəftəri: səh. 61

**Təlim məqsədləri**

**1.** Cümlələrdə frazeoloji birləşmələri fərqləndirir (st. 5-4.4.3).

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlər mətndəki situasiyalara əsaslanıb frazeoloji birləşmələrin mənasını təxmini izah edirlər:

*sözünü yerə salmaq* – xahişini, arzu və istəyini yerinə yetirməmək;

*ağlına batmaq* – dərk etmək, qəbul etmək, mümkün hesab etmək, inanmaq.

**Dil qaydaları**

**5-4.4.3. "Yadda saxla" rubrikası.** Rubrikada verilmiş məlumatlar oxunub şərh edilir. İbtidai siniflərdə şagirdlər yalnız feili frazeoloji birləşmələrlə tanış olmuşlar. İndi isə ad, əlamət (aydan arı, sudan duru), tərz (bir göz qırpımında) ifadə edən digər qrup frazeoloji birləşmələr onların diqqətinə çatdırılır.

**Tapşırıq b (dərslik).** Şagirdlər hər bir sırada frazeoloji birləşmələri müəyyənləşdirirlər:

1. a; 2. c; 3. b; 4. c.

Müəllimin köməyi ilə şagirdlər seçimlərini izah edə bilərlər. "Evdən çıxmaq" söz birləşməsində asılı tərəfə sual vermək olur, "haradan çıxmaq?" həmçinin asılı tərəfi müxtəlif sözlərlə əvəz etmək olar. Məsələn, Bakıdan çıxmaq, otaqdan çıxmaq və s. Amma "özündən çıxmaq" frazeoloji birləşməsinin tərkibi sabitdir, "haradan çıxmaq?" sualını vermək olmur və bu birləşmə vahid bir məna – "hirslənmək" mənasını ifadə edir.

**Tapşırıq c (dərslik).** Şagirdlər verilmiş frazeoloji birləşmələrin mənasını müəyyənləşdirməklə söz ehtiyatını nümayiş etdirirlər. Mənanı izah etməkdə çətinlik çəkən şagirdlərə həmin frazeoloji birləşmənin işləndiyi konteksti təqdim etmək olar.

*göz verib işıq verməmək* – incitmək*; gözünün acısını almaq* – mürgüləmək*; göz qoymaq* – nəzarət etmək*; gözü kəlləsinə çıxmaq* – təəccüblənmək*; gözünün suyunu axıtmaq* – ağlamaq*; gözü yolda qalmaq – gözləmək.*

**Tapşırıq ç (dərslik).** Məqsəd şagirdlərin cümlə daxilində frazeoloji birləşməni fərqləndirmək və həmin ifadənin mənasını izah etmək bacarığını inkişaf etdirməkdir.

1. Dəridən-qabıqdan çıxmaq – çalışıb-vuruşmaq;
2. Gözünün odunu almaq – qorxutmaq;
3. Cin atına minmək – hirslənmək;
4. Baş vermək – olmaq;
5. Bir dəri, bir sümük qalmaq – arıqlamaq.

**Tapşırıq a, b, c (iş dəftəri).** Şagirdlər iş dəftərindəki tapşırıqlarda verilmiş frazeoloji birləşmələri və onların mənalarını müəyyənləşdirməklə mövzu üzrə bilik və bacarıqlarını inkişaf etdirirlər.

**a tapşırığının cavabı:** a.

**b tapşırığının cavabı:**

1. <u>Həftə səkkiz, mən doqquz</u> Sevildən pul istəyirdi.

3. Atanın <u>gözünün kökü saraldı,</u> amma Ənvər gəlib çıxmadı.

3. İndi onlar Nurlanın <u>əlindən zəncir çeynəyirlər</u>.

4. <u>Bəd ayaqda</u> dostun yanında olmaq lazımdır.

**Tapşırıq c (iş dəftəri)**
**Cavab:**

a) Səbirsiz və hövsələsiz olmaq, tələsmək – çay gəlməmiş çırmanmaq;

b) Gecikdirmək, yubatmaq, ləngitmək – günü günü satmaq;

c) Sübh tezdən – səhərin gözü açılmamış;

d) Tələsik, uyğun olmayan vaxtda – iki daşın arasında;

e) Çox fikirləşmək, dərindən düşünmək – baş sındırmaq.

**Tapşırıq ç (iş dəftəri).** Tapşırıqda 1, 2 və 3-cü sütunlarda həqiqi mənalı söz birləşmələri (saatını itirmək; quyudan su çəkmək, divardan şəkil asmaq) seçilir. Sonuncu sütunda isə frazeoloji vahid (boynuna almaq) digərlərindən fərqlidir.

**Müəllimin nəzərinə!** Şagirdlərin bir çoxu üçün dərslik və iş dəftərində təqdim edilmiş frazeoloji birləşmələr yeni ola bilər. Ona görə də verilmiş bütün frazeoloji birləşmələri şagirdlərin dəftərlərinə yazıb öyrənməsi tövsiyə olunur. Həmçinin öyrədilən həmin frazeoloji birləşmələrin şagirdlərin nitqində istifadəsinə nail olmaq üçün müəllim mövzu üzrə vaxtaşırı müvafiq işlər apara bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Frazeoloji birləşmələri fərqləndirir. | Dərslik və iş dəftərindəki tapşırıqlar |

## 5-ci dərs. Frazeoloji birləşmələrin sinonimliyi və antonimliyi

• Dərslik: səh. 95 • İş dəftəri: səh. 62

**Təlim məqsədləri**

**1.** Frazeoloji birləşmələrin sinonim və ya antonimini müəyyənləşdirir (st. 5-4.4.3).

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər verilmiş kontekstə əsasən həqiqi mənalı söz birləşmələri ilə frazeoloji birləşmələri fərqləndirirlər:

2-ci cümlədə *"dili-dodağı qurumaq"* frazeoloji birləşməsi *"təəccüb, heyrət içində qalıb danışa bilməmək"* mənası ifadə edir.

**Dil qaydaları**

5-4.4.3. **"Yadda saxla" rubrikası.** Rubrikada verilmiş nəzəri məlumat mənimsədilir.

**Tapşırıq b (dərslik).** Şagirdlər həm həqiqi mənalı söz birləşməsi, həm də frazeoloji birləşmə kimi cümlədə işlədirlər:

1. Uşaq bir neçə dəfə stolun **başına dolandı.**
2. O, Sahibin qayğısını çəkir, bir ana kimi onun **başına dolanır.**
1. Həsən əmi səbirsiz davranıb Kamilə **əl qaldırdı.**
2. Seymur **əlini qaldırıb** dirəkdən tutdu.
1. Onun çətin vaxtında dostları ona **əl tutdu**.
2. Mələk xala Cavidanla **əl tutub** görüşdü.
1. Əsgər gedən oğlundan ötrü **burnunun ucu göynəyirdi.**
2. Şaxtadan uşaqların **burnunun ucu göynəyirdi.**
1. Telefonu **əlinə alıb** təzədən yerinə qoydu.
2. Tərlan onları **ələ alıb** bura gətirdi.

**Tapşırıq c (dərslik).** Tapşırığın məqsədi fikrin daha təsirli ifadəsində frazeoloji birləşmələrin roluna diqqəti yönəltməkdir.

**Cavab:**

1. Direktorun otağından çıxanda **qaş-qabağı yer süpürürdü.**
2. Neçə ildir, zalım kişi onun **gününü qara eləyib.**
3. Alabaş tapılanda **gözlərinə işıq gəldi.**
4. Çəkdiyim rəsmə baxanda **ağzı açıla qaldı.**

İş dəftərindəki a və b tapşırıqları vasitəsilə mövzu üzrə şagirdlərin bilik və bacarıqları möhkəmləndirilir.

**a tapşırığının cavabı:** O, düşmənə *baş əyməz;*
Bölgədə üsyanlar *baş qaldırdı.*
Təkcə Gülnar Vüqarın *dilini bilir.*
Ən ağır çağlarımda o mənə *əl uzatdı.*
Sən niyə yadlara *bel bağlayırsan?*

**b tapşırığının cavabı:** Düşmən *silahı yerə qoyub* geri çəkildi.

**"Yadda saxla" rubrikası.** Rubrikada verilmiş məlumat şərh edilməzdən öncə sinonim və antonimlər xatırladılır. Daha sonra frazeoloji vahidlərin də sinonimlik, antonimlik xüsusiyyətinin olduğu diqqətə çatdırılır.

**Tapşırıq ç (dərslik).** Şagirdlər frazeoloji birləşmələrə sinonim və antonim olan digər ifadələri müəyyənləşdirirlər:

1. dil-boğaza qoymamaq:
a. dilotu yemək (sinonimi);
b. ağzına su alıb oturmaq (antonimi)
2. əlini əlinin üstünə qoymaq:
a. əlini ağdan-qaraya vurmamaq (sinonimi);
b. gecəni gündüzə qatmaq (antonimi).

**Tapşırıq c, ç, d (iş dəftəri).** Tapşırıqlar frazeoloji birləşmələrin sinonimlik və antonimliyi ilə bağlı möhkəmləndirmə məqsədi daşıyır.

**c tapşırığının cavabı:** 2. O, hiylə ilə çobanı ələ aldı.

**ç tapşırığının cavabı:** 2 və 5 -ci frazeoloji birləşmələr sinonim cütlüklərdir.

**d tapşırığının cavabı:**
1. dəvənin quyruğu yerə dəyəndə
3. qum göyərəndə
4. keçi ağaca çıxanda
6. dünya dağılsa da

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Frazeoloji birləşmələri fərqləndirir. | Tap. **a**, **b**, **c** (D.); **a**, **b** (İ.D.) |
| Frazeoloji birləşmənin sinonim və antonimini müəyyənləşdirir. | Tap. **ç** (D.); **c**, **ç**, **d** (İ.D.). |

# 3-cü fəsil

## 1-ci dərs. Savadlı qadın – savadlı millət

• Dərslik: səh. 96-98 • İş dəftəri: səh. 63

**Təlim məqsədləri**

**1.** Mətni oxuyarkən tanış olmadığı sözləri kontekstə əsasən təxmin edir və lüğətin köməyilə dəqiqləşdirir **(st. 5-2.1.3).**

**2.** Mətnin məzmunundan çıxış edərək hadisələrin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti mətn üzrə verilmiş şəkillərə yönəldilir. Şərqdə ilk dünyəvi qızlar məktəbi haqqında tarix fənnindən bildiklərini danışırlar.

### Oxu. Söz ehtiyatı

**5-2.1.3. "Savadlı qadın – savadlı millət" mətni.** Şagirdlər mətni müvafiq səs tonu ilə növbə ilə oxuyurlar. Oxu prosesi zamanı şagirdlər mətndə rast gəldikləri tanış olmayan sözlərin mənalarını kontekstə əsasən təxmini izah edirlər. Sonra müəllimin və ya izahlı lüğətin köməyi ilə sözlərin mənaları aydınlaşdırılır.

**Tapşırıq b (dərslik).** Şagirdlər izahları oxuyub, "Söz boğçası"ndan uyğun sözləri seçirlər:

1. məzun;
2. maarif;
3. nizamnamə.

**Tapşırıq c (dərslik).** Sonuncu abzasın məzmunundan aydın olur ki, seminariya müəllim hazırlayan təhsil ocağıdır.

Müəllim seminariya haqqında əlavə məlumat verə bilər:

*Seminariya bir sıra Avropa ölkələrində ibtidai təhsil üzrə müəllim hazırlayan xüsusi orta təhsil müəssisəsi.*

*İlk seminariyalar XVII əsrdə Fransa və Almaniyada yaranıb, sonra isə digər ölkələrə, o cümlədən Rusiyaya yayılıb. XIX əsrin sonu – XX əsrin əvvəlində Azərbaycan müəllimlərinin çoxu Qori Seminariyasında təhsil alıb. Azərbaycanda ilk Seminariya 1918-ci ildə Qazaxda yaradılıb.*

**Tapşırıq a (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin mətn üzrə öyrəndikləri yeni sözlər möhkəmləndirilir. Krosvordda istifadə edilən sözlər:

1. məzun;
2. seminariya;
3. nizamnamə;
4. maarifçi;
5. icarə;
6. ruhani;
7. təbliğat;
8. təşəbbüskar.

### Oxuyub-qavrama

**5-2.2.1. Tapşırıq ç (dərslik).** Şagirdlər mətndə müvafiq abzaslara istinad edərək Hacı Zeynalabdin Tağıyev qızlar məktəbini yaradarkən hansı çətinliklərin öhdəsindən gəldiyini izah edirlər.

**İcazənin alınması –** Tağıyev rus çarından icazə almaq üçün qızlar məktəbinin çarın xanımının adını daşıyayacağı təklifini vermişdi.

**Müsəlmanları inandırmaq** – Şərqin din mərkəzlərinə – Məkkəyə, Mədinəyə nümayəndələr göndərir, tanınmış din xadimlərindən məktublar gətizdirirdi. Məktublarda göstərilirdi ki, Qurani-Kərimdə qızların təhsil almasına dair qadağa yoxdur.

**Ailələrin maddi imkansızlığı** – Hacı 20 şagirdin təhsil haqqını özü ödədi. Sonra o, tikdirdiyi məktəbin zirzəmisini icarəyə verməklə daha çox qızın təhsil almasına nail oldu.

**Müəllim çatışmazlığı** – Tiflisdə və Rusiyada qızlar məktəbində təhsil almış bir neçə azərbaycanlı müəllimin Azərbaycana gəlməsinə şərait yaradıldı. Məktəbdə həm də qadın müəllimlərin hazırlanmasına başlanıldı.

**Şagirdlərin toplanması** – Maarifçi ziyalılar qapı-qapı gəzib şagird toplayırdılar. Onların sözlərinə inanan əhali qızlarının təhsil almasına razılıq verirdi.

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər tapşırığı fərdi şəkildə yerinə yetirməklə mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən tanış olmadığı sözləri kontekstə əsasən təxmin edir. | Mətn |
| Kontekstdən çıxış edərək sözün mənasını anladığını nümayiş etdirir və lüğətdən istifadə etməklə mənanı dəqiqləşdirir. | Tap. **b**, **c** (D.); **a** (İ.D.). |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin səbəb və nəticəsini müəyyən edir. | Tap. **ç** (D.); **b** (İ.D.). |

## 2-ci dərs. Şərqdə ilk dünyəvi qızlar məktəbi xatirələrdə

• Dərslik: səh. 98-99 • İş dəftəri: səh. 64

**Təlim məqsədləri**

**1.** Oxuduğu mətni mövzu, məzmun baxımından digər mətnlərlə müqayisə edir **(st. 5-2.3.5).**
**2.** Araşdırdığı mənbələrdən əldə etdiyi bilgilər hesabına oxuduğu mətni genişləndirir **(st. 5-2.3.6).**
**3.** Mətndə açıq şəkildə ifadə olunmuş məlumatları müəyyənləşdirir **(st. 5-2.1.2).**
**4.** Verbal-qrafik informasiyanı rabitəli mətn şəklində ifadə edir **(st. 5-3.2.1).**

**Mövzuya yönəltmə**

Müəllim suallar vasitəsilə “Savadlı qadın - savadlı millət” mətnini xatırladır.

**Suallar:** *Şərqdə ilk dünyəvi qızlar məktəbi nə vaxt və kim tərəfindən açılmışdı? Nə üçün qızların təhsil almasına imkan verilmirdi? Məktəbin nizamnaməsini kim hazırladı? Məktəbin ilk direktoru kim olub? Məktəbə şagirdləri necə toplayırdılar? və s.*

**Oxuyub-qavrama**

**5-2.3.6. Tapşırıq a (dərslik).** Tapşırıqda Tağıyevin qızlar məktəbinin məzunlarının və o dövrün adamlarının xatirələri verilmişdir. Şagirdlərin diqqəti əvvəlcə “Qlossari” rubrikasına yönəldilir. Rubrikada verilmiş məlumat oxunur. Şagirdlərin nəzərinə çatdırılır ki, qeyri-bədii mətndə hər hansı fikri əsaslandırmaq üçün müxtəlif şəxslər tərəfindən yazılan xatirələrdən sitat kimi istifadə etmək olar. Məsələn, "Savadlı qadın – savadlı millət" mətnində Tağıyevdən gətirilmiş sitat “Təhsilin inkişafına qadınlardan başlamaq lazımdır” fikrini əsaslandırır. Şagirdlər həmin sitatı seçib səsləndirirlər.

Daha sonra şagirdlər növbə ilə müxtəlif insanların xatirələrini oxuyurlar. Xatirələrdən əldə etdikləri məlumatların oxuduqları mətndəki hansı fikirləri təsdiq etdiyini təhlil edirlər. Məsələn, mətndə göstərilir ki, XX əsrin əvvəllərinə qədər Azərbaycanda qızlar məktəbə getmirdilər. Müsəlman cəmiyyətində belə bir fikir var idi ki, qadınların təhsil alması İslam dininə ziddir. Məzun Səfərova da xatirələrində yazır ki, o dövrdə mən məktəbə yazılanda anamı lənətləyirdilər (lənətləmək – qarğış etmək, pisləmək).

Mətndə göstərilir ki, Tağıyev maddi imkanı olmayan şagirdlərin təhsil haqqını özü ödəyirmiş. Məzun Gövhər Usubova da öz xatirələrində bu barədə yazır: “Mənim kimi pulsuz oxuyan qızların sayı çox idi. Hətta böyük bacım da bu məktəbdə pulsuz təhsil alırdı.

Mətndə göstərilir ki, Tağıyev ruhaniləri razı salmaq üçün Şərqin din mərkəzlərinə nümayəndələr göndərir, tanınmış din xadimlərindən məktublar gətizdirirdi. Bu məlumatı xalq artisti Sidqi Ruhulla öz xatirələrində təsdiq edir və yazırdı ki, Hacı ruhaniləri öz yanına dəvət edib molla və axundlara nüfuzlu din xadimlərinin məktublarını göstərdi. Camaatı Təzəpir məscidinə yığıb açdırdığı qız məktəbinə öz övladlarını göndərməyi xahiş etdi.

**5-2.3.5.** Sonrakı mərhələdə şagirdlər xatirələrdəki məlumatlardan çıxış edərək mətnə əlavə edilə bilən yeni fikirləri müəyyən edirlər. Məsələn, həkim Şəhrəbanu Şabanova və məzun Həşimovanın xatirələrində əks olunan faktları mətnə əlavə etmək olar.

Sonda şagirdlər "Savadlı qadın – savadlı millət" mətnini xatirələrdə əks olunan məlumatlar hesabına genişləndirib nəql edə bilərlər.

İş dəftərində verilmiş tapşırıqları yerinə yetirməklə şagirdlər oxuduqları xatirələri qavradıqlarını fərdi şəkildə nümayiş etdirirlər.

**5-2.1.2. Tapşırıq a (iş dəftəri). Cavab:**

Xatirələrdə şagirdlərin qidalanma rejimi ilə bağlı məlumat yoxdur.

**Tapşırıq b (iş dəftəri). Cavab:** 1 – H; 2 – X; 3 – X; 4 – X; 5 – X; 6 – Ş.

**Yazı**

**5-3.2.1. Tapşırıq c (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin qrafik informasiyanı rabitəli mətnə çevirmək bacarığı inkişaf etdirilir. Təxminən belə yazıla bilər:

*...Şagirdlərin mütaliə vərdişlərinin artırılması üçün ayrıca kitabxana, oxu zalı, tamaşa zalı var imiş. Məktəbdə gecələyən şagirdlər valideynləri ilə xüsusi otaqda görüşürmüşlər. Bu otaq birinci mərtəbədə yerləşirdi. İkinci mərtəbədə isə yeməkxana, mətbəx, şagirdlərin yataq otaqları, müəllim və direktorun otaqları var idi. Məktəbin həyatində xəstəxana, hamam, camaşırxana, anbar fəaliyyət göstərirdi. Bu isə onu göstərirdi ki, şagirdlərin gigiyenasına, sağlamlığına xüsusi diqqət ayrılırdı.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Araşdırdığı mənbələr əsasında mətndəki məlumatın həqiqətəuyğun olub-olmadığını müəyyən edir. | Tap. **a** (D.) |
| Araşdırdığı mənbələrdən əldə etdiyi bilgilər hesabına mətni zənginləşdirir. | Tap. **a** (D.) |
| Mətndə öz əksini tapan (tapmayan) fikirləri müəyyənləşdirir. | Tap. **a**, **b** (İ.D.) |
| Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir. | Tap. **c** (İ.D.) |

## 3-cü dərs. Mövzu ilə bağlı essenin yazılması

- Dərslik: səh. 99

**Təlim məqsədləri**

**1.** Fakt, hadisə və fikirləri mətnin abzas və hissələri üzrə strukturlaşdırır **(st. 5-3.1.1).**

**Mövzuya yönəltmə**

Müəllim soruşur:

*– Azərbaycanın hansı maarifçi ziyalılarını tanıyırsınız? Onların fəaliyyəti haqqında nə bilirsiniz?*

**Yazı**

**5-3.1.1. Tapşırıq a (dərslik).** Şagirdlər maarifçi ziyalılara aid aforizmləri oxuyur və izah edirlər. Daha sonra "Qızların təhsil alması vacibdir" mövzusu üzrə şifahi müzakirə aparılır.

Müəllim şagirdlərdən mühakimə xarakterli essenin struktur xüsusiyyətlərini soruşub sinfin səviyyəsindən asılı olaraq müvafiq tövsiyələr verə bilər:

– Giriş hissədə elmin, təhsilin həyatımızdakı rolu haqqında ümumi məlumat verin.

– Əsas hissədə "Qızların təhsil alması vacibdir" mühakiməsini irəli sürün və tapşırıqda verilmiş görkəmli şəxsiyyətlərdən sitatlar gətirərək əsaslandırın.

– Sonluq hissədə fikirlərinizi ümumiləşdirib, gəldiyiniz nəticəni bildirin.

**Müəllimin nəzərinə!** Şagirdlərin mətn yazarkən bütün sitatlardan istifadə etməsi vacib deyil. Bunu şagirdlərin diqqətinə çatdırmaq tövsiyə olunur.

**Mətn təxminən belə qurula bilər:**

*Təhsil almaq hər kəs üçün vacibdir. Çünki təhsilli adamın gələcəyi parlaq olur. Başqalarından ağlına, zəkasına görə fərqlənir və cəmiyyətdə sayılıb-seçilir, hörmət sahibinə çevrilir. Ətrafdakılar üçün örnək olur.*

*Təhsilli insanların sayı çox olarsa, millət, xalq inkişaf edər. Görkəmli maarifçi Mirzə Fətəli Axundov deyib: "Elmin faydası o zaman olur ki, bütün camaat qadınlı-kişili elm oxumuş olsun".*

*XX əsrin əvvəllərinə qədər Azərbaycanda qızlar məktəbə getmirdilər. Ona görə də əhali arasında savadlı insanların sayı çox az idi. O vaxt maarifçilər qərara gəldilər ki, xalqın savadlanması işinə qızlardan başlamaq lazımdır. Hacı Zeynalabdin Tağıyev deyirdi: "Bir oğlan təhsil alarsa, bu yalnız savadlı bir insanın olması deməkdir. Bir qızın təhsil alması isə gələcəkdə həm savadlı qadın, həm də dünyagörüşlü bir ana deməkdir." Qızlar gələcəkdə ana kimi savadlı övladlar, vətənə, millətə xeyirli vətəndaşlar yetişdirə bilərlər.*

*Görkəmli maarifçi Həsən bəy Zərdabinin belə bir fikri var: "Hər bir xalqın xoşbəxtliyi və ya bədbəxtliyi, uşaqların tərbiyəsinin necə qoyulmasından asılıdır". Cəlil Məmmədquluzadə isə deyirdi: "Hər kəs öz millətini sevirsə, onun parlaq*

*gələcəyini arzu edirsə, o, qadınların təlim və tərbiyəsinə çalışmalıdır".*

*Göründüyü kimi, qızların təhsil alması xalqın, millətin gələcəyi üçün vacibdir.*

Yazı fəaliyyətini bitirdikdən sonra hər kəs öz yazısını bir daha oxuyur, mətnin strukturu üzrə müvafiq düzəlişlər aparır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fakt, hadisə və fikirləri mətnin abzas və hissələri üzrə strukturlaşdırır. | Tap. **a** (D.) |

## 4-cü dərs. Cümlə üzvləri. Baş üzvlər

• Dərslik: səh. 100 • İş dəftəri: səh. 65

**Təlim məqsədləri**

**1.** Baş üzvləri ikinci dərəcəli cümlə üzvlərindən fərqləndirir **(st. 5-4.2.4).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər cümlədəki sözlərin sualını müəyyənləşdirməklə anlayırlar ki, cümlədəki hər bir söz cümlənin bir üzvüdür və cümlədə iştirak edən hər bir üzv müəyyən bir informasiya ifadə edir:

Axşam (nə zaman?) şagirdlər (kim?) zalda (harada?) direktoru (kimi?) xeyli (nə qədər?) gözlədilər (nə etdilər?).

Daha sonra cümlənin əsasını təşkil edən sözlər (şagirdlər gözlədilər) saxlanılır və digərləri ixtisar edilir. Bununla da şagirdlərin diqqəti cümlənin qrammatik əsası olan baş üzvlərə yönəldilir.

**Dil qaydaları**

**5-4.2.4. "Yadda saxla" rubrikası.** Rubrikada verilmiş nəzəri məlumat şagirdlərə mənimsədilir.

**Tapşırıq b (dərslik).** Cümlə baş üzvlərdən ibarətdir: Usta işlədi.

Şagirdlər verilmiş sualları uyğun sözlərlə əvəz etməklə cümləni genişləndirirlər. Məqsəd baş üzvlərin rolunu şagirdlərə anlatmaqdır. Cümlədə "gənc" sözü mübtədaya (usta), digər sözlər (dünən, həyətdə, xeyli) isə xəbərə (işlədi) aiddir.

**Tapşırıq c (dərslik).** Məqsəd şagirdlərin cümlənin qrammatik əsasını müəyyənləşdirmə bacarığını inkişaf etdirməkdir.

**Cavab:** 1. Oxumaq (nə?) vacibdir (nədir?).
2. Havalar (nə?) istiləşir (nə edir?).
3. Dayımgil (kim?) köçdü (nə etdi?).
4. Zərifə (kim?) qayıtdı (nə etdi?).
5. O (kim?) düşdü (nə etdi?).
6. Yazıçı (kim?) salamladı (nə etdi?).

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər cümlələrdə baş üzvləri müəyyənləşdirib onların ifadə vasitəsini yazırlar. Məqsəd nitq hissələri ilə cümlə üzvlərinin ayrı-ayrı anlayışlar olmasını şagirdlərin diqqətinə çatdırmaqdır. Şagirdlər tapşırığı yerinə yetirməklə hər bir nitq hissəsinin cümlədə müəyyən üzv rolunda çıxış etdiyini görəcəklər.

Çimərlikdə adam (müb., isim) çoxdur (xəb., say).

Yaxınlıqdakı məktəb (müb., isim) təmirlidir (xəb., sifət).

Sevinən (müb., feili sifət) mənim dostum Aylindir (xəb., isim).

Avtobus (müb., isim) dayanacağa yaxınlaşır (xəb., feil).

Nərgiz (müb., isim) iki gün sonra gələcək (xəb., feil).

**Tapşırıq b (iş dəftəri). Cavab:**

Şamil (kim?) bayaq məktəbdən qayıdırdı (nə edirdi?).

2. Bu il məhsul (nə?) keçən ilə nisbətən çoxdur (nə qədərdir?).
3. Bu top (nə?) daha böyükdür (necədir?).
4. Hamı (kim?) təəccüblə bir-birinə baxırdı.

**Tapşırıq c (iş dəftəri). Cavab:** 3-cü cümlədə mübtəda "biz" deyil, Gülay sözü, 5-ci cümlədə isə xəbər "baxaraq" deyil, "gülümsədi" sözüdür. Çünki mübtəda xəbərlə həm də qrammatik cəhətdən bağlı olmalıdır. Cümlənin qrammatik əsası "Biz yatmışdı" deyil, "Gülay yatmışdı" olmalıdır.

**Tapşırıq ç (iş dəftəri).** Şagirdlər tapşırığı yerinə yetirməklə mövzu üzrə biliklərini daha dərindən mənimsəyirlər.

1. Fincandakı su soyuqdur. (*hökm*)
2. Qonaqlar gecə bizdə qaldılar. (*hərəkət*)
3. Biz yeməkxanada qutab yedik. (*hərəkət*)
4. Bizim səbətimiz meyvə ilə doludur. (*hökm*)

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı me-

yar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Baş üzvləri ikinci dərəcəli cümlə üzvlərdən fərqləndirir. | Tap. **b**, **c** (D.), tap. **b**, **c** (İ.D.) |
| Cümlə üzvlərinin ifadə etdiyi nitq hissəsini müəyyən edir. | Tap. **a** (İ.D.) |
| Xəbərin hökm və ya hərəkət bildirdiyini müəyyənləşdirir. | Tap. **ç** (İ.D.) |

## 5-ci dərs. İkinci dərəcəli cümlə üzvləri

• Dərslik: səh. 100-101 • İş dəftəri: səh. 66

**Təlim məqsədləri**

**1.** Cümlələrdə ikinci dərəcəli üzvləri fərqləndirir **(st. 5-4.2.4).**

**2.** Söz birləşməsi ilə ifadə olunan cümlə üzvlərini müəyyənləşdirir **(st. 5-4.2.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Müəllim tapşırıq vasitəsilə şagirdlərin diqqətini cümlədəki sözlərin çox vaxt baş üzvləri aydınlaşdırıb izah etdiyinə yönəldir. Şagirdlər 1-ci cümlədə “elmi-fantastik” sözünün mübtədanı (kitablar), 2-ci cümlədə “dünən”, “məktəbdə”, “yazıçı ilə” sözlərinin isə xəbəri (görüşdük) izah edib aydınlaşdırdığını müəyyənləşdirirlər.

**Dil qaydaları**

**5-4.2.4. Tapşırıq b (dərslik).** Cümlələrin qrammatik əsasını tapırlar. Daha sonra ikinci dərəcəli üzvləri müəyyənləşdirirlər.

1. Qonşumuz (hansı?) Toğrul yaxşı (necə?) idmançıdır.
2. Sahildə (harada?) sərin (necə?) külək əsirdi.
3. Qəzetdəki (hansı?) məqalə maraqlıdır.
4. Yaxınlıqdakı (hansı?) meşədə (harada?) vəhşi (necə?) heyvanlar olur.

**Tapşırıq c (dərslik).** Şagirdlər tapşırığı yerinə yetirməklə ikinci dərəcəli üzvlərin cümlədə rolunu (cümlədəki fikri genişləndirir, fikri daha ətraflı çatdırır) aydınlaşdırırlar.

1. Qonaqlar **evə gecə** gəldilər.
2. **Nəhəng** gəmi **sahildə** dayandı.
3. **Cəsur** dənizçilər **fırtınadan** qorxmurlar.
4. Gülnar **dostunu dünən** çağırdı.

**5-4.2.3. Tapşırıq ç (dərslik). Cavab:**

1. O, Rasimin nənəsinə (kimə?) tez-tez baş çəkərdi.
2. Görüşdə qrupumuzun təqdimatı (nə?) bəyənildi.

**Tapşırıq d (dərslik).** Şagirdlər söz birləşməsi ilə ifadə olunan cümlə üzvlərini müəyyən edirlər.

**Cavab:** 1. Ağacın budaqları əyilmişdi.
2. Elxan fotoaparatın düyməsini basdı.
3. Bulağın yanında söyüd ağacı bitmişdi.
4. Yarpaqların arasında üzüm salxımları görünürdü.
5. Nənə gecə-gündüz fikir çəkirdi.

**Tapşırıq a (iş dəftəri). Cavab:**
1. nə vaxt?, kimə?, nəyi?, hansı?
2. necə?, neçə?, harada?

**Tapşırıq b (iş dəftəri). Cavab:**
1. Atam dünən bizi teatra aparmışdı.
2. Yaxınlıqdakı mağaza xeyli böyükdür.
3. Uşaqlar bazar günü parkda çox oynadılar.
4. Ramiz müəllim tapşırığı çətin olduğu üçün başa saldı.

**Tapşırıq c (iş dəftəri). Cavab:**
1. Günəş buludların arxasında gizləndi.
3. Şəkil çəkəndə karandaşım sındı.
4. Kolun qol-budaqları zoğal ağacına dolaşmışdı.
5. Eldar həyətdə oynayarkən futbol topunu itirmişdi.

**Tapşırıq ç (iş dəftəri).** Şagirdlər tapşırığı yerinə yetirməklə mövzu üzrə biliklərini daha dərindən mənimsəyirlər.

**Cavab:**

ç variantındakı cümlədə “ruhdan düşən” frazeoloji birləşməsi “hansı?” sualına cavab verən ikinci dərəcəli üzvdür.

ç. Ruhdan düşən iştirakçılara şad xəbər verildi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|

| | |
|---|---|
| Cümlələrdə ikinci dərəcəli üzvləri fərqləndirir. | Tap. **b**, **c** (D.), tap. **a**, **b** (İ.D.) |
| Söz birləşməsi ilə ifadə olunan cümlə üzvlərini müəyyənləşdirir. | Tap. **ç**, **d** (D.), tap. **c**, **ç** (İ.D.) |

# 4-cü fəsil

## 1-ci dərs. Cığır açan qadınlar

• Dərslik: səh. 102-103 • İş dəftəri: səh. 67

**Təlim məqsədləri**

**1.** Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir **(st. 5-2.3.3).**

**2.** Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır **(st. 5-1.2.2).**

**3.** Mətndəki faktları müqayisə etməklə gəldiyi nəticələri əsaslandırır **(st. 5-2.3.2).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlər 4-cü sinifdə divar qəzeti üzrə bilik və bacarığa yiyələniblər. Müəllim onların diqqətini dərsin mövzusuna yönəltmək üçün şagirdlərin indiyə qədər müxtəlif mövzularda hazırladıqları divar qəzetləri barədə sorğu-sual edir.

### Oxu. Söz ehtiyatı

**5-2.3.3. Divar qəzeti.** Şagirdlər əvvəlcə divar qəzetinin strukturuna nəzər salırlar. Qəzetin baş məqaləsi oxunur. Məqalədə Azərbaycanın görkəmli ziyalılarından olan Firudin bəy Köçərli və Badisəba xanım haqqında məlumat verilmişdir. Məqalənin məzmunu ilə bağlı müəllim faktoloji suallar verə bilər:

*Badisəba Köçərli kim olub? Azərbaycanda ilk uşaq evi harada yaradılıb? Badisəba xanım nə üçün uşaq evi yaratmaq qərarına gəldi?*

Divar qəzetinin oxunması zamanı şagirdlər tanış olmayan sözləri qeyd edir və oxu bitdikdən sonra "Söz boğçası" və digər sözlər üzərində iş aparılır. Şagirdlər kontekstdən çıxış edərək tanış olmayan söz və ifadələrin təxmini mənasını söyləyirlər. Daha sonra müəllimin və ya izahlı lüğətin köməyilə (dərsliyin sonunda "Söz boğçası"na salınmış sözlərin izahı verilmişdir) həmin söz və ifadələrin mənası dəqiqləşdirilir.

**Tapşırıq b (dərslik).** Şagirdlər divar qəzetinin strukturu ilə bağlı sualları cavablandırırlar. Rubrika adlarının məzmuna müvafiq seçildiyini əsas-

landırırlar.

**Danışma**

**5-1.2.2. Tapşırıq c (dərslik).** Şagirdlər bu suala təxminən belə cavab verə bilərlər:

– *Real şəxsiyyətlərin həyatını əks etdirən kitablar bizə çalışqan, əzmkar, mübariz olmağı, çətinliklərdən, maneələrdən qorxmamağı öyrədir.*

**Tapşırıq ç (dərslik).** Şagirdlər "Poeziya dəqiqələri" rubrikasında verilmiş şeirdə bənzətmələri seçirlər:

– *Şair ana qəlbini dünyanın paytaxtına, ana laylasını isə dünyanın ilk himninə, ananı cahana nur saçan Günəşə, dünyanın ən uca zirvəsi sayılan Everestə bənzədir.*

Şagirdlər Sara xatunu örnək gətirərək "Silərlər cahandan kədəri, yası" misrasını əsaslandıra bilərlər. Belə ki, Sara xatun müharibənin qarşısını almaq üçün sülh yaratmağa nail olur.

Bundan əlavə müəllim ananın ailədə mövqeyini vurğulamaqla şagirdlərin öz analarının timsalında bu misranı şərh etməsinə kömək edə bilər.

**Oxuyub-qavrama**

**5-2.3.2. Tapşırıq a (iş dəftəri).** Şagirdlər verilmiş mətni oxuyur, yeni məlumatların altından xətt çəkməklə qeyd götürürlər.

**Tapşırıq b (iş dəftəri).** Badisəba xanım haqqında əldə olunan məlumatlardan çıxış etməklə verilmiş fikirləri əsaslandırırlar.

**Cavab:**

1. Uşaq evinin yaradıcısı olub, 24 il direktor xidməti göstərib.
2. 6 il Şəki şəhəri üzrə deputat olub.

**Tapşırıq c (iş dəftəri).** Divar qəzetində bir sıra dünya ölkələrində Analar Gününün qeyd olunması barədə məlumat verilmişdir. Hər il ölkəmizdə qeyd olunan 8 Mart Beynəlxalq Qadınlar Gününün keçirilməsini xatırlayıb bu barədə yaza bilərlər:

*8 Mart Beynəlxalq Qadınlar Günü bayram kimi hər il müxtəlif dünya dövlətlərində, eləcə də respublikamızda təntənəli şəkildə qeyd olunur.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Divar qəzetini mövzu, məzmun və strukturuna görə təhlil edir. | Tap. **a**, **b** (D.) |
| Müzakirələrdə səslənən fikirlərlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır | Tap. **c**, **ç** (D.), |
| Mətndəki faktları müqayisə etməklə gəldiyi nəticələri əsaslandırır. | Tap. **b**, **c** (İ.D.) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərs üçün şagirdlərə Leyla Məmmədbəyova, Ağabacı Rzayeva, Şövkət Məmmədova və Qəmər Almaszadə barədə araşdırma aparmaq tapşırılır.

Növbəti dərsdə nümayiş etdirmək məqsədilə Leyla Məmmədbəyova, Ağabacı Rzayeva, Şövkət Məmmədova və Qəmər Almaszadə barədə videoçarxlar və ya şəkillər əldə etmək tövsiyə olunur.

## 2-ci dərs. Mövzu üzrə şifahi təqdimat

• Dərslik: səh. 103 • İş dəftəri: səh. 68

**Təlim məqsədləri**

**1.** Mövzu üzrə apardığı araşdırma əsasında hazırladığı təqdimat materialını rabitəli şəkildə təqdim edir **(st. 5-1.3.2).**

**2.** Məlumat vərəqində araşdırdığı məlumatları açar sözlər və cümlələr şəklində qeyd edir **(st. 5-3.2.4).**

**Mövzuya yönəltmə**

Müəllim Leyla Məmmədbəyova, Ağabacı Rzayeva, Şövkət Məmmədova və Qəmər Almaszadə barədə videoçarxlar və ya şəkillər nümayiş etdirə bilər.

**Danışma**

**5-1.3.2. Tapşırıq a (dərslik).** Şagirdlər qruplara bölünür. Hər qrupa bir şəxsiyyət haqqında araşdırma aparmaq tapşırılır.

Qrup üzvləri müxtəlif mənbələrdən əldə etdiyi bilgiləri birlikdə müzakirə edib şifahi təqdimata hazrlaşırlar.

Araşdırma materialları əsasında hazırlanmış təqdimatların məzmunu təxminən aşağıdakı kimi ola bilər:

***Leyla Məmmədbəyova*** *kiçik yaşlarından göylərdən dünyanı izləməyi xəyal edirmiş. O gənc yaşlarında arzularını gerçəkləşdirmək üçün aero-*

*kluba yazılır və təyyarə modellərində uçmağı öyrənir. O dövrdə təyyarə sükanı arxasında qadın görmək hamını təəccübləndirirmiş.*

*Bir gün Leyla Məmmədbəyova təyyarəsində uçarkən külək çadrasını aparır. Leyla əvvəl çəkinsə də, sonradan çadrasız gəzməyə qərar verir. Bakı əhalisi bunu bəyənməyib, onun təyyarəni idarə etməsinə mane olurlar. Amma o, mübarizliyi sayəsində yenidən səmalara qayıda bilir. Aerodromda təyyarəsindən paraşüt ilə tullanaraq ilk azərbaycanlı qadın paraşütçü kimi adını tarixə yazdırır. O, aviasiyadakı fəaliyyəti ərzində yüzlərlə desantçı və minlərlə paraşütçü yetişdirir.*

***Ağabacı Rzayeva** Azərbaycanın ilk qadın bəstəkarıdır. O, musiqiçi ailəsində böyüyüb.*

*Ağabacı Rzayeva Bakıda orta məktəbi bitirib Pedaqoji Texnikumda oxuyub. Həmin dövrdə Bakıda qadınlar çadra örtürmüşlər. Hökumətin qərarı ilə qadınlar məktəbə çadrasız getməli olur. Amma köhnəfikirli camaat arasına çadrasız çıxmaq böyük cəsarət istəyirdi. Belə bir dövrdə atası ona dəstək olub deyir ki, “sən çadranı atıb diplomunu almalısan”.*

*Beləliklə, Ağabacı Rzayeva diplomunu alıb müəllimlik həyatına başlayır.*

*Bir axşam atası qızlarına söyləyir: “Üzeyir bəy konservatoriyada xalq musiqisi kursu açıb. Amma qız tələbəsi yoxdur. Məndən xahiş etdi ki, sizi onun yanına aparım”.*

*Ağabacı və bacısı Rüqəyya Üzeyir bəyin yanına gedirlər. Altı il Üzeyir bəydən dərs alıb orkestrdə çalışmağa başlayırlar. Ağabacı tarda, Rüqəyya isə kamançada çalırmış.*

*O, ilk əsərini – “Gənc vətənpərvərlər” marşını yazıb, orkestrdə çalır. Amma utandığından öz marşını Üzeyir bəydən gizlədir. Üzeyir bəy bundan xəbər tutub deyir: “Sən ki əsl bəstəkarsan”.*

*Bundan sonra Ağabacı xanım ondan bəstəkarlıq dərsi alır. 1938-ci ildə Ağabacının “Marş”ı Moskvada uğurla səslənir. Üzeyir bəy tamaşaçıların gurultulu alqışlarının ardınca deyir: “Sən sübut etdin ki, qadın da bəstəkar ola bilər”.*

***Şövkət Məmmədova** hələ uşaq ikən kiçik nəğmələr bəstələyər, öz gözəl səsi ilə hamını valeh edərmiş.*

*Onun ən böyük arzusu İtaliyada təhsil almaq olsa da, bunun üçün yetərli qədər vəsaiti yox idi. Şövkətin istedadını görən Hacı Zeynalabdin Tağıyev onun İtaliyaya yola düşməsinə kömək edir. O, İtaliyada təhsil alıb opera sənətinin incəliklərini öyrənir.*

*Şövkət Məmmədova Bakıya qayıtdıqdan sonra Üzeyir Hacıbəyovun dəstəyi ilə ilk azərbaycanlı qadın müğənni olaraq teatr səhnəsinə çıxır. İnsanlar Şövkətin səsinə valeh olurlar. Lakin örtüksüz gəzən qızın səhnəyə çıxması bir qrup adamın qəzəbinə səbəb olur. Şövkətin çıxışını təşkil edən yaradıcılıq qrupuna xəbər çatır ki, onun səhnədə görünməsi həyatını təhlükə altına sala bilər. Teatrın arxa qapısından qaçmalı olan Şövkət elə həmin gün qatarla Tiflisə yola düşür. Bu həyəcanlı hadisə onu Bakıdan bir müddət uzaq salır. Amma gənc müğənni ruhdan düşmür: yarımçıq qalmış təhsilini davam etdirir və yenidən Bakıya qayıdır.*

*Onun təşəbbüsü ilə istedadı olan gənclərin də musiqi təhsili alması üçün indiki Mədəniyyət və İncəsənət Universiteti yaradılır.*

***Qəmər Almaszadənin** uşaqlıqdan rəqslərə böyük həvəsi var imiş. O dövrdə qadınlara səhnədə çıxış etməyə icazə verilmirdi. Səhnədə qadın rollarını kişilər oynayırdı.*

*Bir gün o, anasına “nə yolla olursa olsun, mən balerina olacağam!” – deyə qətiyyətlə bildirir. Anası onun bu qərarına qarşı çıxmır. Lakin Qəmər bilirdi ki, köhnəfikirli atası onun bu qərarını bəyənməyəcək. Ona görə də o, atasına idman dərslərinə yazıldığını deyir. Çıxışlarının birində kiçik bacısının zalda uca səslə: “Baxın, bu ki bizim Qəmərdir!” söyləməsi sirrin üstünü açır. Atası qızının bu seçimi ilə razılaşmır. Lakin Qəmərə xəbər çatır ki, bir çox çıxışlarını atası zalda əyləşib, gizlincə seyr edirmiş.*

*Qəmərin fəaliyyətinə atasından da kəskin şəkildə qarşı duran cəmiyyət idi. Bu mənfi münasibət hətta bir gün özünü çox təhlükəli şəkildə büruzə verir. Bir dəfə teatrdan çıxarkən Qəmərə odlu silahdan atəş açırlar. Xoşbəxtlikdən güllə onun ayaqqabısının dabanına dəyir və Qəmər heç bir xəsarət almır. Bu hadisə onu narahat etsə də, sevdiyi sənətindən ayrı sala bilmir. Rusiyanın aparıcı balet məktəblərində təhsilini davam etdirir.*

*O, Azərbaycana qayıtdıqdan sonra milli mahnı və rəqs ansamblını yaradır. Beləcə, bütün qarşıdurmalara baxmayaraq, Qəmər Almaszadə*

*Azərbaycan balet məktəbinin yaranmasında əvəzedilməz rol oynayır: ilk milli baletlərdə əsas partiyaları ifa edir, bir sıra balet tamaşasına quruluş verir.*

### Yazı

5-3.2.4. **Tapşırıq a (iş dəftəri).** Şagirdlər divar qəzetində verilmiş məlumatlardan, həm də müxtəlif mənbələrdən əldə etdikləri bilgilər əsasında tapşırığı yerinə yetirirlər:

***Qəmər Almaszadə***

**Yaşadığı illər:** (1915 – 2006)

**Peşəsi:** baletmeyster (baletə rəhbərlik edən şəxs; rəqs müəllimi)

**Uğurları:** Azərbaycan balet məktəbinin yaranmasında böyük rolu olub.

***Şövkət Məmmədova***

**Yaşadığı illər:** (1897 – 1981)

**Peşəsi:** müğənni

**Uğurları:** Azərbaycanın ilk peşəkar müğənnisi olub. Onun təşəbbüsü ilə indiki Mədəniyyət və İncəsənət Universiteti yaradılmışdır.

***Ağabacı Rzayeva***

**Yaşadığı illər:** (1912 – 1975)

**Peşəsi:** bəstəkar

**Uğurları:** Azərbaycanın ilk peşəkar qadın bəstəkarı olub.

***Leyla Məmmədbəyova***

**Yaşadığı illər:** (1909 – 1989)

**Peşəsi:** təyyarəçi

**Uğurları:** Azərbaycanın ilk qadın pilotu və paraşütçüsü olub. Təlimçilik fəaliyyətində yüzlərlə desantçı və minlərlə paraşütçü yetişdirib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Araşdırma zamanı götürdüyü qeydlər (açar sözlər, tezislər) əsasında mövzu üzrə məruzə edir. | Tap. **a** (D.) |
| Məlumat vərəqində araşdırdığı məlumatları açar sözlər və cümlələr şəklində qeyd edir. | Tap. **a** (İ.D.) |

## 3-cü dərs. Sadə və mürəkkəb cümlələr

• Dərslik: səh. 104 • İş dəftəri: səh. 69

**Təlim məqsədləri**

**1.** Cümlələri quruluşuna görə fərqləndirir (st. 5-4.2.5).

**2.** Mürəkkəb cümlə qurur (st. 5-4.2.5).

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Müəllim şagirdlərə tapşırıqda verilmiş cümlələrdə mübtəda və xəbəri tapmağı tapşırır. Şagirdlər müəyyənləşdirirlər ki, 1-ci cümlənin iki qrammatik əsası var:

1. Mərdan bağladı, külək başlamışdı.

Bununla da şagirdlərin diqqəti mürəkkəb cümlə mövzusuna yönəldilir.

### Dil qaydaları

5-4.2.5. **"Yadda saxla" rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edərək şagirdlərə sadə və mürəkkəb cümlənin fərqi barədə məlumat verir.

**Tapşırıq b (dərslik).** Şagirdlər cümlənin qrammatik əsasını müəyyənləşdirməklə mürəkkəb cümlələri seçirlər.

**Cavab:** 2, 4.

Şagirdlər cavablarını təxminən belə şərh edə bilərlər:

1. *Leyla dərslərini oxudu, tapşırıqlarını yazdı.*

Bu cümlədə "oxudu" və "yazdı" xəbəri eyni mübtədaya Leylaya aid olduğu üçün sadə cümlədir.

2. *Məşqçi hiss etdi ki, balaca uşaqlar çox yorulub.*

Bu cümlədə isə iki xəbər (hiss etdi və yorulub), müxtəlif mübtədalara (məşqçi və uşaqlar) aiddir. Ona görə də mürəkkəb cümlədir.

5-4.2.5. **Tapşırıq c (dərslik).** Şagirdlər sadə cümlələrin məna və qrammatik cəhətdən uyğunluğunu müəyyən edib mürəkkəb cümlə yaradırlar.

1. Nəhayət, sentyabr gəldi, yay tətili başa çatdı.

2. Anam pəncərəni taybatay açdı, otağın havası xeyli dəyişdi.

3. Dünən mağaza bağlandı, təmir işləri baş-

ladı.

4. Bakıda hava birdən-birə soyudu, sulu qar yağmağa başladı.

5. Zəng səsi eşidildi, ev sahibi qapıya tərəf getdi.

**Tapşırıq ç (dərslik).** Tapşırıq şagirdlərin mövzu üzrə bilgilərini yoxlamaqla yanaşı, yaradıcı təfəkkürünü də inkişaf etdirir.

Müəlim şagirdlərə tövsiyə edə bilər ki, hərəkəti icra edən şəxslərin müxtəlif olmasına diqqət etsinlər.

1. Fərid tədbirdə pianino çalırdı, Gülay isə rəqs edirdi.

2. Biz məktubu dünən göndərmişik, amma məktub çatmayıb.

3. Babam yay tətilində məni dənizə apardı, mən çox əyləndim.

4. Bağban ağacların dibini bellədi, biz isə su tökdük.

5. Muzeyin işçiləri bizi hörmətlə qarşıladılar, biz onlardan razı qaldıq.

**5-4.2.5. Tapşırıq a (iş dəftəri). Cavab:**

1) Budaqlarda yarpaqlar pıçıldaşar, quşlar nəğmə oxuyardılar. (mürəkkəb cümlə)

2) O məni gördü, ancaq, heyif ki, məni tanımadı. (sadə cümlə)

3) Yarışın vaxtı çatdıqca uşağın həyəcanı artırdı. (sadə cümlə)

4) Mən əlimi qaldırdım, amma müəllim heç nə soruşmadı. (mürəkkəb cümlə)

5) Sabir axşama qədər dostunu gözlədi, gəlmədiyi üçün incidi. (sadə cümlə)

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər cümlələrin qrammatik əsasını müəyyən etməklə sadə cümlələri seçirlər.

**Cavab:** 2, 4, 5.

**5-4.2.5. Tapşırıq c (iş dəftəri). Cavab:**

1) Yavaş-yavaş soyuqlar düşür, payız fəsli gəlirdi.

3) Getdikcə yağış şiddətlənirdi, insanlar evlərinə tələsirdilər.

4) Xəstəxananın həyəti yamyaşıldır, bu işdə Lətifin əməyi böyükdür.

**Tapşırıq ç (iş dəftəri).** Tapşırıq mürəkkəb cümlənin mahiyyəti, iki qrammatik əsasının olması barədə şagirdlərin biliklərini möhkəmləndirir.

**Cavab:** *O çox şən və gümrah adam idi, biz də ona oxşamaq istəyirdik.*

*Sənubər şirin söhbətlər edir, dostu da ona diqqətlə qulaq asırdı.*

*Təmirdən sonra muzeydə olduq, gördüklərimiz bizi heyrətləndirdi.*

Sonuncu cümlənin qrammatik əsasını müəyyənləşdirmək şagirdlər üçün nisbətən çətin ola bilər. Bu cümlənin ilk mübtədası (Biz) buraxılıb. Amma xəbərin şəxs sonluğuna əsasən onu müəyyənləşdirmək mümkündür. Tapşırıq yerinə yetirildikdən sonra bu məqamı şagirdlərin diqqətinə çatdırmaq tövsiyə olunur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlənin quruluşuna görə növünü müəyyən edir. | Tap. a, b (D.); a, b, (İ.D.) |
| Mürəkkəb cümlə qurur. | Tap. c, ç (D.), tap. c, ç (İ.D.) |

## 4-cü dərs. Mürəkkəb cümlədə bağlayıcı və vergül

• Dərslik: səh. 105 • İş dəftəri: səh. 70

**Təlim məqsədləri**

**1.** Mürəkkəb cümlələrin komponentləri arasında vergüldən istifadə edir **(st. 5-4.3.2).**

**Mövzuya yönəltmə**

Müəllim suallar vasitəsilə şagirdlərin ötən dərsdə mürəkkəb cümlə haqqında əldə etdikləri bilgiləri xatırladır.

**Dil qaydaları**

**5-4.3.2. “Qlossari” rubrikası.** “Komponent” sözünün izahı oxunur.

**Tapşırıq a (dərslik).** Şagirdlər əvvəlcə mürəkkəb cümlənin komponentlərini müəyyənləşdirirlər:

1. Ömər getmək istəyir, amma anası onu buraxmır.

2. Ömər getmək istəyir, çünki bir azdan futbol

başlayacaq.

Şagirdlərin bağlayıcıların mürəkkəb cümlənin komponentləri arasındakı rolu barədə ilkin fikirləri təxminən belə ola bilər:

1-ci cümlədə "amma" bağlayıcısı fikirləri qarşılaşdırır, 2-ci cümlədə "çünki" bağlayıcısı səbəbi aydınlaşdırır.

**Tapşırıq b (dərslik). Cavab:**

a. Bina hazırdır, **amma** sakinlər yeni mənzillərə köçməyib. **2.** Fikirlərin qarşılaşdırıldığını bildirir.

b. Günay sürüşüb yıxıldı, **çünki** yol buz bağlamışdı. **4.** 1-ci komponentin nəticə, 2-cinin səbəb olduğunu bildirir.

c. Vasif çox kitab oxumuşdu, **ona görə də** geniş dünyagörüşü var idi. **1.** 1-ci komponentin səbəb, 2-cinin nəticə olduğunu bildirir.

d. Oyunçulara təlimat verildi **və** oyun başladı. **3.** Hadisələrin bir-birinin ardınca baş verdiyini bildirir.

**Tapşırıq c (dərslik).** Tapşırıq şagirdlərin vergül işarəsi ilə bağlı təsəvvürlərini genişləndirir. Şagirdlər bu dərsdə vergül işarəsinin həm də mürəkkəb cümlənin komponentləri arasında istifadə olunduğunu öyrənirlər. Müəllim vergül işarəsinin işlənmə yerləri barədə sorğu-sual aparmaqla şagirdlərin biliklərini (sadalanan sözlər arasında, müraciət olunan sözdən sonra) xatırlada bilər.

**Cavab:**

1. Qardaşım qarmon çalır**,** atam gur səslə oxuyurdu.
2. Çayda xeyli balıq var idi**,** amma biz əliboş qayıtdıq.
3. Dənizçilər ehtiyat edirdilər**,** çünki fırtına gözlənilirdi.
4. Nar hələ yetişməyib**,** ona görə də mən pay gətirə bilmədim.

**Tapşırıq a (iş dəftəri). Cavab:**

a. Pəncərə sındı, çünki top zərblə pəncərəyə dəymişdi.

b. Hava küləkli idi, ona görə də biz çimərliyə gedə bilmədik.

c. Konsertin başlanmasına az qalır, amma Toğrul gəlib çıxmır.

**Tapşırıq b (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin dil duyumu inkişaf etdirilir. Cümlələrin məzmunundan çıxış edərək vergül işarəsinin "və" bağlayıcısı ilə əvəz edilə bildiyi cümləni seçirlər:

**Cavab:** b. Darvaza açıldı və bir qara maşın içəri daxil oldu.

**Tapşırıq c (iş dəftəri).** Tapşırıq şagirdlərin mürəkkəb cümlənin yazılışı ilə bağlı bilik və bacarıqlarını yoxlamaq imkanı verir. Onlar mürəkkəb cümlələrin komponentlərini müəyyən edərək onlar arasında vergül qoyurlar.

1. Otağa tüstü doldu**,** çünki pəncərə açıq qalmışdı.
2. Samir tez çıxıb getdi**,** mən isə xeyli söhbət etdim.
3. İştirakçılar arasında mübahisə düşdü**,** ona görə də oyun dayandırıldı.
4. Rəşad iynəni sapladı**,** anası onun köynəyini tikdi.

**Tapşırıq ç (iş dəftəri).** Bağlayıcılardan asılı olaraq mürəkkəb cümlələr təxminən belə davam etdirilə bilər:

1. Kərim yorulmuşdu, çünki atası ona xeyli iş tapşırmışdı.
2. Kərim yorulmuşdu, ona görə də biz dənizə getmədik.
3. Kərim yorulmuşdu, amma dostları hələ də oynayırdılar.

**Tapşırıq d (iş dəftəri). Cavab:**

1. Seyran sevincindən yerə-göyə sığmırdı, çünki babası ona velosiped almışdı.

Bu cümlədə 1-ci komponent nəticə, 2-ci komponent isə səbəb bildirir.

2. Babası Seyrana velosiped almışdı, ona görə də o, sevincindən yerə-göyə sığmırdı. Bu cümlədə isə 1-ci komponent səbəb, 2-ci komponent isə nəticə bildirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb cümlələrin komponentləri arasında vergüldən istifadə edir. | Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar |

# Ümumiləşdirici təkrar

• Dərslik: səh. 106-107 • İş dəftəri: səh. 71

**Təlim məqsədləri**

**1.** Mətnin məzmunundan və əlavə bilgilərdən çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir **(st. 5-2.2.1).**
**2.** Mətndəki fakt və fikirləri müqayisə etməklə gəldiyi nəticələri əsaslandırır **(st. 5-2.3.2).**
**3.** Cümlədə söz birləşmələrini fərqləndirir və cümlədəki vəzifəsini müəyyən edir **(st. 5-4.2.3).**
**4.** Cümlədə baş və ikinci dərəcəli üzvləri fərqləndirir **(st. 5-4.2.4).**
**5.** Cümlələrin quruluşca növünü müəyyən edir **(st. 5-4.2.5).**

**Mövzuya yönəltmə**

Müəllim soruşur:

*– Bu bölmədə türk dünyasında xidmətləri olan hansı qadınlar barədə məlumat aldınız?*

**Oxuyub-qavrama**

**5-2.2.1. Tapşırıq 1 (dərslik).** Mətnin ilk abzasında Həmidə xanımdan gətirilən sitatdan aydın olur ki, o, ailənin tək övladı olmayıb.

**Tapşırıq 2 (dərslik).** Şagirdlər mətndəki hadisələr arasında səbəb və nəticə əlaqəsini müəyyənləşdirməklə mətndəki faktoloji məlumatları qavradıqlarını nümayiş etdirirlər.

1. Həmidə xanımın təlim-tərbiyəsi ilə atası evdə məşğul olurdu, çünki o dövrdə qızların məktəbdə təhsil almasına imkan verilmirdi.

2. Kəndlilər Həmidə xanımın açdığı məktəbə qızlarını göndərirdilər, çünki Həmidə xanım kənd camaatının etimadını qazanmışdı.

3. Həmidə xanım peyvənd etməyi başqalarına da öyrədirdi, çünki kənddə başqa həkim yox idi.

**5-2.3.2. Tapşırıq 3 (dərslik).** Tapşırıq şagirdlərin fikrini əsaslandırmaq bacarığını inkişaf etdirir.

Şagirdlər verilmiş fikirləri təxminən belə əsaslandıra bilərlər:

*1. Qadınları işlə təmin etmişdi.*

– Mətndə göstərilir ki, Həmidə xanım Şuşada toxuculuq emalatxanası açmışdı. Bu, Azərbaycanda qadınların çalışdığı ilk sənaye müəssisəsi idi.

*2. Öz vəsaiti hesabına kənd uşaqlarına təhsil vermişdi.*

– Mətndə göstərilir ki, Həmidə xanımın vəsaiti hesabına onlarla imkansız şəxs təhsil almışdı. O yazırdı: “Kəhrizlidə – öz kəndimizdə qızlarla oğlanların bir yerdə oxuduğu məktəb açmaq atamın vəsiyyəti idi.

*3. Kənd əhalisinin sağlamlığı üçün çalışmışdı.*

– Mətnin III abzasında göstərilir ki, çiçək xəstəliyi yayılan zaman Həmidə xanım Tiflisə gedib peyvənd etməyi öyrəndi. O, xatirələrində yazırdı: “Xeyli miqdarda peyvənd alıb kəndə qayıtdım. Öz yaxınlarıma da peyvənd eləməyi öyrədirdim ki, birdən kənddə olmasam, camaat peşman qayıtmasın”.

*4. Həmidə xanımın Qarabağda böyük nüfuzu olmuşdur.*

– Bu fikir mətnin son abzasında Həmidə xanımdan gətirilən sitatdan aydın olur. “...Kənd camaatının mənə böyük etimadı vardı, ona görə də qızlarının məktəbə gəlməsinə icazə verirdilər”.

Dərslikdə təqdim edilmiş **4-10**-cu tapşırıqlar söz birləşməsi, frazeoloji birləşmələr, cümlə üzvləri və cümlənin quruluşca növləri üzrə qazanılmış biliklərin yoxlanılmasına yönəlib.

**5-4.2.3. Tapşırıq 4 (dərslik). Cavab:** c. Mağazanın vitrini çox cəlbedici idi.

**Tapşırıq 5 (dərslik). Cavab:** a. Nailənin atası təcrübəli həkimdir.

**Tapşırıq 6 (dərslik). Cavab:** d. Şəhərdə hündürmərtəbəli binalar göz oxşayırdı.

**5-4.2.4. Tapşırıq 7 (dərslik). Cavab:** 4. Rənanın anası məktəb direktorudur.

**Tapşırıq 8 (dərslik). Cavab:**
a. Hadisə sevindirdi.
b. Musiqi eşidilirdi.
c. Onlar izləyirdilər.
ç. Gülnar götürdü.

**5-4.2.5. Tapşırıq 9 (dərslik). Cavab:** 1, 4.

**Tapşırıq 10 (dərslik).** Şagirdlər mürəkkəb cümlələri təxminən belə tamamlaya bilərlər:

1. Qalın geyinirəm, ona görə ki, hava soyuqdur.
2. Tapşırıqlar çətin idi, ona görə də anasını köməyə çağırdı.
3. Ənvər dərsə gecikdi, çünki yollar bağlı idi.
4. Günay məndən bu barədə soruşdu, lakin mən cavab vermədim.

İş dəftərindəki **1-4-cü tapşırıqlar** bölmə üzrə mənimsədilən bilik və bacarıqların yoxlanılması məqsədi daşıyır.

5-4.2.3. **Tapşırıq 1 (iş dəftəri).** Bu tapşırıq şagirdlərin həm nitq hissələri, həm də söz birləşməsi üzrə biliklərini yoxlayır.

**Cavab:**
hamıdan **böyük** (*sif.*),
musiqi **dinləmək** (*məsdər*),
yorğun **görünən** (*feili sif.*),
uşaqların **beşi** (*say*),
danışmaq **həvəsi** (*isim*)

**Tapşırıq 2 (iş dəftəri). Cavab:** b.

5-4.2.4. **Tapşırıq 3 (iş dəftəri). Cavab:**
**Baş üzvlər:** Biz apardıq.
**İkinci dərəcəli üzvlər:** dünən, qonaqları, yaxınlıqdakı, teatra.

5-4.2.5. **Tapşırıq 4 (iş dəftəri). Cavab:**
b. Buludlar seyrəldi, günəş göründü.
c. İclas bitdi, hamı Arifi dövrəyə aldı.
d. İşıqforun yaşıl işığı yandı və maşınlar hərəkətə başladı.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunundan çıxış edərək hadisə, fakt və fikirlərin səbəb və nəticəsini müəyyən edir. | Tap. **1**, **2** (D.) |
| Mətndəki fakt və fikirləri müqayisə etməklə gəldiyi nəticələri əsaslandırır. | Tap. **3** (D.) |
| Cümlədə söz birləşmələrini fərqləndirir və cümlədəki vəzifəsini müəyyən edir. | Tap. **4**, **5**, **6** (D.) **1**, **2** (İ.D.) |
| Cümlənin qrammatik əsasını müəyyən edir. | Tap. **7**, **8** (D.); **3** (İ.D.) |
| Cümlənin quruluşuna görə növünü müəyyən edir. | Tap. **9**, **10** (D.); **4** (İ.D.) |

*BURAXILIŞ MƏLUMATI*

*Ümumi təhsil müəssisələrinin 5-ci sinifləri üçün*
*Azərbaycan dili (tədris dili) fənni üzrə dərsliyin*
***metodik vəsaiti***

**Tərtibçi heyət**

| | |
|---|---|
| Müəlliflər | **Rafiq İsmayılov** |
| | **Şəhla Zahidova** |
| | **Ülkər Nurullayeva** |
| | **Aysel Xanalıyeva** |
| | **Reyhan Həbibli** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Dil-üslub redaktoru | **Dilrüba Cəfərova** |
| | **Fəridə Ziyadova** |
| Texniki redaktor | **Nərmin Həsənova** |
| Dizayner | **Səbinə Vəzirova** |
| Korrektor | **Fəridə Ziyadova** |


**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun
hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 13,5. Fiziki çap vərəqi: 15.
Səhifə sayı 216. Formatı: 57×82 1/8. Kəsimdən sonra ölçüsü: 195×275.
Şriftin adı və ölçüsü: Calibri 11.5 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Bakı – 2024.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).